**Nazim Tapdıqoğlu**
(*Vəlişov*)

# CƏBRAYIL ENSİKLOPEDİYASI

*(Görkəmli şəxsiyyətlər, toponimlər,
işğal xronologiyası, şəhidlər)*

- 15932 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – "Təknur" – 2013**

*Elmi məsləhətçi:* **Şövqi Göyçaylı** - *professor*

*Elmi redaktor:* **Fərda İmanov** - *professor*

*Rəyçi:* **Nadir Məmmədov** - *professor*

**N.T.Vəlişov.** Cəbrayıl ensiklopediyası.
Bakı, 2013, 624 səh.

Kitabda Cəbrayıl rayonunu əks etdirən toponimik məqalələr verilmiş, rayonun bütün oykonimləri (yaşayış məntəqələri - şəhər, qəsəbə, *kənd* və s.), yüzlərlə oronimləri (*dağ, təpə, qaya, qaş, tap, gədik, yal, dərə, düz, çala, qobu, bazı, burun* və s.) və hidronimləri (çay, göl, arx, bulaq, kəhriz və s.) haqqında bilgilər, onların mənşəyi, mənası, dil mənsubiyyəti barədə qısa izahlı şərhlər öz əksini tapmışdır. Kitab sadə, tarixi, publisistik və oxunaqlı bir dildə yazılmışdır. Ayrı-ayrı fəsillərdə Cəbrayıl rayonunun folkloru, tanınmış şəxsiyyətləri, görkəmli ziyalıları, uzunömürlü insanları, Çernobıl əlilləri, Əfqanıstanda beynəlmiləlçilik borcunu yerinə yetirən əsgərləri, eləcə də Qarabağ müharibəsində verdiyi bütün itkin və şəhidləri haqqında bilgilərə də geniş yer ayrılmışdır. Cəbrayıl rayonundan bəhs edən bu qiymətli universal nəşr tədqiqatçılar tərəfindən də yəqin ki, böyük maraqla qarşılanacaqdır.

"*Cəbrayıl ensiklopediyası*" adlanan bu dəyərli kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-445-28-2**

**© N.Tapdıqoğlu, 2013**



## MÜƏLLİFDƏN

**Əziz və hörmətli oxucu!** Bu dəfə "***Cəbrayıl ensiklopediyası***" adlı kitabım ilə görüşünüzə gəlmişəm. Kitabda Cəbrayıl rayonunun tarixi keçmişi, toponimləri, tanınmış şəxsiyyətləri, uzunömürlü insanları, Cernobıl əlilləri, Qarabağ şəhidləri və s. haqqında informasiya xarakterli məlumatlar öz əksini tapmışdır. Son illərdə ermənilərin işğal etdikləri Qarabağ ərazilərində, o cümlədən Cəbrayıl rayonunda coğrafi adları utanmadan, ucdantutma dəyişdirmələri, toponimik nöqteyi-nəzərdən tarixi faktları saxtalaşdırmaları ilə əlaqədar olaraq rayonun toponimlərinə xüsusilə geniş yer ayırmışam. *Toponim yaradıcılığı* xalqımız üçün əlbəttə ki, çox gərəklidir. Azərbaycanda ayrı-ayrı adamların, xüsusilə də tarixçilərin, dilçilərin, coğrafiyaçıların öz təşəbbüsləri və həvəsləri ilə bu və ya digər şəkildə toponimləri toplamaqlarını, kitab nəşr etmələrini ancaq alqışlamaq olar. Amma onu da qeyd edim ki, toplanan coğrafi adlar, onomastik vahidlər elmi, tarixi, hüquqi, coğrafi, dil, üslubiyyət baxımından qruplaşdırılaraq Dövlət səviyyəsində kütləvi nüsxə ilə nəşr olunarsa, bu, daha effektli olar.

Xalqımızın minillik yaddaşı, mifik düşüncəsi keçmişi bu günə çatdırdığına görə, bizim hər birimiz də bizə bəxş olunan tale dünyamızda belə ifadə etmək düzgündürsə, Böyük və Ulu tariximizin bir hissəsini, müəyyən parçasını yaşadırıq. Toponimçinin işinin əsas xüsusiyyəti həm də toponimləri toplayarkən müxtəlif insanlarla, ziyalılarla, ağsaqqallarla görüşməkdir. Çünki belə dəyərli, böyük, ulu insanların söhbətlərində, fikirlərində bəzən tarixi təcrübənin sınağından çıxmış ölçülü-biçili həqiqətlər də dəyərli və böyük olur. Bu mənada toponimlərin gücü keçmişimizə körpü olmalarında, tarixin bəzən dərin və qaranlıq səhifələrinə işıq salmalarındadır. Tarix uydurulmur, o, yazılır. Yazılmayan səhifələr isə zamanın diktəsinə uyğun olaraq ağılla, şüurla araşdırılır, öyrənilir, aşkar-

lanır. ***Toponim tarixi*** də belədir. Onu tədqiq edənlər də həqiqətləri üzləşdirir, tutuşdurur. Çünki, ***Tarix*** adına yazılan hər bir fikrin möhürlü arayış qədər etibarlı olması şübhəsizdir.

Respublikamızın müxtəlif coğrafi adlarına aid kifayət qədər tədqiqat və mənbələr var. Onların bir hissəsini bu kitabın ədəbiyyat siyahısına daxil etmişəm. Coğrafi adların öyrənilməsində, tədqiqində böyük xidmətləri olan alimlərimiz də çoxdur. Bu gün toponimlərin öyrənilməsinin əhəmiyyətini, gərəkliyini şərh etmək artıqdır. İndiyədək Azərbaycanın qədim sakinləri, onların etnik mənsubiyyəti haqqında çoxlu ziddiyyətli fikirlər səslənməkdədir. Bu cür müxtəlifliyin aydınlaşması üçün elmi və hüquqi söykənəcəyi olan təhlil və tədqiqatlar demək olar ki, aparılmamışdır. Əlbəttə, bu və ya digər dərəcədə müəyyən tədqiqat işləri var, amma bütün bunlar əgər belə demək mümkündürsə, şəxsi təşəbbüs müstəvisindən o yana qalxa bilmir. Təbii ki, belə tədqiqatlar Dövlət proqramı çərçivəsində, necə deyərlər, dövlətin qayğısı, köməyi ilə aparılmalıdır. Məsələn, sübut olunmuşdur ki, miladdan öncə II minilliyin ortalarında Qafqazdakı, o cümlədən Azərbaycandakı dəfn mərasimləri, müxtəlif qəbir əşyaları qədim Mesopotomiya mədəniyyəti ilə oxşardır. Amma çox təəssüf ki, böyük əhəmiyyət kəsb edən bu kimi məsələlərə münasibətdə dövlətin əlaqədar institutları, təşkilatları nədənsə daha çox susmağa üstünlük verirlər.

Belə nümunələri çox sayda misal gətirmək olar. *Məsələn:* qədim azərbaycanlıların soykökü, adətləri haqqında danışarkən orada yaşayan oturaq, köçəri sakların-massagetlərin, skiflərin, sarmatların müxtəlif əsası olmayan ehtimallarla irandilli və s. hesab olunması, əlbəttə ki, yaramaz bir haldır. Əslində bu cür böyük əhəmiyyət kəsb edən məsələlər Dövlət Proqramına daxil edilməlidir.

Toponimlər müəyyən bir xalqın, tayfanın adından və həmin xalqın dillərindəki coğrafi obyekt ünvanlı sözlərdən ibarət olduğu üçün tarix, coğrafiya, dilçilik elmləri ilə xüsusilə sıx bağlıdır. Aydındır ki, ayrı-ayrı tayfalar xalqların yaranmasında mühüm rol oynamışlar. Ümumiyyətlə, ***etnogenez problemi*** elə mürəkkəb məsələdir ki, onun həllində təkcə müəyyən elm sahəsinə aid mənbələrə əsaslanmaq düzgün deyildir.

Coğrafi obyektlərə adın verilməsi həmişə bir qaydada olmamışdır. Hər bir toponim coğrafi adın növünü, tipini bildirən nomenklatur termindən (*dağ, dərə, çay, şəhər* və s.) xüsusi addan ibarət olur. Hər bir





xalqın milli dili, ədəbiyyatı olduğu kimi, özünəməxsus coğrafi adları da vardır. ***Toponimika*** konkret bir regionun oronimlərini, oykonimlərini, hidronimlərini tədqiq etməklə bərabər, eyni zamanda, insanlar tərəfindən mənimsənilmiş və ya mənimsənilməyən mətləbləri də öyrənir. Hər bir toponimçi tədqiq etdiyi coğrafi adların, xüsusilə qədim Azərbaycan mənşəli toponimlərin etimologiyası, tarixi və dil mənsubiyyətinin, quruluşunun öyrənilməsinə ciddi fikir verməlidir.

Respublikamızın ərazisində, müxtəlif rayonlarda yaşayan xalqlar etnik tərkib baxımından qarışıq olduğu üçün ona uyğun oronimlərin tərkibindəki terminlər də müxtəlif dillidir. Tədqiqatlar göstərir ki, türkdilli oronimlər Azərbaycan xalqının etnogenezində, formalaşmasında iştirak etmiş qədim türk tayfalarının adlarını özündə qoruyub saxlaya bilmişdir. Çoxtəbəqəli Azərbaycan oronimiyası Azərbaycan, türk, avar, ləzgi, talış, tat, ərəb, fars, kürd, saxur, rus, udin, gürcü və başqa dillərdədir. Azərbaycan ərazisində lap qədim dövrlərdən məskən salan xalqların və müxtəlif tayfaların dillərinin tarixinin öyrənilməsində oronimlərin xüsusi yeri vardır. İndiyə qədər bu və ya digər təşəbbüs və həvəslə toplanılan oronimik bilgilər respublikamızda yaşayan xalq, etnik qrup, qəbilə və tayfaların tarixinə, dillərinə, adət-ənənələrinə, təsərrüfat həyatına aid qiymətli mənbələrdir. Toponimlərin əksəriyyəti yerin landşaft komponentlərini özündə əks etdirdiyinə görə coğrafi adları coğrafiyanın açarı adlandırmaq olar. Coğrafi adların linqvistik, tarixi və coğrafi baxımdan böyük əhəmiyyəti vardır. Toponimlərin müxtəlif növləri arasında tarixi-genetik əlaqələr mövcuddur.

***Toponimika elmi*** respublikamızda cavan elm sahəsi olsa da, artıq bu sahədə bir sıra uğurlar qazanılmışdır. Coğrafi adların tədqiqi ilə məşğul olan *toponimika elmi* də ildən-ilə inkişaf edir, püxtələşir. Hər bir toponim tarixi sənəddir, keçmişdən xəbər verən bir mənbədir. Qədim mənbələri nəzərdən keçirmədən, tarixi heç olmasa müəyyən səviyyədə bilmədən hər hansı bir coğrafi adın, toponimin mənşəyi haqqında tam əhatəli, düzgün söz demək olmaz. Bu mənada toponimiyanın tərkibində tarixçilərin rolu danılmazdır, əvəzsizdir. Hər bir coğrafi adın etimologiyasının tədqiqi zamanı tarixi və linqvistik faktlar nəzərə alınmalıdır. Çox təəssüf ki, bəzən Azərbaycanımızda qədim toponimlərə həvəskar münasibəti hallarına da rast gəlirik.

Coğrafi adların tədqiqinin çox böyük əhəmiyyəti var. Ona görə ki, bu adlarda keçmişimizin – dədə-babalarımızın nəfəsi, torpağımızın, xalqımızın həm ruhu, həm də dili yaşayır. Coğrafi adları tədqiq edən ***Toponimika*** özlüyündə ***Onomastika*** elminin bir qoludur, şaxəsidir. ***Topos*** yunan sözü olub, *"relyef, yer,* ərazi, *sahə"*, ***onoma*** isə *"ad"* mənası bildirir. Əslində *"pis"* coğrafi ad yoxdur. Onlar müqəddəs sayılmalı, qətiyyən dəyişdirilməməlidir. Coğrafi adlara *"yamaq vurmaq"*, o adın mənsub olduğu xalqa, onun mənşəyinə, kökünə zərbə endirmək deməkdir. Heç bir coğrafi adı necə deyərlər, *"elə-belə"* - özbaşına dəyişmək olmaz. Əgər bu cür hallar baş vermişsə, belə mənəvi cinayətlərin qarşısı hökmən alınmalı, kökü kəsilməlidir. Yeri gəlmişkən erməni qonşularımız işğal etdikləri ərazilərdə türk toponimlərini dəyişməklə, həqiqi tarixi faktları baltalamaqla əslində tarixin əleyhinə getmişlər və bu gün də *"gedirlər"*. Əlbəttə, bunu onlara heç tarix də bağışlamaz...

Elə coğrafi adlar var ki, onların yarandığı illər məlumdur; amma elə toponimlər də var ki, onların yaşını dəqiqliklə müəyyən etmək mümkün deyildir. Əlbəttə, bu qəbildən olan toponimlərə bəzi qədim coğrafi adları da aid etmək olar. Bəzən coğrafi adları bəşəriyyətin zaman və məkan daxilində yer üzünə səpdiyi qiymətli almaz dənələrinə bənzədirlər. Bu ifadənin özündə, doğrudan da bir həqiqət vardır. Yuxarıdakı fikirlərimizi ümumiləşdirib belə deyə bilərik ki, hər bir yaşayış məntəqəsi ərazisində (*rayonlarda, kəndlərdə, şəhərlərdə, qəsəbələrdə*) olan bütün coğrafi adları toplayaraq onların keşiyində durmaq lazımdır. İnsan öz adını özü ilə ömrü boyu gəzdirdiyi kimi, əslində ana torpağa verilən coğrafi adları da özü ilə daşıyır. Valideynlərinin adı kimi doğulub boya-başa çatdığı yerdə, ərazidə olan coğrafi adlar da insan ürəyində fərəh doğurmalı, sevinc hissi, xoş əhval-ruhiyyə yaratmalıdır.

Demək olar ki, mənası olmayan coğrafi ad yoxdur. Coğrafi adları öyrənən hər bir şəxs tarix, coğrafiya, dilçilik elmlərini mükəmməl bilərsə, deməli onları yaxşı tədqiq edər. Hər bir toponimin arxasında sirli bir məna durur. Deməli, onlar adi söz ola bilməz. Toponimlər təbii ki, xalqın keçmişi, məişəti və dili ilə bağlıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, qədim Azərbaycan əhalisinin etnik tərkibi və dili haqqında əlimizdə hələlik o qədər də çox tutarlı mənbə yoxdur.

Hər bir toponimi insan yaratdığı üçün coğrafi adlar yerin yaddaşıdır desək, heç də səhv etmərik. Müəyyən zaman müddətində verilmiş bu adlar illər, əsrlər boyu lazımınca izah və tədqiq olunmalıdır, çünki, etnogenetik bilgilərin araşdırılmasında toponimikanın əvəzsiz xidməti danılmazdır. Toponimlər dünən ilə bu gün, bu gün ilə sabah arasında körpü olduğu üçün onları lazımi səviyyədə gələcək nəsillərə çatdırmaq müqəddəs borc hesab olunur. Toponimləri toplayarkən onların necə əmələ gəldiyini, dəqiq tələffüzünü, hansı kökə bağlılığını və s. öyrənmək gərəkdir. Bu mənada toponimçinin vəzifəsi toponimlərin tərkibindəki komponentləri düzgün izahlandırmaq, onların sirli mənalarını lazımi səviyyədə açmaqdır. Mən də Cəbrayıl rayonunun toponimlərini işləyib hazırlayarkən bu kriteriyaları, nüansları nəzərə almağa çalışmışam.





İnsan tarixi yaratdığı üçün tarix insanı həmişə yaşadacaqdır. İnsanları yaşadan bilmədiklərini öyrənmək həvəsidir. İnsan üçün hara gedir-getsin. ***Vətən*** yenə də Vətəndir. Vətən havası onu ürəyinə çəkənlər üçün can dərmanıdır. Vətən elə ***Vətən*** olduğu üçün gözəldir. Doğru deyirlər: *"Ömür beşikdən başlanır"*. *"Geniş yolların kökü xırda cığırlardır"* - deyənlər yanılmırlar. Hər birimiz kiçik evlərin astanasından Böyük Vətən dünyasına düşürük. Yollar bizi *"Böyük Dünyaya"* apardıqca, balaca *Vətən dünyası* yadımızdan çıxmır. Bəli, doğulduğumuz ocağı duymadan, sevmədən, öyrənmədən Böyük Vətənimizi, yurdumuzu duya, sevə, öyrənə bilmərik. Haralardasa ondan – Vətəndən yaxşı, ya da pis torpaq olub-olmamasının Vətən sevgisinə qətiyyən dəxli yoxdur. Vətəninin, xalqının, doğulduğu yurdun tarixi keçmişini bilmək, öyrənmək hər bir ***Vətən*** övladı üçün qiymətə gəlməyəcək dərəcədə böyük olan bir sərvətdir. ***Vətən*** də, ***millət*** də, ***dövlət*** də torpaqdan başlanır. Ağacın barını haradan aldığı məlumdur. İnsan, ***tarix*** isə araşdırılmalıdır; ən azı ona görə ki, onun kökləri müxtəlif istiqamətlərə gedib çıxır. Hər şeyin aydın olması üçün köklərə baxmaq lazımdır. Bu, həm də vacibdir. Biz ***Millət*** olaraq əgər yurdumuzun, Vətənimizin tarixini yaxşı öyrənməsək, bilməsək, onda gələcəkdə də hələ başımıza çox faciələr, bəlalar gələ bilər. Bilməyəndə isə susuruq; susanda da düşmənlərimiz üstümüzə ayaq alırlar.

Aydındır ki, xalqın tarixi kimi, sözün də tarixi var. Bu mənada düşünürəm ki, tarixi-toponimik araşdırmalar keçmiş və ötənlər haqqında olsa da, keçmiş üçün yox, bu gün üçün - bu günü dərk etmək və nurlu sabahlara yol açmaq üçündür. Unutmamalıyıq ki, HƏQİQƏT bütün kitablardan

böyük və ucadır. Bəzən elə olur ki, kiçicik bir sübut, balaca bir dəlil, xırda bir fakt xalqın tarixinin bütöv bir qaranlıq dövrünü işıqlandırır. Toponimlərin öyrənilməsi gərgin əmək, axtarış, zəhmət və vaxt tələb edir. ***Coğrafi adlar*** xalqın milli sərvətidir. ***Azərbaycan toponimiyası*** haqqında hərtərəfli məlumatlar əldə etmək üçün coğrafi adları inzibati bölgülər - rayonlar üzrə öyrənmək lazımdır. Bu mənada Cəbrayıl toponimiyasının tədqiqi də xüsusi əhəmiyyət və böyük maraq kəsb edir.

***Cəbrayıl rayonu*** respublikamızın mühüm coğrafi mövqeyinə, təbii sərvətlərinə, zəngin və çoxəsrlik tarixinə, əhalisinin qonaqpərvərliyinə görə tanınmış gözəl guşələrindən biridir. Tarixən Cəbrayıl mühitində tərbiyə, təhsil alaraq formalaşmış, tanınmış ziyalılar sonradan qabaqcıl Avropa və Asiya ölkələrində elmə, təhsilə yiyələnmiş, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm mövqelər tutmuş və Azərbaycan dövlətçiliyinin inkişafında müstəsna rol oynamışlar. Ümumiyyətlə, Azərbaycan ensiklopediyasında, tariximizə həsr olunmuş fundamental monoqrafiyalarda, ayrı-ayrı tədqiqatçıların araşdırmalarında ***Cəbrayıl*** rayonundan, cəbrayıllılardan dönə-dönə bəhs olunmuş, bu barədə müəyyən yaddaqalan, dəyərli fikirlər söylənmişdir.

Bu kitabda ***Cəbrayıl*** rayonunun bütün yaşayış məntəqələri, tarixi abidələri, dağları, dərələri, düzləri, təpələri, bulaqları, kəhrizləri, arxları, çayları, gölləri, tanınmış ziyalıları, görkəmli şəxsiyyətləri, Qarabağ cəbhəsində verdiyi şəhidləri haqqında qısa və dolğun məlumatlar verilmişdir. Materialların ümumiləşdirilməsi və sistemləşdirilməsi, rayonun tanınmış, qocaman sakinləri, ziyalıları ilə söhbətlərimdə əldə etdiyim müxtəlif səpkili informasiyalar nəticəsində belə bir faktlar toplusu – ***ensiklopediya*** yarandı. Hesab edirəm ki, bundan sonra da ***Cəbrayıl rayonu*** haqqında onlarla kitab yazılmalı, onun şərəfli tarixi keçmişi hərtərəfli öyrənilməli, gələcək nəsillərə yadigar saxlanılmalıdır. Bu mənada bizim nəslin də üzərinə kifayət qədər məsuliyyətli vəzifələr düşür.

*Cəbrayıl rayonu* ölkəmizə yüzlərlə tanınmış ziyalı, alim, şair, yazıçı, rəssam, siyasətçi, neftçi, həkim, mühəndis, mədəniyyət işçisi, hərbçi, idmançı, xeyriyyəçi, sənətkar, əmək bahadırı və s. bəxş etmişdir. Bu torpaq yüzillər ərzində çoxlu sayda elm, mədəniyyət, incəsənət, idman, hərb və s. sahələrdə görkəmli mütəxəssislər yetirmişdir. Cəbrayıl rayonunun adını daim yüksək tutan cəbrayıllılar yüzlərlədir. Onlar dünən də olub, bu





gün də var. Onlardan – XIII əsrdə Qarabağın Arazbar zonasında yaşayıb-yaratmış dövrünün istedadlı memarı ***Əli Məcidəddin***, XVI əsrdə yaşamış məşhur Azərbaycan aşığı, ustad sənətkar ***Aşıq Qurbani***, son orta əsrlərdə yaşayıb-yaratmış ***Aşıq Lələ*** (Nüzgər kəndi), ***Aşıq Mahmud*** (Əhmədli-Quşçular k.), ***Aşıq Şükür*** (Dağtumas k.), XVIII əsrdə yaşamış və dövrünün böyük alimi hesab olunan ***Mirzə Məhəmməd Çələbi əfəndi Maqsud Çələbi əfəndi oğlu Əhmədli***, XVIII əsrdə yaşamış böyük nüfuz sahibi ***Mir Abdulla əfəndi Mir Hüseyn əfəndi oğlu Cəbrayıllı***, ***Yaqub ağa Hacı ağa oğlu Çullu*** (1778-?), ***Hafiz Gəncəlı oğlu*** (1754-?), XVIII əsrdə (1790-cı ildə) anadan olmuş böyük alim ***Mirzə Nurəli Bəyalı oğlu Mahmudlu***, XIX əsrdə yaşamış məşhur söz ustası, şair ***Aşıq Pəri Fərzalı qızı*** (1811, Maralyan k. – ...), ustad sənətkar, şair ***Mücrüm Kərim*** (Horovlu k.), xalq arasında dildən-dilə gəzən duzlu-məzəli şeirlərin müəllifi ***Şair Bədəl*** (Horovlu k.), ***Bağban Məhəmməd***, həm ustad aşıq, həm də gözəl tarzən və qarmonçalan ***Aşıq Humay*** (1893, Daşkəsən kəndi – 1971), ***Aşıq Abdulla*** (Söyüdlü k.), ***Aşıq Surxay*** (Qalacıq k.), ***Dirili Surxay*** (Xudayarlı k.), ***Aşıq İsmayıl, Aşıq Məlik, Aşıq Məmməd, Aşıq İbiş, Aşıq Mustafa***, bir çox nağıl və dastanları əzbərdən bilən ustadlar - ***Babakişi Xankişi oğlu, Heydərqulu Səttar oğlu, Baxşəli Həmzəli oğlu***, Cəbrayıllı elindən çıxmış dövrünün böyük nüfuz sahibləri olan ***Şeyxalı ağa Vəli ağa oğlu, Əhmədxan ağa Vəli ağa oğlu, Lütvəli ağa Fuğani ağa oğlu, Mehrəli bəy Fuğani ağa oğlu, Feyzulla bəy Mehrəli bəy oğlu, Rüstəm Fuğani ağa oğlu, Maqsud ağa Fuğani ağa oğlu, Əli ağa Maqsud ağa oğlu, Məhəmməd ağa Maqsudağa oğlu yüzbaşı*** (1772-?), ***Mustafa ağa Mahmud ağa oğlu*** (1773-?), ***Qurban ağa Məhəmməd ağa oğlu (1800-?), Əhməd ağa Mustafa ağa oğlu*** (1802-?), ***Səfərəli bəy Əli ağa oğlu, Camalxan bəy Hüseyn bəy oğlu, Hüseyn bəy Camalxan bəy oğlu, Mir Hüseyn Əfəndi Mir Əli Əfəndi oğlu, Məsuməli ağa Mahmud ağa oğlu, Əhməd ağa Məsuməli ağa oğlu, Şükür bəy Hümbətəli bəy oğlu, Kazım ağa Hümbətəli bəy oğlu, Əli bəy Kazım ağa oğlu, Hacı Ağası bəy, Əbdürrəhman bəy Hacı Ağası bəy oğlu, Məlik ağa Hacı bəy oğlu, Heydər bəy Məlik ağa oğlu, Məstalı bəy Cəfər ağa oğlu, Əlipənah Sultan Hüseyn bəy oğlu, Abdulla bəy Hüseyn bəy oğlu, Əli bəy Abdulla bəy oğlu, Hüseyn bəy Əmir Yusif oğlu***, *Cəbrayıllı-Mərcanlı* obasından ***Nəbi kələntər Vəli ağa oğlu, Xanımnənə Mərcanlı-Cəbrayıllı, Məhəmmədhəsən ağa,***

***Xancan ağa, Allahverdi Yüzbaşı, Hüseyn Yüzbaşı, Hacı İsmayıl Məmməd oğlu, Abdulla Hacı Şahgəldi oğlu, İsgəndər Hacı Dərgahqulu oğlu, Təhməz Hacı oğlu, Mahmud Hacı Dünyamalı oğlu, Hacı Yusif Xəlil oğlu***, XIX əsrin ortalarında *Cəbrayıllı* elinin oymaq və oba başçıları - ***Məhərrəm katxuda Bəymurad oğlu*** *(Yarəhmədli)*, ***İsmayılxan ağa Xanməhəmməd ağa oğlu, Qəvliyalı katxuda Yusif oğlu*** *(Hasanlı)*, ***Məmmədxan katxuda Bədirxan oğlu*** *(Hacılı)*, ***Əli katxuda Vəli oğlu*** *(Maşanlı)*, ***Bəyalı Xələf oğlu, İmamverdi katxuda*** *(Eyvatlı)*, ***Cəfər katxuda Bəymurad oğlu*** *(Balyand)*, ***Məmməd katxuda Rəsul oğlu*** *(Çərəkən)*, ***Səid Ağaməmməd oğlu, Məmməd katxuda Rəhim oğlu*** *(Mirəkli)*, ***Bayramalı katxuda Muradhasil oğlu*** *(Veysəlli)*, ***Əliməmməd katxuda Bayraməli oğlu*** *(Veysəlli)*, ***Niftalı katxuda Seyidalı oğlu*** *(Mirzəcanlı)*, ***Məhəmməd katxuda, Əhmədxan Məmmədxan oğlu*** *(Fuğanlı)*, ***Dədə katxuda Məmmədyar oğlu*** *(Cəfərabad)*, ***Allahverdi katxuda Vəli oğlu*** (Çocuq Mərcanlı), ***Kərim bəy Məşədi Ağası bəy oğlu*** *(Maralyan)*, ***Hüseyn yüzbaşı Allahverdi yüzbaşı oğlu*** *(Mərcanlı)*, ***Əli katxuda Hümbətəli oğlu*** *(Mahmudlu)*, ***Məşədi Niftalı Mövlaqulu oğlu*** *(Çaxırlı)*, ***Məmməd katxuda Rəsul oğlu*** *(Çərəkənli)*, ***Mikayıl Sultan Həsən ağa oğlu*** *(Dağtumas)*, ***Əbdürrəhman katxuda Rüstəm oğlu*** *(Məzrəli)*, ***Kovxa Alı Mədət oğlu Bəydili, Qılıc katxuda, Rəhim katxuda Qılıc oğlu*** *(Alıkovxalı)*, ***İmamverdi katxuda*** *(Hərəkül)*, ***Məmmədxan katxuda Bəbirxan oğlu*** *(Hacılı)*, ***Ağayar katxuda Vəli oğlu*** *(Horovlu)*, ***Mehdiqulu yüzbaşı Əziz oğlu*** *(Hovuslu)*, ***Abdulla yüzbaşı Hacı yüzbaşı oğlu*** *(Çullu)*, ***Allahqulu yüzbaşı Rəhim oğlu*** *(Mehdili)*, ***Əhməd bəy*** *(Əhmədli)*, ***Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu*** *(Əhmədli-2)*, ***Qurban yüzbaşı Məmməd ağa oğlu*** *(Əhmədli-1)*, ***Feyzulla bəy Mehralı ağa oğlu, Həsənəli katxuda Nağı oğlu*** *(Feyzullabəyli-Minbaşılı)*, ***Mehrəli ağa Fuğani ağa oğlu*** *(Mehralıbəyli-Minbaşılı)*, ***Səlimxan katxuda Məmməd oğlu*** *(Cəfərağalı-Məstalıbəyli)*, ***Hüseyn Məşədi Məmməd oğlu*** və ***Mirzə katxuda Seyidəli oğlu*** *(Hüseynbəyli-Qovşutlu)*, ***Xudaverdi katxuda Vəli oğlu*** *(Karxulu (Səfərşə, Mollalı, Çapand))*, ***Şıxəli (Şeyxəli) ağa Vəli ağa oğlu, Nəbi ağa Şeyxəli ağa oğlu, II Şıxəli ağa Nəbi ağa oğlu Cəbrayıllı, Fatimə xanım Cəbrayıllı, Qəhrəman katxuda Əlicəfər oğlu*** (Şıxəliağalı), ***Mir Əli əfəndi Mir Hüseyn əfəndi oğlu*** *(Əfəndilər)*, ***Əmirmahmud ağa Məsuməli yüzbaşı oğlu*** *(Əhmədağalı)*, ***Musa katxuda Allahverdi oğlu*** *(Alıbəyli-Kazımağalı-Kavdar)*, ***Yusif katxuda Xəlil katxuda***





***oğlu*** *(Qaracallı)*, ***Haqverdi katxuda Seyid yüzbaşı oğlu*** *(Quycaq)*, ***Məlik ağa Heydər bəy oğlu*** *(Məlikli)*, ***Vəli katxuda Qadirqulu oğlu*** *(Nüzgar)*, ***Bafadar katxuda Tanrıverdi oğlu*** *(Şəfibəyli, Şəybəy)*, ***Səfi bəy Şıxlar, Sarıkişi bəy Səfi bəy oğlu*** (1782-1857), ***İbrahim bəy Səfi bəy oğlu*** *(Şıxlar)*, ***Hüseyn katxuda Bürcəli oğlu*** *(Şükürbəyli)*, ***Məmmədəli Kələntər oğlu*** *(Sarıcalı)*, ***Məşədi Əli katxuda Kərbəlayi Əlihüseyn oğlu*** *(Soltanlı)*, ***Mahmud yüzbaşı Ağaməmməd oğlu*** *(Sirik)*, ***Əli yüzbaşı Molla Qasım oğlu*** *(Süleymanlı)*, ***Hacı Ağası bəy Təpəsər bəy oğlu Cəbrayıllı, Əbdürrəhman bəy Hacı Ağası bəy oğlu, Əbdüləzim bəy Əbdürrəhman bəy oğlu, Fətəli bəy Əbdürrəhman bəy oğlu, Əlipənah bəy Hüseyn bəy oğlu, Hüseyn yüzbaşı Məmməd oğlu*** *(Əbdürrəhmanlı)*, ***Əbdürrəhman katxuda Rüstəm oğlu Məzrəli*** (Bukavullu), məşhur yüzbaşı ***Dünyamalı Hacıyev, Məhəmmədhəsən ağa İbrahimxəlil xan oğlu Sarıcalı***-Cavanşirin yanında xidmət etmiş ziyalı, xəttat ***Mirzə Mehdi Mirzə Nağı oğlu Qarabaği***, dövrünün təhsil görmüş ziyalısı, Qarabağ atlı alayının medallı süvarisi, kəndxuda ***Mirzə Məhəmməd bəy Dizaği***, *Cəbrayıllı* tayfasının XVIII əsrin sonu və XIX əsrin birinci yarısında yaşamış nüfuzlu ağsaqqalları – ***Mahmud ağa, Lütvəli ağa***, XVIII əsrin sonu və XIX əsrin birinci yarısında yaşamış cəsarətli vətənpərvər ***Muradxan bəy Maralyanlı*** *(o, 18 oktyabr 1812-ci il tarixdə baş verən Aslandüz döyüşündə də iştirak etmişdir)*, Şuşa şəhər qəza idarəsinin məmuru, ziyalı, xəttat ***Mirzə Şəfi bəy Məlik Həsən bəy oğlu Sultanov***, dövlət məmuru, oba yüzbaşısı ***Hacı Mirzə Ağahüseyn bəy Cəbrayıl bəy oğlu Səfibəyov, Nəzərəli bəy Lütvəli Minbaşı oğlu Feyzullabəyli*** (1805-1862), Qarabağın böyük mülkədarlarından biri, 4-cü dərəcəli *"Müqəddəs Anna"* ordeni və qılınc ilə təltif edilmiş ***Camalxan bəy Hüseyn bəy oğlu Hüseynbəyli*** (1808-1864), Cəbrayıl qəzasının nüfuzlu məmuru, dövrünün tanınmış təhsilli ziyalısı, xəttat, hüquqşünas ***Mirzə Əbdürrəzzaq bəy Hacı Mirzə İbrahim bəy oğlu Teymurazbəyov***, XIX əsrdə yaşamış kollej qeydiyyatçısı, quberniya katibi, kargüzar ***Ələsgər bəy Əli bəy oğlu Teymurazbəyov***, XIX əsrin 50-60-cı illərində ticarət ilə məşğul olmuş ***Məşədi Qurban, Kərbəlayi İbrahimxəlil, Kərbəlayi Hüseynalı*** *(onlar Şuşadan, Tiflisdən, Bakıdan, İrandan, İraqdan, Ərəbistandan və digər ölkələrdən ticarət malları gətirib satdırırdılar)*, sonrakı onilliklərdə bu işləri davam etdirən ***Ələsgər Kərbəlayi Hüseynqulu oğlu Məşədi Məhəmmədhüseyn, Məşədi İsmayıl,***

***Məşədi Allahverdi, Məşədi Abış, Sadıq Əbülhəsən oğlu*** (Maralyan kəndi), ***Məşədi Mehdi, Məşədi Kəlbəli*** (Daşkəsən kəndi), XIX əsrin məşhur memarı ***İbrahim Xəlil***, XIX əsrdə yaşamış dövrünün nüfuzlu ziyalısı, ticarət və toxuculuq ilə məşğul olan məmur ***Məşədi Abbasqulu bəy Kərbəlayı Həsənqulu bəy oğlu Xələfbəyov***, XIX əsrdə yaşamış məşhur xalçaçılar, tanınmış toxucular, mahir gəbə ustaları ***Xanım Əsəd qızı, Nabat Abbasqulu qızı, Yasəmən Aslan qızı, Səadət Yusif qızı***, XIX əsrdə yaşamış nüfuzlu dövlət məmuru, mülkədar, vəkil ***Qulu bəy Hacı Əli bəy oğlu Hacıəlibəyov***, *"Nəqşibəndiyyə"* təriqətinin məşhur müridi, təriqət rəhbərliyinin böyük övliya Şıx Hacı Qasım Çələbiyə keçməsinin vasitəçisi, XIX əsrdə yaşamış nüfuzlu övliya ***Şıx Camal Əli oğlu***, XIX əsrdə yaşamış Cəbrayıl qəzasının pristavı ***Ağa Əli bəy Kazım bəy oğlu Vəzirov***, XIX əsrdə yaşamış çar leyb-qvardiyasının Qafqaz eskadrosunun yunker rütbəli (sonrakı illərdə kornet rütbəsi olub) zabiti ***Məhəmməd bəy Bala bəy oğlu Ağayev***, XIX əsrdə Cəbrayıl qəzasının sahə rəisi və polis pristavı vəzifələrində çalışmış ***Mahmud bəy Ağabəy oğlu Rüstəmbəyov***, XIX əsrdə quberniya katibi, titulyar müşavir, kollec assesoru mülki çinlərini almış və III Aleksandr gümüş medalı ilə təltif olunmuş hüquqşünas ***Zeynalabdin bəy Mirzə Həmid bəy oğlu Vəzirov***, XIX əsrdə Qafqaz canişinliyinin tərcüməçisi, Zaqatala dairəsinin pristavı, Zəngəzur qəzasının rəisi vəzifələrində çalışmış ***Fərəc bəy Kərbəlayı Mehdi bəy oğlu Məliknamazəliyev***, könüllü olaraq I Dünya müharibəsinə qatılmış və bir neçə orden-medallarla təltif olunmuş gizir (*praporşik*) ***Xanlar bəy Fərhad bəy oğlu Minbaşıyev-Feyzullabəyli***, XIX əsrdə yaşamış Dağtumas kəndinin rəhbəri, *Tumasuşağı* tayfasının nüfuzlu nümayəndəsi ***Mikayıl Sultan Həsən Ağa oğlu***, həmin tayfadan olan dövrünün görkəmli ziyalıları – ***Məcnun bəy Vəli bəy oğlu, Hacı Baba Əfəndi Mehdi oğlu, Məhəmmədəli Abdulla oğlu, Mahmud Hüseyn oğlu Mehdiyev, Məhəmməd İsrafil oğlu Hüseynov, Bahadır Əhməd oğlu Məmmədov, Tofiq Şirin oğlu Məmmədov, Mahmud Murtuza oğlu Mahmudov, Hümbət Məhəmməd oğlu Əhmədov***, 28 Aprel inqilabına qədər Bakı şəhər Baş notariat idarəsinin rəisi vəzifəsində çalışmış ***Fətulla bəy Kərbəlayı Abbas bəy oğlu Kərimbəyov***, məşhur mülkədar, Cəbrayıl qəza idarəsində tərcüməçi, mirzə, xəttat kimi çalışmış ***Mirzə Əşrəf Əlimirzə oğlu Ağayev***, ADR dönəmində polis idarəsində çalışmış hüquqşünas ***Məhəmmədhəsən bəy Məmiş bəy oğlu Mirzəcamalov***, XIX əsrin sonlarında çar hökumətinin Cəbrayıl nahiyəsi üzrə müvəkkili ***Mirzə Hüseyn ağa Cavanşir*** (*o, Cəfərqulu ağanın nəvəsi idi*), XIX əsrin sonu – XX əsrin əvvəllərində Cəbrayıl qəzasının dövlət məmuru kimi çalışmış hüquqşünas ***Muxtar bəy Kərbəlayı Mehdi bəy oğlu Məliknamazəliyev***, XIX əsrin sonu və XX əsrin birinci yarısında yaşamış Cəbrayıl qəzasının qeydiyyatçısı, dövrünün tanınmış ədliyyə işçisi ***Rza Məşədi Tağı oğlu Şəfiyev***, XX əsrin əvvəllərində Yelizavetpol dairə məhkəməsinin 2-ci dərəcəli dəftərxana xidmətçisi və Cəbrayıl qəzasının dünyəvi məhkəməsinin hüquqşünası ***Həsən bəy Fərəc bəy oğlu Məliknamazəliyev***, Musavat ordusunda feldfebel rütbəsində könüllü xidmət etmiş ***Cəlil Cavad oğlu Əhmədov***, Soltanlı kənd şurasının sədri ***Mirzə İbrahimov***, Süleymanlı kəndinin XX əsrin 30-cu illərində qətlə yetirilmiş nüfuzlu sakinləri – ***Həsən Kazımov, Musa Yadigar oğlu, Allahverdi Mehdiyev***, Cəbrayıl nahiyəsində İnqilab Komitəsinin sədri vəzifəsində çalışmış ***Yusif İbrahimov***, Çələbilər kəndində yaşamış məşhur din xadimləri, təriqət sahibləri - ***Məhəmməd Çələbi əfəndi Vəli Çələbi oğlu, Hüseyn Çələbi əfəndi Maqsud Çələbi oğlu, Mahmud Çələbi əfəndi Bahəddin Çələbi oğlu, Alı Çələbi Qasım oğlu, Əli Çələbi, Hacı Qasım Çələbi, Yasin Çələbi Hacı Qasım oğlu, Suqra Çələbi, Teyfur Çələbi, Hafizə Çələbi, Həvəzə Çələbi, Yəhya Çələbi Alı Çələbi oğlu, Hənifə Çələbi, Məhəmmədəli Çələbi, Əliyyənnaqi Çələbi, Tağı Çələbi, Arif Çələbi*** (***Zamanov Arif Çələbi Həsən oğlu***), ***Səbahət Çələbi*** (***Zamanova Səbahət Çələbi Həsən qızı***), ***Müstəqim Çələbi*** (***Zamanlı Müstəqim Çələbi Həsən oğlu***), ***Fatimə Çələbi, Şahlıq Çələbi, Aslanova İlhamə Çələbi Qasım qızı***, Əfəndilər kəndinin tanınmış şəxsiyyətləri – ***Hacı Məmmədalı Əfəndi, Hacı Mir Yusif Əfəndi Mir Hüseyn Əfəndi oğlu, Məti baba, Mir Hüseyn Əfəndi Mir Həbib oğlu, Mir Həbib Əfəndi Mir Hüseyn Əfəndi oğlu, Mir Əzim Əfəndi Mir Hüseyn Əfəndi oğlu, Mir Yəhya Əfəndi Mir Hüseyn Əfəndi oğlu, Mir Xalis Əfəndi Mir Yusif Ağa oğlu, Mir Ağa Mir Yəhya Əfəndi oğlu, Mir Haşim Mir Yəhya Əfəndi oğlu, Məhəmməd Əfəndi***, Cəbrayıl rayonunun əksəriyyətinin kəbinini kəsmiş ***Molla Bəkir***, dövrünün tanınmış igid şəxsiyyətləri, qaçaq hərəkatının iştirakçıları – ***Qaçaq (Kor) Abdulla*** (*Quşçular kəndi*), ***Qaçaq Nazar*** (*Sirik kəndi*), ***Qaçaq Babaş, Qaçaq Mövlüş***, Güney Azərbaycanda qurulmuş hökumətin başçısı S.C.Pişəvəri ilə münasibət yaratmış və elə bu səbəbdən də bir müddət sürgün və müha-

cir həyat yaşamış ərəb və fars dillərinin bilicisi, vətənpərvər ziyalı **Cavad Musayev**, dövrünün tanınmış din xadimi, Şuşa xanının ərazi üzrə minbaşısı **Qasım bəy Minbaşı**, XX əsrin əvvəllərində xeyirxahlığı və var-dövləti ilə mahalda tanınan **Məhyyəddin bəy**, həmin dönəmlərdə igidliyi, mərdliyi ilə bütün mahalda ad çıxarmış **Qasım bəy Cəbrayıllı**, Vaxtilə Respublika Vəkillər Kollegiyasının üzvü olmuş **İsgəndər bəy Sadıq bəy oğlu Minbaşıyev**, onun ziyalı həyat yoldaşı **Bikə xanım Teymur ağa qızı Cavanşir**, Cəbrayıl rayon siyasi şöbəsinin rəisi, DTK, milis, hərb və partiya orqanlarında çalışmış və *"Qırmızı Əmək Bayrağı"*, *"Şərəf Nişanı"* ordenləri və digər medallarla təltif olunmuş **Mürsəl Rüstəmov**, Cəbrayıl rayonunun staxanovçularından hesab edilən **Məmməd Əliyev**, **Murtuza Mehdiyev**, **Mahnisə Əmiraslanova**, **Qıcılı Süleymanova**, **Qaragöz Quliyeva**, Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçıları olmuş rayonun qabaqcıl təsərrüfatçıları – **İslam Balayev** (Maralyan kəndi), **Məhərrəm Əliyev** (Soltanlı kəndi), **Surxay Şirinov** (Süleymanlı kəndi), **Sadıq Rəhimov** (Karxulu kəndi), **Yaqub Gülməmmədov** (Horovlu kəndi), **Məhid Rüstəmov** (Mirzəcanlı kəndi), **İbrahim Əliyev** (Çərəkən kəndi), XX əsrin 20 – 30-cu illərində Cəbrayılda görkəmli təsərrüfat və mədəniyyət kadrları kimi tanınan **Əyyub Murtuzəliyev**, **Həsənalı Baxşəliyev**, **Misir Baxşəliyev**, **Göyüş İsmayılov**, **Xıdır Əliyev**, **Musa Məmmədov**, **Maşallah Babaşov**, **Cəlal Hüseynov**, **Firudin Qasımov**, **Cəmil Nəcəfov**, **Həmid İsmayılov**, **Umla Qasımova**, **Dilarə Əliyeva**, **Şanxanım Quliyeva**, **Güləbətin Əliyeva**, rayonun iqtisadiyyatının yüksəlməsində xidmətləri olan *"Lenin"* ordenlilər – **Kamılxan Rüstəmov**, **Həzi Həziyev**, **Nəriman Ağayev**, **Məmməd Məmmədov**, **Mənsumə Məmmədova**, III dərəcəli "Şöhrət" ordenli müharibə və əmək veteranı **Süleyman Abbasov**, 19 yaşında Böyük Vətən müharibəsi zamanı Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək fəxri ada layiq görülmüş **Cəmil Əhmədov** (*yeri gəlmişkən, 1941-1945-ci illərdə müharibəyə səfərbərliyə alınan* ***4242*** *cəbrayıllıdan* ***1672*** *nəfəri geri qayıtmamışdır)*, Böyük Vətən Müharibəsində şərəfli döyüş yolu keçmiş **Balay Səfərov**, **Bilal Əliyev**, **Mahmud İsmayılov**, **Fərman Mehdiyev**, **Fərhad Fətəliyev**, **Şahı Hüseynov**, **Dünyamalı Rüstəmov**, **Gürşad Şərifov**, **Dadaş Əliyev**, **Şirin Allahverdiyev**, **Cəlil Xəlilov**, **Cəmil Xəlilov**, vaxtilə kənd sovet sədri, xalçaçılıq artelinin müdiri vəzifələrində çalışmış, Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş, 1943-cü ildə itkin





düşmüş vətənpərvər ziyalı **Məhəmməd Səfi oğlu Camalov**, *"20 Yanvar"* şəhidi **Səxavət Quliyev**, dövrünün nüfuzlu din xadimi **Yəhya Çələbi** *(1931 – 1995)*, Gəncə gimnaziyasının və Qori Müəllimlər Seminariyasının məzunu **Teymur bəy Məşədi Mirzə Məmmədqulu bəy oğlu Xələfov** (1897-1966), tanınmış ziyalı, məktəbdar müəllim, bir sıra məsul vəzifələrdə çalışmış hüquqşünas **İsgəndər bəy Sadıq bəy oğlu Minbaşıyev**, 3 yanvar 1938-ci il tarixdə repressiya nəticəsində güllələnmiş Sabirabad Pedaqoji Texnikumunun müəllimi **Əyyub Əhmədəli oğlu Hacıyev**, görkəmli məktəbdar müəllim **Əsgər bəy Namaz bəy oğlu Eyvazov**, tanınmış ziyalı, din və şəriət müəllimi **Abdulla Hacı Qasım oğlu Sultanov**, görkəmli şəriət və türk dili müəllimi **Məşədi Əsədulla bəy Kərbəlayi Abdulla bəy oğlu Xələfbəyov**, Cəbrayıl qəzasının Rəfədinli prixodunun (Rəfədinli, Xatınbulaq, Saracıq, Arış, Güzdək kəndləri) axundu **Molla Hacıməmməd Molla-kişi oğlu** (1809-?), Cəbrayıl qəzasında prixod mollası, axund kimi fəaliyyət göstərmiş məktəbdar müəllim **Molla Hacı Molla Hüseyn oğlu** (1809-?), XX əsrin əvvəllərində Maralyan kənd məktəbinin nüfuzlu müəllimləri **Əbdül bəy Şərifov**, **Xəlilov qardaşları**, **Əlikərəm Xankişiyev**, XX əsrin birinci rübündə Cəbrayıl hakimi olan **Hüseyn ağa Cavanşir** (*o, C.Məmmədquluzadənin qohumu idi*), Hüseynbəyli kəndinin nüfuzlu ziyalısı **Əhməd bəy Hüseynbəyov**, bir sıra məsul vəzifələrdə (raykom katibi, Füzuli rayon icraiyyə komitəsinin sədri, Beyləqan (Jdanov) rayon icraiyyə komitəsinin sədri və s.) çalışmış maarifpərvər ziyalı **Sərxan Şərəfxan oğlu İbrahimov** (1896-1947), tanınmış ziyalı, *"Lenin"* ordenli müəllim **Mirzə Muxtar Yusifov**, tanınmış ziyalı, repressiyaya məruz qalmış **Xanış Rüstəmov**, Cəbrayıl kənd İnqilab Şurasının sədri **Mirzə Nəriman oğlu Məmmədov**, uzun illər bir sıra məsul vəzifələrdə - Banditizmə qarşı mübarizə tədbirləri üzrə xüsusi orqan rəhbərinin müavini (1921-1934), Azərbaycan SSR Ali Məhkəməsinin kollegiyasının sədri (1934-1936), Ali Məhkəmənin sədri (1936-1937), Sovnarkomun və Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1937-1954) vəzifələrində çalışmış **Teymur İmanqulu oğlu Quliyev**, Azərbaycan KP MK-nin ideoloji katibi və büro üzvü vəzifələrində çalışmış **Həsən Həsənov**, Azərbaycan KP MK-də məsul vəzifələrdə çalışmış **Məmməd Qasımov**, vaxtilə Sabirabad rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış **Məmməd Həmzə oğlu Məmmədov**, Azərbaycan KP MK-nin katibi və s. məsul vəzifələrdə

çalışmış ***Svetlana Qasımova***, uzun illər Azərbaycan Respublikasının Maarif Nazirliyində şöbə müdiri vəzifəsində çalışmış ***İmran Məmmədov***, partiya və sovet orqanlarında müxtəlif məsul vəzifələrində işləmiş ***Yahya Ağakişiyev***, Əfəndilər kəndinin Böyük Vətən müharibəsi illərində Mozdok uğrunda gedən döyüşlərdə tarixə çevrilən qəhrəmanlıq nümayiş etdirmiş igid ziyalısı, uzun illər Lənkəran, Tərtər (*keçmiş Mirbəşir*), Biləsuvar (*keçmiş Puşkin*) rayon partiya komitələrinin birinci katibi və digər məsul vəzifələrdə çalışmış iqtisad elmləri namizədi ***Ədil Məmiş oğlu Əbilov***, 1964-1970-ci illərdə Cəbrayıl rayon partiya komitəsinin birinci katibi vəzifəsində çalışmış ***Vaqif Məhəmməd oğlu Əhmədov***, vaxtilə müxtəlif rayonlarda məsul vəzifələrdə - Ağcabədi RPK-nin birinci katibi, Beyləqan RPK-nin birinci katibi vəzifəsində çalışmış mərhum partiya və dövlət xadimi ***Vahid Aslan oğlu İsmayılov***, uzun illər Trest müdiri vəzifəsində çalışmış ***Çingiz Qasımov***, keçmiş SSRİ-nin Türkiyədəki ilk konsulu olmuş ***Qaryağdı Həsənov***, hazırda Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri ***Əli Şamil oğlu Həsənov***, Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri, iqtisad elmləri namizədi ***Elman Sirac oğlu Rüstəmov***, Cəlilabad rayon İcra Hakimiyyətinin başçısı ***Əziz Əzizov***, Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı ***Mahmud Nayfalı oğlu Quliyev***, Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışmış ***Əyyub Quliyev***, Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini ***Mərkəz Paşayev***, Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini ***Əli Ağakişiyev***, hazırda Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində çalışan ***Arif Fərzəliyev***, eləcə də aparatın digər vəzifəli əməkdaşları - ***Faxrəddin Rüstəmov, Sinab Aslanov, Malik Hacıyev***, Cəbrayıl rayon maliyyə şöbəsinin müdiri ***Famil Balayev***, Cəbrayıl rayon İcraiyyə Komitəsinin sabiq sədri ***İslam İsmayılov***, vaxtilə müxtəlif məsul vəzifələrdə çalışmış ***Adış Xudiyev, Murtuza Yaqubov, Əvəz Quliyev, Aydın Abbasquliyev, Famil Nəcəfov***, Cəbrayıl rayon maarif şöbəsinin keçmiş müdiri ***Osman Vəliyev***, vaxtilə *Sosialist Əməyi Qəhrəmanı* kimi yüksək fəxri ada layiq görülmüş ***Bəyaz Həsənalı qızı Həsənova, Şahnaz Əhməd qızı Əhmədova, Köçəri Oruc oğlu Babayev, Məhəmməd Məmmədhəsən oğlu Əhmədov, Qaçay Mənsum oğlu Səfərov, Yusif Məhəmməd oğlu Fərzəliyev, Sərdar Məmməd oğlu İmrəliyev***, Cəbrayıl





rayonunun baş həkimi, Azərbaycan SSR Səhiyyə Naziri, SSRİ Xarici İşlər Nazirinin müavini vəzifələrində çalışmış ***Mahmud Əliyev***, keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki ***Mehdi Məmməd oğlu Mehdizadə*** ((1903 – 1984) o, həm də uzun illər Azərbaycanın Maarif Naziri vəzifəsində çalışmışdır), Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi ***Əşrəf İsgəndər oğlu Hüseynov*** ((1907 – 1980) o, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində çalışmışdır), AMEA-nın müxbir üzvləri – professorlar, əməkdar elm xadimi ***Tofiq İsmayıl oğlu Hacıyev*** (1936), eləcə də ***Arif Həsən oğlu Həsənov*** (1933 - 2006), ***Novruz Məhəmməd oğlu Quliyev*** (*hazırda o, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini vəzifəsində çalışır*), keçmiş SSRİ Ali Sovetinin deputatı, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor ***Yusif Nəsib oğlu Quliyev*** (1939 – 1994), "*Qırmızı Ulduz*" ordeni və "*Berlinin alınmasına görə*" medalı ilə təltif edilmiş vətənpərvər ziyalı, pedaqoji elmlər namizədi ***Məmmədəli Məmmədov***, görkəmli filosof, Həsən bəy Zərdabi irsinin tədqiqatçısı ***Zaman Məmmədov***, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, respublikanın əməkdar iqtisadçısı, iqtisad elmləri doktoru ***Telman Alhüseyn oğlu Hüseynov***, Azərbaycan Texniki Universitetin rektoru, professor ***Havar Məmmədov***, texnika elmləri doktoru, hazırda Azərbaycan Respublikası Milli Məclisinin üzvü ***Astan Nüşrəvan oğlu Şahverdiyev***, vaxtilə Azərbaycan Dövlət Pedaqoji Universitetində rektor və kafedra müdiri vəzifələrində çalışmış Beynəlxalq Neft Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Elm və Texnika Komitəsi İxtiralar və Kəşflər Elmi Şurasının sədri, Ali Attestasiya Komitəsinin üzvü, texnika elmləri doktoru, professor ***Rafiq İsrafil oğlu Mehdiyev***, sinəsi söz xəzinəsi ilə dolu olan, pedaqoji elmlər namizədi, respublikanın əməkdar müəllimi ***Əlif Əhmədov***, Beynəlxalq İnformasiya Akademiyasının (Rusiya) həqiqi üzvü, uzun illər Azərbaycan Dövlət Neft Akademiyasının prorektoru vəzifəsində çalışmış texnika elmləri doktoru, professor ***Ramiz Topuş oğlu Hümbətov***, həmin akademiyanın professorları ***Tamilla Qasımova, Hüseyn Hüseynov***, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları – tarix elmləri doktoru ***Dərgah Qüdrətov, Oruc Qüdrətov***, kimyaçı alim ***Nailə Verdizadə, Cəfər Süleymanov***, Xarici Dillər Universitetinin kafedra müdiri, alman dili üzrə ta-

15932



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

nınmış mütəxəssis, professor ***Sərxan Abdullayev***, Tallin Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru ***Yaqub Yaqubov***, Türkiyə Respublikasının "Şərəf *və ləyaqət Nişanı*"na layiq görülmüş Türkiyə Respublikasının Atatürk Tarix, Dil, Kültür Hökumətlər qurumunun Atatürk Kültür mərkəzi və Türk dil qurumunun fəxri üzvü, Səlcuq Universitetinin fəxri doktoru, Avrasiya Araşdırmalar Mərkəzinin başqanı, filologiya elmləri doktoru, professor ***Kamil Vəli Nərimanoğlu***, Türkiyənin İzmir Yüksək Texnoloji Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru, Amerika Riyaziyyat Cəmiyyətinin üzvü ***Rəfail Qubad oğlu Əlizadə***, Türkiyənin Ege Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru Ürfət ***Qubad oğlu Nuriyev***, Türkiyənin Əskişəhər Universitetinin professoru ***Xalıq Hüseynov***, respublikamızı dəfələrlə xarici ölkələrdə, o cümlədən ABŞ-da ləyaqətlə təmsil etmiş professor, Rusiya EA və Nyu-York EA-nın üzvü ***Bəkir Bahadır oğlu Quliyev***, pedaqoji elmlər doktoru, professor ***Novruz Əmirxan oğlu Quliyev***, uzun illər Gəncə ET Heyvandarlıq İnstitutunun direktoru vəzifəsində çalışmış kənd təsərrüfatı elmləri doktoru, professor ***Mikayıl Rəhimov***, Rusiya Federasiyası EA-nın Novosibirsk filialının əməkdaşı, kənd təsərrüfatı elmləri doktoru ***Hüseyn Rəhimov***, BDU-nun professoru, fizika-riyaziyyat elmləri doktoru ***Hamlet Fərman oğlu Quliyev***, BDU-nin coğrafiya fakültəsinin dekanı, coğrafiya elmləri doktoru, professor ***Fərda Əli oğlu İmanov***, vaxtilə BDU-da çalışmış, hazırda isə İstanbul Doğu Universitetinin professoru olan ***Oqtay Əliş oğlu Vəliyev***, fəlsəfə və riyaziyyat elmləri doktoru, ABŞ-ın Kaliforniya Universitetinin professoru ***Azər Sahib oğlu Əhmədov***, fəlsəfə və riyaziyyat elmləri doktoru, ABŞ-ın Corciya Universitetinin professoru ***Anar Sahib oğlu Əhmədov***, filologiya elmləri doktoru, Türkiyə Səlcuq Universitetinin professoru ***Nailə Nəriman qızı Hacızadə***, Azərbaycan Dillər Universitetinin professoru, filologiya elmləri doktoru ***Fərman Zeynalov***, Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru ***Sahib Fərzəliyev***, tənqidçi, tərcüməçi, ictimai-siyasi xadim, filologiya elmləri doktoru, "*Azərbaycan Dünyası*" Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti, general ***Yasif Mirzə oğlu Nəsirli***, tanınmış mühəndis-xeyriyyəçi ***Hacı Ələsgər Dadaş oğlu Məhərrəmov***, uzun illər AMEA-nın Botanika İnstitutunda çalışan biologiya elmləri doktoru, Azərbaycan Alimlər İttifaqı Rəyasət Heyətinin sədri, "*Təfəkkür*" Universitetinin Ekologiya kafedrası-





nın müdiri ***Aydın Musa oğlu Əsgərov***, ABB-Moskva İdarə Heyətinin sədrinin müşaviri, Moskva İqtisad və Hüquq İnstitutunun maliyyə-kredit kafedrasının professoru, siyasi elmlər namizədi ***Azər Mürşüd oğlu Səfərov***, Təhsil Problemləri İnstitutunun məktəbəqədər tərbiyə və ibtidai təhsil şöbəsinin müdiri, Bakı Ali Pedaqoji Qızlar Seminariyasının pedaqogika kafedrasının professoru, pedaqoji elmlər doktoru ***Vidadi Cəmil oğlu Xəlilov***, kənd təsərrüfatı elmləri doktoru, Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü ***Yəhya Hüsən oğlu Qarayev***, fizika-riyaziyyat elmləri doktoru, keçmiş SSRİ Elmlər Akadeiyasının müxbir üzvü ***Yusif Nəsib oğlu Quliyev***, "*Qafqaz Universiteti*"nin prorektoru, geologiya elmləri namizədi, dosent ***Natiq Paşa***, Bakı Dövlət Universitetinin kimya fakültəsinin dekan müavini, kimya elmləri namizədi ***Taleh Orduxan oğlu Qəhrəmanov***, eləcə də digər tanınmış professorlar, elmlər doktorları və elmlər namizədləri - ***Allahverdi Verdizadə, Novruz Hüseynov, Sərxan Verdiyev, Məhəbbət Nəcəfov, Qəzənfər Kazımov, Həsən Hüseynov, Hüseyn Quliyev, Sefi Behbudov, Sahib Əhmədov, Elmira Hüseynova, Ofeliya Mürşüd qızı İmanova (Səfərova), Qənimət Cəfərov, Yalçın Nəsirov, Könül Nəsirova, Xəliyəddin Xəlilli, Arif Abbasquliyev, Bəhlul Əliyev, Cavad Əliyev, Qəhrəman Əbilov, Yaqub İsmayılov, Qəşəm Əliyev, Qərib Əliyev, Qulamhüseyn Əliyev, Cəlal Əliyev, Sultan Əliyev, Hümbət Əliyev, Kazım Əliyev, Rafiq Yəhyayev, Ramiz Əhmədov, Rəfail Hüseynov, Əhməd Hacıyev, Vidadi Xəlilov, Qabil Şərifov, Qəhrəman Əbilov, Qəhrəman Süleymanov, Qərib Əliyev, Elman Şahverdiyev, İsmayıl Məmmədov, Əkbər Mehrəliyev, Sürəyya Ağakişiyeva, Süleyman Alıyev, Sadıq Quliyev, Nüşabə Hacıyeva, Adil Əbilov, Adil Haqverdiyev, Aydın Aslanov, Aydın Əbilov, Aydın Şükürov, Azər Həsənov, Şamo Cəbrayıllı, Zahid Məmmədov, Qara Fətəliyev, Rafiq Mehdizadə, Vaqif Həsənov, Xaliq Vəliyev, Xudaverdi Həsənov, Xaliq Hüseynov, Aqil Hüseynov, Akif Hüseynli, Kəmalə Hüseynli, Novruz Bəşirov, Novruz Hüseynov, Valeh Orucov, Əsgər Əsgərov, Hafizə Əsgərova, Rafiq Əbilov, Zərifə Əbilova, Vaqif Aslanov, Sadiq Hacıyev, Aslan Məmmədli, Elşən Məmmədov, Əli Haqverdiyev, Əli Məmmədov, Amil Cəfərov, Məlahət Əbdürrəhmanqızı, Yaşar Məmmədli, Hüseyn Alısoy, Mehdi Hüseynov, Məhəbbət Nəcəfov, Məhəmməd Həsənov, Mürşüd Behbudzadə, Elman Mehdiyev, Əhməd Hacıyev, Əhməd Kəlbəliyev, Əhməd Kərimov, Əşrəf Mehdiyev, Əli***

***Behbudov, Məhəmməd Beydullayev, Nizami Hüseynov, Sənan Cəfərov, Zahid Kərimov, Vasif Qafarov, İsmət Rüstəmov, Əjdər Yunusov, Eynulla Allahverdiyev, Sabir Hacıyev, Sarvan Allahverdiyev, Səttar Allahverdiyev, Səttar Əbilov, Gülhüseyn Kazımov, İsmayıl Kazımov, İsmayıl Quliyev, Tahir Əlizadə, Abbas Əliyev, Adıgözəl Vəliyev, Qulam Əliyev, Fərzalı Həsənov, Fikrət Hacıyev, Rəiyyət Hacıyev, Sabir Hacıyev, Sabir Şükürov, Seymur Hacıyev, Bəşir Əhmədov, Cəlal Səfərov, Hicran Mehdiyev, Ramiz Əhmədov, Rəfael Nuriyev, Rəhman Quliyev, Yavər Rüstəmov, Atlıxan Hacıyev, Kamal Hacıyev, Əzizə Hacıyeva, Aytən Hacıyeva, Çiçək Əfəndiyeva, Mehriban Əhmədova, Sahib Fərzəliyev, Fatma Fərzəliyeva, Şəhla Mehdiyeva, Natiq Əhmədov, Əlif Əhmədov, Məzahir Əhmədov, Nəsir Xankişiyev, Yusif Xankişiyev, Vahid Yəhyayev, Əsgər Quliyev, Əvəz Quliyev, İldırım Qasımov, Şakir Qasımov, Yusif Qasımov, Yusif Məmmədov, Əbdürrəhim Quliyev, Baba Quliyev, Rəhman Quliyev, Əbülfət Quliyev, Samir Quliyev, Esmiralda Quliyeva, Pərvin Quliyeva, Mustafa Hüseynov, Mübariz Mahmudov, Vəfa Mahmudova, Elmira Mehdizadə, Zemfira Mehdizadə, Əlif Mehrəliyev, Natiq Əhmədov, Nazim Hüseynov, Nemət Mehrəliyev, Şahlar Məhərrəmov, Yaşar Məmmədli, Aysəba Hacıyeva, Köçəri Məmmədov, Zahid Məmmədov, Əziz Musayev, İsmət Rüstəmov, Mobil Aslanov, Məhəmməd Sadıqov, Nizami Seyidəliyev, Əvəz Seyidəliyev, Mehrac Səmədov, Tofiq Süleymanov, Sabir Süleymanov, Cəfər Süleymanov, Cəlar Əliyev, Faxrəddin Süleymanov, Xaliq Hüseynov, Xəlil Şahverdiyev, Qürbət Şahverənov, Nüsrət Şükürov, Əsgər Yusifov, Nurəddin Yusifov, Gülnarə Həsənova, Sevinc Həsənova, Yavər Rüstəmov, Yusif Nuriyev, Sahib Əhmədov, Soltan Əliyev, Sultan Əliyev, Süleyman Alıyev, Vaqif Həsənov, Vasif Qafarov, Məhəmmədəli Məmmədli, Natiq Əhmədov, Əsgər Hümbətov, Müseyib Hümbətov, Akif Hüseynli, Gülövşə Atakişiyeva-Məmmədova, Hüseyn İdrisov, Əli İmanov, Ofelya İmanova, Bəxtiyar İsmayılov, Qəşəm İsmayılov, Mahmud İsmayılov, Yaqub İsmayılov, Rəşid Mehdiyev, Avtandil Verdiyev, Taleh Qəhrəmanov, Ələkbər Məmmədov, Nəsir Xankişiyev, Şakir Albalıyev, Əli Zalov, Əlibala Zalov, Hüseyn İdrisov, Cahid Kazımov,*** səhiyyə sahəsində tanınmış alim-həkimlər - tibb elmləri doktoru, professor ***Qəhrəman Macid oğlu Əbilov***, Azərbaycan Tibb Universitetinin Uşaq cərrahlığı kafedrasının müdiri, Respublika Səhiyyə Nazirliyinin





Baş Uşaq cərrahı, tibb elmləri doktoru, professor ***Çingiz Bayram oğlu Quliyev***, ATU-nun Psixatriya və BDU-nun psixologiya kafedralarının professoru, Azərbaycan Psixiatrlar Assosiasiyasının prezidenti ***Nadir İsmayılov***, ATU-nun daxili xəstəliklər kafedrasının müdiri, Respublikanın baş allerqoloqu, əməkdar müəllim, professor ***Cəbrayıl Məmmədov***, *"Xalqlar Dostluğu"* ordenli həkim ***Gərşasib İsmayılov***, *"Şərəf Nişanı"* ordeninə layiq görülmüş həkimlər - ***Vahid Hüseynov, Hüseyn Əhmədov, Minə Həmidova***, Azərbaycan Tibb Universitetinin onkologiya kafedrasının dosenti, tibb elmləri namizədi ***Yusif Nuriyev***, ATU-nun III cərrahiyyə xəstəlikləri kafedrasının dosenti, tibb elmləri namizədi ***Köçəri Məmmədov***, Moskva şəhər Stomatologiya Elmi Mərkəzinin həkimi, tibb elmləri doktoru ***Sadıq Hacıyev***, akademik M.Topçubaşov adına ET Mərkəzi Klinika İnstitutunun şöbə müdiri, professor ***Fazil Abbasov***, akademik M.Topçubaşov adına Klinik Xəstəlikləri Eksperimental İnstitutunun aparıcı elmi işçisi, tibb elmləri doktoru ***Vaqif Həsənov***, akademik M.Topçubaşov adına Elmi-Tədqiqat və Eksperimental Cərrahlıq İnstitutunun damar cərrahlığı şöbəsinin baş elmi işçisi, tibb elmləri namizədi ***Məzahir Əhmədov (Alısoy)***, Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının baş həkimi, dosent ***Cəfər Həsən oğlu Əhmədov***, C.Abdullayev adına ET Kardiologiya İnstitutunun böyük elmi işçisi, tibb elmləri namizədi ***Elmira Azad qızı Şirinova***, Respublika Uroloji xəstəxanasının şöbə müdiri, professor ***Eldar Hüseynov***, M.Nağıyev adına Təcili Tibbi Yardım Klinik Xəstəxanasının şöbə müdiri, tibb elmləri namizədi, cərrah ***Zaur Məmmədli***, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun terapiya fakültəsinin dekanı, tibb elmləri namizədi ***Allahverdi Hacıyev***, Azərbaycan Tibb Universitetinin dosenti, tibb elmləri namizədi ***Sevil Mehrəliyeva***, tanınmış həkim, tibb elmləri namizədi ***Avtandil Alıoğlu***, rayonun ilk ali təhsilli həkimi ***Qafar Əbilov***, uzun illər Moskvada Kreml klinikasının baş həkimi vəzifəsində çalışmış ***Fərrux Əhmədov***, uzun illər Azərbaycan Yazıçılar Birliyinin poliklinikasında həkim-cərrah kimi fəaliyyət göstərmiş ***Vahid Hüseynov***, respublikanın əməkdar həkimi ***Rəhilə Abbasova***, rayon mərkəzi xəstəxanasının *"Şərəf Nişanı"*, *"Qırmızı Əmək Bayrağı"* ordenli, ali kateqoriyalı baş həkimi ***Hüseyn Əhmədov***, tanınmış terapevt-həkim ***Bəxtiyar Quliyev***, Bakı şəhəri F.Əfəndiyev adına 4 saylı xəstəxananın cərrahı ***Allahverdi Şükürov***, vaxtilə Bakı şəhər

Dəmir Yol xəstəxanasının həkimi işləmiş cərrah ***Nadir Qaraş oğlu Novruzov***, Bakı şəhər Dəmir Yol xəstəxanasının həkim-cərrahı ***Cəlal Babaşov***, tanınmış həkimlər - ***Zaman Şahverdiyev, İsmayıl İsmayılov, Yəhya Həsənov***, Səbayıl rayonundakı 13 saylı xəstəxananın poliklinikasında həkim-cərrah işləyən ***Nurəddin Ağayev***, tanınmış həkim-cərrah ***Məhəmməd Məstəliyev***, birləşmiş mərkəzi rayon xəstəxanasının həkimləri - ***Hafis Əbdüləzimov, Əjdər Hacıyev, Qəşəm Həsənov, Saday Verdiyev, Sabir Mirzəyev, Məhəmmədəli Heydərov, Bədəl Səfərov, Gərşasif İsmayılov, Vahid Hüseynov, Sara Məhərrəmova, Bəxtiyar Quliyev, Surxay Zeynalov, Eyvaz Salahov, Yusif Səfərov, Təbriz İsgəndərov, Fərman Məmmədov, Marat Abbasov, Eldar Şirinov, Fərəc Quliyev, Yəhya Həsənov, Fazil Vəliyev, Zahid İmanov, Əli Əhmədov, Sabir İsmayılov, Bayram Ağaverdiyev, Bəkir Əhmədov, Əli Quliyev, Etibar Quliyev, Hüseyn Mustafayev, Mustafa Cəbrayılov, Səltənət İsmayılova, Mehparə Heydərova, Züleyxa Rüstəmova, Məleykə Ağakişiyeva***, mərhum xalq yazıçısı ***Sabir Məhəmməd oğlu Əhmədli***, tanınmış publisist, jurnalist, şair və yazıçılardan ***Sərdar Əsəd, Sabir Süleymanov, Qaryağdı Həsənov, Çərkəz Məcid, Vaqif Bayatlı Odər, İsmayıl İmanzadə, Elçin Hüseynbəyli, Əziz Musa, Sərdar Əliyev, Sabir Məmmədov, Sabir Süleymanov, Oruc Qüdrətov, Yusif Nəsirli, Gülhüseyn Kazım, Sirac Rüstəmov, Xasay Əliyev, Hüseyn Mehrəliyev, Adil Əbilov, Şahsüvar Yusifov, Vaqif Mehdi, Vahid Hüseynov, Şərqiyə Süleymanlı, Abuzər Abuzərov, Əfsər Məmmədov, İnqilab Əliyev, İsmayıl Quliyev, Telman Mehdixanlı, Tahir Kazımov, Əli Rza Xələfli, Böyükkişi Heydərli, Hafiz Məftun, Hüseyn Əfəndi, Nüsrət Qafarov, Kamil Məmmədov, Ədil Şərifov, Şövkət Zərin Horovlu (Şövkət Qulam qızı Hüseynova - Kəlbalıyeva), İsmayıl Hacıyev, İsmayıl Quliyev, Kəmalə Həsənzadə, Nəriman Hüseynov, Barat Mirkişiyev, Əşrəf Abdıyev, Yusif Dirili, Famil Məmmədov, Fazil Abbasov (Fazil Güney), Fərzalı Abbasəlioğlu, İsmayıl Feyzullaoğlu, Sofu Bilal (Bilal Yusif oğlu Rzayev), Vahid Tumaslı (Vahid Mehdi oğlu Hüseynov), Alış Kamal, Vaqif Mehdi, Nazir Çərkəz oğlu Məmmədov, Mirzə Mirimli, Sahib Əhmədoğlu, Afər Əhmədov, Tofiq Şirinov, Etibar Məmmədli, Əlisahib Əroğul (İsrafilzadə), Çapar Kazımov, Musa Mərcanlı (İsmayılov), Qorxmaz Abdulla, Nüsrəddin Mehdiyev (Nüsrəddin Kövrək), Əmir Abbasov, Əfqan Məmmədov, Raqub Nustafayev, Əli Çərkəzoğlu (Məcidov), Əlibala Zaloğlu, Hürriyyət Məmmədzadə, Fariz Çobanoğlu (Zalov), Savalan Fərəcov, Seyfəddin Əliyev, Mahirə Dünyamalıyeva, Bəhram Zeynalov, Tamaşa Səfərəliyeva, Tahir Səfərov, Telman Salmanov, Tehran Vəliyev, Valeh Məmmədov, Vaqif Alıyev, Nəriman Mahmudov, Şamo Nərimanoğlu (Rizvanov), Yaqub Məğrur, Hidayət Səfərli, Abbas Arazlı, Məzahir Şükürov, Murad Həsənov, Mürşüd Behbudzadə, Ağamir Behbudov, Barat Məmmədov, Qədir Nəsirov, Fazil Babaşov, Sabir Şirvanlı, Nəcim Sinə Tumaslı (Nəcim Haqverdiyev), İntiqam Əliyev (Həsənlı), İbrahim Verdizadə, Seymur Verdizadə, Anar Cəbrayıllı, Kamal Bayram (Hacıyev), Həsən Təhməzov, Səbinə Babaşova, Vaqif Alıoğlu, Vaqif Cəfərli, Abbas Quliyev, Sahib Abdullayev, Əbülfət Alışov, Əhməd Fərhad, Əjdər Yunus Rza, Sahib Zalov, Zakir Mustafayev, Eldar Elli, Eldar Əliyev, Malik Əhmədoğlu, Vidadi Cəlal oğlu Hümbətov, Vidadi Dağtumaslı (Haqverdiyev), Məhəbbət Vahidoğlu, Qəzənfər Haqverdiyev, Fərqanə Qaçay qızı Gülməmmədova, Nəriman Mahmud (Nəriman Məhəmməd oğlu Mahmudov), Hacı Məmmədəli Mehdixan, Həsən Şəfiyev, Həsən Təhməzli, Hüseyn Arazi, Muxtar Eyvazov, İlham Tumas, İsmayıl Quliyev, Ramil Aslanlı, Qumru Şəhriyar, Lalə Quliyeva, Lamiyə Salmanqızı, Laura Cəbrayıllı***, müdrik və duzlu sözləri ağızlarda dolaşan sinədəftər ağsaqqal və ağbirçəklər - ***Əbil Verdiyev, Başir (Kefli Başir) Məmmədov, Hüseynalı Fətəliyev, Məşədi Həmid, Xasməmməd Alməmmədov, Tumasqulu Quliyev, Sərfi Ağayeva, Balış Məmmədova***, xanəndə və müğənnilərdən ***Cümşüd Dərgahov, Məhəmməd Əliyev, Vedan İsmayılov, Ağalar Əliyev, Hüseyn Əhmədoğlu***, televiziya ekranından, radio dalğalarından tanıdığımız ***Yaqut Abdullayeva*** (Cəbrayıl ş.), ***Zahid Quliyev*** (Söyüdlü k.), istedadlı gənc xanəndə ***İlkin Qənmər oğlu Əhmədov*** (Qalacıq k.), ***Tahir Xəlilov*** (Çərəkən k.), ***İldırım Fərhadoğlu, Elşən Əliyev, Tahir Yusifov, Elbrus Yusifov, Məhəmməd Muradov***, istedadlı muğam ifaçısı, bir sıra telemüsabiqələrin qalibi olan ağbirçək "əməkdar artist" ***Xanım nənə***, məşhur qara zurna ifaçısı, 1987-ci ildə Moskvada keçirilən Ümumittifaq xalq yaradıcılığı festivalının laureatları ***Xurşud Əliyev*** (Yarəhmədli k.) və ***Şamil Əhmədov***, mahir balaban və klarnet ifaçısı ***Nadir Nəsirov (Nadir Cəbrayıllı)***, tarzən ***Bilal Vəliyev***, onun qardaşı, istedadlı tarzən ***Nəriman Vəliyev***, digər tarzənlər ***Zahid Kazımov, Fərəməz Əliyev***, kamança ifaçısı ***Əli Quliyev***, gitaraçı

***Məhəmməd,*** qarmonçu ***Qasım,*** məşhur nağaraçalan ***Aydın Hüseynov,*** arenjemançı-bəstəkar ***Anar Vəliyev,*** Cəbrayıl rayon musiqi məktəbinin direktoru ***Fariz Vəliyev,*** həvəskar artistlərdən ***Cəbrayıl İsmayılov, Cəfər Məmmədov, Mədinə Əliyeva, Sayalı Miriyeva, Bilqeyis Həsənova, Simuzər Hüseynova,*** tanınmış rəssamlar - ***Şamo Abbasov, Yavər Əsədov, Rafiq Quliyev, Elçin Əliyev, Elmar Ələkrəmov, Fəxrəddin Məmmədvəliyev, Bayram Hacıyev, Nizami Süleymanov, Rövşən Hacıyev,*** XX əsr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, folklorçu-ədəbiyyatşünas ***Yaqub İsmayılov,*** M.F.Axundov adına Opera və Balet teatrının baş rejissoru, əməkdar incəsənət xadimi ***Hafiz Quliyev,*** tanınmış el ağsaqqalı, *"Qırmızı Əmək Bayrağı"* və *"Oktyabr İnqilabı"* ordenli təsərrüfatçı ***Əfsər Məhərrəm oğlu Hüseynov*** (1922 - 2005), rayonun tanınmış təsərrüfatçısı, kolxoz sədri və anbardar kimi çalışmış ***Xurmaşad Savalan oğlu Cavadov*** (1924 – 1974), tanınmış ziyalı, şahmat üzrə ustalığa namizəd, tarixçi-tədqiqatçı, bir neçə kitabın müəllifi ***Şəhriyar Quliyev,*** Abşeron Regional Səhmdar Su Cəmiyyətinin Avtomobillərin təmiri müəssisəsinin baş mütəxəssisi ***Fuad Şəhriyar oğlu Quliyev,*** uzun illər kolxoz sədri vəzifəsində işləmiş el ağsaqqalı ***Məmməd İsa oğlu Fərzəliyev*** (1920 - 2011), Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyinin direktoru, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin redaktoru, filologiya üzrə fəlsəfə doktoru ***Tariyel Abbaslı,*** Qarabağ müharibəsinin könüllü iştirakçısı, I qrup əlil, "Vətən uğrunda könüllülər" və "Milli Qəhrəmanlar" qəzetlərinin təsisçisi, vətənpərvərlik, müharibə mövzusunda olan 6 kitabın müəllifi ***Etibar Məhəmməd oğlu Məmmədli,*** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində mətbuat və informasiya şöbəsinin müdiri ***Qabil Əbilov,*** Təbriz şəhərinin komendantı və Füzuli rayonunun (*Füzuli-Cəbrayıl*) hərbi komissarı (*1958-1963*) vəzifələrində çalışmış ziyalı ***Bayram Hüseynov,*** Azərbaycan Elmi Tədqiqat Tikinti Materialları və Qurğuları İnstitutunda *"Xammal və kimyəvi analiz"* elmi tədqiqat laboratoriyasının rəhbəri, əməkdar geoloq, geologiya-mineralogiya elmləri namizədi ***Əli Məmməd oğlu İmanov.*** SSRİ dönəmində Sərhəd Qoşunları sistemində çalışmış ziyalı, polkovnik-leytenant ***Mədəd Mürşüd oğlu Səfərov,*** *"Balaxanıneft"* NQÇİ nəzdində 7-ci mədənin geoloqu və sahə rəisi ***Teyfur Abışov,*** NMA ASC-nin idarə heyətinin sədri ***Vasif Qafarov,*** Aşqarlar Kimyası İnstitutunun baş elmi işçisi, texnika elmləri na-





mizədi ***Novruz Bəşirov,*** AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda çalışan tanınmış lüğətçi ***Nəriman Seyidəliyev,*** *"Foto-Fokus"* şirkətinin prezidenti ***Əbil Hüseynov,*** Bakı şəhərindəki 922 saylı aptekin müdiri, tanınmış əczaçı ***Məhid Eyvazov,*** xeyirxah ziyalı, iş adamı ***Hümbət Nayfalı oğlu Səfərov,*** Milli Təhlükəsizlik Nazirliyinin şöbə müdiri ***Kamil Quliyev,*** Milli Təhlükəsizlik Nazirliyi orqanlarında çalışmış ***Fəxrəddin Həşimov,*** Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı ***Arif Həsənov,*** respublikanın tanınmış futbol hakimi, FİFA referisi, AFFA Hakimlər Komitəsinin sədri, AFFA İcraiyyə Komitəsinin üzvü ***Xəqani Məmmədov,*** yüngül atletika üzrə Azərbaycan çempionu, keçmiş SSRİ idman ustası ***Akif Vəliyev,*** Respublikanın Əməkdar müəllimi, Bədən Tərbiyəsi və İdman Akademiyasının Atletika və onun metodikası kafedrasının müdiri, pedaqoji elmlər namizədi, dosent, Azərbaycan Atletika Federasiyasının baş katibi ***Fİrat Hüseynov,*** güləş üzrə SSRİ idman ustaları – ***Ramiz İmanov, Həsən Həsənov, Hümbət Əhmədov,*** kikboksinq üzrə bir sıra beynəlxalq yarışların qalibi olan ***Niyazi Səmədov,*** Xəzər rayonundakı yetim və valideyn himayəsindən məhrum olan respublika yardımçı internat məktəbinin yüngül atletika idman növü üzrə müəllimi ***Günay Abbasova,*** sambo güləş növü üzrə Dağıstan Respublikasının çempionu İlkin Quliyev, karate-do üzrə Azərbaycan çempionu ***Tural Ağalarzadə,*** tanınmış boksçu ***Hüseyn Abbasov,*** İngiltərədə üçnövçülük üzrə ağırlıq (*890 kiloqram çəki*) qaldıraraq ikinci qızıl medala yiyələnib ikiqat dünya çempionu adını qazanan, 1997-ci ildə İngiltərənin Derbi şəhərində paurliftinq üzrə Avropa çempionatında uzanılı vəziyyətdə sıxma gücü ilə 220 kq ağırlıq qaldıraraq Avropa qızılının sahibi olan ***Mükərrəm Cəfərov,*** klassik güləş və *"kiqboks"* üzrə respublika çempionu ***İlkin Quliyev,*** Azərbaycan Respublikası Otüstü Xokkey Federasiyasının İcraiyyə Komitəsinin üzvü və Hakimlər Kollegiyasının sədri ***Əhməd Allahverdiyev,*** futbol üzrə beynəlxalq dərəcəli komissar, idman ustası ***Ramiz Abdullayev,*** boks üzrə respublika çempionu ***Hüseyn Abbasov,*** uzun müddət Bakı Mexaniki Tökmə zavodunun direktoru vəzifəsində işləmiş ***Qaraş Qasımov,*** Fəlsəfə və Hüquq İnstitutunun böyük elmi işçisi, fəlsəfə elmləri namizədi, vətənpərvər ziyalı ***Söhrab Məhərrəmli,*** Sabunçu rayon İcra Hakimiyyətində mülki müdafiə şöbəsinin müdiri ***Ataş Verdiyev,*** "Atatürk Mərkəzi"nin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru ***Pərvin Məmmədova,*** xaricdə azərbaycanlıla-

rın ictimai-siyasi haqlarını müdafiə edən siyasi muhacir, Azərbaycan-Türkiyə mədəni əlaqələr cəmiyyətinin sədri ***Səxavət İsmayılov,*** mərhum ziyalı, pedaqoq, şair ***Vahid Hüseynov***, İRS beynəlxalq jurnalının baş redaktoru ***Musa Mərcanlı***, Space TV-nin əməkdaşı ***Tural Xudiyev***, adı Ginnesin *"Rekordlar kitabı"*na düşmüş iti sürətlə yazan xəttat ***Fəxrəddin Vəliyev***, ağac üstündə tanınmış oyma ustası, xəttat ***Seyfəddin Məmmədvəliyev***, Rusiya səfirliyində konsul idarəsinin rəisi ***Əbülfət Quliyev***, Türkmənistanda Azərbaycan səfirliyinin katibi ***Ramiz Vəliyev***, Avstriya səfirliyinin məsul işçisi ***Ramil Fərzəliyev,*** Azərbaycanın Rusiya səfirliyindəki katibi ***Anar Ağakişiyev***, Türkiyədə konsul vəzifəsində işləyən ***İlkin Məmmədov***, SSRİ vaxtında və hazırda xarici ölkə səfirliklərində çalışan ***Arif Ağakişiyev***, Rusiyada Azərbaycan səfirliyində çalışan ***Eldar Ağakişiyev***, tanınmış təsərrüfatçı, Moskvada keçirilən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgicinin iştirakçısı və qalibi, o zamankı SSRİ dövlət başçısı N.S.Xruşov tərəfindən qiymətli hədiyyələr və ov tüfəngi ilə mükafatlandırılmış ***Həmid İsmayılov***, nümunəvi ömür yolu keçmiş geniş biliyə malik sadə insan ***Bəkir Abbasov***, bir sıra məsul vəzifələrdə çalışmış ziyalı ***Yaqub Hüseynov***, uzun illər müxtəlif məsul vəzifələrdə - Azərbaycan KP MK aparatında kadrlar şöbəsinin əməkdaşı, keçmiş Əli Bayramlı şəhər və Cəlilabad rayon PK-nin birinci katibi kimi vəzifələrdə çalışmış ***Novruz Muradov***, müxtəlif zamanlarda Cəbrayıl rayon PK-nin birinci katibi vəzifəsində çalışmış ***Vaqif Əhmədov, Abbasqulu Fərzəliyev***, vaxtilə Sabirabad rayon PK-nin birinci katibi və s. vəzifələrdə çalışmış ***Bilal Əhmədov***, Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışmış ***Kərim Kərimov, Kərəm Qara oğlu Əliyev***, müxtəlif vəzifələrdə çalışmış "Şərəf Nişanı" ordenli ***Əli Yaqubov***, AzərTAC-ın baş direktoru ***Aslan Əhməd oğlu Aslanov***, AzərTAC-ın əməkdaşı, "İki sevgi" şeirlər və tərcümələr kitabının müəllifi ***Kifayət Salmanqızı*** (*Kifayət Əliyeva*), AzərTAC-ın əməkdaşı ***Ziyadxan Həsənov***, vətənpərvər ziyalı, *"TəkNur"* Nəşriyyat və Poliqrafiya mərkəzinin direktoru, biologiya elmləri namizədi ***Ələkbər Məhəmməd oğlu Məmmədov***, C.Əhmədov adına Cəbrayıl şəhər orta məktəbinin təcrübəli riyaziyyat müəllimi ***Qardaşxan İshaq oğlu Cəbrayılov***, "Dövlət Qanunları" qəzetinin redaktor müavini, istedadlı riyaziyyat müəllimi ***İlham Qardaşxan oğlu Cəbrayılov***, Statistika Komitəsinin əməkdaşı ***Rza Mustafa oğlu***, Akademik M.Mirqasımov adına Respublika





Klinik xəstəxanasının həkimi ***Məzahir Dayandur oğlu***, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı ***İsmayıl Məhəmmədəli oğlu***, Respublika Prokurorluğunun əməkdaşı ***Zahid Çıraqəli oğlu***, Kömrük Komitəsinin məsul işçisi ***Sücəddin Cəmil oğlu***, yüzlərlə xəstələrə şəfa verən, xalq təbabətinin üsullarından xəbərdar olan loğman ***Sayla Səfiqulu qızı***, həyat yoldaşı Böyük Vətən müharibəsində itkin düşmüş əsil qeyrət təcəssüməsi olan Azərbaycan xanımı, saçının birini qara, birini ağ hörərək 6 qız böyüdüb tərbiyə etmiş ***Telli Camaləddin qızı Camalova***, 52 il (Balakən rayonunda, Gürcüstan Respublikasının Qardabani rayonunun Təzəkənd kəndində, uzun illər isə Bakı şəhərinin Binəqədi rayonundakı 3 saylı orta məktəbdə) qüsursuz pedaqoji fəaliyyət göstərmiş təcrübəli coğrafiya müəllimi ***Tamara Məhəmməd qızı Camalova (Həsənova)***, Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin "Azərbaycan coğrafiyası" kafedrasında çalışan coğrafiya elmləri üzrə fəlsəfə doktoru ***Ülviyə Tapdıq qızı Həsənova***, T.Q.Şevçenko adına Kiyev Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmiş və Politexnuk İnstitutunda (Texniki Universitet) çalışmış, Qarabağ döyüşlərində cəbhənin Füzuli rayonu ərazisində döyüşlərdə iştirak etmiş vətənpərvər ziyalı, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru ***Samir Tapdıq oğlu Həsənov***, Beyləqan rayonu Rəxşan Quliyev adına Yeni Mil kənd tam orta məktəbinin təcrübəli ibtidai sinif müəllimi ***Gülbəs Xıdır qızı İsayeva***, Beyləqan rayon Rəxşan Quliyev adına Yeni Mil kənd tam orta məktəbinin istedadlı tarix müəllimi ***Mətləb Xıdır oğlu İsayev***, 1988-ci ildə Azərbaycanda xalq hərəkatı yaranarkən onun ilk və fəal üzvlərindən biri olmuş mərd və cəfakeş xanım ***Təranə Mürsəqulova***, müxtəlif vəzifələrdə çalışmış ***Heyran Kalbalıyeva***, uzun illər Bakı Mədəni-Maarif Texnikumunun metodist müəllimi kimi fəaliyyət göstərən Üzafə Nəsirova, Respublika Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Departamentində şöbə müdiri ***Kəmalə Hüseynli***, uzun illər Nizami rayon İcra Hakimiyyətində hüquqşünas vəzifəsində çalışmış ziyalı, Əmək və Sosial Münasibətlər Akademiyasının Bakı filialında hüquq fakültəsinin dekanı ***Kamal Hacıyev***, 5 saylı Bakı şəhər xəstəxanasının reanimasiya şöbəsinin müdiri, həkim ***Fazil Vəliyev***, dəyərli ziyalı, sadə insan, Mərkəzi Seçki Komissiyasının üzvü və Bakı Dövlət Universitetinin *"Mülki-prosessual, əmək və ekologiya hüququ"* kafedrasının müdiri vəzifələrində çalışmış hüquq elmləri namizədi, dosent ***Arif Cəmil oğlu Abbasquliyev***, vax-

tilə Respublikanın Baş prokuroru vəzifəsində işləmiş tanınmış hüquqşünas, hüquq elmləri namizədi, professor, ədliyyə general-mayoru ***Murad Köçəri oğlu Babayev***, prokurorlar – ***Novruz Xudiyev*** (Zaqatala, Balakən, Qax, Göyçay, İsmayıllı, Quba rayonlarında prokuror, sonralar isə Respublika Prokurorluğunun şöbə müdiri vəzifəsində çalışmış hüquqşünas), ***Musa Quliyev*** (vaxtilə Bərdə Ağdaş, Ağdam və s. rayonlarda prokuror işləmiş I dərəcəli hüquqşünas), ***Rafiq Əhmədov*** (Gəncə şəhərinin baş prokuroru, hazırda Respublika Prokurorluğunda çalışır), ***Əyyub Əhməd bəy oğlu Fətəliyev*** (Gəncə şəhər prokuroru və s. məsul vəzifələrdə işləmişdir), Göyçay rayon prokuroru ***Ağalar Kərimov***, Cəlilabad rayon prokuroru ***Mobil Vahid oğlu İsmayılov, Soltan Turabov*** (Şahbuz rayon prokuroru), ***Məhəmməd Quliyev*** (Xaçmaz rayon prokuroru), ***Elxan Məmmədov, Hüseyn Əliyev, Hamlet Məmmədov*** (Azərbaycan Respublikasının Baş Prokurorluğunun istintaq idarəsində mühüm işlər üzrə müstəntiq), tanınmış ziyalı, Respublika Prokurorluğunun məsul işçisi ***Adil Minbaşıyev***, Qax rayon prokurorluğunun müstəntiqi, ikinci dərəcəli hüquqşünas ***Qürbət Məmmədov***, Respublika Prokurorluğunda zona prokuroru ***Hüseyn Hüseynov***, Ali Arbitraj məhkəməsinin hakimi ***Cəfər Cəfərov***, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi ***Əli Rüstəmov***, Sumqayıt şəhər məhkəməsinin hakimi ***Şövkət Nəcəfova***, Ağstafa rayon xalq məhkəməsinin sədri ***İlham Nuriyev***, Gəncə şəhər məhkəməsinin sədri, xalq hakimi ***İsmayıl İsmayılov***, Azərbaycan Respublikası İqtisad Məhkəməsinin hakimi vəzifəsində çalışmış ziyalı, hüquq elmləri namizədi, Xətai rayon Məhkəməsinin hakimi ***Raziyə Hüseyn qızı Ataşova***, Bakı şəhər hərbi məhkəməsinin əməkdaşı, hüquqşünas ***Mirzəli Abbasov***, hazırda ədliyyə orqanlarında çalışan ***İnşallah Quliyev***, Sumqayıt şəhər prokurorluğunun baş müstəntiqi ***Valeh Məmmədov***, Binəqədi rayon prokurorunun köməkçisi, vətənpərvər hüquqşünas ***Eldar Həmzəyev***, Ədliyyə Nazirliyində nazir köməkçisi vəzifəsində çalışmış ***Süleyman Ağayev***, Ədliyyə Nazirliyi Məhkəmə Qərarları Baş İdarəsinin məhkəmə qərarları icrası idarəsinin təlim-tədris mərkəzinin rəisi ***Akif Quliyev***, Ədliyyə Nazirliyinin şöbə müdiri ***Misir Əliyev***, Ədliyyə Nazirliyinin əməkdaşı, polkovnik-leytenant ***Hüseynqulu Əliyev***, vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (Xankəndi şəhəri) prokurorluğunun və Şəmkir rayon prokurorluğunun müstəntiqi vəzifələrində çalışmış ***Zakir Muradov***, Cəbrayıl rayon məhkəməsinin məsləhətçi-məhkəmə iclas katibi ***İsa Hacıyev***, Lənkəran qarnizonunun hərbi prokuroru ***Məhəmməd Allahverdiyev***, Cəbrayıl rayon hərbi komissarı vəzifəsində çalışmış ***Azər Əliyev***, Saatlı rayon hərbi komissarı ***İsa Xudiyev***, uzun illər hərbi komissarlıq sistemində çalışmış ***Novruz Səfərov***, hərbçi-polkovnik ***Oruc Hacıyev***, hərbçi-mayor ***Azər Baxşəliyev***, hərbçi-mayor ***İlqar Seyidəliyev***, hərbçi-mayor ***Mirzə Sərxan oğlu Fərəcov***, "*N*" saylı briqadanın qərargah rəisi vəzifəsində çalışmış ***Şahin Qəhrəmanov***, qabaqcıl maarif xadimi, Respublika Təhsil Nazirliyinin Texniki Yaradıcılıq Mərkəzinin direktoru ***Qorxmaz Əliyev***, "*Azərsu*" Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri ***Qorxmaz Hüseynov***, uzun illər "*Bakı Çinar Soyuducuları ASC*"-də sədr müavini vəzifəsində çalışmış ***Etibar Həmzəyev***, Azərbaycan Dəmir Yolları QSC Sərnişin Daşımaları Departamentinin rəisi, əməkdar mühəndis ***Elyar Həbib oğlu Muradov***, "*Kaspar*" zavodunun baş anbardarı ***Asif Həmzəyev***, tanınmış kinoaktyor, Respublikanın xalq artisti ***Şahmar Ələkbərov***, uzun illər müxtəlif vəzifələrdə (Xələfli kənd sovetinin sədri və s.) çalışmış ağsaqqal-ziyalı ***Əkbər Əli oğlu Əhmədov***, mühasibat sistemi üzrə təcrübəli mütəxəssis ***Hümbət Məhəmməd oğlu Əhmədov***, Naxçıvan MR Daxili İşlər Naziri, general-leytenant ***Əhməd Əhmədov***, vaxtilə Berlin şəhərinin komendantı olmuş görkəmli hərbçi-komissar, Azərbaycan Respublikası Hərbi Komissarının müavini vəzifəsində çalışmış polkovnik ***Müzəffər Hacıyev***, Səbail (keçmiş İyirmialtılar) rayonunun polis (*milis*) şöbəsinin rəisi ***İsmayıl Hacıyev***, görkəmli hüquqşünas, ictimai xadim ***Ruslan Hacıyev***, vaxtilə Cəbrayıl rayon polis (*milis*) şöbəsinə rəhbərlik etmiş ***Muxtar Əmiraslan oğlu Səfərov*** (*1896, Mirzəcanlı kəndi - 1969*), ***Xanlar Səməd oğlu Həsənov*** (*1892, Mirzəcanlı kəndi - ...*), ***Şamil Salman oğlu Məmmədov*** (*1908, Keçəlməmmədli kəndi – 1977, Bakı*), cəsur polis işçisi, Qarabağ müharibəsində şərəfli döyüş yolu keçmiş polkovnik ***Vaqif Əfsər oğlu Məhərrəmov***, Cəbrayıl rayon Polis İdarəsinin rəisi, polkovnik-leytenant ***Araz Vəli oğlu Şahverdiyev***, ehtiyatda olan polis polkovniki ***Hüseyn Əhmədov***, polkovniklər – ***Səxavət İsmayılov, Məmməd Məmmədov, Həsən Vəliyev, Mədət Səfərov, Əli Quliyev***, Qarabağ müharibəsinin iştirakçısı, Cəbrayıl rayon polis şöbəsinin rəis müavini, polkovnik-leytenant ***Vaqif Yaqub oğlu Hüseynov***, Binəqədi rayon polis idarəsinin rəis müavini ***Emin Əli oğlu Həsənov***, Azərbaycan DİN Nəqliyyat Polisi sistemində ça-

lışmış polkovnik ***Famil Qurbanov***, Cəbrayıl rayonunun ilk polis zabit qadını, baş leytenant ***Şəfiqə Qərib qızı Quliyeva***, 1982-1984-cü illərdə Göyçay rayon polis şöbəsinin rəisi vəzifəsində çalışmış ***Əmirxan Süleymanov***, DİN-də ekspertiza şöbəsinin əməkdaşı, polis polkovnik-leytenantı ***Nazim Qurbanov***, uzun illər Daxili İşlər Orqanlarında (*Sabunçu rayon milis şöbəsinin rəisi* və s. vəzifələrdə) qüsursuz xidmət göstərmiş ***Mənsur Həsənov***, Nəsimi rayon polis idarəsi, 22-ci polis bölməsinin rəisi ***Mahir Əli oğlu Məmmədov***, Zərdab rayon polis şöbəsinin məsul işçisi, mayor ***Mədət Hümbətalı oğlu Hümbətalıyev***, DİN-nin I dərəcəli mütəxəssisi, mayor ***Süleyman Oruc oğlu Süleymanov*** (1927 - 1993), DİN-də tanınmış əməliyyatçı, polis zabiti ***Müslüm Abbasov*** (1950 - 2004), DİN Cəbrayıl rayon DİŞ-nin əməliyyat üzrə rəis müavini vəzifəsində çalışmış polis polkovnik-leytenantı ***Firad Zülfəli oğlu Məmmədov*** (1951 - 2002), Cəbrayıl rayon DİŞ-nin sahə müvəkkili vəzifəsində çalışmış mayor ***Qəhrəman Süleyman oğlu Həmidov*** (1951 - 2005), DİN DAM-ın Yevlax şəhərində Rayonlararası Qeydiyyat İmtahan bölməsinin rəisi vəzifəsində çalışmış ***Murtuza Yaqubov***, Azərbaycan Respublikası DİN-də pasport işi, viza və qeydiyyat idarəsinin inspektoru, polis polkovnik-leytenantı ***Kamil Həsənov***, polis mayoru ***Rəşad Hacıyev***, Abşeron rayon polis şöbəsinin inspektoru, polis mayoru ***Vidadi Məmmədov***, Sumqayıt şəhər polis idarəsinin müstəntiqi ***İmamqulu Quliyev***, Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında taqım komandiri, kapitan ***Zahir Babaşov***, Bakı şəhər Baş Polis İdarəsi Çevik Polis Alayının rota komandiri, polis polkovniki ***Məmməd Hacıyev***, AR Polis Akademiyasının cinayət hüququ kafedrasının baş müəllimi ***İmrəli Məmmədli***, Bakı Metropoliteni polis idarəsinin rəis müavini vəzifəsində çalışmış polis polkovniki ***Adil Haqverdiyev***, İsmayıllı rayon polis şöbəsinin rəis müavini vəzifəsində çalışmış ***Fəxrəddin Hüseynov***, İmişli dəmiryol polis şöbəsinin rəisi, polkovnik-leytenant ***Məcnun Yunusov***, uzun illər Füzuli RPŞ-də Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi bölməsinin rəisi vəzifəsində çalışmış polis mayoru ***Allahverdi Atayev***, Moskva şəhər Çeryomuşkin rayon polis şöbəsinin istintaq bölməsinin rəisi, polis polkovnik-leytenantı ***Etibar Savalan oğlu Həsənov***, hazırda Rostov şəhərində yaşayan hərbçi-polkovnik ***Mürsəl Əliyev***, Füzuli rayon hərbi komissarı, polkovnik ***Zakir Vəliyev***, OADKYC-nin Bakı şəhəri üzrə cəmiyyətinin sədri, mayor ***Əşrəf Əhmədov***, Azərbaycan Respublikası





Müdafiə Nazirliyinin hərbi hospitalının baş cərrahı, polkovnik ***Səxavət Allahverdiyev***, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hospitalının cərrahı ***Rəfail Əhmədov***, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin baş hərbi terapevti ***Rafiq Quliyev***, Daxili Qoşunların zabiti ***Sadıq Quliyev***, Müdafiə Nazirliyinin şöbə müdiri ***Əli Quliyev***, Sərhəd Qoşunları zabiti, həkim, şöbə müdirinin müavini ***Sabir Atalıyev***, ehtiyatda olan hərbçi-polkovniki ***Famil Nəcəfov***, Azərbaycan Respublikası Müdafiə Nazirliyində təşkilat-səfərbərlik İdarəsinin rəisi, polkovnik-leytenant ***Anatoli Hacıyev***, hərbçi-polkovnik ***Hüseyn İsmayılov***, Almaniyada yaşayan iş adamı ***Elçin Qərib oğlu Mehdiyev***, Sankt-Peterburqda yaşayan biznesmen ***Oqtay Əkbər oğlu Kərimov***, Sankt-Peterburq şəhərində yaşayan biznesmenlər - ***Rasim Həsən oğlu Hacıyev*** və ***Anar Vaqif oğlu Rüstəmov***, Fransada yaşayan iş adamları - ***Fərman Nəriman oğlu Əsədov***, ***Rövşən Fərman oğlu Əsədov***, Moskva şəhər prokurorluğunun müstəntiqi ***Əvəz Savalan oğlu Həsənov***, Moskvada yaşayan biznesmenlər - ***Elşən*** və ***Əli Musayev*** qardaşları, Moskva Elmi Tədqiqat İnstitutunun elmi işçisi ***Xalidə Şamil qızı Yəhyayeva***, Rusiya Federasiyasının Krasnoyarsk vilayətində yaşayan ***Məhəmməd Kalbalıyev***, *"Qabaqcıl maarif xadimi"*, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi işçisi ***Tofiq Şirin oğlu Məmmədov***, geologiya-minerologiya elmləri üzrə tanınmış alim ***Nurəddin Yusifov***, tanınmış kimyaçı alim ***Nüsrət Şükürov***, tanınmış hüquqşünas-alim, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin müəllimi, *"Xudafərin ziyalıları"* cəmiyyətinin sədri ***Rafiq Quliyev***, Sumqayıt Dövlət Universitetinin fəlsəfə kafedrasının dosenti, fəlsəfə elmləri namizədi ***Əli Behbudov***, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xarici əlaqələr şöbəsinin müdiri ***Fikrət Babayev***, AR İqtisadi İnkişaf Nazirliyinin baş məsləhətçisi ***İba Həsənov***, bir sıra məsul vəzifələrdə çalışmış ziyalı, hazırda sahibkarlıq fəaliyyəti ilə məşğul olan ***İsa İsayev***, Gömrük orqanları sistemində çalışan ziyalı ***Musa İsmayılov***, onun həmkarı, Hava Nəqliyyatında Baş Gömrük idarəsinin baş müfəttişi ***Nizami Məmmədov***, uzun illər Qalacıq kənd sovetinin sədri vəzifəsində çalışmış ağsaqqal-ziyalı ***Rəfayıl Məmmədov***, Hovuslu kənd sovetinin sədri vəzifəsində işləyən ***Vasif Qocayev***, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dilşünaslıq eksprtizası, ictimai məsələlər və analitik təhlil şöbəsinin müdiri vəzifəsində çalışmış ***Ceyhun Məmmədov***, Azərbaycan

televiziya və radio verilişləri ASC-də rejissor ***Safo Abbasov***, Azərbaycan televiziya və radio verilişləri ASC-də rejissor ***Nadir Diridağlı***, istedadlı televiziya rejissoru ***Vahid Quliyev***, Azərbaycan Respublikası ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin maliyyə departamentinin rəisi ***Sabir Xıdır oğlu Səfərov***, Sərhəd Qoşunları orqanlarında xidmət etmiş hərbçi-zabit, ***Qədir Məcnun oğlu Məmmədov***, Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının əməkdaşı ***Namiq Oqtay oğlu Məmmədov***, Cəbrayıl Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsində çalışmış ziyalı ***Oqtay Mahmud oğlu Məmmədov***, Cəbrayıl rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışan ***Fikrət Mahmud oğlu Məmmədov***, vətənpərvər ziyalı, cəsur polis işçisi ***Məcnun Hümbətəli oğlu Yunusov***, tanınmış pedaqoq, tarixçı ***Seyidəli Məhərrəmov***, təcrübəli mexanik ***Barat Allahverdi oğlu Məhərrəmov***, tanınmış bədii qiraətçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru ***Məleykə Məmmədova***, hazırda təqaüddə olan dövlət məmuru ***Sadıq Məmmədov***, *"Qırmızı Əmək Bayrağı"* ordenli ***Sahib Hacıyev***, *"Standart-qrup"* Holdinqdə sex rəisi vəzifəsində çalışan ***Ənvər Babayev***, *"AER"* şirkətinin prezidenti ***Adil Şərifov***, Plan-İqtisad Texnikumunun direktoru, iqtisad elmləri namizədi ***Mübariz Mahmudov***, filologiya üzrə fəlsəfə doktoru, Bakı Slavyan Universitetinin *"Müasir Azərbaycan dili"* kafedrasının müəllimi ***Günel Rəhman qızı İsayeva***, Bakı Slavyan Universiteti Bədən tərbiyəsi və idman kafedrasının baş müəllimi və BSU məktəb-lisey kompleksinin müəllimi, tanınmış voleybolçu, Qarabağ müharibəsi veteranı ***Məhəmməd Süleyman oğlu Heydərov***, Bakı Slavyan Universitetinin *"Azərbaycanşünaslıq"* tədris-mədəniyyət mərkəzinin təcrübəli laborantı ***Nigar Nadir qızı Novruzova***, Azərbaycan Sosial Rifah Partiyası Qadınlar Şurasının üzvü, Sosial İqtisadi İdeyalar İnstitutu İctimai Birliyinin icraçı direktoru ***Səadət Səyavuş qızı Hüseynova***, kommersiya fəaliyyəti ilə məşğul olan inşaatçı-mühəndis ***İlqar İsmayılov***, *"Orxan"* kiçik müəssisəsinin direktoru, Neftqaztikinti Trestinin Səyyar Mexanikləşdirmə İdarəsinin rəisi ***Fərmayıl Məmmədov***, *"Texnikabank"* İdarə Heyətinin sədr müavini ***Samir Baxşəliyev***, tanınmış xeyriyyəçi, *"Xudafərin"* şadlıq sarayının direktoru ***Siyavuş Əsgərov***, biznesmen ***Hidayət Xəlilov***, Mahaçqala Dövlət Universitetinin dosenti ***Hümbət Əliyev***, Rusiyanın Sankt-Peterburq şəhərində yaşayan biznesmen ***Rüstəm Rüstəmov***, uzun illər Rabitə və İnformasiya Texnologiyası Nazirliyinin mətbuat xid-





mətinin və *"Rabitə dünyası"* qəzetinin əməkdaşı kimi fəaliyyət göstərmiş ***Valeh Məmmədov***, görkəmli məktəbdar müəllimlərdən – ***Kərbəlayı Nazar, Hacı Aləvi***, XX əsrin 30-cu illərində rayon təhsil sisteminin yaradılmasında, xüsusilə, təlim prosesinin təşkilində böyük zəhmətləri olan nüfuzlu müəllimlər – ***Qafar Əliyev, Hüseyn Həsənov, Məmməd Verdiyev, Şirin Zeynalov, Zəkəriyyə Mehdizadə, Xanlar İsmayılov, Bilal Əhmədov***, Cəbrayıl rayonu üzrə Respublikanın qabaqcıl maarif xadimlərindən olan tanınmış ziyalılar - *"Lenin"* ordenli müəllimlər - ***Muxtar Yusifov*** (Qori Müəllimlər Seminariyasının məzunu), ***Lətif Əhmədov***, *"Lenin"* və *"Qırmızı Əmək Bayrağı"* ordenli tanınmış cəfakeş müəllim ***Əminə Həmid qızı Əbilova*** (biologiya); *"Qırmızı Əmək Bayrağı"* ordenli müəllimlər - ***Cəbrayıl Hacıyev, Sahib Bayramov***; *"Şərəf Nişanı"* ordenli müəllimlər ***Fərman Quliyev, Rzaqulu Hacıyev***; sinəsi söz xəzinəsi ilə dolu olan, pedaqoji elmlər namizədi, respublikanın əməkdar müəllimi ***Əlif Əhmədov***, *"Azərbaycanın əməkdar müəllimi"* fəxri adının digər daşıyıcıları - M.Mehdizadə (keçmiş *"M. Qorki"*) adına Cəbrayıl şəhər orta məktəbinin 41 il müddətində direktoru vəzifəsində işləmiş dəyərli ziyalı ***İslam Həmzə oğlu Məmmədov*** (riyaziyyat), ***Əli Əlizadə*** (ibtidai sinif), ***Rəşid Əsəd oğlu Məmmədov*** (riyaziyyat), ***Bəhlul Həsənov, Hüseyn Əliyev, Cəlil Xəlilov***, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin *"Fəxri fərmanı"* ilə təltif edilmiş ziyalı, ali kateqoriyalı metodist müəllim ***Oruc Əliş oğlu Rzayev***; *"maarif əlaçısı"*, ali kateqoriyalı metodist-müəllim ***Bahadır Həsənqulu oğlu Mehdiyev***, ali kateqoriyalı metodist-müəllim, 1988-ci ildən M. Mehdizadə adına şəhər orta məktəbinin direktoru vəzifəsində çalışan tanınmış ziyalı ***Müzəffər Mirzalı oğlu Sadıqov***, ali kateqoriyalı metodist müəllim ***Azad Şirinov***, ali kateqoriyalı metodist müəllim ***Ataş İsmayılov***, ali kateqoriyalı metodist müəllim ***Rəşid Məhərrəmov***, ali kateqoriyalı metodist müəllim ***Rasim Məmmədov***, ali dərəcəli müəllimlər – ***Arif Xəlilov, Tofiq Əliyev, Südabə Ağakişiyeva***, vaxtilə bir sıra məsul vəzifələrdə, eləcə də Cəbrayıl rayon təhsil şöbəsinin müdiri vəzifəsində çalışmış ***Qorxmaz Novruz oğlu Bayramov***, uzun illər Cəbrayıl rayon təhsil şöbəsinin müdiri vəzifəsində çalışan ***Validə Həsənova***, Cəbrayıl rayon təhsil şöbəsinin metod-kabinet müdiri ***Əbülfət Zaman oğlu Əhmədov***, tanınmış pedaqoq, Bakı Dövlət Sosial-İqtisad Kollecinin ali dərəcəli fizika-riyaziyyat müəllimi ***Səfiyar Həsənov***, eləcə də rayonun tanınmış digər

müəllimləri - ***Əşrəf Abbasov, Məhəmmədəli Həsənov, Misir Cəbrayılov, Hüseyn Rəhimov, Allahverdi İmanov, Sahib Bayramov, Sona Mehdiyeva, Ələsgər Əliyev, Hüseyn Hüseynov, Həcər Hüseynova, Əziz Musayev, Zoya Pankova, Xalis Hüseynov, Şirin Kazımov, Əvəz Məmmədov, Yunis Yunisov, Oruc Quliyev, Şahsuvar Yusifov, Əyyub Murtuzayev, Şirin Məmmədov, Cavanşir Hüseynov, Ənvər Süleymanov, Abbas Rüstəmov, Osman Vəliyev, Əliş Hacıyev, Famil Nəcəfov, Fərəc Həziyev, Abbas Abbasov, Bəkir Abbasov, Bilal Əhmədov, Rzaqulu Hacıyev, Yaqub Hüseynov, Yusif Talıbov, Çingiz Həsənov, Səfqulu Quliyev, Səxavət Məhərrəmov, Vaqif Verdizadə, Yusif Bəşirov, Adil Quliyev, Dadaş Əliyev, İsmayıl İbrahimov, Arif Əliyev, Arif Məmmədov, Məhyəddin Quliyev, Müzəffər Əsgərov, Şakir Abbasov, Şəfiqə Abbasova, Kamil Məmmədov, Şaban Verdiyev, Bəxtiyar Əliyev, Bəyiş Şirinov, Zeyqəm Əliyev, Əhməd Məhəmmədoğlu, Qabil Hacıyev, Qorxmaz Bayramov, Qüdrət Xankişiyev, Südabə Atakişiyeva, İmran Bəyişov, Süleyman Alıyev, Mahmud Məmmədov, Məhəbbət Şahverdiyev, Məhəmmədəli Hüseynov, Əyyub Quliyev, Ümidvar Məmmədov, Rauf Musayev, Ərşad Mehdiyev, Ənvər Mehdiyev, Fərman Mehdiyev, Məmmədalı Quliyev, Murad Mirkişiyev, Fehruz Babayev, Etelya Quliyeva, Eyvaz Rüstəmov, Ənvər Məhəmmədoğlu, Qənbər Əhmədov, Sabir Rəhimov, Məhəmməd Aslanov, Əhməd Məmmədov, Ənvər Məmmədov, Sədaqət Məmmədov, Müseyib Məmmədov, İbrahim Rzayev, Həsən Məmmədov, Nazim Alıyev, Hüseyn Nəbiyev, Solmaz Məmmədova, Məhəmmədəli Zamanov, Zakir Qaraşov, Süleyman Salmanov, Məhəmmədəli Səfərov, Arif Zamanov, Əli Məmmədov, Mustafa Balacayev, Tağı Zamanov, Məhəmmədəli Abbasov, Yusif Yusifov, Əli Cavadov, Məhəmmədəli Camalov, Hüseyn Mikayılov, Yunis Hümbətəliyev, Dilarə Əhmədova, Raya Allahverdiyeva, Solmaz Quliyeva, Səxavət Həsrətov, İslam İsmayılov, Nəsir Səfərov, Telman Talıbov, Məzahir Əhmədov, Fərrux Həsənov, Taleh Qaraşov, Alim Babayev*** və yüzlərlə başqalarının adını çəkmək olar. Onu da qeyd edim ki, hazırda respublikamızın müxtəlif ali və orta təhsil ocaqlarında ümumilikdə ***300*** nəfərdən çox cəbrayıllı elm adamı - *professor, elmlər doktoru, elmlər namizədi, dosent* çalışır. Bu və ya digər səbəbdən yuxarıda adını çəkə bilmədiyim cəbrayıllı ziyalılar yəqin ki, məni bağışlayarlar. Çünki toplaya bildiyim, gücüm çatan bu qədər oldu...





Məlum ***Qarabağ müharibəsi*** zamanı - XX əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində xain erməni qonşularımızla torpaqlarımızın bütövlüyü uğrunda aparılan bu müharibədə ***4000*** nəfərdən çox ***cəbrayıllı*** silaha sarılaraq doğma ***V***ətən uğrunda erməni işğalçıları ilə mübarizəyə qalxdılar. 90-cı illərin əvvəllərində Cəbrayıl rayon polis şöbəsinin rəisi Rəşid Məmmədovun rəhbərliyi ilə keçirilən bir neçə uğurlu əməliyyatlarda cəbrayıllı igidlər Xocavənd (keçmiş *Hadrut*) rayonunun 13 yaşayış məntəqəsini ələ keçirə bilmişdir. Döyüş meydanlarında düşmənə layiqli dərs verən cəbrayıllılar erməni faşist qruplaşmalarına qarşı ləyaqətlə, hünərlə, qəhrəmanlıqla vuruşmuşdurlar. Bu müharibədə **380** nəfər cəbrayıllı şəhidlik zirvəsinə yüksəlmişdir. *Azərbaycanın Milli Qəhrəmanı* kimi yüksək fəxri ada layiq görülmüş ***Şikar Aslanov, Kazım Məmmədov, Mətləb Quliyev, Vüqar Hüseynov, Vahid Quliyev, Akif Əkbərov***, eləcə də Vətən uğrunda canından keçən ***Adillər, Azərlər, Baratlar, Cabbarlar, Elbruslar, Elmanlar, Elsevərlər, Elşənlər, Etibarlar, Faiqlər, Fuadlar, Hikmətlər, Hümbətlər, Hüseynlər, İlhamlar, İsgəndərlər, Qədirlər, Mehmanlar, Muradlar, Mübarizlər, Nazimlər, Pəhləvanlar, Pənahlar, Rafiqlər, Ramillər, Ramizlər, Rövşənlər, Rüfətlər, Sahiblər, Samirlər, Söhrablar, Şakirlər, Şəriflər, Təvəkküllər, Vidadilər, Yunislər, Yusiflər, Zahidlər, Zaurlar, Zeynallar*** və daha neçə-neçə *cəbrayıllılar* döyüşlərdə göstərdikləri qəhrəmanlıqları ilə bu müharibədə tarix yazdılar. ***"Mirələm"*** ləqəbli ***Sahib Quliyevin***, ***"Tiqana"*** ləqəbli, ***11*** yaşlı ***Samir Quliyevin*** qəhrəmanlıqları müharibədə bütün döyüşçülərə nümunə oldu. Girov düşmüş Cəbrayıl şəhər sovetinin sədri ***İlqar Mehdiyevin*** əsirlikdə amansız işgəncələrə baxmayaraq, göstərdiyi vətənpərvərlik nümunəsi - üçrəngli ay-ulduzlu bayrağımıza məhəbbəti, sədaqəti, bu bayrağı təhqir etmək istəyən düşmənlərə qarşı atdığı adekvat addımları indi dillərdə əzbərdir. Torpağa bağlılığın ifadəsi idi ki, Daşveysəlli kənd sakini ***Hüseyn Ataş oğlu Hüseynov*** coxlarının, hətta istəkli övladlarının təkidlərinə baxmayıb, vətənpərvərlik nümunəsi göstərərək işğal zamanı kəndini tərk etməmişdir. Uzaq Macarıstanda Azərbaycan bayrağını təhqir etdiyi üçün erməni zabitini qətlə yetirən Milli Ordumuzun zabiti ***Ramil Səfərov*** və onun qəhrəmanlığı haqqında eşidib-bilməyən yəqin ki, yoxdur. Bəli, ***Cəbrayıl torpağı*** haqlı olaraq bu cür vətənpərvər övladları, oğulları ilə fəxr edir.

Azərbaycanın qədim və zəngin tarixə malik müqəddəs Cəbrayıl bölgəsinin keçmişini, bu gününü araşdırmaq, mövcud tarixi qaynaqların işığında bəzi qaranlıq məqamları aydınlaşdırmaq əlbəttə, mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, hesab edirəm ki, hər bir bölgə, tayfa və s. haqqında tarixi həqiqətlərin deyilməsinə bu gün böyük ehtiyac var.

Cəbrayılın rayonlar içərisində özünəməxsus yeri vardır. ***Cəbrayıl rayonu*** zəngin coğrafi landşafta malikdir. Məhz elə bu səbəbdən, rayon ərazisində çoxlu sayda müxtəlif tipli toponimlər qeydə alınmışdır. Bu toponimlər yarandığı dövrün ictimai-siyasi, mədəni həyatını özündə əks etdirən, keçmişin qaranlıqlarına işıq salan çox qiymətli tarixi incilərdir. Onlarda ulu əcdadlarımızın adət-ənənəsi, xalqımızın qədim tarixi, zəngin mədəni irsi, dini, dili, məşğuliyyəti və s. yaşayır. ***Cəbrayıl rayonu*** ərazisində patronimik (*nəsil adları*) və antroponimik (şəxs *adları*) toponimlər, eləcə də çoxlu sayda etnotoponimlər (*tayfa adları*) mövcuddur.

Arxeoloji tədqiqatlar zamanı ***Cəbrayıl rayonu*** ərazisində Atabəylər (*XI - XII* əsrlər), Hülakülər (*XIII - XIV* əsrlər) və sonrakı dövrlərdə kəsilmiş pullar aşkar olunmuşdur. Antik dövr müəllifləri (*Strabon, Ptolomey, Plini* və başqaları) bu bölgənin təsərrüfat həyatından bəhs edərkən torpaqların məhsuldarlığı ilə bərabər, burada yaşayan əhalinin taxıl yetişdirdiklərini, üzümçülüklə məşğul olmalarını da qeyd etmişlər...

***Cəbrayıl rayonu*** zəngin ***arxeoloji abidələri, tarixi memarlıq inciləri, ziyarətgahları*** ilə də məşhurdur. Onlara nümunə olaraq *Şıxlar mağarası* (daş dövrü, Şıxlar kəndi), *Divlər sarayı* (daş dövrü, Çələbilər kəndi), *Torağaytəpə yaşayış yeri* (ilk tunc dövrü, Şükürbəyli kəndi), *Karxulu kurqanları və yaşayış yeri* (tunc dövrü, Karxulu kəndi), *İmanqazan təpələri* (tunc dövrü, Şıxlar kəndi), *Məscidtəpə kurqanı* (tunc dövrü, Qalacıq kəndi), *Naftalı kurqanları* (son tunc və ilk dəmir dövrü, Naftalılar kəndi), *Qışlaq kurqanları və yaşayış yeri* (son tunc və ilk dəmir dövrü, Qışlaq kəndi), *Hovuslu kurqanları* (son tunc və ilk dəmir dövrü, Hovuslu kəndi), *Cinlitəpə yaşayış yeri* (ilk dəmir dövrü, Horovlu kəndi), miladdan öncə III minilliyə aid *Siklop tikililəri* (Tatar kəndi), miladdan öncə III - II minilliklərə aid *Canqulu* və *Qumtəpə kurqanları* (Mahmudlu kəndi), miladdan əvvəl III - II minilliklərə aid olan *Məscid təpəsi* (Qalacıq kəndi), miladdan əvvəl II minilliyə aid *"Şəhərcik qalıqları"*, *Qışlaq yerləri* (Şıxalıağalı kəndi), miladdan öncə V əsrdə inşa edilmiş 11 aşırımlı *Xudafərin*





*körpüsü* (Qumlaq kəndi), miladdan öncə inşa olunmuş 15 tağlı *Xudafərin körpüsü* (Qumlaq kəndi), yaşı 2000 ili haqlamış *Kəhriz* (Mahmudlu kəndi), *Qaladağ qalaçası və yaşayış yeri* (ilk orta əsrlər, Qalacıq kəndi), V - VI əsrlərə aid *Qala bürcü* (Sirik kəndi), V - VII əsrlərə aid *Sirik qalası* (Sirik kəndi), *Ağoğlan nekropolu* (ilk orta əsrlər, Cəbrayıl şəhəri), *Mazannənə* və ya *Mərmərnənə abidələri* (Xələfli kəndi), *Qız qalası* (XII əsr, Diridağ dağı yaxınlığında, Xələfli kəndi), XIII - XIV əsrlərə aid *Başıkəsik gümbəz* (Xələfli kəndi), XIII - XIV əsrlərə aid *Sərdabə* (Dağtumas kəndi), XIV əsrə aid *Şıxbaba türbəsi* (Şıxlar kəndi), orta əsrlərə aid *Qala qülləsi* (Sirik kəndi), *Dairəvi türbə* (XIV əsr, Şıxlar kəndi), 1307-ci ildə inşa olunmuş *Daş məqbərə* (Şıxlar kəndi), XV əsrə aid *Ərəb yazılı qoyun abidəsi* (Şıxalıağalı kəndi), orta əsrlərə aid *Xanəgah* (Şıxlar kəndi), XVI əsrə aid *Məscid kompleksi* (Çələbilər kəndi), XVII əsrə aid *Səkkizguşəli türbə* (Xubyarlı kəndi), orta əsrlərə aid *Xanəgah* (Xubyarlı kəndi), son orta əsrlərə aid *Məscid* (Çələbilər kəndi), *"Divlər sarayı"* (Dağtumas kəndi), *Məscid* (XIX əsr, Daşkəsən kəndi), *Məscid* (XIX əsr, Papı kəndi), XIX əsrə aid *Məscid* (Məzrə kəndi), *Sultan Allahverdi hamamı* (XIX əsr, Cəbrayıl şəhəri), XIX əsrə aid *Məscid* (Süleymanlı kəndi), *Xırda pir*, İspiri ocağı, *Düldül ocağı* (Balyand kəndi), *Zingir ocağı*, *Qarnıyarıq ziyarətgahı* (Cəfərabad kəndi), *Hacı Qaraman ocağı*, *Tumas Ata ziyarətgahı*, *Çomaq Ata ziyarətgahı* (Dağtumas kəndi), *Çaxmaq piri* (Tinli kəndi), *Düldül ziyarətgahı* (Hacılı kəndi), *Qarı ocağı*, *Çələbi ocağı*, *Sarı ocaq* (Horovlu kəndi), *Pir Əhməd* (Yarəhmədli kəndi), *Lalə ocağı* (Böyük Mərcanlı kəndi), *Seyid ocağı*, *Əfəndilər piri* (Əfəndilər kəndi), *Miri evi ziyarətgahı* (Quycaq kəndi), *Qərib Seyid ziyarətgahı* (Tatar kəndi), *Xubyarlı piri* (Xubyarlı kəndi), *Qərər piri* (Qərər kəndi), *İncirli pir ziyarətgahı* (Şahvəlili kəndi), *Qasım baba piri* (Minbaşılı kəndi), *Düldül ziyarətgahı* (Gödəklər kəndi), *Yel ziyarətgahı* (Çaxırlı və Əmirvarlı kəndləri), *Seyid ziyarətgahı* (Çocuq Mərcanlı kəndi), *Qara molla ziyarətgahı* (Daşkəsən kəndi), *Dağdağan ocağı* (Qumlaq kəndi) və onlarla başqalarını göstərmək olar.

XX əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan xalqı və dövləti üçün ağır, məşəqqətli bəlalar gətirdi. ***Yanvar qırğını, Meşəli, Cəmilli, Kərkicahan, Qaradağlı, Tuğ, Malıbəyli, Xocalı, Şuşa, Laçın, Xocavənd, Ağdərə, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan ...*** faciələri. Bəli, bu faciələrin sırasında ağrılı, acılı bir ***faciə*** də var: ***Cəbrayıl faciəsi*** *– 23*

*avqust 1993-cü il* tarixdə ***Cəbrayıl rayonu*** da erməni işğalçı qüvvələri tərəfindən işğal olundu. Hazırda rayon üzrə ***14 000***-dən çox ailə və ya ***62 000*** nəfər sakin köçkünlük həyatı yaşayır.

Gözəl Qarabağın cənnət guşəsi – ***Cəbrayıl***. Düşünəndə ki, ermənilər bizim necə torpaqlarımıza sahib durmaq istəyir, adam öz içindən korun-korun odlanır, göyüm-göyüm göynəyir. Qəribədir, hərdən düşünürəm ki, elə bil bizi torpaq qarğışı tutub:

*Yuxumda quruyan ağac görürəm,*
*Quruyub Allahın göydə yağışı.*
*Yuxumda qaralan ocaq görürəm,*
*Tutub bu milləti torpaq qarğışı...*

***(V.Hüseynov)***

Bəs ağrılı yaralarımıza görəsən nə vaxt məlhəm olacaqdır? Vətəndə *Vətənsiz yaşamaq dərdimizə* bir əlac, bir çarə olacaqdırmı? Bizi zor ilə müsibətli günlərə salan *milli* düşmənlərimizin bizə bəxş etdiyi bəlaların əvəzini elə Allahdanmı gözləyəcəyik? ***Qisas, mübarizə, müharibə*** haqqında fikirləşməyib çadır düşərgələrində, "*fin*" evlərində, yataqxanalarda, bizə bəxş olunan şəhərciklərdəmi öləcəyik? Yox! Əsla! Yox!!!

*Zalım əcəl, insaf elə,*
*Qəsd eləmə bilə-bilə.*
*O dağların həsrətilə*
*Hələ ölmək istəmirəm.*

*Ya bu gündü, ya sabahdı,*
*Əvvəl-axır ölüm haqdı.*
*Xalqa lazım olan vaxtı*
*Hələ ölmək istəmirəm.*

*Canda ağrı, qəlbdə qürur,*
*Ürək indi zəif vurur.*
*Xocalı qisası durur, -*
*Hələ ölmək istəmirəm.*





*Qərib məkan, qərib ölüm,*
*Pərən-pərən düşüb elim.*
*Gedib Cəbrayılda ölüm, -*
*Hələ ölmək istəmirəm.*

***(F. Abbasəlioğlu)***

Bu gün doğma ***Qarabağ***, onun cənnət guşələrindən biri olan gözəlliklər diyarı ***Cəbrayıl rayonu*** erməni təcavüzkarlarının murdar tapdağı altında sızlayır, inləyir, fəryad edir, haray çəkir, bizim hamımızı onu azad etməyə, nankor yağılardan qurtarmağa çağırır. ***Vətən*** bizdən imdad dilədiyi, kömək gözlədiyi bir anda BİZ susa və gözləmə mövqeyi tuta bilmərik. İndi biz hamımız birləşib özümüzü, sözümüzü «*Cəngi*»yə kökləməliyik:

*Didərgindi Qarabağın oğlu, qızı,*
*Yad diyarda susub tarı, sınıb sazı.*
*Həsrət ilə gözləyirik hər il yazı, -*
*Əziz Musa hey daşıyır qəm şələsi,*
*Qoy coşdursun qanımızı "Cəngi" səsi!*

* * *

*Zaman çatıb, vaxt yetişib, qardaşım,*
*Yad əllərdə əsir qalıb dağ-daşım.*
*Bu qismətlə axı necə barışım? –*
*Ayağa qalx, Cəbrayıllı balası!*

* * *

*Vüqarlı dağlarının hər qarışı tamaşa,*
*Tanrı gözəllik verib o torpağa, o daşa.*
*Dağların qol-qoladır, qayaların baş-başa,*
*Sən mənim canım, gözüm, Vətənimsən, Qarabağ!*
*Əziz Musa söyləyir sən mənimsən, Qarabağ!*

***Əziz oxucu!*** XX əsrin sonlarına yaxın baş vermiş elan edilməyən Qarabağ müharibəsində minlərlə həmvətənlərimiz, yeniyetmə gənc oğul və qızlarımız bu torpaq uğrunda canlarını fəda etdilər, qurban verdilər.

Amma onların adları xalqımızın tarixinin şanlı səhifələrində əbədi qalacaq və yaşayacaqdır. İndi növbə bizimdir - Sənin, Mənim, başqa Vətən övladlarının. Müqəddəs torpaqlarımızı, doğma Qarabağımızı, o cümlədən, cənnətməkan Cəbrayılı yağı düşməndən geri alan xilaskar SƏN, MƏN, BİZ olmalıyıq! Allah haqq işimizdə bizə yardımçı olsun!.. Amin!..

***Hörmətli oxucu!*** İşləyib geniş oxucu kütləsinin ixtiyarına verdiyim bu kitabı Cəbrayıl rayonuna və cəbrayıllılara olan sönməz məhəbbətimin, sonsuz rəğbətimin nəticəsi hesab edirəm. İllərlə yuxusuz gecələr keçirib axtarışlar apararaq indi hazır şəkildə Sizin mühakimənizə verdiyim bu kitabda çox mümkündür ki, müəyyən fikirlər yanlış, bəzi faktlar isə diqqətdən kənarda qalmış olsun. Odur ki, Sizin dəyərli fikirlərinizi, səmimi təkliflərinizi, haqlı iradlarınızı bilmək istərdim. Ola bilsin ki, bu və ya digər toponimin izahında müəyyən mübahisəli, nöqsanlı fikirlər də var. Bu ***kitab*** elə bir kitabdır ki, o, Sizdə kifayət qədər təkliflər, iradlar doğura bilər. Ona görə də bütün bunları nəzərə alıb, bu kitab haqqında tənqid, təklif, irad və arzularınızı mənə - müəllifə bildirmənizi xahiş edirəm. Sözsüz ki, gələcək nəşrlərdə Sizin təklif və iradlarınız mənim tərəfimdən mütləq nəzərə alınacaqdır. Bunun üçün Sizə əvvəlcədən öz səmimi minnətdarlığımı, dərin təşəkkürümü bildirirəm. Eyni zamanda bu kitabın xoş məramla qələmə alındığına Sizləri əmin etmək istərdim. Cəbrayıl rayonunun və cəbrayıllıların şərəfli tarixi keçmişindən bəzi məqamları gələcək nəsillərə toplayıb yadigar qoya bilməyimlə fəxr edir, bundan böyük qürur duyuram. Bu kiçik hədiyyəmi – ***Cəbrayıl ensiklopediyası*** adlı kitabımı oxumağınız istəyi ilə Sizdən hələlik ayrılıram.

*Hörmətlə:* ***Nazim Tapdıqoğlu (Vəlişov)***





## MÜQƏDDƏS QARABAĞIM

*Əzizim Qarabağı,*
*Günümün qara bağı.*
*Gorbagor olsun yağı,*
*Kor qoydu Qarabağı.*

***Qarabağım! Sən mənim doğan Günəşimsən! Ulularımızın ulu məskəni! Sən mənim döyünən ürəyim, görən gözümsən. Müqəddəs yanğımsan, içimsən, özümsən. Səni məndən ayırmaq, qoparmaq, almaq istəyirlər...***

**Qarabağ** – Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi bir vilayətdir. "***Qarabağ***" sözü mənbələrdə **VII** əsrdən başlayaraq öz əksini tapmışdır.

Cəbrayıl rayonunun ərazisinin də daxil olduğu **Qarabağ** qədim dövrlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olub. Qarabağda həmişə alban tayfaları yaşamışlar. **XX** əsrə qədər **Dağlıq Qarabağ** anlayışı mövcud olmayıb. ***Artsax*** adlanan yer Albaniyanın əyaləti olmuş, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin tərkibində **Qarabağ** adlanmışdır. Səfəvilər dövründə **Qarabağ** Azərbaycanın **3** bəylərbəyiliyindən biri idi. XVIII əsrin **40**-cı illərində o, Azərbaycanın son feodal dövlətlərindən biri olan **Qarabağ xanlığı** adlanmışdır. **14 may** 1805-ci il «***Kürəkçay***» müqaviləsinə görə, Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmiş, **1822**-ci ildə isə rəsmi olaraq ləğv edilib **Qarabağ** əyalətinə çevrilmişdir. **1840**-ci il islahatı ilə **Qarabağ** əyaləti ləğv olunaraq, əvəzində Şuşa **qəzası** yaradılmış, qəza əvvəl Kaspi vilayətinin, **1868**-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur, **1920**-ci ildən isə Azərbaycan SSR-in tərkibinə qatılmışdır.

XIX əsrin *20*-ci illərində Yermolovun tələbi və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan **18.563** ailədən yalnız **1559**-u (**8%**-i ) erməni ailəsi olmuşdur. Bundan cəmi bir neçə il sonra aparılan 1832-ci ildəki kameral sayıma görə, İran və Türkiyədən köçürülən erməni ailələrinin hesabına Qarabağda ermənilərin sayı artdı...

Fevral ayının ikinci həftəsindən (*1988*-ci il) etibarən Dağlıq Qarabağ erməniləri Müxtəlif əsassız arqumentlərlə Azərbaycana qarşı açıq surətdə ərazi iddialarına başladılar. **Fevralın 20**-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçən növbədənkənar sessiyası vilayəti "Azərbaycanın tərkibindən çıxarıb, Ermənistanın inzibati ərazi bölgüsünə daxil etmək haqqında" qərar qəbul etdi. Əlbəttə, Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin bu qərarını Konstitusiyaya zidd qəbul etdi.

**1988**-ci ilin fevralından Xankəndini (Qarabağ xanlığı Rusiyaya birləşdikdən sonra ***Xankəndi*** yaşayış məntəqəsi Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdır), eləcə də, DQMV-nin digər yaşayış məntəqələrini ermənilərin hay-küylü mitinqləri bürüməyə başladı. Moskvanın bu məsələlərdə ikiüzlü mövqeyi Ermənistanın məkrli planlarının həyata keçməsinə rəvac verdi. **21 iyun 1988**-ci il tarixdə DQMV XDS-nin sessiyası yaranmış vəziyyətlə bağlı SSRİ Ali Sovetinə mğraciət etdi. Vilayətə rəhbərlik Moskvanın səlahiyyətli nümayəndəsi, ermənipərəst Arkadi Volskiyə tapşırıldı. Onun rəhbərliyinin təkcə ikinci həftəsində (**18-21 sentyabr 1988**-ci il) Xankəndindən **12 000**-dən çox azərbaycanlı qovuldu, onların evləri yandırıldı.

Artıq *1988*-ci ilin sonunadək bütün azərbaycanlılar Ermənistandan da çıxarıldı. Çox keçmədi ki, müxtəlif dövlətlərdən dəstək alan bədnam qonşularımız **Tuğ** (30.10.1991), **Salakətin** (30.10.1991), **Xocavənd** (19.11.1991), **Cəmilli** (16.12.1991), **Meşəli** (23.12.1991), **Kərkicahan** (28.12.1991), **Axullu** (09.01.1992), **Daşaltı** (26.01.1992), **Malıbəyli** (11.02.1992), **Aşağı Quşçular** (11.02.1992), **Yuxarı Quşçular** (11.02.1992), **Qaradağlı** (17.02.1992), **Xocalı** (26.02.1992), **Şuşa** (08.05.1992), **Kosalar** (09.05.1992), **Muğanlı** (02.10.1992), **Əmiralılar** (02.10.1992), **Kuropatkin** (02.10.1992) ... faciələrini törətdilər; onlar Dağlıq Qarabağ Muxtar Vilayətini azərbaycanlısızlaşdırdılar. Bütün bunlardan həvəslənən erməni daşnakları cəmi bir il ərzində Azərbaycanın





Dağlıq Qarabağın hüdudlarından kənarda olan **Laçın** (18.05.1992), **Kəlbəcər** (02.04.1993), **Ağdam** (23.07.1993), **Cəbrayıl** (23.08.1993), **Füzuli** (23.08.1993), **Qubadlı** (31.08.1993), **Zəngilan** (30.10.1993) rayonlarını da işğal etdilər. Azərbaycanın tarixi ərazisi olan ***Qarabağ*** vilayətində **880** yaşayış məntəqəsi Ermənistan hərbi qüvvələri tərəfindən zəbt olundu. Bir milyona yaxın azərbaycanlı öz torpağında *qaçqına, köçkünə* çevrildi. Bunlardan biri də mənəm. Budur bizim acı taleyimiz!.. Sovetlər Birliyi zamanı biz beynəlmiləlçiliyə aludə olanda ermənilər öz körpələrinin də gözündə türk düşməni yaratdılar.

Taleyin diktəsi ilə Qarabağın "***qara***" keçən günləri, illəri bizim payımıza da düşdü, tez-tez yuxularımızda gördüyümüz həmin "*bağ*"da ermənilər neçə illərdir yeyib-içir, şənlənirlər. "*Babək, Koroğlu, Qaçaq Nəbi nəsliyik*" düşünəndə utanıb xəcalət çəkirikmi? Bəlkə, ayılmağın, oyanmağın, birləşməyin, düşmənə qarşı birlikdə mübarizə aparmağın vaxtı çoxdan çatıb? Yoxsa?..

Müxtəlif dövrlərə aid qədim *Qarabağ* ərazilərində, *Quruçay sahillərində, Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Uzuntəpə, Meynətəpə, Zərgərtəpə, Şomutəpə, Kültəpə, Qarabulaq kurqanlarında* və başqa yerlərdə yaşamış qədim tayfaların tarixi öyrənilib sübut olunmuşdur. ***Qarabağ*** zonasında Eneolit dövrü b.e.ə. VI-V minilliklərdən başlanmışdır. Tarixi qaynaqlardan aydın olur ki, bu dövrdə regionda qədim əkinçilik, maldarlıq təsərrüfatı və oturaq əkinçilik mədəniyyəti təşəkkül tapmışdır.

**Əziz oxucu!** Hərdən fikirləşirəm: nə qədər ki, ***Oarabağa - Xankəndinə, Şuşaya, Xocalıya, Malıbəyliyə, Quşçulara, Meşəliyə, Kosalara, Cəmilliyə, Qaradağlıya, Xocavəndə, Qacara, Tuğa, Veysəlliyə, Laçına, Kəlbəcərə, Ağdama, Cəbrayıla, Füzuliyə, Qubadlıya, Zəngilana*** və s. yerlərə əlimiz çatmır, addımımız dəymir, demək, o, hələ bizim deyil. Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə, Şirvanda, nə bilim, daha harada oturub "*Qarabağ bizimdir*" - demək asandır. Bizim Qarabağın bizimki olması üçün biz də gərək **BİZ** olaq...

Qəlbimə doğma olan Qarabağdan danışıb Azıx mağarasından, Quruçay dərəsindən söhbət açmasam, günaha batmış olaram. **XX** əsrin 60-cı illərinin ortalarında Azərbaycanın qədim daş dövrü tarixinin tədqiqi sahəsində mühüm elmi addım atıldı. Mənim müəllimim, görkəmli arxeoloq-alim ***Məmmədəli Hüseynov*** 1968-ci ilin yayında Füzuli rayonunun

mərkəzi olan Füzuli şəhərindən 16 km qərbdə, Xocavənd rayonunun Salakətin kəndi yaxınlığında yerləşən *Azıx* mağarasında apardığı qazıntı işləri zamanı **Preneandertal - Azıxantrop** adamının (**20** yaşlı qadının - *Nazim Tapdıqoğlu*) alt çənə sümüyünü aşkar etmişdir.

Məlumdur ki, ən qədim insan qalıqları planetin dörd guşəsində - Cənub-Şərqi Asiyada (Yava adası, **Pitekantrop,** 1891, Yevgeni Dyuba), Almaniyada, Heydelberq şəhəri yaxınlığında (**Heydelberq adamı**, 1907, Şeatenzak), Çində, Pekin yaxınlığında (**Sinantrop** - *"Çin adamı"*, 1927, Devitsov Bleyk), Afrikada, Tanzaniyada (**Allantrop - Prezincantrop**, Olduvay) aşkar edilib. Azıxantropun (yaşı təxminən **400** min ildir) tapıntısı ilə yeni bir kəşf də qədim insan məskənlərinə aid edildi. Bu, Azərbaycan arxeologiya elminin nailiyyəti olan böyük elmi bir kəşf idi. Bu abidə Azərbaycanda, Qarabağda qədim paleolit dövrünün mövcud olduğunu sübut etdi.

Mağara Tuğ kəndi ərazisində yerləşir. Uzunluğu 250 metr, Hündürlüyü 20-25 metr, ğmumi sahəsi 1200 kvadrat metrdir. Mağaradan tapılan materialların tədqiqi göstərdi ki, ***Azıx mağara paleolit düşərgəsi*** öz qədimliyinə, çox təbəqəliliyinə, stratiqrafit ardıcıllığına, arxeoloji zənginliyinə görə dünyada yeganə abidədir. Mağara düşərgəsi M.Hüseynovla, yanaşı, Ə.Cəfərovun, D.Hacıyevin, V.Hacıyevin, M.Süleymanovun, N.Şirinovun, V.Veliçkonun və başqa tədqiqatçıların da diqqətini cəlb etmişdir. Qədim daş dövrünə aid tapıntıların tədqiqi bunu deməyə əsas verir ki, ***Mustye mədəniyyəti*** Azərbaycanda, Qarabağda ən azı **150 min** illik bir dövrü əhatə edir (orta paleolit - *N.T.*).

Azıxantropun məskəni olan ***Azıx mağarası*** Quruçayın sol sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən Qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar "***Quruçay mədəniyyəti***" adlandırırlar. Azıx mağarasında ***Quruçay mədəniyyəti dövrü*** özünün uzunmüddətli inkişafından sonra qədim Aşel mədəniyyəti ilə əvəz olunmuşdur. ***Azıx mağarası*** Fransada Qədim İnsan İnstitutunun keçmiş SSRİ ərazisində xəritəyə aldığı başlıca daş çağı məskənidir.

XX əsrin 20-ci illərinin ortalarında görkəmli arxeoloq, etnoqraf Ə.Ələkbərov Quruçay və Kondələnçay vadisində yerli əhalinin həyat tərzini öyrənmək məqsədi ilə tədqiqat işləri aparan zaman çoxlu sayda küp qəbirlərinə rast gəlmişdir. Ə.Ələkbərov bununla da tarixi ədəbiyyatda ilk dəfə olaraq küp qəbirlərin yayılmasının tarixi coğrafiyası haqqında əvvəllər mövcud olan ehtimalları xeyli dəqiqləşdirmişdir.





Ş.Mkrtıçyan "Dağlıq Qarabağın tarixi və memarlıq abidələri" əsərində (Yerevan, 1986-cı il) yazır ki, guya Azıx mağarasında Aşel dövrünə aid erməni qadınının heykəli var. Hətta guya onun paltarı da müasir erməni qadınının paltarına bənzəyir. S.Xanzadyan həmin kitaba yazdığı rəydə göstərir: "*Azıx mağarasında Azərbaycan alimlərinin apardıqları tədqiqatlardan aydın olmuşdur ki, bu həqiqətən Aşel dövründə yaşamış erməni qadınının heykəlidir*". Əlbəttə, bu, heç bir elmi əsası olmayan cəfəngiyyatdan, tarixi bilərəkdən saxtalaşdırmaqdan başqa bir şey deyildir. Ümumiyyətlə, tarixi gerçəkliyi nəyəsə və kiməsə görə təhrif etmək, bir millətin dirçəlişini, səadətini başqa bir xalqın, millətin tarixini məhdudlaşdırmaq üçün fərqləndirmək cəhdi hər cür vətəndaşlıqdan və alimlikdən kənar hərəkətdir. Təəssüf ki, erməni alimləri bizə qarşı belə bir yol tutublar.

Erməni millətçi siyasətbazları şantaj dolu əsərlərində Qarabağı həyasızcasına özününküləşdirirlər. Amma bu "*elmi*" şantajlara qarşı bizim də söykənəcək olan kifayət qədər elmi mənbələrimiz, dəlillərimiz vardır. Lakin nədənsə gözləmə mövqeyi tutmuşuq və bunun acı nəticəsidir ki, Qarabağı hissə-hissə "*pay veririk*", M.M.Nəvvabın, X.B.Natəvanın, Q.B.Zakirin, N.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, M.M.Xəzaninin, M.C.Qarabağinin, Mirzə Adıgözəl bəyin, Əhməd bəy Cavanşirin, F.B.Köçərlinin, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun, Dirili Qurbaninin, Aşıq Pərinin, Məşədi İsinin, Bülbülcanın (Ə.Zülalov), Qaçaq Süleymanın, Üzeyir bəyin, Niyazinin, Seyidin, Xanın, Bülbülün, Cabbarın, Sadıqcanın, Hacı Hüsünün, Keçəçi oğlu Məhəmmədin və daha minlərlə tanınmış qarabağlıların ruhları bizi nəyəsə, harasa səsləmirmi?.. Xudafərin körpüləri, Hacı Qaraman, Mazannənə, Aslan və Hatəm Məlik məscidləri, Ağoğlan və Qanzasar məbədləri, Xotavəng, Arğalı, Babı, Mirəli, Bərdə, Axsadanbaba türbələri, Qarabulaq xanlarının sarayları, Qarğabazar karvansarası, dünyada analoqu olmayan Ağdam Çörək muzeyi, Qaraköpəktəpə, Məngələnata, Qarabulaq kurqanları, Tərtərçay, Qarqarçay, Köndələnçay, İncəçay, Qozluçay, Quruçay, Zərəkən zayı, Bərgüşad, Həkəri, Oxçuçay, Xonaşen çayı, Şubartu, Tamasan, Müşkabadzay və daha nələr bizi çağırmırmı?

Suverenliyi o xalq qazanır ki, suverenliyə layiq olsun. Tarixi təcrğbədən məlumdur ki, ***milli lovğalıq*** milli heysiyyətsizliyə gətirib çırarır. Bəzən deyirik ki, müasir təfəkkür səviyyəmizin dünya xalqları səviyyə-

sindən geri qalmaması üçün onu qaldırmalı, inkişaf etdirməliyik. Özümüz də qardaş-bacılarımızı ali məktəblərə pulun gücü ilə daxil edirik, diplomu onlara rüşvətlə alırıq; tarixi keçmişimizi müxtəlif millətlərin müəlliflərinin yazılı mənbələrindən öyrənirik...

***Qarabağ*** toponiminə yazılı mənbələrdə yuxarıda qeyd etdiyim kimi, ilk dəfə **VII** əsrdə (Samuel Anili) rast gəlinir. **XIII** əsrdə F.Rəşidəddin (**1284**-cü ildə) *"Cami ət Təvarix"* əsərində ***Qarabağ*** sözünü ***Aran Qarabağı*** şəklində işlədir. Əslində ***Qarabağ*** adının neçənci əsrdən formalaşması elmi şəkildə hələ tam yəqinləşməyibdir.

M.C.Cavanşir Aran məmləkətinin bir hissəsi olan **Qarabağ** vilayətinin ərazisini (sərhəddini) Xudafərin körpüsündən Sınıq körpüyə, şimaldan Gəncə ilə sərhədi Kür çayına qədər olan Goran çayı, şərqdən Kür və Araz çaylarının qovuşağına, qərb tərəfdən isə Salvartı, Kazbek, Ərikli dağlarına qədər göstərmişdir. XVIII əsrdə - ***Qarabağ xanlığı*** zamanı orada **250**-dən çox kənd olmuşdur.

***Qarabağ*** adı həm düzən, həm də dağlıq hissəyə aiddir. Konstantin Baqryanarodnıya görə, peçeneq tayfalarından birinin adı ***Karabaq/karaboq*** olmuşdur. İ.Şopen **Qarabağ** adını ***Xaraba*** sözü ilə bağlayır. Ş.Sədiyev göstərir ki, ***Qarabağ*** adı ***qara*** və ***bağ*** sözlərindən ibarətdir. Ə.Fərzəli qeyd edir ki, ***qara*** - *"böyük, nəhəng, qaranlıq, xalq, qəm, sevinc, yaraşıq..."* mənasındadır; ***bağ, baq, boq*** - *"Tanrı"* anlamındadır. M.Seyidovun fikrincə, ***qara*** - *"rəng, pis, bədbəxt, şimal, böyük, başçı, güclü..."*, ***bağ*** - *"meyvə ağacı əkilmiş sahə, ip, düyün..."* deməkdir. S.Aşurbəyliyə görə, toponim ***bağı*** qəbiləsinin adından yaranmışdır... Mənbələrdə ***bak, baq, bağ*** tayfa adına da rast gəlinir. Belə fikir də işlətmək olar ki, ***Qarabağ*** sözü (*"böyük bağ"*) tayfa adından törənmiş etnotoponimdir...

Ş.Cəmşidov ***Qarabağ*** sözünü *"şimal-qərb bağı"* kimi izahlandırır. Onun fikrincə, Qarabağ düzünə ad Beyləqandan verildiyi üçün *(Qarabağ düzü Beyləqan şəhərinin şimal-şərqində olmuşdur)* o, belə adlandırılmışdır. Bir çox mğtəxəssislər ərazidə qara üzüm yetişdirildiyindən, ***qara*** yarpaqlı bağlar olduğundan onun ***Qarabağ*** adlanması fikri üzərində dayanırlar. ***Qara*** sözünün *"böyük, rəng, qərb, ağır, nəhəng, dərin, uca, uzaq, güclü, çoxluq, tünd, sıx, qalın"* və s. mənaları da var. "***Qara***" qədim türkdilli xalqlarda "***böyük***" mənasında, "***bağ***" sözü isə fars dilində "***bağçılıq***" mənasında işlənir.





***Qarabağ*** adı iki komponentdən - ***Qara*** və ***bağ*** sözlərindən əmələ gəlmişdir. ***Qara*** sözünün çoxlu məna çalarları vardır. Onlardan biri də *"çoxluq", "çox sıxlıq"* mənası olduğu üçün ***Qarabağ*** toponimini *"çoxlu bağlı-bağatlı yer"* (***qora*** - *"üzüm"*) kimi mənalandırmaq olar.

Praazərbaycan toponimlərindən olan ***bağ*** toponimi slavyan dillərində ***boq, boğ, boh, biq*** formalarında işlənir. Bu sözün ilkin mənasını bəzi tədqiqatçılar *"tanrı", "var-dövlət"* anlamındakı "***boqat***" (boqatstvo) sözü ilə əlaqələndirirlər. ***Baq*** sözünün qədim hind dilində *"paylayan"* anlamı da məlumdur. Uzun illərdir ki, ***baq/boq*** sözünün İran dilli və ya slavyan mənşəli olması ilə bağlı mğbahisələr getməkdədir. Orxon-Yenisey abidələrində ***bağa*** sözü teonim determinativi (*"bağa"*) kimi işlədilmişdir. Mənbələrə istinad etsək, görərik ki, Midiyada Tanrıya ***Bağa*** deyilirmiş. Bir çox xalqların qədim mifologiyasında ***bağa*** (*tısbağa*) müqəddəs yerin, torpağın rəmzidir. ***Bağa*** Azərbaycanda indi də müqəddəs heyvan hesab olunur.

***Baq*** teonimi daha çox türk xalqları və onlarla kontaktda olan tayfaların dillərində işlədilir. ***Baq*** teoniminin sonrakı semantik dəyişmələri onun ***maq, mağ, bağ, bah, bağa, beq, bay*** və s. fonetik variantını ortaya çıxarmışdır. Yeri gəlmişkən, S.Aşurbəyli ***Bakı*** toponimini haqlı olaraq qədim ***baq, bak*** qəbilələrinin adı ilə bağlamışdır.

***Qarabağ*** sözündəki ***bağ*** komponenti bəzi araşdırıcılara görə, Orxon-Yenisey abidələrində adı çəkilən ***Sir*** tayfalarının ***buqu*** (***buq, buk***) elinin adının təhrif edilmiş formasıdır. Qədim «*Yevlax Qaramanlı*»dakı ***Buk*** (***Bük***) kəndinin adını da bu qismə aid etmək olar. Əvvəllər Ağdərə, Qarannıq və s. adlanmış rayonun əzəli adlarından biri ***Sir*** olmuşdur. ***Sir şəhəri*** oradakı ***Sir*** çayı sahilində mövcud olub. Qədim Xocalı və digər qonşu yaşayış məntəqələrinin nəsilləri igid və məğlub edilməz sir tayfa birliyinin nəsillərindəndir.

***Qara buqlar*** (*buqular*) Qarabağın ən qədim sakinləri olan **kart** və **saq** (***sak***) – **Kartsaq** (***Artsaq, Arsa****x*) ellərini sıxışdırdıqdan sonra ərazi *qarabuqların* adı ilə əlaqədar olaraq **Qarabuqlar** adlanmışdır. Güman ki, ***kartlilər*** (*kartelilər, kartvelilər*) sonradan dinə görə gürcüləşmişlər. Bü fikirlərin təsdiqi üçün «*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri XVI - XVIII əsrlər*» (Şuşa nəşriyyatı, Bakı, 2000-ci il) kitabına baxmaq kifayətdir. Belə bir fikir də var ki, ***Kartsaq*** (*Artsaq*) adının dəyişib **Qarabağ**

olmasına səbəb ***sir*** tayfasından olan ***budu*** tirəsi adı olub. Bu mənada ***Qarabağ*** sözü ***qara*** – *«güclü»*, *«qüdrətli»*, *«yenilməz»* və ***buq*** *(buuq)* tayfa adı ilə bağlıdır: ***Qara + buq***. Sonralar bu söz sənəd və materiallarda ***Qarabağ*** kimi yazılmışdır.

Türkiyədə, Türkmənistanda, Özbəkistanda və s. ərazilərdə də ***Qarabağ*** sözü ilə bağlı çoxlu toponimlər qeydə alınmışdır.

***Qarabağ***... Qədim vaxtlardan bu ərazi Qafqaz Albaniyasının tərkib hissəsi idi. IV əsrin 30 - 40-cı illərində baş verən hadisələrdən danışan erməni tarixçisi Favstos Buzantsi Habaid torpağının adını (Yuxarı Qarabağın böyük bir hissəsini) Albaniyada yerləşən bir ərazi kimi çəkir (*F.Buzandtsi: "Ermənistan tarixi"*, Yerevan, 1953-cü il). Alban hökmdarı Cavanşir haqqında məlumat verən *M.Kalankatlı və K.Trever* Cavanşirin *"İberiyadan Hunna"* (Dərbəndə) və Araza qədər *"Əla və mğstəqil hökmdarlığını"* göstərirlər (*M.Kalankatlı:* Albaniya tarixi, Bakı, *"Elm"*, 1993-cü il; *K.V.Trever:* Qafqaz Albaniyasının tarixi və mədəniyyəti oçerkləri, Moskva-Leninqrad, 1959-cu il)...

Müasir erməni tarixçiləri Qarabağı və Naxçıvanı qoparmaqla olmayan *"Böyük Ermənistan"* yaratmaq xəyalına düşüblər. Erməni millətçiləri özləri də bunu gizlətmirlər. Hətta bəzi erməni millətçiləri belə deyirlər ki, Kür-Araz çaylararası torpaqları Ermənistanın şimal-şərq hissəsinin özğnğn ərazisidir və *"erməni Albaniyasının bu hissəsinin əhalisi də ta qədimlərdən ermənilərdən ibarət olmuşdur."* Onlar dünyanın Müxtəlif mətbuat orqanlarında böhtanlı və saxta yazılar çap etdirərək, ədalətsiz ərazi iddialarını əsaslandırmaqdan ötrğ dəridən-qabıqdan çıxırlar.

Tarixə müraciət etsək, görərik ki, ***"Qarabağ məsələsi"*** Sovet dönəmində həmişə Ermənistan SSR tərəfindən qaldırılmışdır. Bu qayda ilə Ermənistan başqa bir suveren respublikanın daxili işlərinə qarışmaqdan çəkinməmişdir. Erməni müəlliflərinin haqsız olduğunu elmi dəlillərlə aydınlaşdırmaq üçün Azərbaycan tarixçiləri dəfələrlə elmi diskussiyalar aparılmasını təklif etsələr də, erməni tarixçiləri buna razılıq verməmişlər. Ğmumiyyətlə, onlar bu məsələlərdə hər hansı Dəyirmi Masaya yaxın düşmək belə istəmirlər.

Erməni tərtibçiləri *"Tarixi arayış"*da (Yerevan, 1988-ci il) həyasızcasına göstərirlər ki, Utilərin (Udinlərin - *N.T.*) də yaşadıqları **Artsax** *"Yerevandidt Ermənistanın tərkibində"* olmuşdur. Bu günə qədər də bu faktın





hələ heç bir elmi əsası yoxdur və təbii ki, ola da bilməz.

Tarixdən məlumdur ki, alban tayfaları Kürğn həm sol, həm də sağ sahilində yaşamışlar. Cənub-Şərqi Zaqafqaziyadakı albanlar (alban tayfa ittifaqları - *N.T.*) yerli idilər. Ermənilər isə Cənubi Qafqaz vilayətlərinə ən yaxşı halda miladın V əsrində gələ bilərdilər. Başqa sözlə desək, ermənilər Cənubi Qafqaza gəlmədirlər.

Erməni millətçiləri çoxlu təkid və səylər nəticəsində rus din qardaşları ilə birgə Sovetlər İttifaqının *"mənəm-mənəmçi"* zamanında Moskvada tərtib etdikləri xəritələrdə qonşu ölkələrə olan ərazi iddialarını gizli siyasi xətlərlə həyata keçirirdilər (Narodı i peredvijeniya Yevrope V, IV - VII vv. M., 1960), "Rus knyazlığı XII əsrdə və XIII əsrin əvvəllərində" (*Batının hücumuna qədər*) - M., 1968, "Rus knyazlığı və Qızıl Orda XII əsrdə" - M., 1960, "XVI əsr Rus dövləti" - M., 1981, "Rus dövləti XVII əsrdə" - M., 1980-ci il və s.

Qarabağın həm dağlıq, həm aran hissəsi birlikdə, ***Cəbrayıl rayonu*** da daxil olmaqla tarixən Azərbaycan feodal dövlətlərinin - **Albaniya, Girdiman, Şəddadi, Atabəylər, Hülakülər, Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər** dövlətlərinin, sonralar **Qarabağ xanlığının** ərazisi olub...

Bir sıra keçmiş sovet və erməni tarixçiləri (*Trever, Novoselsev, Yeremyan, Akopyan, Ulubabyan, Ter-Gevondyan, Sumbatyan və b.*) Kürdən cənubdakı Azərbaycan ərazisinin eradan əvvəl II əsrdən **387**-ci ilə qədər Böyük Ermənistanın tərkib hissəsi olduğunu qeyd etsələr də, görkəmli alimlərimiz Z.Bğnyadov, İ.Əliyev, F.Məmmədova və başqaları bu çürük konsepsiyaları haqlı olaraq tənqid etmişlər.

*"Alban tarixi"*ni erməni dilindən rus dilinə tərcğmə etmiş Ş.İ.Sumbatyan bir neçə yerdə *"şərq"* sözündən sonra mötərizədə *"əyalət"*, *"ölkə"* sözlərini əlavə etmişdir. Bu da "Şərq əyaləti" ifadəsinin alınmasına, Qarabağın *"Ermənistanın şərq əyaləti"* kimi mənalandırılmasına gətirib çıxarır.

Albanşünas alimlərimiz öz əsərlərində *"Şərq"* ifadəsinin *"Ermənistanın şərqi"* kimi başa düşülməsinin səhvliyini tutarlı faktlarla əsaslandırırlar. Alban tarixçisi Musa Kalankatlı xristian olduğu üçün əsərlərində əsasən, albanların xristian hissəsinin tarixini verir. *"Şərq"* və *"bizim Şərq"* isə *"alban xristianlarının şərqi"* mənasında başa düşülməlidir. Əsərdəki ***Qərb*** sözü də *"Ermənistanın qərbi"* kimi yox, *"xristian dünyasının qərbindəki Bizans"* kimi başa düşülməlidir.

*"Alban tarixi"* əsərində heç yerdə *"erməni"* adı çəkilmədiyi halda, erməni tarixçiləri coğrafi adları təhrif edərək, Aralıq, Qara və Xəzər dənizləri arasında yerləşən ərazini **Ermənistan**, orada yaşayan əhalini isə *"**ermənilər**"* adlandırırlar. Əgər doğrudan da, Albaniya Ermənistanın tərkib hissəsi olsaydı, bütün qədim erməni mənbələrində də bu ölkənin adı *"**Ağvan**"* yox, *"**Hayastan**"* olardı...

***Ermənistan*** erməni etnosunun vətəni deyildir. Həmin etnos Ermənistana gəlmədir. Herodotun vaxtında **ermənilər** Erməni yaylası deyilən ərazinin yalnız Qərb hissəsində məskunlaşmışlar. Ksenefont da Herodotun bu məlumatlarını təsdiq edir.

Tarixdən məlumdur ki, Albaniya dövləti təxminən b.e.ə. III əsrdə meydana gəlib. Bizim eranın birinci əsrindən Albaniyanı mənşəcə parfiyalı Arşagidlər sülaləsi idarə edib. Bu dövr haqqında məlumat verilən mənbələrdə göstərilir ki, Araz çayı Albaniyanın cənub sərhəddidir. Başqa sözlə, Kür və Araz çayarası ərazisi ***Albaniya*** dövlətinin tərkibində idi.

Moisey Xorenski təsdiq edir ki, utilər (*indiki udinlərin əcdadları*), hardmanlar, savdeylər, qarqarlar və s. Aranın nəsillərindən mənşə götğrmğşlər. Bunlar alban tayfalarıdır və tarixən Qarabağ zonasında yaşamışlar. Deməli, Qarabağ ərazisində yaşayan tayfaların alban mənşəli olması faktını təsdiq edən kifayət qədər mənbələr vardır...

Bizim eradan əvvəl **56**-cı ildə romalılar II Tiqranı darmadağın etdikdən sonra *"Ermənistan dövləti"* heç cür təcavüzkarlıq siyasəti apara bilməzdi, çünki o, növbə ilə Romadan və Parfiyadan asılı olmuşdur.

Albaniya isə I - V əsrlərdə bəzən Roma və Parfiya oriyentasiyasına tabe olmuşsa da, o, Ermənistandan fərqli olaraq öz mğstəqilliyini itirməmişdir. I əsr numizmatika materialları Ermənistanın siyasi taleyi haqqında mühüm məlumatlar verir: o dövrün pullarında Ermənistan Roma imperatorunun ayaqları altında oturmuş qadın obrazında, aman istəyən erməni döyüşçüsü və s. şəkildə təsvir edilmişdir. Elə həmin əsrdə Ermənistan imperator Avqustin tərəfindən Atropatenanın hakimlərinə verilib. Dion Kassinin və Tatsitin məlumatlarına görə, 30-50-ci illərdə Ermənistanda İberiya şahzadələri hökmranlıq edirdilər.

Suren Ayvazyan *"Erməni taleyi"* romanında sübut etməyə çalışır ki, guya nə qədim zamanlarda, nə də onun təsvir etdiyi XVII - XVIII əsrlərdə Azərbaycan adlı xalq olmayıb. O, göstərir ki, Naxçıvanın, Qarabağın həqiqi





sahibləri qədim ermənilərdir. Azərbaycanlılar isə bura gəlmədirlər...

Vardhes Petrosyanın *"Erməni eskizləri"* kitabında başkəsən, zalım, Çiçerinin *"Antantanın casusu"* adlandırdığı qəddar Andronik ***milli qəhrəman*** səviyyəsinə qaldırılır. Zori Balayan *"Ocaq"* kitabında həyasızcasına özgə əraziləri haqqında əsassız, fitnəkar ruhlu iddialarını irəli sürür. B.A.Ulubabyan lap ağ edərək b.e.ə. II əsrdə Kür-Araz ərazisində yaşayan əhalinin erməni dilində danışması fikrini də irəli atır.

Erməni tarixçilərinin bəzi əsərlərində tarixi hadisələr, faktlar *"**Böyük Ermənistan**"* ideyası naminə təhrif olunur. Guya *"Böyük Ermənistan"* yüz illər boyu Xəzər dənizindən Qara dənizədək sahəni əhatə edirmiş. Ermənilərə görə, *"Ermənistan dövləti"* b. e. ə. II - I əsrlərdə yaradılıb. Bizə görə isə, bu dövlət nə Ermənistandır, nə erməni torpağıdır, nə də ermənilərin məskun olduqları torpaqlardır. O, erməni çarlarının qonşulardan silah gücünə, zorakılıqla, işğal nəticəsində aldıqları torpaqlardır...

Kürdən aşağı Azərbaycan torpağını "İçəri Ermənistan" adlandıran A.Ş.Mnatsakanyan yazır ki, bura da *"Ermənistan dövləti"*nə daxil idi. Mnatsakanyana görə, (*"Qafqaz Albaniyasının ədəbiyyatı haqqında"* Yerevan, 1969-cu il) *Qarabağın* Ermənistan torpağı olduğunu sübut edən *"bütöv buket"* toponimlər var. Əlbəttə, müəllif həmin adların mənalarını açmır. Adların əksəriyyəti Artsaxdandır. Yeri gəlmişkən, ***Artsax*** (***Arsak, Arsaq, Ərsaq***) haqqında fikirlərimi hörmətli oxucularla bölüşmək istəyirəm:

Albaniyanın **Artsax vilayəti** Kür çayının sahilində **12** kiçik inzibati ərazi vahidindən ibarət olub. İlk vaxtlarda əhalini əsasən qarqarlar, hunlar, bassillər, xəzərlər və utilər təşkil edirdi. Bu əyalətin əhalisinin dili xalqımızın indi danışdığı dilin fövqğndə duran müxtəlif soy ləhcələri idi.

E.ə. I əsrdə yaşamış yunan tarixçi və sərkərdəsi Arrian ***Arsaq*** adlı tarixi şəxsiyyət haqqında maraqlı məlumat verir. O, göstərir ki, *Arsaq* Mərkəzi Asiyada yaşayıb. Onun mənsub olduğu sülalə makedoniyalılara qarşı çıxaraq yadelli işğalçıları ölkədən qovmuşdur. Ölkə azad olandan sonra bu görkəmli sərkərdə öz hakimiyyətini qurur...

Yunan coğrafiyaçısı Strabon da qüdrətli hökmdar olan ***Arsaq*** haqqında təxmini də olsa, bir sıra qiymətli məlumatlar vermişdir. Strabona görə, mənşə etibarı ilə skif olan, dailərin bir hissəsinə yiyələnən və özünü parna adlandıran ***Arsaq*** Parfiyaya daxil olaraq, onu özünə tabe edir. Sonrakı mübarizələrdə o, yeni uğurlar qazanaraq Dəclə çayı sahili boyu bütün

torpaqlara sahib olur. Antik dövr tarixçisi Plini (*I əsr*) də Strabon kimi ***Arsaq*** sülaləsinin kökünü dailərlə bağlamışdır.

VIII əsrdə yaşamış Bizans müəllifi Georgi Singel ***Arsaqın*** Tridat adlı qardaşı olduğunu bildirir. O, göstərir ki, bu qardaşlar Baktriyanın satrapları olmuş və Makedoniyanın İrandakı canişini Aqafokla qarşı çıxmışlar.

Türk xalqlarının fəxri sayılan Arsaqın tarixi şəxsiyyət, sərkərdə və dövlət başçısı olması haqqında dövrümüzə albəttə, çox az məlumat gəlib çatmışdır. **Arsaq** haqqında Roma tarixçisi Pompey Troq da 44 kitabdan ibarət olan *"Filippin tarixi"* əsərlərində məlumat verərək onun Makedoniyalı İsgəndər dövründə yaşadığını və böyük şöhrətə malik olduğunu göstərir. Onun mülahizələrinə görə, **Arsaq** Selevkilərin və baktriyalıların hökmdarı olan Feodot tərəfindən təhlükəni, gözlənilən yürüşü dəf etmək üçün qoşun toplayır. Feodot öləndən sonra, **Arsaq** onun oğlu ilə müqavilə bağlayır və çox keçmir ki, Selevkə qalib gəlir...

Roma tarixçisinin də verdiyi məlumatdan aydın olur ki, **Arsaq** qüdrətli bir imperiyanın hökmdarı olub. Amma onun hökmdarlıq illəri barədə məlumatlar azdır. Ümumilikdə bu da məlum olur ki, *Arsaq* türkdilli **Saq** (***sak***) tayfasına məxsus olmuşdur. Bu ada mənbələrdə ***Arsaq, Ərsaq, Arşaq*** və s. formalarda rast gəlirik. ***Arsaq*** sözü *"sak igidi"*, *"saq kişisi"* kimi mənalandırılır. Tədqiqatçılar ***Arsak*** (***Ərsak***) toponimlərini *ər* və ***sak*** sözlərinə ayırırlar. *Saklar* bu ərazidə ilk dəfə Azərbaycan ərazisində məskunlaşdığı dövrdən - bizim eradan əvvəl VII yüzillikdə məskən salmışlar. ***Artsax*** xaçpərəstlikdən sonra Albaniyanın siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Burada bir neçə yepiskopluq olmuşdur.

Hunların, xəzərlərin arasında xaçpərəstliyi yaymaq üçün alban çarları öz nümayəndələrini məhz Artsaxdan göndərilirdi. Hunların, xəzərlərin nümayəndələri getdikləri yerin əhalisi ilə qanbir, dilbir qardaş idilər. Bu isə xaçpərəstliyi yaymaq üçün kiçik amil deyildir. Yerevanın *"Sovetakan Qrok"* nəşriyyatı 1984-cü ildə Zori Balayanın *"Ocaq"* kitabını rus dilində çapdan buraxmaqla bu məqsədi həyata keçirmişdir. Müəllif Qarabağın bütünlükdə Odlar yurdunun əzəli sakinlərinin – azərbaycanlıların milli heysiyyatını alçaldan sözlərdən çəkinməyərək, onları öz oxucusuna *köçəri, barbar* və *gəlmə* elementi kimi tanıtdırır.

*"Ermənistan dövləti"* anlayışı iki mənada - siyasi və coğrafi mənada işlədilir. Bu anlayış (*"Böyük Ermənistan"*) XVIII əsrdə Şərq məsələsinin





tərkib hissəsi kimi meydana gəlmişdir. Bu anlayışın tərəfdarları Xəzərlə Qara dəniz arasındakı torpaqları *"Böyük Erməni dövləti"* adı altında birləşdirərək, *"Böyük Erməni imperiyası"* yaratmaq iddiasındadırlar. Qafqazşünas və Albanşünas olan S.T.Yeremyanın əsərlərində, xüsusilə, *"SSRİ tarixinin oçerkləri"* (Moskva, 1958-ci il) əsərində *"Böyük Ermənistan"* anlayışına faktların, tarixi gerçəkliyin saxtalaşdırılması zəmini əsasında *"haqq qazandırmaq"* məqsədi güdülür.

Məlum olduğu kimi, *"Ermənistan dövləti"* siyasi anlayış kimi **e.ə. 66**-cı ildə II Tiqranın ordusunun Roma sərkərdəsi Pompey tərəfindən darmadağın edilməsindən sonra sğqut etmişdir...

Tarixi araşdırmalar göstərir ki, Ermənistanın bölüşdürülməsi prosesini Qafqaz Albaniyasına, onun ərazi sərhəddinə heç bir təsiri olmamışdır. Onun ərazi bütövlüyü e.ə. IV əsrdən eramızın VIII əsrinə qədər sabit olmuş, heç bir əsaslı sərhəd dəyişikliyi olmamışdır.

Azərbaycan əhalisinin Qarabağda yaşayan ermənilərlə alban xətti ilə qohum olduqlarını qeyd edən qafqazşünas A.P.Novoselsev yazır ki, *"Qarabağ və Azərbaycanın başqa vilayətlərinin erməniləri onun (alban əhalisinin) nəsilləridir. Deməli, qədim Albaniya əhalisi həm də müasir azərbaycanlı və ermənilərin bir hissəsinin ümumi əcdadıdır"*.

Azərbaycanın *Yuxarı Qarabağ* iqtisadi rayonuna ***Cəbrayıl***, *Füzuli, Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa* rayonları və *Xankəndi şəhəri* daxildir. Son odontoloji tədqiqatlar bir daha sübut edir ki, Yuxarı Qarabağın ərazisində ermənilər gəlmə elementdir. Erməni tarixşünaslığında artıq çoxdan belə nisbi ideya var ki, DQMV ərazisi Ermənistanın *"ayrılmaz"* hissəsidir. Bu ideyanın nəzəri əsası keçən əsrdə M.Çamçyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və başqaları tərəfindən qoyulmuş, sonralar Y.A.Manandyan, M.A.Kevorqyan, L.S.Xaçikyan, S.Kaputikyan, S.T.Yeremyan tərəfindən konseptual cəhətdən işlənib sabitləşmişdir. Hələ indi də erməni şərqşünas tarixçiləri həmin mövqelərdən çıxış edirlər. Təhrif olunan faktlar və inandırıcı olmayan erməni mühakimələri əsasən iki tezisin sübutuna xidmət edir:

1. Kürün sağ sahili az qala 600 il (*b. e. ə. II* əsrdən - *b. e. IV* əsrinədək) Ermənistanın tərkibində olub. Həmin dövrdə oranın əhalisi nə etnik, nə də dil cəhətdən ermənilərdən fərqlənmirdi;
2. Kürün sağ sahili ərazisində lap qədimlərdən erməni əhalisi yaşa-

mışdır. Bu əhali indiyədək erməni xalqı ilə etnik-mədəni birliyini saxlamışdır;

Kür və Araz çayları ətrafındakı etnik birliklərin yerləşdirilməsi Mnatsakanyanın, Akopyanın, Sumbatyanın və başqalarının şərhləri ilə uyğun gəlmir. Burada etnik kütlə utilər adı ilə hələ Herodota məlum olardı. Utilər Uti və Artsax əyaləti əhalisinin müəyyən hissəsini təşkil etmişlər. Şübhə yeri qalmır ki, DQMV-nin erməni dilli əhalisi erməniləşdirilmiş yerli əhalinin Müxtəlif Alban tayfalarının - utilərin, tsodların nəsilləridir...

**387**-ci il müqaviləsinə görə imperator Roması ilə Sasani İranı *Arşagid Ermənistanını* bölüşdürmüşlər. Ermənistanın təxminən dörddə üç hissəsi İrana, dörddə bir hissəsi Romanın payına düşmüşdür. IV-VI əsrlərdə Qarabağda xristianlıq yayılmağa başladı. VII əsrdə də Qarabağın ulu əcdadlarımıza məxsus olması barədə kifayət qədər faktlarımız var. Ərəb işğalından sonra Qarabağın düzənlik hissəsində və şəhərlərində yaşayan əhali islam dinini qəbul etdi. Qarabağın dağlıq hissəsi olan Artsaxda yaşayan əhalinin çoxu **xristianlığı** qoruyub saxladı...

**VII-VIII** əsrlərdə Artsax Albaniyası Mehrani sülaləsi çarlarına tabe idi. Mehranilərin axırıncı çarı Varaz Tridat **821**-ci ildə Artsaxda öldürülüb. Bundan sonra Artsaxda Syuninin hakimi, Zarmixrə mənsub alban çar sülaləsindən olan Səhl oğlu Sumbat hakimiyyətə keçir. Lakin o, Artsaxa bütünlğklə sahib deyildi. Ərazinin müəyyən hissəsi Alban knyazı Stepan Ablasadın, ondan sonra İsayi Əbu Musanın hakimiyyəti altında olmuşdur. **866**-cı ildə Mehranilər sülaləsindən Hammam da Albaniyanın xristian əhalisi yaşayan hissələrinin knyazı olmuşdur.

**VIII** yüzillikdə Artsax ərəblər tərəfindən azad edildikdən sonra da Artsax camaatının bir hissəsi öz xaçpərəst dinlərini qorudular. Mənbələrin məlumatına görə, **IX** yüzilliyin məşhur **Babək hərəkatı** Qarabağı da bürümüşdü. Alban kilsəsinin zəifləməsi, erməni kilsəsinin xilafətlə ittifaqı nəticəsində Artsax əhalisinin qriqoriyanlaşdırılması xaçpərəstliyin ermənilərə məxsus məzhəbinə keçməsinə, onların dilinin itirilməsinə səbəb oldu. Artsax əhalisinin bir hissəsinin erməniləşdirilməsi X-XIII yüzilliklərdə başa çatdırıldı. Ərəb xəlifələrindən sonra (**VII** - **IX** əsrlər) bütün orta əsrlər boyu əvvəllərdə olduğu kimi **Qarabağ** Azərbaycan hökmdarlıqlarının ərazisi olmuşdur...

**X** əsrdən **Qarabağ** Şəddadilərin, **XI** əsrin ortalarından Səlcuqların





hakimiyyətinə keçdi. **XIII** əsrin II yarısından isə **Qarabağ** Eldəgəzlər dövlətinin tərkibində idi. XII-XIII əsrlərdə Dağlıq Qarabağın ərazisi Xaçın feodal xanlığının tərkibində olmuşdur. Bu xanlığın (*knyazlığın*) hökmdarı Həsən Cəlal bəzi mənbələrdə göstərildiyi kimi, erməni yox, "*Alban hökmdarı*" adını daşıyırdı. Bu knyazlıq özğndə **5** məlikliyi (Xəmsə) birləşdirirdi. Bu knyazlığın görkəmli nümayəndəsi Həsən Cəlal (**1215** - **1261**) Mehrani çar sülaləsinin nəslindən idi.

Beləliklə, X-XIII əsrlərdə "***erməniləşdirilmiş***" Artsax əhalisi Alban knyazlığına, Qafqaz dilləri qrupuna daxil olan əhali deyil, indi bizim danışdığımız Azərbaycan dilinin kökünə uyğun ləhcə ilə danışan əhali olmuşdur. Tarixi məlumatlar göstərir ki, Artsaxın ərəb işğallarından sonra Ermənistanla ərazi birliyi olmayıb, amma xristian albanların erməniləşməsi prosesi gedirdi.

**1136-1225**-ci illər Azərbaycan Atabəylər dövlətinin (Eldəgizlər sülaləsinin) hakimiyyəti illəridir. Bu dövrdə də Qarabağın ərazisi Erməni dövlətinin tərkib hissəsi ola bilməzdi, çünki, Ermənistan (Qərbi Azərbaycan) torpağının özğ Eldəgizlərin ixtiyarında idi. XIII əsrdə Azərbaycan ərazisi indiki **Qarabağ** da daxil olmaqla Xarəzmşah Məhəmmədin oğlu Sultan Cəlaləddin tərəfindən tutulmuşdur. O dövrün tarixçisi Şəhabəddin Məhəmməd ən-Nəsəvi məhz indiki ***Dağlıq Qarabağ*** ərazisini "***Aran***" kimi göstərmişdir.

**XIII** əsrin **30**-cu illərində Qarabağı monqollar işğal etdilər. **1239**-cu ildə monqollar tərəfindən Azərbaycanın işğalı demək olar ki, başa çatır. **1258**-ci ildə Azərbaycan Hülakülər dövlətinin tərkibinə qatılır. Bu dövrdən **Qarabağ** adı artıq sırf coğrafi ərazi kimi çəkilir. Yuxarıda qeyd etdiyim kimi, F.Rəşidəddinin "*Came ət-təvarix*" əsərində "***Arran Qarabağ***" adı **1284**-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır. XIII-XIV əsrlərdə ***Qarabağ*** Hülakülər dövlətinin siyasi tarixində mühüm rol oynamışdır. Sonralar Qarabağ paytaxtı Təbriz olan Azərbaycan **Qaraqoyunlu** (1410 - 1467) və Ağqoyunlu (1468 - 1501) dövlətlərinin ərazisi olmuşdur.

**XIV** əsrin sonlarından Qarabağda Teymurun varisləri ağalıq edirdilər. Teymur xristian albanların böyük bir hissəsini Qarabağdan Qəndəhara köçürür... XIV əsrin sonlarında ***Qarabağ*** Teymurilərin hakimiyyətinə keçdi. Onun ölümündən (1405-ci il) sonra xalq kütlələrinin Teymurilərə qarşı çıxışlarından istifadə edən Şirvanşah I İbrahim (1382 - 1417) Qa-

rabağın düzənlik hissəsini Şirvana birləşdirdi. Amma 1412-ci ildə Qaraqoyunlularla Kür sahilində baş verən vuruşmadan sonra **Qarabağ** tamamilə Qaraqoyunlu dövlətinə qatıldı. Səfəvilərin hakimiyyəti dövrünə qədər ***Qarabağ*** monqolların, Qaraqoyunlu və Ağqoyunlu hakimlərinin idarəsi altında idi.

**XV** əsrdə ***Qarabağ*** Azərbaycan Qaraqoyunlu (1410 - 1467) və Ağqoyunlu (1468 - 1501) dövlətlərinin tərkibində olmuşdur. Qarabağ bu dövrdə də Azərbaycanda mövcud olan üç bəylərbəyiliyindən biri olmuşdur, mərkəzi də Gəncə şəhəri idi (1501 - 1736).

**XVI** əsrdə ***Qarabağ*** Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Səfəvilər Azərbaycanda **4** bəylərbəyilik yaratmışdır ki, onlardan da biri ***Qarabağ*** və ya ***Gəncə bəylərbəyliyi*** idi. **1593**-cü il məlumatına görə, Gəncə-Qarabağ əyaləti **7** sancaq, **36** nahiyəyə bölünürdü. Burada qeydə alınan **1,3** mindən çox toponimik vahidlərin demək olar ki, hamısı (təxminən **96%**-i) Azəri türkcəsində idi.

Səfəvilər dövründə Azərbaycan bəylərbəyliklərə bölünmğşdğ ki, bu inzibati bölgğ XVIII əsrin ortalarına qədər davam etmişdir. Bəylərbəyliklərdən biri də **Qarabağ bəylərbəyliyi** adlanırdı. O vaxt Yuxarı Qarabağda özlərini erməni hesab edənlər əslində erməniləşmiş xristian albanları idilər. Onlar özləri də bilə bilməzdilər ki, erməni yox, albandırlar. Çünki onları bu günə salan ***erməni xristian kilsəsi*** idi...

**XVII** əsrin əvvəllərində Qarabağda kəndli hərəkatı genişləndi. **1671**-ci ildə burada antifeodal üsyan baş verdi. Səfəvilər dövründə Qarabağı qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. Bu dövrdə Qarabağda əkinçilik, bağçılıq, ipəkçilik geniş yayılmışdı. **XVIII** əsrin **40**-cı illərində burada ***Qarabağ xanlığı*** yarandı. Xanlıq dövründə iqtisadiyyatda mühüm dirçəliş oldu. Şuşa şəhəri Azərbaycanın mədəni və ticarət həyatında əhəmiyyətli rol oynayan şəhərə çevrildi.

**1747**-ci ildən **1828**-ci ilə qədər Kür və Araz çayları arasındakı bütün torpaqlar, həmçinin **Qarabağ** Azərbaycan feodal dövlətini təşkil edirdi. 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan ilə P.D.Sisianov arasında bağlanmış "***Kürəkçay***" müqaviləsinə əsasən **Qarabağ** Rusiyanın tərkibinə daxil edildi. **1805**-ci ildə, **mayın 14**-də İbrahimxəlil xan Gəncə yaxınlığında tarixə "***Kürəkçay***" adı ilə dğşmğş bu andlı öhdəliyi imzaladı. Az sonra bağlanmış "***Gülüstan***" sülh müqaviləsinə (**1813**-cü il) görə, **Qarabağ** da





Şimali Azərbaycanın tərkibində Rusiyaya birləşdirildi...

**1810**-cu ilə aid rəsmi məlumata görə **Qarabağ** vilayətində **12.000** əhali olub ki, bunun da cəmi **2500**-ü erməni idi (Prisoedinenie Vostoçnoy Armenii k Rossii, I t. Erevan, 1973, s.562).

**1823**-cü ildə "*Qarabağ* əyalətinin *1823-cü ildə həqiqi statski müşavir Mogilyovski və polkovnik Yermolov tərəfindən tərtib edilmiş təsviri*" (Tiflis, 1866) vergi reyestrinə görə *xanlıq* ləğv edilən zaman (**1822**-ci il) orada **90.000** əhali (**20.095** ailə; **15.729** - azərbaycanlı ailə, **4.366** - erməni ailə) yaşayırdı. Xanlıq dönəmində **1** şəhər, **610** kənd (cəmisi **140** kənddə erməni yaşayırdı) vardı. Şuşa şəhərində **1048** ailə vardı ki, bunun da cəmi **474**-ü erməni ailəsi idi. Kəndlərdə **12.902** (**43.311** nəfər) azərbaycanlı ailə yaşayırdı.

**XIX** əsrin 20-30-cu illərində Zaqafqaziyaya, o cümlədən, Qarabağa **200.000** erməni köçürülür (N.İ.Şavrov: Novaya uqroza russkomu delu v Zaqafkaze: predstoyaşaya rasprodaja Muqani i narodtsam. SP b. 1911, s. 59). Çar hökumətinin Qafqazda **10 aprel 1840**-cı il tarixli inzibati-islahatına əsasən az sonra (**01.01.1841**-ci il) Kaspi vilayəti tərkibində mərkəzi Şuşa şəhəri olan Şuşa **qəzası** yarandı.

**1840**-cı ildən sonra ***Dağlıq Qarabağ*** ərazisi Kaspi vilayətinin Şuşa qəzasına; **1846**-cı ildən isə Şamaxı (**1859**-cu ildən **Bakı**) quberniyasına daxil olub. **1868**-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yarananda həmin ərazi Şuşa və Zəngəzur qəzalarının tərkibinə daxil oldu.

Qarabağda ermənilərin çoxalması, yuxarıda qeyd etdiyim kimi, əsasən, XIX əsrin 20-ci illərində baş verdi. Rus-İran və Rus-Türk mğharibələrinin qələbəsindən sonra Cənubi Qafqaza İrandan və Türkiyədən on minlərlə erməni axışıb gəldi. "***Türkmənçay***" sülh müqaviləsində (10 fevral, 1828-ci il) də bu, nəzərdə tutulmuşdur. **Yuxarı Qarabağ** əhalisinin milli tərkibinə gəlincə isə, bu, **1832**-ci ildə ermənilər İran və Türkiyədən köçürğldğkdən sonra ilk dəfə verilən məlumatlara görə, **65** faiz azərbaycanlılardan, **35** faiz ermənilərdən ibarət olmuşdur ("*Rusiyanın Zaqafqaziya hissəsinə aid tədqiqatlar*," III hissə, Peterburq, 1836, V cədvəl).

Rus müstəmləkəçiliyinin İran və Türkiyədən erməni ailələrinin köçürğlməsi sayəsində **1880**-ci ildə Yuxarı Qarabağda ermənilər əhalinin **53** faizini, azərbaycanlılar **42** faizini təşkil etmişdir ("**1896**-cı il üçün Qafqaz təqvimi, V bölmə"). **1897**-ci ildə bu rəqəmlər müvafiq olaraq **53**

- **45** faiz idi ("Əhalinin öyrənilməsi *sayəsində ilk tədqiqat*", Peterburq, 1904). **1897**-ci il üçün Şuşa qəzasının **4911** kvadrat kilometr sahəsi, **140.740** nəfər əhalisi olmuşdur.

**XX** əsrin ilk ilində ermənilər Cənubi Qafqaz əhalisinin **19** faizini təşkil edirdilərsə, **1921**-ci ildə bu rəqəm **22** faizə çatdı. "*Bu artımın səbəblərindən biri Türkiyədən ermənilərin Qafqaza köçürülməsidir*" (B.İşxanyan, "Qafqaz millətləri", Peterburq, 1916, səh.33)...

**XX** əsrin əvvəllərində Azərbaycanda, eləcə də, Qarabağda inqilabi mübarizə gğcləndi. **1907**-ci ilin iyununda Şuşa ipək fabrikinin fəhlələrinin tətili oldu. **1917**-ci ilin iyununda bolşeviklər RSDF(b)P-nin Şuşa təşkilatını yaratdılar.

**25 oktyabr** (*7 **noyabr***) - 1917-ci il tarixdə Rusiyada dövlət çevrilişi oldu - Böyük Oktyabr Sosialist İnqilabı baş verdi. Stepan Şaumyan İcraiyyə Komitəsinin sədri seçildi. Az sonra Bakıda güclü erməni silahlı qüvvələri cəmləşdirildi. **1918**-ci ilin mart ayının son günlərində Bakıda ermənilər qırğın törətdilər.

**29 martda** - Bakı limanında Lənkəran əksinqilabçılarına köməyə gedən "***Dikaya diviziya***" hissələri ora göndərilən Qırmızı qvardiyaçılara atəş açdı. Bakı Sovetinin tələbi ilə "*Dikaya diviziya*" əsgərləri tərksilah edildi...

**30 mart** - Müsavatçılarla Bakı Soveti arasında "Dikaya diviziya"nın silahlarını qaytarmaq haqqında danışıqlara başlandı. Danışıqlar zamanı Müsavatçılarla sovet qoşun hissələri (ermənilər) arasında Şamaxı (*C.Cabbarlı*) və Tatarski (*N.Krupskaya*) küçələrində atışma oldu. Azərbaycanda vətəndaş mğharibəsi başlandı. Mart qiyamının (?) yatırılmasına rəhbərlik üçün **martın 30**-dan **31**-nə keçən gecə N.Nərimanov, S.Şaumyan, P. Caparidze və başqalarından ibarət ***İnqilabi Müdafiə Komitəsi*** (İMK) yarandı.

**31 mart** - Sovet qoşunları qəti hücuma keçdilər. Müsavatçılar danışıq təklif etdilər. İMK Müsavatçılardan Bakı Sovetinin hakimiyyətini danışıqsız tanımağı, hərbi hissələrini Bakıdan və onun rayonlarından çıxarmağı və s. tələblər irəli sürdü. Müsavatçılar bu şərtlərlə razılaşdılar. ***Mart qiyamı***(?)nın yatırılması Bakıda vətəndaş mğharibəsinə son qoydu, Sovet hakimiyyətini möhkəmləndirdi, Bakını tutmaq istəyən xarici mğdaxiləçilərin planları pozuldu. Bakı və onun rayonlarında hakimiyyət Sovetlərin əlində cəmləndi...





**26 may 1918**-ci il tarixdə Zaqafqaziya Seymi süqut etdi...

**28 may 1918**-ci il - Azərbaycan Müvəqqəti Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinin "*İstiqlal bəyannaməsi*"ni elan etdi. Azərbaycan bütün türk və Müsəlman dünyasında ilk ***Respublika*** oldu. Bu hökumət tez bir zamanda Türkiyə ilə ittifaqa girdi. Vəziyyətin gərgin anında Osmanlı qoşunları Azərbaycana gəldi. Milli Şura və hökumət Gəncəyə köçdğ. Yeni hökumət yarandı. Azərbaycan hökuməti Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasının tərkibindən ayırıb mərkəzi Şuşa şəhəri olan ***Qarabağ general-qubernatorluğu*** yaratdı...

S.Şaumyan ADR-nı yıxmaq üçün Gəncəyə hücum planı hazırladı. **10 iyunda** başlayan bu hücum **27 iyunda** Göyçay yaxınlığında Osmanlı hərbi qüvvələrinin köməyi ilə məğlubiyyətə uğradı. Xalq Cğmhuriyyətinin qoşunları əks-hücumla **20 iyulda** Şamaxını tutdu. Avqustda başda general Denstervil olmaqla ingilis qoşunları Bakıya gəldi. AXC qoşunları Türk hərbi qüvvələri ilə bərabər Bakıya hücum etdi. Sentyabrın ortalarında Bakı azad edildi. AXC Gəncədən Bakıya köçdğ. **7 dekabrda 120** deputatdan ibarət Parlament yaradıldı. Belə çətin tarixi şəraitdə hərbi səfərbərlik başladı. Bu zaman Azərbaycan Respublikasının ərazisi **97,3** min kvadrat kilometr (bundan başqa **15,6** kv. km mğbahisəli ərazi) idi. Az zaman içərisində **10** min sğvari, **30** min piyadadan ibarət qoşun toplandı.

**1918-ci il sentyabrın 25**-də Türkiyə qoşunları Azərbaycana gəlib Şuşanı tutdular.

**1919**-cu ilin yayında bolşeviklərin Qarabağ Mahal Partiya Komitəsi yarandı.

**1920-ci il yanvarın 11-də** Paris sülh konfransının Ali Şurası tərəfindən ADR-ın defakto tanınması elan olundu. Bakıda bəzi ölkələrin səfirlikləri, konsulluqları açıldı. **11 fevral 1920**-ci ildə Azərbaycan kommunistləri I qurultayda Azərbaycan Kommunist Partiyasını yaratdılar. Mikoyan və başqalarının köməyi, təhriki ilə Qarabağda **erməni qiyamı** baş verdi. **27 apreldə** XI Qızıl Ordu Azərbaycan sərhədini keçdi, az sonra - **28 apreldə** Bakıya daxil oldu. Beləliklə, Azərbaycan yenidən işğal olundu.

**1920-ci il aprelin 29**-da Qaryagində, **aprelin 30**-da Şuşada kommunistlər hakimiyyətə gəldilər. **30 apreldə** Şuşada Qəza İnqilab Komitəsi təşkil edildi. **Mayın 20**-də Qarabağ Vilayət İnqilab Komitəsi yarandı. **1920**-ci ilin **mayın 25**-də hakimiyyət artıq bütünlğklə Qarabağ Vilayət

İnqilab Komitəsinin əlində idi. İyunun 5-də musavatçılar türk generalı Nuru Paşanın rəhbərliyi ilə qiyam qaldırıb Ağdamı, Tərtəri, Şuşanı, Bərdəni ələ keçirsələr də, bir həftə sonra XI Qırmızı Ordu hissələri onları Qarabağdan çıxmağa vadar etdi. Nuru Paşa və başqaları Azərbaycanı tərk etməyə məcbur oldular... Sovet hakimiyyətinin qələbəsindən sonra Qarabağda da bir sıra *sosialist tədbirləri* həyata keçirildi...

**XX** əsrin Müsavat hökuməti (ADR) dövründə də ***Qarabağ*** Azərbaycanın tərkibində olmuşdur. **1918**-ci ildən ***Qarabağ*** Azərbaycan Demokratik Respublikasının, **1920**-ci ildən isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur. Bütün bu qeyd etdiklərim, heç vaxt ermənilərə mənsub olmayan **Qarabağın qısa tarixi**dir...

**1920**-ci ilin **19 iyun**unda Q.K.Orconikidzenin Vladiqafqazdan V.İ. Leninə və Çiçerinə vurduğu teleqramda deyilir ki, Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edildikdən sonra adı çəkilən hər iki ərazi özğnğ Azərbaycanın tərkib hissəsi hesab edir. **Dağlıq Qarabağ** haqqında məsələ **1921**-ci ilin **27 iyun** tarixli AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun yığıncağında mğzakirə edildi.

**4 iyul 1921**-ci il tarixdə RK(b)P MK Qafqaz Bürosunda «*Dağlıq Qarabağ*» haqqında məsələ mğzakirə edildi (protokol №11). Həmin gün Stalin, Kirov, Orconikidze, Nazaretyan, Nərimanov, Fiqatner, Maxaradze və Myasnikovun iştirakı ilə bir plenum da keçirildi. "*Dağlıq Qarabağ Azərbaycanın hüdudlarında saxlanılsın*" fikrinin lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə isə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verirlər. Nəticədə belə bir qərar qəbul olunur ki, Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə qatılsın. N.Nərimanov bu ədalətsiz qərara etiraz etdikdən sonra Qafqaz Bürosu qəti qərar üçün məsələni RK(b)P MK-nin mğzakirəsinə verdi.

**5 iyul 1921**-ci il tarixdə RK(b)P MK-nın Qafqaz Bürosunun Plenumunda (Stalin, Orconikidze, Maxaradze, Kirov, Nərimanov, Myasnikov, Nazaretyan, Oraxelaşvili, Fiqatner-*protokol №12*) belə qərar qəbul edilir: "Müsəlman və ermənilər arasında milli sülhğn, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin zəruriliyinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudları daxilində saxlanılsın. Muxtar Vilayətin tərkibinə daxil olan inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin.





**20 iyul 1921**-ci il tarixdə AK (b)P MK-nın Siyasi Təşkilat bürosu "***Qarabağ məsələsi***" üçün Komissiya yaratdı.

**26 sentyabr 1921**-ci il tarixdə AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosu öz iclasında Qarabağ məsələsini yenidən mğzakirə etdi.

**14 dekabr 1922**-ci il tarixli RK(b)P-nin Zaqafqaziya Diyar Komitəsinin imzası ilə Dağlıq Qarabağın muxtariyyət məsələsi nəzərdən keçirildi.

**15 dekabr 1922**-ci il tarixdə AK(b)P MK Rəyasət Heyətinin qərarına uyğun olaraq Azərbaycan SSRİ XKŞ yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılır və A.Qaragözov başda olmaqla "*Dağlıq Qarabağ* İşləri üzrə *Komitə*" təsdiq olunur.

**1923**-cü iyunun axırında ĞİK(b)P Zaqafqaziya Diyar Komitəsinin iclasında Dağlıq Qarabağın muxtariyyət məsələsi yenidən nəzərdən keçirildi. Plenum Ə.H.Qarayevin sədrliyi ilə olan komissiyanın qərarı əsasında Dağlıq Qarabağın Muxtar Vilayətə çevrilməsi haqqında Zaqafqaziya Diyar Komitəsinin qətnaməsini qəbul etdi.

**1 iyul 1923-cü** il tarixdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Rəyasət Heyəti belə qərar çıxarır: "*Azərbaycan MİK-nə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə dekret versin,* İcraiyyə *Komitəsi başda olmaq etibarı ilə ondan Xankəndi mərkəz olmaqla Qarabağ Muxtar Vilayətini yaratsın. Qarabağ Muxtar Vilayəti* İcraiyyə *Komitəsi yaradılana qədər bu vilayəti idarə etmək* üçün *5 nəfərdən ibarət* İnqilab *Komitəsi və Vilayət Partiya Komitəsi yaradılsın*".

**7 iyul 1923**-cü il tarixdə Azərbaycan MİK "***Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında***" dekret verdi. Bu dekretlə 1923-cü ildə **DQMV** yarandı. DQMV yaradılması ilə əslində Azərbaycanın vahid ərazisi bölündğ. Azərbaycan bolşevikləri ərazi bütövlüyü üçün yaradılan təhlğkəni aradan qaldıra bilmədilər. Beləliklə, sğni surətdə yaradılan "***Qarabağ məsələsi***" Qarabağın erməni əhalisinin xeyrinə mğsbət həll olundu. Təəssüflər olsun ki, həmin zamanlarda Ermənistanda yaşayan on minlərlə azərbaycanlılara muxtariyyət verilməsi məsələsi yada düşmədi...

**DQMV** Qarabağın dağlıq hissəsində, Kiçik Qafqazın cənub-şərqində yerləşir. Ərazisi **4388** kvadrat kilometrdir. 1993-cü ildən DQMV-ın demək olar ki, **4378** kv. km ərazisi də artıq ermənilər tərəfindən işğal edilmişdir. Sahəsi şimaldan cənuba **120** km, şərqdən qərbə **40-60** km-

dir. Əhalisi **180** min (**130** min erməni, **48** min azərbaycanlı, *40*-dan çox millətin **2** min nümayəndəsi) nəfərdir. DQMV tərkibinə **5** rayon - Şuşa, Əsgəran (*Xocalı*), Mardakert (*Ağdərə*), Martuni və Hadrut (*Xocavənd*) rayonları daxildir. **26 noyabr 1991**-ci il **279-XII** nömrəli qanunla *DQMV* statusu ləğv edilmişdir.

**1945**-ci ilin payızında da *"**Qarabağ məsələsi**"* yenidən gündəmə gəldi. Ermənistan KP MK-nin birinci katibi Arutinov DQMV-nin Ermənistan SSR-nın tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nin sərəncamına verdi. M.C.Bağırov o zaman Arutinovun dəlillərinə qarşı sərt təkliflər irəli sürdü...

**Hörmətli oxucu**! Müxtəlif mənbələrə əsaslanaraq işlədiyim elə bu qısa yazıdan da görmək olar ki, ermənilərin Kürdən cənubda ərazilərimizi qədim erməni torpaqları hesab edərək onu əlimizdən almaq ideyaları göydəndüşmə deyil. Bu, çoxdan düşünülmüş, *"elmi"* söykəyi olan bir ideyadır.

Əcdadlarımızın XX əsr nəsilləri nədənsə torpaqlarımızın bütövlüyünü saxlaya bilməyib. Göyçə mahalını, Zəngəzur qəzasını Ermənistana *"bağışladılar"*. Bundan bir neçə onillik keçdikdən sonra *"**Qarabağ məsələsi**"* yenidən qalxdı və bu gün də Qarabağımız çətin sınaq qarşısındadır. Bugünki nəsillər gələcək nəsillər qarşısında məsuliyyət hissini unutmamalıdırlar. Bizə ulularımızdan miras qalan torpağı ***sevmək, qorumaq və gələcək nəsillərə*** çatdırmaq hamımızın müqəddəs amalımız olmalıdır...

Erməni tarixşünaslığının hakim konsepsiyasında *"sübut"* etməyə cəhd göstərilir ki, guya ermənilər Ermənistan ərazisinin köklü əhalisi, oradakı azərbaycanlılar (erməni millətçilərinin zorakılıq siyasəti, bizim millətin beynəlmiləlçiliyi, susması nəticəsində indi onlar doğma yurd-yuvalarından qovulmuşlar) isə XIII əsrdə Mərkəzi Asiyadan gəlmə köçəri türk və monqol-tatarların nəslləridir.

Erməni tədqiqatçıları tarixi faktları saxtalaşdıraraq, tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzuru (*keçən əsrin 20-ci illərində Ermənistana verilib*), Qarabağı (*Artsaxı*), Qazax-Ağstafa zonasını (*qədim Girdmanı*) binayi-qədimdən erməni torpağı sayır, Kür-Araz ovalığının b.e.ə. II əsrdən eramızın IV əsrinədək *"Erməni dövləti"* ərazisi", sonralar isə "Şərqi *Ermənistan*"" adlandığını qeyd edirlər. Onlar Müxtəlif xarici ölkələrdə çap etdirdiyi kitablarda bütün Qarabağın, hətta, Naxçıvanın da tarixən erməni torpağı olmasını elmi cəhətdən əsaslandırmaq üçün dəri-





dən-qabıqdan çıxırlar...

***Əziz oxucu***! *XX* əsrin **30**-cu illərində Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin adları dəyişdirildi; **40**-cı illərdə azərbaycanlıların bir hissəsi oradan qovuldu; **50**-ci illərdən başlayaraq, Azərbaycan torpaqları hesabına ərazisi genişləndirilmiş *"**Erməni dövləti**"* yaratmaq ideyası ilə xəritələr cızıldı, kitablar yazıldı və bu ideyalar dərsliklərdə özğnə yer tapıb ali və orta məktəblərdə tədris olundu. Biz isə nədənsə susduq. Susdurulduq da deməzdim. Əvəzində erməniləri nazirliklərdə, raykomlarda, idarələrdə, nə bilim daha haralarda rəhbər vəzifələrə irəli çəkdik. *"**Qardaş olub Hayastan-Azərbaycan**"* nəğməsini qoşduq. Şaumyana qranitdən heykəl düzəltdik. Şaumyana, Avakyana, Osipyana, Əmiryana, nə bilim nə *"**...yanlara**"* adlarını əbədiləşdirmək üçün küçələr, daha nə bilim nələr verdik. Ermənilərin başbilənləri həmişə millətçilik hissilə yaşayırdılar, bizimkilər isə...

Qonşu torpaqlarını zəbt etmək, *"**Böyük Ermənistan**"* arzusunun sinəsində yuva saldığı Eçmiədzin kilsəsi üçün Qarabağı ələ keçirmək başlıca məqsəddir. Vazgen başda olmaqla Eçmiədzin ***Qarabağ*** üçün bütün milyardlarını qorumağa hazır və ixtiyarında güclü imkanı olan qorxulu bir qüvvədir.

İş elə gətirib ki, yalnız son vaxtlar bilirik ki, Şərqdə ilk parlamentli respublika yaradan bizim xalq olub. Sonralar bilirik ki, bəs müsavatçılar millət yolunda, Vətən uğrunda canlarından keçiblər. Bizim milli yaddaşımız korşalıbmı? Özümüzü pis günə özümüz salmamışıqmı?..

Şimali Azərbaycanda nəhayət, ***18 oktyabr 1991***-ci il tarixdə müstəqillik elan olundu. Şükür! Heyf ki, bu böyük hadisə namərd erməni qonşumuzun torpaqlarımıza ərazi iddiası ilə eyni vaxta təsadüf etdi. On illər *"**böyük qardaş**"* saydığımız ruslar da Müxtəlif üsullarla bir növ bu təcavüz iddiasının tərəfdarı oldular. Keçmiş quruluş bizə az qala **1905-1918**-ci illərdəki xalqımıza qarşı ermənilərin törətdikləri vəhşilikləri, soyqırımlarını unutdurdu. Qarabağ torpaqları hərrac malına çevrildi...

**1992-ci il mayın 8-də** Qarabağın tacı olan ***Şuşa şəhəri*** də erməni işğalçıları tərəfindən zəbt olundu... Elan edilməmiş bu mğharibədə yüzlərlə, minlərlə cavanlarımız, qocalarımız canlarını qurban verdilər. Onların adları xalqın tarixi yaddaşında əbədi qalacaqdır...

***Qarabağ*** toponimi ***türk*** mənşəlidir. Əcəmlər lap qədimdən Qara-

bağa "***Sisaqan***" demişlər. ***Qarabağ*** sonralar yalnız Səlcuqlar tərəfindən belə adlanmışdır. Türkiyədə, Türkmənistanda, Özbəkistanda və başqa ərazilərdə də ***Qarabağ*** sözü ilə bağlı çoxlu sayda oykonim və oronimlər qeydə alınmışdır. Ğmumiyyətlə, ***Qarabağ*** sözü ***qarabaq*** (***karabaq, karaboq***) pezeneq tayfasının adı ilə bağlıdır.

Görkəmli alman səyyahı A.Olearinin (XVII əsr) "İran *səltənəti*" xəritəsində **Qarabağ** şəhəri ***39⁰*** şimal en dairəsi ilə ***82⁰ 21*** şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir. Həmin şəhər təxminən indiki Horadiz (*Füzuli rayonu*) şəhərindəki dəmiryol stansiyasından şərqdə - İran ərazisindəki Aslandüz yaşayış məntəqəsindən azacıq şimalda mövcud olmuşdur. Doğrudan da, bəzi tarixi qaynaqlara əsaslanıb deyə bilərik ki, VII əsrdən XVII əsrin birinci yarısına qədər Araz çayının sol kənarında **Qarabağ** adında bağlı-bağatlı mühüm bir yaşayış məntəqəsi mövcud olmuşdur. Çox gğman ki, tariximizdə adları çəkilən ***Qarabağ*** əyaləti, ***Qarabağ vilayəti, Qarabağ mahalı, Qarabağ bəylərbəyiliyi, Qarabağ xanlığı, Qarabağ dağ silsiləsi, Qarabağ kanalı, Qarabağ düzü*** və s. toponimlər də öz adlarını Araz çayı qırağındakı həmin yaşayış məntəqəsinin adından almışdır (İrandan *Kiçik Qafqaza gedən böyük ticarət yolu bu şəhərin yanından* keçirmiş). Bir çox tədqiqatçı alimlərimiz indi də bu fikirdədirlər.

İsgəndər bəy Mğnşi həmin **Qarabağın** ab-havasının, meşə və bağlarının, bərəkətli çöllərinin, gözəl otlaqlarının dünyada misli-bərabəri olmadığını göstərir...

Yuxarıda qeyd etdiyim kimi **Qarabağ** adı tarixdə VII əsrdən, bir əyalət kimi XIII əsrdən, bir xanlıq kimi XVIII əsrdən məlumdur. Mənim fikrimcə, **Qarabağ** toponimlərini öyrənmək üçün bu ərazinin toponimikasını da, bilmək başlıca şərtdir. Tədqiqatlar nəticəsində DQMV-dəki **230** yaşayış məntəqəsinin **190**-dan çoxunun adının mənası aydınlaşmışdır. Onlar Azərbaycan dilində olan adlardır. Ərazidəki oykonimlərin **10** faizi hibrid, çox az hissəsi isə erməni adıdır. Vilayətdəki ermənilər yaşayan bir sıra kənd adları da Azərbaycan dilindədir...

Mən ***Qarabağ*** toponimiyasını tədqiq edən ***qarabağlı*** toponimçi kimi qətiyyətlə deyə bilərəm ki, hətta keçmiş DQMV ərazisindəki **230** yaşayış məntəqəsinin **80** faizdən çoxunun adı Azərbaycan türkcəsindədir. Vilayət ərazisindəki **23** çaydan ***18***-i azərbaycanca olan adlardır (*onlardan biri hibrid, dördğ isə mənası qismən aydın olan adlardandır*). Ərazidə-





ki 7 gölün hamısı (*Zəligöl, Qaragöl, Qamışgöl, Qanlıgöl, Çallıgöl, Sarışıngöl, Köndələngöl*) Azərbaycan dilində mənası aydın olan adlardır. Ümumiyyətlə, DQMV ərazisində tədqiq etdiyim **3000** toponimin (**216** kənd adı, **8** şəhər və qəsəbə adı, **23** çay adı, **7** göl adı, **200**-dən çox zootoponim, **40** etnotoponim, **50** patronim, **80** antroponim, **15** paleotoponim və **2300** -dən çox oronimlərin (*dərə, dağ, təpə, qaya, quzey, güney, gədik, düz* və s.) ümumilikdə **95** faizi (**2900**-ə yaxın) Azərbaycan dilində olan coğrafi adlardır. Mənə elə gəlir ki, bu tutarlı arqumentlərdən sonra daha heç bir əlavə şərhə ehtiyac qalmır.

Yuxarıdakı bütün qeydlərimi ortaq məxrəcə gətirərək yekunlaşdırıb bir daha bildirmək istəyirəm ki, bütövlükdə ***Cəbrayıl*** rayonunun da daxil olduğu **Qarabağ** əraziləri yarandığı gündən indiyədək Azərbaycanın tərkib hissəsi olmuşdur. Qarabağın *Azərbaycan torpağı* olması sübuta ehtiyacı olmayan aksiomadır. Dünyada elə bir qüvvə yoxdur ki, əzəli və ***Müqəddəs Qarabağ*** torpaqlarımızı doğma respublikamızdan qoparmağa nail olsun. Torpaqlarımızı yağı düşməndən qorumaq üçün isə xalqın həqiqi birliyinə nail olmaq gərəkdir. İnşallah, yaxın gələcəkdə əzəli yurd yerlərimizə, dədə-baba torpaqlarımıza doğma, Müqəddəs Qarabağımıza - ***cənnətməkan*** Cəbrayılımıza qayıdacağıq!..

***Nazim Tapdıqoğlu (Vəlişov)***

# CƏBRAYIL RAYONUNUN TOPONİMLƏRİ

"A"

## ABASLI BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Abaslı bulağı*** adlanır. Bu bulağın göz yaşı kimi dumduru, buz kimi soyuq suyu vardır. Hidronim ***Abas*** (***Abbas***) şəxs adından, ***-lı*** şəkilçisindən və ismin təsirlik halında işlənmiş ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Bulaq*** – yeraltı suların yerüstü təbii çıxışıdır. ***Bulaqlar*** temperaturu, kimyəvi və qaz tərkibi, hidrodinamik xüsusiyyətləri və s.-yə görə fərqlənirlər. *Bulaqlar* əsasən, ***2*** növ olur: 1) çatlar və məsamələrlə enən bulaqlar (çeşmə); 2) qalxan bulaqlaq (*qaynaq*). ***Bulaqlar*** temperaturuna görə soyuq, ılıq, termal (*isti*) və hipotermal (çox isti) olur. Toponim *"Abbaslı nəslinə məxsus olan bulaq"* anlamını ifadə edir. Bu tipli toponimlərə respublikamızın digər rayonlarında da rast gəlirik.

Azərbaycan Respublikasının Şəmkir rayonunda bu tipli toponimlərdən olan ***Abbaslı*** oykoniminə də rast gəlirik.

## ABASLI KƏHRİZİ

Tayfa, qəbilə adı ilə əlaqədar əmələ gələn hidronimlər Cəbrayıl rayonunun ərazisində də xeyli vardır. Onlardan biri də ***Abaslı kəhrizi*** adlanır. Kəhrizin soyuq və şirin suyu vardır. Hidronim ***Abas*** (***Abbas***) şəxs adından və ***kəhriz*** sözündən ibarətdir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin





suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

***Abaslı kəhrizi*** adlanan etnohidronim *"Abaslı nəslinə məxsus olan kəhriz"* anlamını ifadə edir. Belə hidronimlərə digər rayonların ərazilərində də rast gəlmək olar.

## ABBASLI YAYLAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Abbaslı yaylağı*** adlanır. Oronim ***Abbas* şəxs adından, *yaylaq* sözündən və *-lı* şəkilçisindən ibarətdir. *Abbaslı yaylağı*** toponimi *"Abbasa məxsus olan yaylaq yeri"* mənasındadır. ***Yaylaq*** dedikdə mal-qaranın yay zamanı otarıldığı yer, ərazi nəzərdə tutulur. Maldarlıq meydana gəldikdən sonra yaylaqlardan geniş istifadə olunmuşdur. Azərbaycanda yaylaqların əksəriyyəti dəniz səviyyəsindən ***2 800*** metrə qədər yüksəklikdədir. Böyük və Kiçik Qafqaz dağlarının alp və subalp çəmənlikləri qoyunçuluğun qədim yaylaqları hesab olunur. Azərbaycanda təqribən ***6 000*** il tarixə malik olan yaylaqlardan indi də geniş istifadə edilir.

Şəmkir rayonunda da bu tipli toponim - *Abbaslı kəndi* mövcuddur...

## ABBASVURULAN YER

Cəbrayıl rayonunun ərazisində, Tumaslı dağının Çinafarlıya enən ətəyində, meşə talası taalasında qeydə alınan sahə ***Abbasvurulan yer*** adlanır. Bu oronim burada baş vermiş bədbəxt hadisə ilə əlaqədar olaraq belə ad almışdır. Belə ki, vaxtilə burada Dağtumas kənd sakini ***Abbas Rüstəm oğlu*** daşnaklar və rus əsgərləri tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Elə bu səbəbdən də sonralar həmin ərazi ***Abbasvurulan yer***

adlandırılmışdır. Ölkəmizin ərazisində bu tipli coğrafi adlara çox rast gəlmək olar.

## ABDAL YURDU

Son orta əsrlərdə Qarabağda **Abdal** adlı 3 yurd yeri olmuşdur. Bunlardan biri də vaxtilə mövcud olmuş Dizaq nahiyəsinin tərkibində, indiki Cəbrayıl rayonunun Xələfli kəndinin yaxınlığında idi. O biri ***Abdal*** yaşayış məntəqələri indiki *Ağdam* və *Füzuli* rayonlarının ərazilərində olmuşdur.

***Abdal*** adının böyük və qədim tarixi vardır. ***Abdal*** qədim türk tayfasının adıdır. Bu tayfa özündə *ağ hun* tayfasının adını əks etdirir. Başqırd, qaraqalpaq, qazax, türk, türkmən və digər xalqlarda da ***abdal*** etnonimi ilə bağlı yer adlarına rast gəlmək mümkündür. Mənbələrdə adları ***heftal, heptal, eftal*** kimi qeyd olunan etnonim ***abdal*** adının müxtəlif fonetik formalarıdır. M.Qalanqatlının yazdığına görə, ***heptallar*** (***abdallar***) e. ə. IV əsrdə Makedoniyalı İsgəndərin zamanında buraya köçürülmüşlər.

Hazırda Rusiya (*Başqırdıstan, Tatarıstan və s.*), Türkmənistan, Qazaxıstan, Ermənistan (*Qərbi Azərbaycan*) və digər dövlətlərin ərazilərində xeyli sayda ***Abdal*** etnotoponiminə rast gəlirik. ***Abdal*** sözü ərəb dilində *"avara"*, *"dərbədər"*, *"sərsəri"* anlamını ifadə edir.

Azərbaycan Respublikasının rayonlarında da çoxlu sayda ***Abdal*** etnotoponimi vardır. Onlara nümunə olaraq *Abdal kəndi* (Ağdam və Tovuz rayonları), *Abdal çayı* (Tovuz rayonu), *Abdal dağı* (Ordubad rayonu), *Abdal qışlağı* (Xocavənd rayonu), *Abdallar kəndi* (Laçın rayonu), *Abdallı kəndi* (Oğuz rayonu), *Abdalanlı kəndi* (Qubadlı rayonu) və başqalarını göstərmək olar.

## ABDULƏLİ BULAĞI

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Abduləli bulağı*** adlanır. Bu bulağın göz yaşı kimi dumduru, şəffaf, buz kimi soyuq suyu vardır. Hidronim ***Abduləli*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, *"Abduləliyə məxsus bulaq"* anlamını ifadə edir. ***Abduləli*** adlı şəxs bu bulağı üzə çıxaran adamdır. Məhz bu səbəbdən bulaq da onun adı ilə adlandırılmışdır. Bu tipli toponimlərə digər rayonların ərazilərində də rast gəlirik.





## ABUZƏR MEŞƏSİ

Cəbrayıl rayonunun Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Abuzər meşəsi*** adlanır. Oronim ***Abuzər*** şəxs adından, ***meşə*** sözündən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"Abuzərə məxsus olan meşə"*, *"Abuzərin meşəsi"* anlamındadır. Bu tipli oronimlərə Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlirik.

## ACI ALMALIQ

Dağ Tumas kəndinin yaxınlığında, Xanağabulağı kəndinin şimal-şərqində yerləşən Almurad dərəsi ilə Zunqur bağçası arasında, dağətəyi ərazidəki meşə zolağında qeydə alınan oronim ***Acı almalıq*** adlanır. Oronim ***acı*** və ***alma*** sözlərindən, eləcə də ***-lıq*** şəkilçisindən ibarətdir. Bu meşə zolağı ərazisindəki bağlarda çoxlu ***acı alma*** ağacları olduğu üçün toponim belə ad almışdır.

***Alma*** – gülçiçəklilər fəsiləsindən almakimilər yarımfəsiləsinin bir cinsidir. Onun çoxlu sayda növü vardır. Ən çox təsərrüfat əhəmiyyətli ***alma növləri*** bunlardır: *meşə alması, giləmeyvə* və *Sibir alması, gavalıyarpaq alma* və ya *Çin Alması, alçaqboylu alma, Sivers alması, Şərq* və ya *Qafqaz alması* və s. Azərbaycanda 15 sort alma becərilir. ***Alma*** lap qədimlərdən becərilən meyvə bitkisidir. Yer kürəsinin mülayim qurşağındakı meyvə bitkiləri arasında almanın mühüm yeri vardır. Azərbaycanda bütün meyvə bağlarının ***70 %***-i almalıqlardır. ***Alma*** yetişmə müddətinə görə *yay, payız* və *qış* sortlarına bölünür. Almadan konserv, cem, marmelad, mürəbbə, şirə və kompot hazırlanır. Azərbaycanda *1976*-cı ildə yerli ***alma*** sortlarından *Azərbaycan, Sarıturş, Cırhacı, Abşeron alması, Zaqatala şafranı, Qızıləhmədi* və s., gəlmə sortlardan *qırmızı Qrafenşteyn, Qızıl*

*Parmen, Landsberq Reneti, Qolden Dilişes, London Pepini, sarı Belflyör* və s. rayonlaşdırılmışdır.

## ADAMÖLƏN DƏRƏ

Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Adamölən dərə*** adlanır. Toponimin belə ad alması vaxtilə həmin *dərədə* baş vermiş bədbəxt hadisə - ***adamın ölümü*** ilə nəticələnən olayla əlaqədardır. Toponimin tərkibindəki ***dərə*** komponenti mənfi relyef forması bildirən coğrafi termindir. ***Dərələr*** xətti istiqamətdə uzanan və talveq üzrə yeknəsək, əksərən qeyri-bərabər enən relyef formasıdır. Onlar yamac və dib hissələrinə ayrılır. Dərələrin yamacları hündür və ya alçaq, dik, yaxud azmeylli, profildə pilləli, düz, batıq, qabarıq olur. Respublikamız ərazisində ***dərə*** coğrafi termini ilə əlaqədar ***30 000*** oronim qeydə alınmışdır.

Cəbrayıl rayonunun ərazisində adının tərkibində ***dərə*** termininin iştirak etdiyi ***100***-dən çox coğrafi ad qeydə alınmışdır. Bunların sırasında *Adamölən dərə, Alağayı dərəsi, Allahverdi dərəsi, Armudlu dərə, Arpadərə dərəsi, Ballı dərə, Bekəfil dərəsi, Binə dərə, Böyürtkənli dərə, Buduq dərəsi, Camış dərəsi, Çay dərəsi, Çullu dərə, Dağdağan dərəsi, Dəjəl dərəsi, Dəyirman dərəsi, Dığırğan dərəsi, Div dərəsi, Əmirvarlı dərəsi, Əncirli dərə, Gen dərə, Göy dərə, Göyçə dərəsi, Göyərçinli dərə, Hasanlı dərəsi, Horovlu dərəsi, Xəlifə dərəsi, Xudafərin dərəsi, İncirli dərəsi, Kavdar dərəsi, Küfül dərəsi, Qara dərə, Qarğılıq dərəsi, Qarağac dərəsi, Qaraxaç dərəsi, Qaranlıq dərə, Qarquluq dərəsi, Qızlar dərəsi, Qozlu dərə, Qurban dərəsi, Maqsud dərəsi, Muxtar dərəsi, Niqolay poçtu dərəsi, Poçt dərəsi, Saqqızlı dərə, Sarı dərə, Sarıçallı dərəsi, Sələk dərəsi, Sirik dərəsi, Suat dərəsi, Sulu dərə, Susalıq dərəsi, Şahmar dərəsi, Şahmərdan dərəsi, Tatar dərəsi, Təhməz dərəsi, Tinli dərə, Tumas dərəsi, Tülkü dərəsi, Üzərlikli dərə, Yarəhmədli dərəsi, Yovşanlı dərə, Zoğallı dərə* və başqalarının adlarını çəkmək olar.





## AĞ HƏRƏM KƏHRİZİ

Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Ağ hərəm kəhrizi*** adlanır. Hidronim ***ağ, hərəm*** və ***kəhriz*** sözlərindən ibarətdir. Bu kəhrizin göz yaşı kimi dumduru, şəffaf və buz kimi soyuq suyu vardır. ***Hərəm*** sözü ərəb dilində *"ərli qadın"* deməkdir.

***Kəhriz*** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## AĞ İSMAYIL BULAĞI

Dağ Tumas kəndinin ərazisində, Ağ İsmayıl oğlu Əhmədin həyətyanı bağ sahəsində qeydə alınan hidronim ***Ağ İsmayıl bulağı*** adlanır. Bu ***bulaq*** zəif sulu bulaqdır. Suyu şordur. ***Ağ İsmayıl*** hidronimi ***ağ*** sözündən, İsmayıl şəxs adından və ***bulaq*** hidronimik apelyativindən əmələ gəlmişdir. ***Bulaq*** kənd sakini ***Ağ İsmayılın*** adı ilə adlandırılmışdır. Toponim *"Ağ İsmayıla məxsus olan bulaq"* mənasındadır.

Cəbrayıl rayonunun ərazisində yüzlərlə ***bulaq*** adı qeydə alınmışdır. Onlara nümunə olaraq *Abduləli bulağı, Ağ bulaq, Ağ hərəm bulağı, Axərəm bulağı,* ***Ağ İsmayıl bulağı****, Ağılar bulağı, Ana bulaq, Avdal bulaq, Ayı bulağı, Balaca bulaq, Bekəfil bulağı, Biləvli bulağı, Cabbar bulağı, Cinəfərli bulağı,* Çinar bulağı, *Dağdağanlı bulaq, Daş bulaq, Daşlı bulaq, Dostluq bulağı, Dövlər bulağı, Enişli bulaq, Həmid bulağı, Həsən bulağı, Nümbətəli bulağı, Xəstə bulaq, Xor-xor bulaq, İncə bulaq, Kasa bulaq, Kavdar bulağı, Kolxoz bulağı, Kor bulaq, Korca bulaq, Kök bulaq, Kürdlər bulağı, Qamışlı*

*bulağı, Qara bulaq, Qaraquzey bulağı, Qarqarlı bulaq, Qorçu bulaq, Qoşqa bulaq, Qozlu bulaq, Qurban bulağı, Qurtunu bulaq, Quşçular bulağı, Məmməd bulağı, Məmmədalı bulağı, Məzrə bulağı, Mumu bulağı, Novlu bulağı, Pəri bulağı, Rəziyyə bulağı, Sevgi bulağı, Səadət bulağı, Səfər bulağı, Susalıq bulağı, Süleyman bulağı, Şayaq bulağı, Şərif bulağı, Şəkərxatun bulağı, Şıx bulaq, Şır-şır bulaq, Tahir bulağı, Tanrıverdi bulağı, Tey bulağı, Topçaq bulaq, Tumas bulağı, Yasin bulağı, Yeməli bulaq, Zümrüd bulaq* və başqalarını göstərmək olar.

## AĞ SEYİD PİRİ

***Ağ Seyid piri*** Cəbrayıl şəhərinin günbatanındakı Xubyarlı düzündə, səkkizguşəli türbələr yerləşən qədim məzarlığın Niftalılar adlanan hissəsində qeydə alınmışdır. Bu ***pir*** izi itməkdə olan qəbir yeridir. Deyilənə görə burada əslən Cicimli ocağından olan və ***Ağ Seyid*** adlanan mömin bir şəxs dəfn olunmuşdur. Bu *qəbir-piri* daha çox Əfəndilər kəndinin camaatı ziyarət edirdilər...

## AĞALARBATAN GÖL

Müəyyən təbii hadisə ilə bağlı əmələ gələn su obyektlərindən biri də Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Ağalarbatan göl*** adlanır. Bu hidronim ***Ağalar*** şəxs adından, ***batan*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Toponim *"Ağaların batdığı göl"* anlamındadır. Bu tipli coğrafi adlara Azərbaycanın digər ərazilərində də rast gəlmək mümkündür.

## AĞALARUÇAN KÖRPÜ

Cəbrayıl rayonunun ərazisində elə mikrotoponimlərə rast gəlirik ki, onlar baş vermiş müəyyən bədbəxt hadisə ilə əlaqədar olaraq adlandırılmışdır. Bu tipli toponimlərdən biri də ***Ağalaruçan körpü*** adlanır. Oronim





***Ağalar*** şəxs adından, eləcə də ***uçan*** və ***körpü*** sözlərindən ibarətdir. Vaxtilə ***Ağalar*** adlı adam bu *körpüdən* sürüşüb yıxıldığı üçün oronim belə ad almışdır. Toponim *"Ağaların yıxılıb uçduğu körpü"* mənasındadır. Belə toponimlərə Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlinir.

## AĞAVERDİ YURDU

Nüzgər kəndinin ərazisində qeydə alınan coğrafi adlardan biri ***Ağaverdi yurdu*** adlanır. Toponim ***Ağaverdi*** şəxs adından və ***yurd*** sözündən, eləcə də ***-u*** şəkilçisindən ibarət olub, *"Ağaverdiyə məxsus olan yurd yeri"* mənasındadır.

Azərbaycanda müəyyən ailəyə, qohuma, qrupa, nəslə, icmaya mənsub olan yaylaq və ya qışlaq yeri ***yurd*** adlanır. Bu, keçmişdə də belə olmuşdur. ***Yurd*** maldar eli arasında geniş yayılmışdır. ***Yurd*** adətən əlverişli təbii şəraiti olan, su mənbələrinə yaxın yerlərdə salınırdı. ***Yurdlar*** adətən bir qayda olaraq ailə, nəsil və ya icma başçısının adı ilə adlandırılırdı. ***Yurd*** məfhumunun *"vətən"*, *"ev"* mənaları da vardır...

## AĞCA DUZU (AT PİRİ) PİRİ

Quşçular kəndinin ərazisindəki qəbiristanlıqda tökmə təpə və daş hərləməsindən ibarət olan oroqrafik obyekt ***Ağca duzu piri*** adlanır. Bəzən onun adına ***At piri*** də deyirlər. Ətraf kəndlərin əhalisi tərəfindən əziz tutulan bu ***pir*** xəstə atların şəfa tapdıqları yer, ocaq kimi məşhur idi. Yerli sakinlər burada dəfələrlə xəstə atların sağalmasının şahidi olmuşlar. Elə bu səbəbdən də bu *pir* ***At piri*** adlandırılmışdır.

Toponimin tərkibindəki ***Ağca*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Mənbələrdə ***Ağca*** sözünün şəxs adı ilə *"boz"*, *"bozumtul"*, *"ağımtıl"*, *"çox da yüksək olmayan"*, *"alçaq"* anlamları göstərilir.

## AĞCAQAYINLI ZƏMİ

Söyüdlü kəndi istiqamətində qeydə alınan oroqrafik obyektlədən biri ***Ağcaqayınlı zəmi*** adlanır. Oronim ***ağcaqayın*** və ***zəmi*** sözlərindən, eləcə də **-lı** şəkilçisindən ibarətdir. ***Zəmi*** sözü *"əkin yeri"*, *"tarla"* mənasını bildirir. ***Ağcaqayın*** möhkəm oduncaqlı, qollu-budaqlı meşə ağacıdır. Bu zəmi sahəsində bir neçə ***ağcaqayın*** ağacı bitdiyi üçün toponim belə adlandırılmışdır.

## AĞDAM DƏRƏSİ, AĞDAM DÜZÜ, AĞDAM YATAĞI

Bu yerlər Cəbrayıl rayonu ərazisində - Nüsüs, Şəybəy, Kavdar kəndləri yaxınlığındadır. ***Ağdam dərəsi*** Nüsüs kəndində, ***Ağdam düzü*** Şəybəy kəndində, ***Ağdam yatağı*** oronimi isə Kavdar kəndində qeydə alınmışdır. Toponimin tərkibindəki ***Ağdam*** sözü *Ağdam* tirəsinin adı ilə əlaqədardır ***Ağdam*** toponimi rəng bildirən ***ağ*** və *"qışlaq yerində mal-qaranı saxlamaq* üçün *tövlə"* mənasını ifadə edən ***dam*** sözlərindən ibarətdir. ***Ağdam*** oronimi ***ağ*** (*"rəng"*, *"kiçik"*, *"alçaq"*) və ***dam / tam*** (*"yer qatı"*, *"divar"*, *"qala"*, *"yüksək tikilinin baş hissəsi, zirvəsi"*) sözlərindən ibarət olub, *"kiçik qala"*, *"kiçik yüksəklik"*, *"kiçik zirvə"* deməkdir.

***Dərə*** və ***düz*** terminləri mənfi relyef formaları bildirir. ***Dərə*** - mənfi relyef forması ifadə edən coğrafi termindir. ***Dərələr*** xətti istiqamətdə uzanan və talveq üzrə yeknəsək, əksərən qeyri-bərabər enən relyef formasıdır. Onlar yamac və dib hissələrinə ayrılır. Dərələrin yamacları hündür və ya alçaq, dik, yaxud azmeylli, profildə pilləli, düz, batıq, qabarıq olur. Respublikamız ərazisində ***dərə*** termini ilə əlaqədar ***30 000*** oronim qeydə alınmışdır.

Oronimiyamızda ***düz*** və ***düzənlik*** sözü həm ***düz***, həm də ***yazı*** formasında öz əksini tapmışdır. Respublikamızın ərazisinin *30* faizindən çoxu *düzənlik* olduğundan adında ***düz*** və ya ***düzənlik*** termini iştirak edən oronimlər də çoxluq təşkil edir. Ərazidə ***düz*** sözü ilə əlaqədar çöl materialları içərisində toplanan coğrafi adların sayı ***11 000***-ə yaxındır.

***Yataq*** termini isə maldar ellərin qışlaq yerlərində müvəqqəti yaşayış yeri yanında təsərrüfat tikintisinin adıdır. Payızda otarılan qoyunlar keçmişdə qışlaqda gecələr açıq havada öz kərməsində qalardı. Payızın





axırında isə, adətən soyuq günlərdə, gecələr qoyunlar yatağa salınardı. Hər yataq təxminən 50 qoyun üçün nəzərdə tutulurdu. ***Yataq*** sözü ilə bağlı ölkəmizdə çöl materialları içərisində ***400***-ə qədər oronim qeydə alınmışdır.

Cəbrayıl rayonu ərazisində *Genyataq, Küfül yataq, Parsyataq, Başyataq,* Çayyataq, *Kərməli yataq, Abaslı yatağı, Qazax yatağı, Köçəri yatağı, Peyinli yatağı, Sarı yatağı, Pambıqlı yatağı* coğrafi adları da qeydə alınmışdır.

## AĞDAŞ GÜNEYİ

***Ağdaş güneyi*** oronimi Cəbrayıl rayonunun Quycaq kəndi ərazisində qeydə alınmışdır. ***Ağdaş güneyi*** toponimi ***ağdaş*** sözündən, ***güney*** coğrafi terminindən və **-i** şəkilçisindən ibarətdir. Məlumdur ki, tikintidə istifadə edilən daş növlərindən biri ***ağdaş*** adlanır. Toponim rəng bildirən ***ağ*** və ***daş*** (*qaya*) sözlərindən ibarətdir. ***Güney*** - *"günəş şüasının çox düşdüyü tərəf"*, *"dağın, təpənin, yüksəkliyin cənubu, günəşə baxan hissəsi"* deməkdir. Qədim türk dillərində ***güney*** sözünün *"cənub"* mənası da vardır. Türkdilli xalqlarda bu söz indi də işlədilir. Respublikamız ərazisində ***güney*** formantının iştirakı ilə 2500-dən çox oronim qeydə alınmışdır.

***Ağdaş*** sözünü *Ağdaş* rayonunun, *Ağdaş* tirəsinin adı ilə də bağlayanlar var...

## AĞDƏRƏ

Cəbrayıl rayonunun Çərəkən kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Ağdərə*** oroqrafik obyektidir. Toponim ***ağ*** və ***dərə*** sözlərindən ibarətdir. Burada ***ağ*** komponenti torpağın süxurunun rəngini bildirir. ***Dərə*** - mənfi relyef forması ifadə edən coğrafi termindir. ***Dərələr*** xətti istiqamətdə uzanan və talveq üzrə yeknəsək, əksərən qeyri-bərabər enən relyef formasıdır. Onlar yamac və dib hissələrinə ayrılır. Dərələrin yamacları hündür və ya alçaq, dik, yaxud azmeylli, profildə pilləli, düz, batıq, qabarıq olur. Respublikamız ərazisində ***dərə*** termini ilə əlaqədar ***30 000*** oronim qeydə alınmışdır. Cəbrayıl rayonu ərazisində *Böyürtkən-*

*li, Qozlu, Tülkü, Suat, Üzərlikli, Qaranlıq, İncəçay, Niqalay poçtu, Camışlı, Ballı, Qurban, Yovşanlı, Dəcəl, Qarağac, Küful, Susalıq* və s. ***dərələr*** qeydə alınmışdır.

Ağsu, Goranboy, Göygöl, Füzuli, Qazax, Qubadlı, Laçın, Lerik, Masallı, Tovuz, Zəngilan və başqa rayonların ərazilərində də ***Ağdərə*** oronimi qeydə alınmışdır. Vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində də ***Ağdərə*** adlı rayon vardı. ***Ağdərə*** coğrafi adına Əfqanıstanın Şibirqan vilayətində (*Ağdərə*), adına Ermənistan deyilən Qərbi Azərbaycanda (*Aqdərə*), Gürcüstanın Bolnisi rayonunda (*Ağdərə)*, Türkiyədə (*Aqdere)* və s. ərazilərdə də rast gəlinir. Vaxtilə Dərələyəz mahalında ***Ağdərə*** adlı kənd də mövcud olub.

Türkmənşəli ***Ağdərə*** sözünün (*toponiminin*) *"kiçik dərə"* mənası da məlumdur.

## AĞIL DƏRƏSİ

***Ağıl dərəsi*** oronimi Cəbrayıl rayonunun Aşağı Məzrə kəndində qeydə alınmışdır. Oronim ***ağıl*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq bidirən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Relyefin nisbətən dar və uzunsov, çökək formasına, adətən əyri-üyrü şəklinə ***dərə*** deyirlər. Toponimiyamızda ***dərə*** coğrafi termininin *"çayın axdığı yer", "çay yatağı", "uzun, dərin çuxur", "iki dağ və ya təpə arası"* və başqa mənaları mövcuddur. Respublikamızın ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** coğrafi termini iştirak edən ***30 000*** oronim qeydə alınmışdır. Toponimin tərkibindəki *ağıl* sözü *"mal-qara və davar saxlanan yer"* deməkdir. İçərisində mal-qara, qoyun-quzu saxlamaq üçün ətrafı tikan və ya ağac ilə hasarlanmış üstüaçıq yer ***ağıl*** adlanır. ***Ağıl dərəsi*** toponimi *"mal-qara və davar saxlanan dərə", "mal-qara saxlanan çay yatağı"* mənasındadır.

Qubadlı rayonunun Seləli kəndi ərazisində də *Ağıl dərəsi* oronimi qeydə alınmışdır.





## AĞQAYA

Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Ağqaya*** adlanır. ***Ağqaya*** dağ adı rəng bildirən ***ağ*** sözündən və müsbət relyef forması ifadə edən ***qaya*** coğrafi termininin ibarətdir. Bir çox oronimlərdə ***ağ*** komponenti müxtəlif məna çalarlarına malikdir. ***Ağqaya*** oronimindəki ***ağ*** sözü özündə həmin yerdə dağ süxurunun rəngini mənalandırır. Rəng çaları bildirən ***ağ*** sözündən yaranan müsbət relyef formaları özləri də bilavasitə fikrimizin doğruluğunu bir növ sübut etmiş olur. Deməli, ***ağ*** komponenti qayanın *ağ* (*ağımtıl*) rəngdə olduğunu bildirir.

***Ağqaya*** oroniminə respublikamızda Babək, Quba, Qubadlı, Kəlbəcər, Gədəbəy, Goranboy, Göyçay, Laçın, Tovuz, Xocavənd, Şəmkir, Şərur, Şuşa və başqa rayonların ərazilərində də rast gəlirik. Qazaxstanda *Axkaya*, Dağıq Altayda *Akkaya*, Gürcüstanda *Aqqaya* oronimləri də mövcuddur. Qərbi Azərbaycanda (*Ermənistanda*), İrəvan şəhərindən qərbdə ***Ağqaya*** (*ermənilər indi onun adını dəyişib **Akkar** etmişlər*) adlı dağ da var.

## AĞOĞLAN ABİDƏSİ

***Ağoğlan abidəsi*** Cəbrayıl rayonunda, Cəbrayıl şəhərinin yaxınlığında, Çərəkən kəndinin günbatanında, *Ağoğlan dağı* zirvəsində yerləşən köhnə qəbiristanlıq ərazisində qeydə alınmışdır. Adına bəzən ***Ağoğlan piri*** də deyirlər. Bu ***pir*** – daş qalağı və qaratikan kolluğu ilə örtülmüş qəbirdən ibarətdir. Qəbrin üstündə 0,8m + 2m + 1,8m ölçülü daş kitabə vardır. Mütəxəssislərin dediklərinə görə, onun üzərindəki yazılar türk-rum hərfləri ilə döyülmüşdür. ***Ağoğlan*** oroniminin adı eyniadlı pirin adından götürülmüşdür. Çox güman ki, yerli türk əhali əvvəl pirə, sonra isə dağa bu adı vermişdir. Türk dillərində ***oğlanak*** sözü *"kiçik oğlan", "kiçik şahzadə"* anlamını ifadə edir.

Bu tarixi ***abidə*** ilə bağlı yerli əhali arasında bir neçə əfsanə-rəvayət formalaşmışdır. Onlardan birinin süjeti də təxminən bundan ibarətdir ki, ***ağappaq*** gözəl, igid bir oğlan (*bəlkə də **Ağoğlan** adı bu mənada işlənmişdir*) burada qeyri-bərabər döyüşdə öldürülmüş, elə buradaca dəfn

olunmuşdur. *16 iyun 1905-ci il* tarixdə Cəbrayıl qəzasında, məhz indiki bu ***Ağoğlan*** monastırında (*pirində*) Azərbaycan numayəndələri ilə daşnaqların birgə iclası keçirilmişdir...

Əfsanələrə görə, ***Ağoğlan*** ilk insan və ilk insanın yaşayış məskəni olmuşdur. *Ağoğlan piri, Ağoğlan dağı* adlandırılan bu ərazidə miladdan öncə I minillikdə böyük şəhərin olduğu güman edilir. Bəzi tarixi sənədlərdən aydın olur ki, *Ağoğlan şəhəri* XIII əsrdə monqollar tərəfindən dağıdılmışdır.

Yakut türklərində *"Ağ oğlan"* mif dastanını ilk dəfə A.Thivon Middendorf yazıya alıb. Bu fikri bir çox tədqiqatçılar da təsdiq edir. Sonrakı dövrlərdə o, xristianlıq məbədinə və musəlmanların ibadətgahına çevrilmişdir. Bu ərazilərdə islam dini yayıldıqdan sonra islamı qəbul edən müsəlmanlar bu *pir-qəbri* ibadətgah kimi tanımaqda davam etmişlər. İslam dini meydana gəldikdən sonra ***Ağoğlan abidəsi piri*** də müsəlmanların ziyarətgahına çevrilmişdir. İ.Petruşevskinin *"Ağ oğlan"* haqqında yerli əhalidən eşitdiyi tarixi əfsanənin qısa məzmunu belədir:

- *"İgid, yenilməz "Ağ oğlan" xalqını yağılardan qoruyurdu. Yağılar yenə hücuma keçir. "Ağ oğlan" onlarla vuruşur. Yağılar çox idi. "Ağ oğlan" döyüşdə yaralanır və ölür. O, elə orada – dağda basdırılır".*

***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

Cəbrayıl rayonu ərazilərinin tarixi coğrafiyası haqqında bir çox cəfəngiyyatlar uydurmuş XIX əsr erməni müəllifı M.Barxudaryanın, yanlış olaraq *"Spitaq* tığa" (***"Ağ oğlan"***) adlandırdığı bu ***qəbir-abidə*** onun fıkrincə guya, erməni abidəsi olmaqla xaçpərəstlik dövründən qalmışdır. Əlbəttə, onun və eləcə də digər erməni *"araşdırıcılarının"* belə fıkirləri heç bir tarixə söykənməyən, hüquqi əsası olmayan saxta uydurmalardan, böhtanlardan başqa bir şey deyildir. ***Ağoğlan*** toponimi *"müqəddəs övlad"* mənasındadır.

Qarabağ yaylasında, Laçın rayonunun ərazisində ***Ağoğlan*** adlı kənd





*(keçmiş adı **Kosalar** olub: sonralar yaşayış məntəqəsinin ərazisindəki **Ağoğlan** pirinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır)*, dağ və çay *(Həkəri çayının sağ qolu; yuxarı axarında **Minkənd** və ya **Əhmədli**, aşağı axarında isə **Zabux** adlanır)* vardır.

## AĞSAQLAR KƏHRİZİ

Cəbrayıl rayonunun Mirzəcanlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Ağsaqlar kəhrizi*** adlanır. Bu kəhrizin belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Çox güman ki, toponim öz adında qədim tariximizdə dərin iz qoymuş ***sak*** (***ağ sak***) tayfalarının adını yaşadır. Bu coğrafi adla bağlı başqa fikirdə olanlar da var.

Yerli məlumata görə, guya vaxtilə burada ***7*** qardaş olub və onlar əkin-biçinlə məşğul olarmışlar. Onların yeddisi də *axsadığından* kəhrizin də adı ***Axsaqlar*** (sonralar guya bu söz ***Ağsaqlar*** şəklinə düşmüşdür) adlanmışdır. Əlbəttə, əfsanələrdə də müəyyən həqiqətlər yaşayır. Amma mənə elə gəlir ki, ***Ağsaqlar kəhrizi*** haqqında mifləşərək danışılan bu əhvalat həqiqətə uyğun deyildir.

## AĞTƏPƏ

Cəbrayıl rayonunun Ağtəpə kəndi yaxınlığında qeydə alınan ***Ağtəpə*** oronimi rəng bildirən ***ağ*** komponentindən və müsbət relyef forması ifadə edən ***təpə*** sözündən ibarətdir. Azərbaycan və başqa türk dillərində işlənən ***ağ*** sözünün çoxlu məna çalarları vardır. Bəzi araşdırıcılara görə, ***Ağtəpə*** coğrafi adının tərkibindəki ***ağ*** termini *"kiçik, alçaq, çox da hündür olmayan"* anlamını ifadə edir. Bir qısım tədqiqatçılara görə isə, ***Ağtəpə*** oronimindəki ***ağ*** sözü təpənin *ağ* rəngli süxurlarının rəngini özündə əks etdirir. Rəng bildirən ***ağ*** sözündən və müsbət relyef forması ifadə edən ***təpə*** coğrafi terminindən yaranmış toponimlərə respublikamızın *Abşeron, Füzuli, Gədəbəy, Göygöl, Kəlbəcər, Qaradağ, Qazax, Qobustan, Qusar, Zəngilan* və digər rayonlarının ərazilərində, eləcə də *Gəncə şəhəri* yaxınlığında rast gəlirik. Respublikamızın ərazisində adının tərkibində ***təpə***

coğrafi termini iştirak edən ***3 000*** oronim toplanmışdır.

Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***təpələrə*** nümunə olaraq *Qaraman təpəsi, Qumlu təpə, Qurban təpəsi, Yantəpə, Sarı təpə, Yaylımtəpə,* Üzərlikli *təpə,* Şıx *Mustafa təpəsi* və başqalarını göstərmək olar.

## AĞTƏPƏ KƏNDİ

***Ağtəpə kəndi*** Cəbrayıl rayonunda, Minbaşılı inzibati ərazi vahidində, rayon mərkəzindən 4 kilometr cənub-qərbdə, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 380 nəfərdir. Əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıqla məşğul olurdu. Kənddə klub, kitabxana, feldşer-mama məntəqəsi və s. vardı. Kənd ***23 avqust 1993-cü il*** tarixdə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

***Ağtəpə*** yaşayış məntəqəsini XX əsrin 30-cu illərində rayonun Daş Veysəlli kəndindən ayrılmış bir qrup ailə ***Ağtəpə*** adlanan ərazi yaxınlığında salmışlar. Kənd də həmin yerin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Məlumdur ki, oronimlərin müəyyən hissəsi Azərbaycanın müxtəlif bölgələrində yaşayış məntəqə adlarına çevrilərək orooykonimlər əmələ gətirmişdir. ***Ağtəpə*** oykonimi rəng mənası ifadə edən ***ağ*** sözündən və müsbət relyef forması bildirən ***təpə*** coğrafi terminindən ibarət olub, yerləşdiyi coğrafi landşaftı öz adında əks etdirir.

Əlavə məlumat üçün bax: **Ağtəpə.**

## AXAR-BAXARLI

Nüzgər kəndinin ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Axar-Baxarlı*** adlanır. Toponim Azərbaycan dilindəki ***axar*** (*"su axarı, çay"*) və ***baxar*** (*"dağın çayabaxar tərəfi"*) sözlərindən və ***-lı*** şəkilçisindən ibarət olub, "çayə*trafı, çayabaxar tərəf*" mənasındadır. Azərbaycan dilində və dialektlərində ***axar-baxarlı*** komponenti "*dağların döşü*", "*mənzərəli yer*" anlamlarını da ifadə edir. Dilimizdə hər tərəfi açıq və xoş mənzərəli yer, göz işlədikcə görünən təbiət mənzərəsi ***axar-baxar*** adlanır.

Azərbaycan Respublikasının ərazisində - Abşeron rayonunda *Axar-*





*baxar aşırımı,* Kəlbəcər rayonu ərazisində hündürlüyü 3047 metr olan *Axar-baxar dağı,* Sumqayıt ərazisində hündürlüyü 1388 metr olan *Axar-baxar dağı,* Şəki yaylası ilə Mingəçevir su anbarı arasında *Axar-baxar dağ silsiləsi,* Yevlax rayonu ərazisində *Axarbaxar aşırımı,* Laçın rayonu ərazisində *Axar-baxarlı yer* və s. bu kimi coğrafi adlar qeydə alınmışdır.

## AXƏRƏM BULAĞI

Göyərçin Veysəlli kəndinin yaxınlığında, qədim karvan yolunun üzərində, eyniadlı kəhrizin yanında qeydə alınan maraqlı hidronimlərdən biri də ***Axərəm bulağı*** adlanır. Bulağın adı bəzi sənəd və materiallarda ***Ağhərəm*** kimi də yazılır. Bu bulağın şəfalı, göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. Bulağın belə adlanması ilə əlaqədar müxtəlif fikir və mülahizələr mövcuddur. Hidronim gözəl mənzərəli, ***axar-baxarlı*** bir yerdə yerləşir. Azərbaycan dilindəki ***axar*** sözü *"su axarı"*, *"çay"* anlamını daşıyır. Toponim *"suaxar yerdə olan bulaq"* mənasındadır.

## AXƏRƏM PİRİ

Rayonun Göyərçin Veysəlli kəndinin şimal-qərbində, qədim karvan yolunun üstündə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Axərəm piri*** adlanır. Bəzən bu coğrafi adı sənədlərdə ***Ağhərəm*** şəklində də yazırlar. Bu ***pir*** daş hasardan və hasar içində 1 kvadrat metr həcmində olan qara daşdan ibarətdir. Pirin giriş qapısı hasarın şimalındandır.

Məlumdur ki, Azərbaycanda ***pir-ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir.

Əlavə məlumat üçün bax: **Axərəm bulağı.**

## ALA ÖKÜZ DƏRƏSİ

Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Ala öküz dərəsi*** adlanır. Oronim ***ala***, öküz, ***dərə*** sözlərindən və ***-si*** şəkilçisindən ibarətdir. ***Ala*** rəng bildirən termindir; ***ala*** sifəti *"qarışıq rəngli, bir hissəsi ağ, digər bir hissəsi başqa rəngdə olan"* anlamındadır. Öküz – 1) cütdırnaqlılar dəstəsinin boşbuynuzlular fəsiləsinə aid iri gövşəyən heyvandır. Camışlarla birlikdə xüsusi yarımfəsilə təşkil edirlər. Gövdəsi ağır, boynu qısa və yoğun, ayaqları qısa və qüvvətlidir. Onlar sürü ilə yaşayırlar. Öküzlərin ***4*** cinsi var: əsl öküz, *yaklar, enlialınlı öküz* və *bizonlar*. 2) Qaramalın damazlıq törədici erkəyi (***buğa***).

Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə, Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi, Dəlidağ dərəsi*) kimi işlənir. ***Dərə*** termini ilə bağlı Azərbaycanda çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

## ALABAXTALI DÜZ

Rayonun Qalacıq kəndi yaxınlığında, Baş Butar ilə Budaqlı dərə arasında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Alabaxtalı düz*** adlanır. Həmin *düzdə* vaxtilə tez-tez meşə göyərçini hesab edilən ***alabxta*** quşları olduqlarına görə yerli əhali bu yeri belə adlanmışdır. ***Düz*** coğrafi termini mənfi relyef forması bildirir. Bu tipli oronimlərə Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlmək olar.

## ALAKOL

Vaxtilə Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafı adlardan biri də ***Alakol*** adlanırdı. Rayon ərazisində bu adda yaşayış məntəqəsi mövcud olmuşdur. Oykonim ***ala*** və ***kol*** sözlərindən ibarətdir. Türk mənşəli söz olan ***Alakol*** toponiminin mənası *"ara-sıra kol bitkisi olan yer sahə"*, *"adda-budda kolu olan ərazi"* deməkdir. Bu tipli coğrafi adlara Respublikamızın digər rayonlarının ərazilərində də rast gəlirik.





## ALAKÖLGƏ

Cəbrayıl şəhərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Alakölgə*** adlanır. ***Alakölgə*** isimi ***ala*** və ***kölgə*** sözlərindən əmələ gəlmişdir. ***Alakölgə*** toponimi *"həm kölgə, həm işıq olan yer"*, *"həm kölgəli, həm işıqlı olan yer"*, *"həm kölgəlik, həm işıqlıq"* anlamındadır.

## ALAQARĞI KƏNDİ

Vaxtilə Arazbar qəzasında ***Alaqarğı*** adlı kənd mövcud olmuşdur. 1593-cü ilə bağlı Osmanlı qaynağında bu kəndin adı çəkilir. ***Alaqarğı*** kəndinin əhalisi orta əsrlər feodal ara savaşları nəticəsində boşaldılmışdır. Tarixi materiallardan aydın olur ki, XVIII əsrdə bu kəndin yerində sonralar *Cavanşir* elinin *Sarıcalı, Yağləvənd* və *Seyidmahmudlu* oymaqlarının qışlaqları olmuşdur. 1727-ci ilə aid olan tarixi qaynaqda qeyd olunur: *"Başqa adı **Güllü** olan bu kənddə heç kim yaşamır. Dənli bitkilərdən əldə olunan gəlir – 48 600 ağça"* (*"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri", Bakı, "Şuşa" nəşriyyatı, 2000, səh.477*).

Tarixçi Əhməd bəy Cavanşir doğma yurd-yuvalarından danışarkən yazır: *"...**Alaqarğı** oymağında yaşayan Məhəmmədxan adlı birisi ceyran dərisindən düzəldilmiş perqament üzərində yazılan bir qəbaləyə əsasən Kürəkçay, Kür, Araz, Əlincəçay və Göyçə gölü arasındakı 200 verstə qədər uzunluğu və bu qədər də eni olan bütün Qarabağ torpaqlarını satın almış və uzun müddət bu yerdən müstəqil surətdə istifadə edərək, hələ sağlığında oranı üç oğlu arasında bölüşdürmüşdür"* ("Qarabağnamələr", I kitab, Bakı, "Yazıçı", 1989, səh. 158-159).

## ALAQAYA TƏPƏSİ

Cəbrayıl rayonunun Aşağı Məzrə kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Alaqaya təpəsi*** oronimidir. Oronim ***ala, qaya, təpə***

sözlərindən və mənsubluq ifadə edən *-si* şəkilçisindən ibarətdir.

***Alaqaya*** sözü ilə bağlı toponimiyamızda müxtəlif fikir və mülahizələr var. ***Ala*** sözü relyef formasının bitki aləminin seyrəkliyini (*"ala-bula"*) bildirir. ***Ala*** termini ilə bağlı respublikamızın ərazisində ***250*** oronim vardır. ***Qaya*** müsbət relyef forması bildirən coğrafi termini *"sıra dağlardan ayrılan qol"*, *"dağların müəyyən hissəsində çətin keçilən yer"* anlamını daşıyır. Respublikamızın ərazisində adının tərkibində ***qaya*** termini iştirak edən ***2 800*** oronim mövcuddur.

***Təpə*** - müsbət relyef forması bildirən coğrafi termindir. Adətən ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü *200* metrdən artıq olmayan yüksəkliyə ***təpə*** deyirlər. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar yaranmış ***3 000*** oronim qeydə alınmışdır.

Azərbaycan Respublikasının digər rayonlarında da bu tip oronimlərə rast gəlmək mümkündür.

## ALASTAN DƏRƏSİ

Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan oronim ***Alastan dərəsi*** adlanır. Toponim ***Alastan*** və ***dərə*** sözlərindən, eləcə də ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. ***Alastan*** - şəxs adıdır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Bəzi tədqiqatçılar toponimi oronimin tərkibindəki ***ala*** sözü ilə əlaqələndirərək, dərənin bitki aləminin seyrəkliyi, *alabulalığı* ilə bağlayırlar...

## ALAŞAR YALI

***Alaşar yalı*** Cəbrayıl rayonunun Daş Veysəlli kəndi ərazisində qeydə alınmışdır. ***Alaşar*** (***alasar***) sözü qədim türk dillərində *"alçaq dağ"*, *"hündür təpə"*, *"alçaq dağlıq"*, *"dağ"* mənaları kəsb edir. ***Alaşar yalı*** toponimi *"alçaq dağ yalı"* mənasındadır. Respublikamızın ərazisində çöl materialları içərisində tərkibində ***ala*** termininin iştirak etdiyi ***250*** oronimlər qeydə alınmışdır. ***Ala*** sözü bitki aləminin seyrək, *ala-bula* olmasını ifadə edir. Bu oroqrafik obyekt yaxınlığında yerləşən dağdan bir qədər alçaqda





yerləşdiyinə görə belə adlandırılmışdır.

Babək rayonunun Dərəkənd kəndində *Alaşar təpəsi*, Qubadlı rayonunun Aşağı Mollu kəndində *Alaşar dərəsi*, Laçın və Lerik rayonlarında *Alaşar qaya* və s. oronimlər də ***alaşar*** termininin iştirakı ilə yaranmışdır.

## ALBAN BAŞ DAŞI

Rayonun İsaqlı kəndinin qəbiristanlığının yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Alban baş daşı*** adlanır. Yerli məlumata görə, qədim tarixə malik olan bu *alban baş daşını* ermənilər Qarabağ hadisələrinin ilk illərində - 1988-ci ildə rus əsgərləri ilə birlikdə vertolyota qoyaraq naməlum istiqamətə aparmışlar...

## ALBAN DÜZÜ

Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında, Çullu kəndinə gedən yolun quzey hissəsində, Daşlı yoxuşun alt tərəfində qeydə alınan oroqrafik obyekt ***Alban düzü*** adlanır. Vaxtilə burada albanların məskunlaşması ilə əlaqədar olaraq toponim belə adlandırılmışdır. Oronimin tərkibindəki düz coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyamızda ***düz*** və ***düzənlik*** sözləri həm ***düz***, həm də ***yazı*** formasında öz əksini tapmışdır. Respublikamızın ərazisinin 30%-dən çoxu düzənlik sahə olduğundan adında ***düz*** termini iştirak edən oronimlər də çoxluq təşkil edirlər. Respublikamızın ərazisində ***düz*** sözü ilə əlaqədar çöl materialları içərisində toplanan coğrafi adların sayı ***11000***-ə yaxındır.

## ALÇALI DƏRƏ

Azərbaycan oronimiyasında gülçiçəklilər fəsiləsindən olan çəyirdəkli ***alça*** meyvə ağacı adı ilə düzələn coğrafi adlar üstünlük təşkil edir. Onlardan biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Alçalı dərə*** oronimidir. ***Dərə*** mənfi relyef forması bildirən coğrafi termindir. Bu dərədə

***alça*** ağacları bitdiyinə görə oronim belə ad almışdır.

***Alça*** bitkisi adını əks etdirən oronimlərə *Alçalı dərə* (Qubadlı, Daşkəsən, Kəlbəcər rayonları), *Alçalı dağ* (Laçın və Göygöl rayonları), *Alçalı yaylaq* (Abşeron rayonu), *Alçalı gəz* (Ağsu rayonu, Bico kəndi), *Alçalı çuxur* (Laçın rayonu) və başqalarını nümunə göstərmək olar. İrəvan quberniyasının Novobayazid qəzasında (Versdağ dağında) Kiçik Məzrə kəndinin maldarlarına məxsus olan yaylaqdakı yurd yerinin adı da *Alçalı dərə* adlanırdı.

***Alçalı*** türkmənşəli sözünün *"uca yurd"* mənası da məlumdur.

## ALI DƏRƏSİ

Cəbrayıl rayonunun Şükürbəyli kəndində qeydə alınan ***Alı dərəsi*** oronimi antroponimik oronimlərdəndir. Bu coğrafi ad ***Alı*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** coğrafi termini mənfi relyef forması ifadə edir. Toponim ***Alı*** şəxs adı ilə əlaqədar yaranmışdır.

Qazax rayonunun Kəmərli və Kəlbəcər rayonunun Babaşlar kəndlərində də *Alı dərəsi* oronimi qeydə alınmışdır.

## ALIKEYXALI KƏNDİ

***Alıkeyxalı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 26 kilometr cənubda, Maşanlı inzibati ərazi vahidində, Mincivan-Horadiz dəmir yolu kənarında, Arazboyu düzənlikdə, dağətəyi ərazidə yerləşir. Əhalisinin sayı 650 nəfərdir. Əhalisi taxılçılıq, heyvandarlıq, baramaçılıq, üzümçülük və tərəvəzçiliklə məşğul olurdu. Kənddə əsas məktəb, klub, kitabxana, tibb məntəqəsi, kəhriz və s. vardı. Kəndin ərazisində *İbişdağ, Qovşudlu yeri, Gen dərə, Zeynal sahəsi, Sarı qamış, Plov təpə, Çaylaq, Qumayatan yer, Bəbiş kişinin tutluğu, Humay çalası, Rəhimlilərin məhəllısi, Çala məhəllə, Mədədli məhəllısi, Dəmiryolun altı, Mahmud arxı, Derenaj arxı, Alıkeyxalı kəhrizi, Məhəmməd kəhrizi, Şamlıq, Qasım nişangahı, Cingir bulaq piri* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü





ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Alıkeyxalı kəndi*** keçmiş *Bəydili* adlı yerdə salınmışdır. Yerli məlumata görə, XII yüzillikdə yaşamış *Cəbrayıl* adlı müqəddəs bir kişinin altı oğlundan birinin adı ***Alıkeyxa*** olmuşdur. Ataları öldükdən sonra onların saldıqları kəndlər də öz adları ilə adlandırılmışdır...

Bir çox tədqiqatçıların fikrincə, ***Alıkeyxalı*** toponimi nisbətən təhrifə uğramışdır. Onların fikrincə əslində kəndin adı ***Alıkovxalı*** olmalıdır. Sonralar toponimin tərkibindəki ***kovxa*** sözü ***keyxa*** formasına düşmüşdür. ***Alıkeyxalı*** oykonimi ***Alı*** şəxs adı və ***keyxa/kovxa*** sözlərindən ibarətdir. ***Kovxa (koxa)*** - XVI-XIX əsrlərdə Azərbaycanda da mövcud olmuş vəzifə (bəzən ***yüzbaşı*** da deyirlər) deməkdir. Bu söz ***kəndxuda*** sözünün sinonimidir. Tovuz rayonunun Əsrik Cırdaxan inzibati ərazi vahidində qeydə alınan ***Koxanəbi kəndi*** də bu tipli oykonimlərdəndir.

***Koxalar*** əsasən maaf zümrəsindən olurdular; onlar mahal bəyinə tabe idilər. Hər bir kəndin ayrıca *kovxası* olurdu. Orta əsrlərdə Azərbaycanda və bəzi qonşu ölkələrdə mükəlləfiyyət forması həm də ***kovxalıq*** olmuşdur: kəndlilər *kovxanın* torpağını becərməli, taxılını daşımalı, öz məhsullarının müəyyən hissəsini ona verməli və s. mükəlləfiyyətləri yerinə yetirməli idilər. Əgər hər hansı münaqişəyə baxılarkən ***kovxa*** orada iştirak edərdisə, alınan cərimələr bir qayda olaraq onun xeyrinə toplanardı. Bir çox məlumatlara görə, ***Alı*** sünnü məzhəbli şəxs olmuşdur...

D.D.Paqirev 1913-cü ildə Tiflisdə nəşr etdirdiyi kitabda oykonimi ***Ali-Kevxalu*** şəklində işlətmişdir. ***Alıkeyxalı*** (***Alıkovxalı***) toponimi *"kovxa Alının nəslindən olanlar", "Alı yüzbaşıya məxsus olan kənd"* mənasını daşıyır.

## ALIPAŞA DAĞI

Qarabağın dağlıq hissəsində, Cəbrayıl rayonu ərazisində, Cəbrayıl şəhərindən bir neçə kilometr şimalda, yüksəklikdə qeydə alınan ***Alıpaşa dağı*** haqqında müxtəlif fikir və mülahizələr, əfsanələr uydurulmuşdur. Toponimin tərkibində olan ***Alı Paşa*** sözü şəxs adıdır. Mənbələrdə göstərilir ki, son orta əsrlər dönəmində Anadoludan Cəbrayıl elinə köçüb gələn və səlcuq türklərindən olan Sultan Əhməd adlı nüfuzlu bir şəxsiyyət çox götür-qoydan sonra axırda *Alaçıq* kəndini özünə məskən, iqamət-

gah seçmişdir. Müəyyən müddətdən sonra ***Alı Paşa*** adlı bir türk Sultan Əhmədən bu ərazidə yaşamaq üçün sığınacaq istəmişdir. Sultan Əhməd də onu öz yaxını olan Cəbrayıl Atanın yanına göndərmişdir. Cəbrayıl Ata *Alı Paşaya* onun öz mülkünə yaxın bir yerdə məskunlaşmasına razılıq vermiş və ***Alı Paşa*** da indiki Cəbrayıl rayonunun Qərar (*Dursunlu*) kəndinin ərazisində məskən salmışdır. Kəndin cənub hissəsində bütün sututan sahələr (*Ata Alı bağı, Həkul düzü, İlan düzü* və s.), eləcə də Cəbrayıl Atanın dəfn olunduğu dağlıq sahə vaxtilə Alı Paşaya məxsus yerlər olmuşdur. Ümumiyyətlə, Xələflidən Daş Veysəlliyə, Sacayaq təpəliyinə qədər olan ərazilər, əkin və otlaq sahələri Alı Paşaya məxsus idi. Dövrünün böyük nüfuz sahiblərindən olan ***Alı Paşa*** ilə ***Cəbrayıl Ata*** həmişə bir-biri ilə səmimi, mehriban, yaxın olmuşlar. Cəbrayıl Ata dünyasını dəyişdikdə ***Alıpaşa*** dağında dəfn olunmuşdur. Onun dəfn olunduğu həmin yer *Cəbrayıl Ata piri* kimi ermənilərin işğalına qədər yerli əhali tərəfindən müqəddəs ziyarətgah kimi əziz tutulmuşdur...

Oronimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan Respublikası ərazisində toplanan çöl materialları içərisində ***1 300*** ***dağ*** adı vardır ki, onlardan da biri Cəbrayıl rayonunun ərazisindəki ***Alıpaşa dağı*** oroqrafik obyektidir.

## ALLAHVERƏN QIŞLAĞI

***Allahverən qışlağı*** adlanan oroqrafik obyekt adı Cəbrayıl rayonunun Ağtəpə kəndi ərazisində qeydə alınmışdır. ***Allahverən qışlağı*** toponimi ***Allahverən*** (şəxs adı) və qışlaq (mal-qaranın qışladığı ərazi, otlaq sahəsi) sözlərindən ibarət olub, *"Allahverənə məxsus olan otlaq sahəsi, qışlaq", "Allahverənin qış yurd"* mənasındadır.

## ALMA BAĞI

Cəbrayıl rayonunun Qalacıq kəndində qeydə alınan oronimlərdən biri də ***Alma bağı*** adlanır. Oronim ***alma*** və ***bağ*** sözlərindən ibarətdir. Həmin *bağın* ərazisində çoxlu sayda ***alma*** ağacları olduğu üçün oronim





belə adlanmışdır. Bu tipli oroqrafik obyektlərə digər rayonların ərazilərində də rast gəlirik.

Əlavə məlumat üçün bax: **Acı almalıq.**

## ALMADƏRƏN BAĞI

Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Daşlı çuxur ilə Qozlu bulaq arasındakı sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Almadərən bağı*** adlanır. Bəzən onun adına ***Almadərilən bağ*** da deyirlər. Bu ***bağ*** sahəsində çoxlu sayda müxtəlif növ ***alma*** ağacları vardır. Məhz elə bu səbəbdən toponim belə ad almışdır.

## ALMALI

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Almalı*** adlanır. ***Almalı*** coğrafi adı alma sözüündən və ***-lı*** şəkilçisindən ibarətdir. Həmin ərazidə xeyli ***alma*** ağacları olduğundan oronim ***Almalı*** adlandırılmışdır. ***Almalı*** toponiminə respublikamızın digər bölgələrində də rast gəlirik.

Respublikamızda - Daşkəsən, Xocalı, Qax rayonlarında *Almalı kəndi*, Kəlbəcər rayonunda *Almalıq kəndi*, Tovuz rayonunda *Almalıtala kəndi* adlı oykonimlər də vardır.

Əlavə məlumat üçün bax: **Acı almalıq.**

## ANBARIN GÖZÜ

Tumaslı dağının yaxınlığında, İncə çayının ətrafında, çayın iki sıldırım dağ silsiləsinin arasından keçən yatağın gündoğanında, gözəl təbiət qoynunda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Anbarın gözü*** adlanır. ***Anbarın gözü*** qaya dibindən çıxan ***3*** yan-yana bulaqdan ibarətdir. Onun dəyirman işlədən bol və gur suyu vardır. ***Anbarın gözü*** hidronimi bütün Dağ Tumas bölgəsində saf, şirin, soyuq və yüngül sulu olması,

suyundan içən adamları acdırması, şəfası ilə tanınan məşhur bulaqdır. Yaxınlıqdakı *anbara* görə hidronim belə ad almışdır.

## ARALIQ DƏRƏSİ

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Aralıq dərəsi*** adlanır. Oronim ***aralıq*** və ***dərə*** sözlərindən, həmçinin mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"aralıqda olan dərə"* mənasındadır.

Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə, Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi, Dəlidağ dərəsi*) kimi işlənir. ***Dərə*** termini ilə bağlı Azərbaycanda çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

## ARAZ ÇAYI

Türkiyə, Azərbaycan və Ermənistan ərazisində axan çay. Kürün ən böyük sağ qolu; uzunluğu ***1072*** kilometrdir (*bəzi mənbələrdə* çayın uzunluğu ***994*** *kilometr də göstərilir*). Hövzəsinin sahəsi ***102 000*** kv. km-dir. ***Araz*** çayı gəmiçilik üçün yararsızdır. Çay öz mənbəyini Türkiyidə *Bingöl* silsiləsinin yamaclarından götürür. Azərbaycan Respublikasının *Sabirabad rayonu* ərazisində *Suqovuşan* adlanan yerdə Kür çayı ilə birləşir. Araz çayı Cəbrayıl rayonunun cənub sərhədi boyunca təxminən 50 kilometrlik bir məsafədə İranla həmsərhəd ərazidən axır. *Araz* çayına məğrurluğuna, qüruruna görə ***Xan Araz*** da deyirlər. ***Araz*** sözünün İran mənşəli dillərin birində *"su"* anlamlı ad olduğunu fərziyyə kimi söyləmək də olar.

**Araz** çayının adı müxtəlif mənbələrdə ***Araks*** (qədim yunan), ***Ərras*** (ərəb), ***Ərəs*** (fars), ***Rass, Arras, Eraks, Rude-Aras*** və s. kimi işlənmişdir. Çox güman ki, hidronimin erkən forması ***Araks*** olub. Bir çox antik və orta əsr müəllifləri öz əsərlərində ***Araz*** haqqında məlumat veriblər. Qədim yunan və latın mənbələrində Zaqafqaziya ərazisində, Parsa (fars) və Orta





Asiyada ***Araz*** adlı çayın adları çəkilir. Herodot Orta Asiya çayları Amudərya və Sırdəryanı ***Araks*** adlandırmışdır. Ksenefont (e.ə. V əsr) Mesopotamiyada bir çayın adını ***Araz*** kimi qeyd etmişdir. Hazırda Sırdəryaya tökülən bir çay da ***Araz*** adlanır.

***Araz*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər var: N.Nəbiyev onu *"möhtəşəm"*, *"böyük"* mənasında yunan mənşəli leksik vahid kimi izah edir. A.Nikonov qeyd edir ki, Araz türk mənşəli söz olub *"su"* mənasını ifadə edir. O həm də göstərir ki, ***Araz*** adı ***ruz*** (*"qaçmaq"*) ərəb sözündəndir. ***Araz*** sözünün qədim fars dilindəki *"qaçmaq"* feli ilə bağlı yarandığını iddia edən tədqiqatçılar çoxdur.

Lap qədimlərdən insanlar çaya *"su"* deyərdilər. ***Araz, Aras, Rass, Eraks, Arras*** sözünün İran mənşəli dillərin birində şu anlamında olduğunu da bildirənlər var. Y.Yusifov ***Araz*** sözünü Hind-Avropa dillərindəki ***art*** (*"su, çay"*) və türk dillərindəki ***okus*** (*"çay, su"*) komponentləri ilə mənalandırır. Ə.Haqverdiyev də bu sözü türk dillərindəki ***ar*** (*"su, çay"*) və ***az, uz*** (*"çay, su"*) sözləri ilə əlaqələndirir. Mənə elə gəlir ki, bu fikirlər o qədər də inandırıcı deyildir...

N.Əsgərov ***Araz*** hidroniminin etnonim əsasında (***as, az***) yarandığı qənaətinə gəlir. Son tədqiqatlara görə çayın adı qədim türk dillərindəki ***oraz*** (***uraz***), ərəz (*"sakit, dinc, xeyir verən"*) sözündəndir. Çox güman ki, ***Araz*** sözünün (*etnoniminin*) ilkin forması ***Aras*** olmuşdur. Bu tayfa eradan əvvəl I minilliyin əvvəllərində çayın cənub sahillərində yaşamış və onun adı ilə də çay ***Aras*** (***Araz***) adlanmışdır.

Hidronim əsasında yaranan ***Araz*** antroponimi də türk mənşəli leksik vahid kimi izah olunur. Sevimli şairimiz A. Şaiq bu adı öz qəhrəmanına da vermişdir. Arazla bağlı bir çox rəvayətlər vardır ki, bir tədqiqatçı kimi onların bəziləri ilə oxucuları tanış etmək istəyirəm:

*Çar **Araks** prussiyalılar ilə döyüşdə bildirir ki, əgər bu vuruşmada qalib gələrsə, Allahın yolunda iki əziz qızını qurban verəcək. Lakin o, sözünün üstündə durmur. O, döyüşdə qalib gəlirsə də, öz qızlarına yazığı gəlir. Tabeliyində olan bir şəxsin iki gözəl qızının başını kəsir. Qızların atası Mneskal fürsət düşən kimi çarın iki qızını öldürüb həmin yerdən qaçır. Bunu eşidən çar **Araks** özünü Halım çayına atır. Bu çayın da adını o vaxtdan **Araz** (**Araks**) qoyurlar...*

Başqa bir rəvayət belədir:

*Qədim Qozluçay dərəsinin söykəndiyi Ərgünəş dağının başı həmişə qarla örtülü olarmış. Hər baharda o, əriməyə başlayarmış. Əriyən qarın suyu selə dönər, dərələr boyu baş alıb gedər, aran torpaqlarının közərən sinəsinə çatmamış quruyarmış. Bu yerlərdə susuzluqdan vəhşi heyvanların, ilanların mələşməsi eşidilərmiş. Buralarda yaşıllıq deyilən şey olmazmış. Aran torpaqlarının sinəsini sərinlədən bugünkü Araz çayı o zaman hələ yox imiş. Təkcə Ərgünəşdən süzülüb gələn və qar suyundan yaranan Qozluçay var imiş. Ərgünəş dağı suyunu Aran torpağına verməzmiş. İndiki Maralyan kəndinin yerində bir-iki daxma varmış. Bu daxmaların birində qoca bir kişi yaşayırmış. Onun Maral adlı gözəl bir qızı varmış. Gözəlliyi çoxlarını dərdə salarmış.*

*Bir gün bir varlı oğlu Maralın sorağına kəndə gəlir. Qız onu bəyənmir. Varlı oğlu qəzəblənib hiyləyə əl atır. Qaranlıq bir gecədə Maralı oğurlayır. Onu nəhəng bir daşın yanına gətirir. Maral oğlana yaxınlıq vermir. Qız səhranın ortasında iri qara daşa üz tutub yalvarır; daşın altından nəhəng bir ilan çıxıb Maralın abır-ismətini tökmək istəyən daşürəkli bu oğlana tərəf sürünür. Oğlan da, qız da qorxurlar. Qız hətta, çığırıb özündən gedir. Qara gürzə çəkilib gedəndən sonra zalım oğlan Marala əzab verməkdə davam edir. İstı yay günü olduğundan Maralın dodağı yerin bağrı kimi od tutub yanırmış. Oğlan dolçasındakı Ərgünəş dağının suyundan bir damcı da olsun Marala vermir. O, qızın gözləri qarşısında sudan doyunca içir, qalan bir iki damcını da qıza acıq verərək onun üstünə atır. Qızın üstünə düşən su damcılarının yerindən tüstü çıxırmış. Qıza yanıq verən oğlan: "Hə, necəsən, Maral, yan, tüstülən" - deyirmiş. Qızın halına acıyan qara gürzə sürünüb Maralı incidən oğlanı elə çalır ki, əvvəlcə onun əti-əzası, sonra da sümükləri çürüyür.*

*Maralın anası yoxmuş. Atası çox yerlər gəzir, dərələr keçib, dağlar aşır. "Bala, bala" - deməkdən dili ağzında kösöv bağlayır. Amma qızını tapa bilmir, onu gördüm deyən olmur. Kişi göz yaşlarını ürəyinə axıda-axıda yanıqlı bayatılar çəkir. Elə hey:*

***Gülşənim yox, gülüm yox,***
***Bundan böyük zülüm yox,***
***Balam itkin düşübdür,***
***Niyə mənə ölüm yox?*** - deyirmiş.

*Yazıq ata qəmli bayatılar söyləyib ürəyinin odunu söndürmək istədiyi*





*vaxt onun ciyərparası hamının gözündən uzaq, kimsəsiz bir dərədə üzünü göylərə tutub. "Su, su" - deyə yalvarır, imdad diləyirmiş. Çox keçmir ki, göy üzünü qara buludlar bürüyür. Güclü şimşək çaxır, göy guruldayır, yağış yağır. Taqəti tükənən Maral qıjıltı ilə axan çaya tərəf sürünür. Bədbəxtlikdən çaya çatmağa az qalmış, susuzluqdan qızın bağrı çatlayır və o, ölür. El-oba bu xəbəri eşidib gəlirlər. Maralın çaya çatmağına **ara-az** qalmış öldüyünü görürlər. O zamandan bu torpağın sinəsindən qıjıltı ilə axıb gedən bu çayın adı da **Araz** qalır...*

Y.Yusifovun fikrincə, ***Araz*** sözü Hind-Avropa dillərində olan "***ar-t***" və türk dillərindəki "***oks, yakas***" sözlərindən yaranıb "*çay, su*" deməkdir. ***Araz*** (***Arras***) sözünü qədim türklərin ulu babası və xaqanı sayılan Əfrasiyabın qardaşı *Aqrerasın* adı ilə bağlayan tədqiqatçılar da var. ***Aqreras-Areras-Arras-Araz***. "*Avesta*" da ***Aqreras*** adı ***Aqrerat*** şəklində verilib. Dilimizdə ***t-s*** səs əvəzlənməsi təbii fonetik hadisədir. A.Axundova görə "***Araz***" antroponimik mənşəli sözdür. N.Əsgərovun fikrincə isə, "***Araz***" hidronimi türk mənşəli "***az***" etnonimindən yaranmışdır və "*azlara mənsub su*" deməkdir. Məlum bir fikrə görə, ***Araz*** çayı adı yunanca "***arossol***" sözündən olub, "*iti, sürətli qaçmaq*" deməkdir.

Plutarx göstərir ki, bu çayın sahilində ***Araz*** (tərcüməsi – "*qız sevməz*") adlı zəhərli bitki yetişir.

***Araz*** çayı tarixin amansız hökmü ilə Azəri türklərini iki yerə bölüb qardaşı qardaşdan "*ayırdı*". Arazın hər iki sahilində Azərbaycan türkləri həsrət və intizar içindədir. Görünür, bu nisgil *Vahid Azərbaycan* dövləti yaranana qədər davam edəcəkdir. Azərbaycan türkü öz övladına "***Araz***" antroponiminin adını bəlkə də ona görə verir (mən də oğluma Araz adı vermişəm) ki, bu rəmz onu uzun onillərin, yüzillərin həsrətindən "*xilas edib*" doğma qardaşı qardaşa qovuşduracaqdır. Xalq dilində dolaşan belə bir deyim də var:

***Axma, Araz,***
***Dayan, Araz.***
***Bir ürəyi iki yerə***
***Bölmək olmaz...***

Orta Asiyanın türk xalqları içərisində ***orıs, urus*** adlı tayfa indi də var.

XII əsrdə ***Urus*** adlı tayfa Cənubi Rusiya çöllərində qıpçaqların içərisində də olmuşdur. "***A - u***" və "***a - r***" səs əvəzlənmələrinin türk dilləri üçün fonetik hadisə olduğunu da nəzərə almaq lazımdır. Türkmənlərin ***Ersarı*** adlı eli də məlumdur. Bu elin adı ***aras*** etnoniminin fonetik şəklindən və türk dillərindəki ***ar, ər*** ("*döyüşçü*", "*kişi*") sözündən ibarətdir. Buradan ***Araz*** etnoniminin ilkin formasının ***Aras*** olması fikrinə gəlmək mümkündür.

E.ə. 834-cü ilə aid qədim assur mənbələrində Midiyada ***Araziaş*** adlı əyalətin adı çəkilir. Bəziləri hesab edir ki, ***Ersarı*** tayfası çayın cənub sahillərində yaşadıqları üçün çay ***Araz*** (***Aras***) adlanmışdır. Cənubi Azərbaycanda ***Arazan*** adlı, Culfa rayonunda isə ***Arazın*** adlanan kəndlər vardır. Bu adlar da müvafiq şəkilçidən və ***araz*** etnonimindən törənmişdir.

## ARAZ MAŞANLI KƏNDİ

(*Bax:* **Maşanlı kəndi**)

## ARDIC PİRİ

Rayon ərazisində, Qarağac kəndindən 1 kilometr cənubda qeydə alınan oroqrafik obyektlərdən biri ***Ardıc piri*** adlanır. Onun adına bəzən ***Pir dayı*** da deyirlər. Bu ***pir*** iri gövdəli ***ardıc*** ağacından ibarətdir. Burada dəfn olunan adamın, övliyanın kimliyi dəqiq bilinmir. Pirin ərazisində ərəb əlifbası ilə yazılmış daş kitabələr vardır. Oronim ***ardıc*** və ***pir*** sözlərindən ibarətdir. ***Ardıc*** – sərvkimilər fəsiləsindən olan iynəyarpaqlı bitkidir. O, dikduran və yerə yatan həmişəyaşıl ağac və ya koldur. Şimal yarımkürəsində ***60***, Azərbaycanda isə ***6*** növü məlumdur. Qurudulmuş yetkin meyvələrinin cövhəri sidikqovan dərmandır. Azərbaycanda fitonimik oronimlərə demək olar ki, bütün bölgələrdə rast gəlmək mümkündür.

Folklor örnəklərimizdə ***ardıc*** bitkisi ilə bağlı xeyli nümunələr mövcuddur. Onlardan birində belə deyilir:

***Ardıcın közü, kasıbın sözü,***
***Palıdın közü, varlının sözü.***





***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində "*nurani qoca*", "*dini icmanın başçısı*", "*müqəddəs*" mənasını bildirir.

## ARXAC DƏRƏSİ

Cəbrayıl rayonu ərazisində, Çələbilər kəndindən Bazavuza gedən yolun sağ tərəfində, meşəli çökəklikdə, geniş bir sahədə qeydə alınan oronimlərdən biri də ***Arxac dərəsi*** adlanan coğrafi addır. Yerli məlumata görə, Sofulu hacıları yaylıma çıxardıqları qoyun sürülərini gecələr bu dərədəki *arxaca* vurarmışlar. Oronim ***arxac*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** termini iştirak edən ***30 000*** oronim qeydə alınmışdır.

Otlaq şəraitində gecələr, həm də hava isti olanda gündüzlər qoyun və qaramalın dincəlməsi üçün düzəldilmiş yerə ***arxac*** deyirlər. Ümumiyyətlə, ilin isti aylarında sürü və naxırların çöldə istirahət etdikləri yer və ya qoyun, mal yatağı ***arxac*** adlanır. Arxacları baharın əvvəllərində və payızda külək tutmayan, yayda isə adətən bir qədər hündür yerdə düzəldirlər; müəyyən vaxtdan sonra onların yerlərini dəyişirlər.

***Arxac*** sözü türk dillərində "*dağın arxası, gün düşməyən hissəsi, quzeyi*" mənasında işlədilir. Azərbaycan Respublikasının Oğuz rayonunda ***Qaynararxac***, Gədəbəy rayonunda ***Qara Arxac***, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ***Qızıl Arxac***, Qubadlı rayonu ərazisində ***Arxac dərəsi*** oronimi də qeydə alınmışdır.

XIX əsrdə İrəvan əyalətinin Şərur-Dərələyəz qəzasında ***Arxac qışlağı***, Borçalı qəzasında ***Arxac bulaq***, Zəngəzur qəzasında ***Arxactəpə*** toponimləri də öz adlarında ***arxac*** termininin adını əks etdirir.

## ARMUD PİRİ

Cəbrayıl rayonunun ərazisində, Qovşudlu kəndinin köhnə yurd yerində, Qoturlu kövşənində qeydə alınan oroqrafik obyektlərdən biri ***Armud piri*** adlanır. Bu ***pir*** daş hərləməsi olan və yabanı halda bitən iri ***armud*** ağacından ibarətdir. Ermənilər tərəfindən zəbt olunana qədər (*1993-cü il*) bu piri ziyarətə gələnlər ağacın qol-budağına ip, sap, parça qırıntıları bağlayıb niyyət edərdilər. Digər pirlər, ocaqlar kimi rayonun ***Armud piri*** də erməni işğalında zillət çəkir...

## ARMUDLU DAĞ, ARMUDLU DƏRƏ, ARMUDLU DÜZ

Respublikamızda gülçiçəklilər fəsiləsinin almakimilər yarımfəsiləsindən olan ***armud*** meyvə ağacının adı ilə bağlı çoxlu sayda oronimlər meydana gəlmişdir ki, onlardan biri də Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Sarı dərədən şərqdə qeydə alınmış ***Armudlu dərə*** coğrafi adıdır. Rayon ərazisində ***Armudlu düz*** adlı oroqrafik obyekt də qeydə alınmışdır. ***Dərə*** və ***düz*** coğrafi terminləri mənfi relyef formasını edir. Həmin *dərədə* və *düzdə* uzunsov, girdə və şirəli meyvəsi olan ***armud*** ağacları bitdiyinə görə oronim belə ad almışdır. Bunlardan başqa rayonun ərazisində ***Armudlu dağ*** adlı oronim də qeydə alınmışdır. ***Dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Həmin dağın zirvəsində çoxlu sayda ***armud*** ağacları olduğu üçün oronim belə adlandırılmışdır. Bu tipli toponimlərə digər rayonların ərazilərində də rast gəlirik.

***Arnıudlu dərə*** oroniminə Ağdam, Ağdərə, Qazax, Laçın, Şuşa rayonlarında, ***Armudlu düz*** coğrafi adına isə Qubadlı, Laçın, Oğuz, Ordubad, Füzuli rayonları ərazisində də rast gəlirik. Qazax rayonunda *Armudlu yal, Armudlu* çöl (Alpout kəndi), Ağstafa, Qax, Kəlbəcər, Göygöl, Şəmkir rayonlarında *Armudlu dağ* və s. də qeydə alınmışdır. Qax, Qubadlı, Kəlbəcər rayonlarında *Armudlu kəndi*, Xaçmaz rayonunda isə *Armudpadar kəndi* vardır. Qərbi Azərbaycanda (*Ermənistan*) da çoxlu sayda ***Armudlu*** adlı oykonim və oronimlər qeydə alnımışdır.





## ARMUDLU GÜZ

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Mirənşədən Qarağac istiqamətində yerləşən kiçik ölçülü düzənlik ərazidə qeydə alınan oronim ***Armudlu güz*** (bəzən adına ***Armudlu gəz*** də deyirlər) adlanır. Oronimiyada ***güz*** termininin "***payız***" anlamı olduğu məlumdur. Yaşı çox olan yerli sakinlərin sözlərinə görə keşmişdə bu ərazidə əsasən *payız* zamanı yetişən çoxlu ***armud*** ağacları və bulaq olmuşdur. Görünür sonralar hansı səbəbdənsə (*bəlkə də baxımsızlıq ucbatından*) ağaclar və bulaq qurumuşdur...

Qax, Qubadlı, Kəlbəcər rayonlarında ***Armudlu*** adlı *kənd*; Cəbrayıl, Qubadlı, Laçın, Oğuz rayonlarında *dağ*; Ağdərə, Cəbrayıl, Füzuli, Qazax, Laçın, Şuşa rayonlarında *dərə*; Cəbrayıl, Laçın, Qubadlı, Oğuz rayonlarında *düz*; Qazax rayonunda *yal*; Füzuli rayonu ərazisində *bağ*; Daşkəsən rayonu ərazisində *mineral bulaq*, Tovuz rayonu ərazisində *tala* və s. qeydə alınmışdır.

## ARPAÇI GÜNBƏZİ, ARPAÇI TƏPƏSİ

Cəbrayıl rayonu ərazisində qeydə alınmış maraqlı oronimlərdən biri də ***Arpaçı künbəzi*** və ya ***Arpaçı təpəsi*** adlanır. Taxıllar fəsiləsindən birillik və çoxillik bitki cinsi olan ***arpa*** adı ilə yüzlərlə oroqrafik obyekt adları mövcuddur.

***Arpa*** türk mənşəli *arpa*-taxıl növünün adı ilə Azərbaycanda da çoxlu sayda toponimlər yaranmışdır. ***Arpa*** taxıl bitkisinin adı ilə əmələ gələn fitonimik oronimlərə respublikamızın əksər rayonlarının ərazisində rast gəlmək mümkündür. Bunlara nümunə olaraq *Arpa dağı* (Ağsu və Şəmkir rayonları), *Arpa dərəsi* (Ağdam, Qazax, Qubadlı, Daşkəsən, Zəngilan, Kəlbəcər, Goranboy, Ordubad, Füzuli, Göygöl rayonları), *Arpa yalı* (Kəlbəcər və Şuşa rayonları), *Arpa çökəyi* (Tovuz və Göygöl rayonları), *Arpa çuxuru* (Qubadlı rayonu) və başqalanı göstərmək olar. Bunlardan başqa, Şamaxı rayonunda *Arpabulaq mineral bulağı*, Xocavənd rayonunda *Arpadüzü kəndi, Arpagədik kəndi*, Ordubad rayonu ərazisində *Arpadərə çayı*, Şərur rayonu ərazisində *Arpaçayı* və digərlərinin adlarını çəkmək olar.

## ARŞİ YAŞAYIŞ MƏNTƏQƏSİ

Vaxtilə Cəbrayıl rayonunda *Arşi* adlı kənd mövcud olmuşdur. Hazırda bu adda kənd yoxdur. Daha doğrusu, rayonda bu adda kənd mövcud deyildir. *Arşi* oykonimi ölü kənd hesab edilir. *Arşi* toponimi ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

*Arşi* kənd adına XX əsrin əvvəllərinə qədər olan sənədlərdə rast gəlinir. Böyük klassikimiz Cəlil Məmmədquluzadənin *"Yollarımız"* adlı felyetonunda da *Arşi* kəndinin adı belə çəkilir: *"...Deyirsən ki, Cəbrayıl qəzasının Arşi kəndinə yol yoxdur və kəndlilər yol qayırmaq fikrinə düşüblər". Molla Nəsrəddin: "Heç Arşi kəndində məktəb yoxdur, halbuki nə qədər məktəbli kəndlər var ki, yol olmadığına görə o məktəblərdən maarif idarəsinin heç xəbəri yoxdur".*

XX əsrin ortalarından bu yana yaşayış məntəqəsi kimi *Arşi* kəndinin adı çəkilmir. Bəzi həvəskar araşdırıcılar oykonimi səhv olaraq keçmiş Cəbrayıl qəzasının tərkibində olan *Arış kəndi* (*hazırda bu kənd Füzuli rayonunun tabeliyindədir*) ilə eyniləşdirirlər.

## AŞAĞI ÇAYDƏRƏ ÇEŞMƏSİ

Dağ Tumas kəndindən Qarağac kəndinə gedən yolun İncə çayından adlayan hissəsindən 140 metr cənubda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Aşağı Çaydərə çeşməsi*** adlanır. Qaynama gur bulaq olan bu çeşmənin suyu şirin və soyuqdur. Bu coğrafi ad ***aşağı, çay, dərə, çeşmə*** sözlərindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Hidronim ***Aşağı Çaydərə*** ərazisində, Çaylağın gündoğanında yerləşdiyi üçün ***Aşağı Çaydərə çeşməsi*** adlandırılmışdır.

## AŞAĞI KƏHRİZ

Niyazqulular kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Aşağı kəhriz*** adlanır. ***Kəhriz*** kəndin ***aşağı*** hissəsində yerləşdiyi üçün belə adlanmışdır. Görünür həmin ərazidə *yuxarı* hissədə yerləşən ***kəhriz*** də var imiş. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

Əlavə məlumat üçün bax: **Yuxarı kəhriz.**

## AŞAĞI MARALYAN KƏNDİ

***Aşağı Maralyan kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 26 kilometr cənub-şərqdə, düzənlik ərazidə, Araz çayının sol sahilində, Karxulu İnzibati ərazi vahidində yerləşir. Əhalisinin sayı 1300 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, kinoqurğu, tibb məntəqəsi, ticarət və digər ximdət obyektləri vardı. XIX əsrin məşhur Azərbaycan şairəsi, aşıq şeri səpkisində, sadə xalq dilində gözəl qoşmalar yaratmış Aşıq Pəri Aşağı Maralyan kəndində doğulmuşdur.O, bayatılarının birində ***Maralyan*** toponiminin də adını çəkmişdir:

***Əzizim Maralyana,***
***Dara zülfün, sal yana.***
***Necəsən bir ah çəkim,***
***Dağlarda maral yana?..***

Qasım Bəy Zakirin şeirlərində və Məmməd Səid Ordubadinin romanında da ***Maralyan*** yer adına rast gəlirik.

***Aşağı Maralyan kəndi*** (yerli əhali kəndin adını bəzən ***Maraylan*** şəklində tələffüz edirlər) bəzi tədqiqatçıların fikrincə, Cənubi Azərbaycanın ***Maraluy*** kəndindən çıxmış ailələrin son orta əsrlərdə şimala köçərək burada məskunlaşması nəticəsində yaranmışdır. Bəzi araşdırıcılar hesab

edirlər ki, toponim ***Maraluy*** sözündən və fars dilindəki ***-an*** cəm şəkilçisindən ibarət olub, *"maraluylular"* mənasındadır. Toponimi ***Maral*** şəxs adı ilə əlaqələndirənlər görünür, səhvə yol vermişlər.

***Maralyan*** toponimi (əslində ***Maraylan*** *olmalıdır*) *"isti və ilanlıq yerdə məskunlaşanlar"* mənasındadır. ***Mar*** - *"ilan"* deməkdir. Toponimin tərkibindəki *Aşağı* termini kəndi eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlənmişdir. ***Maralyan kəndi*** haqqında müxtəlif əfsanələr uydurulmuşdur. Əfsanələrdən birinin məzmunu belədir ki, guya ***Maral*** adlı bir qız öz məşuqunun vüsalına çatmadığı üçün özünü yandırdığına görə kəndin adı onun xatirəsinə ***Maralyanan*** (***Maralyan***) qoyulmuşdur.

***Maralyan*** oykonimi ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Rəvayətin biri belədir ki, Araz çayının kənarındakı meşə zolağına od düşməsi nəticəsində orada yanmış maralların nişangahında kənd salınır. Kəndin adı ilə bağlı hətta belə bir toponimik rəvayət də vardır: *Keçmişdə Maralyan kəndinin camaatı əkinçiliklə məşğul olurmuş. Lakin əkin sahəsi azlıq etdiyindən yaxındakı kiçik meşəni yandırmağı qərara alırlar. Kənd camaatının ağsaqqalı dünyagörmüş, imanlı, insaflı bir adam idi. Ədaləti insaf tərəzisi bilən bu qoca ehtiyatla yeriyirdi ki, ayağının altında bir qarışqa belə qalıb əzilməsin. Ona görə də bu el ağsaqqalı rəiyyətinə deyir:*

*- Onsuz da ağacı yandıranda günaha batacağıq. Barı elə edin ki, heyvanat aləmindən bir canlı yanmasın. Hamısını qovub meşəyə köçürün.*

*Camaat ağsaqqalın məsləhətinə əməl edir. Sonra meşəyə od vurulur. Yeri şumlayıb taxıl əkirlər. Həmin il yaxşı buğda yetişir. Oraqlar işə düşür. Sarı buğda xırmanlarda tayalanır. Hamı bol məhsula sevinir. Camaat məhsul bayramına toplaşıb şənliyə başlayırlar. Bu arada kəndçilərdən biri yanıb kösövə dönmüş bir maral balasını ağsaqqalın hüzuruna gətirib, günahkarın tapılmasını tələb edir. Şənliyin üzərinə sanki su çilənir. Hamı yanmış maral balası üçün heyifsilənir. İşbilənlər aydınlaşdırır ki, heç kim bu* ***maral*** *balasına qəsd etməmişdir. Sən demə körpə dərəyə sıçrayarkən ayaqları burxulub sınmış, qaçıb canını alovdan qurtara bilməmişdir. El ağsaqqalı baş vermiş bu hadisəyə kədərlə köksünü ötürüb deyir:*

*- Bilmədim,* ***Maral yana.***

*O gündən həmin kənd ağsaqqalın sözü ilə "****Maralyan****" adlanır...*

Cəbrayıl rayonunda ***Yuxarı Maralyan kəndi*** də var idi.





Əlavə məlumat üçün bax: **Yuxarı Maralyan kəndi**.

## AŞAĞI MƏZRƏ KƏNDİ

Cəbrayıl rayonunda iki **Məzrə kəndi** vardır: ***Aşağı Məzrə kəndi*** və ***Yuxarı Məzrə kəndi***.

***Aşağı Məzrə kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 19 kilometr cənubda, Sarıcalı inzibati ərazi vahidində, düzənlik ərazidə, Mincivan-Horadiz dəmir yolu kənarında yerləşirdi. Kəndin əhalisi ***1 000*** nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülüklə məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət-iaşə obyektləri və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur.

Tarixdən məlumdur ki, ərəblər VII əsrin ortalarında Azərbaycanı işğal etmişlər və bundan sonra dilimizdə də ərəbləşmə siyasəti təsirsiz qalmamışdır. Bu siyasət coğrafi adlarımıza da öz mənfi təsirini göstərmişdir. ***Məzrə*** oykonimi türkləşmiş ərəb sözüdür. ***Məzrə*** toponimi ərəb dilində *"əkin üçün yararlı yer", "şum yeri", "əkin yeri, tarla", "əkin yerləri əsasında yaradılan məntəqə, oba, kiçik yaşayış məntəqəsi", "düzən yerdə əkin", "suvarıla bilən əkin yeri"* mənalarındadır. Bu söz fars dilində də *"əkin yeri"* mənasını ifadə edir.

XVIII və XIX əsrlərə aid tarixi mənbələrə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Məzrəli obası*** Uzundərə adlanan ərazi torpaqlarında məskunlaşmışdır.

Azərbaycan Respublikasının Qubadlı, Ordubad rayonlarında *Məzrə kəndi*, İmişli rayonunda *Məzrəli kəndi* vardır. İrəvan əyalətinin Zəngəzur qəzasında da vaxtilə azəri türkləri yaşayan *Məzrə kəndi* mövcud olmuşdur.

Əlavə məlumat üçün bax: **Yuxarı Məzrə kəndi**.

## AŞAĞI SİRİK KƏNDİ

Aşağı Sirik kəndi Cəbrayıl rayonunda, Sirik inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 400 nəfərdir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olurdu. Kənddə məktəb, klub, kitabxana, ticarət-iaşə obyektləri və s. vardı. Yaşayış

məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Sirik*** toponiminin ***Sırak (Şirak, Çırak)*** tayfasının adi ilə bağlılığı güman olunur. ***Sirakların*** (*siraqların, şirakların*) Mərkəzi Asiyadan, Volqaboyundan Qafqaza qədər ərazidə nəhəng imperiyası olub. İlk dəfə I əsrdə Strabon bu tayfanın adını çəkmiş, onların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. K.Qanın və V.Vinoqradov da bu tayfadan geniş bəhs etmişlər. ***Sirik*** toponimini türkdilli ***saqlar*** (***saklar***) ilə də bağlayanlar var. Qədim türk dillərində ***sirak / çerak*** termini *"mineral su"* mənasındadır. ***Sir*** sözü *"işıqlı"* deməkdir. Şumer dilində onun *"toxumaq"*, türkcə isə *"dəzgah, xana"* mənaları da var.

Bəzi tədqiqatçılar toponimi *"sirli yer"* kimi mənalandırır. Bir sıra mənbələrdə sirakların Kubanda yaşamaları və miladdan əvvəl ikinci əsrdən başlayaraq Qafqaza, Zaqafqaziyaya hərəkət etmələri qeyd olunmuşdur. Tarixdən məlumdur ki, qədim türklərdə ***Si*** adlı tayfa da mövcud olmuşdur...

R.Kərimli bəzi Azərbaycan oykonimlərinin mənşəyi haqqında mülahizələrini bildirərkən ***Sirik*** toponiminin *Sirikini* şəklində olmasını qeyd edir.

Yaşayış məntəqəsinin adındakı ***"Aşağı"*** sözü kəndi digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlənmişdir. XVIII əsrə aid tarixi mənbəyə görə, ***Sirik kəndi*** Xırdapara Dizaq mahalı tərkibində olmuşdur.

*Aşağı* və *Yuxarı Sirik, Nüsüs, Şıxlar, Niftalılar, Əlhəsənli, Teymurxanlı* tirələri ***sirik*** tayfası ilə qohumdurlar.

## AŞIQ QURBANİ PİRİ

(*Bax:* **Qurbanlı piri**)

## AŞIQ MƏLİKLİ KƏNDİ

Vaxtilə Cəbrayıl rayonunda qeydə alınmış oykonimlərdən biri ***Aşıq Məlikli kəndi*** adlanırdı. Oykonim ***aşıq*** və ***kənd*** sözlərindən, ***Məlik*** şəxs adından, eləcə də ***-li*** şəkilçisindən ibarətdir. Yerli məlumata görə, ***Aşıq***





***Məmməd*** vaxtilə dövrünün güclü aşıqlarından olmuşdur. Oykonim də onun adı ilə əlaqədar olaraq belə adlanmışdır. Bu coğrafi ad *"Aşıq Məlikliyə aid olan kənd"* anlamındadır. Məndə olan məlumatlara görə, sonralar ermənilər bu kəndi də xarabazara çevirmişlər...

## AŞIQ MƏMMƏD BAĞI

Rayonun Qalacıq kəndi yaxınlığında, kəndin baş hissəsində qeydə alınan oronimlərdən biri ***Aşıq Məmməd bağı*** adlanır. Toponim ***Aşıq Məmmədin*** adı ilə bağlıdır. Bu bağda çoxlu sayda meyvə ağacları vardır. Bu tipli coğrafi adlara Azərbaycan Respublikasının bir çox yerlərində rast gəlmək mümkündür.

## AT ÇAPILAN YAL

Cəbrayıl rayonunun Yuxarı Sirik kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***At*** çapılan ***yal*** oronimidir. Bu oronim ***at*** ev heyvanı adı ilə bağlı olaraq yaranmış coğrafi adlardandır. ***Yal*** - müsbət relyef forması bildirən termindir.

Qubadlı rayonunun Muradxanlı kəndinin ərazisində ***At*** çapılan ***düz*** oronimi də qeydə alınmışdır.

## AT AĞILI DƏRƏSİ, AT PİRİ DƏRƏSİ, AT PİRİ DƏRƏSİ AYAĞI

***At ağılı dərəsi*** Cəbrayıl rayonunda Yarəhmədli kəndinin ərazisində qeydə alınmışdır. Həmin kəndin ərazisində ***At piri, At piri dərəsi, At piri dərəsi ayağı*** coğrafi adları da qeydə alınıb. Bu oroqrafik obyektlər ***at*** ev heyvanı adı ilə əlaqədar yaranmışdır. ***Ağıl*** – *"mal-qara və davar saxlanan üstüaçıq yer"* deməkdir. Heyvanlar adətən axşamlar *ağıllara* salınır. ***At piri*** daş hörləməyə alınmış *ardıc* ağacından ibarətdir. Sahibləri adətən xəstə atları aparıb həmin hasarın başına dolandırdıqları üçün toponim belə ad almışdır. Oronimin tərkibindəki ***pir*** komponenti *"müqəddəslik"* anlamındadır. Azərbaycanda ***pir-ocaq*** kultu və inanışı tarixin çox qədim

çağlarına gedib çıxır. Əsrlər keçsə də, *pir-ocaq* inanışı Azərbaycanda yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Keçmişdən yadigar qalan ***pirlər*** ziyarətgahlara çevrilmişdir.

***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. ***Ayaq*** metafor termini oronimiyada *"dağın düzənliklə birləşdiyi zolaq", "dağın, dərənin, çayın qurtaracağı"* və s. mənalarda işlənir. Toponimlərin tərkibində iştirak edən ***-si*** şəkilçisi mənsubluq ifadə edir. ***At piri dərəsinin ayağı*** toponimi *"At piri dərəsinin qurtaracağı"* mənasındadır.

Qubadlı rayonunun Qayalı kəndinin ərazisində də bu qəbildən olan *At ağılı dərəsi* coğrafi adı qeydə alınmışdır.

## AVDAL BULAQ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Avdal bulaq*** adlanır. Toponim ***avdal*** (***abdal***) tayfa adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, *"avdallara məxsus olan bulaq"* anlamındadır. Qafqaz Albaniyasında miladdan öncə yaşaması ehtimal olunan abdalların ***(haftal, heptal, heftal)*** adına qazax, türkmən, qaraqalpaq, türk toponimiyasında da rast gəlirik. ***Avdal*** (***abdal***) sözü qədim türk dilində *"nurlanmış"* anlamını ifadə edir.

Ağdam və Tovuz rayonlarında *Abdal kəndi*, Tovuz rayonunda *Abdal çayı*, Qubadlı rayonunda *Abdalanlı kəndi*, Oğuz rayonunda *Abdallı kəndi* və digər bu kimi toponimlər ***abdal*** etnonimi ilə bağlı olan coğrafi adlardır. 1923-cü ilə qədər Laçın şəhərinin adı da *Abdallar* olmuşdur.

## AY BULAĞI

Dağ Tumas kəndinin yaxınlığında, Tumas bulağından yüz metr cənubda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Ay bulağı*** adlanır. Suyu soyuq və şəffafdır. Bu qaynayan bulağın suyu bol suludur. Bulağın ətrafı açıqlıqdır. Hidronim ***ay*** və ***bulaq*** sözlərindən ibarətdir. Gecələr ***Ay*** suyunda əks etdiyinə görə ***bulaq*** belə adlandırılmışdır.

***Bulaq*** – yeraltı suların yerin üstünə təbii çıxışıdır. Onun suyu horizontun və ya çatın yer səthi ilə kəsişdiyi yerdə olur. ***Bulaqlar*** temperatur, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətləri və s.-yə görə bir-birindən fərqlənirlər. *Bulaqlar* əsasən ***2*** cür olur: ***1)*** çatlar və məsamələrlə enən bulaqlar (çeşmə); ***2)*** qalxan bulaqlar (*qaynaq*). 1 litr bulaq suyunda 1 qramdan artıq həll olmuş duz, həmçinin müəyyən qədər qaz və ya nadir elementlərdən biri olarsa və o, müalicə əhəmiyyətlidirsə, belə bulaqlar *mineral bulaqlar* və ya *qaynaq* adlanır. Bulaqlar temperaturuna görə soyuq, ılıq, termal (*isti*) və hipotermal (çox isti) olurlar.





## AYAQYALIN DAĞ DİKİ

Respublikamızın ərazisində bir qrup adlar vardır ki, onlar insan və ya heyvan bədən üzvləri adları ilə adlandırılmışdır. İnsan və heyvan bədən üzvləri adı ilə əlaqədar yaranan metafor adlar həmin oroqrafik obyektlərin bir növ xarici formasını ifadə edir. Cəbrayıl rayonu ərazisində, Böyük Mərcanlı kəndi yaxınlığında qeydə alınan ***Ayaqyalın dağ diki*** oronimi də bu qəbildən olan coğrafi adlardandır. Toponimik araşdırmalar göstərir ki, bu tip coğrafi adlar əsasən respublikanın dağlıq ərazilərini əhatə edən inzibati rayonlarda üstünlük təşkil edir. ***Dik*** termini *"yuxarıya tərəf* şaquli *istiqamətdə uzanan hündür sərt yoxuş"* mənasındadır. Bu oronim qeydə alınmışdır.

***Ayaq*** - metafor terminini *"dağın düzənlik ərazi ilə birləşdiyi zolaq"* və ya *"dağın, dərənin, çayın qurtaracağı"* anlamı ilə mənalandırırlar. ***Ayaqyalın dağ*** coğrafi adının tərkibindəki ***ayaq*** termini – *"dağın düzənliklə birləşməsi"*, ***yalın*** komponenti isə *"çılpaq, bitkisiz qayalı dağ"* mənasındadır.

**Dağ** müsbət relyef forması bildirən termini isə *"düzənlikdən ətəkləri, yamacları və zirvəsi seçilən, dik vəziyyətdə ucalan və təxminən 500 metrdən artıq yüksəkliyi olan qaya"* anlamındadır. Toponim *"ayağı, qurtaracağı bitkisiz, çılpaq dağ yoxuşu"* mənasındadır.

Cəbrayıl rayonu ərazisində *Diridağ, Qaraqanlu, Qaratikanlı, Ərəbyatağı, Güney, Ziyarət, İlannıca, Göyərçinli, Tey, Tumas, Tuluslu, Çapalan, Çaharlı, Çətəndaş, Çuxur Tumas* və s. dağlar vardır...

## AYAZ GÖRMƏZ DƏRƏ

Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Böyük demilərlə Çaytumas kəndinin sərhəd ərazisi arasında qeydə alınmış oronimlərdən biri də ***Ayaz görməz dərə*** adlanır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Bu oroqrafik obyekt əkin bitkilərini *ayazlı*-şaxtalı havadan mühafizə edən böyük çaladan ibarətdir. Dərənin yerləşdiyi ərazi elədir ki, adətən şaxta, ***ayaz*** onu ***"görmür"***. Oronim də elə bu səbəbdən belə ad almışdır. Toponim *"şaxta, ayaz tutmayan dərə"* mənasındadır.

Qubadlı rayonunun ərazisində də *Ayaz görməz dərə* oronimi qeydə alınmışdır.

## AYBƏNİZ ÖZÜNÜ ATAN QAYA

Rayonun Tatar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Aybəniz özünü atan qaya*** adlanır. ***Qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Bu toponim vaxtilə burada baş vermiş bədbəxt bir hadisə ilə əlaqədar olaraq belə adlandırılmışdır. Belə ki, ***Aybəniz*** adlı bir nəfər özünü bu qayadan atdığı üçün yerli sakinlər qayanı ***Aybəniz özünü atan qaya*** adlandırmışlar. Yerli məlumata görə, Aybənizin atası onu istədiyi oğlana ərə vermədiyinə görə, ***Aybəniz*** özünü bu qayadan yerə atmış, xoş təsadüf üzündən ölməmişdir. Sonradan o, həmin istədiyi oğlanla ailə həyatı qurmuş və xoşbəxt yaşamışdır. Bu tipi toponimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.

## AYI BULAĞI

Cəbrayıl rayonunun Sirik kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Ayı bulağı*** adlanır. Hidronim ***ayı*** heyvan adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Yırtıcı məməli ***ayı*** çöl heyvanının adı ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində xeyli sayda toponimlər qeydə alınıb. Yerli məlumata görə, vaxtilə bu bulağın yanında ***ayı*** göründüyü üçün hidronim belə ad almışdır.





## AYI DAĞI, AYI QAYASI

***Ayılar*** - yırtıcı məməli heyvanlar dəstəsinin bir fəsiləsidir. O, uzun tüklü, ağır gövdəli, hər şey yeyən iri yırtıcı heyvandır. ***Ayı*** çöl heyvanının adı və müxtəlif oroqrafik terminlərdən düzəlmiş oronimlər Azərbaycanın Ağsu, Füzuli, Xocavənd, İsmayıllı, Kəlbəcər, Qax, Qəbələ, Quba, Qubadlı, Qusar, Laçın, Masallı, Oğuz, Şahbuz, Şamaxı, Şəki, Şuşa, Zaqatala və başqa rayonlarının ərazilərində qeydə alınmışdır. Görünür ki, həmin ərazilərdə vaxtilə *ayı* yaşadığına və yaxud orada *ayılara* rast gəlindiyinə görə, bu tip oronimlər ***ayı*** heyvan adını özündə əks etdirir.

Cəbrayıl rayonu ərazisində də bu qəbildən olan ***Ayı dağı, Ayı qayası*** oronimləri də qeydə alınmışdır. Həmin *qayada* və *dağda* vaxtilə tez-tez ***ayı*** çöl heyvanına rast gəlindiyi üçün bu oroqrafik obyektlər belə adlanmışdır. ***Ayı dağı***, ***Ayı qayası*** oroqrafik obyektləri rayonun Dağ Tumas kəndinin yaxınlığında, Sulu küfuldan qərbdə, Tumaslı dağının arxasına gedən meşə yolunun kənarında yerləşir.

Azərbaycanda - Qubadlı rayonunun ərazisində *Ayı mağarası dağı*, Kəlbəcər rayonunda *Ayıçınqılı dağı*, *Ayı vurulan qaya*, Zaqatala rayonunda *Ayı öldürülən çöl*, Ağsu, Qax, Qubadlı, Şahbuz rayonlarında *Ayı dərəsi*, Lerik rayonunda *Ayı yamacı*, Masallı rayonunda *Ayı çökəyi*, Şuşa rayonunda *Ayı bulağı*, *Ayı məhəli*, *Ayı talası* və s. toponimlər öz adında yırtıcı ***ayı*** məməli heyvanın adını əks etdirir.

## AYI ÖLƏN YAMAC

Cəbrayıl rayonu ərazisində, Diridağın yamacında qeydə alınmış ***Ayı*** ölən ***yamac*** oroqrafik obyekti öz adında ***ayı*** çöl heyvanının adını daşıyır.

***Yamac*** müsbət relyef forması bildirən termininin mənası *"dağın və ya təpənin ətəyindən zirvəsinə qədər (ətəkləri ilə yalı arasında) olan hissəsi"* deməkdir. ***Ayı*** heyvan adı ilə Azərbaycanda çoxlu oronimlər yaranmışdır.

Əlavə məlumat üçün bax: **Ayı qayası, Ayı dağı**.

## AYIBASANLI YAŞAYIŞ MƏNTƏQƏSİ

Vaxtilə Cəbrayıl rayonunun ərazisində mövcud olmuş kəndlərdən biri *Ayıbasanlı* adlanırdı. Oykonim ***ayı*** heyvan adı, ***basan*** sözü və ***-lı*** şəkilçisindən ibarətdir. Azərbaycanda tərkibində ***ayı*** heyvan adını əks etdirən çoxlu sayda toponimlər vardır. Tarixdən o da məlumdur ki, *Cavanşir* tayfasının ***ayıbasanlı*** adlı tirəsi olmuşdur. Oykonimi Əyyub Həsənli formasında izah etməyə cəhd göstərən araşdırıcılar da var. Çox güman ki, 1930-cu illərdə *kollektivləşmə* ilə əlaqədar olaraq Azərbaycan Respublikasında olan digər kəndlər kimi bu yaşayış məntəqəsi də dağılmışdır...

Füzuli rayonunda *Ayıbasanlı* adlı kənd vardır.

## AYNA DƏRƏSİ

***Ayna dərəsi*** oronimi Cəbrayıl rayonunun Qazanzəmi kəndində qeydə alınmışdır. Oronim *dərənin* ətraf yüksəklikləri, hündürlükləri güzgü, ***ayna*** kimi əks etdirməsi ilə əlaqədar olaraq belə ad almışdır. Toponimi ***Ayna*** antroponimi ilə də bağlayanlar var. ***Dərə*** – mənfi relyef forması ifadə edən termindir. O, nisbətən dar, uzunsov, çökək formalı, adətən əyri-üyrü relyef formasıdır.

## AYNALI BULAQ

(Bax: **Tumas bulağı**)





## "B"

## BABAŞIN KÜHÜLÜ

Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Babaşın kühülü*** adlanır. Yerli əhali bəzən bu coğrafi adı ***Babaşın küfülü*** şəklində də işlədir. ***Kühül*** Cəbrayıl rayonundan olan dövrünün igid, mübariz oğlu ***Qaçaq Babaşın*** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. 5 metr hündürlükdə qanlı daşlardan ibarət olan bu *kühülün* içərisində çıraq qoyulması və 5-6 adamın oturması üçün yer vardı.

Süni düzəldilmiş yeraltı yaşayış məskəni olan ***kühül*** qədim ev tipi hesab edilir. ***Kühüllər*** keçmişdə Azərbaycanın Qarabağ və Şirvan ərazilərində geniş yayımışdır. Zaman keçdikcə əhəmiyyətini itirən kühüllərdən təsərrüfat binası kimi istifadə olunmuşdur.

## BALA ÇÖKƏK, BÖYÜK ÇÖKƏK

Cəbrayıl rayonunun Xələfli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlər içərisində ***Bala çökək*** və ***Böyük çökək*** adlı oronimlər də vardır. Bu oronimlər həmin çökəkliklərin ***kiçikliyinə*** və ***böyüklüyünə*** görə belə adlandırılmışdır. Toponimin tərkibindəki çökək coğrafi termini mənfi relyef forması ifadə edir. Bu tipli toponimlərə respublikamızın digər bölgələrində də rast gəlmək olar.

## BALA DÜZ - BÖYÜK DÜZ

***Bala düz - Böyük düz*** adlanan oroqrafik obyektlər Cəbrayıl rayonunun Qovşutlu kəndi ərazisində qeydə alınmışdır. Oronim düzün *böyük* və *kiçikliyinə* görə belə ad almışdır. ***Düz*** – mənfi relyef forması bildirən coğrafi termindir. ***Böyük düz*** oroniminə Yardımlı, Kəlbəcər, Laçın, Ordubad rayonlarının ərazilərində də rast gəlirik.

## BALA KƏHRİZ

Cəbrayıl rayonunun Soltanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Bala kəhriz*** adlanır. ***Bala kəhriz*** 1922-ci ildə vurulmuşdur. Hidronim ***bala*** və ***kəhriz*** sözlərindən əmələ gəlmişdir. Bu ***kəhriz*** zahirən balaca və kəndin ərazisində digər kəhrizdən kiçik olduğu üçün belə adlanmışdır. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## BALACA QAROVULTƏPƏ, BÖYÜK QAROVULTƏPƏ BALACA QARAQUZEY, BÖYÜK QARAQUZEY

***Balaca Qarovultəpə, Böyük Qarovultəpə*** coğrafi adları Cəbrayıl rayonunun Sofulu kəndi ərazisində qeydə alınmışdır. ***Qara*** sözü *"böyük, hündür"* mənasndadır. ***Qarovultəpə*** gözətçi məntəqəsi məqsədilə yaradılmış oronimlərdəndir. ***Balaca*** və ***böyük*** terminləri oronimi bir-birindən fərqləndirmək üçün coğrafi adlara əlavə edilmişdir.

***Balaca Qaraquzey, Böyük Qaraquzey*** oronimləri Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində qeydə alınmışdır. ***Quzey*** - dağın və ya təpənin günəş şüası düşməyən kölgəli tərəfinə deyilir.

***Qara*** komponenti *"hündür, böyük"* mənasındadır. Toponim *"böyük, hündür şimal yamacı"* deməkdir. Bu oronimlər *balaca* və *böyüklüyünə* görə belə adlanmışdır. ***Quzey*** termini ilə əlaqədar Azərbaycanda təxminən ***2700***-ə qədər oronim qeydə alınmışdır.





## BALLI QAYA

Dağların müəyyən hissəsində çətin keçilən yerə və ya sıra dağlardan ayrılmış qola ***qaya*** deyilir. Bu müsbət relyef forması bildirən coğrafi terminin iştirakı ilə Azərbaycanda yüzlərlə oronim qeydə alınmışdır. Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, kənd sakini Şirin Məhəmməd oğlunun yaşadığı evin arxa istiqamətində qeydə alınmış ***Ballı qaya*** oronimi oradakı qayada ***bal*** arısı yuvalarının olması ilə əlaqədardır. Bu ərazi sərt sıldırımı olan hündür qayadan ibarətdir. Bu qayada çoxlu şirəli ağaclar vardır. Bəzi sənəd və materiallarda oronim ***Ballıqaya*** şəklində də yazılır.

Vaxtilə Gəncə quberniyasının (Yelizavetpol) Zəngəzur qəzasında (indiki Gorus rayonu) ***Ballıqaya*** adlı kənd olmuşdur; 1918-ci ildə kəndin Azərbaycan türklərindən ibarət əhalisi oradan qovulmuş və o, dağıdılaraq yandırılmışdır. XIX əsrdə Zəngəzurda yaşamış Sofulu tayfasının qışlaqlarından birinin adı da ***Ballıqaya*** idi.

Qubadlı, Gədəbəy və Lerik rayonlarının ərazilərində də *Ballıqaya* oronimi qeydə alınmışdır.

## BALYAND KƏNDİ

***Balyand kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 17 kilometr şimal-şərqdə, Balyand inzibati ərazi vahidində, Qozluçayın sağ sahili yaxınlığında, Füzuli-Cəbrayıl şose yolu kənarında, dağətəyi ərazidə yerləşir. Əhalisinin sayı 1700 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, kitabxana, klub, rabitə şöbəsi, 25 çarpayılıq xəstəxana, ticarət və iaşə xidməti obyektləri, Böyük Vətən müharibəsində həlak olan həmyerlilərin şərəfinə abidə kompleksi, kəhrizlər və s. vardı. Təbii yataqlarla zəngin olan Xalac dağı da Balyand kəndi ərazisindədir. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Rəvayətə görə, arı şanları olan qurumuş ***bal*** ağaclarına od düşür və o *yanır*. Bu hadisədən sonra el arasında "***Bal yandı***" deyimi formalaşır, o da sonralar öz növbəsində yaşayış məntəqəsinin adını (***Balyand***) formalaş-

dırır. Oykonimi fars mənşəli ***bolənd*** (*"hündür yer"*) sözü ilə də əlaqələndirənlər vardır. Görünür yaşayış məntəqəsi yüksəklikdə yerləşdiyi üçün belə adlandırılmışdır.

***Balyand*** kəndini vaxtilə Cənubi Azərbaycanın ***Balyand*** kəndindən çıxmış ailələr salmışlar. İndi də Cənubi Azərbaycanda ***Baland*** adlı kənd indi də mövcuddur. Yerli məlumata görə, ***Balyand*** kəndində ilk dəfə *vəlilər, qaraəhmədli, qaramanlı, ibillər, gözəlxanlılar, mehdixanlılar, məşədilər, mustafalılar, fətalılar* və *fərruxlular* oymaqlarına mənsub olan ailələr məskunlaşmışlar. XVIII əsrə aid olan tarixi mənbəyə görə, ***Balyand kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur. Bəzi tədqiqatçıların fikrincə, toponim ərazidə çoxlu sayda çiçəkliyin və *bal arısı* yuvalarının olması ilə əlaqədar olaraq belə adlanmışdır.

## BAŞ KƏHRİZ

Cəbrayıl rayonunun Kavdar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Baş kəhriz*** adlanır. Hidronim ***baş*** sözündən və ***kəhriz*** hidronimik apelyativindən ibarət olub, *"yuxarıda, başda yerləşən kəhriz"* anlamını ifadə edir. ***Baş*** termini *"bir şeyin ən yuxarı hissəsi, üstü, zirvəsi, təpəsi"* anlamını ifadə edir. Bu kəhrizin dumduru və soyuq suyu vardır. ***Baş kəhriz*** 1900-cü ildə vurulmuşdur.

***Kəhriz*** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.





## BAŞÇİNAR DƏRƏSİ

***Başçinar dərəsi*** coğrafi adı Cəbrayıl rayonunun Karxulu kəndi ərazisində qeydə alınmışdır. Oronim ***baş, cinar, dərə*** sözlərindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** - mənfi relyef forması ifadə edən coğrafi termindir. Toponimin tərkibindəki çinar komponenti çinar fəsiləsindən yarpaqları növbəli düzülən, xırda çiçəkləri bircinsiyyətli olan ağac və ya bitki cinsidir. ***Baş*** termininə toponimiyada *"dağın zirvəsi, başı", "təpə", "yuxarı"* və s. mənalarda rast gəlirik. Toponim *"baş hissəsində, yuxarısında çinar olan dərə"* mənasındadır.

## BAŞGÖZ DƏRƏSİ

Çələbilər kəndinin gündoğanında, kəhrizin yerləşdiyi çökək ərazidə qeydə alınan oroqrafik obyekt ***Başgöz dərəsi*** adlanır. Oronim ***baş*** və ***göz*** sözlərindən, mənfi relyef forması bildirən ***dərə*** coğrafi terminindən, eləcə də mənsubluq edən ***-si*** şəkilçisindən ibarətdir. Çələbilər kəhrizinin ***baş gözü*** bu *dərədə* yerləşdiyindən oronim belə adlandırılmışdır. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** coğrafi termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə, Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi, Dəlidağ dərəsi*) kimi işlənir. ***Dərə*** termini ilə bağlı Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

## BAŞIKƏSİK DAĞDAĞAN PİRİ

Rayonun Şahvəlli kəndindən Hacı Qaraman ocağına gedən yolun el cədəsi ilə kəsişdiyi yerdə, Dar təpəsinin gündoğan ətəyindəki dərə ağzında bitən dağdağan ağacından və onun dibinə yığılmış daş qalaqlarından ibarət ziyarətgah ***Başıkəsik dağdağan piri*** adlanır. İri gövdəli bu dağdağan ağacının ***baş*** hissəsi ***kəsilmiş*** halda olduğu üçün ***pir*** belə adlandırılmışdır. Ağacın baş hissəsi tünd qonura çalan və göy rəngli yarpaqları olan sıx zoğlarla örtülmüşdür. Yerli əhali bu piri əziz tutaraq onu müqəddəs hesab edir.

## BAŞIKƏSİK GÜNBƏZ

Dağ Tumas kəndi ərazisində qeydə alınmış qiymətli tarixi-memarlıq abidələrindən biri də ***Başıkəsik günbəz*** adlanır. Günbəzin ***baş*** hissəsi ***kəsik*** olduğu üçün o, belə adlandırılmışdır. Hələ qədim dövrlərdən məlum olan ***günbəzlər*** əvvəllər gildən, sonralar isə daş, bişmiş kərpic, beton və s. materiallardan tikilmişdir. Dairəvi, çoxbucaqlı və ellipsvarı bina və qurğuların çevrilmiş kasa formalı örtüyü ***günbəz*** adlanır. *Günbəz* oturacaqdan yuxarıya doğru hörgü sıralarının getdikcə daraldılması vasitəsilə yaradılır. Günbəzlərdən Mərkəzi Asiya, Yaxın Şərq, o cümlədən Azərbaycanda geniş istifadə edilmişdir. XIX əsrdən memarlıqda kərpic və daş günbəzlərlə yanaşı metal karkaslı ağac və dəmir-beton ***günbəzlər*** də tətbiq olunmağa başlanmışdır. Müasir dövrdə ***günbəz*** tikililərindən əsasən sirk və s. binalarda istifadə olunur.

## BAYQUŞLU DƏRƏ AĞZI

Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində qeydə alınan oronim ***Bayquşlu dərə ağzı*** adlanır. ***Ağız*** çox mənalı coğrafi metafor termini *"çayın, axar suyun gölə, dənizə töküldüyü yer", "dərənin düzənliyə çıxan hissəsi", "bir yerin giriləcək və ya keçiləcək tərəfi, qapısı"* və s. mənalarda işlənir. Bu terminlə əlaqədar çöl materialları içərisində ***250*** oronim qeydə alınmışdır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. ***Bayquş*** - quşlar sinfinin əsasən gecə həyatı keçirən, yırtıcı, dimdiyi qarmaq şəkilli, caynaqları iri və əyri olan bir dəstəsidir. O, girdə başlı, iri gözlü, qarmaqburun, yırtıcı gecə quşudur. ***Bayquş*** sözü uğursuzluq rəmzi kimi də nəzərdə tutulur.

## BAYRAMLI TƏPƏSİ

***Bayramlı təpəsi*** oroqrafik obyekti Cəbrayıl rayonunun Karxulu kəndi ərazisində qeydə alınmışdır. Toponim Qızılbaşların ***Bayramlı*** tayfasının adı ilə bağlıdır. Bu coğrafi ad patronimik oronimlərdəndir. Patronim





deyəndə şəxs adlarından (məsələn: ***Bayram***) və ona qoşulan cəm, ya da mənsubiyyət bildirən şəkilçilərdən (***-lı***) yaranmış nəsil, tirə adları nəzərdə tutulur. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. Patronimik oronimlər etnonimik oronimlərdən sayca daha çoxdur. ***Təpə*** sözü müsbət relyef forması bildirən coğrafi termindir.

Vaxtilə İrəvan quberniyasının Eçmiədzin qəzasında ***Bayramlı*** (başqa adı *Əliqışlağı*) adlı kənd olmuşdur. 1918-ci ildə azəri türkləri buradan qovulmuş, kənd isə dağıdılmışdır.

## BƏDƏL BAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Bədəl bağı*** adlanır. Oronim ***Bədəl*** şəxs adından və ***bağ*** sözündən əmələ gəlmişdir. Bu bağda çoxlu sayda meyvə ağaclarl vardır. ***Bağ*** onun qurucusu hesab edilən **Bədəl** adlı bir nəfərin adı ilə adlanmışdır. ***Bədəl*** komponenti ərəb sözü olub, *"bir şeyin yerini tutan, bir şeyi əvəz edə bilən şey"* anlamını ifadə edir. Azərbaycan Respublikasının ərazisində bu tipli coğrafi adlara çox rast gəlmək olar.

## BƏYDİLLİ ARXI, BƏYDİLİ ELİ, BƏYDİLİ YERİ

Mənşəcə Səlcuq-oğuzlarından olan ***bəydili//bəkdili*** tayfası XV əsrdə qızılbaşlara qoşulmuşdur. M.Kaşğarinin *"Divani-lüğəti-türk"* əsərində ***bəydili*** mikrotoponiminə də rast gəlirik. Onun göstərdiyinə görə ***bəydili//beqtili*** 24 oğuz tayfalarından biridir. Səlcuq oğuzlarının ***bəydili*** tayfasının adını özündə əks etdirən çoxlu oronimlər, oykonimlər vardır.

Cəbrayıl rayonunun ərazisində tayfa, qəbilə adları ilə əlaqədar yaranmış çoxlu sayda etnohidronimlər mövcuddur. Belə etnohidronimlərdən biri də Araz çayının sol sahilində, Soltanlı kəndinin yaxınlığında, kəndin cənubunda qeydə alınmış ***Bəydilli arxı*** adlı hidronimdir. Bu hidronim ***bəydilli*** adlı tayfa adından və ***arx*** hidronimik apelyativindən ibarətdir. Arxın keçdiyi ərazinin, əkin yerlərinin bir hissəsi ***Bəydili yeri*** adlanır.

Vaxtilə İrəvan əyalətinin Qırxbulaq nayihəsində Səlcuq oğuzlarının

Bəydili tayfasının adını özündə əks etdirən oykonim də qeydə alınmışdır. Hazırda Türkiyə ərazisində ***Bəydili*** adlanan ***23*** kənd vardır. Bəydili eli əski türk kələnəyinə görə *Daş oğuz* boylarına daxildir.

Cəbrayıl rayonundakı ***Bəydili eli (tayfası)*** Soltanlı kəndinin cənub hissəsində yerləşən ***Bəydili*** arxının üst hissəsində XVI əsrdə məskən salmışlar. ***Bəydililər*** (*buradakılar*) Qarabağ bəylərbəyinə tabe imiş. Arxın adı elə həmin tayfanın adı ilə bağlıdır. Arxın keçdiyi ərazinin bir hissəsini yerli əhali ***Bəydili yeri*** adlandırır.

## BİNƏ YAŞAYIŞ MƏNTƏQƏSİ

Bəzi sənədlərdən və yerli əhalinin dediklərindən belə məlum olur ki, vaxtilə Cəbrayıl rayonunun ərazisində ***Binə*** adlı kənd mövcud olmuş, sonralar müxtəlif səbəblərdən kənd boşaldılmışdır. Azərbaycan toponimiyasında ***binə*** termini həm ayrılıqda, həm də topokomponent kimi çox geniş yayılmışdır. Bu söz keçmişdə *"maldarların, heyvandarların yaşayış məntəqələrindən aralıda saldıqları müvəqqəti yaşayış yeri, yurd, xüsusi məskən"* anlamlarında işlənmişdir.

***Binə*** qədim türk sözü olub, *"kənddən aralıda mövsümi təsərrüfat məqsədilə salınan müvəqqəti yaşayış yeri", "maldarların yaşayış məntəqələrindən kənarda saldıqları xüsusi məskən", "müvəqqəti yaşayış yeri, yurd", "köçərilərin mal-qara ilə köçüb, kənddən kənarda məskən saldıqları yer, yurd, köç"* mənalarındadır. Ölkəmizdə bir sıra toponimlərin formalaşmasında ***binə*** komponenti fəal iştirak edir. Azərbaycan Respublikasında çöl materialları içərisində toplanan, qeydə alınan ***25*** oykonimin, ***50*** oronimin, ***10*** hidronimin tərkibində ***binə*** topoformantı vardır. Onlara nümunə olaraq *Binə kəndi, Binə qəsəbəsi* – Bakı şəhəri, *Binə kəndi* – Xocavənd rayonu, *Binədərəsi kəndi* – Xocavənd rayonu, *Binələr kəndi* – Ağdaş rayonu, *Binəqədi rayonu, Binəqədi qəsəbəsi* – Bakı şəhəri, *Binə Xocavar kəndi* – Masallı rayonu, *Binəbəy kəndi* – Astara rayonu, *Malbinəsi kəndi* – Yevlax rayonu, *Binə dağı* – Şərur rayonu, *Binəqədi gölü* – Bakı şəhəri və başqalarını göstərmək olar.





## BOZAT ÖLƏN DƏRƏ

Oronimiyamızda ***boz*** termini ilə əlaqədar ***400***-ə qədər oroqrafik obyekt adı qeydə alınmışdır. Bunlardan biri də Cəbrayıl rayonunun Şıxalıağalı kəndi ərazisində qeydə alınmış ***Bozat*** ölən ***dərə*** oronimidir. Bu toponim bozatın həmin *dərədə* ölməsi ilə əlaqədardır. ***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir.

## BÖYÜK DİK

***Böyük dik*** oronimi Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndi ərazisində qeydə alınmışdır. Bu *dik* xarici görkəminə, zahirən ***böyük*** olduğuna görə belə ad almışdır. ***Dik*** termini *"yuxarıya doğru* şaquli *istiqamətdə uzanan sərt yoxuş"* mənasındadır. Bu terminlə bağlı oronimlər əsasən dağ, qaya, zirvə olan ərazilərdədir. ***Dik*** coğrafi termini ilə bağlı oronimiyamızda ***4 000*** oroqrafik obyekt qeydə alınıb.

## BÖYÜK DÜZ

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük düz*** adlanır. Oronim ***böyük*** və ***düz*** sözlərindən ibarət olub, *"böyük düzənlik ərazi", "böyük düzən sahə"* anlamlarını ifadə edir.

Oronimiyamızda ***düz*** və ***düzənlik*** sözləri həm ***düz***, həm də ***yazı*** formasında öz əksini tapmışdır. Respublikamızın ərazisinin *30* faizindən çoxu *düzənlik* sahə olduğundan adında ***düz*** və ya ***düzənlik*** termini iştirak edən oronimlər də çoxluq təşkil edir. Ərazidə ***düz*** sözü ilə əlaqədar çöl materialları içərisində toplanan coğrafi adların sayı ***11 000***-ə yaxındır.

Füzuli, Gədəbəy, Hacıqabul, Kəlbəcər, Kürdəmir, Laçın, Ordubad, Yardımlı və digər rayonların ərazilərində də ***Böyük düz*** adlı coğrafi ada rast gəlirik.

## BÖYÜK MƏRCANLI KƏNDİ

***Böyük Mərcanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 30 küometr cənub-şərqdə, Böyük Mərcanlı İnzibati Ərazi Vahidində, Araz çayının sol sahilindən bir qədər aralı, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı *4 100* nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta və səkkizillik məktəblər, kitabxana, mədəniyyət evi, rabitə şöbəsi, xəstəxana, ticarət və iaşə xidməti obyektləri və s. vardı. ***Böyük Mərcanlı kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir. Böyük Mərcanlı kəndi Qarabağ müharibəsində 50 nəfər şəhid vermişdir.

Xalq etimologiyasına görə, ***Mərcanlı*** oykonimi tərəkəmə, elat həyatı ilə əlaqədardır. Yerli məlumata görə, *Mərcanlı* yaşayış məntəqəsi ərazisində yaşayan əhali ***malcanlı*** (*mal-heyvan saxlamağı sevənlər*) Oykonimin tərkibindəki nisbət bildirən ***böyük*** sözü kəndi həm də eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirən əlamətdir. Bu yaşayış məntəqəsinin keçmiş adı ***Mərcanlı*** olmuşdur. Bəzi araşdırıcılar toponimi *"mərdcanlı"*, *"mərdlər yurdu"* yozumu ilə mənalandırırlar.

Vaxtilə ***Mərcanlı*** kəndindən köçən bir qrup ailə yaxınlıqda yerləşən yeni bir yaşayış məntəqəsinin - ***Yuxarı Mərcanlı*** kəndinin əsasını qoymuşdur. Həmin dövrdən kənd indiki adı ilə (***Böyük Mərcanlı kimi***) adlanmağa başlamışdır. Şuşa şəhərinin bünövrəsi qoyularkən orada ***Mərcanlı*** adlı məhəllə də olmuşdur. ***Mərcanlı*** nəslinin otuzikilər türk tayfa birliyi ilə də qohumluğu məlumdur. Mərcanlı yaşayış məntəqəsinin sakinlərini XIX əsrdə Qarabağ xanı İbrahimxəlil xanın oğlu Cəfərqulu xanın mülkü olmuş indiki Bərdə rayonunun Ləmbəran kəndinin əhalisi ilə qohumluq əlaqəsi də birləşdirir.

Midiya tayfalarından birinin adı məlumdur ki, ***Maq*** olmuşdur; Onlar totem kimi ilanı müqəddəs tapınaq hesab edirmişlər. ***Mar*** (***ilan*** anlamında işlədilir) - ***Mər*** dil dönümü və keçidi də məlumdur.

Bəzi tarixi qaynaqların verdiyi məlumatlara görə, türkdilli ***Mərcanlı eli*** Azərbaycana XVI əsrdə Türkiyədən gəlmişlər. Tarixi sənəd və materiallarda miladdan öncə I əsrdə Mərkəzi Asiyada məskunlaşan və tarixin müxtəlif dönəmlərində dünyanın bir neçə ərazisinə səpələnmiş ***mərcanlı*** türk tayfasının adına da rast gəlirik..





Cəbrayıl rayonunda ***Çocuq Mərcanlı kəndi*** də vardır.

Əlavə məlumat üçün *bax:* **Çocuq Mərcanlı kəndi, Yuxarı Mərcanlı kəndi.**

## BÖYÜK MƏRCANLI OBASI

Araz çayının sol sahilində, Kür-Araz ovalığında binə bağlayan obalardan biri də ***Böyük Mərcanlı*** obasıdır. Hazırda bu oba köçkünlük yaşamındadır. XX yüzilin otuzuncu illərində oba yaşamına son verib, oturaq həyata keçmiş, kəndləşib məktəbli kolxozlu bir biçimə çevrilmişdir. ***Böyük Mərcanlı obası*** yaşlı və yorğun zamanın axarında öz mərdliyini, mübarizliyini dəyişməyərək, hər bir dönəmdə duruşunu və dəyanətini saxlamışdır. ***Böyük Mərcanlı*** oymaq, el içində tanınan, seçilən, öz sözünü deyən bir oba olmuşdur. Bu ***oba*** Qarabağ xanlığının hərbi siyasi tarixində də önəmli rol oynamışdır.

***Böyük Mərcanlı obası*** etnoqrafik cəhətdən də öyrənilmişdir. ***Oba*** əhalisinin ənənəvi təsərrüfatı, maddiyyatı, ailə məişəti, adət-ənənləri, mərasimləri, dini baxış və dünyagörüşünün özünəməxsus, səciyyəvi özəllikləri lazımi səviyyədə araşdırılmışdır. *Böyük Mərcanlı obası* türktərəkəmə mədəniyyətini, əxlaqını özündə yaşada-yaşada onu dövrümüzədək, günümüzədək çatdırmışdır. ***Oba*** içində zəngin folklor örnəklərini, el, adət-ənənələrini qoruyan dünyagörmüş adamlar var. Böyük Mərcanlı obasının yerləşdiyi ərazi, təbii şəraiti, flora və faunası köklü şəkildə tədqiq olunmuşdur. ***Mərcanlı*** obasının tarixi əsasən arxiv materiallarından, tarixi qaynaqlardan, çöl axtarışı qeydiyyatından öyrənilmişdir. ***Böyük Mərcanlı obası*** haqqında aşağıdakı məlumatlar vardır.

*OBANIN TARİXİ HAQQINDA:* Öncə obanın ad açımına nəzər salmaq yerinə düşər. ***Mərcanlı*** adının el arasında xalq yozumundan başqa elmi anlamı da var. Çöl axtarışları zamanı yaşlı adamlar ***Mərcanlı*** etnoniminin mənasını ayrı-ayrı yozumlarla izahlandırır. Bir versiyaya görə, obanın adı "***Mərcanlı***" olub. ***Oba*** əhalisi əski çağlardan maldarlıqla məşğul olduğundan qonşular tərəfindən belə adlandırılıb. Başqa bir versiyaya görə, oba "***Mərdcanlı***" adlanıb. *Oba* camaatı ***mərd***, *qoçaq*, *qeyrətli* olduğundan bu nam-nişanla biçimlənib. Başqa bir versiyaya görə isə obanın əski dövrlər-

dən adı "***Xoca Mərcanlı***" imiş. Hətta Şuşa şəhərində qərar tutan eyni adlı məhəllənin bu oba camaatı tərəfindən saldıqları fərziyəsi də mövcuddur. Obanın adını "***Mərcan***" adlı minerallarla bağlayanlar da var...

Azərbaycanda toponimiyaya həsr olunan kitabların heç birində "***Mərcanlı***" oykonimi haqqında bilgi yoxdur. Yalnız rus bilgini K.N.Smirnov "*Naxçıvan ölkəsinin tarix və etnoqrafiyasına aid materiallar*" adlı kitabında yazır: "Cavanşir bu tayfanın qollarından olan ***Mərcanlı***-atlarının boyunlarına ***mərcan*** asmışlar" (K.N.Smirnov, Materialı po istorii i etnoqrafii Naxiçevanskoqo kraya, Baku, "Ozan", 1999, st. 33).

***Mərcanlı*** obasının tarixi də ziddiyyətlidir. XIX yüzildə Qarabağda 4 ***Mərcanlı obası*** vardı. Onlardan ikisi Xırdapara-Dizaq mahalında (***Böyük Mərcanlı, Cocuq Mərcanlı***), üçüncüsü Kəbirli mahalında (***Sofulu Mərcanlısı, Hüseynbəyli***), dördüncüsü isə indiki Bərdə bölgəsindəki İyirmidörd mahalında (***Mərcanlı***) mövcud olmuşdur.

Bu dörd Mərcanlının eyni kökənli olması bir az şübhəlidir. ***Sofulu Mərcanlısı*** şiə məzhəblidir. Məzhəbin kökənlə ilgisi olmasa da eyni regionda yaşayan obaların ayrı-ayrı məzhəbə tapınmaqları bir az qoşquludur. ***Mərcanlı*** oba biçimində köç-düş etdiyindən hansısa elin oymağı olmalıydı. Bəs görəsən hansı elin?

Bəzi bilgilərdə göstərilir ki, ***Mərcanlı obası*** Qarabağda məşhur olan ***Cavanşir*** elinin qoludur. XVIII yüzilin önlərində Qarabağda dövran sürən ***Cavanşir*** elinin ***25*** oymağı (*Yağləvənd, Məfruzlu, İbadlı, Sofulu, Dədəli, Taməli, Gecəgözlü, Seyidəhmədli, Qarıbənd, Köçərli, Bəhmənli, Dəmirli, Seyidmahmudlu, Sabir, Köçərli, Göyməhəmməd, Yağlavənd, Şeyxbabalı, Sarıcalı, Yağləvənd, Yağləvənd, Mollafazilli, Köçərli, Qaraburunlu*) arasında Mərcanlının adı yoxdur. Bəlkə otuziki elinin qoludur? Axı otuziki eli də Cavanşir nəsillidir. XVIII əsrin əvvəllərində ***Otuziki*** elinin ***20*** oymağı (*Üçoğlan, Məfruzlu, Qiyaslı, Dəlilər, Veysəlli, Hacıturəli, Xəlilfərəddinli, Barani, Şəkərbəyli, Qaraqoyunlu, Mollalar, Düyərli, İmirli, Ozan, Məhəmmədşahlı, Buğdayüzlü, Zəngişalı, Atlıcalı, Yosunduz, Bəyəhmədli*) arasında da Mərcanlının adı çəkilmir. Qarabağda qədimdən qərar tutan digər ellərin (*Qacar, İyirmidörd, Hacılar, Kəbirli* və s.) oymaqlarının içində də ***Mərcanlı*** oymağına rast gəlinmir.

Onda istər-istəməz ortaya belə bir sual çıxır: Doğrudanmı ***Mərcanlı*** obasının ***eli*** yoxdur?





XVI yüzilə bağlı Osmanlı qaynağında Qarabağda qərar tutan *Otuziki* elinin qolları arasında *Xancanlı* və *Qırğallı* adlı oymaqlar var. ***Xancanlı oymağı*** Arazbarda, Qırğallı oymağı isə Qaraağac qəzasının Ağcabədi nahiyəsində ömür sürürdü. XVIII yüzilə bağlı Osmanlı qaynağında Otuziki elinin tərkibində nə Xancanlı, nə Qırğallı oymaqları yoxdur. Xancanlı ad kimi tarixin səhifəsindən silinib. Görünür ya köçürmə siyasətinin qurbanı olub, ya da başqa oymaqların içinə qatılıb. ***Qırğallı oymağı*** isə kənd biçimində ***Ləmbəran*** kəndinin ərazisində binə bağlayıb. Ləmbəran kəndinin əhalisinin adam adlarının yarısından çoxu ***Böyük Mərcanlı*** əhalisinin şəxs adları ilə eynidir. Ad oxşarlığını tarix kimi qəbul etmək, əlbəttə ki, ilk baxışda sadəlövhlük kimi görünür. Əslində bu, özü də bir tədqiqat obyektidir. Amma yaşlı nəsillərin təsdiqinə görə, belə bir fakt var ki, ***Mərcanlı*** obasının bəzi sakinləri Ləmbərandan gəlmədirlər. Hətta *Mərcanlı* obasının ünlü üləması Mola Mehrəli Əfəndi Hacı Şirin oğlu Ləmbəranda yaşamış və fəaliyyət göstərmişdir...

İndi isə ***Xoca (Xacə) Mərcanlı*** haqqında. Tarixdən məlumdur ki, Şeyx Həsən Cəlayirin ***Xacə Mərcan*** adlı bir əmiri vardı. ***Xacə Mərcan*** uzun illər İraqi-Ərəbdə, Bağdadda vali işləmişdir. Hətta Şeyx Üveys Cəlayirin ağalığı dönəmində, 1364-cü il mərkəzə qarşı qiyam etmişdir. Yenildikdən sonra bir çox adlı-sanlı adamların xahişi ilə bağışlanmış və 1368-ci ildə yenidən Bağdada vali təyin olunmuşdur. O, 1374-cü ilədək bu vəzifədə çalışmışdır. *Xacə Mərcan* qurucu bir şəxsiyyət olmuşdur. Bağdaddakı valiliyi dönəmində şəhəri gözəl görkəmə salmışdır. 1357-ci ildə Bağdadda "***Mərcaniyyə***" adlı məscid inşa etdirmişdir. Tarixi məlumatlara görə, məscidin memar və bənnalarını da Azərbaycandan aparmışdır. Bilgilərə görə, ***Xacə Mərcan*** 1374-cü ildə vəfat edib (*Zeynəddin bin Həmdullah Qəzvini, Bakı, "Elm", 1990, səh-34-35, 39*). Onun oymağı sonralar ***Xoca Mərcanlı*** adlanmışdır. ***Xoca Mərcanlı*** oymağının izlərinə İranda, Türkiyədə rast gəlirik.

Hazırda Təbriz şəhərindən 12 km quzey səmtdə ***Xacə Mərcan*** adlı dağ da var. Orta çağda Osmanlılar Təbriz şəhərindən *Xacə Mərcan* adlı ünlü bir zərgəri Türkiyəyə aparmışdılar. *Xacə Mərcan* Amasiya yörəsində məskunlaşmışdır. Özündən sonra xeyli nəvə-nəticəsi qalmışdır. Xoca Mərcanlının sonralar ***Mərcanlı*** obasına çevrilməsi fərziyyəsi də var...

Zəngilan rayonunun Hacıallı kəndində yerləşən qədim qəbiristanlıqda 1868-ci ildə dəfn olunanlardan biri *Abdulla bin Məhəmmədağa xan*

*Mərcani* soyadını daşıyır.

***Böyük Mərcanlı obası*** xanlıq dönəmində Xırdapara-Dizaq mahalının ərazisində məskunlaşmışdı. Oba İbrahimxəlil xanın böyük oğlu və vəliəhdi Məhəmmədhəsən ağaya bağlı idi. Məhəmmədhəsən ağanın anası Xanımnənə xanım Cəbrayıllı elinin başçılarından biri Nəbi kələntər Vəli ağa oğlunun qızı idi. Xanlığın vəliəhdi Cəbrayıllı elinə arxalanırdı. Öz obalarını başqa mahallardan yığıb Dizaq-Cəbrayıllı və Xırdapara-Dizaq mahallarının içində yerləşdirmişdi.

Məhəmmədhəsən ağa 1806-cı ildə vəfat edəndən sonra ***Böyük Mərcanlı obası*** onun ikinci oğlu Xancan ağaya qaldı. *Xancan ağa Sarıcalı-Cavanşir* Azərbaycan xalqının böyük xanəndəsi Xan Şuşiniskinin ulu babasıdır. Xancan ağa darğası Kərbəlayi Məhərrəm Məmmədbağır oğlunun araçılığıyla obanı idarə edir, vergilərini alırdı. Obanın dövlətə və ağaya ödənəcək vergilərini yüzbaşı yığıb məmurlara, darğalara təqdim edirdi. İbrahimxəlil xanın ağalığının son illərində obanın başçısı *Allahverdi yüzbaşı* idi. Allahverdi yüzbaşı obanın başında Qarabağ xanlığının yaxın və uzaq xanlıqlarla savaşında fəal iştirak etmişdi.

Rus-İran savaşlarında ***Böyük Mərcanlı*** obasının iştirakı tarixi sənədlərdə qeyd olunub. Bu savaşlarda da obanı döyüş meydanlarına Allahverdi yüzbaşı aparıb. Allahverdi yüzbaşıdan sonra obaya böyük oğlu Hüseyn yüzbaşı başçılıq edib. Hüseyn yüzbaşı obanın yaylaq-qışlaq güzəranına nəzarət edir, çöpbaşının toplanması ilə məşğul olurdu.

***Böyük Mərcanlı obası*** rus üsul-idarəsi dönəmində savaş yaşamına son verərək dinc bir həyata qədəm qoydu. Dədə-baba torpağında əkin-biçinlə, yaylaq-qışlağında heyvandarlıqla məşğul oldu, dana-davarlarını artıraraq zəngin bir quruma çevrildi. Oba regionda ən varlı, ən zəngin yaşayış məntəqəsi sayılırdı. 1886-cı ilə bağlı olan qaynaqda *Böyük Mərcanlı* obasına Hacı İsmayıl Məmməd oğlu, Abdulla Hacı Şahgəldi oğlu, İsgəndər Hacı Dərgahqulu oğlu, Təhməz Hacı oğlu, Mahmud Hacı Dünyamalı oğlu, Hacı Yusif Xəlil oğlu və başqalarının olduğu məlumdur.

Tarixi sənəd və materiallarda göstərilir ki, *Böyük Mərcanlı* obasının əhalisi müsəlman olub, İslam dininin sünni məzhəbinə tapınırlar. Tədqiqatçı K.N.Smirnov yazır: "Qarabağda ***Mərcanlı*** və *Arslanlı* tayfaları sünni idilər. Bu tayfanın gəncləri ruhani təhsil almaq üçün İstambula və yaxud Misirə gedirlər" (K.N.Smirnov, Materialı po istorii i etnoqrafii Naxiçevanskoqo kraya, Baku, "Ozan", 1999, s. 87).





1920-1930-cu illərdə başqa bölgələrdə olduğu kimi Cəbrayılda da kolxozlar yarandı. İkinci Dünya müharibəsinə qatılanlar arasında ***Böyük Mərcanlı*** obasının sakinləri də vardı...

## BÖYÜK ÖVLİYA ŞIX HACI QASIM ÇƏLƏBİNİN HASARI

Cəbrayıl rayonunun ərazisində, məşhur Hacı Qaraman məzarlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Böyük övliya Şıx Hacı Qasım Çələbinin hasarı*** adlanır. Burada XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış dövrünün hörmətli nüfuz sahibi, təriqət rəhbəri, mürşidi-kamil, Hacı Qaraman övladı, **böyük övliya Şıx Hacı Qasım Çələbi** dəfn edilmişdir. Sonralar Haqq dərgahına qovuşan onun nəvəsi Əli Çələbi də bu ***hasar*** içərisindəki torpağa tapşırılmışdır.

## BÖYÜK ŞIX HACI ALI ÇƏLƏBİNİN QƏBRİ

Rayonun müqəddəs Hacı Qaraman məzarlığındakı hasarda qeydə alınan oroqrafik obyektlərən biri də ***Böyük Şıx Hacı Alı Çələbinin qəbri*** adlanır. Hasarda müqəddəs Hacı Qaraman övladı, təriqət rəhbəri, mürşidi-kamil ***Böyük Şıx Hacı Alı Çələbi*** dəfn olunduğu üçün bu qəbir belə adlanmışdır. Bu məzarlıq yerli əhali tərəfindən əziz tutulurdu.

## BULAQ OCAQLARI

Sarıcalı kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Bulaq ocaqları*** adlanır. **Bulaq ocaqları** adını alan bu toponim ayrı-ayrı **5** bulaqdan ibbarətdir: 1) ***Susalıq bulağı*** – kəndin şimal söykənəcəyindəki laqdan ibbarətdir: 2) ***Göy-göl bulağı*** – Sarıcalı ilə Kavdar kəndlərinin arasındakı dərənin başında yerləşir; 3) ***Tək armud bulağı*** – kəndin aşağı başındakı nəhəng gövdəli *tək armud* ağacının dibində; 4) ***Üç çinar bulağı*** – Sarıcalı kənd sakini Zülfüqar Əliyevin evindən yuxarıdakı üç çinarın

dibində; 5) ***Qarağac bulağı*** – kəndin aşağı ayağındakı nəhəng *qarağac* ağacının dibində. Bu bulaqların hər birində qaynamadan çıxan şirin sular saflığına, duruluğuna, müalicəvi əhəmiyyətnə görə müqəddəs sayılır və ***ocaq*** kimi qorunur.

## BULAQLI DƏRƏ

Qalacıq kəndinin ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Bulaqlı dərə*** adlanır. Adından da göründüyü kimi oronim ***bulaq*** hidronimik apelyativindən, ***dərə*** coğrafi terminindən və ***-lı*** şəkilçisindən ibarətdir. Həmin *dərədə* bir neçə ***bulaq*** olduğuna görə toponim belə ad almışdır.

## BULUL (BÜLÜL) ÇEŞMƏSİ

Rayon ərazisində, Daşveysəlli kəndi yaxınlığında qeydə alınan maraqlı toponimlərdən biri də ***Bulul çeşməsi*** adlanır. Bəzən bu coğrafi adı ***Bülul çeşməsi*** şəklində də yazırlar. Toponim ***bulul*** və çeşmə sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Bu çeşmənin dumduru və soyuq suyu vardır. Coğrafi adın tərkibindəki ***bulul*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar ***bulul*** (***bülül, bülul***) sözünü *"hamar"* anlamı ilə mənalandırırlar. Məlumdur ki, bu tipli toponim Laçın rayonunda (***Bülüldüz kəndi***) da qeydə alınışdır. Daşveysəlli kəndi ərazisində bu qəbildən olan digər bir coğrafi ad - ***Bulul*** (***Bülul***) ***piri*** adlı toponim də qeydə alınmışdır.

Bir qisim tədqiqatçılar isə ***Bulul çeşməsi*** coğrafi adını fitotoponim kimi izah edir. Əlbəttə ki, başqa fikirdə olanlar da vardır...

## BURUN ZƏMİ TAXTASI

Bu oronim Cəbrayıl rayonunun Nüsüs kəndi ərazisində qeydə alınmışdır. ***Taxta*** termini *"iki dərə arasında düz yer"*, *"dağlıq yerdə hamar sahə"*, *"hündür ərazidə düzənlik"*, *"əkin üçün ayrılmış sahə"*, *"qurunun gölün, dənizin içinə girən dağlıq, qayalıq hissəsi"* və s. mənalar daşıyır. ***Burun*** coğrafi termini *"qurunun, dağın, qayanın sivri bucaq şəklində düzə tərəf uzanan hissəsi"* mənasındadır. Toponim *"qurunun sivri bucaq şəklində uzanmış hündür ərazisində zəmi sahəsi"* mənasındadır. ***Burun*** toponimi yerin coğrafı quruluşunu (*orada dağ burnunun olmasını*) əks etdirir.





## BÜLLUR KƏHRİZ

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış hidronilərdən biri ***Büllur kəhriz*** adlanır. Hidronim ***büllur*** sözündən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. Bu kəhrizin göz yaşı kimi dumduru, şəffaf və buz kimi soyuq suyu vardı. ***Büllur*** sözü *"parlaq, dumduru, şəffaf, təmiz, saf"*, *"parlaq və şəffaf daş"*, *"xüsusi parlaqlığı və işığı sındırmaq qabiliyyəti olan əla şüşə növü"* anlamını ifadə edir.

## "C"

### CABBAR BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Cabbar bulağı*** adlanır. Hidronim ***Cabbar*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ubarət olub, *"Cabbara məxsus olan bulaq"* anlamını ifadə edir. Yerli məlumata görə, ***Cabbar*** adlı şəxs həmin ***bulağı*** üzə çıxaran adam olmuşdur. Bu tipli hidronimlərə digər rayonların ərazilərində də rast gələ bilərik.

### CAMAL KƏHRİZİ

Qarağac kəndinin yuxarı hissəsində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Camal kəhrizi*** adlanır. Bu kəhrizin ***5*** quyusu vardır. Suyu soyuq və şirindir. Hidronim ***Camal*** şəxs adından və ***kəhriz*** sözündən ibarət olub, *"Camala məxsus olan kəhriz"* mənasındadır. XIX əsrdə cəbrayıllı ***Camal Əli oğlu*** tərəfindən tikildiyi (*vurulduğu*) üçün onun adı ilə də adlandırılmışdır. ***Camal*** komponenti ərəb sözü olub, *"gözəllik, üz gözəlliyi"* anlamını ifadə edir.

Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya ***kəhriz*** deyilir. Maili lağım şəbəkəsindən ibarət olan ***kəhrizlər*** adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi materiallardan aydın olur ki, XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** var idi.





### CAMALXAN TƏPƏSI

Dağ Tumas kəndinin yaxınlığında, Arpa dərəsinin baş hissəsində qeydə alınan oronimlərdən biri ***Camalxan təpəsi*** adlanır. ***Camalxan təpəsi*** çox da böyük olmayan kiçik təpədir. Bu coğrafi ad ***Camalxan*** şəxs adından, ***təpə*** müsbət relyef forması bildirən terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Camalxan təpəsi*** toponimi *"Camalxana məxsus olan təpə"* mənasına uyğun gəlir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

### CAMIŞ DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Camış dərəsi*** adlanır. Oronim ***camış*** heyvan adından, ***dərə*** müsbət relyef forması bildirən coğrafi terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Camış*** – qısaboyunlu, irigövdəli gövşəyən ev heyvanıdır. Vaxtilə həmin dərədə ***camışların*** çoxluğu ilə əlaqədar olaraq toponim belə ad almışdır. Bu tipli coğrafi adlara respublikamızın digər rayonlarının ərazilərində də rast gəlirik.

### CAMIŞBATAN GÖL

Heyvan adı əsasında əmələ gələn zoohidronimlərdən biri Cəbrayıl rayonunun ərazisində qeydə alınmış ***Camışbatan göl*** adlanır. Bu coğrafi ad ***camış*** heyvan adından, ***batan*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. ***Camışbatan göl*** oroqrafik obyekti burada vaxtilə baş verən hadisə - *camışın batması* ilə əlaqədar yaranmışdır.

***Camış*** – cütdırnaqlılar dəstəsinin boşbuynuzlular fəsiləsinə aid gövşəyən heyvandır. Onların ağır bədəni, qısa boynu, möhkəm ayaqları, enli başı var. Süysüyünün hündürlüyü ***130***, bədəninin çəpinə uzunluğu ***135***, döş qucumu ***190*** sm-dir. Əsasən qara, bəzən də tünd-qonur, tünd-boz rəngdə olur. Camışların diri çəkisi ***150 – 700*** kq olur. Südündən yağ,

pendir, qaymaq, qatıq və s. hazırlanır. ***Camışlar*** bir sıra xəstəliklərə (*hemosporidioz, qarayara, dabaq* və *brusellyoz*) çox davamlıdır.

## CANQU YALI

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Canqu yalı*** adlanır. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə edilir. ***Yal*** coğrafi termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***550*** oronim qeydə alınmışdır. Oronimin tərkibindəki ***Canqu*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

Əlavə məlumat üçün bax: **Canqulu kurqanı.**

## CANQULU KURQANI

***Canqulu kurqanı*** Cəbrayıl rayonunda, Mahmudlu kəndi yaxınlığında, düzənlik ərazidə yerləşir. Bu ***kurqan qəbiristanlığı*** tunc dövrünün yadigarı hesab olunur. Yerli məlumatlara görə, ***Canqulu*** şəxs adıdır. Türk mənşəli ***kurqan*** sözü "*torpaq, ağac və ya daşdan düzəlmiş*, əsasən *yarımkürə formalı qədim qəbirüstü abidə, süni təpə*" anlamındadır. Müxtəlif ölçü formalarında düzəldilmiş kurqanlarda qəbirlər sərdaba, katakomba, daş, yaxud taxta qutu və s. formalarda olurdu. Bəzi kurqanlarda ölü ilə bərabər onun silahı, yemək şeyləri, qab-qacaqları, bəzək əşyaları, arvadı, atı, qulları və s. də basdırılırdı. Azərbaycanda müxtəlif tarixi dövrlərə (*Neolit, Eneolit* və s.) aid ***kurqanlar*** vardır.

***Canqulu*** adı ilə bağlı oronimə Füzuli rayonu ərazisində də (*Canqulu dağı*) rast gəlinir. Toponimi ***Canquru*** kimi izah etmək istəyənlər də var...

## CEYRAN BULAĞI

***Ceyran*** – antilop cinsindən irigözlü, incəayaqlı, sürətlə qaçan zərif heyvandır. Azərbaycan Respublikasının ərazisində ***ceyran*** adı ilə bağlı





çoxlu sayda toponimlər vardır. Onlardan biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Ceyran bulağı*** coğrafi adıdır. ***Ceyran bulağı*** hidroniminin yaranması haqqında maraqlı bir rəvayət-əfsanə dillərdə gəzməkdədir:

*Bir gün ovçu tüfəngini çiyninə alşırıb meşəyə yollandı, Ceyranların, cüyürlərin hay-küyü meşə ilə bir idi. Ovçu münasib bir yer seçib ovunu gözləməyə başladı. Gördü ki, budur, iki ceyran kolluqdan çıxıb bulaq başına tərəf gəlir. Ana ceyran balasının keşiyini çəkdi ki, balası doyunca su içsin. Bala ceyran su içəndən sonra kənara çəkildi. Ana ceyran da yaxınlaşdı ki, su içsin. Birdən ovçunun atdığı güllə onu bir qədər aralıdakı qoca palıd ağacının altına yıxdı. Qalxmaq istədi, bacarmadı. Balasını başı üstündə görüb gözləri yaşardı. Ana ceyran can verdiyi anda balasının gözlərini yalamağa başladı. Sonra başını qaldırıb sanki balasını ona tapşırırmış kimi qoca palıda baxdı və əbədiyyətə qovuşdu. Körpə ceyranın gözlərindən yaş bulaq kimi süzülməyə başladı.*

*Bu mənzərəyə tamaşa edən ovçunun ürəyi parçalandı; orada dayana bilməyib meşəni tərk etdi. Bala ceyranın göz yaşından bulaq əmələ gəldi. Bu bulaq Qoşa bulaq oldu - Ana-bala* ***Ceyran bulağı****. Ovçu bir daha həmin meşəyə getmədi. Körpə ceyranlar, cüyürlər daha qorxa-qorxa yox, inamla, ərklə, həm də kədərlə Ceyran bulağına gəlib doyunca su içdilər. Həmin vaxtdan el arasında o bulağa* ***Ceyran bulağı*** *deyildi...*

## CEYRAN DÜZÜ, CEYRANÇÖL, CEYRANTƏPƏ

***Ceyran düzü,*** Çeyrançöl, ***Ceyrantəpə*** oronimləri Cəbrayıl rayonunda, Diridağ yaxınlığında qeydə alınmışdır. Vaxtilə bu düzdə, çöldə, təpədə çoxlu sayda ***ceyranlar*** olduğu üçün oronimlər belə adlanmışdır. ***Ceyran*** adı ilə bağlı oronimlərə ***Ceyran düzü*** (Zəngilan rayonu), *Ceyran dağı* (İsmayıllı rayonu), *Ceyran dərəsi* (Şəki rayonu), *Ceyran örüşü* (Neftçala rayonu, Ərəb Qardaşbəyli kəndi), ***Ceyran çölü*** (Ağstafa, Qax, Göygöl, Xocavənd, Şamaxı rayonları), *Ceyran dağı* (Şuşa rayonu), ***Ceyran təpəsi*** (Gədəbəy, Xocavənd, Kəlbəcər, Laçın, Şuşa rayonları), *Ceyrankeçməz kəndi* (Qobustan rayonu), *Ceyrankeçməz çayı* (Qobustan və Xızı rayonlarının ərazilərində), *Ceyranbatan qəsəbəsi* (Abşeron rayonu), *Ceyranlı kəndi*

(Dəvəçi rayonu) və başqalarını nümunə göstərmək olar. Bütün bu toponimlər zoonimlə ifadə olunmuşdur.

Əlavə məlumat üçün bax: **Ceyran bulağı.**

## CƏBRAYIL - ATA PİRİ

Cəbrayıl şəhəri yaxınlığında, şəhərdən şimalda, Qarabağın dağlıq hissəsində, Yuxarı Qarabağ iqtisadi rayonunda, Alpaşa (bəzən *Alıpaşa* kimi də yazırlar) dağının üzərində, yaşıl çəmənlikdə yerləşən və ***Cəbrayıl-Ata*** adı ilə məşhur olan məqbərə ***Cəbrayıl-Ata piri*** adlanır. Onun uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metrdir. Deyilənə görə, son orta əsrlərdə yaşamış böyük hörmət və nüfuz sahibi olan ***Cəbrayıl-Ata*** burada dəfn olunmuşdur. Bəzi məlumatlara görə, bu ***pir*** (***türbə***) vaxtilə ***Cəbrayıl*** kəndinin təməlini qoymuş ***Ayətulla Cəbrayıl Həsənzadə Vedili*** ad və soyadlı bir şəxsin qəbri üzərində tikilmişdir. Yerli sakinlər bu piri nüqəddəs tapınaq yeri kimi çox əziz tuturlar. Buradakı məzar və qədim yaşayış yerlərinin izləri erməni işğalına qədər yaxşı qalmışdır. İşğaldan sonra ***Cəbrayıl-Ata piri*** abidəsinin ermənilər tərəfindən dağıdıldığı bildirilir.

***Cəbrayıl-Ata piri*** yerli camaat və bu yerlərə müvəqqəti gələnlər tərəfindən müqəddəs hesab olunan ziyarət yeri idi. Buraya Cəbrayıldan və digər rayonlardan nəzir verməyə gələnlər çox olurdu. Uzun müddət yağış yağmayanda camaat yığışıb *Cəbrayıl Ata* pirinə gələr, qurbanlar kəsərdilər. Bu ***pir-məqbərə*** öz adında orta əsrlərdə yaşamış ***Cəbrayıl Atanın*** adını əbədiləşdirmişdir. Bir sıra sənədlərdən də məlum olur ki, ***Cəbrayıl-Ata*** orta çağda ömür sürmüş nüfuzlu tarixi bir şəxsiyyət olmuşdur. ***Ata*** - türk sözüdür. Hər ağsaqqala ***ata*** deyilməzdi. Bu ad ancaq böyük nüfuz və hörmət sahiblərinə verilərdi.

Bəzi tarixi sənədlərdən aydın olur ki, yaşadığı dövrdə böyük hörmət və nüfuz sahibi olan ***Cəbrayıl*** atanın *Yarəhməd, Şahvələd, Bünyad, Mirzəcan, Qurban, Hasan, Xubyar* adlı oğlanları olmuşdur. Rayonun *Mirzəcanlı, Şahvələdli, Hasanlı, Yarəhmədli, Maşanlı* və bir sıra kəndlərinin camaatı Cəbrayıl-Atanı özlərinin ulusu hesab edirlər. Cəbrayılın adı ilə sonralar ***Cəbrayıllı tayfası*** da formalaşmışdır. Orta əsrlərə aid olan mənbələrdə Əfşar, Cavanşir, Şahsevən və başqa tayfalarla birlikdə ***Cəbrayıllı*** tayfasının da adı çəkilmişdir.





## CƏBRAYIL BAĞI

Rayonun Qalacıq kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Cəbrayıl bağı*** adlanır. Bu *bağda* çoxlu sayda tut və digər ağaclar vardı. Toponim ***Cəbrayıl*** (şəxs adı) və ***bağ*** sözlərindən, eləcə də ***-ı*** mənsubluq bildərən şəkilçidən ibarət olub, *"Cəbrayıla məxsus olan bağ"* anlamını ifadə edir. Bu tipli toponimlərə Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlirik.

## CƏBRAYIL ELİ

Qədim Qarabağda tarixən çoxlu sayda ellər (*cavanşirlər, otuzikilər, kəbirlilər, kolanılar, əfşarlar, qaradolaqlar, qaraçorlular, püsyanlılar, dəmirçihəsənlilər, cəbrayıllı və s.*) yaşam sürmüşdür ki, onlardan da biri ***cəbrayıllı*** elidir. ***Cəbrayıl eli*** (*bəzən bu elin adını* ***Cəbrayıllı eli*** *kimi də yazırlar*) Qarabağın ictimai-siyasi tarixində mühüm rol oynamışdır. Orta əsrlərdə *Cəbrayıllılar* Dizaq nahiyəsində məskunlaşmış Əhmədli eli oymaqlarından biri idi. 1588-ci ildə osmanlıların Qarabağa yürüşü zamanı Əhmədli eli sünnü olduqları üçün heç yana qaçmayıb yerində qalaraq Osmanlı ordusuna təslim oldu.

1606-cı ildə I Şah Abbas Səfəvi Qarabağı yenidən ələ keçirəndən sonra dönüklərə divan tutulmasını əmr etdi. Əhmədli elinin başçıları cəzalandırıldı. Qorçubaşı Allahqulu bəy Ziyadoğlu-Qacar dönükləri talan və tarac etdi. 1615-ci ildə şah fərmanı ilə ***Cəbrayıl eli*** Mazandarana sürgün edildi. Sürgünə şahın iki adlı-sanlı ərkanı Lətifxan bəy Davatdar Qacar və İsfəndiyar bəy Ərəbgirli-Şamlı başçılıq edirdilər. Əhmədli elinin əsas hissəsinin sürgünündən sonra bəzi oymaqlar, o cümlədən ***Cəbrayıl eli*** bu köçdən yayınaraq Qarabağda əkin-biçinlə məşğul oldu.

***1593***-cü ilə bağlı olan Osmanlı qaynağında ***Cəbrayıl eli*** 2 kənddən ibarət şenlik kimi qeyd olunur.

***1727***-ci ilə aid olan *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"* adlı qaynaqda isə Dizaq nahiyəsinə tabe olan ***Cəbrayıllı*** adlı böyük bir kənd adına rast gəlirik. **1727**-ci ildə bir kənddən ibarət olan oymaq **1747**-ci ildə böyük bir elə çevrildi. *Cəbrayıllı* oymaq başçıları ***Cəbrayıl eli*** al-

tında keçmiş ellərini bərpa etdilər. Əhmədli camaatı oymaqlardan biri kimi ***Cəbrayıllı*** qurumunun tərkibinə daxil oldu. Sonralar bir neçə oba və kənd də *cəbrayıllılara* qoşularaq böyük bir ***el*** yaratdılar. İbrahimxəlil xanın ağalıq dönəmində ***Cəbrayıl elinin*** yaşadıqları ərazilər böyük bir mahala çevrildi. ***Cəbrayıllı*** elinə *minbaşı*, ***Dizaq Cəbrayıllı*** mahalına isə *naib* başçılıq edirdi.

***Cəbrayıllı eli*** Qarabağ xanlığının yaşamında, onun ictimai-siyasi həyatında mühüm rol oynayan ellərdən biridir. Pənahəli xanın vəfatından sonra parçalanan xanlığın birləşməsində ***Cəbrayıllı elinin*** danılmaz rolu vardır. Tarixdən məlumdur ki, İbrahimxəlil ağa Urmiyadan (*girovluqdan*) qayıdandan sonra xanlığı ələ keçirmiş kiçik qardaşı Mehrəli ağaya qarşı mübarizəyə başladı. O, kömək üçün ***Cəbrayyılı*** elinə müraciət etdi. ***Cəbrayyılılar*** İbrahimxəlil ağaya yardım göndərdilər. ***Cəbrayyılı***, Kəngərli, Cinli, Dəmirçihəsənli ellərindən təşkil olunmuş qoşun, eləcə də *Cavanşir* elinin *Arazbar* qrupundan ibarət atlı dəstə Mehrəli ağanın tərəfdarlarını yendilər. Qalib gələn İbrahimxəlil ağa Qarabağ xanlığının taxtında əyləşdi. O, ***Cəbrayyılı elinin*** kələntəri Nəbi ağanın qızı Nənəxanımla ailə quraraq bu el ilə qohum oldu. Bundan sonra *cəbrayyıllı* elinin çəkisi artdı. Xan ***Dizaq*** mahalının böyük bir kəsiyini bu *Cəbrayıl* elinə verib yeni inzibati ərazi olan ***Dizaq-Cəbrayıllı*** mahalını yaratdı. *Cəbrayyıllı* elini xanın böyük oğlu Məhəmmədhəsən ağa idarə edirdi. Anası *cəbrayyıllı* qızı olduğundan el-oba camaatı onun xətrini əziz tuturdu.

1805-ci ildə Məhəmmədhəsən ağa ilə atasının incikliyi düşür. İbrahimxəlil xan digər oğlu Əbülfət xana sifariş göndərib onu Qarabağa dəvət edir. Fətəli şah da bundan sevinərək Əbülfət xanı *5 000*-lik qoşunla Qarabağa yola salır. Əbülfət xan Qarabağın sərhədinə catıb şahın istəyini atasına yazır. Fətəli şah Əbülfət xana göstəriş verir ki, Məhəmmədhəsən ağanı Tehrana göndərib özü Qarabağda atasının qulluğunda qalsın. Məhəmmədhəsən ağa, Mehdiqulu ağa və Xanlar ağa atalarını məcbur edirlər ki, Əbülfət xanı geri dönməyə təhrik etsin. Əbülfət xan məktubdan hiss edir ki, işin içində qardaşlarının barmağı var. Ona görə də geri dönməyib Qapan (Qafan), Güney (Mehri), Çulundur, Bərgüşad mahallarını tutur. *Dizaq, Xırdapara – Dizaq* və *Cavanşir – Dizaq* mahallarının naiblərini, el-oba başçılarını yanına cağırır.

Məhəmmədhəsən ağa və Mehdiqulu ağanın başcılığı ilə Qarabağ qoşunları ilə Əbülfət xanın qoşunları arasında döyüş baş verir. Əbülfət xan beş minlik qoşunundan 500 nəfərlə Arazı keçib Qaradağa çəkilir. Məhəmmədhəsən ağanın ölümündən sonra *Cəbrayıl* elinin idarəsi böyük oğlu Cəfərqulu xana kecir. Əlbəttə ki, Cəfərqulu xanın könlundən Qarabağın hakimliyi kecirdi. O, bunu da yaxşı bilirdi ki, *Cəbrayıl* elinin köməyi olmadan bir iş görə bilməz. Qraf Qudoviç Qafqazda vali (*canişin*) olarkən (*Qudoviç bu vəzifəyə 1808-ci ildə təyin edilmişdir*) Cəfərqulu ağa ilə Mehdiqulu ağanın aralarında inciklik baş verdi. Bu inciklik Abbas Mirzəyə catanda Cəfərqulu ağanın və onun dayağı olan *Cəbrayıllı elini* İrana dəvət etdi.





Cəfərqulu ağa 1812-ci ildə İrana keçmişdir. Onun İrana keçdiyini eşidən Qarabağ elləri hərəkətə gəldilər. Arazdan Goran çayınadək Qarabağ torpağı boş qaldı. Abbas Mirzə bəzi düşüncələrdən sonra Cəfərqulu ağaya *xan* ünvanı verib, onu Qaradağa hakim təyin etdi. Ətrafında olan Qarabağ ellərinə, cəbrayıllılara Qaradağda yeyimlik yurd verdi. Cəfərqulu xan 1815-ci ildə Qarabağa qayıtdı. ***Cəbrayıllı eli*** də xanla bərabər yurdlarına qayıdıb yerləşdilər.

***1823***-cü ilə bağlı qaynaqda - *"Qarabağ əyalətinin statistik təsviri"* adlı mənbədə ***Cəbrayıllı*** elinin Cəfərqulu xana aid olduğu göstərilir. XVIII-XIX əsrlərə aid mənbələrə görə, Cəfərqulu xana bağlı ***Cəbrayıllı eli*** aşağıdakılardan ibarətdir:

1. *Cəbrayıllı obası* - 154 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: molla 1 tüstü, çavuş 1 tüstü, kor 3 tüstü, yetim 16 tüstü, kasıb 2 tüstü, dəli 1 tüstü.
2. *Feyzulla bəy və Mehrəli minbaşı cəbrayıllıları* - çoban, ilxıçı 9 tüstü, yetim 1 tüstü, rəncbər 5 tüstü, Qaradağdan gəlmə 5 ailə, kəndxuda 1 tüstü.
3. *Cəfər ağa və Fətəli bəy cəbrayıllıları* - çoban 6 tüstü, yetim və qeyri-müsəlmanlar 8 ailə.
4. *Hüseyn bəy cəbrayıllıları* - çoban, bağban və başqaları, 11 tüstü, qeyri-müsəlman 12 ailə.
5. *Şıxəliağa cəbrayıllıları* - 10 tüstü vergi ödəyirdi.
6. *Əli əfəndi cəbrayıllıları* - 3 qardaşı, 1 rəncbər.
7. *Çullu-Cəbrayıllı obası* - 4 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: kəndxuda 1 tüstü, məaf 1 tüstü. Obanm başçısı Yaqub sərkar idi.
8. *Şayıflı obası* - 3 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: Allahver-

di kədxuda 1 tüstü.

9. *Əhməd ağa cəbrayıllıları* - Əhməd ağanın 2 qardaşı, 1 rəncbər ailəsi.

10. *Maqsud ağa cəbrayıllıları* - 1 tüstü özü, 1 tüstü rəncbəri.

11. *Əli bəy Kazım ağa oğlu cəbrayıllıları* - 1 özü, bağban və rəncbər - 9 ailə.

12. *Nəbi ağa obası* - 1 tüstü, Məlik ağa 1 tüstü, 2 müsəlman və 2 qeyri-müsəlman ailəsi.

13. *Hafizli obası* - 4 tüstü vergi ödəyirdi.

14. *Əli ağa cəbrayıllıları* - 4 tüstü vergi ödəyirdi.

15. *Əbdürrəhman bəy cəbrayıllıları* - 46 tüstü vergi ödəyirdi.

16. *Abdulla bəy cəbrayıllıları* - 1 tüstü özü, 3 ailə.

17. *Əlipənah sultan Hüseyn bəy oğlu* - 1 tüstü.

18. *Şükürbəyli obası* - 20 tüstü vergi ödəyirdi. Vergi ödəməyənlər: kəndxuda 1 tüstü, rəncbər 5 tüstü, nökər 3 tüstü, dul 3 tüstü, kasıb 2 tüstü, molla 1 tüstü.

XVIII yüzilin ikinci yarısında ***Cəbrayıllı*** elinin el-oymaq başçıları: Nəbi kələntər Vəli ağa oğlu, Şeyxəli ağa Vəli ağa oğlu, Əhmədxan ağa Vəli ağa oğlu, Lütfəli ağa Fuğani ağa oğlu, Mehrəli bəy Fuğani ağa oğlu, Maqsud ağa Fuğani ağa oğlu, Rüstəm bəy Fuğani ağa oğlu, Camalxan bəy Hüseyn bəy oğlu, Mir Hüseyn əfəndi Mir Əli əfəndi oğlu, Məsuməli ağa Mahmud ağa oğlu, Kazım ağa, Hümbətəli bəy, Hacı Ağası bəy və başqaları.

XVIII yüzilin sonlarında və XIX yüzilin önlərində ***Cəbrayıllı*** elinin el-oymaq başçıları: Nəbi ağa Şeyxəli ağa oğlu, Şıxəli ağa Nəbi ağa oğlu, Məmmədxan ağa Əhmədxan ağa oğlu, Əhmədxan ağa Məmmədxan ağa oğlu, Hüseyn bəy Lütfəli ağaoğlu, Feyzulla bəy Mehrəli bəy oğlu, Hacı bəy Rüstəm bəy oğlu, Məlik ağa Hacı bəy oğlu, Heydər bəy Məlik ağa oğlu, Yaqub ağa, Fətəli bəy Yaqub ağa oğlu, Əli ağa Maqsud ağa oğlu, Səfərəli bəy Əli ağa oğlu, Fuğani ağa Maqsud ağa oğlu, Maqsud ağa Fuğani ağa oğlu, Cəfər ağa, Məstalı bəy Cəfər ağa oğlu, Hüseyn bəy Çamalxan bəy oğlu, Mir Əli əfəndi Mir Hüseyn əfəndi oğlu, Əhməd ağa Məsuməli ağa oğlu, Əli bəy Kazım ağa oğlu, Şükür bəy Hümbətəli bəy oğlu, Əbdürrəhman bəy Hacı Ağası oğlu, Əlipənah sultan Hüseyn bəy oğlu, Abdulla bəy Hüseyn bəy oğlu, Əli bəy Abdulla bəy oğlu, Əli bəy Hüseyn bəy oğlu, Yaqub sərkar Hacı yüzbaşı oğlu Çullu, Hüseyn bəy Əmir Yusif oğlu və başqaları.

XIX yüzilin ortalarmda ***Cəbrayıllı*** elinin oymaq və oba başçıları haqqında da qısa bir bilgi vermək yerinə düşər. Həmin dönəmdə Yarəhmədliyə Məhərrəm kətxuda Bəymurad oğlu, Hasanlıya Qəvliyalı kətxuda Yusif oğlu, Hacılıya Məmmədxan kətxuda Bəbirxan oğlu, Maşanlıya Əli kətxuda Vəli oğlu, Eyvatlıya İmamverdi kətxuda, Mirəkliyə Məmməd kətxuda Rəsul oğlu Çərəkənli, Veysəlliyə Bayramalı kətxuda Muradhasil oğlu, Mirzəcanlıya Niftalı kətxuda Seyidalı oğlu, Fuğanlıya Məhəmməd kətxuda, Mahmudluya Əli kətxuda Hümbətəli oğlu, Çərəkənliyə Məmməd kətxuda Rəsul oğlu, Məzrəliyə Əbdürrəhman kətxuda Rüstəm oğlu, Alıkovxalıya Rəhim kətxuda Qılıc oğlu, Hərəküllüyə İmamverdi kətxuda, Hafizliyə Mehdiqulu yüzbaşı Əziz oğlu, Çulluya Abdulla yüzbaşı Hacı yüzbaşı oğlu, Əhmədliyə Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu, Qurban yüzbaşı Məmməd ağa oğlu, Minbaşılıya (Feyzullabəyliyə) Həsənəli kətxuda Nağı oğlu, Məstalıbəyliyə (Cəfərağalıya) Səlimxan kətxuda Məmməd oğlu, Qovşutluya (Hüseynbəyliyə) Mirzə kətxuda Seyidəli oğlu, Şıxəliağalıya Qəhrəman kətxuda Əlicəfər oğlu, Əfəndilərə Mir Əli əfəndi Mir Hüseyn əfəndi oğlu, Əhmədağalıya Əmirmahmud ağa Məsuməli yüzbaşı oğlu, Alıbəyliyə (Kazımağalı-Kavdara) Musa kətxuda Allahverdi oğlu, Məlikliyə Məlik ağa Heydər bəy oğlu, Şükürbəyliyə Hüseyn kətxuda Bürcəli oğlu, Əbdürrəhmanlıya Hüseyn yüzbaşı Məmməd oğlu, Bukavulluya Əbdürrəhman kətxuda Rüstəm oğlu Məzrəli başçılıq edirdi...

XIX əsrdə mövcud olmuş ***Cəbrayıl*** elinin ***obaları:***

1. *Abdullabəyli obası;*
2. *Cəfərağalı (Məstalıbəyli) obası;*
3. *Əbdürrəhmanbəyli obası* (Əbdürrəhmanlı obası əsasən indiki Füzuli bölgəsindəki Qacar, Qızoğlu, Bayrambəy, Rəbənd torpaqlarında yaşamışdır. *Sarılar* tayfası onun bir qoludur);
4. *Əhmədağalı obası;*
5. *Əliağalı obası;*
6. *Əli əfəndi (Əfəndilər)* obası;
7. *Feyzullabəyli (Minbaşılı) obası;*
8. *Hüseynbəyli (Qovşutlu) obası;*
9. *Kazımağalı (Alıbəyli, Kavdar) obası;*
10. *Maqsudağalı obası;*
11. *Məlikağalı obası;*
12. *Şıxəliağalı obası;*

13. *Şükürbəyli obası.*

***Cəbrayıl elinin oymaqlarının ümumi sayı və adları*:**

1. Alıkovxalı oymağı;
2. Çərəkənli oymağı;
3. Çullu oymağı;
4. Eyvatlı oymağı;
5. Əhmədli oymağı;
6. Fuğanlı oymağı;
7. Hacılı oymağı;
8. Hafizli (*Havuslu*) oymağı;
9. Hasanlı oymağı;
10. Hərəküllü oymağı;
11. Mahmudlu oymağı;
12. Maşanlı oymağı;
13. Məzrəli oymağı;
14. Mirəkli oymağı;
15. Mirzəcanlı oymağı;
16. Şayıflı oymağı;
17. Veysəlli oymağı;
18. Yarəhmədli oymağı.

***Cəbrayıllı eli*** ümumilikdə Qarabağın tarixində hər zaman önəmli rol oynamışlar. XVIII - XIX əsrlərə aid olan mənbələrdə də ***Cəbrayıl*** elinin aşağıda adları çəkilən ***18 oymağı*** olduğu göstərilmişdir:

1. ***Yarəhmədli oymağı***; 2. ***Hasanlı oymağı***; 3. ***Hacılı oymağı***; 4. ***Maşanlı oymağı***; 5. ***Eyvatlı oymağı***; 6. ***Mirəkli oymağı***; 7. ***Veysəlli oymağı***; 8. ***Mirzəcanlı oymağı***; 9. ***Fuğanlı oymağı;*** 10. ***Mahmudlu oymağı***; 11. ***Çərəkənli oymağı;*** 12. ***Məzrəli oymağı***; 13. ***Alıkovxalı oymağı***; 14. ***Hərəküllü oymağı***; 15. ***Şayıflı oymağı;*** 16. ***Havuslu oymağı***; 17. ***Çullu oymağı;*** 18. ***Əhmədli oymağı.***

XVIII – XIX əsrlərə aid olan bir sıra mənbələrdə ***Cəbrayıl*** elinin obalarının aşağıdakı adları çəkilir:

1. ***Minbaşılı***; 2. ***Məstalıbəyli***; 3. ***Qovşudlu***; 4. ***Şıxəliağalı (Şıxalıağalı)***; 5. ***Əfəndilər;*** 6. ***Əhmədağalı***; 7. ***Əlibəyli***; 8. ***Məlikli***; 9. ***Şükürbəyli;*** 10. ***Əbdürrəhmanlı.***

Bu obaların əksəriyyəti haqqında bir sıra tarixi sənədlərdə geniş





məlumatlar öz əksini tapmışdır; bəzisi ***(Əhmədağalı, Əlibəyli, Məlikli, Əbdürrəhmanlı)*** haqqında isə məlumatların azlığını nəzərə alıb, onlarla bağlı qısa izah verməyi lazım bilirəm:

***Əhmədağalı obası*** *Cəbrayıl* elinin qollarından biridir. Oba təxminən XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış böyük nüfuz sahibi olan ***Əhməd*** ağanın adı ilə bağlıdır...

***Əlibəyli obası*** Cəbrayıl rayonunun Kavdar torpaqlarında məskunlaşdıqları üçün kənd də Kavdar adlanır...

***Məlikli obası*** da ***Cəbrayıllı*** elinin bir qoludur.

***Əbdürrəhmanlı obası*** tarixən indiki Füzuli rayonunun Qacar, Qızoğlu, Bayram bəy, Rəbənd və digər torpaqlarında yaşamışlar. *Sarılar tayfası* da onun bir qoludur...

***Əziz oxucu!*** Neçə vaxt idi ki, şeir yazmırdım. ***Cəbrayıl eli*** adlı bu yazıma burada nöqtə qoymaq istəyərkən nədənsə ürəyimdən belə misralar keçdi:

***Əziziyəm ağına,***
***Qarasına, ağına.***
***Yada düşsə Cəbrayıl,***
***Gəl Ziyarət dağına.***

***Mən aşıq qara baxdım,***
***Dağlarda qara baxdım.***
***Hanı Cəbrayıl eli?***
***Qaradır qara baxdım.***

***Əzizim qan ağlayır,***
***Qoca, cavan ağlayır.***
***Göz yaşlarım qurumur,***
***Qarabağ qan ağlayır.***

***Bağda duman ağlayır,***
***Ötmür, yaman ağlayır.***
***Hanı Cəbrayıl eli?***
***Ürəyim qan ağlayır.***

***Mən aşığam güləydim,***
***Ağlayaydım, güləydim.***
***Cəbrayıl ellərini***
***Yurdda görüb öləydim.***

***Əzizim hara gəldi,***
***Ürək zinhara gəldi.***
***Ellər didərgin düşdü, -***
***Taleyi qara gəldi.***

***Mən aşıq gül çağırır,***
***Bağda bülbül çağırır.***
***İmam bilər, eşidər,***
***Bizi Düldül çağırır.***

***Bu dərdin adı Cəbrayıl,***
***Ahı, fəryadı – Cəbrayıl.***
***Pərən-pərən düşən elin***
***Qoxusu, dadı – Cəbrayıl!..***

## CƏBRAYIL QƏZASI

*Cəbrayıl qəzası* ***1 iyul 1873-cü il*** tarixdə Yelizavetpol (*Gəncə*) quberniyasının tərkibində yaradılmışdır. ***Cəbrayıl qəzası*** Şuşa, Zəngəzur, Cavad qəzaları, cənubdan isə İranla həmsərhəd idi. Qəzanın mərkəzi ***Cəbrayıl*** yaşayış məntəqəsi olmuşdur. 1905-ci ildən ***Qaryagin qəzası*** (*"Kürəkçay"* müqaviləsinin ***100*** illiyi ilə əlaqədar olaraq *Qarabulaq* kəndinin adı çar fərmanı ilə dəyişdirilərək Rusiya-İran müharibəsinin fəal iştirakçısı, polkovnik ***Pavel Mixayloviç Qaryaginin*** (1761, *Poltava, Ukrayna* - 1807, *Azərbaycan*) adı ilə əvəz olundu. Qəza mərkəzi də ora köçürüldü) adlandırılmışdır.

Qəza idarəsinə qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi daxil idi. Hakimiyyət qəza rəisinin əlində cəmlənmişdir. Onu Yelizavetpol qubernatoru təyin edirdi. Qəza rəisləri adətən rus zabitlərindən olurdu. Qəzada Cəbrayıl, Horadiz, Bəhmənli (*sonralar Bartaz*) polis məntəqələri fəaliyyət göstərirdi. Yaşayış məntəqələrini qəza rəisinin təyin etdiyi kəndxudalar, yüzbaşılar, bəylər, polis məntəqələrini isə yenə də onun təyin etdiyi pristavlar idarə edirdilər. Qəzada yaradılmış məhkəmə qəzanın idarə olunmasında da iştirak edirdi.

3332 kvadrat kilometr sahəsi olan qəzanın (*bura Cəbrayıl rayonu ilə yanaşı Füzuli, Xocavənd, Beyləqan, Qubadlı və Zəngilan rayonlarının bəzi əraziləri də daxil idi*) əhalisinin sayı 1897-ci il statistikasına görə 66.360 nəfər olmuşdur. Təsərrüfatında maldarlıq, əkinçilik, baramaçılıq, bağçılıq, ipəkçilik və s. əsas yer tuturdu. Qəza ərazisində xalçaçılıq, pambıqçılıq və üzümçülük də inkişaf etmişdir. Ticarətlə yanaşı boyaqçılıq, dəmirçilik, çəkməçilik, dərzilik, nalbəndlik və s. sahələr də inkişafda idi.

Cəbrayıl qəzasında çarizmin müstəmləkəçilik siyasətinə, bəy və xanların zülmünə qarşı dəfələrlə kəndli çıxışları baş vermişdir. 1918-ci ilin dekabrında Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə ***Qaryagin qəzası*** adı dəyişdirilib, ***Cəbrayıl qəzası*** (əvvəlki *adı*), *Qaryagin* kəndinin adı isə ***Qarabulaq*** (əvvəlki *adı*) adlandırıldı. Qəza ərazisində 12 azərbaycanlı, 3 erməni icması (*inzibati ərazi vahidi kimi*) var idi. ***7 iyul 1923-cü il*** tarixdə **Dağlıq Qarabağ Muxtar Vilayəti** yarananda ***Bünyadlı, Vəng, Dolanlar, Zamzur, Edilli, Hadrut, Hərəkül*** və s. kəndlər **Cəbrayıl** qəzasından alınıb, DQMV tabeliyinə keçirildi. 1929-cu ildə ***Cəbrayıl qəzası*** ləğv edilmişdir.





Qəza vaxtilə (*orta* əsrlərdə) burada yaşamış ***Cəbrayıl Ata*** (*o, Alıpaşa dağının görümlü bir yerində dəfn olunmuşdur*) adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Cəbrayıl*** adını ***cəbrayıllı*** türk mənşəli tayfanın adı ilə də əlaqələndirirlər, Tarixi məlumatlara görə, *cəbrayıllı tayfası* son orta əsrlərdə müvafiq olaraq *Qaraqoyunlu* və *Ağqoyunlu, Qızılbaş* və *Şahsevən*, XVIII əsrdə isə *Əfşar* və *Cavanşir* tayfa ittifaqlarının tərkibinə daxil olmuşlar. Əlbəttə, bütün bunlar mövcud siyasi vəziyyətlə əlaqədar baş vermişdir...

## CƏBRAYIL RAYONU

Azərbaycanda *8 avqust 1930-cu il* tarixdə təşkil edilmiş inzibati rayon. Kiçik Qafqazın cənub-şərq ətəklərrində yerləşən ***Cəbrayıl rayonu*** cənub-qərbdən *Zəngilan*, qərbdən *Qubadlı*, şimaldan *Xocavənd*, şimal-şərqdən *Füzuli* rayonları, cənubdan və cənub-şərqdən İran İslam Respublikası ilə həmsərhəddir. Rayon yaranan zaman əhalisi 24.300 nəfər, ərazisi ***1050*** kvadrat kilometr idi. İşğal zamanı (*1993-cü ilin yayı*) rayonda 53 000 nəfər əhali olmuşdur. Hazırda rayonun əhalisi 70 000 nəfərdir. Mərkəzi ***Cəbrayıl*** şəhəridir. Rayonda ***1*** şəhər, ***4*** qəsəbə, ***91*** kənd vardır. **23 avqust 1993-cü il** tarixdə Yuxarı Qarabağ iqtisadi rayonuna daxil olan cənnətməkan **Cəbrayı rayonu** erməni qəsbkarları tərəfindən işğal edilmişdir. Cəbrayıl rayonunun ***1042*** kv. km ərazisi hazırda erməni işğalındadır.

Rayonu şərti olaraq Dağlıq, Arazboyu və Gəyən düzü bölgüləri ilə səciyyələndirmək olar. Rayon ərazisi qədimdə burada mövcud olmuş çarlığın, Midiya və Əhəmənilər dövlətlərinin (e.ə. VII - IV əsrlər), sonralar isə Albaniya dövlətlərinin tərkbində olmuşdur. Albaniya dövlətinin mövcudluğu zamanı Cəbrayıl rayonunun ərazisi *Pazkank*, Əhristan və *Dizaq mahalı* adları ilə həmin dövlətin tərkibində olmuşdur. III - V əsrlərdə Dizaq mahalı Sasanilər tərəfindən işğal olunmuşdur. Tarixdən məlumdur ki, xalq həyəcanından qorxan sasanilər nəhayət, Albaniyaya müstəqillik verirlər. VII əsrin ortalarında Cəbrayıl rayonunun ərazisi də Əməvilər xilafətinin tərkibinə qatıldı. Həm Babəkə qədər, həm onun dövründə, həm

də ondan sonra ərəb istilaçılarına qarşı mübarizənin dayaq məntəqələrindən biri də indiki ***Cəbrayıl rayonu*** ərazisi olmuşdur. X - XI əsrlərdə (971 - 1086-cı illər) bu ərazilər Şəddadilər dövlətinin, XIII - XIV əsrlərdə Hülakülər (*Elxanilər*) dövlətinin, XIV əsrin sonlarından (1387-ci ildən) Teymurilərin, XV əsrdən (1412-ci ildən) Qaraqoyunlu dövlətinin, həmin əsrin 1478-ci ilindən Ağqoyunlu dövlətinin, 1502-ci ilin əvvəlindən Səfəvilər dövlətinin, XVIII əsrin bütün ikinci yarısından və XIX əsrin əvvəllərində Qarabağ xanlığının, XIX əsrin 41-ci ilindən mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildən yenidən yaradılan Şuşa qəzasının, 1873-cü ildən isə Gəncə (*Yelizavetpol*) quberniyasının yeni inzibati ərazi sisteminə uyğun olaraq yeni yaranmış *Cəbrayıl qəzası* tərkibində (1905-ci ildən qəzanın adı dəyişdirilərək I Rusiya – İran müharibəsinin iştirakçısı, çar polkovniki P. Karyaginin şərəfinə *Karyagin (sənədlərdə bəzən **Qaryagin** də yazılır) qəzası* adlandırılmışdır) olmuşdur.

Qarabağ xanlığı (*1822-ci ildə ləğv olunub eyni adlı əyalətə çevrildi*) zamanında (*Xanlığın* ərazisi *22 mahaldan ibarət idi*) Cəbrayıl rayonunun əraziləri ***3*** mahalı əhatə edirdi:

***1)*** *Xırdapara-Dizaq*; ***2)*** *Dizaq-Cavanşir*; ***3)*** *Xudafərin* və ya Çovundur.

*Xırdapara-Dizaq* adlanan mahal Hadrut kəndindən Nüzgər və Şəybəy kəndlərinə qədər olan ərazini əhatə edirdi. *Xirdapara* sözü xırda kəndlər mənasında işlənib, əsasən Quycaq, Horovlu, Nüzyar, Safarşa, Çapand, Cəfərabad və Şəybəy kəndlərinin ümumi adı olmuşdur. *Dizaq-Cavanşir mahalı* Horadiz-Maralyan-Soltanlı kəndləri istiqamətində olan ərazinin ümumi adıdır. *Xudafərin* deyilən mahala Dağ Tumas-Sirik zonasından Diri dağa qədər ərazi, Çovundur (İranda Oxçu çayına indi də Çovundur çayı deyilir) mahalının tərkibinə isə Diri dağından Oxçu çayına qədər olan yerlər daxil idi.

1823-cü il siyahıyaalma (Rus çar üsul-idarələri vergi yığmaq məqsədi ilə siyahı tərtib etmişlər. Siyahıya alan senator Moqilevski, polkovnik Yermolov olmuşdur) sənədinə görə, ***17*** tirədən ibarət olan ***Cəbrayıllı*** tayfası təxminən 2200 nəfər (443 ev) təşkil etmişdir. Bu tayfanın başçısı Qarabağ xanı İbrahimxəlil xanın cəbrayıllı qızından olan nəvəsi Cəfərqulu ağa idi. Bu tayfanın Mahmud ağa, Lütfəli ağa kimi çox nüfuzlu, hörmətli ağsaqqalları olmuşdur. Qarabağ xanlığı zamanı *Cəbrayıllı* tayfasının böyük nüfuzu vardı. ***Cəbrayıllı*** tayfası Azərbaycandakı siyasi vəziyyətlə





əlaqədar olaraq XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu, XVI-XII əsrlərdə Qızılbaşlar və Şahsevənlər, XVIII əsrdə Əfşar, sonra isə Cavanşir tayfa ittifaqlarının tərkibində olmuşdur. Zaman keçdikcə, kəndlər böyüdükcə, *tayfa* sözü də *kənd* sözü ilə əvəzlənirdi. XIX əsrin 30-cu illərindən sonra yazılı mənbələrin heç birində ***Cəbrayıllı*** tayfasının adına rast gəlmirik...

Cəbrayıl rayonunun səthi, əsasən, maili düzənlik (İncəçöl, Gəyan çölü), şimalda Qarabağ silsiləsinin cənub-şərq ətəkləri olan alçaq dağlıqdır. Hündürlüyü Araz çayı sahilində təxminən 200 metr, şimalda 1000 metr və daha yüksəkdir. Dağlıq hissədə Tabaşir, düzənlik hissədə Neogen və qismən Antropogen çöküntüləri yayılmışdır. İqlimi cənubda yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl, şimalda yayı quraq keçən mülayim istidir. Orta temperatur yanvarda - 1 dərəcə *S*, iyulda 25 dərəcə *S*-dir. İllik yağıntı 400-500 mm-dir. Əsas çayları Araz hövzəsinə aid olan İncəçay və Çaxmaqçaydır. Rayonda dağ-şabalıdı, şabalıdı və qəhvəyi dağmeşə torpaqları yayılmışdır; yarımsəhra, dağ-kserofil bitki örtüyü üstünlük təşkil edir; 4 min hektara qədər meşə zonası var. Heyvanları: *canavar, tülkü* çölsiçanı, *süleysin* və s.

Cəbrayıl rayonunda əhalinin orta sıxlığı 1 kvadrat kilometrə təxminən 50 nəfər idi. Rayonun ən iri yaşayış məntəqələri *Cəbrayıl* şəhəri, *Böyük Mərcanlı kəndi* (4100 nəfər), *Yuxarı Mərcanlı kəndi* (4050 nəfər), *Soltanlı kəndi* (2600 nəfər), *Horovlu kəndi* (1800 nəfər), *Balyand kəndi* (1650 nəfər) idi.

Rayonun iqtisadiyyatında əsas sahəni taxılçılıq, üzümçülük və heyvandarlıq tuturdu. Baramaçılıq və quşçuluq da əhalinin məşğul olduğu sahələrdən idi. Rayonda tikiş, xalça və cihazqayırma sexləri, ümumiyyətlə, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi.

***Cəbrayıl rayonu*** tarixi memarlıq abidələri ilə zəngindir. Belə abidələrə nümunə olaraq Cəbrayıl şəhərindəki *Sultan Məcid hamamı*, Xudayarlı kəndindəki *Dairəvi türbə, Səkkizguşəli türbə* (XIX əsr), Şıxlar kəndindəki *Dairəvi türbə* (XIV əsr), *Xudafərin körpüləri* (erkən orta əsrlər), Diri dağındakı *Qız qalası*, Dağtumas kəndindəki *Başıkəsik kümbəz*, Gordubaba dağındakı *Məzar yeri*, "*Mədəd armudu*" adlanan tarixi yeri və onlarla başqalarını göstərə bilərik.

Rayonda 5 məscid, 127 tarixi memarlıq abidəsi, 159 mədəniyyət ocağı, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 23 daimi,

4 səyyar kinoqurğu, 78 kitabxana, 72 ümumtəhsil (*1650 nəfər müəllim*) məktəbi, 3 yeddiillik musiqi məktəbi, 8 xəstəxana (*93 həkim*), 11 həkim məntəqəsi, 52 feldşer-mama məntəqəsi, sanitariya-epidemioloji stansiya, vərəm dispanseri, çörək zavodu, rabitə şöbəsi, xalça emalatxanası, tarix-diyarşünaslıq və Cəmil Əhmədovun xatirə muzeyləri, 100-dən çox tarixi memarlıq abidələri, peşə məktəbi, 56 körpü, 8 sənaye və 44 kənd təsərrüfatı obyektləri, kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, üzüm emalı zavodu, müxtəlif ticarət, iaşə, məişət xidməti obyektləri və s. vardı.

Məlum ***Qarabağ müharibəsi*** zamanı ***4000*** nəfərdən çox ***cəbrayıllı*** silaha sarılaraq doğma vətən uğrunda erməni işğalçıları ilə mübarizəyə qalxdılar. Döyüş meydanlarında düşmənə layiqli dərs verən cəbrayıllılar erməni faşist qruplaşmalarına qarşı ləyaqətlə, hünərlə, qəhrəmanlıqla vuruşdular. **380** nəfər cəbrayıllı bu müharibədə şəhid oldu. ***Kazımlar, Şikarlar, Mətləblər, Vüqarlar, Vahidlər, Akiflər***, eləcə də ***Adillər, Azərlər, Baratlar, Elbruslar, Elmanlar, Elsevərlər, Elşənlər, Etibarlar, Faiqlər, Fuadlar, Hikmətlər, Hümbətlər, İlhamlar, İsgəndərlər, Qədirlər, Mehmanlar, Muradlar, Mübarizlər, Nazimlər, Pəhləvanlar, Pənahlar, Rafiqlər, Ramillər, Ramizlər, Rövşənlər, Rüfətlər, Sahiblər, Samirlər, Söhrablar, Şakirlər, Şəriflər, Təvəkküllər, Vidadilər, Yunislər, Yusiflər, Zahidlər, Zaurlar, Zeynallar*** və daha neçə-neçə *cəbrayıllı* qəhrəmanlıqları ilə bu müharibədə tarix yazdılar. ***"Mirələm"*** ləqəbli ***Sahib Quliyevin, "Tiqana"*** ləqəbli ***12*** yaşlı ***Samir Quliyevin,*** doğma kəndi Daş Veysəllini ***70*** yaşında belə tərk etməyib, ermənilərin cavabını verməyə çalışan ***Hüseyn Ataş oğlu Hüseynovun*** və daha neçə-neçə cəbrayıllının qəhrəmanlıqları müharibədə bütün döyüşçülərə nümunə oldu...

***Cəbrayıl*** rayonunun adı rayonun mərkəzi olan ***Cəbrayıl*** kəndinin (hazırda şəhər) adı ilə bağlıdır. ***Cəbrayıl*** rayonuna bir müddət ***Qıraxdın*** da demişlər. Nədənsə bəzi araşdırıcılar bu sözü ***karantin*** sözü ilə əlaqələndirmişlər. Məlumdur ki, XIX əsrin ikinci yarısında və XX əsrin 50-ci illərində Cəbrayıl kəndinə (şəhərinə) ***Qıraxdın*** da deyilmişdir. Bu da deyilənlərə görə, 1831-ci ildə Daşkəsən kəndində ***Karantin*** (***karantin*** – *"qırx gün"* deməkdir) idarəsinin yaranması və 1848-ci ildə həmin idarənin *Cəbrayıl* kəndinə köçməsi ilə əlaqədardır. Yerli əhali bu sözü ***Qıraxdın*** formasında tələffüz etmişlər...

***Cəbrayıl*** adının yaranması ilə əlaqədar müxtəlif fikir və mülahizələr





də mövcuddur. ***Cəbrayıl*** toponimi ilə bağlı başqa xalq versiyalarının həqiqətə nə dərəcədə yaxınlığı hələ də elmi şəkildə, tam dəqiqliklə araşdırılmadığı üçün onların üzərində dayanmaq elə bilirəm ki, artıqdır.

Bəzi məlumatlara görə, orta əsrlərdə yaşamış oğuz əsilli ***Cəbrayıl Ata*** əfşar tayfasının nüfuzlu şəxslərindən biri olmuş və hazırda qəbri ***Cəbrayıl Ata*** adı ilə pir kimi indi də məşhurdur. Tayfa başçısı kimi dövrünün sayılıb-seçilən, xeyirxah, nüfuzlu, müdrik, zəkalı oğlu olduğu üçün ona ***Ata*** deyilərdi. O, vəfat edəndə türk tayfalarının adət və ənənələrinə uyğun olaraq onu yüksək təpədə, Alıpaşa dağında dəfn etmiş və qəbrinin üzərində hündürlüyü 2 metr, uzunluğu 4,5 metr, eni 2,4 metr olan türbə (*məqbərə*) tikmişlər. Deyilənlərə görə, Cəbrayılın *Maşan, Mirzəcan, Şahvələd, Bünyad, Qurban, Alıkeyxa, Yarəhməd, Xubyar* və *Həsən* adlı oğlanları olmuşdur. Maraqlıdır ki, bu adlarla bağlı rayonda kəndlər və obalar vardır.

***Cəbrayıl*** adını ***cəbrayıllı*** türk mənşəli tayfanın adı ilə də əlaqələndirirlər. Tarixi məlumatlara görə, *cəbrayıllı tayfası* son orta əsrlərdə müvafiq olaraq *Qaraqoyunlu* və *Ağqoyunlu, Qızılbaş* və Şahsevən, XVIII əsrdə isə *Əfşar* və *Cavanşir* tayfa ittifaqlarının tərkibinə daxil olmuşlar. Əlbəttə, bütün bunlar mövcud siyasi vəziyyətlə əlaqədar baş vermişdir.

Rayonun adını hətta, İslamda və monoteist dinlərdə allaha ən yaxın mələk olan ***Cəbrayıl*** adı ilə də əlaqələndirənlər var. ***Cəbrayıl*** sözü ərəb dilində *"Allahın qulu"* mənasındadır...

## CƏBRAYIL ŞƏHƏRİ

***Cəbrayıl şəhəri*** Azərbaycanda, əvvəllər ***Cəbrayıl kəndi*** adlanan yaşayış məntəqəsinin yerində salınmış şəhərdir. 1950-1980-ci illərdə o, şəhər ***tipli qəsəbə*** olmuşdur. Qarabağ silsiləsinin ətəklərində yerləşən ***Cəbrayıl*** şəhəri Cəbrayıl inzibati rayonunun mərkəzidir. Bakıdan Cəbrayıl şəhərinə olan məsafə 325 kilometrdir. Şəhər Mahmudlu dəmir yolu stansiyasından 14 kilometr məsafədə yerləşir. Ermənilər tərəfindən işğal olunarkən ***Cəbrayıl*** şəhərinin əhalisi 9000 nəfər idi. Hazırda 10 000 nəfərdir.

Şəhərdə xalça emalatxanası, elektrik şəbəkəsi, tarix ölkəşünaslıq muzeyi, yeddiillik musiqi məktəbi, mərkəzi rayon və uşaq xəstəxanaları,

sanitariya epidemioloji stansiya, vərəm dispanseri, çörək zavodu, elektrik şəbəkəsi, 2 kütləvi kitabxana, 3 ümumtəhsil məktəbi, XVIII əsr tarixi abidəsi olan Sultanməcid hamamı, tikilmə tarixi dəqiq bilinməyən Sultan Allahverdi hamamı, mədəniyyət evi, kinoqurğu, müxtəlif ticarət, məişət, iaşə xidməti obyektləri, yaşı yüzillərlə ölçülən çinar ağacı və s. vardı.

***Cəbrayıl*** adının yaranması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. ***Cəbrayıl*** toponimi ilə əlaqədar xalq versiyalarının həqiqətə nə dərəcədə yaxınlığı hələ də elmi şəkildə, tam dəqiqliklə araşdırılmadığı üçün onların bəzilərinin üzərində dayanmaq elə bilirəm ki, artıqdır.

Bəzi mənbə və məlumatlara görə, toponim allahın ***Cəbrayıl*** adlı mələyinin adı ilə əlaqədardır. Rayonun adını islamda və monoteist dinlərdə allaha ən yaxın mələk olan ***Cəbrayıl*** adı ilə də əlaqələndirənlər var. Məlumdur ki, ***Cəbrayıl*** sözü ərəb dilində *"Allahın qulu"* mənasındadır.

Bir sıra məlumatlara görə isə, şəhər ***Cəbrayıl*** adlı şəxsin adı ilə əlaqədardır və *Cəbrayıl* şəhərinin (*kəndinin*) əsasını da o qoymuşdur. ***Cəbrayıl*** - deyilənə görə orta əsrlərdə yaşamış əfşar tayfasının nüfuzlu şəxslərindən biri olmuşdur. Hazırda qəbri ***Cəbrayıl Ata*** adı ilə pir kimi indi də məşhurdur. Tayfa başçısı kimi dövrünün sayılıb-seçilən, xeyirxah, nüfuzlu, müdrik, zəkalı oğlu olduğu üçün ona ***Ata*** deyilərdi. O, vəfat edəndə türk tayfalarının adət və ənənələrinə uyğun olaraq onu yüksək təpədə, Alıpaşa dağında dəfn etmiş və qəbrinin üzərində hündürlüyü 2 metr, uzunluğu 4,5 metr, eni 2,4 metr olan türbə (*məqbərə*) tikmişlər. Yerli məlumata görə, Cəbrayılın *Alıkeyxa, Yarəhməd,* Şahvələd, *Bünyad, Qurban, Maşan, Mirzəcan, Xubyar* və *Hasan* adlı oğlanları olmuşdur. Rayonda bu adlarla bağlı kəndlər və obalar mövcuddur.

***Cəbrayıl*** adını ***cəbrayıllı*** türk mənşəli tayfanın adı ilə də əlaqələndirirlər, Tarixi məlumatlara görə, *cəbrayıllı tayfası* son orta əsrlərdə müvafiq olaraq *Qaraqoyunlu* və *Ağqoyunlu, qızılbaş* və Şahsevən, XVIII əsrdə isə Əfşar və *Cavanşir* tayfa ittifaqlarının tərkibinə daxil olmuşlar. Əlbəttə, bütün bunlar mövcud siyasi vəziyyətlə əlaqədar baş vermişdir.

Cəbrayılın adı əvvəllər ***Qıraxdın*** da olmuşdur. Nədənsə bəzi araşdırıcılar bu sözü ***karantin*** sözü ilə əlaqələndirmişlər. Məlumdur ki, XIX əsrin ikinci yarısında və XX əsrin 50-ci illərində Cəbrayıl kəndinə (şəhərinə) ***Qıraxdın*** da deyilmişdir. Bu da deyilənlərə görə, 1831-ci ildə Daşkəsən kəndində ***Karantin*** (***karantin*** - *"qırx gün"* deməkdir) idarəsinin





yaranması və 1848-ci ildə həmin idarənin *Cəbrayıl* kəndinə köçürülməsi ilə əlaqədardır. Yerli əhali ***Karantin*** sözünü ***Qıraxdın*** formasında tələffüz etmişlər.

1872-cı il məlumatına görə, Cəbrayılda 296 nəfər əhali olmuşdur. 1892-ci ildə Cəfərqulu ağanın nəvəsi Mirzə Hüseyn ağa Cavanşir ***Cəbrayıl*** nahiyəsinin müvəkkili təyin olmuşdur. O, Şahvələdli kəndinin cənub tərəfindən kəhriz vurdurub suyunu saxsı borularla Cəbrayıla gətirmişdir. *5 avqust 1876-cı il* tarixdə Cəbrayılda bir sinifli normal rus məktəbi açılmışdır (*8 il sonra bu məktəb ikisinifli məktəbə* çevrildi). XIX əsrin 90-cı illərində qəza müəllimlərinin qurultayı həmin məktəbdə keçirilmişdir. 1912-ci ildə Cəbrayılda qız məktəbi də açılmışdır...

***23 avqust 1993-cü il*** tarixdə **Cəbrayıl şəhəri** erməni quldurları tərəfindən işğal olunmuşdur.

## CƏBRAYILDAĞ QAŞI

***Cəbrayıldağ qaşı*** oronimi rayonun Aşağı Məzrə kəndində qeydə alınmışdır. ***Qaş*** coğrafi termini *"dağın, qayanın, təpənin irəliyə* çıxmış *qabaq tərəfi", "dağın alçaq silsiləsini yuxarı hissə ilə birləşdirən zolaq", "dağın irəliyə çıxmış hissəsi", "dağ haçaları olmayan silsilə yalı"* və s. mənalarda işlədilir. ***Qaş*** termini ilə əlaqədar Azərbaycanda çöl materialları içərisində ***140*** oronim qeydə alınmışdır...

## CƏFƏRABAD KƏNDİ

***Cəfərabad kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 22 kilometr cənub-şərqdə, Karxulu inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 150 nəfərdir. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi və s. vardı, XVIII əsrin sonlarında ailəsi ilə Kirmanşah mahalından Qarabağa gələn şair Mücrüm Kərim bu kənddə yaşamışdır. Onun qəbri Horovlu kəndi yaxınlığındakı Şıx kəhrizi qəbiristanlığındadır. ***Cəfərabad kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Cəfərabad*** yaşayış məntəqəsini Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi, Məhəmmədhəsən ağanın oğlu, general-mayor ***Cəfərqulu xana*** (1783-1864) məxsus olan ailələr burada saldıqları üçün kənd onun adı ilə əlaqədar olaraq belə adlanmışdır. XVIII əsr sənədinə görə ***Cəfərabad kəndi*** Xırdapara Dizaq mahalı tərkibində olmuşdur. Yerli məlumata əsasən Cəfərqulu xan Nəva bu torpaqları aşıq Mücrüm Kərimə bağışlamışdır. O da buradakı kəndi ***Cəfərqulu*** xanın adı ilə adlandırmışdır. Bəzi ziyalılar bu faktı inkar etməkdə israrlıdırlar. Onlar kəndin yaranmasını ***Cəfər*** adlı başqa bir şəxsin adı ilə bağlayırlar. Yerli məlumata görə kənd XVIII əsrdən əvvəl yaranmışdır.

Toponim ***Cəfər*** şəxs adından və ***abad*** (*"kənd"*) sözlərindən ibarətdir. İrəvan əyalətinin Zəngibasar və Sərdarabad mahallarında da vaxtilə *Cəfərabad kəndi* olmuşdur. XX əsrin ortalarında (*1946-cı ildə*) ermənilər azərbaycanlı əhalini bu kəndlərdən qovduqdan sonra həmin yaşayış məntəqələrinin adını dəyişdirərək ***Arqavand*** və ***Qetaşen*** qoymuşlar...

Şəki rayonunda ***Cəfərabad kəndi*** və İranın cənub-qərbində, Suzdan 7 km şimalda son Neolitdən Eneolitə keçid dövründə (*e.ə.V minillik - e.ə.IV minilliyin ortaları*) ***Cəfərabad*** adlı qədim yaşayış yeri də vardır.

## CIDIR DÜZÜ

Horovlu kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Cıdır düzü*** adlanır. ***Cıdır*** sözü *"at yarışı"*, *"minik atlarının yarışı keçirilən yer"* deməkdir. Azərbaycanda cıdırın qədim tarixi var. ***Cıdır düzü*** toponimi *"at çapılan düzənlik"*, *"at yarışı keçirilən düz"* mənasındadır. Vaxtilə burada at çapmaq yarışları keçirildiyi üçün oronim belə adlandırılmışdır.

Toponimin tərkibindəki ***düz*** coğrafi termini mənfi relyef forması bildirib, *"düzəngahlıq"* mənasını ifadə edir. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***düz*** termini iştirak edən ***11 000*** toponim qeydə alınmışdır.





## CILLIR YATAQ

***Cıllır yataq*** oronimi Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ərazisində qeydə alınmışdır. Çöl materialları əsasında ***yataq*** termini ilə əlaqədar Azərbaycanda ***400***-ə yaxın oronim toplanmışdır. Maldar ellərinin qışlaq yerlərində müvəqqəti yaşayış yeri yanında təsərrüfat tikintisi adına ***yataq*** deyirlər. Otarılan qoyunlar qışlaqda gecələr açıq havada öz kərməsində qalırdı. Adətən soyuq günlərdə gecələr qoyunlar yatağa salınardı. Hər bir ***yataq*** təxminən ***50*** qoyun üçün nəzərdə tutulurdu. Cəbrayıl rayonu ərazisində ***30***-a qədər ***yataq*** qeydə alınıb: *Abaslı yatağı, Ağdam yatağı, Baş yataq, Qazax yatağı, Kərməli yataq, Köçəri yatağı, Küfül yataq, Pambıqlı yataq, Genyataq, Güloğlan yatağı, Kökəltmə yatağı, Keçəlməmmədli yatağı, Kavdar yatağı, Məzrə yatağı, Mərcanlı yatağı, Qumlaq yatağı, Dağ Tumas yatağı, Əmirvarlı yatağı, Xələfli yatağı, Pars yatağı, Peyinli yataq, Sarı yataq, Tatar yatağı, Çayyataq,* ***Cıllır yataq***...

***Cıllır*** sözünün elmi izahı hələlik tam dəqiqliklə aydınlaşdırılmayıbdır. Qədim türk runi yazılarında ***çıl/çil*** komponenti *"qala divarı"*, *"yazılı mehrab"* mənasını kəsb edir. Bu sözün *"xırda kolluq"*, farsca isə *"bataqlıq, sucaq yer"* anlamları da vardır.

## CIR DEMİLƏR

***Cır demilər*** Dağ Tumas kəndinin ərazisində, Gədə yolunun üstündə yerləşir. Onun ərazisi sovxozun maşın traktor parkından Başıkəsik günbəzə qədər uzanır. Ərazisi susuz olduğuna görə orada əkilmiş ağac və kollar az məhsul verirdi. ***Cır demilər*** az bar verdiyindən və verdiyi bar da əsasən ***cır*** meyvələrdən ibarət olduğundan belə ad almışdır. ***Cır*** sözü *"insan əli ilə deyil, təbii şəraitdə, öz-özünə bitən"* anlamını ifadə edir. Gədə yolunun əks üzündə ondan ***böyük*** əraziyə malik olan ***Böyük demilər*** oroqrafik obyekti də qeydə alınmışdır.

## CİN DƏRƏSİ

Havuslu kəndinin yaxınlığında qeydə alınan maraqlı oronimlərdən biri ***Cin dərəsi*** adlanır. Oronim ***cin*** sözündən, ***dərə*** mənfi relyef forması ifadə edən coğrafi termindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Cin dərəsi*** toponimi *"cin olan dərə"* anlamını daşıyır. Guya insanlar tez-tez bu dərədə ***cin*** - *gözəgörünməz mövhumi* məxluqat görürmüşlər. Nağıllara və bəzi inanclara görə, ***cin*** gözlə görünməyən mövhumi bir varlıqdır. Görünür elə bu səbəbdən də toponim belə ad almışdır.

Xalq arasında danışılan əfsanələrdə gözəgörünməz olan, xalq inamına görə ***cin*** adlandırılan bir məxluq mövcuddur. ***Cin*** komponenti Azərbaycan mifologiyasının tərkib hissələrindən biridir. Guya o, gözəgörünməz, insanabənzər bir mövhumi varlıqdır. Adam tək olanda, onu təhlükə gözləyən bir anda, qorxanda və s. zamanlarda guya ***cinlər***, şeytanlar qəflətən peyda olurlar. Xalq inancına görə ***cin*** və ya əcinnə gözəgörünməz məxluq hesab olunur. Guya onlara toxunduqda və ya ziyan verdikdə insanı ağır zərbə ilə vurur. Azərbaycanlılarda *"elə bil cin başıma vurdu"* ifadəsi də var. Qədim türk dillərində ***cin*** sözünün *"qüvvətli", "qüdrətli", "hündür zirvə", "sıldırım dağ yarğanı"* və s. anlamları da var. Bəzi türkdilli xalqlarda, o cümlədən Azərbaycan türklərində cinlərin dişisinə ***hal*** da deyirlər. Folklor nümunələrimizdə göstərilir ki, *cinlərin* və *hal* anasının ən çox qorxduğu əşya iynədir.

Tarixdən məlumdur ki, qədim türkdilli *peçeneq* tayfasının *kəngərli* tirəsinin ***cin (cinlər) qəbiləsi*** adlı bir qolu da vardır. Bəzi tarixi sənəd və materiallarda ***cin*** tayfasının adı ***cen*** şəklində də yazılmışdır. VII əsrə aid olam mənbələrdə ***cin (cen)*** tayfasının adı bolqarlarla birlikdə çəkilir. ***Cinli*** tayfasını çinlilərlə də əlaqələndirənlər var. K.Patkanov cinləri Volqa sahillərindən köçən türklər hesab edir...

V əsrdə xristianlığı qəbul etmiş ***cinli tayfası*** həm də Qərbi Azərbaycanda (Ermənistanda) yaşamışlar. III əsrdən ta 745-ci ilə qədər bütün erməni qoşun başçıları əsasən cinlilərdən olmuşlar. Onların türkdilli olmaları inkarolunmazdır. Bəzi mənbələrdə göstərilir ki, onlar Çin Türküstanından köçüb bura gəlmişlər. Zaqafqaziya ərazisində ***cinli tayfası*** adı ilə bağlı çoxlu sayda toponimlər qeydə alınmışdır. Erkən orta əsrlərdə ***cinlilər*** əsasən Kür çayı sahillərində yaşamışlar. Sonrakı əsrlərdə də onların indiki Borçalı ərazilərində kompakt yaşamaları göstərilir. XIII əsrə aid olan bir mənbə ***cin*** tayfasının III yüzillikdə Daryal qapılarından Gürcüstana gələrək Orbet qalasında məskunlaşmasını xəbər verir. Həmin tarixi mənbəyə görə *Orbeliani* soyadı da bu tayfa ilə bağlıdır. Əvvəllər ***cinlilər*** adlanan bu tayfa hazırda ***Orbeliani*** adlandırılır.





***Cin*** komponenti ilə bağlı Azərbaycanda çoxlu toponimlər vardır. Onlara nümunə olaraq ***Cindağ dağı*** (Ordubad rayonu), ***Cindar kəndi*** (Quba rayonu), ***Cinqobu*** (Füzuli rayonu), ***Cinli kəndi, Cinlik kəndi*** (Ağdam rayonu), ***Cinli Boluslu kəndi, Cinli Zeynallı kəndi, Cinlidağ*** (Goranboy rayonu), ***Cincar çayı*** (Zaqatala rayonu), ***Cincartala*** (Balakən rayonu) və digərlərini misal göstərmək olar.

## CİNGİR NƏNƏ (*CİNGİR BULAQ*) PİRİ

Rayonun Keyxalı və Niyazqulular kəndləri arasında, yol üstündə, Qarquluqlu dərədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Cıngir nənə piri*** adlanır. Bəzən oronimin adına ***Cingir bulaq piri*** də deyirlər. ***Cingir bulaq*** 2 lağımı olan bulaqdan ibarətdir. Sonu gözlı görünməyən bu lağımların ətrafı yosunlarla örtülüdür. Yosunlardan su damcılayır və bunun müqabilində ətrafda cingiltili səsdən uğultu yaranır. Daşları sarı rəngə boyanıqlıdır. Çox güman ki, bu, suyun tərkibində olan kükürd ilə bağlıdır. Bulağın suyu şəfalı olduğu üçün dəri xəstəliyi olan insanlar niyyət edib üç çərşənbə burada suya girər və şəfa tapardılar. Yerli camaat bu *bulağı* müqəddəs hesab edirdilər. ***Cingir bulaq piri*** haqqında müxtəlif əfsanə və rəvayətlər vardır.

Toponimin tərkibindəki ***cıngir*** sözü qədim ***Cingir*** teonimi ilə bağlıdır. ***Dinqir*** (***Cinqir, Cingir***) toponimi Al, Qaşqa, Kuər teonimləri kimi Azər boyları ilə bağlı olub, qədim Ön Asiya mənbələrində də əks olunmuşdur. ***Cingir*** sözü qədim şumer dilində ***Dinqir*** formasındadır. ***Bulaq*** termini hidronimik apelyativdir. Rayon ərazisində bu qəbildən, buna oxşar olan ***Cinqir bulaq*** adlı hidronim də qeydə alınmışdır.

***Pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan *ocaqlar*, ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəş-

pərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını hələ də itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Ocaq*** və ya ***pir*** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Cinqir bulaq.**

## CİNQİR BULAQ

Cəbrayıl rayonunun Şahvəlili kəndi ərazisində qeydə alınmış hidronimlərdən biri ***Cinqir bulaq*** adlanır. *Cinqir* sözü bəzən ***Cingir*** formasında da yazılır. ***Cinqir*** bulağının suyu bir sıra xəstəliklərə qarşı müalicəvi əhəmiyyətli dərman hesab olunurdu. ***Cinqir-bulaq*** hidronimi öz adında qədim ***Dinqir (Cingir)*** teonimini indiyə kimi yaşatmaqdadır. Bu söz qədim şumer dilində də ***Dinqir*** şəklində işlənmişdir.

***Cinqir*** bulaq toponiminin tərkibindəki ***cınqir*** sözü qədim ***Cinqir*** teonimi ilə bağlıdır. ***Dinqir*** (***Cinqir***) toponimi Al, Qaşqa, Kuər teonimləri kimi Azər boyları ilə bağlı olub, qədim Ön Asiya mənbələrində də əks olunmuşdur. ***Cinqir*** sözü qədim şumer dilində ***Dinqir*** formasındadır. ***Bulaq*** termini hidronimik apelyativdir.

Rayon ərazisində bu tipli ***Cingir nənə (Cingir bulaq) piri*** adlı toponim də qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Cingir nənə (Cingir bulaq) piri.**





# "Ç"

## ÇAHARLI DAĞI

***Çaharlı dağı*** adına bəzi mənbələrdə və sənədlərdə ***Çaqarlı dağı*** formasında da rast gəlmək mümkündür. Bu etnonimik oronim vaxtilə Cənub-Şərqi Avropada yaşamış (*sonralar onlar müxtəlif* ərazilərə *səpələnmişlər*) qədim türkdilli bolqarların ***çakar*** tayfasının adını özündə əks etdirir. Oykonimiyamızda çaxırlı sözləri ***çakar (çaqar, çahar)*** toponimi ilə bağlıdır. Onlar arasında müəyyən zaman çərçivəsində cüzi fonetik dəyişikliklər də olmuşdur. ***Çakar//çahar*** - qədim türk tayfasının adıdır.

Cəbrayıl, İmişli, Göyçay, Masallı rayonlarındakı ***Çaxırlı*** kəndləri, Masallı rayonundakı *Çaxırlı təpəsi*, İmişli rayonundakı ***Çaxırlı*** *qobusu*, ***Çahar*** *kəndi* və s. oroqrafik obyekt adları, oykonimlər ***çahar (çaqar, çakar)*** tayfasının adını daşıyır.

***Çaharlar*** sözü monqol dilində "*xidmətçi, qoruyucu, xanın xidmətçiləri*" mənalarında işlədilir. "*Dörd*" mənası verən ***çahar*** sözü (fars dilində) də məlumdur; ***çah*** sözünün farsca "*quyu*, çənə çuxuru *və zənəxdan*" mənaları da var. D.D.Pagiryev XIX əsrin ikinci yarısında Şuşa qəzasında ***Çaharlı (Çağarlı) dağı*** adlı oroqrafik obyekt adını da qeyd etmişdir...

## ÇAXIRLI KƏNDİ

***Çaxırlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 31 kilometr cənub-şərqdə, Mehdili inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 670 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta məktəb, klub, ktabxana, tibb məntəqəsi və s. vardı. ***Çaxırlı*** kəndinin ərazisində *Aşır xəndəyi, Behdelmal düzü, Beşqanad yeri, Boğaz yer, Cavad arxı, Cəfərli yeri, Xalı, Qamışlıq, Qobu, Qolqa, Müseyib yeri, Niftalılar məhləsi, Novlu yer, Palıdlıq, Sarı yer, Soltanqulu ocağı, Şahverən bağı, Şahverənli yeri, Şamlıq, Şiyavılıq* və s. coğrafi adlar qeydə alınışdır. Kənddə şahverənli, cəfərli, niftalılar, xələfli

və s. adlı tayfa və tirələr vardır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Çaxırlı*** yaşayış məntəqəsi ***çaxırlı//çakərlu*** oğuz-türk tayfasının adı ilə bağlıdır. Çaxırlı oykonimi qazax tayfa ittifaqına daxil olan ***57*** ailədən ibarət çaxır (çakar, çakər) tirəsinin adı ilə əlaqədardır. Çaxır tirəsi əslində qədim bulqar tayfa birliyinə daxil idi. Çaxırlı adının tərkibindəki -lı şəkilçisi *"aidlik, mənsubluq"* ifadə edir. Bəzi mənbələrdə adı ***çakarlı, çakərlu, çakirli, çaxirli, çaqirli*** kimi də qeyd olunmuşdur. Çəkərlilər ***(çakar-çakır-çaxır-çaxırlı)*** eramızın əvvəllərində Şimali Qafqazda yaşamış qədim türkdilli, türkmənşəli bolqarların (*bulqarların*) ***çakar*** tayfasından təşəkkül tapmışlar. Bu tayfanın müəyyən hissəsi erkən orta əsrlərdə Azərbaycana gələrək burada məskunlaşmışdır. Qaraqoyunluların ***Çəkurlu*** tayfası da məlumdur. R.Yüzbaşov, K.Əliyev, Ş.Sədiyev *"Azərbaycanın coğrafi adları"* adlı kitabda yazırlar ki, ***çaxırlılar*** XVI əsrin axırlarında Anadoludan Azərbaycana köçmüş səlcuq türklərinə mənsub olan nəsil adıdır. A.Bakıxanov *"Gülüstani-İrəm"* əsərində yazır ki, Şirvanda ***Çəkərli*** adlı tayfa yaşamışdır. XVIII əsrə aid tarixi sənədə görə, ***Çaxırlı kəndi*** Xırdapara Dizaq mahalı tərkibində mövcud olmuşdur.

İmişli, Göyçay, Masallı rayonlarında da ***Çaxırlı kəndi*** var. İranda, o cümlədən, Cənubi Azərbaycanda da çaxırlı türk mənşəli etnonimi ilə bağlı yaranmış toponimlər mövcuddur. ***Çaxırlı kəndi*** (keçmişdə ***Qızılbulaq*** da adlanıb, 1978-ci ildə ermənilər Çaxırlı kəndinin adını dəyişib ***Sovetakert*** qoymuşlar) İrəvan quberniyasının Novobayazid qəzasında da olmuşdur...

***Çaxırlı*** oykonimini ***çaxır*** (şərab) ilə əlaqələndirmək yanlışdır. Bir məlumata görə, buraya əvvəlcə *dörd* ailə köçmüş və uzun müddət artmayıb dördlükdə qaldıqları üçün ətraf yerlərin əhalisi oranı Çaharlı adlandırmışdır (***Çahar*** farsca *"dörd"* deməkdir). Sonralar kənddə əhali artmış, onun adı isə getdikcə yerli şivədə el dilinə uyğun olaraq ***Çaxırlı*** formasında tələffüz olunmuşdur...

## ÇAXIRLI YOLU

Nüzgər kəndinin yaxınlığında, kənddən 3 kilometr məsafədə, Çaxırlı kəndi istiqamətində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxırlı***





***yolu*** adlanır. ***Çaxırlı yolu*** toponimi *"Çaxırlı kəndinə gedən yol"* mənasındadır.

Əlavə məlumat üçün bax: **Çaxırlı kəndi.**

## ÇAXMAQ ÇAYLAĞI

Rayon ərazisində, Alıkeyxalı kəndinin yaxınlığında, dağətəyi sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaq çaylağı*** adlanır. Buradakı hidronim ***Çaxmaqçay*** adını almışdır. Mürəkkəb quruluşa malik olan ***Çaxmaq çaylağı*** toponimi ***çaxmaq*** və ***çaylaq*** sözlərindən ibarətdir. Çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhəyə ***çaxmaq*** deyirlər. Məlumdur ki, hələ kibrit meydana çıxmazdan çox əvvəl uzun müddət çaxmaqdan istifadə edilmişdir. Qədimdə iki çaxmaq daşını bir-birinə sürtüb, onları keçi yağına batırılmış pambığa yaxınlaşdırarmışlar və bununla da od əldə edərmişlər. Hazırda ***Çaxmaq çaylağı*** ərazisində daşın bu növünə çox rast gəlmək olur.

Azərbaycan Respublikasının ərazisində tərkibində ***çaxmaq*** (*"odlu silahlarda zərb mexanizminin hissəsi, yay", "od almaq üçün işlədilən qov",* "çaxmaqdaşına vurub qığılcım çıxararaq qovu yandıran çox bərk daş, dəmir parçası") komponenti olan xeyli toponimlər qeydə alınmışdır. XIX əsrdə Qafqazda ***çaxmaq*** komponentli çoxlu toponimlər var idi. Vaxtilə Qars əyalətinin Qars dairəsində (*indiki Amasiya rayonu*) ***Çaxmaq*** adlı kənd olmuşdur. Xaçmaz rayonunda ***Çaxmaqlı kəndi***, Şuşa rayonu ərazisində ***Çaxmaq zirvəsi***, Cəbrayıl rayonu ərazisində ***Çaxmaq dərəsi***, eləcə də Arazın sol qolu olan ***Çaxmaqçay***, onun sahili boyu uzanan Çaxmaqçöl, Ordubad rayonu ərazisindəki ***Çaxmaqlıdağ*** və s. bu kimi toponimlər çaxmaq termini ilə əlaqədar yaranmışdır.

Bəzi araşdırıcılar Cəbrayıl rayonu ərazisində qeydə alınan bu toponimləri şahsevənlərin ***çaxmaqlı*** tayfasının adı ilə bağlayırlar. Onlar bu fikrə əsaslanırlar ki, Fətəli xan Ərdəbilə hərbi səfər edən zaman onun bura köçürdüyü əhali ərazidən axan çaya bu adı vermişlər.

***Çaylaq*** sözü dilimizdə *"müvəqqəti axarlı çay yatağı"* mənasındadır. Azərbaycan ərazisində ***çaylaq*** komponentinin iştirakı ilə xeyli toponim qeydə alınmışdır. Onlara nümunə olaraq ***Çaylaqçay*** (Cəbrayıl rayonu),

***Çaylaq*** (Füzuli rayonu), ***Çaylaq çayı***, Çaylaqqaya kəndi (Xocavənd rayonu), ***Çaylaq çayı*** (İsmayıllı rayonu), ***Çaylaqlı çayı*** (Göyçay rayonu) və başqalarını göstərmək olar.

## ÇAXMAQ DƏRƏSİ

Qalacıq və Şahvəlili kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Çaxmaq dərəsi*** adlanır. Toponim ***çaxmaq*** və ***dərə*** sözlərindən, eləcə də ***-si*** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. ***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. ***Dərə*** termini ilə əlaqədar respublikamız ərazisində çöl materialları içərisində ***30 000*** coğrafi ad toplanmışdır. ***Çaxmaq dərəsi*** yaxınlığında vaxtilə ***Çaxmaq*** adlı karxana da mövcud olmuşdur. Çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhəyə çaxmaq deyirlər. Keçmişdə çaxmaqdaşına vurub qığılcım çıxararaq qovu yandıran çox bərk daş, yaxud polad parçası ***çaxmaq*** adlanırdı. Kibritin meydana çıxmasından xeyli əvvəl uzun müddət çaxmaqdan istifadə edilmişdir. Azərbaycan Respublikasının ərazisində ***çaxmaq*** komponentli çoxlu sayda toponimlər qeydə alınmışdır.

## ÇAXMAQÇAY, ÇAXMAQDƏRƏ, ÇAXMAQTƏPƏ

Rayonun Alıkeyxalı kəndinin yaxınlığından axan bu çayın adını yerli camaat ***Quruyançay*** şəklində də işlədir. Doğrudan da bu çay çox zaman susuz olur. ***Quruyançay (Çaxmaq çayı)*** əsasən yağış suları ilə qidalanır. Adətən yaz fəslində çox sulu olur. Cəbrayıl rayonu ərazisində axan ***Çaxmaqçay*** içməli su mənbəyi hesab olunur. Çay axınında dəvəgözü (*obsidan*) da gətirir. Araz çayının sol qolu olan ***Çaxmaqçay*** çayının digər adı mənbələrdə ***Quruçay*** kimi də qeyd olunur. Hidronim Cəbrayıl rayonundakı Şahvəlili kəndinin şərqindəki ***Çaxmaqdərə*** adlanan dərədən axdığına görə belə adlandırılmışdır.

***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. ***Dərənin*** adı isə orada çoxlu çaxmaq daşlarının olması ilə əlaqədardır. Yaxınlıqda ***Caxmaq*** adlı karxana da vardı. Cəbrayıl rayonu ərazisində, Havuslu kəndinin cənub-şərqində, Ceyran düzünün qurtaracağında ***Çaxmaqtəpə*** oronimi də qeydə alınmışdır. ***Təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir.

***Çaxmaq*** - çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhəyə deyirlər. Kibrit meydana çıxmazdan əvvəl uzun müddət çaxmaqdan istifadə edilmişdir.

XIX əsrdə Qafqazda ***çaxmaq*** komponentli çoxlu toponimlər var idi. Vaxtilə Qars əyalətinin Qars dairəsində (*indiki Amasiya rayonu*) da Çaxmaq adlı kənd olmuşdur.

Əlavə məlumat üçün bax: **Çaxmaq dərəsi, Çaxmaqçöl.**

## ÇAXMAQÇÖL

Cəbrayıl rayonu ərazisində, Araz çayının sol sahilində yerləşən çöl, düzənlik. ***Çaxmaqçöl*** toponimi ***çaxmaq*** və ***çöl*** sözlərindən ibarətdir. ***Çaxmaq*** - çaxmaqdaşına sürtməklə od almaq üçün dəmir və ya polad lövhədir...

***Çöl*** - quraqlığa və şaxtaya davamlı çoxillik otlardan ibarət bitki örtüyü tipidir. Çöl mənfi relyef forması bildirən coğrafi termini quru iqlimə uyğunlaşmış ot bitkiləri ilə örtülü *"meşəsiz sahə, geniş düzənlik, səhra, bozqır, susuz düzənlik"* mənasındadır.

***Çaxmaqlı*** adlı türk tayfası da vardır. Qubalı Fətəli xan dövründə (*1758-1789-cu illər*) tayfa başçısı şahsevən Məhəmməd xanın tabeliyində Ərdəbil ətrafından Quba xanlığına köçüb Müşkür və Şabran mahallarında məskunlaşmış ***8*** şahsevən tayfası arasında ***çaxmaqlılar*** da var idi...

Əlavə məlumat üçün bax: **Çaxmaqçay, Çaxmaqdərə, Çaxmaqtəpə.**

## ÇAPALAN DAĞI

Cəbrayıl rayonunun ərazisində, Qışlaq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Çapalan dağı*** adlanır. Oronim ***Çapalan*** və ***dağ*** sözlərindən ibarətdir. Məlumdur ki, qədim türk sözü olan çap termini *"yamac"*, *"yarğan"*, *"sıldırım"*, *"yüksəklik"*, "yoxuş" və başqa mənalarda işlənir. ***Dağ*** müsbət relyef forması bildirən coğrafi termindir.

Azərbaycan Respublikasının ərazisində ***çap*** termini ilə əlaqədar ya-

ranmış oronimlərə *Çapaqzağa, Çaparlı ayrıcı* (Gədəbəy rayonu), *Çaptəpə* (Lerik rayonu), *Çapdərə* (Zəngilan, Culfa, Ordubad rayonları), *Çapaqdağ* (Şərur rayonu) və başqalarını nümunə göstərmək olar...

## ÇAPAND ARXI

Cəbrayıl rayonunun ərazisində, Çapand kəndinin yaxınlığında qeydə alınmış hidronimlərdən biri ***Çapand*** arxı adlanır. Toponim ***Çapand*** və ***arx*** sözlərindən ibarət olub, *"Çapand kəndinin yaxınlığındakı arx"* mənasındadır. Bu tipli toponimlərə Cəbrayıl rayonunun digər kəndlərinin ərazilərində də rast gəlirik. Onlara nümunə olaraq **Xələfli arxı, Kavdar arxı, Kürdlər arxı, Qumlaq arxı, Maralyan arxı, Yanarxac arxı** və başqalarını göstərmək olar.

## ÇAPAND KƏNDİ

***Çapand kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 14 kilometr cənub-şərqdə, Horovlu inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 160 nəfərdir. Əhalisi əsasən heyvandarlıq, üzümçülük və taxılçılıqla məşğul olurdu. Kənddə məktəb, klub, kitabxana, kəhriz və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Çapand*** kəndinin adı ilə bağlı müxtəlif məzmun kəsb edən fikirlər var. ***Çapand*** toponiminin dəqiq izahı isə hələlik tam araşdırılmayıbdır. Qədim türk sözü olan ***çap*** termini *"yamac", "yarğan", "sıldırım", "yüksəklik", "eniş"* və başqa mənalarda işlənir. XVIII əsrə aid tarixi sənədə görə, ***Çapand kəndi*** Xırdapara Dizaq mahalı tərkibində olmuşdur.

## ÇARDAQLI YURDU

Cəbrayıl rayonunda, Qazanzəmi kəndinin yaxınlığında, kəndin qarşısında olan əkin sahəsi lap əvvəllərdən ***Çardaqlı*** yurdu adlanır. Bu toponim ***çardaq*** və ***yurd*** sözlərindən, eləcə də ***-lı*** və ***-u*** şəkilçilərindən





ibarətdir. Buradakı ***yurd*** yerlərində ***çardaq***, talvar olduğu üçün toponim belə ad almışdır. ***Çardaq (talvar)*** sözü *"Günəşdən, yağışdan qorunmaq və ya başqa məqsədlər üçün dirəklər üzərində qurulmuş üstüörtülü kölgəlik", "evin girəcəyində qapıya yapışıq üstüörtülü yer", "tənək üçün dirəklər üzərində üstünə nazik taxtalar, borular düzülən və ya məftil çəkilən qurğu"* anlamlarını ifadə edir.

## ÇARIX GÜNEYİ

***Çarıx güneyi*** oronimi Cəbrayıl rayonunun Sofulu kəndi ərazisində qeydə alınmışdır. Oronim ***çarıx (çarıq)*** və ***güney*** sözlərindən ibarətdir. Keçmişdə kəndlilərin geydiyi aşılanmış göndən tikilən ayaqqabı ***çarıq (çarıx)*** adlanırdı. Sofulu kəndi ərazisindəki ***güney*** zahirən ***çarığa*** bənzədiyi üçün oronim belə ad almışdır. Məlumdur ki, ***q-x*** hərf əvəzlənməsi yerli dialekt üçün səciyyəvi xarakter daşıyır.

***Güney*** coğrafi termini dilimizdə *"dağın, təpənin cənuba, cənub-*şərqə *baxan hissəsi"*dir. ***Güney*** termininin qədim türk dillərində *"cənub"* anlayışı da vardır. Türkdilli xalqlarda bu terminin ***günay, günqey, günəvər, günoy*** və s. formaları da var. ***Güney*** termininin iştirakı ilə respublikamızda ***2700*** oronim qeydə alınıb. Cəbrayıl rayonu ərazisində də bu qəbildən olan oronimlər çoxdur: *Ağdaş güneyi* (Quycaq kəndi), *Ağgüney* (Hüseynalılar kəndi), *Güney dağ* və s.

## ÇAYLAQÇAY

Cəbrayıl rayonu ərazisindən axan çay. Araz çayının sol qolu olan ***Çaylaqçay*** Qarabağ silsiləsindən başlanır. Əsasən yağış suları ilə qidalanan Çaylaqçaydan suvarmada geniş iştifadə edilir. Uzunluğu 32 kilometr, hövzəsinin sahəsi 190 kvadrat kilometr olan ***Çaylaqçay*** adətən yay aylarında quruyur.

***Çaylaqçay*** hidroniminin əsasını təşkil edən ***çaylaq*** sözü burada *"quru çay yatağı"* mənasındadır. ***Çaylaq*** – *"müvəqqəti axarlı çay yatağı"* deməkdir. Soltanlı kəndində bu tipli ***Çaylaq*** mikrohidronimi də qeydə alınmışdır...

## ÇAYTUMAS KƏNDİ

Cəbrayıl rayonunun yaşayış məntəqələrindən biri Qarabağ silsiləsinin ətəyində yerləşən ***Çaytumas*** kəndidir. Kəndin əhalisi əsasən, heyvandarlıq, bostançılıq və taxılçılıqla məşğul olurdu. Kəndin ərazisində Yuxarı məhəllə, Gündoğan çalası və s. coğrafi adlar qeydə alınmışdır. ***Çaytumas kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Kəndin keçmiş adı ***Tumas*** olmuşdur. ***Çaytumas*** oykoniminin tərkibindəki ***çay*** komponenti yaşayış məntəqəsini digər eyniadlı məntəqədən fərqləndirmək üçün əlavə edilmişdir. Cəbrayıl rayonunda bu qəbildən olan ***Dağ Tumas kəndi*** də var.

Qubadlı rayonunda da ***Çay Tumas*** adlı kənd vardır. Cəbrayıl rayonunun ərazisində ***Dağ Tumas*** (hündürlüyü ***1579*** metrdir) adlı digər toponim də mövcuddur. Bu tipli oykonimlərə Bərdə və Şərur rayonlarında (***Tumaslı kəndi***) da rast gəlirik.

## ÇƏLƏBİ DAMI

***Çələbi damı*** coğrafi adı Çələbilər kəndinin ərazisində qeydə alınmışdır. Bu *damda* böyük övliyalar, dövrlərinin nüfuzlu şəxsiyyətləri - Böyük Şıx Alı Çələbi və onun oğlu, təriqətin sonrakı davamçısı, xeyirxah insan Şıx Hacı Qasım Çələbi yaşamışlar. Bu ***dam*** yerli əhali tərəfindən müqəddəs yer kimi əziz tutulurdu.

Toponimin tərkibindəki ***çələbi*** sözü *"mövləvi dərviş ordeninin başçısı"*, *"Allahı sevən"* mənasındadır. ***Çələbi*** adı ilə tanınan və bir qrup ailədən ibarət olan bu nəsildən çoxlu sayda tanınmış övliyalar çıxmışdır.

Əlavə məlumat üçün bax: **Çələbilər kəndi.**

## ÇƏLƏBİ QƏBRİ

Qazanzəmi kəndi ərazisindəki qəbiristanlıqda qeydə alınan oroqrafik obyektlərdən biri ***Çələbi qəbri*** adlanır. Əldə etdiyim məlumatlara görə, 150 il öncə *Məhyəddin Çələbinin* Qazanzəmi kəndinə yaylağa qalxan





yeniyetmə oğlu qəflətən xəstələnərək burada dünyasını dəyişir. Mərhumun cənazəsi kənd camaatının xahişi ilə Həkəri çayının sahilindəki *Türk-Əfəndilər* kəndinə aparılmır və elə Qazanzəmi kəndindəki qəbiristanlıqda dəfn edilir. Az sonra bu ***qəbir*** kənd camaatının ziyarətgahına çevrilir. Mərhumun uyuduğu bu ***qəbir*** sonralar ***Çələbi qəbri*** adlandırılaraq kənd camaatı tərəfindən əziz tutulub tez-tez anılır...

## ÇƏLƏBİ MEYDANI

Cəbrayıl rayonunun Sirik kəndi yaxınlığında, Qabaq düzün başında, Gilavlıq adlanan yerdə qeydə alınan oroqrafik obyektə ***Çələbi meydanı*** deyilir. Yerli əhalinin dediklərinə görə, bu yerlər vaxtilə Çələbi babanın yazlaq dövrü müvəqqəti düşərgə saldığı ərazi (***meydan***) olduğu üçün onun adı ilə əlaqədar olaraq belə adlanmışdır.

## ÇƏLƏBİ NİŞANGAHI

Rayon ərazisində, Qazanzəmi-Söyüdlü yolu üzərində qeydə alınan daş qalağı ***Çələbi nişangahı*** adlanır. Yaxınlığında meyvəsi turş olan alma ağacı olduğu üçün bəzən yerli əhali bu coğrafi ada ***Turş alma piri*** də deyir. Yerli məlumata görə, böyük övliya ***Şıx Hacı Qasım Çələbi*** burada namaza oturmuş və zikr etmişdir. Sonralar həmin bu oturaq, zikr yeri - ***Çələbi nişangahı*** camaat tərəfindən ziyarətgaha çevrilmişdir.

## ÇƏLƏBİBABANIN ÇEVİRMƏSİ

Hovuslu kəndinin ərazisində, kənd sakini Şülü kişinin evinin arxasında daş nişangah ***Çələbibabanın çevirməsi*** adlanır. Yerli əhalinin verdikləri məlumatlardan aydın olur ki, böyük övliya Şıx Hacı Qasım Çələbi burada namaz qılmış və zikr etmişdir. Hovuslular buranı inanc yeri kimi əziz tutur.

***Çələbi*** sözünü mənşəcə ətraf əhali arasında ***çələbi*** adı ilə məşhur

olan bir qrup ailə və nəslin adı ilə əlaqələndirirlər. Bu söz öz adını Çələbiyanlı elinin adından almışdır. ***Çələbi*** sözü *"Allahı sevən, bilici, şair, yazıçı, mövlanə", "mövləvi dərviş ordeninin başçısı"* deməkdir. ***Çələbilər*** toponimi *"çələbi nəslindən olanlar, çələbigillər"* mənasındadır. Tanınmış türkoloq-alim Tofiq Hacıyevə görə, ***Çələbi*** sözü əski türk dilində *"Allah"* mənasını verir. Osmanlı türk dilində ***çələbi*** sözü *"ağa", "cənab"* mənasındadır. ***Çələbi*** sözünün *"yumşaq, incə, ağa, hörmətli, ziyalı"* və s. mənaları da vardır.

Tarixi bilgilərə görə, ***Çələbilər*** XIII əsrin I yarısında monqol istilaları dövründə Kiçik Asiyadan ***Qaraman*** tayfasının tərkibində Azərbaycana gəlmişlər. Dini və dünyəvi termin olan ***çələb*** sözü hakimlərin, şahzadələrin ləqəbi kimi də işlənib. Çələbilər ***Əhmədli*** obasına aiddirlər. ***Çələbiyanlı*** eli 60-dan çox obadan ibarət olmuşdur. İndi onlar əsasən Cənubi Azərbaycanda, Qaradağın *Kərmədüz* mahalında yaşayırlar...

## ÇƏLƏBİƏKƏN TAP

***Çələbiəkən tap*** oronimi Cəbrayıl rayonunun Papı kəndində qeydə alınmışdır. ***Tap*** termini qədim türk sözü olub, *"dağ ətəyində düzənlik", "dağ üstündə düzənlik", "terraslararası geniş düz", "su çıxmayan yer", "təpə"* və s. mənalarda işlənir. ***Tap*** termini ilə bağlı respublikamızda çoxlu oronimlər qeydə alınmışdır.

***Çələbi eli*** Əhmədi obasına məxsus tirənin adıdır. Onlar XIII əsrin birinci yarısında monqol işğalları dövründə Kiçik Asiyadan Azərbaycana gəlmişlər. ***Çələbi*** – *"Allahı sevən", "bilici", "şair", "ağa", "yumşaq", "hörmətli", "ziyalı", "xırda", "incə", "mövləvi dərviş ordeninin başçısı"* və s. mənalarda işlənir. ***Çələbiəkən tap*** toponimi *"Çələbinin əkdiyi dağ üstü düzənlik"* mənasındadır.

## ÇƏLƏBİLƏR KƏHRİZİ

Çələbilər kəndinin ərazisində, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri ***Çələbilər kəhrizi*** adlanır. Hidronim ***Çələbilər*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. 1937-ci ildə baş verən ir-





tica (*repressiya* və s.) nəticəsində kənd dağıldığından ***kəhriz*** də müəyyən müddət baxımsız qalmış və bu səbəbdən batmışdır. 1980-ci illərin sonlarında ***kəhriz*** Hacı Qaraman ocağının övladı, tanınmış övliyalardan olan Yəhya Çələbi tərəfindən işlədilərək bərpa edilmişdir. ***Çələbilər*** kəhrizinin soyuq, şirin suyu vardır.

## ÇƏLƏBİLƏR KƏNDİ

***Çələbilər kəndi*** Cəbrayıl rayonunda, Dağ Tumas kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 25 kilometr qərbdə, Qarabağ silsiləsi ətəyində, düzənlik ərazidə, Gəyən çölündə yerləşir. Əhalisinin sayı 30 nəfərdir. Əhalinin əsas məşğuliyyəti taxılçılıq və heyvandarlıq sayılırdı. Kənddə qədim *Qara dam xarabalıqları, Hacı Qaraman ziyarətgahı*, XVI əsrə aid *Məscid kompleksi*, XVI əsrə aid *Məscid*, XVII əsr (*1678-ci ildə Məhəmməd ibn Hacı Fərman (Qaraman) Əhmədlu tərəfindən tikilmişdir*) tarixi memarlıq abidəsi olan *Məscid kompleksi* (*bu məscid-mədrəsə kompleksi də adlanırdı; burada vaxtilə dərslər də keçirilərdi*) vardı. *Böyük Alı Çələbi, Hacı Qasım Çələbi, Yasin Çələbi, Teyfur Çələbi, Hafizə Çələbi, Yəhya Çələbi, Şahlıq Çələbi* və neçə-neçə nüfuzlu din xadimləri bu kənddəndirlər. Kəndin ərazisində *Bulaq, Məscid yeri, Tala, Yalyurd* və s. coğrafi adlar qeydə alınmışdır.

Kəndin ərazisində XVII əsrə aid olan Məhəmməd ibn-Hacı Qaraman Əhmədli tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscid-mədrəsə var idi. Bu məscid-mədrəsə xüsusi hücrələrdən, dərs otaqlarından ibarət idi. Bu mədrəsədə dövrünün nüfuzlu alimləri, din xadimləri dərs demişlər. XVIII əsrdə yaşamış Azərbaycanın böyük şairi Molla Vəli Vidadi uzun müddət bu kənddə yaşamış və məktəbdarlıq etmişdir. XX əsrin 30-cu illərində repressiyaya məruz qalmış Qarabağın məşhur təriqət sahibi Alı Çələbi Qasım oğlu ***Çələbilər*** kəndindəndir.

***Çələbilər*** (adını ***Çələbiyanlı eli*** ilə əlaqələndirirlər) yaşayış məntəqəsini mənşəcə ətraf əhali arasında çələbi adı ilə məşhur olan bir qrup ailə-nəsil burada saldığı üçün kənd də belə adlanmışdır. ***Çələbi*** *("Allahı sevən, bilici, şair, yazıçı, mövlanə") "mövləvi dərviş ordeninin başçısı"* deməkdir. ***Çələbilər*** toponimi *"çələbi nəslindən olanlar, çələbigillər"* mənasındadır. Tanınmış türkoloq-alim Tofiq Hacıyevə görə, ***Çələbi*** sözü

əski türk dilində *"Allah"* mənasını verir. Osmanlı türk dilində ***çələbi*** sözü *"ağa"*, *"cənab"* mənasındadır. ***Çələbi*** sözünün *"yumşaq, incə, ağa, hörmətli, ziyalı"* və s. mənaları da vardır.

Tarixi bilgilərə görə, ***Çələbilər*** XIII əsrin I yarısında monqol istilaları dövründə Kiçik Asiyadan Qaraman tayfasının tərkibində Azərbaycana gəlmişlər. Dini və dünyəvi termin olan ***çələb*** sözü hakimlərin, şahzadələrin ləqəbi kimi də işlənib. ***Çələbilər*** Əhmədli obasına aiddirlər. ***Çələbiyanlı eli*** 60-dan çox obadan ibarət olmuşdur. İndi onlar əsasən Cənubi Azərbaycanda, Qaradağın *Kərmədüz* mahalında yaşayırlar.

Bərdə rayonunda da ***Çələbilər kəndi*** var. Vaxtilə Qars əyalətinin Qars dairəsində, indiki Amasiya rayonunda ***Çələbi kəndi*** olmuşdur. 1946-cı ildə ermənilər yerli azəri türklərini oradan qovduqdan sonra adını Çradzor qoymuşlar. İrəvan quberniyasının Aleksandropol (*Gümrü*) qəzasında ***Çələbi*** adlı çay olmuşdur. İrəvan əyalətində vaxtilə ***Çələbibulaq*** və ***Çələbiqışlaq*** adlı kəndlər də olmuşdur.

## ÇƏLƏBİLƏR MƏSCİD-MƏDRƏSƏSİ

Rayonun Çələbilər kəndi ərazisində, Hacı Qaraman ocağının 2 kilometrliyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Çələbilər məscid-mədrəsəsi*** adlanır. O, Çələbilər kəndində yerləşdiyi üçün belə adlandırılmışdır. Kənddəki ***məscid*** hicri 1088-ci ildə (*miladi 1677 - 1678-ci illərdə*) Məhəmməd ibn Xıdır Hacı Qaraman tərəfindən inşa edilmişdir. Bu *məscid-mədrəsə* özünəməxsus kompleks təşkil edirdi. ***Çələbilər məscid-mədrəsəsi*** dini elmlərlə yanaşı, dünyəvi elmləri də tədris edirdi. XVIII əsrdə yaşamış Azərbaycanın böyük klassik şairi Molla Vəli Vidadi bir müddət burada dərs demişdir. Sovet Hakimiyyəti illərində *məscid-mədrəsədən* anbar kimi istifadə edilmişdir.

## ÇƏLƏBİLƏRİN ÇEVİRMƏSİ

Rayonun *Qalacıq kəndi* ərazisində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri də ***Çələbilərin çevirməsi*** adlanır. Deyilənə gərə, ***Çələbilər*** (Şıx Hacı Qasım çələbi və başqaları) burada namaz qılar, allaha həmd-sanalar oxuyardılar. Bu sahə yerli əhali tərəfindən ***pir*** kimi müqəddəs hesab olunurdu. Rayonun *Tatar kəndi* ilə *Mənsümlü kəndi* arasında da ***Çələbi çevirməsi*** adlı oronim qeydə alınmışdır. ***Çələbi çevirməsi*** toponimi ***çələbi*** və ***çevirmə*** sözlərindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Çələbi*** sözü əski türk dilində *"Allah"* anlamındadır. ***Çələbi*** sözünün türk dilində *"ağa"*, *"cənab"* mənaları vardır. ***Çələbi*** sözünün *"Allahı sevən"*, *"bilici"*, *"mövlanə"*, *"şair"*, *"yazıçı"* anlamları da var. Dini və dünyəvi termin olan ***çələb*** sözü şahzadələrin, hakimlərin ləqəbi kimi də işlənmişdir.

Əhmədli obasına mənsub olan ***Çələbilər*** XIII əsrin birinci yarısında monqol istilaları zamanı Qaraman tayfasının tərkibində Kiçik Asiyadan Azərbaycana gəlmişlər. ***Çələbilər*** adını ***Çələbiyanlı*** eli ilə də əlaqələndirirlər.

Əlavə məlumat üçün bax: **Çələbilər kəndi.**





## ÇƏLƏBİNİN MƏQAM YERİ

Pirəsəddən 1 kilometr cənubda, Dağtumas - Hovuslu yolunun dolayı üstdə daş qalağı Çələbinin məqam yeri adlanır. Adətən gündoğandan gələn yolçular ilk olaraq Hacı Qaraman ocağını bu ***yerdən*** görür. Deyilənə görə, səfərlərdən qayıdan ***Şıx Hacı Qasım Çələbi*** həmişə bu *yerə* çatanda dayanıb durar, öz ulusu Hacı Qaramana üz tutub dua verərmiş. Görünür elə buna görə də oroqrafik obyekt ***Çələbinin məqam yeri*** adlandırılmışdır.

## ÇƏLTİK YERİ

Şükürbəyli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Çəltik yeri*** adlanır. Oronim taxıllar fəsiləsindən birillik və ya çoxillik bitki cinsi olan çəltik (*"qabığı çıxarılmış düyü"*) bitki adından və ***yer*** sözündən ibarətdir. Azərbaycanda əkin çəltiyi adlanan ***çəltik*** növü əsasən Şəki, Zaqatala, Lənkəran və s. rayonların ərazilərində becərilir. Ən qədim kənd təsərrüfatı bitkisi olan ***çəltik*** dənli bitkisinin dənindən yarma, spirt, nişasta, yüksəkkeyfiyyətli yağ; küləşindən kağız, karton, hörgü məmulatı və s. ha-

zırlanır. Bəzi məlumatlara görə ***çəltik*** bitkisinin vətəni Cənub-Şərqi Asiya hesab olunur. Azərbaycanda çəltiyin ***50***-dən çox sortu əkilirdi. Cəbrayıl rayonunun Şükürbəyli kəndinin ərazisində qeydə alınan ***Çəltik yeri*** toponimi *"çəltik olan sahə", "çəltik əkilən yer"* anlamındadır.

## ÇƏPİK ATA

Cəbrayıl rayonunun ərazisində çoxlu sayda ***Ata*** və ***Nənə*** xaqanlığını özündə əks etdirən **Ata** və **Nənə** qəbirləri vardır. Məsələn: ***Tumas Ata, Günəş Ata, Dom Ata, Cəbrayıl Ata, Şıx Ata, Müşk Ata, Çomaq Ata, Çəpik Ata*** və s. Məlumdur ki, ən qədim türklər əvvəllər Tanrıya ***Ata***, Allahlar anasına ***Nənə*** (***Nanə***) demişlər. ***Ata*** sırf türk sözüdür. ***Ata*** sözü miladdan öncəki dövrlərdə və erkən orta əsrlərdə müqəddəsliyi olan mənəviyyat sahiblərinə, böyük nüfuzlu şəxslərə, elinə yurduna bağlı olan xeyirxah insanlara, tayfa və qəbilə başçılarına verilirdi. Zaman keçdikcə bu ***müqəddəs*** insanların qəbirləri ziyarətgahlara çevrilmişdir. Bu inanış günümüzə qədər davam etmiş və yəqin ki, bundan sonra da belə davam edəcəkdir.

***Çəpik Ata*** Tumas Atanın *yeddi* qardaşlarından biri - ən kiçiyi hesab edilir. O, Çaytumas kəndinin Çaytumas qaşı adlanan ərazisindəki təpə üzərində dəfn edilmişdir. Çaytumas kəndinin əhalisi ***Çəpik*** Ata qəbrini müqəddəs ocaq, pir kimi daim əziz tutmuşlar. ***Çəpik*** sözü *"diribaş, çevik, zirək"* anlamını ifadə edir.

## ÇƏRƏKƏN BAĞI

Cəbrayıl rayonu meyvə bağları ilə zəngindir. Rayon ərazisində onlarla, yüzlərlə meyvə bağları vardır. Onlardan biri də Çərəkən kəndi ərazisində qeydə alınmış ***Çərəkən bağı*** adlanır. Bu bağın ərazisində çoxlu sayda meyvə ağacları vardır. Oronim ***Çərəkən*** kənd adından və ***bağ*** sözündən ibarətdir. Bu tipli toponimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlirik.





## ÇƏRƏKƏN ÇAYI

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Çərəkən çayı*** adlanır. Toponim yaxınlıqda yerləşən ***Çərəkən*** kəndinin adı ilə əlaqədardır. Hidronimi tayfa adı ilə bağlayan araşdırıcılar da var. Bu coğrafi adı ***Şərikan*** şəklində də izah etmək istəyənlər vardır.

Məlumdur ki, əski türk dilində ***çərə (çörə)*** sözü *"otlaq yeri", "örüş"* anlamına uyğun gəlir. Qədim türk dillərində ***çerik*** sözünün *"qoşun"* mənası da məlumdur. ***Çərək*** sözü fars dilində *"dörddə bir", "batmanın dörddə biri", "yara"* mənalarını ifadə edir. ***Çər*** sözünün *"azar", "xəstəlik"* mənası da var. Azərbaycan dilində -***an*** və -ən şəkilçiləri cəmlik bildirir.

Füzuli rayonunun ərazisində də ***Çərəkən çayı*** vardır.

Əlavə məlumat üçün bax: **Çərəkən kəndi.**

## ÇƏRƏKƏN KƏNDİ

***Çərəkən kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 4 kilometr şərqdə, Çərəkən inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 600 nəfərdir. Əhali əsasən taxılçılq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Kəndin ərazisində *Ağoğlan dağı, Alagözdü məhəlləsi, Aşağı güney, Atölən dərə, Başmaqçı dərə, Başmaqçı təpə, Bəy dərəsi,* Çərəkən ayası, *Dərə yolu, Düz qoruq, Eşşək meydanı, Gavur qəbiristanlığı, Güney bağ, Kollu bağ, Kor outran yer, Heydər dağı, Heydər çaylağı, Qayaburnu, Qara incirli dərə, Qara oğlan dərəsi, Meydan, Muncuqlu, Sarı molla bağı, Tağlı yatağı, Təvəzə dərəsi, Tufan çaylağı, Tufan kəhrizi, Üç təpə, Yal İsmayıllı yeri, Zaman piri* və s. coğrafi adlar qeydə alınmışdır. ***Çərəkən*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Çərəkən kəndi*** öz adını vaxtilə yaxınlıqdan axan ***Çərəkən*** çayının adından almışdır. Bir qisim tədqiqatçıların fikrincə, ***Çərəkən*** oykonimi əslində ***Çərəkənd*** şəklində olmalıdır. Adın tərkibindən "***d***" səsi görünür, sonralar düşmüşdür. Yerli məlumata görə, kəndin ərazisində taxıl sahələri çox olduğundan kəndə ***"Çörək əkən"*** mənasında ***Çərəkən*** deyirlər.

Kəndin adı bəzi məxəzlərdə, sənəd və materiallarda ***Şərikan*** kimi

də çəkilmişdir. Şərikan adı şərik sözündən və qrammatik cəhətdən cəmlik bildirən *-an (-ən)* şəkilçisindən ibarət olub, ***"şəriklər"*** mənasındadır. *1835*-ci ildə bu kənddə anadan olmuş Aşıq Bağban Məhəmmədin şeirlərində də Şərikan kəndinin adına rast gəlirik:

***Yəqin qaldı Şərikanın elində,***
***Yoxdu qüvvət dəhanında, dilində.***
***Qolları var bağlı, diddi əlində,***
***Elə qənimlərə dözən necoldu?..***

***Çərəkən*** yaşayış məntəqəsi ***Çərə*** adlanan sahədə salındığı üçün belə adlanmışdır. Bəzi mütəxəssislərin yürütdükləri fikirlərə görə, toponim *"otlaq yeri"*, "örüş" mənası verən ***çərə (çörə)*** sözündən əmələ gəlmişdir. ***Çər*** sözünün *"xəstəlik, azar"* anlamı da məlumdur; ***çərək*** sözünün fars dilində *"dörddə bir"*, *"batmanın dörddə biri"*, *"yara"* mənaları da vardır.

Cəbrayıl elinin oymaqlarından biri olan ***Çərəkənli oymağı*** XVIII - XIX əsrlərdə mənbələrin verdikləri məlumata görə, *Sayaq* (Şayaq) adlanan ərazidə məskunlaşmışlar.

## ÇƏTƏNDAŞ (ÇATALDAŞ) DAĞI

***Çətəndaş dağı*** Cəbrayıl rayonu ərazisində, Dolanlar kəndi ilə Tumas meşəsinin sərhədində yerləşir. Dağın yerləşdiyi ərazi Çaxmaq və Kiçik Həkəri çaylarının suayırıcısıdır. ***Çətəndaş*** oronimi ***çətən*** və ***daş*** sözlərindən yaranmışdır. Toponim çətənə oxşar düzülüşdən belə ad almışdır. ***Çətən*** - qarğıdan, ağac çubuqlarından hörülmüş çəpər və hörgüyə deyirlər. Bu toponimin tərkibində ***çətən*** sözü *"cərgə"* mənasında işlənibdir. Dağın yamacında daşlar, qayalar çətənvari cərgə ilə düzüldüyünə görə ona belə ad verilmişdir. Toponim *"iki dağın birləşdiyi cərgəli daş"* mənasındadır.

Bəzən oronimin adını ***Çataldaş*** şəklində də yazırlar. Oronimin tərkibində iştirak edən və dilimizdə qalmayan ***çat (çatal)*** termini türk dillərində *"qayalıq"* və ya *"iki dağın birləşdiyi yer"* mənalarını ifadə edir. Doğrudan da, Çataldaş iki sıldırım qaya arasında yerləşir. Cəbrayıl şivəsi üçün "***a***" - "***ə***", "***l***" - "***n***" səs əvəzlənmələri Qarabağ dialekti üçün səciyyəvi





xarakter daşıyır.

Gəncə ərazisindəki *Çatyal*, Gədəbəy rayonundakı *Gülpəri çatalı*, Mil düzündəki *Çataltəpə* və s. coğrafi adlar da bu qəbildəndir.

## ÇILPAĞIN YALI

Dağ Tumas kəndinin yaxınlığında, Kolxoz dəyirmanından Kaftar istiqamətində gedən yolun üzərində, birinci ağ göz torpaqlı aşırımda qeydə alınan oronimlərdən biri ***Çılpağın yalı*** adlanır. Həmin ***yalın*** ərazisi *bitkisiz* olduğu üçün oronim belə ad almışdır. ***Yal*** – müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə edilir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***yal*** coğrafi termininin iştirak etdiyi ***600*** oronim qeydə alınmışdır.

## ÇINQILLI YAMAC

Rayonun Horovlu kəndi ərazisində qeydə alınan oqoqrafik obyektlərdən biri ***Çınqıllı yamac*** adlanır. Oronim ***çınqıl*** və ***yamac*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***yamac*** komponenti müsbət relyef forması ifadə edən coğrafi termindir. Yamacın belə adlandırılması onun səthində vulkan mənşəli çınqıllıqların, qumların olması ilə bağlıdır. Bu tipli toponimlərə ölkəmizin digər bölgələrində də rast gəlirik.

## ÇİNAR BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Çinar bulağı*** adlanır. Hidronim ***çinar*** ağac adından, ***bulaq*** hidronimik apelyativindən və -ı şəkilçisindən ibarətdir. ***Çinar*** – yaşıl-boz rəngli qabığı və enli pəncəvarı yarpaqları olan iri, hündür ağacdır. Toponim *"çinar ağacı ərazisində olan bulaq"* anlamındadır. Bu tipli coğrafi adlara digər rayonların ərazilərində də rast gəlirik.

## ÇİNAR KƏHRİZİ

Qalacıq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Çinar kəhrizi*** adlanır. Müxtəlif sənəd və materiallarda onun adını bəzən ***Çinardibi*** kəhriz kimi də yazırlar. Kəhrizin ətrafında ***çinar*** ağacı olduğu üçün hidronim belə adlandırılmışdır. Onun buz təki soyuq və göz yaşı kimi dumduru suyu vardır. ***Çinar*** kəhrizinin ***10*** quyusu var.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım atılır. Kəhrizin suyu təmiz və saf olur. Kəhrizlər fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## ÇİNAR PİRİ

Cəbrayıl rayonunun ərazisində, çay yatağındakı böyük çinarın yaxınlığında qeydə alınan oroqrafik obyekt ***Çinar piri*** adlanır. ***Pir*** daş topasından ibarətdir. Deyilənə görə, ***Çinar*** piri ərazisində bir mömin qətlə yetirilmişdir. Amma orada qəbir izi yoxdur. Burada yatmaq yasaq olunur. Oronimin ***Çinar*** piri adlanması ərazisindəki böyük çinar ağacı ilə bağlıdır.

Balyand bağının aşağı başında da ***Çinar*** piri adlı oroqrafik obyekt qeydə alınmışdır. Bu qocaman ***çinar*** ağacı XX əsrin 20-ci illərində rus işğalçı qırmızı ordu hissələrinin əsgərləri tərəfindən partladılmışdır. Sonralar onun kötüyündən pöhrə çinarlar bitərək ucalmışdır. Yeli camaat quraqlıq zamanı bu çinar dibində qurbanlar kəsər, ***pirdən*** (*ocaqdan*) yağışın yağmasını dilək edərdilər. Azərbaycan ərazisində fitonimlərdən düzələn çoxlu sayda coğrafi adlar qeydə alınmışdır.

***Pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq büt-





pərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında pir əvəzinə ocaq ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

## ÇİNARLI ÇEŞMƏ

Tumaslı və Çətəndaş dağlarının yaxınlığında, qalın meşəsi olan Çinarlı dərənin boğazında, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri ***Çinarlı çeşmə*** adlanır. Bu çeşmənin gur, şirin və soyuq suyu vardır. Hidronim ***çinar*** bitki adından və ***çeşmə*** sözündən ibarətdir. Çeşmənin ətrafında çoxlu ***çinar*** ağacları olduğu üçün hidronim belə adlandırılmışdır.

## ÇİNARLI DƏRƏ

Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Çətəndaş dağı yaxınlığında qeydə alınan oronimlərdən biri ***Çinarlı dərə*** adlanır. Çinarlı dərənin ərazisi Çətəndaşdan başlayıb İncə çayına qədər uzanır. Bu ərazi əsasən sıx meşəlikdən ibarətdir. Burada əsasən ***çinar***, *palıd*, *ulas* ağacları vardır. ***Çinar*** ağaclarının başqa bitkilərdən çoxluğuna görə oronim belə adlandırılmışdır.

Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə*, *Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi*, *Dəlidağ dərəsi*, *Çinarlı dərə və s.*) kimi işlənir. ***Dərə*** termini ilə bağlı Azərbaycanda çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

## ÇİNARLI KƏHRİZİ

Səfərşa kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Çinarlı kəhrizi*** adlanır. Toponim çinar ağacı adından, ***kəhriz*** hidronimik apelyativindən, eləcə də *-lı* və *-i* şəkilçilərindən ibarətdir. Bu kəhrizin ətrafında çinar ağacı olduğu üçün hidronim belə ad almışdır. Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında da bu tipli hidronim qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Çinar kəhrizi.**

## ÇOCUQ MƏRCANLI KƏNDİ

Cəbrayıl rayonunda, rayon mərkəzindən 35 kilometr cənub-şərqdə, Çocuq Mərcanlı inzibati ərazi vahidində, Araz çayı sahilinə yaxın, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 1250 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət-iaşə obyektləri və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdusa da, 1994-cü ilin yanvarında erməni işğalçılarından azad edilmişdir.

Mənbələrdə göstərilir ki, türkdilli ***Mərcanlı*** tirəsinin Qarabağda yaşayan ***otuzikilər*** tayfası ilə bağlılığı var. Bəzi sənədlərdə kəndin adı ***Cocuqmərcanlı*** və ya ***Cocuq Mərcanlı*** formalarında da qeyd olunmuşdur. Bu yaşayış məntəqəsi XIX əsrdə Cavadağa Cavanşirə məxsus ərazidə salınmışdır. ***Çocuqmərcanlı*** toponimi ***çocuq*** və ***mərcanlı*** sözlərindən ibarətdir. ***"Çocuq"*** – *"kiçik, balaca, xırda, uşaq"* deməkdir. Oykonimin tərkibindəki ***mərcanlı*** komponenti etnonimin adıdır. ***Mərcanlı*** toponimini ***Mərdcanlı*** kimi yozanlar da var. ***Çocuq Mərcanlı*** toponimi *"Kiçik Mərcanlı"* mənasındadır.

Əvvəllər ***Yusiflər***, sonraiar isə ***Zütfüqarlı*** adlanan bir oba da ***Çocuq Mərcanlı*** kəndinə birləşmişdir. Həmin bu ərazilər də XVIII əsrin ikinci yarısına aid olan mənbələrə görə Xırdapara Dizaq mahalı tərkibində olmuşdur.

Əlavə məlumat üçün bax: **Böyük Mərcanlı kəndi.**





## ÇUXUR TUMAS DAĞI

Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Çuxur Tumas dağı*** öz adında ***Tumas*** (***tumaslı***) tayfa adını əks etdirir. ***Çuxur*** - yer səthinin ətrafı müxtəlif yüksəkliklərlə əhatə olunmuş *"kənara axını olmayan dərinlik"*, *"yer səthindən aşağı* çökmüş, *oyulmuş sahə, oyuq çala"* deməkdir. ***Çuxur*** coğrafi termini mənfi relyef forması bildirir. ***Çuxur*** termini ilə ***Tumas*** etnonimi birləşərək burada ərazinin çökək hissəsində məskunlaşan ***tumaslı*** tayfası barədə məlumat verir (*Dağ Tumas kəndi*). Oronimin tərkibindəki ***dağ*** komponenti isə müsbət relyef ifadə edən coğrafı termindir. ***Dağ*** termini ilə əlaqədar çöl materialları içərisində Azərbaycan Respublikası ərazisində ***1 300*** oronim qeydə alınıb. ***Çuxur Tumas dağı*** toponimi *"tumaslıların dağ* çuxuru" mənasındadır. ***Çuxur*** termini ilə bağlı respublikamızın ərazisində ***500***-dən çox toponim qeydə alınmışdır.

## ÇULLU KƏNDİ, ÇULLU DAĞI, ÇULLU DƏRƏSİ, ÇULLU QUZEY

***Çullu kəndi (Çiçəkli)*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 42 kilometr qərbdə, Gəyən düzünün Qubadlı torpaqları ilə qovuşduğu yerdə - Həkərinin bəri üzündə, Qazanzəmi inzibati ərazi vahidində, Gəyən çölündə, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 800 nəfərdir. Əhali əsasən taxılçılıq, üzümçülük, heyvandarlıq və baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Kənd Cəbrayılın ən qədim kəndlərindən biridir. ***Çullu*** yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, ***çullular*** çox-çox qədimlərdə Diridağ ətrafında yaşamış, sonralar meşəli yer olan indiki əraziyə köçmüşlər. Bəzi tədqiqatçıların fikirlərinə görə, ***Çullu*** oykoniminin ilkin forması ***Çollu*** şəklində olmuşdur. ***Çol*** etnonimi özündə hun mənşəli qədim türkdilli ***çol*** tayfasının adını əks etdirir. Türk mənşəli ***çol*** tayfası II əsrdə hunların tərkibində Qafqaza gələrək burada məskunlaşmışlar. Eramızın əvvəllərində Maskut hökmdarlığının ***Çola (Çol, Çor, Sul, Sur)*** şəhəri adı da ***çol*** etnonimi ilə əlaqələndirilir. V əsrə aid yazılı abidələrdə ***çul / çol*** adına rast gəlirik. Həmin dövrə aid olan mənbələrdə Qafqaz Albaniyasının tərkibində ***Çul***

***mağarası*** adına da rast gəlinir.

V.Bartold belə hesab edir ki, bəzi ərəb mənbələrində rast gəlinən ***sul*** oykonimini ***çul*** kimi oxumaq daha düzgündür, çünki ***səd*** ərəb hərfi ***ç*** səsinin əvəzlənməsi kimidir. ***Çul*** sözü *"üstündə oturmaq və soyuqdan qorunmaq üçün atın və bəzi başqa heyvanların dalına salınan qıldan və ya yundasn toxunma qalın örtük"* anlamındadır.

Q.Qeybullayev qeyd edir ki, ***Çul*** oykoniminin əsl forması ***Çol*** olmuşdur. Q.Məşədiyev V.Yeqovorova əsaslanaraq bildirir ki, ***Çol/çul*** türk mənşəli söz olub, çuvaş dilində *"daş"*, *"qaya"*, *"dərə"* mənasındadır. ***Çol/çul*** sözünü ***çöl*** *("çöllük")* sözü ilə də əlaqələndirənlər vardır.

Xalq etimologiyasına görə, ***çullu*** toponiminin guya müxtəlif ev heyvanlarının (*at, dəvə*, öküz və s.) belini örtmək üçün istehsal edilən toxunulmuş bədii örtük olan çul istehsalı ilə bağlılığı vardır. Əlbəttə, bəzən belə xalq etimologiyası ilə razılaşmaq insanı çaşdırır və onu əsl həqiqətdən uzaqlaşdırır. Ümumiyyətlə, toponimik araşdırmalar göstərir ki, xalq etimologiyası tədqiqatçını bəzən toponimin mənasının izahı zamanı yalnış fikir yürütməyə sövq edir...

XVIII - XIX əsrlərə aid olan mənbələrə gorə, ***Cəbrayıl*** elinin ***18*** oymağından biri ***Çullu obası*** olmuşdur. Bu obanın Diridağ yaxınlığında torpaq mülkləri vardı. Burada Mərcanlı nəslindən olan səkkiz ailə də məskunlaşmışdır.

Cəbrayıl rayonunun ərazisində, ***Çullu kəndi*** yaşayış məntəqəsindən bir qədər aralıda, təpənin şimal yamacında qeydə alınan oronimlərdən biri ***Çullu quzey*** adlanır. Bu coğrafi ad ***çullu*** etnonimi ilə bağlıdır. Dilimizdə *"dağın (təpənin) şimal yamacı, Günəş şüası düşməyən kölgəli tərəfi"* ***quzey*** adlanır. Ümumiyyətlə, ***quzey*** sözü türk dillərində *"şimal"* mənasını bildirir. ***Quzey*** termini ilə bağlı Respublikamız ərazisində çöl materialları içərisində ***2 700*** oronim toplanmışdır.

Kəndin yaxınlığında adına ***Çullu dağı*** deyilən ***dağ*** da var. Bu oronimin də çullu etnonimi ilə əlaqədar yarandığını güman etmək olar. Toponim yaxınlıqda yerləşən ***Çullu*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Oronimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan Respublikasının ərazisinin ***33*** faizi dağlıq sahələr olduğundan burada çoxlu sayda *dağ* adlarına rast gəlirik. Çöl materialları içərisində tərkibində ***dağ*** coğrafi termini iştirak edən ***1 300***





oronim qeydə alınmışdır.

*Çullu* kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri də Çullu dərəsi adlanır. *Çullu dərəsi* coğrafi adı ***Çullu*** kənd adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarət olub, *"Çullu kəndinin yaxınlığında yerləşən dərə"* mənasındadır. Oronimiyada relyefin dar, çökək forması ***dərə*** termini ilə ifadə olunur. Respublikamızın ərazisində çöl materialları içərisində ***dərə*** termini ilə bağlı ***30 000*** oronim qeydə alınmışdır. Cəbrayıl rayonunun ərazisində də xeyli sayda dərə adlarına (***100***-dən çox) rast gəlirik.

***Çul/çol*** sözü eramızın V əsrində yazılı abidələrdə qeydə alınmışdır. ***Çul/çol*** sözünün müxtəlif türk dillərində *"daş, dağ, qaya, dərə, çöllük"* və s. mənaları da vardır. Respublikamızın ərazisində eramızın ilk illərindən etibarən bir sıra Azərbaycandilli tayfaların *(kəngər, tərtər, qarqar, çiraq, gəncə və s.)* içərisində ***çul*** tayfası da olmuşdur. Təxminən ***2 000*** il öncə indiki Dərbənd şəhərindən ***17*** kilometr cənubda mövcud olan bir şəhərə tarixi mənbələrdə ***Çol, Çor, Çoq, Çul*** və s. yazılışlarda rast gəlirik. Mənbələrdə göstərilir ki, eramızın ilk illərində Azərbaycan ərazisində Azərbaycan-türkdilli tayfalar içərisində çul tayfası da olmuşdur.

XIX əsrdə Qafqazda ***Çullu*** adlı ***5*** toponim qeydə alınmışdır. Respublikamızın Abşeron rayonu ərazisindəki *Çullu təpə*, Lerik rayonunun Andurma kəndi ərazisindəki *Çullu yamac, Çullu yarğan*, Qubadlı rayonunun Göyyal kəndi yaxınlığındakı *Çullu dərə*, Ağdam rayonundakı Çullu kəndi coğrafi adlarının yaranması da çox güman ki, qədim türk mənşəli ***çullu*** etnonimi ilə əlaqədardır. Bilirik ki, bu etnonim ilə əlaqədar Ağdam rayonu ərazisində *Çoladağ* oronimi və ***Çullu kəndi*** də vardır.

Qədim türk mənşəli ***çol (çul)*** tayfasının adı ilə vaxtilə İrəvan quberniyasının Şərur-Dərələyəz mahalında ***(Çul kəndi)*** və Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasında (Sisyan mahalında) ***Çullu kəndi*** (XX əsrin 30-cu illərinə qədər) mövcud olmuşdur. Bu tipli oykonimlərə Özbəkistan Respublikasında ***(Çulobod)***, Cənubi Azərbaycanda ***(Çəlabad)*** və digər ərazilərdə də rast gəlirik.

## ÇULLU OBASI

XVIII - XIX əsrlərə aid tarixi mənbələrdə göstərilir ki, Cəbrayıl elinin **18** oymağı (*obası*) olmuş və onlardan biri də ***Çullu*** adlanmışdır. Bu obanın bir neçə yerdə, o cümlədən Diridağ yaxınlığında böyük torpaq mülkləri var idi. Mənbələrin məlumatlarına əsaslansaq görürük ki, Diridağ yaxınlığındakı ***Çullu*** obasında *Mərcanlı* nəslindən olan **8** ailə də məskən salmışdır.

Məlumdur ki, maldar icma üzvlərinin müvəqqəti birliyinə ***oba*** deyilir. ***Oba*** maldarlıq təsərrüfatının yaylağa və qışlağa köçməsi ilə əlaqədar yaradılırdı. ***Obalar*** adətən bir nəsildən və ya müxtəlif nəslə mənsub olan ailələrdən təşkil olunurdu. Obaları seçilmiş *oba başçıları* idarə edirdi. Qafqaz, Mərkəzi Asiya, Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda da ***obalar*** geniş yayılmışdı. Azərbaycanda ***oba*** sözü *"yurd, məskən, kənd"* mənasında işlədilir.

Türk mənşəli ***çullu (çollu, çol, çul)*** tayfası hunların tərkibində II əsrdə Qafqaza gəlib burada məskunlaşmışlar. Bu etnonim ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində onlarla coğrafi ad qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Çullu kəndi, Çullu dağı, Çullu quzey.**

## ÇÜRÜK DAŞIN DƏRƏSİ

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Qurdlu quzeyin şimal ətəyindən Kiçik Kova qədər uzanan dərə ***Çürük daşın dərəsi*** adlanır. Oronim ***çürük*** (*"çürüyüb xarab olmuş, çürümüş"*) və ***daş*** sözlərindən, ***dərə*** terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Həmin dərədə ovuntulu ***çürük daş***, daşı öz-özünə qəlpələnib tökülən ovuntulu *sarı qayalıq* olduğu üçün oronim belə adlanmışdır. Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə, Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi, Dəlidağ dərəsi*) kimi işlənir. Azərbaycanda ***dərə*** termini ilə bağlı çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.





## "D"

## DAĞ MAŞANLI KƏNDİ

(*Bax:* **Dağmaşanlı kənd**)

## DAĞ TUMAS KƏNDİ

***Dağ Tumas kəndi*** (*bəzən sənədlərdə kəndin adı **Dağtumas** şəklində də yazılır*) Cəbrayıl rayonunda, rayon mərkəzindən 38 kilometr qərbdə, Dağ Tumas kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin cənub-qərb ətəyində yerləşir. Əhalisinin sayı 1300 nəfərdir. Yaşayəş məntəqəsində 200 ev var idi. Əhali işğala qədər heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta, əsas və ibtidai məktəblər, klub, kitabxana, 25 çarpayılıq xəstəxana, uşaq bağçası, rabitə şəbəsi, mexanikləşdirilmiş tövlə, üzüm emalı zavodu, dəyirman, dəmirçi sexi, ticarət obyekti, kəhrizlər, bulaqlar və s. vardır. XIII-XIV əsrlərin yadigarı olan *"Başıkəsik Gümbəz"* və *"Divlər Sarayı"* mağarası da Dağ Tumas kəndindədir.

Kəndin ərazisində *Abbasvurulan tala, Abdulla kahası, Acı Almalıq, Ağ daş, Ağ qaya, Ağca bərəyəlari, Allahqulu qayası, Almadərən bağı, Alməmmədin kolluğu, Anbarın daşı, Arxac dərəsi, Armudlu dərə, Armudlu düz, Arpa dərəsi, Arpa yeri, Aşağı çay dərəsi, At quzeyi, Ataşın yeri, Ayazgörməz, Başgöz dərəsi, Bayram bərəyəsi, Boruxlu dərə, Böyük demilər, Böyük gəz, Böyük kov, Böyük şəlalə, Şeyidlər, Camalxan dərəsi, Cıdırın daşı, Cır demilər, Çevirmə dərəsi, Çələbi at çapan, Çatən, Çılpağın yalı, Çinarlı dərə, Çinəfarlı, Dağardoldurmaz, Dar təpəsi, Daşlı çuxur, Dəhnələr, Dəlikdaş, Dəliyarğan, Dəmçi təpəsi, Dəvəboynu, Dəvəsurçan, Dibir arxac, Dik daş, Dik dərə, Dik qaya, Doşab torpağı, Duzlaq qayası, Düzgə dağı, Eşşək kovu, Əhmədin köklüyü, Əhmədуçan qaya, Gənçəli dərəsi, Gödəkburun, Göyərçin qayası, Gupgup, Günbəz piri, Xəznədar yeri, Xırdalar, Hacı Rəhim ocağı, Hav yeri, Həzinin meşəsi, İbici quzeyi, İmamqulu təpəsi, İnçə dərəsi, İnçə kəhrizi, İrəzgə,*

*Kaftar yeri, Kar daş, Karvan yolu, Keçəl təpə, Kəhrizüstü, Kəklik qayası, Kəmərələr, Kiçik gəz, Kollu dərə, Kirpili yal, Koma yalı, Kosa Qənbər qəbri, Köhnə Bazavuz, Köhnə qala, Qaçaq qəbri, Qamışlı dərə, Qaraqaya, Qaralar kahası, Qaravul dağları, Qərincə qayası, Qısırmac, Qızıl qaya, Qızlıq yurdu, Qullular yolu, Qurbanalı təpələri, Qurd yolu, Qurdlu quzey, Qurdsalyan dərəsi, Quş təpəsi, Maqsudun dərəsi, Məhərrəmuşağının binə yeri, Mərənlik, Mirənşə meşəsi, Narlıq, Naxışlı yoxuş, Peyintökülən, Pirim kahası, Rəzqə bağı, Salın dibi, Sallı bayır, Soğanlıq, Süleyman qalası, Şampırın qoruğu, Şərbətəli ocağı, Şəvidli bərəyi, Şırşırlı dərə, Şükürvurulan, Təpə boynu, Təzə Bazavuz, Topdaş, Tumas bağı, Uzunça qoşunları, Üçqardaş piri, Yalavlıq, Yel quyusu, Zəyərək yeri, Zolaqlar* və s. coğrafi adlar qeydə alınmışdır.

Kənddə *tumasuşağı, məhərrəmuşağı, piriuşağı, əzizuşağı, hacıuşağı, hacırəhimuşağı, kərimuşağı, səfiuşağı, şirinuşağı, sudyaşirinlilər, hacıməmmədlilər, adıgözəllər, aydınalılar, cıdırlar, meydanlar, mövlaqulular, sefilər, səfərlər, şəriflilər, şıxvəlilər, qullular* adlı tayfa və tirələr vardır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Dağ Tumas*** kəndinin keçmiş adı ***Tumas*** olub. Bu kənddən ayrılmış ailələr müxtəlif məlumatlara görə, sonralar Bərdə və Şərur rayonlarında ***Tumaslı***, Qubadlı rayonunda Çaytumas kəndlərini salmışlar. Cəbrayıl rayonunda ***Çaytumas kəndi*** də var. ***Tumas*** sözünün əvvəlində gələn ***dağ*** (*"yerin hündür, dik, yamaclı və zirvəli hissəsi"*) və ***çay*** komponentləri kəndi bir-birindən fərqləndirmək üçün işlənilmişdir. Kənd ***Dağ Tumas*** dağının yamacında yerləşdiyi üçün o, ***Dağ Tumas*** adı ilə adlandırılmışdır. Toponmin tərkibindəki ***Tumas*** komponentini ***Tomris*** sözü ilə də əlaqələndirənlər vardır.

Oykonim kəndin yuxarısında yerləşən qəbiristanlıqdakı ***Tumas-Ata*** qəbir-pirinin adı ilə bağlıdır. Bəzi ehtimallara görə, qədim tarixə malik bu kənd yaşayış mənqətəsi kimi hələ erkən orta əsrlərdən məlumdur. Deyilənə görə, kəndin əsas əhalisi guya *Tumas Atanın* törəmələridir.

Kənddəki ***Tumas-Ata*** abidəsi bütpərəstlik dövrünün nişanəsidir. Onunla bağlı müxtəlif əfsanələr, rəvayətlər uydurulmuşdur. Bəzi tarixi məlumatlara görə, miladdan öncə VI - V əsrlərdə tayfa başçısı olan ***Tumas*** adlı igid ərən düşmənlərlə döyüşdə yaralanır və yağı əlinə keçməmək üçün dağlara çəkilir. Qanı axa-axa dağın zirvəsinə qalxır və burada dünyasını dəyişir. Silahdaşları qan izi ilə onun meyitini tapır və burada dəfn





edirlər. Kənd sakinləri bu abidəni öz əcdadları hesab edir və onu əziz, müqəddəs tuturlar. Rayon ərazisində, Qarabağ silsiləsinin cənub-qərb ətəyində, ***Dağtumas*** kəndinin yaxınlığında ***Dağtumas zirvəsi*** adlı oroqrafik obyekt də qeydə alınmışdır. Azərbaycan Respublikasının Bərdə və Şərur rayonlarında da bu qəbildən olan *Tumaslı kəndi* var.

Əlavə məlumat üçün bax: **Dağ Tumas zirvəsi.**

## DAĞ TUMAS ZİRVƏSİ

Cəbrayıl rayonu ərazisində yerləşən dağ zirvəsi ***Dağ Tumas*** adlanır. Bu ***zirvə*** Qarabağ silsiləsinin cənub-qərb ətəklərindədir. İnqilabaqədərki (*XX əsr, Böyük Oktyabr Sosialist İnqilabı*) ədəbiyyatlarda zirvənin adı ***Tumaslı dağı*** kimi qeyd olunmuşdur. ***Dağ Tumas*** dağının zirvəsinin hündürlüyü 1579 metrdir. Bu ***zirvə*** onun döşündə yerləşən Dağtumas kəndinin ərazisində, dağın yüksək yerində olan qədim ***Tumus Ata*** (***Tumas ağa*** da deyirlər) sərdaba–pirinin adı ilə adlandırılmışdır. ***"Tumas ata"*** qəbir piri müqəddəs yerlərdən sayılırdı. Bəzi məlumatlara görə, ***Tumas Ata piri*** Qafqaz albanlarından biri olmuşdur. ***Ata*** sözü türk dillərində *hörmət* titulu bildirir.

***Dağtumas zirvəsi*** oronimінin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq ifadə edir. Toponim ***Tumas*** şərq adından və müsbət relyef forması bildirən ***dağ, zirvə*** sözlərindən ibarətdir. Oykonimlərdən törənən oronimlərin ən maraqlı cəhətlərindən biri fərqləndirici əlamətli yaşayış məntəqə adlarının eynilə sadə oronim yerində işlənmələridir.

Qəbələ rayonunun ərazisində də bu tipli *Çuxur Tumas zirvəsi* coğrafi adı da qeydə alınmışdır...

## DAĞDAĞAN AĞACI PİRİ

***Ağac*** növləri adları ilə düzələn oronimlərə Azərbaycanınn demək olar ki, bütün rayonlarında rast gəlmək mümkündür. ***Dağdağan*** ağacını korpələri şər qüvvələrdən qoruyan müqəddəs ağac kimi də səciyyələndirirlər. Adına bəzən ***daşağac*** dediyimiz ***qarağackimilər*** fəsiləsindən

yarpağı tökülən, çox vaxt həmişəyaşıl olan ***dağdağan*** ağacının adı ilə də çoxlu sayda oronimlər yaranmışdır. Bunlardan biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Dağdağan ağacı piri*** coğrafi adıdır. Bu oroqrafik obyekt rayonda müqəddəs ziyarətgahlardan biri hesab edilir. ***Dağdağan*** bərk oduncağı olan, meşələrdə bitən bir ağac və ya koldur. Əvvəllər məişətdə *dağdağan* ağacından düzəldilərək guya pis gözdən qorumaq üçün uşağın papağına bənd edilən, yaxud bəzi ev heyvanlarının boynundan asılan əşyanı da ***dağdağan*** adlandırardılar. Köhnə adamlar *"harda dağdağan, orada pir"* deyərdilər. ***Dağdağan ağacı piri*** sonsuzların son ümüd yeri idi. Burdan asılmış beşiklər evlərdə nənnilərə çevrilirmiş. Türkmənşəli ***dağdağan*** toponimini *"körpələri şər qüvvələrdən qoruyan ağac növü"* kimi də izah edənlər var.

***Dağdağan*** bitkisinin adı ilə bağlı oronimlərə *Dağdağan dağı* (Göygöl və Şahbuz rayonları), *Dağdağan təpəsi* (Kəlbəcər rayonu), *Dağdağanlı dərə* (Qazax, Qəbələ, Qubadlı, Zəngilan, Oğuz, Cəlilabad rayonları), *Dağdağan çayı* (Ağdam və Ağcabədi rayonları), *Dağdağanlı qobu* (Şəki rayonu), *Dağdağan təpəsi* (keçmiş DQMV-də, Ağdərə və Hadrut (*Xocavənd*) rayonlarının ərazilərində) və başqalarını nümunə göstərmək olar. Xocalı rayonunda *Dağdağan kəndi* də var.

Coğrafi adın tərkibindəki ***pir*** sözü inamla bağlı *sitayiş, ziyarət* yeri kimi səciyyələnir. Azərbaycan Respublikasının ərazisində ***pir*** sözü ilə bağlı xeyli coğrafi adlara rast gəlmək olar. Bütpərəstlik dövründən məlum olan ***pir*** - dini etiqad, inamla bağlı ibadət və sitayiş yeri hesab olunurdu. ***Pirlər*** çarəsiz dərdlərə düçar olanların *ziyarət yeri* olmuşdur. Çox zaman sonsuzlar, şikəstlər, ruhi və cismani xəstələr ürəklərində niyyət tutaraq pirlərə nəzir-niyaz verirlər, onlardan imdad diləyirlər. Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. Azərbaycan Respublikasının ərazisində ***pir*** sözü ilə bağlı yüzlərlə toponim qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Dağdağan ocağı, Dağdağan piri, Dağdağanlı düz.**





## DAĞDAĞAN OCAĞI

Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Dağdağan ocağı*** adlanır. Toponim ***dağdağan*** və ***ocaq*** sözlərindən ibarətdir. ***Ağac*** növləri adları ilə düzələn oronimlərə Azərbaycanının demək olar ki, bütün rayonlarında rast gəlmək mümkündür. ***Dağdağan*** bitkisinin adı ilə əlaqədar ölkəmizdə çoxlu sayda oronimlər yaranmışdır. Əcdadlarımız *dağdağan* ağacını tarixən müqəddəs hesab ediblər. Bu, indi də belədir. ***Dağdağan*** ağacını *korpələri şər qüvvələrdən qoruyan müqəddəs ağac* kimi də səciyyələndirirlər. Adına bəzən ***daşağac*** dediyimiz ***qarağackimilər*** fəsiləsindən yarpağı tökülən, çox vaxt həmişəyaşıl olan ***dağdağan*** ağacının adı ilə Cəbrayıl rayonunun ərazisində də xeyli oronim qeydə alınmışdır.

Azərbaycanda ***ocaq kultu*** çox-çox qədimlərə gedib çıxır. Məlumdur ki, Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. Azərbaycan Respublikasının ərazilərində ***ocaq*** və ya ***pir*** sözü ilə bağlı yüzlərlə toponimlər qeydə alınmışdır. Çox zaman sonsuzlar, şikəstlər, ruhi və cismani xəstələr ürəklərində niyyət tutaraq pirlərə nəzir-niyaz verirlər, onlardan imdad diləyirlər.

Əlavə məlumat üçün bax: **Dağdağan ağacı piri, Dağdağan piri, Dağdağanlı düz.**

## DAĞDAĞAN PİRİ

Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dağdağan piri*** adlanır. Toponim ***dağdağan*** və ***pir*** sözlərindən ibarətdir. Qarağackimilər fəsiləsindən olan, yarpağı tökülən ***dağdağan*** ağacına bəzən ***daşağac*** da deyirlər. ***Dağdağan ağacı*** cox zaman həmişəyaşıl olur. Azərbaycanlılarda ***dağdağan*** ağacı ta qədimlərdən müqəddəs hesab edilir. Adamlar ona ümid yeri kimi baxırlar. ***Dağdağan*** toponimini *"körpələri şər qüvvələrindən qoruyan ağac növü"* kimi izahlandıranlar vardır. Qədim adamlar *"harda dağdağan var, ora pirdir"* deyərdilər.

Azərbaycanda çöl materialları içərisində ***dağdağan*** ağacı ilə bağlı

onlarla coğrafi adlar toplanmışdır. Cəbrayıl rayonunun ərazisində, Sunq dərəsinin Dərbənd keçidi adlanan yerdə, Diri dağın *"Böyük Qarağaclı"* adlanan talasında da ***Dağdağan piri*** adlı oronimə rast gəlirik. Bu pirin ətrafında heç bir hasar və ya daş düzümü yoxdur. Buranı ziyarət edənlər elə ağacın kölgəsində oturub öz dualarını edər, Ulu Tanrıdan özlərinə şəfa diləyərdilər.

Ölkəmizdə ***pir*** sözü ilə bağlı da xeyli coğrafi adlara rast gəlirik. Hələ bütpərəstlik dövründən məlum olan ***pir*** - dini etiqad, inamla bağlı ibadət və sitayiş yeri hesab olunurdu. ***Pirlər*** çarəsiz dərdlərə düçar olanların ziyarət yeri olmuşdur. Bəzən sonsuzlar, şikəstlər, ruhi və cismani xəstələr ürəklərində niyyət tutaraq pirlərə nəzir-niyaz verirlər, onlardan imdad diləyirlər. Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir.

Cəbrayıl rayonunun ərazisində, *Stansiya Xələfli* kəndindən 1,5 kilometr aralıda, yol qırağında ***Dağdağan piri*** adlı başqa bir oroqrafik obyekt də qeydə alınmışdır. Bu ***pir*** Qurbani pirinin yaxınlığındakı 5 metr hündürlüyündə bir dağdağan ağacıdır. Onun dibində daşlar dairəvi şəkildə üst-üstə qoyulub. Yol qırağında olduğu üçün ordan keçənlər pirə nəzir verərdilər. Pirdəki dağdağan ağacı müqəddəs hesab olunurdu. Bu ağacı qırmaq, budaqlarını sındırmaq böyük günah sayılardı. Amma bəzən ürəyində niyyət tutaraq ağacdan kiçik bir çöp qırıb boynundan asanlar da olurdu.

Əlavə məlumat üçün bax: **Dağdağan ağacı piri, Dağdağan ocağı, Dağdağanlı düz.**

## DAĞDAĞANLI DÜZ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dağdağanlı düz*** adlanır. Bu ərazidə ***dağdağan*** ağacları olduğu üçün oronim belə ad almışdır. ***Düz*** coğrafi termini mənfi relyef forması ifadə edir. ***Düz*** (***düzənlik***) yer səthinin, dəniz və okean diblərinin mühüm relyef elementlərindən biridir. ***Düzlər*** müxtəlif cür (*hamar, pilləli, terraslı, dalğalı, təpəli, uvallı* və s.) olur. Yer səthinin çox hissəsini *düzlər* tutur. Azərbaycanın böyük bir ərazisi düzlərdən ibarətdir. Cəbrayıl rayonunun





da ***40*** %-i *düzəngah* hissələrdir.

Əlavə məlumat üçün bax: **Dağdağan ağacı piri, Dağdağan ocağı, Dağdağan piri.**

## DAĞMAŞANLI KƏNDİ

***Dağmaşanlı*** (*bəzən kəndin adını sənədlərdə* ***Dağ Maşanlı*** şəklində də yazırlar; 1968-ci ildən **Təzəkənd** kimi də yazılır) kəndi Qazanzəmi inzibati ərazi vahidində, rayon mərkəzindən 39 kilometr qərbdə yerləşir. Əhalisinin sayı 520 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq və baramaçılıq ilə məşğul olurdu. Kənddə məktəb, klub, kitabxana, ticarət obyekti və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Oykonim ***Maşan*** sözündən və ***-lı*** şəkilçisindən ibarətdir. ***Maşan*** şəxs adıdır. Oykonimin tərkibindəki ***dağ*** sözü kəndi digər yaşayış məntəqəsindən ayırmaq, fərqləndirmək üçün işlənmişdir. Cəbrayıl rayonunda ***Maşanlı*** (***Araz Maşanlı***) kəndi də var. Məlumdur ki, təkrarlanan oykonimlərin diferensiallaşdırılmasında istifadə edilən üsullardan biri də yaşayış məntəqəsinin yerləşmə yerinin relyefini göstərən yerli coğrafi terminlərdən istifadə üsuludur. Bu üsuldan istifadə etməklə toponimiyamızda təkrarlanan coğrafi obyekt adlarının sistemli funksionallığını asanlaşdırmaq olar. Bu üsulda xarakterik cəhət təkrarlanan cərgədəki toponimlərdən birinin sərbəst formada buraxılmasıdır. Digərinin əvvəlinə isə məntəqənin salındığı yerin coğrafi relyefini göstərən terminlər (***dağ***, *dərə, düz, çöl, çuxur, yal* və s.) artırılır.

Bəzi araşdırıcılar oykonimi ***maşanlı*** adlı türkdilli tayfa adı ilə əlaqələndirirlər. XVIII - XIX əsrlərə aid tarixi mənbələrə, sənədlərə görə, ***Maşanlı oymağı*** keçmiş Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Maşanlı oymağı*** keçmiş *Bəydilli* adlı ərazidə məskunlaşmışdır. Yerli məlumata görə, ***Dağ Maşanlı*** kəndinin əhalisi vaxtilə ***Araz Maşanlı*** (***Maşanlı***) kəndindən gəliblər. Hər iki kəndin əhalisi bir-biri ilə qohumdur. ***Maşanlılar*** tarixən heyvandarlıqda qoyunçuluğa daha çox meylli olmuşlar.

***Dağ Maşanlı*** kəndinin əhalisi Sovet hakimiyyətini bəyənmirdilər. Bu kənd ***Yenikənd*** ilə birləşmişdir...

Əlavə məlumat üçün bax: **Maşanlı kəndi.**

## DAĞTUMAS YATAĞI

Cəbrayıl rayonunun Dağtumas kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Dağtumas yatağı*** adlanır. Toponim ***Dağtumas*** kənd adından və ***yataq*** sözündən ibarətdir. ***Yataq*** termini *"davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililərdən olan xüsusi sahə"* anlamındadır. Qədim zamanlardan məlum olan ***yataqlar*** yaylaqda əsasən, daşdan, aranda qamış, ağac, daş, qarğı və s.-dən tikilən ağıl, xalxaldan ibarətdir. Adətən yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerdə salınan yataqlarda çobanlar üçün yaşayış mənzilləri alaçıq, çadır, aran yerlərində isə heyvanların qışlağı üçün damlar olur.

## DAİRƏVİ TÜRBƏ

Cəbrayıl rayonunun ərazisində, Şıxlar kəndində memarlıq üslubuna görə orta əsrlər tarixində özünəməxsus yer tutan XV əsrə aid ***Dairəvi türbə*** Azərbaycanın qorunan memarlıq abidələri siyahısına daxil edilmişdir. Bu *türbə* zahiri formasına görə belə ad almışdır. Məlumdur ki, ***türbə*** - görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün onların qəbirləri üzərində tikilən binadır. Bəzən onun adına ***məqbərə*** də deyirlər. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayılmışdı. Türbələrin xarici səthləri adətən, memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Dairəvi türbə*** adlanan bu qəbirdə də dövrünün nüfuzlu şəxsiyyəti dəfn olunmuşdur.

Rayonun *Xubyarlı* kəndi ərazisində də ***Dairəvi türbə*** tarixi memarlıq abidəsi qeydə alınmışdır. Təəssüflər olsun ki, cəbrayıllıların vaxtilə tapınaq yeri hesab etdikləri bu *türbələr* də erməni vandalları tərəfindən dağıdılmışdır...

## DALAQ DAŞI

Rayon ərazisində, Şükürbəyli kəndinin kövşənində, Quycaq dağı yaxınlığındakı yamacda qeydə alınan oroqrafik obyektlərdən biri ***Dalaq***





***daşı*** adlanır. Bu oroqrafik obyekt hündürlüyü 1 metr olan prizma şəkilli daşdır. *Daşın* bir üzündə yaraqlı atlı və vəhşi heyvan şəklinin cizgiləri vardır. Oronim ***dalaq*** və ***daş*** sözlərindən ibarətdir. Qarın boşluğunun sol tərəfində olub qan kürəcikləri hazırlayan və bu proseslərlə bağlı başqa mürəkkəb vəzifələr görən bədən üzvü ***dalaq*** adlanır. *Dalağı*, eləcə də qara ciyəri ağrıyan və ya şişən xəstələr niyyət edib daşın dibinə duz basdırar, sonra isə qarın boşluğundakı ağrı olan hissələrini həmin *daşa* sürtərdilər. ***Dalaq daşı*** inanclarla bağlı yaranan toponimlərdəndir.

Cəbrayıl rayonunun ərazisində, Hovuslu kəndinin yaxınlığında, Çaxmaq çaylağından Ümürlü düzünə qalxan yolun kənarında da ***Dalaq daşı*** adlı oronim qeydə alınmışdır. Bu oroqrafik obyekt iki yerə bölünmüş qara mamırlı ***daşdan*** ibarətdir. Daşın yarılmış yerinə el arasında ***Həzrət Əlinin qılınc yeri*** də deyirlər. Bu ***pir*** ərazi Hovuslu kənd camaatının and yerinə, ziyarətgahına çevrilmişdir. Deyilənə görə ***dalaq*** və qara ciyərində ağrı-acısı olan xəstələr qarın boşluğundakı müvafiq nahiyələrini buradakı daşa sürtər və şəfa tapardılar...

## DAR TƏPƏSİ

Hacı Qaraman ocağından cənubda qeydə alınan oronimlərdən biri ***Dar təpəsi*** adlanır. Bu oronim adından da göründüyü kimi ***dar*** sözündən, ***təpə*** coğrafi terminindən və mənsubiyyət ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Dar təpəsi*** üzü daşlarla örtülmüş ***dar*** keçidi olan təpəlikdir. Elə bu səbəbdən də toponim belə adlandırılmışdır. ***Təpə*** - relyefin müsbət formalarından olub, ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklikdir. Azərbaycan toponimiyasında ***təpə*** müsbət relyef forması bildirən coğrafi termininin iştirakı ilə çöl materialları arasında ***3500*** oronim toplanmışdır.

## DARIDAĞ

Respublikamız ərazisində çox maraqlı metafor oronimlərdən biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Darıdağ*** coğrafi adıdır. Bəzi tə-

dqiqatçılar bu oroqrafik obyekti taxıllar fəsiləsindən birillik ot bitki cinsi olan ***darı*** adı ilə əlaqələndirirlər. Maraqlı burasıdır ki, bu oronimdə taxıl növü olan ***darı*** həqiqi mənada yox, metafor mənasında işlənmişdir.

Yumru toxumları olan birillik taxıl bitkisi və bu bitkinin dəni ***darı*** adlanır. Oronim ***darı*** və ***dağ*** sözlərindən əmələ gəlmişdir. **Darıdağ** oronimi ***darı*** şəklində qum daşlarından təşkil olunduğu üçün ***Darıdağ*** adlanmışdır.

Gədəbəy və Culfa rayonlarında da ***Darıdağ*** oronimi qeydə alınmışdır. Tədqiqatçı-alim Q.Qeybullayevin fikrincə, ***darı*** sözü ərəb dilindəki, *"**deyir**" ("məbəd, monastr")*, ***deyr*** sözünün təhrif olunmuş formasıdır. O, öz fikrini dağda bir neçə məbəd qalıqlarının olması ilə əsaslandırır.

## DAŞ BULAQ

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Daş bulaq*** adlanır. Hidronim ***daş*** (*daşlıq*) sözündən və ***bulaq*** (*su obyekti*) hidronimik apelyativindən ibarətdir. Bu bulağın suyu *daşdan*, daşlıq ərazidən süzülüb çıxdığı üçün yerli əhali onu belə adlandırmışdır. Toponim *"Daşlı bulaq"* anlamını ifadə edir.

## DAŞ PİRİ

(*Bax:* **Yazılı daş**)

## DAŞKƏSƏN DAĞI

Cəbrayıl rayonu ərazisində qeydə alınmış oronimlərdən biri ***Daşkəsən dağı*** adlanır. Yerli əhali arasında ***Daşkəsən təpəsi*** adı ilə də tanınır. ***Dağın*** (*təpənin*) üstü daşlıq, qayalıqdır. Ətraf kəndlərin əhalisi əvvəllər ev tikmək üçün bu daşlardan kəsib aparırmış. Elə ona görə də ***dağ*** belə adlanmışdır. Ərazidə ev tikmək üçün ***daş kəsilən***, çıxarılan yer (*karxana*) var. Burada tikinti ***daşı*** çıxarılırdı. Azərbaycanda ***daş*** sözü ilə bağlı ***25*** oykonim qeydə alınmışdır. Bu coğrafi adlarda ***daş*** termini adətən toponimin əvvəlində gəlir. Toponim *"karxana"* mənasındadır.

İrəvan quberniyasının Aleksandropol qəzasında *Daşkəsən* adlı dağ var idi. O, 1950-ci il tarixli sənədə görə, Rəvan əyalətinin Karbi nahiyəsində eyniadlı yaylaq yeri olmuşdur.

Rayonda ***Daşkəsən*** adlı kənd də vardır.





## DAŞKƏSƏN KƏNDİ

***Daşkəsən kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 12 kilometr şərqdə, Süleymanlı kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 580 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük kənd əhalisinin əsas məşğulluq sahələri hesab olunurdu. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti, kəhriz və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Daşkəsən*** oykonimi ***daş*** və ***kəsən*** sözlərindən ibarət olub, *"daş kəsilən yer", "daş karxanası"* mənasındadır. ***Daşkəsən*** yaşayış məntəqəsi ***Daşkəsən dağı (təpəsi)*** adlanan yerin şərqində salındığına görə belə adlanmışdır. XVIII əsrə aid tarixi sənədlərə əsasən deyə bilərik ki, ***Daşkəsən kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur.

Azərbaycanda *Daşkəsən rayonu*, *Daşkəsən* şəhəri, Daşkəsən rayonu ərazisində *Daşkəsən* çayı, Daşkəsən rayonunda *Daşkəsən* şəhər *tipli qəsəbəsi*, Salyan rayonu ərazisində *Daşkəsən yüksəkliyi* də qeydə alınmışdır. Bunlardan başqa *Daşaltı, Daşbaşı Daşbulaq, Daşlıca, Daşburun, Daşkənd, Daşsalahlı, Daşdüz, Daşoğuz, Daşüz, Daşdəmirbəyli, Daşveysəlli* və s. coğrafi adlar da ***daş*** komponenti ilə bağlı olaraq yaranmışdır.

1823-cü il siyahıyaalınmasına görə, kənddə 30 ev olmuşdur (senator Moqilevski, polkovnik Yermalov).

Əlavə məlumat üçün bax: **Daşkəsən dağı.**

## DAŞLI ÇUXUR

***Daşlı çuxur*** oronimi Cəbrayıl rayonunun Dağ Tumas kəndində qeydə alınmışdır. ***Çuxur*** termini *"oyuq", "ətrafı yüksəkliklərlə əhatə olunmuş dərinlik", "yer səthinin aşağı çökən oyulmuş hissəsi", "çökək"* və s. mənalarda işlənir. Bu terminlə əlaqədar Azərbaycanımızda ***500***-dən çox oronim qeydə alınmışdır. ***Daşlı çuxur*** toponim *"daşlı oyuq, çökək"* mənasındadır.

## DAŞLI YOXUŞ

Nüzgər kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Daşlı yoxuş*** adlanır. Oronim ***daş*** və ***yoxuş*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. Oronimiyada yolun dağa, təpəyə, yaylağa çıxan hissəsinə və yamacın aşağıdan yuxarıya kəsiminə ***yoxuş*** deyilir. ***Yoxuş*** müsbət relyef formasını ifadə edən coğrafi termini ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***2 200*** coğrafi ad toplanmışdır. Nüzgər kəndinin yaxınlığındakı *yoxuşun* yeri ***daşlı*** olduğundan toponim ***Daşlı yoxuş*** adlandırılmışdır.

## DAŞVEYSƏLLİ KƏNDİ

***Daşveysəlli kəndi*** (kəndin adını bəzən ***Daş Veysəlli*** şəklində də yazırlar) Cəbrayıl rayonunda, rayon mərkəzindən 3 kilometr cənubda, Minbaşılı kənd inzibati ərazi vahidində, Gəyan çölündə yerləşir. Əhalisinin sayı 1200 nəfərdir. Heyvandarlıq, üzümçülük, taxılçılıq və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, uşaq bağçası, ticarət-iaşə obyektləri, daş karxanası, dəyirman, kəhriz, artezian, qədim qəbiristanlıqlar, pirlər və s. vardı. Kəndin *abbasqulular, allahverənlilər, yaqublular, valixanlılar, vəlililər, sefixanlılar* və s. adlı tayfa, nəsil və tirələri var. Kəndin ərazisində *Qərib Ağa piri, Düldül piri, Allahverənlilər dərəsi, Ağtəpə, Uzundərə, Qəbiristanlıq yalı, Bülul dərəsi, Yaloba, Qaratəpə, Qayaburnu, Həsənqışlağı, Sajaq* və s. adlı toponimlər qeydə alınmışdır. Yaşayış





məntəqəsi 1993-cü ilin avqustunda erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdir. Kənd işğal edilərkən doğma yurduna bağlı olan ***Hüseyn Ataş oğlu Hüseynov*** *"Ölsəm də yurdumu tərk etməyəcəyəm"* – deyib, indiki və gələcək nəsillər üçün əsil vətənpərvərlik nümunəsi nümayiş etdirərək yaşayış məntəqəsini tərk etməmişdir (*o zamandan 20 ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də indiyədək ondan bir xəbər yoxdur*).

Toponimiyada ***daş*** (***taş, dış***) termini *"kənar", "qıraq", "daşlıq", "qayalıq"* mənalarını ifadə edir. ***Daş*** (***dış***) fərqləndirici əlaməti ilə bir neçə yerlərdə təkrarlanan və müxtəlif semantik elementlərlə bir-birindən fərqləndirilən ***Veysəlli*** toponimlərindən biri diferensiallaşdırılmışdır. Bu mənada ***Daşveysəlli*** (***Daş Veysəlli***) toponimi *"Qıraq Veysəlli", "Kənar Veysəlli"* anlamındadır. Bəzi araşdırıcılara görə isə, ***Daşveysəlli*** sözü ***daş*** (*"qayalıq", "daşlıq"*) komponentindən və ***veysəlli*** etnonimindən ibarətdir. Toponimin tərkibindəki ***daş*** komponenti obyektin hansı şəxsə və ya tayfaya mənsub olmasını bildirir.

Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***daş*** sözünün iştirakı olan ***25*** oykonim vardır. ***Daş*** topoformantı ilə bağlı coğrafi adlar əsasən dağlıq ərazilərdə, *daş* bol olan yerlərdə, *daşlıq* ərazilərdə yaranmışdır. ***Daş*** sözü *"qayalıq, daşlıq"* mənası kəsb edir.

Oykonimin tərkibindəki ***Veysəlli*** sözü tirə, nəsil adını ifadə edir. Bu tirənin adı onun əsasını qoymuş ***Veysəl*** (***Veyis***) şəxs adı ilə bağlıdır. *Veysəlli obası* XVIII - XIX əsrlərdə Cəbrayıl elinin ***18*** oymağından biri kimi *Bülul* və *Göyərçin* torpaqlarında məskunlaşmışdır. ***Daşveysəlli*** kəndinin salındığı ərazi ***daşlıq*** olduğuna görə və onu Cəbrayıl rayonundakı ***Göyərçin Veysəlli*** kəndindən fərqləndirmək üçün toponimin əvvəlinə ***daş*** sözü əlavə olunmuşdur. ***Daşveysəlli*** toponimi *"qayalıq və daşlıq yerdə yerləşən Veysəlli kəndi"* mənasındadır. Rayonda ***Göyərçin Veysəlli kəndi*** də var.

Əlavə məlumat üçün bax: **Göyərçin Veysəlli kəndi.**

## DƏCƏL KƏHRİZİ

Cəbrayıl rayonunun Dəcəl kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Dəcəl kəhrizi*** adlanır. Bəzən sənədlərdə onun adını ***Dəjəl*** (*"c"* – *"j"* səs əvəzlənmələri Cəbrayıl şivəsi üçün də xarakterikdir) kimi

də yazırlar. Hidronim ***Dəcəl*** kənd adından və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. ***Dəcəl*** sözü *"dinc oturmayan, rahat durmayan, nadinc"* alamını ifadə edir.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** *fəsillərdən asılı olmayaraq* müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

***Dəcəl*** kəhrizinin vurulduğu tarix dəqiq bilinmir.

## DƏCƏL KƏNDİ

***Dəcəl kəndi*** (yerli əhali kəndin adını ***Dəjəl*** şəklində də tələffüz edir) Cəbrayıl rayonunda, rayon mərkəzindən 13 kilometr cənub-şərqdə, Şükürbəyli inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 140 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana, klub, tibb məntəqəsi, kəhriz və s. vardı.

Yerli məlumata görə, kəndi XVIII əsrdə Şıxalı ağanın qardaşı Əhmədxan (*Vəli ağanın oğlu*) salmışdır. Bəzən kəndin adını ***Dəjəl*** kimi də səsləndirirlər. Yaşayış məntəqəsinə ***Dəcəl*** (***Dəjəl*** - *"c"* və *"j"* səs əvəzlənmələri *cəbrayıllı* şivəsi üçün səciyyəvi xarakter daşıyır) adının verilməsinin səbəbi hələlik tam dəqiqliklə müəyyənləşdirilməmişdir. Bir fikrə görə, kənd adamları vaxtilə vergidən boyun qaçırdıqları üçün onları ***"dəcəl"*** adlandırmışlar. Bəzi mənbəyə görə, bu söz, bu fikir *Səfər* şaha məxsusdur. Bu sözlə əlaqədar müxtəlif fikir, mülahizə və versiyalar vardır. Bəziləri toponimin təhrif olunmuş formasını ərəb dilindəki ***dəccal*** sözü ilə əlaqələndirməyə çalışır. ***Dəccal*** - 1) islamiyyətə: *"qiyamət günü eşşəyə tərsinə minərək zühur edəcək əfsanəvi şəxs"*; 2) *"on ikinci imam Mehdinin*





*zühuru ərəfəsində zühur edəcək yalançı Mehdi"*; 3) xristianlarda: *"İsanın düşməni, antixrist"*; 4) *"yalançı, fırıldaqçı"*; 5) *"dəcəl"* mənaları daşıyır.

## DƏCƏLLİ DİKİ

Cəbrayıl rayonunun Şahvələdli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Dəcəlli diki*** adlanır. Oronim ***Dəcəl*** (*kənd adı*) sözündən, ***-li*** şəkilçisindən və ***dik*** müsbət relyef forması bildirən coğrafi terminden ibarətdir. Bu dikdən sonra ***Dəcəl*** kəndinin ərazisi olduğundan toponim belə ad almışdır. ***Dik*** termini oronimiyamızda *"yuxarıya doğru şaquli istiqamətdə uzanan hündür, sərt yoxuş"* mənasındadır. Azərbaycan Respublikasın ərazisində ***dik*** termini ilə bağlı ***4 200*** oronim qeydə alınmışdır.

## DƏHNƏLƏR

Dağ Tuma kəndindən bir neçə kilometr aralıda, İncə çayından su götürmək üçün dəyirman şırşırının cənubundakı arx başlarında qeydə alınan oroqrafik obyektlər ***Dəhnələr*** adlanır. ***Dəhnələr*** adlanan ərazi həmin sahələrdə vurulan bəndlərdən ibarətdir. ***Dəhnə*** (*baş qurğu*) – su təchizatı məqsədilə çay, göl, su anbarı və s.-dən sugötürən hidrotexniki qurğudur.

Əvvəllər Azərbaycanda əkinləri suvarmaq üçün çay və su anbarlarının düzənliyə çıxan hissəsinin qarşısını daş, kol-kos və ağac ilə tutardılar. Su *dəhnəyə* öz axını ilə və ya mexaniki üsulla verilirdi. Əgər çaydan su birbaşa, bənd tikilmədən götürülürsə, belə dəhnəyə *bəndsiz dəhnə*, əksinə olduqda isə ona *bəndli dəhnə* deyilir. *Su elektrik stansiyası dəhnəsi* su qovşağının tərkibində olub, çox vaxt çaylarda düzəldilir. *Su təchizatı sistemi dəhnəsi* çay, su anbarı, göl, dəniz və s.-də düzəldilir. İrriqasiya dəhnəsi bəndli və bəndsiz olur. Belə ***dəhnələr*** çox vaxt çayın əyri hissəsində qabarıq sahildə düzəldilir. Bu zaman suyun nisbətən duru olan üst təbəqəsi dəhnəyə, lilli alt təbəqəsi isə yenidən çayın məcrasına istiqamətlənir.

## DƏLİ YARĞAN

Dağ Tumas kəndinin yaxınlığında, İncə çayının sağ ətəyində, Cədə yolunun altında qeydə alınan oronim ***Dəli yarğan*** adlanır. Toponim ***dəli*** və ***yarğan*** sözlərindən ibarətdir. Bu ərazi sərt sıldırımlı olduğu üçün yerli əhali tərəfindən belə adlandırılmışdır. ***Yarğan*** – müvəqqəti su axınlarının əmələ gətirdiyi dik yamaclı çuxurdur. Əsasən yumşaq süxurlardan ibarət nisbətən hündür düzən sahələrdə, yüksəkliklərdə, təpələrdə əmələ gəlir. Bəzən onların uzunluğu 1 kilometrə qədər, eni və dərinliyi isə 10 metrlərlə olur. Yarğanlar əsasən kənd təsərrüfatına böyük zərər vurur. Onlar əkin sahələrini parçalayır, yararsız hala salır. Yarğanların inkişafının qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirilir: süni meşələr salınır və aqromeşəmeliorasiya tədbirləri görülür.

## DƏLİDAĞ

***Dəlidağ*** oronimi Cəbrayıl rayonu ərazisində qeydə alınmışdır. ***Dağ*** müsbət relyef forması bildirən coğrafi termindir. Azərbaycan Respublikasının ərazisində ***dağ*** coğrafi termini ilə əlaqədar ***1 300*** oronim qeydə alınmışdır. ***Dəli*** onun (***dağın***) əzəmətli olmasına işarədir.

Kəlbəcər və Laçın rayonları ərazisində də *Dəlidağ* oronimi mövcuddur.

## DƏLİK DAŞ

Qarabağ silsiləsində, Tey dağının cənub yamacında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəlik daş*** adlanır. Oronim ***dəlik*** və ***daş*** sözlərindən ibarətdir. Toponim *"dəliyi, deşiyi olan daş"* mənasındadır. Daşın üzərində təbii oyuqların olmasına görə oronim belə ad almışdır. ***Daş*** komponenti bəzən *"qaya"* anlamında da işlədilir. Türkdilli xalqların toponimiyasında ***dəlik*** komponentini əvəz edən *"deşik"* sözünə də təsadüf edilir. Azərbaycan ərazisində bu tipli toponimlərə çox yerdə rast gəlmək mümkündür.

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında,





Tumaslı dağının gündoğan hissəsində, Yastı ardıcdan yüz metr günbatanda ***Dəlikdaş*** adlı digər bir oroqrafik obyekt də qeydə alınmışdır.

## DƏLİKDAŞ

Tumaslı dağının 3 kilometrliyində, dağın gündoğan döşündə, dağətəyi ərazidə, Yastı ardıcdan 100 metr günbatanda və onun bərabərində qeydə alınan oronim ***Dəlikdaş*** adlanır. Oronim ***dəlik*** və ***daş*** sözlərindən əmələ gəlmişdir. Üstü yazılı, ***dəlikli***, oyuqlu qaya ***daşı*** olan bu oroqrafik obyekt elə bu səbəbdən belə ad almışdır. ***Daş*** komponenti burada *qaya* mənasındadır. Oronim qayalarında təbii oyuqların – *dəliklərin* olması ilə əlaqədar olaraq belə adlandırılmışdır. ***Dəlikdaş*** toponimi *"dəliyi, deşiyi olan daş"* anlamındadır.

Türkdilli xalqların toponimiyasında ***dəlik*** komponentini əvəz edən ***deşik*** sözünə də təsadüf olunur: ***Deşikdağ*** (Özbəkistanın Surxandərya vilayətində, Barsuktaq dağında paleolit dövrünə aid mağara), ***Deşikqala*** (Qaraqalpaq Respublikasının Turtqul rayonunda qədim dövrə aid qəsr xarabalıqları) və s.

Xocalı rayonunun ərazisində, rayonun şərqində, Qarabağ silsiləsinin qərb yamacında da ***Dəlikdaş*** adlı oronimə rast gəlirik.

## DƏLİQAYA

Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Dəliqaya*** oronimi əslində bir qədər təhrifə uğramışdır. ***Qaya*** - müsbət relyef forması ifadə edən coğrafi termindir. Adətən sıra dağlardan ayrılan qol və ya dağların müəyyən hissəsində çətin keçilən yer ***qaya*** adlanır. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***qaya*** termini iştirak edən ***2 800*** oronim qeydə alınışdır.

## DƏMŞALAQ

Rayon ərazisində qeydə alınan toponimlərdən biri də ***Dəmşalaq*** coğrafi adıdır. Bəzi araşdırıcılar ***Dəmşalaq*** toponiminin zahiri görkəminə, ilkin deyim formasına uyaraq onu *"dəm çalmaq"* mənasında izah etməyə üstünlük verirlər. Bir qisim tədqiqatçılar isə bu sözü ***dəmyə*** və ***laq*** komponentləri ilə əlaqələndirib, *"dəmyə yer"* mənasında izahlandırırlar. Ərazinin coğrafi relyefi də ikinci fikrin doğruluğunu təsdiq edir.

## DƏRVİŞPİRİM

Cəbrayıl rayonu ərazisində, Dağtumas kəndi yaxınlığında, Həkəri sahilindən Gəyən düzünə qalxan eyniadlı yoxuşun başında, yaylaq yolu altında, Hacı Qasım Çələbinin övladlarının evinə gedən yolda yerləşən kiçik təpə üzərindəki qəbir ***Dərvişpirim*** adlanır. Bəzən adını ***Dərviş Pirim*** kimi də yazırlar. Deyilənə görə Hacı Qasım Çələbini harasa qonaq aparırmışlar. Deyibdi ki, aların başını saxla, elə burda dəstəmaz alıb namaz qılacağam. Bu namaz qılınan yeri, qaratikan kolunun yerləşdiyi ərazini camaat sonralar müqəddəs ***pir*** kimi əziz tutdular, onu daş hasara aldılar.

Sınanılmış bu ***qəbir-pir*** tərkidünyalığı qəbul etmiş dövrünün sufi bir mömin bəndəsi olan ***Dərvişpirim*** babaya məxsusdur. ***Dərvişpirim ocaq-piri*** Tumas oymaqları ilə yanaşı, tərəkəmə camaatının da etiqad, inanc ocağı olmuşdur. Yaylaq yolu üzərində yerləşdiyi üçün yaylağa çıxanlar və arana qayıdanlar burada qurbanlar kəsər, niyyət tutaraq özlərinə əmin-amanlıq diləyərdilər və deyilənlərə görə onların bu dilәkləri yerinə yetərdi...

Qapı-qapı gəzərək, yaxud meydanlarda adamları başına yığaraq peyğəmbərə, imamlara, Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazl ilə oxuyub pul yığan adama el arasında ***dərviş*** deyilir.

## DƏRZİLİ KƏNDİ

***Dərzili kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 33 kilometr cənub-qərbdə, Qumlaq kənd inzibati ərazi vahidində, Gəyan çölündə,





düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 300 nəfərdir. Heyvandarlıq, üzümçülük, taxılçılıq və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə əsas məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. Kəndin ərazisində *Dərzili piri, Saqqız piri, Uşaq piri, Yel piri* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

***Dərzili*** yaşayış məntəqəsi XIX əsrin ikinci yarısında Zəngəzur qəzasında əsasən maldarlıqla məşğul olmuş ***dərzili*** tayfasının adını özündə əks etdirir. ***Dərzili*** (*adı mənbələrdə bəzən* ***Tərzili*** *kimi də qeyd olunur*) tayfası XIX əsrdə əsasən *Bayəli, Bernin, Gümarlı, Gün, Çəmbər, Qaragöl, Quşilər, Qomaran, Kırxılı Pirveysli, Razgah, Şərəkən* adlı yaşayış məntəqələrində (*qışlaqlarında*) yaşayırdılar. Əfşar və şahsevən qarışığı olan bu tayfanın Qopanat (*Qafan*) eli ilə qohumluğu vardır.

Azərbaycan ərazisində sənətkarlıqla, peşə ilə əlaqədar xeyli toponimlər qeydə alınmışdır. Azərbaycanda adətən paltar biçib-tikən ustaya ***dərzi*** deyilir. ***Dərzili*** oykoniminin ***dərzi*** peşəsi və sənətkarlığı ilə bağlı yarandığını iddia edənlər vardır. Doğrudan da bu kənddən ***dərzilikla***, tikiş işləri ilə məşğul olan çoxlu sənətkarlar çıxmışdır. Dərzili kəndinin sənətkarları müxtəlif geyim əşyaları hazırlamaqda indi də məşhurdurlar. Bəlkə elə bu səbəbdən yaşayış məntəqəsi ***Dərzili*** adlandırılmışdır.

Zəngəzur qəzasında vaxtilə *Dərzili* adlı kənd (1918-ci ildə azərbaycanlı əhalisi oradan qovulmuşdur) olmuşdur. 1728-ci il sənədinə görə, İrəvan əyalətinin Aralıq nahiyəsində də vaxtilə *Dərzili kəndi* mövcud olmuşdur...

## DƏRZİLİ PİRİ

Dərzili kəndinin qəbiristanlığının kənarında qeydə alınan oroqrafik obyektlərdən biri ***Dərzili piri*** adlanır. ***Dərzili piri*** daş hərləməli nazik gövdəli ***dağdağan*** ağacından ibarətdir. Adətən hər həftənin çərşənbə günlərində sonsuzluğu olan qadınlar bu *pirə* gələr, övlad istəyi ilə niyyət edər, ağacın budağından kiçik yüyürüklər, yüyürcəklər asardılar. Ziyarətçilərdən bəziləri isə ocaqdan uzaqda olanlara şəfa diləyərdilər.

Hələ bütpərəstlik dövründən məlum olan ***pir*** - *dini etiqad, inamla bağlı ibadət və sitayiş yeri* hesab olunurdu. ***Pirlər*** çarəsiz dərdlərə düçar olanların ziyarət yeri olmuşdur. Bəzən sonsuzlar, şikəstlər, ruhi və cismani xəstələr ürəklərində niyyət tutaraq pirlərə nəzir-niyaz verir, onlardan imdad diləyirlər. Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. Azərbaycan Respublikasının ərazisində ***pir*** sözü ilə bağlı yüzlərlə toponim qeydə alınmışdır.

## DƏVƏ ÖLƏN DƏRƏ, DƏVƏBATAN DƏRƏ

***Dəvə*** ölən ***dərə*** oronimi Cəbrayıl rayonunun Xudaverdili kəndi ərazisində, ***Dəvəbatan dərə*** coğrafi adı ilə Həsənqaydı ərazisində qeydə alınmışdır. ***Dəvə*** - çöl heyvan adını özündə əks etdirən oronimlər respublikamızda sayca yüzdən çoxdur. Hər iki oronim baş vermiş hadisəyə görə (*dəvənin* ***ölməsi*** və ***batması***) belə ad almışdır.

***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar, çökək forması ***dərə*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***dərə*** termini iştirak edən ***30 000*** oronim qeydə alınmışdır.

## DƏVƏBATAN GÖL

Heyvan adları əsasında əmələ gələn zoohidronimlərdən biri də Cəbrayıl rayonunun Xudaverdili kəndi yaxınlığında qeydə alınan ***Dəvəbatan göl*** adlanır. Hidronim ***dəvə*** heyvan adından, ***batan*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Vaxtilə bu ***göldə dəvə batdığı*** üçün yerli əhali sonralar gölü belə adlandırmışdır.

***Dəvələr*** – dəvəkimilər fəsiləsindən cütdırnaqlı gövşəyən heyvan cinsidir. İki növü var: *birhürgüclü* və *ikihürgüclü*. Birhürgüclü dəvənin süysüyünün hündürlüyü ***210*** sm-dək, rəngi isə kürən-boz olur. İkihürgüclü dəvənin süysüyünün hündürlüyü bir qədər kiçik, rəngi isə tünd-qonur olur; onlar səhra və quru-bozqır zonalarda yaşayırlar. Azərbaycanda dəvələrin əsas cins və populyasiyaları belə adlanır: ikihürgüclü dəvənin erkəyi buğur, dişisi haça-maya, birinci nəslin mələzləri nər, pəsərən maya və s. Dəvələrdən minik və yük heyvanı kimi Zaqafqaziyada e. ə. II minilliyin II yarısından, Azərbaycanda isə e. ə. I minilliyin əvvəllərindən istifadə edilməyə başlanılmışdır. Dəvə ***500*** kq yüklə gündə ***100*** km-ə qədər yol gedə bilir. Buna görə onları "*səhra gəmisi*" adlandırırlar. Dəvələrdən nəqliyyat sahəsində XX əsrin 20-30-cu illərinə qədər istifadə olunmuşdur.





## DƏVƏDABAN DAĞI, DƏRƏSİ, TƏPƏSİ, ÇÖLÜ

***Dəvədaban dağı, dərəsi, təpəsi, çölü*** adlı oronimlər Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmışdır. Onların hər biri ***dəvə*** çöl heyvanı adı və ***daban*** metaforik terminindən ibarətdir. ***Daban*** sözü dil mənşə etibarı ilə monqol dilli termin olub, "*dağ, dərə, təpə, çöl ayağının aşağı hissəsi*", "*dağın dibinə yaxın yer*" və s. mənalarda işlənir. ***Dağ, dərə, təpə*** və çöl coğrafi terminləri relyef formalarını ifadə edir. Oronimiyamızda ***daban*** termini ilə əlaqədar ***20***-yə qədər oroqrafik obyekt qeydə alınıb. Bu sözün həm də "*aşırım*", "*dağ yüksəkliyi*", "*təpə*" və s. məna çalarları da var.

## DƏVƏÖLƏN

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Dəvəölən*** adlanır. Oronim ***dəvə*** və ***ölən*** sözlərindən əmələ gəlmişdir. ***Dəvəölən*** toponimi vaxtilə bu ərazidə baş vermiş bədbəxt hadisə (*dəvənən ölməsi*) ilə əlaqədar olaraq belə ad almışdır. ***Dəvəölən*** toponimi "*dəvənin öldüyü yer*" mənasındadır.

## DƏVƏSURÇAN

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Şalın şərq hissəsində, Rəzgəyə gedən yolun sal qaya olan üstündə, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyekt ***Dəvəsurçan*** adlanır. Vaxtilə bu sal qaya üstündən keçən ***sürüşkən*** yolda ***dəvə*** sürüşüb (*surçub*) yıxıldığı üçün toponim el

arasında belə ad almışdır. Qarabağ dialektinin xarakterik xüsusiyyətlərindən asılı olaraq ***sürüşən*** sözü yerli şivəyə uyğun olaraq el arasında bəzən ***surçan*** kimi də işlədilir.

## DƏYİRMAN ARXI

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Dəyirman arxı*** adlanır. Bu coğrafi ad ***dəyirman*** və ***arx*** sözlərindən əmələ gəlmişdir. ***Dəyirman*** - *"un istehsalı edən müəssisə"* deməkdir. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***dəyirman*** sözü olan toponimlərin sayı ***80***-ə qədərdir. Toponimin tərkibindəki ***arx*** sözü hidronimik apelyativdir.

## DƏYİRMAN DƏRƏSİ

Cəbrayıl şəhərinin girəcəyində, Turac pavilyonundan avtovağzala gedən dolanbac şose yolunun kənarında yerləşən, Hüseyn ağa kəhrizindən başlamış Yarəhmədli məhəlləsinin başlanğıcına qədər uzanan böyük çökək dərə ***Dəyirman dərəsi*** adlanırdı. Oronim ***dəyirman*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef formasını ifadə edir. Vaxtilə bu dərədə ***dəyirman*** olduğu üçün ərazi ***Dəyirman dərəsi*** adlanmışdır. Yerli camaat bu dərəni çox vaxt ***Cənnət dərəsi*** də adlandırırdı. Bu ***dərə*** uzun müddət (*XX əsrin ortalarına qədər*) rus sərhəd qoşunları süvari alayının təlim-cıdır meydanı olmuşdur. Sərhəd qoşunları başqa ərazilərə köçürüldükdən sonra bu ərazi camaata paylanmış və az bir zamanda burada - dərənin sol və cağ yamaclarında gözəl, yaraşıqlı evlər tikilmişdir. Hər bir həyətdə səliqə ilə əkilmiş saysız-hesabsız rəngarəng bəzək və meyvə ağacları bu yerlərə xüsusi gözəllik verirdi. Ən isti yay günlərində belə burada sərin meh əsirdi...





## DƏYİRMAN YALI

***Dəyirman yalı*** oronimi Cəbrayıl rayonunun Xudaverdili kəndi ərazisində qeydə alınmışdır. ***Dəyirman*** - *"un istehsalı* üçün *müəssisə"*, *"dəni üyüdüb una və yarmaya çevirmək üçün müxtəlif qurğuları olan karxana"* deməkdir. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***dəyirman*** sözü olan oronimlərin sayı ***80***-ə qədərdir.

***Dəyirman yalı*** oroniminin tərkibindəki ***yal*** coğrafı termini müsbət relyef forması ifadə edir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasinin ərazisində adının tərkibində ***yal*** komponenti iştirak edən ***600*** oronim qeydə alınıbdır.

## DƏYMƏDƏRƏ

Kənd təsərrüfatı sahələri ilə əlaqədar tikintilərin oronim yaradıcılığında böyük rolu vardır. Cəbrayıl rayonunda qeydə alınmış ***Dəymədərə*** oronimi də belə xarakterik xüsusiyyətlərə malikdir. ***Dəymə*** termini oronimiyamızda adətən maldarlıqla əlaqədar olaraq işlədilir. Türk dillərində *"daima, dayma, dəymə"* - *"heyvanın,* əsasən *qaramalın gecələr yatması* üçün *yer"*, *"heyvan* üçün *yataq yeri"*, *"heyvan saxlanan dərə"* mənası kəsb edir. *"Mal-qaranın dağ* ətəyində *saxlandığı yer"* ***dəymə*** adlanır. ***Dəymədərə*** toponimi *"heyvan yatan, heyvanlar saxlanılan dərə"* deməkdir.

Bu tipli coğrafi adlara Bərdə, Qax və Oğuz rayonlarında da rast gəlirik. Zəngəzur qəzasında da belə oronimlər qeydə alınmışdır...

## DİK DAŞ

Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Dik daş*** adlanır. Bəzən adını ***Dikdaş*** formasında da yazırlar. *Soyqırım qurbanları təpəsi* də bu ərazidədir. Oronim ***dik*** və ***daş*** sözlərindən ibarətdir. ***Dik*** termini oronimiyada *"aşağıdan yuxarıya doğru şaquli istiqamətdə yzanan hündür sərt yoxuş"* mənasını bildirir. Azərbaycan Respublikası ərazilərində ***dik*** coğrafi termini ilə bağlı ***4 200*** oronim

qeydə alınmışdır.

Kəlbəcər rayonunun Alçalı kəndi, Şəmkir rayonunun Tatarlı kəndi, Dakəsən rayonunun Dardərə kəndi, eləcə də Cəbrayıl, Füzuli, Gədəbəy, Laçın, Şuşa və digər rayonların ərazilərində də ***Dik daş*** (***Dikdaş***) coğrafi adına rast gəlirik.

## DİK QAYA

***Dik qaya*** Dağ Tumas kəndinin 5 kilometrliyində, Dəyirman yolunun Böyük Gava dönən hissəsinin üstündə, gündoğan qayalıq ərazidə yerləşir. ***Dik qaya*** sərt sıldırım sal daşdan ibarət dağdır. ***Qaya*** yerləşdiyi landşafta görə çox ***dik*** (*"aşağıdan yuxarıya doğru şaquli vəziyyətdə yüksələn"*) olduğu üçün belə ad almışdır. Oronim ***dik*** və ***qaya*** sözlərindən əmələ gəlmişdir. ***Qaya*** və ***dik*** coğrafi terminləri müsbət relyef formaları ifadə edir. ***Qaya*** - *"sıra dağlardan ayrılmış qol"* və ya *"dağların müəyyən hissəsində çətin keçilən yer"* anlamındadır. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***qaya*** termini ilə əlaqədar ***3 000*** oronim qeydə alınmışdır. Oronimiyada yuxarıya doğru şaquli istiqamətdə uzanan hündür sərt yoxuş ***dik*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində ***dik*** termininin iştirakı ilə ***4 400*** oronim toplanmışdır.

## DİRİ BULAQ

Cəbrayıl rayonunun ərazisində, Diri kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Diri bulaq*** adlanır. Bu bulağın göz yaşı kimi dumduru, şəffaf, həm də soyuq suyu vardır. Hidronim ***Diri*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Bulaq*** çox güman ki, ***Diri*** kəndinin yaxınlığında yerləşdiyi üçün belə adlandırılmışdır. ***Diri*** sözü *"canı olan, canlı, sağ, yaşayan"* anlamını ifadə edir.





## DİRİ KƏNDİ, DİRİDAĞ

***Diri kəndi*** və ***Diridağ*** Cəbrayıl rayonunun cənub-qərb ərazisində, Araz çayının sol sahilində yerləşir. Hazırda kənddə yaşayış yoxdur. Dağda ***Diri*** kəndinin (*kənd öz adını bu dağın adından götürmüşdür*) və qalasının xarabalıqları hazırda da qalmaqdadır. XVI yüzillikdə yaşayıb-yaradan *Dirili Qurbani* və məşhur Aşıq Surxay (*Dirili Surxay*) Bəyalı oğlu (1902 - 1945) bu kənddəndirlər. Qəbirləri də dağın ətəyindədir. Bəzi ədəbiyyatlarda ***Diridağ*** toponimindən ***Darıdağ*** kimi bəhs edilməsi əlbəttə ki, səhvdir.

Yerli məlumata görə, təqribən XVIII - XIX əsrlərdə ***Diri*** kəndinin əhalisi Cənubi Azərbaycanın Qaradağ mahalına köçmüşlər. Lakin sonralar hansı səbəbdən isə onların bir qismi geri qayıdaraq indiki Zəngilan rayonu ərazisində ***Dirili*** adlı yaşayış məntəqəsinin əsasını qoymuşdur. Sonralar bu kənd *Muğanlı* kəndinə birləşmişdir. Zəngilan rayonunda, Oxçu çayının Araza töküldüyü yerdə *Tiri* adlı qala var. Sonralar burada salınmış kənd də həmin qalanın adı ilə adlanmışdır. XIX əsr mənbələrində həmin kənd ***Diri*** kimi qeydə alınmışdır. Hazırda bu kəndin xarabalıqları durur. Ərazidə Qurbani çağından qalma çoxlu nişanələr vardır. Aşıq Qurbaninin buta aldığı yer indi *Qurbanlı piri* kimi məşhurdur. Əski *Mazan nənə ocağı* Diri kəndinin sığınacaq yeri olub...

Diridağın ərazisi meyvələr, giləmeyvələr, yabanı bitkilər, otlar ilə zəngindir. Ərazisindəki buz bulaqlar əsil şəfa mənbəyidir. Burada bitən boyana, qulançar, quzuqulağı, qazayağı, əvəlik, əməköməçi, baldırğan, buğçiçəyi, keşniş, kəvər, yemlik, çaşır, çiriş, daşarmudu, dovşanalması, qarağat, qaragilə, moruq, dağdağan, innab, itburnu, alma, nar, tut, fındıq yüz cür dərdin dərmanıdır. Diridağın ərazisində onlarla yer adları vardır ki, onlardan *Narlı, Tutlu yer, Fındıqlı çala, Demi bağı, Kəl dərəsi, Maral çuxuru, Ayı ölən, Ceyran düzü, İncir piri, Dağdağan piri, Mazan nənə ocağı, Mərmər nənə ocağı, Düldül ocağı, Qız qalası, Qala, Qala yeri, Sapan daşı, Xudafərin körpüləri, Üryan-Xıdır qalası* və başqalarının adlarını çəkmək olar.

Bu yer-yurd adları ilə bağlı bu gün də ağızlarda rəvayətlər dolaşmaqdadır: *Diridağ ilə üzbəüz, Araz kənarında Şıxlar adlı bir kənd var. Buranın ilk şeyxi Üryan Xıdır olmuşdur. Böyük övliyalardan olan Üryan Xıdır həm də gözəl bənna imiş. Onun sorağı ətraf kəndlərə də yayılmışdı. Diridağdan bir qədər kənarda bağqa bir nüfuzlu övliya olan Hağı Qaraman yaşayırdı. Dini rəhbər olan*

*Hacı Qaraman həm də maldarlıq ilə məşğul olurdu. O, çoxlu maral saxlayardı. O da Xıdır Üryan kimi məşhur idi. Hər ikisinin şöhrəti artdıqca bir-birinə qənim kəsilirlər. Günlərin bir günü xəbər gəlir ki, Üryan Xıdır oymağında yoxdur. Hacının adamlarının qanı coşur və onlar Hacıya deyirlər:*

*– Hacı, gedək onların üstünə.*

*– Yox, biz qurd deyilik ki, çobansız sürüyə girək, - deyə Hacı öz adamlarını sakitləşdirir.*

*Bir qədər sonra Hacı Üryan Xıdıra xəbər göndərir ki, onu Arazın sahilində gözləyirəm. Gəlsin ayırd edək ki, kim daha güclüdür.*

*Duman Arazın üstündən keçib getdikcə uzanan yollar qaralırdı. Əllərini gözünə günlük tutub Üryan Xıdırın yolunu gözləyən Hacı Qaraman iri buynuzlu bir maral minib qaraüz ovxarlı qılıncını belinə bağlayır. Altdan geyinib üstdən qıfıllanır, üstdən geyinib altdan qıfıllanır. Altındakı qap-qara maral hərdənbir heybətlə hayqırıdı. Eşidənlərin canına qorxu düşürdü. Elə bu arada uzaqda bir qaraaltı göründü. Hacı Qaraman diqqətlə yola baxdı. Gördü ki, gələn Üryan Xıdırdır. Hacı Qaraman ah çəkərək dedi:*

*- Basıldım.*

*Üryan Xıdır mala ilə silahlanıb, qamçı əvəzinə şuğul götürüb tikdiyi yarımçıq daş divarı irəliyə doğru çapırdı.*

*İndi Arazın sahilində adına Üryan Xıdır qalası deyilən alayarımçıq bir divar, Diridağdan bir qədər aralıda isə Hacı Qaraman məqbərəsi vardır. Onun da yan-yörəsi maral buynuzu ilə doludur. Deyirlər ki, hələ maralların bu yerlərdən nəsli kəsilməmişdən öncə həmişə gəlib məqbərənin üstündə mələşər, buynuzlarını dəyişərmişlər...*

***Diri** sözü "həyat", "canlı", "sağ, sağ-salamat", "yaşayan", "ölümün əksi"* və s. mənalardadır. Bəziləri *(Ə.Fərzəli və başqaları)* bu sözün ilkin formasının ***tirikan, tiriq, tiri*** olması qənaətindədir.

Şumer-türk mənşəli ***diri*** sözü *"həyat", "dirilik"* mənası verən ***tir, tiri*** sözlərindən əmələ gəlib. Professor Qəzənfər Kazımov ***Diri*** toponimini *"dirilik yurdu"* kimi izah edir. O yazır: *"Qurbaninin göz açdığı Diri kəndi bağlı-bağatlı, tər bənövşəli, laləli-nərgizli, ətirli çiçəklərlə dolu olan Diri dağının qoynunda olub, qalın meşəsi, uca çinarları, nar kolları, üzüm və əncir bağları, şirin budaqları, hər növ ov heyvanları, gözəl zəmiləri və tarlaları, Xan Arazın gur suları ilə dünyanın ən zəngin guşələrindən idi"* (Q.Kazımov. Bakı Universiteti nəşriyyatı, 1990, səh. 24). Bir çox tədqiqatçıların fikrincə, ***Diridağ*** toponimi özündə Qafqaz Albaniyasında erkən orta əsrlərdə mövcud olmuş ***Tri*** əyalətinin və ya eyniadlı qalanın, yaxud monastırın adını əks etdirir. *"Orxan – Yenisey", "Gültəkin"* və *"Bilgə xan"* abidələrində *"diri"* sözü tirik kimi qeyd olunur. ***Diri*** (***Tiri***) qədim türk sözünün *"sağlam, canlı, diri"* mənaları da vardır. ***Tiri - Diri*** sözləri arasında ***t-d*** səs əvəzlənməsi tarixi şəraitlə əlaqədardır.





***Tri, Tiri*** və ***Diri*** toponimləri eyni mənşəlidir. M. Kalankaytuqlu *"Albaniya tarixi"* əsərində ***Diri*** sözünü Albaniyanın bir əyaləti kimi işlətmişdir. XVIII əsrdə Azərbaycana gəlmiş alim - səyyah A.Oleari öz əsərində *"**diri**"* sözünü *"**tiri**"* kimi işlətmişdir. Görkəmli, alim-səyyah K.Bruin də əsərində ***Diri*** sözünü ***Tiri*** şəklində vermişdir. Güman ki, yaxın zamanlara qədər xalq dağın adını ***Tiri*** şəklində işlətmişdir. ***Diri*** toponimi *"dirilik yurdu"* mənasındadır.

Suriya dilindəki ***deyrə*** ["kilsə, məbəd, monastır" (*Albaniyada xristianlığı suriyalı missionerlər yaymışdılar*)] sözündən ibarət olması ehtimal olunur. Dağın adı güman ki, onun gözəl təbiəti, saf havası ilə bağlıdır.

Mərəzə rayonu ərazisində ***Diribaba türbəsi*** də mövcuddur. Şirvan-Abşeron memarlığına aid edilən bu türbə ***Diribaba piri*** də adlanır. Bu türbə 1402-ci ildə qayada oyulmuş mağarada əhəngdaşından tikilmişdir. Xalqın dilində bu türbə ilə bağlı müxtəlif rəvayətlər gəzib-dolanır. ***Diridağ*** və ***Diribaba*** oronimləri sinonuim toponimlərdir. ***Diridağ*** adı ilə bağlı çoxlu əfsanə və rəvayətlər vardır. Bir rəvayətə görə, Nuh peyğəmbər Ağrı dağında gəmidən düşəndə bərk acır. Burada yeməyə bir şey tapmayıb Qarabağa gəlir. Bir dağın ətəyinə çatanda görür burada əsil cənnətdir; sərin su, dadlı-tamlı meyvələr. Doyunca yeyib qurşağının altını bərkidəndən sonra üzünü dağa tutub belə bir alqış edir: *"Səni görüm həmişə Diri olasan!"* Elə həmin vaxtdan da dağın adı beləcə ***Diridağ*** qalmışdır...

***Diridağa*** çoxlu bayatılar qoşulmuşdur. Onlardan bir neçəsi belədir:

***O dağ Diri dağıdır,***
***Elin iri dağıdır.***
***Qəmə batma, qardaşım,***
***Dörd yanımız yağıdır.***

***Əzizim Diri dağı,***
***Duman, gəl bürü dağı.***
***Ölüm Allah əmridir,***
***Yamandır diri dağı.***

***Diridağ*** ilə bağlı çoxlu rəvayətlər, əfsanələr uydurulmuşdur. Onlardan birində deyilir: *Nuh peyğəmbər Ağrı dağında gəmidən düşəndən sonra*

*bərk acır. Bu yerlərdə dişə sürtməyə bir şey tapmayıb, üz tutur Qarabağa. Çox gəzəndən sonra gəlib bir dağın ətəyinə çıxır. Baxır ki, bura elə cənnətin özüdür. Sərin suları, dadlı meyvələri. Bunlardan yeyib-içib doyduqdan sonra üzünü dağa tutub belə alqış edir: "Səni görüm həmişə dolu, **diri** olasan". Elə o zamandan da dağın adı **Diridağ** qalır...*

***Dirinin gözü maza,***
***Tutubdur gözü maza.***
***Qorxuram müjgan çalam,***
***Gözündən gözüm aza.***

***Bu dağın adı Diri,***
***Qoyunu sürü-sürü.***
***Öldürdün, bəs olmadı?***
***İndi arxanca sürü.***

Yerli əhalinin ***Mazan nənə*** adlandırdığı müqəddəs ***ocaq*** da ***Diri dağının*** zirvəsindədir. Məşhur ***Qız qalası*** tarixi abidəsi də ***Diridağ*** ərazisində yerləşir. Onun haqqında da dillər əzbəri olan belə bir bayatı var:

***Əzizim Qız qaladı,***
***Görünən Qız qaladı.***
***Qəbrimi gəlin qazdı,***
***Üstümü qız qaladı.***

## DİRİLİ QURBANİNİN QƏBRİ

(*Bax:* **Qurbanlı piri**)

## DİRİLİ SURXAYIN DƏYİRMANI

Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Dirili Surxayın dəyirmanı*** adlanır. Toponim ***Surxay*** şəxs adından və ***dəyirman*** sözündən ibarətdir. Coğrafi adın tərkibindəki ***Dirili*** sözü ***Diri*** kəndinin adı ilə bağlıdır. Cəbrayıl bölgəsinin ***Xudayarlı*** oymağında dünyaya göz açan ***Dirili Surxay Bəyalı oğlu*** (1902-1945) məşhur el sənətkarı olmuşdur. Onun qoşqularında çoxlu qəm-kədər motivləri vardır. Çox güman ki, bütün bunlar da onun nakam məhəbbəti ilə (*deyilənə görə,*





*Surxaya Ağdaşdan Mahpəri adlı bir qızı buta vermişdilər. Amma ailə narazılığı ucundan o, butasına qovuşa bilmir. Surxay bütün ömrü boyu nakam sevgisini anaraq ağlayıb. Bayatılarında, qoşmalarında da öz butasını bəlləyib aləmə car çəkib*) bağlıdır. ***Dirili Surxay*** ilə bağlı xeyli rəvayət qoşulmuşdur. Onlardan biri belədir:

*Belə rəvayət eyləyirlər ki, günlərin bir günü **Aşıq Surxay** Babaylı kəndinə bir at yükü dən aparırmış ki, dartıb gətirsin evə. Unluqdan un tükənibmiş. Dəyirmana yetirhayetirdə baxır ki, dəyirmançı suyu sovub evinə gedir. Çağırır ki, ayə, uşaqlar evdə acdır, qayıt unu dart. Dəyirmançı daş atıb başını tutur ki, ta gecdir. Yat üyüt deyiblər, yet üyüt yox. Gəl bu gecəni dəyirmanda dincəl, sabah tezdən dartaram aparарsan. Aşıq əl çəkmir. Dəni aparıb boşaldır dənniyə. Nət təhər bir gəraylı çağırırsa, **dəyirman** başlayır işləməyə. Dən üyünüb un olur. Dəyirmançı bu işə məəttəl qalır. Elə o zamandan da el arasında bu əhvalat dildən-dilə düşüb gəzir ki, Surxay haqq aşığıdır; dəyirmanı susuz işlədib...*

## DİV ARX

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Div arx*** adlanır. Toponim göründüyü kimi, ***div*** və ***arx*** sözlərindən ibarətdir. Div arx adlı məşhur toponimik rəvayət də var:

*Qarabağ xanının gözəl bir qızı var imiş. Onu iki gənc sevirdi. Biri çox varlı-dövlətli, digəri isə Div adlı güclü və qoçaq. Xanın qızı belə bir şərt qoyur ki, kim Tərtər çayından yaxınlığa tez arx çəkib su gətirsə, ona gedəcək. Gənclər eyni vaxtda müxtəlif yerlərdə işə başlayırlar. Dövlətli gənc pul ilə adam tutub işlədir. Buna baxmayaraq gecə-gündüz çalışan Div arxı daha tez tamamlayır. O, səhəri gün arxa su buraxmağa hazırlaşır. Dövlətli məğlub olduğunu görüb bir qocanın məsləhəti ilə arxın içərisinə bir mələfə saldırır. Səhər bunu görən Div elə bilir ki, artıq dövlətli gənc işi qurtarıb. Odur ki, xəncərini sinəsinə soxub özünü öldürür. Divin ölüm xəbərini, dövlətlinin isə hiyləgərliyini eşidən qız xəstələnib ölür. Onları Divin çəkdirdiyi arxdan çox da aralı olmayan bir yerdə dəfn edirlər. Dövlətli gənc qəbirdə də onlara rahatlıq vermir. O, qız ilə oğlanın qəbirləri arasına hiyləgər qarını basdırır. Gənclərin qəbirlərindən gül kolu, qarının qəbrindən isə tikan çıxır. Gülün budaqları bir-birinə yaxınlaşıb qovuşmaq*

*istəyir, ancaq tikan buna imkan vermir.*

*Bədbəxt oğlanın (**Divin**) çəkdiyi **arx** indiyə qədər durur. Camaat onu **Div arx** adlandırmışdır...*

## DİV DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan maraqlı toponimlərdən biri ***Div dərəsi*** adlanır. Bu coğrafi ad ***div*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Oronimiyada relyefin çökək və ya dar forması ***dərə*** alanır. ***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Azərbaycan Respublikasının ərazisində ***dərə*** termini ilə bağlı çöl materialları içərisində ***30 000***-dən çox oronim toplanmışdır.

***Div dərəsi*** coğrafi coğrafi adı mövhumi bir varlıq olan ***div*** surəti ilə əlaqədar yaranmışdır. Bu tipli coğrafi adlar Şərq xalqlarının, o cümlədən, azərbaycanlıların folklorunda qaranlıqla bağlı mənfi surət və ya xəbis ruh olan ***Div*** (***Dev***) ilahi məxluqunun adı ilə bağlıdır. ***Div*** surəti zərdüştiliyin yayıldığı ərazilərdə yaşayan xalqların ədəbiyyatında, o cümlədən də Azərbaycan folklorunda mənfi surətə çevrilmişdir. Belə adlara Azərbaycanda çox yerdə rast gəlmək mümkündür. Cəbrayıl rayonunun ərazisində bu tipli coğrafi adlara ***Divlər dərəsi, Divlər mağarası, Divlər sarayı*** və başqalarını nümunə göstərmək olar...

## DİVANƏ - MAQSUD OCAĞI

***Divanə-Maqsud ocağı*** Şükürbəyli kəndinin ərazisində, qəbiristanlıqdan 200 metr aralıdakı kiçik təpə üzərində qeydə alınmışdır. Bu ***ocaq*** hərləmə hasardan və içərisində eni 30 sm, hündürlüyü 70 sm olan büt daşdan ibarətdir. *Ocaq* **Maqsud** adlı ürfan sahibinin məqam yeri hesab edilir. Bu *ocağa* əsasən cin vuranlar, övlad əhdində olanlar, ziyarətə gələrdilər. Bu ocağa gələnlər hasarın qarşısındakı yastı daş üstündə şam yandırar, niyyət edərək arzu-diləklərini dilə gətirər, Ulu Tanrıdan özlərinə şəfa istəyərdilər. Bu ***pr-ocaq*** uzun illər kənd adamlarının müqəddəs yer kimi səcdə etdikləri ***ziyarətgah*** olmuşdur.





***Divanə Maqsud ziyarətgahı*** ilə bağlı əhali arasında müxtəlif rəvayətlər dolaşmaqdadır. Xalq arasında dolaşan belə rəvayətlərdən birinin məzmunu belədir ki, *Maqsud öz eşqi yolunda divanəyə (dəliyə)* çevrilərək əfsanələşmişdir...

## DİVLƏR DƏRƏSİ

***Divlər dərəsi*** adlı oronimi Cəbrayıl rayonunda, Dağ Tumas kəndi yaxınlığında, kənddən 1,5 – 2 kilometr şərqdə, Böyük Şəlalədən 45 metr cənubda, İncəçayın Nəfəsli dərə vadisində qeydə alınmışdır. Bu oronim burada ibtidai insan məskənindən xəbər verir. ***Divlər dərəsi*** coğrafi adı Şərq xalqlarının, o cümlədən, azərbaycanlıların folklorunda qaranlıqla bağlı mənfi surət, xəbis ruh olan ***Div*** (***Dev***) ilahi məxluqunun adı ilə bağlıdır. Şərq nağıllarında müsbət qəhrəmanlara qarşı qoyulan eybəcər, çirkin, buynuzlu əfsanəvi vücud ***div*** adlanır. ***Div*** surəti zərdüştiliyin yayıldığı ərazilərdə yaşayan xalqların ədəbiyyatında, o cümlədən, Azərbaycan folklorunda mənfi surətə çevrilmişdir.

***Divlər dərəsi*** toponimi ***div*** və ***dərə*** sözlərindən, ***-lər*** cəm şəkilçisindən, eləcə də mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması ifadə edir. Xalq etimologiyasına görə, vaxtilə bu ***dərə*** ərazilərində ***divlər*** məskən salmışlar. Ona görə də bu oronim belə ad almışdır.

## DİVLƏR MAĞARASI, DİVLƏR SARAYI

Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında, kənddən 2 kilometr şərqdə, dağətəyi ərazidə, dəniz səviyyəsindən 870 metr yüksəklikdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Divlər mağarası*** və ya ***Divlər sarayı*** adlanır. Bu "***mağara-saray***"ın uzunluğu 30 metrdir. Adından da göründüyü kimi, ***Divlər mağarası***, ***Divlər sarayı*** coğrafi adları ***div***, ***mağara***, ***saray*** sözlərindən, eləcə də -ı və cəmlik bildirən ***-lər*** şəkilçisindən ibarətdir.

***Div***, ***mağara*** və ***saray*** sözləri göstərir və sübut edir ki, *mağara-sa-*

rayın yerləşdiyi ərazilərin ən qədim sakinləri türkdilli etnoslar olmuşdur. **Divlər mağarası, Divlər sarayı** coğrafi adları Şərq xalqlarının, o cümlədən, azərbaycanlıların folklorunda qaranlıqla bağlı mənfi surət, xəbis ruh olan **Div** (**Dev**) ilahi məxluqunun adı ilə bağlıdır. Şərq nağıllarında müsbət qəhrəmanlara qarşı qoyulan eybəcər, çirkin, buynuzlu, əfsanəvi vücuda **div** deyilir. **Div** surəti zərdüştiliyin yayıldığı ərazilərdə yaşayan xalqların ədəbiyyatında, o cümlədən, Azərbaycan folklorunda mənfi surətə çevrilmişdir. Xalq etimologiyasına görə, Dağ Tumas kəndinin həmin **dərə** ərazilərində vaxtilə **divlər** məskən salmışlar. Ona görə də bu oronim belə adlanmışdır.

## DİZAQ MAHALI

Vaxtilə **Cəbrayıl** rayonunun da daxil olduğu **Dizaq mahalı** Qarabağın əski mahallarından biri olmuşdur. **Dizaq** sözünün mənası *"qala"*, *"qalaça"* deməkdir. **Dizə** sözü Qədim İran dillərində *"qala"* anlamını ifadə edir. **Dizaq mahalı** güneydən *Xırda-para Dizaq*, günbatandan *Dizaq-Cəbrayıllı*, quzeydən *Vərəndə*, gündoğandan *Cavanşir-Dizaq* mahalları ilə həmsərhəd olmuşdur. **Dizaq** mahalının başkəndi **Tuğ şenliyi** idi.

1593-cü ilə aid olan Osmanlı qaynağında **Dizaq mahalı** haqqında da bilgilər vardır. Həmin sənədə görə, **Dizaq** qəzasında *Tuğ, Babı, Kasaban, Təllavəş, Mərəxatun, Sərdarlı, Şəkərli (Qaraköpək), Balaqan, Hadurut, Vəng, Hatək, Sərdərli, Vaklaşəkak, Süleymanlı, Xoşvağt, Əhmədli, Qoçəhmədli, Cuvarlı, Ərəkül, Balatır, Kavdar, Axırlı, Xzatın Əmirbəyli, Kürazar, Qışlaq məzrəsi, Saraycıq, Sitaruz, Atağud, Qaradərə, Qarabulaq, Dədəli, Kurda, Sıznik, Öz avullu, Türkeş, Benazur, Kaballı, Sələkətün, Mülküdərə, Düdükçü, Dağ Pərixan, Rəfəddinli, Cəbrayıllı, Aşağı Cəbrayıllı, Zamzur, Tuması, Dərəyi Pataklan, Azuq, Könül şadlı, Haqulu, Çavdar, Məhəmmədazur, Baysunqur, Dağ Tənki, Pirəhmədli, Məlikcan, Qarğabazarı, Nərdivan (Bərdivan), Xanəhmədli (Nəhri-Cədid), Rəbət, Bayrambəy, Xırmancıq, Tunc, Qılıçbəy timarı, Balxoş, Güzlək, Gorrazı, Xudayi-Müsəlmanan, Xudayi-Əramina, Çəkənur, İstabuzlar, Misak, İsmayıllı, Kamallı, Qonan məzrəsi, Arış, Tatar Eliriz, Çiraquz, Bosus, Deyrixantik (Aydın), Oxçu Bərəkətli, Xatınbulağı, Əsxan, Qaraçalı, Qırdə meşə, Keçi dərə, Köçkəbə, Təsbik, Naxçuvanik, Daşkəsən, Salxan, Kuxin, Tağ, Qarakəlli, Zülfüqarlı, Balyand, Şeyx Qaybi (Tatarlı), Tell övlili, Bükrəköç, Tərxanlı, Xələfşahlı qışlağı, Yaycılı, Mərdəmeşkin, Leylə, Qəzənfərabad, Əstərabad, Siyavşan, Ətməkdərə, Butacıq (Qorqan), Boyu dərə, Horadiz, Gücə, Molla Zahidli, Tülkü Suyuncaq, Yaşılənbər, Gülbar, Kələgü, Qalakəndi, Ağgeniş, Yaqublu, Heyvalıq, Cəltelli, Mollavəlili, Zülfüqarlı, Başə* kəndlərinin adı çəkilmişdir.





Səfəvilər dönəmində **Dizaq** qəzasının və nahiyəsinin kəndləri Osmanlı qaynaqlarında qeyd olunanlar ilə eynidir. **Dizaq qəzası** XVII əsrin sonlarında ləğv olundu. Qarabağ bir müddət osmanlıların əlində qaldı. Qarabağın valisi, İbrahim paşa, ondan sonra isə Əli paşa oldu. 1727-ci ildə Sultan III Əhmədin fəranı ilə Dizaq nahiyəsinə hakim təyin olunur. Az sonra *"Vergi dəftəri"* – *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"* hazırlanır. Bu dəftərdə inzibati ərazi vahidi kimi **Dizaq** artıq **nahiyə** kimi qeyd olunur. Həmin *"Dəftər"*ə əsasən **Dizaq** nahiyəsində qərar tutan kəndlər aşağıdakılardır:

*Tuğ, Kütülparaq, Tağan, Cəbrayıllı, Daşkəsən, Haderud, Sur, Məhəmmədazur, Benazur, Köndələn, Ədilşah, Atayud, Həkaki, Köşbək, Azuq, Sələkətün, Hoğa, Siyavuşan, Doqquzpərçim ((Gərşimli, Qızoğlan məzrələri), Düdükçü, Süleymanlı, Susalıq, Tomu, Hetas, Həknüd, Kamallı, Zamazur, Qaç, Eydilli, Dəraaxunlu, Kəmərəköç, Ağcakənd, Hərəkin (Qaradağlı, Soyuqaş arxları), Pirəhmədli, Əriş, Qoçəhmədli, Cərəguş, Seyidli, Tağasir, Meticahan (qışlaqlar), Tumaslı, Əhmədli, Güzlək-Gorrazı, Şeyxlər, Qaraxatunabad, Qarabulaq qışlağı, Bayram, Rabat, Qaradağlı məzrəsi, Rəfəddinli, Xanəhmədli, Qorğan qışlağı, Ziyad qışlağı, Pasiban, Şahpirili, Qarğabazarı, Horədis, Biləqan, Ləbgünəş, Cuvarlı, Xoşvaxt, Sirikli, Deyrhətik, Ərcağur, Murğuzlu, Maralyan, Əyri, Konan, Kürzanlı, Dövlətyar, Xələfşahlı, Məzrə, Bulataq, Oxçu, Xırdaxaç, Namxoş, Həkərim (Çakəri), Xırmancıq, Məklədərə (Mülkədərə), Nurkişi, Zimmi Çoğay, Vəng, Manik, Nureşin, Məlikcan, Çimənək.*

1797-ci ildə İran şahı Ağaməhəmməd şah Qovanlı-Qacarın Qarabağa yürüşündə onun viran etdiyi mülklərin siyahısında **Dizaq** mahalına bağlı olan kəndlər də vardır. Onlar aşağıdakılardır:

*Müsəlmanlar, Tumas, Ərzikah, Pənbəli, Ovçukun, Pirəyataq, Sarıyataq, Çələbilər qışlağı, Qarasular, Torpaqbulaq, Qarquyataq, Bəydili qışlağı, Yantəpə, Kavdarlı, Kühülyataq, Ağdam, Narcağ, Çərəkənli, Papılar, Ağoğlan, Kavallı, Kilicçi, Şahvələdli, Cəbrayıllı, Dondarlı, Yarəhmədli, Həsənli, Çaylı,*

*Qaradərə, Bünyadlı, Dəmirçilər, Əhmədli, Qaraqışlaq, Əmirli, Dövlətyarlı, Şıxlar, Bəbirli, Quşçu-Tatar, Ulu-Tatar, Məzrəli, Sərkərli, Sirik Pain, Horayatlı, Nüsüs, Cilan, Söğnaq, Sərkarlı, Uzundərə, Bikavul, Dacəl, Abdal, Seləğ, Çəpənd, Nüzgar, Quyucaq, Daşkəsən, Süleymanlı, Qışlaq, Quşçular, Qaracalı, Balyand, Qaraqoyunlu, Pirəhmədli, Mandı, Yemişcəli, Mollavəli, Rəfiəddinli, Qarakollu, Gorazıllı, Güzlək, Mirağalı, Əhmədbəyli, Yengicəli, Qaradağlı, Saracıq, Xatınbulağı, Qorqan, Qızoğlu, Murğuzlu, İşıqlı, Rəbənd, İpəkli, Xədicəxanımlı, Tərxanlı, Qoçəhmədli, Keçidərə, Xələfşahlı, Cuvarlı, Gavşatlı, Çəmənli, Hoğa, Şıxımlı, Qızılqışlaq, Quzey Bürcü, Güney Bürcü, Alagöz, Miyan, Çərəkən, Meydancıq, Rizvan, Şəbədinli, Diraxtıq Pain, Diraxtıq Bala, Qac, Kütülparaq, Yaycı, İşxanlı, Hekaz, Domu, Susalıq, Sədək, Xuc, Palıdlı, Həkaki, Ataqut, Dərgah, Gorus, Kərab, Arçazur, Nəmxoş, Seyidli, Keşişkənd, Düdükçü, Çəkənur, Eydilli, Kühül, Xırmancıq, Bulutan, Ərgünəş, Məlikcanlı, Köşbək, Kəmrəküc, Tağazir, Tənək, Noraşen, Sur, Zəmzur, Banazur, Türkeş, Zürdəxaç, Ağcakənd, Tağ Kiçik, Tağ Ülya, Dərətünüb, Qorzulu, Pul, Mixad, Oxzaberd, Davgərək.*

***Dizaq nahiyasi*** xanlıq dönəmində ləğv edildi. Nahiyənin kəndləri *Dizaq, Xırdapara- Dizaq, Cavanşir-Dizaq, Dizaq-Cəbrayıllı* mahalları arasında bölündü. Dizaq mahalını məliklər idarə edirdilər. Məlik mahalın başkəndi Tuğ şenliyində əyləşirdi. Məliklik vəzifəsi atadan oğula irsi keçirdi. *Rusiya-İran* müharibələrində ***Dizaq mahalı*** və onun başkəndi olan ***Tuğ kəndi*** tapdağ yeri olmuşdur.

Əlavə məlumat üçün bax: **Xırda-Para Dizaq mahalı.**

## DİZAQ MƏLİKLİYİ

Orta əsrlərdə Qarabağın dağlıq hissəsində yaranmış indiki ***Cəbrayıl*** rayonunun ərazilərinin də daxil olduğu kiçik feodal hakimliyi ***Dizaq məlikliyi*** adlanırdı. Səfəvilər dönəmində ***Dizaq*** məlikliyinin ərazisi ***Qarabağ*** bəylərbəyiliyinə daxil idi. ***Dizaq məlikliyi*** XVIII əsrin ortalarında Qarabağ xanlığının vassallığına çevrildi. Ağa Məhəmməd şah Qacarın Qarabağa yürüşü zamanı ona inadlı müqavimət göstərmiş Qarabağ dəstələri tərkibində ***Dizaq məlikliyi*** əhalisnin nümayəndələri də var idi. ***Dizaq məlikliyi*** 1813-cü ildə Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirilmişdir.

Əlavə məlumat üçün bax: **Dizaq mahalı.**





## DİZAQ-CƏBRAYILLI MAHALI

Tarixi sənədlərdə göstərilir ki, vaxtilə Qarabağ xanlığı Şuşa şəhərindən və 25 mahaldan ibarət olmuşdur. Bu mahallardan biri də ***Dizaq-Cəbrayıllı mahalı*** idi. O, şimaldan Dizaq mahalı, cənubdan Araz çayı, qərbdən Bərgüşad mahalı, şərqdən Xırda-Para Dizaq mahalı ilə əhatə edilmişdi. ***Dizaq-Cəbaryıllı mahalı*** Dizaq qəzasının ərazisində yaranmışdır.

Mahal öz adını ***Cəbrayıllı*** elindən almışdır. ***Cəbrayıllı eli*** orta əsrlərdə Əhmədli elinin oymaqlarından biri sayılırdı. 1593-cü ilə aid olan Osmanlı qaynağında Cəbrayıllı oymağının 2 kənddən ibarət şenlik olması göstərilmişdir. 1727-ci ilə bağlı olan Osmanlı qaynağında isə Cəbrayıllı oymağı 1 kənd kimi göstərilir.

***Cəbrayıllı eli*** 18 oymaqdan *(Yarəhmədli, Hasanlı, Hacılı, Maşanlı, Eyvatlı, Mirəkli, Veysəlli, Mirzəcanlı, Fuğanlı, Mahmudlu, Çərəkənli, Məzrəli, Alıkovxalı, Hərəküllü, Şayıflı, Hafizli, Çullu, Əhmədli)*, 12 obadan *(Feyzullabəyli, Cəfərağalı, Hüseynbəyli, Kazımağalı, Əbdürrəhmanbəyli, Məlikağalı, Əhmədağalı, Əliəfəndi, Abdullabəyli, Maqsudağalı, Əliağalı)* ibarət olub. ***Dizaq*** sözünün mənası *"qala, qalaçı"* deməkdir. ***Dizə*** sözü qədim İran dillərində *"qala"* anlamını bildirir.

## DOLANLARÇAY

Cəbrayıl və Xocavənd rayonları ərazisindən axan çay ***Dolanlarçay*** adlanır. Çayın adı ***Dolanlar*** kəndinin ərazisindən, onun yaxınlığından axdığı üçün ***Dolanlar*** kəndinin (*görünür, bu ərazilərdə* ***Dolanlar*** *adlı yaşayış məntəqəsi da olub*) adı ilə adlandırılmışdır. Çəbrayıl rayonu ərazisindəki ***Dolanlar*** yer adı eyniadlı tayfanın adındandır. Tarixdən ***dolanlar*** etnoniminin olması da məlumdur. ***Dolanlar*** toponimi XIII əsrdə monqol işğallarında iştirak etmiş ***dolan*** tayfasınm adını özündə əks etdirir. Qazaxlar, qırğızlar, özbəklər arasında və Cənubi Azərbaycan ərazisində ***Dolanlar***

etnonimi geniş yayılmışdır. Toponimin tərkibindəki ***-lar*** komponenti cəm şəkilçisidir. ***Dolan*** tayfası monqol-tatar mənşəli tayfadır. F.Rəşidəddinin qeydlərinə görə, ***dolanlar*** da bəzi türk tayfaları kimi monqollara qarşı mübarizə aparmışdır.

Xocavənd (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tabeliyinə aid olan Hadrut və Martuni rayonları hazırda ***Xocavənd rayonu*** adlanır) rayonunda ***Dolanlar kəndi*** də var. Əvvəllər bu yaşayış məntəqəsi Cəbrayıl qəzası ərazisində olmuşdur. 1923-cü ildə həmin kənd DQMV tabeliyinə verilmişdir. Qədimdə bu kəndə Ərgünəş deyirmişlər. ***Dolanlar*** türk tayfası tatar-monqol mənşəlidir. ***Dolon/tolon*** tayfasının adı ilə bağlı toponimlərə türkdilli xalqların yaşadığı ərazilərdə daha çox rast gəlinir. ***Dolon// Dolan*** qədim türk tayfası adı olmaqla bərabər, həm də qədim troyalılara məxsus olan şəxs adıdır. ***Dolanlar*** türkmənşəli toponimi *"qədərində, tamamlanmış"* mənasındadır. Hazırda Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Cənubi Azərbaycan (İran), Türkiyə, Rusiya və digər ölkələrin ərazilərində də ***dolon*** (***dolan***) tayfasının adı ilə bağlı yaşayış məntəqələri mövcuddur.

## DOLAYI BULAQ

Qazanzəmi kəndinin yaxınlığında yerləşən sərin və soyuq sulu bulaqlardan biri də ***Dolayı bulaq*** adlanır. Suyundan daimi istifadə olunan ***Dolayı bulaq*** kənd sakini Şirin Rəhim oğlunun meyvə bağının ayağında yerləşirdi. Yerli əhalinin mənə dediklərinə görə, ***bulaq*** kəndin arxa tərəfindəki məhəllədə yerləşdiyindən sakinlər bulağa kəndi ***dolanaraq*** getdikləri üçün hidronim belə adlandırılmışdır.

## DONUZ DƏRƏSİ

Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Donuz dərəsi*** adlanır. Toponim ***donuz*** heyvan adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və ***-si*** mənsubiyyət şəkilçisindən ibarət olub, *"donuz olan dərə"* anlamındadır. ***Donuz*** vəhşi və əhli növləri olan irigövdəli, qısaayaqlı, qoşadırnaqlı, məməli ətlik heyvandır. Cütdırnaqlılar dəstəsindən gövşəməyən məməli heyvan fəsiləsindən olan donuzların başı uzunsov, burnunun ucu yastı, dərisi qalın olur. Əsasən sürü ilə yaşayan poliqam heyvandır. ***Donuzlar*** adətən meşələrdə, sahilə yaxın olan cəngəlliklərdə yaşayırlar. Demək olar ki, bütün ölkələrdə yetişdirilən donuzların ətlik, ətlik-piylik və bekonluq tipləri vardır. ***Donuzçuluq*** heyvandarlıq sahəsi dünyada çox geniş yayılmışdır.





## DOSTLUQ BULAĞI

Cəbrayıl şəhərində qeydə alınmış ***Dostluq bulağı*** adlandırılan bulaq vaxtilə rayonda rəhbər vəzifədə (*Cəbrayıl rayon partiya komitəsinin birinci katibi*) işləmiş Fikrət Vəlixanov tərəfindən tikdirilmişdir. Yerli əhali arasında ***Vəlixanov bulağı*** adlanan bu hidronim bir müddət də nədənsə ***Lenin bulağı*** (*?*) adlanmışdır. Sonralar xalqlar dostluğunun rəmzi kimi ona ***Dostluq bulağı*** adı verilmişdir...

## DOŞULU KƏNDİ

***Doşulu kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 18 kilometr şimal-şərqdə, Balyand kənd inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşir. Əhalisinin sayı 80 nəfərdir. Əhali üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana klub, kəhriz və s. vardı.

***Doşulu*** kəndinin adı ***Doşu*** şəxs adı və ***-lu*** mənsubiyyət şəkilçisindən ibarət olub, *"Doşunun nəslindən olanlar, doşulular"* mənasındadır.

Yerli məlumata görə, vaxtilə Cənubi Azərbaycandan gəlmiş ***Doşu*** və Şəybəy adlı iki qardaş burada məskunlaşaraq indiki ***Doşulu*** və Şəybəy yaşayış məntəqələrinin əsasını qoymuşlar.

## DOVŞAN BULAĞI

Çələbilər kəndinin yaxınlığında, kənd sakini Qabil Əli oğlunun evindən 250 metr aralıda qeydə alınan hidronimlərdən biri ***Dovşan bulağı*** adlanır. ***Dovşan bulağı*** dağ daşından sızan şirin sulu bulaqdır. Suyu cox soyuqdur. Hidronim ***dovşan*** heyvan adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Dovşan*** gəmiricilər dəstəsindən qabaq ayaqları dal ayaqlarından qısa, uzun və dik qulaqlı, yarıq dodaqlı kiçik heyvandır. Vaxtilə bir neçə dəfə bu bulağın başında ***dovşan*** göründüyü üçün onun adı ***Dovşan bulağı*** adlandırılmışdır.

## DÜLDÜL OCAĞI

***Düldül ocağı*** coğrafi adı Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınmışdır. Rəvayətə görə, guya İmam Əlinin sevimli atı olan ***Düldülün*** burada ayaq izləri varmış. Yerli əhali həmin yerləri müqəddəs ***ocaq, ziyarət*** hesab edirdi.

## DÜLDÜL PİRİ

Rayonun Veysəlli kəndi ilə Xudaverdi kəndi arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Düldül piri*** adlanır. ***Düldül*** İmam Əlinin atının adıdır. ***Düldül piri*** yerli camaat arasında müqəddəs yer hesab olunur. Bu ***pir*** haqqında müxtəlif rəvayətlər, əfsanələr qoşulmuşdur. Onlardan biri belədir:

***İmamın ağzını kafir qayaya diriyib deyir:***

***- Mənə tabe ol, sənə su verim.***

***İmam xəncəri qayaya çəkib deyib:***

***- Mənə su azlığı deyil, ay kafir.***

***Xəncərini vurduğu yerdən su çıxır. Sonralar həmin yerdə bir qadın ilə bir kişi natəmiz olurlar - gedib həmin suda çimirlər, su da quruyur. Hay gəlib kolxoz sədrinə çıxır. Kolxoz sədri deyir:***

***- Niyə quruyub?***





***Baxış adlı ağsaqqal bir kişi deyir:***

***- Bəs filankəs ilə filankəs gedib o suda çimib. Ona görə quruyub.***

***Deyib:***

***- Gedin o suya qurban kəsin. Elə edin ki, ordan su çıxsın.***

***Onlar gedib qurban kəsiblər. "Ya peyğəmbər, ya imam, qələt eləmişik" - deyiblər. Bunda sonra ordan su çıxıbdır...***

## DÜLDÜL RƏDDİ

Azərbaycan ərazisində Həzrəti İmam Əlinin əfsanəvi ***Düldül*** atı ilə bağlı çoxlu sayda ***Düldül rəddi*** oroqrafik obyektləri qeydə alınmışdır. Cəbrayıl rayonunun ərazisində də bu qisimdən olan xeyli sayda ***Düldül rəddi*** oronimi vardır. Onlar rayonun aşağıdakı ərazilərində qeydə alınıb:

*Sirik* kəndinin ərazisində – Qabaq qüzdən Çaxmaq dərəsinə enən yolun başında;

*Dağtumas* kəndinin ərazisində – Kiçik kovun qaya keçidi üzərində;

*Şıxlar* kəndinin ərazisində – Dəlikdaş kövşənində;

*Çələbilər* kəndinin ərazisində – Ənsər bulağından 35 metr yuxarıda, yastı sal daş üzərində;

*Küfülyataq* kəndinin ərazisində – Bitili yastı daş üzərində;

*Daşveysəlli* kəndinin ərazisində – kəndin ortasındakı yastı daş üzərində;

*Daşveysəlli* kəndinnin ərazisində – Bulul piri yaxınlığında;

*Balyand* kəndinin ərazisində – Xalac dağının ətəyindəki kövşən yerində.

## DÜNYAMALI BULAĞI

Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Dünyamalı bulağı*** adlanır. Hidronim ***Dünyamalı*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Dünyamalı*** bu *bulağı* təmir edən adamın adıdır. ***Dünyamalı bulağı*** toponimi *"Dünyamalıya məxsus bulaq"*, *"Dünyamalının yaratdığı bulaq"* anlamındadır.

## "E"

### EMİNLİ BULAĞI

Rayonun ərazisində qeydə alınan hidronimlərdən biri ***Eminli bulağı*** adlanır. Eminli bulağının göz yaşı kimi dumduru, buz kimi soyuq suyu vardır. Hidronim ***Emin*** şəxs adından, ***-li*** şəkilçisindən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Yerli əhalinin dediklərinə görə, ***Emin*** adlı şəxs vaxtilə bu bulağı üzə çıxaran adamdır. ***Eminli bulağı*** coğrafi adı etnohidronimdir. Toponim *"Eminə məxsus olan bulaq"*, *"Eminli nəslinə məxsus olan bulaq"* mənasındadır. Bu tipli hidronimlərə digər rayonların ərazilərində də rast gəlirik.

### ERİKHAT DƏRƏSİ

Cəbrayıl rayonunun Həsənqaydı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Erikhat dərəsi*** adlanır. Toponimin tərkibindəki ***dərə*** komponenti mənfi relyef forması bildirir; ***-si*** şəkilçisi isə mənsubluq ifadə edir. ***Erikhat*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Toponimin dəqiq elmi izahı hələlik verilməmişdir...

### EŞŞƏK KOVU

Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Karvan yolunun Tumas meşəsindən Qarağac üzünə aşan yerdə qeydə alınmış oroqrafik obyektlərdən biri ***Eşşək kovu*** adlanır. *Eşşək kovu* oronimi təxminən ***30*** metr uzunluğu olan dar keçiddən ibarətdir. Toponim ***eşşək*** və ***kov*** sözündən əmələ gəlib, *"eşşəyin keçə bildiyi dar keçid"* anlamındadır.





### EYVATLI OBASI

XVIII - XIX əsrlərə aid olan sənədlərdə ***Eyvatlı*** kimi adı çəkilən bu kənd vaxtilə indi *Yuxarı Xələfli* adlanan ərazidə olmuşdur.

Bu obanın Şirvanlı (XVIII əsrdə bu ərazilərdə yaşamış Şirvan adlı şəxsin adı ilə əlaqədar adlı tirəsi də olmuşdur... XVIII - XIX əsrlərdə ***Eyvatlı obası*** Həreylan və Abdal adlanan ərazilərdə də yaşamışdır. Cəbrayılın Abdal və Həreylan torpaqlarında məskunlaşan xələflilər ***Eyvatlı*** obasına mənsub olmuşlar. Əski türk sözü olan ***Eyvatlı*** toponiminin izahı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Toponimin dəqiq mənası isə hələlik tam izah olunmamışdır.

## "Ə"

### ƏBDÜL ƏLİ TÜRBƏSİ

Cəbrayıl rayonun ərazisində qiymətli tarixi memarlıq abidələrindən biri ***Əbdül Əli türbəsi*** adlanır. XVIII əsrə aid edilən ***Əbdül Əli türbəsi*** həmin tarixi dövrdə yaşamış nüfuzlu ***Əbdül Əli*** adlı adamın xatirəsinə tikilmişdir.

Məlumdur ki, ***türbə*** dedikdə görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün onların qəbri üzərində tikilən bina nəzərdə tutulur. Bəzən onun adına ***məqbərə*** də deyilir. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayımışdı. Memarlıq quruluşlarna görə Azərbaycanda da orta əsr türbələri əsasən kubşəkilli, səkkizbucaqlı və qülləvarı olurdu. Günbəzlə örtülən kubşəkilli türbələrdə sənduqə döşəmə səviyyəsində, qülləvarı türbələrdə isə yeraltı sərdabada yerləşirdi. Türbələrin xarici səthləri müxtəlif memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi. Azərbaycan ərazilərində də ta qədim dövrlərdən ***türbə*** tikintisi mövcud olmuşdur.

### ƏFƏNDİLƏR KƏNDİ

***Əfəndilər kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 8 kilometr şimal-şərqdə, Çərəkən inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Kənd *72* evdən ibarətdir. Əhalisinin sayı 250 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin əsas məşğuliyyəti sayılırdı. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Hacı Məmmədalı Əfəndi, Hacı Mir Yusif Əfəndi, Məti baba, Mir Hüseyn Əfəndi, Məhəmməd kişi bu kənddəndirlər...

Kənd əvvəllər ***Kühülyataq*** adlanmışdır. Qubadlı rayonunun Əfəndilər kəndindən ayrılmış seyidlər nəslinə mənsub olan ailələr yaşayış məskənini ***Kühülyataq*** adlanan binə yerində salmışlar. Yaşayış məntəqəsi də bir müddət ***Kühülyataq***, sonralar isə Əfəndilər adlanmışdır. Qubadlı rayonunun Əfəndilər kəndinin bünövrəsini vaxtilə Türkiyədən gəlmiş *Məmməd Əfəndi* adlı bir nəfər qoyduğuna görə kənd də onun adı ilə bağlı





olaraq bir müddət ***Türk Əfəndilər***, sonralar ***Əfəndilər*** adlanmışdır. Ordan gələn nəsillər isə Cəbrayıl rayonundakı ***Əfəndilər*** kəndinin əsasını qoymuşlar. XIX əsrə aid olan mənbədə Cəbrayıl elinin obaları içərisində ***Əfəndilər*** obasının da adı çəkilir. Mənbələrin məlumatına görə, ***əfəndilər*** nəsli (*sünni məzhəblidirlər*) soy kökü etibarı ilə İmam Hüseynə bağlanırlar. Oykonimin kökü olan ***Əfəndi*** sözü ruhanilərin adlarına qoşulan sözdür. Bu sözü hörmət xatirinə oxumuş adamlar üçün də işlədirlər. Oykonimin tərkibindəki ***-lər*** şəkilçisi cəmlik ifadə edir.

***Əfəndi*** sözü Türkiyə türklərində müraciət məqsədi ilə istifadə olunur. İrəvan quberniyasının Novobayazid qəzasında da vaxtilə eyniadlı kənd vardı. Qubadlı rayonunda da ***Əfəndilər kəndi*** var.

### ƏHMƏD BULAĞI

Şükürbəyli kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Əhməd bulağı*** adlanır. Hidronim ***Əhməd*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Bu ***bulağı*** vaxtı ilə rayon maşın traktor stansiyasının müdiri vəzifəsində çalışan ***Əhməd Hüseynov*** ad və soyadlı bir şəxs öz vəsaiti hesabına tikdirmiş və bu xeyirxah əməli ilə özünə əbədiyaşarlıq qazanmışdır. Bulağın dumduru, şirin, soyuq və xıltsız suyu vardı.

### ƏHMƏD DƏRƏSİ

Qalacıq kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Əhməd dərəsi*** adlanır. Oronim ***Əhməd*** şəxs adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi terminindən və ***-si*** mənsubiyyət şəkilçisindən ibarətdir. Toponim *"Əhmədə məxsus olan dərə"* anlamındadır. Bu tipli coğrafi adlara respublikamızın çox yerlərində rast gəlmək olar.

## ƏHMƏDLİ ELİ

***Əhmədli eli*** təxminən XV əsrdə Anadoludan Azərbaycana köçmüş ***səlcuq*** əsilli türk nəsillərinin, tayfalarının adıdır. Vaxtilə Diyarbəkir ətrafında yaşam sürən Əhmədli eli XV yüzildə ***Ağqoyunlu*** tayfa birliyinə qatılmışdır. ***Əhmədli*** elinin başçısı olan ***Sultan Əhməd bəy*** XV əsrin ortalarında (*1457-1469-cu illərdə*) Uzun Həsənin Şərqi Anadoluda və İranda ən sadiq müttəfiqlərindən biri olmuşdur. Tarixi mənbələrdən məlum olur ki, ***Əhmədli eli*** XVII əsrdə Qarabağda yerləşdirilmişdir. Bu ***el*** vaxtilə Cəbrayılın Sirik kəndi yaxınlığındakı Qızılqayadan Gəyən çölünə qədər uzanan aran və qışlaq yerlərində məskunlaşmışdır. Əhmədli ***camaatı*** *(dövrünün mötəbər və nüfuzlu bir şəxs olan Sultan Əhmədə məxsus tirə)* Nüsüs, Qalacıq, Ağdam, Vəliuşağı, Qarauşağı və s. qonşu kəndlərdə də yaşamışlar. Ermənilərin müəyyən fitnə-fəsadı nəticəsində ***500*** evli Əhmədlinin demək olar ki, ***400***-ü 1905-ci ildə Osmanlı Türkiyəsinə köçmüşlər. Bir müddət köçən əhali ilə məktublaşmalar olsa da, 1930-cu illərin repressiya qorxusu bütün bunlara son qoydu...

XVIII - XIX əsrlərə aid olan mənbələrdən də məlum olur ki, Cəbrayıl elinin ***Əhmədli*** *(**Əhməd** adlı şəxsin adı ilə əlaqədardır)* adlı oymağı olmuşdur. *Şahvəlilər, Hacıismayıllılar, Hacıisaqlılar, Gödəklilər, İsaqlılar, Tatarlılar, Çələbilər, Şıxlar Əhmədli* oymağına mənsubdurlar. Şahsevənlərin ***Əhmədli*** obasına mənsub olan tayfalar sünnü olduqları üçün XVII əsrdə Osmanlı-Səfəvi müharibələrində Osmanlıların xeyrinə çalışırdılar.

1615-ci ildə Şah Abbasın Qarabağdan və Şirvandan əhalini köçürmə siyasətinə qarşı baş verən ***Əhmədli qiyamı*** Səfəvi hökmdarı tərəfindən amansızcasına yatırıldı. Bu və buna oxşar digər səbəblərə görə I Şah Abbas 1615-ci ildə Əhmədliləri Mazandarana sürgün etmişdir. Sürgünə şahın iki yaxın adamı – Lətifxan bəy Davatdar Qacar və İsfəndiyar bəy Ərəbgirli-Şamlı başçılıq edirdi. Əhmədli elinin əsas hissəsi sürgün ediləndən sonra oymaqlardan bəziləri yayınıb köç-düşünə ara verərək əkin-biçinlə məşğul olmağa başladı. Bəzi tarixi mənbələrdən aydın olur ki, adı kənd biçimində qeyd olunan Əhmədlidə yüzbaşı *Məhəmməd ağa Maqsud ağa oğlu, Şeyx Əhməd Məhəmməd ağa oğlu* və başqaları böyük nüfuz sahibi olmuşlar. Xanlıq dönəmində İbrahimxəlil xan Sarıcalı-Cavanşir ***Əhmədli*** obasını əmisi nəvəsi *Rüstəm bəy Qasım bəy oğlu Sarıcalı-Cavanşirə* vermişdir. Rüstəm bəyin ölümündən sonra





obanı onun oğlu Əsəd bəy idarə etmişdir.

Bəzi tarixi sənədlərdən aydın olur ki, vaxtilə Əhmədli camaatının qışlaqları olan Burnukəsikdə Qovşutlu, Göyərçində isə Veysəlli obaları yerləşdirilmişdir. XIX əsrdə ***Əhmədli*** camaatının ***Əhməd yüzbaşı Mustafa yüzbaşı oğlu*** və ***Qurban yüzbaşı Məhəmməd ağa oğlu*** kimi iki məşhur yüzbaşısı olmuşdur. Cənubi Azərbaycanda, Türkiyədə və s. yerlərdə də ***Əhmədli eli*** nəsillərinin izlərinə rast gəlirik...

Muğanlıların da ***Əhmədli*** adlı tirəsi vardır...

Daşkəsən, Beyləqan, Laçın, Masallı, Şamaxı, Şəmkir rayonlarında ***Əhmədli kəndi***, Bakıda (Xətai rayonu) *Əhmədli şəhər tipli qəsəbəsi*, Laçında *Əhmədli mineral bulağı* və s. də var. 1590-cı il tarixi sənədinə görə, İrəvan əyalətinin Abdin nahiyəsində, 1728-ci il mənbəsinə görə isə, İrəvan əyalətinin Zarzəmin nahiyəsində ***Əhmədli*** adlı kənd mövcud olmuşdur.

## ƏHMƏDÖLƏN TƏPƏ

***Əhmədölən təpə*** oronimi Cəbrayıl rayonunun Qarar kənd ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması bildirir. Toponim öz adında həmin *təpədə* ***Əhməd*** adlı şəxsin *ölməsi* hadisəsini əks etdirir. Bu tipli toponimlərə Azərbaycanımızın bir çox rayonlarının ərazilərində də rast gəlirik...

## ƏHMƏDUÇAN QAYASI

Cəbrayıl rayonunun ərazisində, Maşanlı kovunun qərbində, dağətəyi sahədə yerləşən oronimlərdən biri ***Əhməduçan qayası*** adlanır. Oronim ***Əhməd*** şəxs adından, ***uçan*** sözündən, müsbət relyef forması ifadə edən ***qaya*** termininindən və mənsubluq bildirən ***-sı*** şəkilçisindən ibarətdir. Toponim *"Əhmədin yıxıldığı qaya", "Əhmədin yıxılıb uçduğu qaya"* anlamındadır. Sıra dağlardan ayrılmış qol və ya dağların müəyyən hissəsində çətin keçilən yer oronimiyada ***qaya*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində tərkibində ***qaya*** coğrafi termini iştirak edən ***3000*** oronim toplanmışdır.

## ƏKƏRƏK TAPI

***Əkərək tapı*** adlanan oronim Cəbrayıl rayonunun Niyazqulular kəndi ərazisində qeydə alınıb. ***Tap*** coğrafi termini müxtəlif bölgələrdə *"su çıxmayan düz yer", "düzən yerdə təpə", "dağ döşündə düzənlik", "dağ düzənliyi"* və s. mənalarda işlənir. ***Tap*** termininin iştirakı ilə oronimiyamızda ***500***-ə qədər coğrafi ad yaranmışdır.

Altay-türk mənşəli Şumer dilinə mənsub olan ***akar//əkər*** sözü *"əkilən yer, sahə"* mənasındadır. Əkin, əkmək sözlərinin kökü olan ***ək*** sözü həmin mənanı ifadə edir. Qədim yunan və latın dillərinə keçmiş bu söz yunanca *"**aqros**" ("tarla")*, latınca *"**aqer**" ("əkin sahəsi")* bu dillərdən rus dilinə keçmiş *"**akr**" ("torpaq sahəsi")* və *"aqronomiya"* ifadələrində öz əksini tapmışdır. ***Əkərə, Əkərək, Akarak*** adlı kəndlər quldarlara, feodallara, mülkədarlara məxsus olan əkin sahələri (*məzrələr*) əsasında yaranmışdır.

Albaniya ərazisində erkən orta əsrlərdə ***Kolt*** - Əkərək kəndinin adı çəkilir (M. Kalankatlı, *"Alban tarixi"*, II kitab, XIV fəsil), 1214-cü il mənbəsinə görə, Gürcüstan ərazisində də ***Aqara/Əkərə*** adlı yaşayış məntəqələri olmuşdur (Qruzinskie dokumentı IX-XV vv. Perevod i kommentarii S.S. Kakabidze. M. 1982, s.68). XX əsrin əvvəllərində Qərbi Azərbaycanda (*Ermənistanda*) bir neçə Əkərək ***kəndi*** olmuşdur (*bu kəndlərin azərbaycanlı* əhalisi *ermənilər tərəfindən 1918-ci ildə qovulmuşdur*). Sürməli qəzasında ***Əkərək*** adlı çay da vardı.

***Əkərək tapı*** toponimii *"düzənlik təpə yerində əkilən sahə"* deməkdir.

## ƏLƏMDARLAR PİRİ

Cəbrayıl rayonunun Çələbilər kəndi yaxınlığında, Haqcı Qaraman ocağından 200 metr gündoğan istiqamətdə qeydə alınan ***Ələmdarlar piri*** oroqrafik abidəsi topa qəbirlərdən ibarətdir. Bəzi məlumatlara görə, bu qəbirlər din uğrunda şəhid olan ərəb əsgərlərinə məxsusdur. Qəbirlərin üzərində qol-budağı çətir kimi qəbirlərin üstünə səpələnən nəhəng *qaramux* kolu var. Adətən buranı ziyarət edənlər tutiyatək ovuc-ovuc torpaq götürdüklərindən *qaramux* kolunun ətrafında böyük çala əmələ gəlmişdir. Tutiya məqsədilə götürülən torpaq ziyarətçilər tərəfindən evi-





nin ətrafına və həyət-bacasına səpilər və həmin evin bərəkətini artırar, həyət-bacanı bədnəzərdən qoruyardı. Yerli əhali bu *piri* əziz tutardı.

## ƏLİ ÇƏLƏBİNİN YUAT YERİ

Böyük övliyalar nəslindən olan Fatimə Çələbinin Kolavat yaşayış məntəqəsində yerləşən evinin həyətində qərar tutan nişangah ***Əli Çələbinin yuyat yeri*** adlanır. Burada vaxtilə (***12 yanvar 1962-ci il***) Haqqın dərgahına qovuşmuş böyük hörmət və nüfuz sahibi olan övliyalardan biri - ***Əli Çələbi Alı Çələbi*** oğlunun mübarək nəşi qüsl edilərək kəfənə tutulmuşdur. Elə həmin zamandan da bu yer ***Əli Çələbinin yuat yeri*** adı ilə yaddaşlarda iz buraxmışdır.

## ƏMİDIĞ PİRİ

***Əmidığ piri*** Qazanzəmi kəndinin yaxınlığında, Qubadlı rayonu ilə sərhəddə, ***Əmidığ*** dağının zirvəsində yerləşir. Bu ***pir*** alban türklərinə məxsus olan kiçik bir *məbəd* olmuşdur. Deyilənə görə dağın ətəyində ***Əmidığ*** adlı kənd də var idi. ***Əmidığ məbəd-piri*** Dağtumas və Qazanzəmi kəndləri ilə yanaşı, Qubadlı rayonunun ətraf kəndlərinin camaatının da inanc yeri hesab olunurdu...

Bilirik ki, ***pir*** – dini etiqad, inamla bağlı ibadət və sitayiş yeridir. O, hələ uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti *pirləri* ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca", "dini icmanın başçısı", "müqəddəs"* mənasını bildirir.

## ƏMİRASLAN BULAĞI

Cəbrayıl rayonunun ərazisində, Qazanzəmi kəndindən Sustalığa gedən yolun (cığırın) sağ tərəfində qeydə alınan hidronim ***Əmiraslanın***

***bulağı*** adlanır. ***Əmiraslan bulağı*** ağcaqayın ağacının dibində qaynayan bir bulaqdır. Hidronim ***Əmiraslan*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Orta axımlı soyuq və şirin suyu olan ***Əmiraslan bulağı*** öz adını ***Əmiraslan*** şəxs adından almışdır.

## ƏMİRASLAN TAPI

Şükürbəyli kəndinin ərazisində, düzənlik sahədə qeydə alınan coğrafi adlardan biri ***Əmiraslan tapı*** adlanır. Bu ərazidə kəndin üzümçülük və bostan sahələri vardı. Bu oronim ***Əmiraslan*** şəxs adı ilə əlaqədar yaranmışdır. Əmiraslan bu kəndin sakini olmuşdur. Toponimin tərkibindəki mənfi relyef forması ifadə edən ***tap*** coğrafi termini *"su çıxmayan düz yer"*, *"dağ düzənliyi"*, *"düzənlik yerdə təpə"*, *"dağ döşündə düzənlik"* və s. mənalarda işlədilir. ***Əmiraslan tapı*** toponimi *"Əmiraslan düzü"* anlamını bildirir. Azərbaycan oronimiyasında ***tap*** termininin iştirakı ilə çöl materialları içərisində ***500***-dən çox coğrafi ad yaranmışdır.

## ƏMİRVARLI DƏRƏSİ

Cəbrayıl rayonunun Tinli kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Əmirvarlı dərəsi*** adlanır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** termini ilə ifadə olunur. Azərbaycan oronimiyasında ***dərə*** termini ilə bağlı ***30 000*** coğrafi ad toplanmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir.

Əlavə məlumat üçün bax: **Əmirvarlı kəndi.**

## ƏMİRVARLI KƏNDİ

***Əmirvarlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 24 kilometr cənubda, Sarıcalı kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı *1 200* nəfərdir. Kənd əhalisi taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, klub, kita-





bxana, tibb məntəqəsi, ticarət-iaşə obyektləri, kəhrizlər və s. vardı. Gil-gibs layı ilə zəngin olan Yantəpə yüksəkliyi də Əmirvarlı kəndi ərazisindədir. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Əmirvarlı*** (adına bəzən ***Tinli Əmirvarlı*** da deyilir) yaşayış məntəqəsinin digər bir adı ***Hüseynbəyli*** olmuşdur. Kənd əmirvarlı nəslinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Əmirvarlı*** toponimini ***imirli*** türk tayfası adı ilə bağlayanlar da var. ***Əmirvarlı*** toponimini *"Əmirin yurdu"*, *"Əmirin yeri"*, *"Əmirin qışlağı"* mənaları ilə izah edənlər da var.

Mənbələrdən məlum olur ki, ***var*** sözü qədim İran dillərində düzəltmə formaları ilə *"divar, şəhər, qala, qazma, ev, nəsil, yurd, qışlaq, otlaq, məskən"* və s. mənalarda işlənir. Bu söz *"köç yeri"*, *"alaçıq yeri"*, *"hansı isə bir icmanın yurdu"*, *"otlaq"* mənalarında da işlədilir. ***Var*** sözü etimoloji cəhətdən *"hasarlanma, çəpərlənmə, istehkam, möhkəmlənmə"*, *"heyvanlar üçün divarla hörülmüş tövlə"*, *"hasarlanmış kənd"*, *"ailə, tirə, nəsil"* və s. anlamlarını ifadə edir. Respublikamızın ərazisində ***var*** komponenti ilə bağlı xeyli toponimlər qeydə alınmışdır. Bunlara nümunə olaraq Əhmədavar, Mahmudavar, Hacıvar, Musavar, Əmirvar, Gilvar və başqalarını göstərmək olar.

Kəndin adı ilə bağlı belə bir rəvayət də var:

*Əmir Teymur əyalətləri gəzirmiş ki, görüm harda nə var, camaat necə dolanır, vergi verə bilirlər, ya yox. Gəzib-gəzib gəlib çıxır Araz qırağında, yulğunluqda qərar tutan Əmirvarlı kəndinə. Əvvəl bu kəndin adı Xıdırlı olub. Əmirə deyiblər ki, "ya əmir, bəs bir dənə kənd var, çox varlıdır – mal-heyvanları da çoxdur". O da gəlib kəndə baxıb; görüb ki, doğrudan da kənd varlıdır, adamları yaxşı dolanır. Odur ki, deyib ki, "elə bu vaxtdan da kənd mənim adıma olsun –* ***Əmirvarlı****". O zamandan da kənd* ***Əmirvarlı*** *adlanmışdır...*

Cəbrayıl rayonunda ***Əmirvarlı*** kəndi ikidir: ***Yuxarı Əmirvarlı*** kəndi və ***Aşağı Əmirvarlı kəndi***. Onların bir-biri ilə arası təxminən 13 km-dir. Əmirvarlı kəndi böyük tarixə malik kənddir. ***Yuxarı Əmirvarlı*** kəndindən ***Aşağı Əmirvarlı*** kəndinə köçmələr XX əsrin ortalarında baş vermişdir. ***Yuxarı Əmirvarlı*** kəndinin *Xıdır* və *Hacıməmmədqulu* yataqları da daxil olmaqla min hektardan çox əkin yeri vardı. Kəndin yaxınlığındakı qəbiristanlıqda erkən orta əsrlərə aid qəbir yerləri, kurqanlar aşkar olunmuşdur.

Daşkəsən rayonunda ***Əmirvar*** adlı kənd və çay da vardır.

Əlavə məlumat üçün bax: **Əmirvarlı dağı.**

## ƏNCİR PİRİ

(*Bax:* **İncir piri**)

## ƏNCİRLİ DƏRƏ, ƏNCİRLİ DƏRƏ AĞZI, ƏNCİRLİ DÖŞ

Oronimiyamızda bir çox oroqrafik obyektlər tut fəsiləsindən subtropik bitki olan əncir ağacının adını özündə əks etdirir Cəbrayıl rayonunun Qovşutlu kəndi ərazisində qeydə alınmış ***Əncirli dərə*** və ***Əncirli döş*** oronimləri də bu qəbildəndir. ***Dərə*** və ***döş*** mənfi relyef forması bildirən terminlərdir. ***Əncir*** meyvə ağacı və oronimik terminlərdən duzəlmiş coğrafı adlara nümunə olaraq *Əncir qayası* (Zəngilan rayonu), *Əncildərə* (Füzuli rayonu, Alıxanlı kəndi), *Əncirli dərə* (Qaradağ, Qubadlı, Zəngilan rayonları), *Əncirdağ* (Dəvəçi rayonu) və başqalarını göstərmək olar. Türkmənistanda *İnjirdere*, Özbəkistanda *İncillidərə* və digər oronimlər də qeydə alınmışdır.

Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində əncir bitkisinin adı ilə əlaqədar ***Əncirli dərə ağzı*** oronimi də qeydə alınıb. ***Ağız*** çoxmənalı metafor termini "*çayın və başqa axar suyun gölə, dənizə töküldüyü yer*", "*dərənin düzənliyə* çıxan *hissəsi*", "*bir yerin keçiləcək və giriləcək tərəfi, qapısı*" və s. mənalar ifadə edir. ***Ağız*** termini ilə bağlı Azərbaycanda ***250***-yə qədər oronim qeydə alınmışdır.

Qubadlı rayonunun İşıqlı kəndində də *Əncirli dərə ağzı* oronimi qeydə alınıbdır.

## ƏNSAR BULAĞI

Sofulu kəndinin baş hissəsində, Düzgə dağının ətəyində qeydə alınan hidronim ***Ənsar bulağı*** adlanır. Adına bəzən yerli şivəyə uyğun olaraq ***Ənsər*** bulağı da deyirlər. Kəhriz tipli olan gur sulu ***Ənsar*** bulağının suyu şirindir. Hidronim ənsar sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Ənsar*** sözü ərəb dilində "*köməkçi*", "*tərəfdar*" mənasını daşıyır.





## ƏRƏBYATAĞI SIRA DAĞLARI

***Ərəbyatağı sıra dağları*** Cəbrayıl rayonu ərazisində, Göyərçin Veysəlli kəndinin qərbində yerləşir. Bəllidir ki, Azərbaycan toponimiyasında alınma sözlərdən düzələn oronimlər də çoxdur. Bunlardan bəziləri də ***ərəb*** adı ilə bağlı olan coğrafi adlardır. Ərəb mənşəli coğrafi adların adı Azərbaycan toponimiyasında VII əsrin ortalarından çəkilir. Ərəblərin Azərbaycana gəlmələri haqqında V.Bartold, P.Juze, A.Kenko, M.Baharlı, Z.Bünyadov və başqaları da yazmışlar. Ərəblərin Azərbaycanda olmaları haqqında ərəb coğrafiyaşünasları İbn-əl-Bəlazuri, əl-Yəqubi, İbn-əl-Fəcih-əl-Həmədani və başqa tədqiqatçılar öz əsərlərində məlumat vermişlər. Həmin dövrdən Azərbaycanın bir sıra yaşayış məntəqələri və oroqrafik obyekt adları ərəb sözləri və adları ilə adlandırılmışdır. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Ərəbyatağı sıra dağları*** oronimi də belə coğrafi adlardandır.

***Ərəbyatağı*** toponiminin birinci komponenti olan ***ərəb*** sözü ərəb xalqının adını özündə əks etdirir. İkinci komponent olan ***yataq*** sözü, "*payızda, qışda davar və mal-qaranın saxlanması* üçün *müxtəlif tikililəri olan xüsusi sahə*" mənasındadır. Çox güman ki, dağdakı tikililərdən ərəb mənşəli ailələr yataq kimi istifadə etdiyinə görə o, belə adlanmışdır. Görünür, ərəblərin vaxtilə həmin dağda qoyun-quzu və mal-qarası üçün yaxşı şərait olduğuna görə ***dağ*** belə adlandırılmışdır (*Cəbrayıl rayonu* ərazisində *bu tipli* ***Tağlı yataq dağı*** *oronimi də qeydə alınmışdır*).

***Ərəbyatağı sıra dağları*** – "ərəblərin *mal-qara saxladıqları* dağlar" mənasındadır. Ərəb etnonimi ***Ərəbyatağı sıra dağları*** adında əks olunmuşdur.

VII əsrdən ərəb işğallarının başlanması ilə əlaqədar Xilafətin tərkibinə daxil olan ərazilərə, o cümlədən, Azərbaycana xeyli ərəb tayfası köçürülmüşdür. O vaxtdan da Azərbaycanda ***ərəb*** etnonimli kənd adları meydana gəlməyə başladı. Gəlmə ərəblər sonralar yerli əhali ilə qaynayıb-qarışaraq "*azərbaycanlılaşmışlar*". XIX əsrə aid məlumata görə, ümumiyyətlə, Zaqafqaziyada adında ***ərəb*** etnoniminin iştirak etdiyi otuza qədər kənd olmuşdur.

Ərəblərin Azərbaycana köçürülməsi haqqında IX-XII əsrlər ərəb coğrafiyaşünaslarından Əl-Bəlazuri, İbn-əl-Fakih, İbn-Xordadbeh və başqaları da ətraflı məlumat vermişlər.

## ƏRƏSTƏ OCAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri Ərəstə ocağı adlanır. Toponim ***Ərəstə*** şəxs adından və ***ocaq*** komponentindən ibarətdir. Yerli adamların mənə verdikləri məlumatlara görə, ***Ərəstə (Arastə)*** adlı arvad XX əsrin birinci yarısında yaşamışdır. Deyilənə görə, onun oğlu Allahverdi yatıb yuxusunda görür ki, evlərinin dalında, arxın başında bir ***ocaq*** var. Yuxuda ona deyiblər ki, o *ocaq* sizindir. O da anasını götürüb səhər-səhər ora gedib. Anasına deyib ki, *"yuxu görmüşəm, gedək görək gerçəkdir, yoxsa yox"*. Gedib görüblər ki, gerçəkdir. Arxın başında yumru bir daşdır, ortasında da bir yırtıq, deşik yeri var. Onun ətrafında da çoxlu daşlar. Yerli adamlar sonralar bu qəbri ***ocaq*** kimi əziz tuturlar. Bu *ocağa* ürəklərində niyyət tutub nəzir qoyanlar olur. Kim ürəyində niyyət tutub bu ocağa nəzir qoyardısa, niyyətləri hasil olarmuş. Orada çox zaman piltə yandırardılar. Bəzən buğda və çörək qoyulardı ki, bunları da qurd-quş yesin, bu da *suab* (*savab*) iş sayılardı. Kənd camaatı deyirlər ki, Ərəstənin oğlu Allahverdi o zaman müharibəyə getmiş və itkin düşmüşdür...

Məlumdur ki, Azərbaycanda ***ocaq*** kultu, ***pir*** inanışı tarixin çox-çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir...

## ƏRİK PİRİ

Rayonun Qalacıq kəndində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Ərik piri*** adlanır. Toponim ***ərik*** ağacının adından və müqəddəs tapınaq yeri hesab olunan ***pir*** sözündən ibarətdir. Deyilənə görə, yerli çələbilərdən biri əriyi yeyib çəyirdəyini yerə atmış və həmin yerdə ***ərik*** ağacı bitmişdir...

Azərbaycanda ***pir-ocaq*** kultu tarixin çox-çox dərin qatlarına gedib





çıxır. Keçmişdən bizlərə yadigar qalmış ***pirlər*** artıq ziyarətgahlara çevrilmişdir. Azərbaycanda atəşpərəstlik, eləcə də buraya kənardan gətirilən xristianlıq və islam dinlərinin təsirlərinə baxmayaraq ***pir-ocaq inanışı*** öz yaşantısını qoruyub saxlaya bilmişdir. Pirlərdə qurbanlar kəsilir, nəzir-niyaz verilir. ***Pirlər*** adamların müqəddəs inanc yeri, ümidgahı hesab edilir və elə bu səbəbdən də tez-tez oraya ziyarətə gedirlər. Əhali ürəklərində niyyət tutub bu pirləri ziyarət edir.

***Pir*** sözü fars dilində *"müqəddəs", "nurani qoca", "dini icmanın başçısı"* və s. anlamlar daşıyır. Azərbaycanda adının tərkibində ***pir*** sözü olan yüzlərlə coğrafi ad qeydə alınmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan oykonimiyasında ***pir*** termini ilə bağlı ***38*** yaşayış məntəqəsi vardır.

## ƏSGƏRXANLI KƏNDİ

***Əsgərxanlı kəndi*** Cəbrayıl rayonunda, Sirik İnzibati Ərazi Vahidində, rayon mərkəzindən 30 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 55 nəfərdir. Heyvandarlıq və taxılçılıq kənd əhalisinin əsas məşğuliyyəti sayılırdı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir.

***Əsgərxanlı*** yaşayış məntəqəsinin adı ***Əsgər (Əsgərxan)*** şəxs adı ilə əlaqədar yaranmışdır. Kənd ona mənsub olan ailələrin burada yaşaması ilə bağlı olaraq belə adlanmışdır. Oykonimin tərkibindəki ***-lı*** şəkilçisi mənsubluq ifadə edir. Toponim *"Əsgərxana mənsub olan kənd", "əsgərxangillər"* mənasındadır.

## ƏSGİ DƏRƏ

***Əsgi dərə*** oronimi Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisində qeydə alınmışdır. ***Dərə*** – mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** sözü ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** komponenti olan ***30 000*** oronim qeydə alınmışdır.

***Əsgi*** sözü *"köhnə, qədim"* mənasındadır. Türk dillərində bu sözün

*"alınmaz qayalı dağ"* mənaları da vardır. Bəziləri toponimi *"əsgili (parçalı) dərə"* mənası ilə yozmağa çalışırlar.

Şərur rayonunun Oğlanqala kəndində də ***Əsgi dərə*** oronimi qeydə alınıbdır.





## "F"

## FARMAŞTƏPƏ

Cəbrayıl rayonunun Aşağı Sirik kəndi ərazisində qeydə alınmış coğrafı ad ***Farmaştəpə*** adlanır. Adına bazən ***Farmaçtəpə*** də deyirlər. Yerli sakinlər ***Farmaştəpə*** cografi adındakı ***farmaş*** (*məfrəş*) sözünü *"yorğan-döşəyi yığmaq* üçün üçün *düzəldilən bağlama"* anlamlı ifadə kimi qəbul edirlər.

***Farmaştəpə*** toponiminin adının tərkibindəki ***t***əpə termini müsbət relyef forması bildirən coğrafi termindir. Adətən ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü ***200*** metrdən artıq olmayan yüksəklik oronimiyada ***təpə*** adlanır. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində toplanan və adının tərkibində ***təpə*** termini iştirak edən ***3 500*** oroqrafik obyekt qeydə alınmışdır.

Qarabağ yaylasında, Laçın rayonu ərazisində ***Farmaştəpə//Farmaçtəpə*** adlı *dağ* da qeydə alınmışdır.

## FATİMƏ ÇƏLƏBİNİN HEYKƏLİ

***Fatimə Çələbinin heykəli*** oroqrafik obyekti Cəbrayıl rayonunun Sirik kəndi ərazisində, kəndin girəcəyindəki qəbiristanlıqda qeydə alınmışdır. Bu ***heykəl*** 4 iyul 1989-cu il tarixdə Haqq dünyasına qovuşmuş ***Fatimə Çələbi Alı Çələbi qızının*** adı ilə bağlıdır. Sirik kənd camaatının şəxsi vəsaiti hesabına ucaldılan bu ***heykəl*** kənd camaatının ziyarət yerinə çevrilmişdir. Kənd ermənilər tərəfindən işğal olunandan ***heykəl*** də işğal zonasında qalmışdır. Hər il iyulun 4-də kənd camaatı Fatimə Çələbi Alı Çələbi qızının anım gününü keçirir...

## FƏRMAN TAPI

***Fərman tapı*** oronimi Cəbrayıl rayonunun Aşağı Sirik kəndi ərazisində qeydə alınmışdır. Oronimiyamızda şəxs adlarından düzəlmiş relyef formaları mühüm yer tutur. ***Fərman tapı*** oroqrafik obyekti bu tipli antroponimik oronimlərdəndir. Oronimin tərkibindəki ***-ı*** saiti məxsusluq, mənsubluq bildirən şəkilçidir.

Oronimiyada ***tap*** termininin *"su çıxmayan düz yer", "düzən yerdə təpə", "dağ düzənliyi", "dağ döşündə düzənlik"* və s. mənaları vardır. ***Fərman tapı*** toponimi *"Fərmana məxsus olan dağ düzənliyi"* mənasındadır. ***Tap*** coğrafi termini ilə bağlı respublikamızda ***500*** oronim qeydə alınıb. Cəbrayıl rayonu ərazisində bu terminlə bağlı bir neçə oroqrafik obyekt vardır: Əkərək ***tapı*** (Niyazqulular kəndi), ***Teyfə tapı*** (Şəybəy kəndi), ***Xanımağa qaçan tap*** (Papı kəndi) və s.

## FINDIQLI ÇALA

Cəbrayıl rayonu ərazisində meyvə ağacı növləri adından düzələn oronimlərdən biri də Diridağ ətəyində qeydə alınan ***Fındıqlı*** çala oroqrafik obyektidir. Bu coğrafı ad oradakı ***fındıq*** ağacının adı ilə bağlıdır. Belə oronimlərə və bu tip oykonimlərə digər ərazilərdə də rast gəlirik: *Fındıqlı* çala (Goranboy rayonu, Todan kəndi), *Fındıqlı qobu* (Tovuz rayonu, Qayadibi kəndi), *Fındıqlı düz* (Gədəbəy rayonu), *Fındıqlı quzey* (Kəlbəcər rayonu), *Fındıqlı gədik* (Laçın rayonu, Fərəcan kəndi), *Fındıqlı* şam (Kəlbəcər rayonu, Laçın kəndi), *Fındıqlı* çay (Gədəbəy rayonu), *Fındığan dağı, Fındığan kəndi* (Xızı rayonu), *Fındıqlı-qışlaq kəndi* (Yardımlı rayonu), *Fındıqlı qəsəbəsi* (Zaqatala rayonu) və s.

## FUĞANLI ÇİNARLARI

Rayonun Fuqanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən ikisi ***Fuğanlı çinarları*** (***q - ğ*** səs əvəzlənməsi Qarabağ dialekti üçün xarakterikdir) adlanır. Bu şərq çinarları çox qədim tarixə malikdir.





Bu çinarların birinin ***900***, digərinin ***750*** yaşı vardır. ***900*** yaşı olan çinarın gövdəsinin diametri 500 santimetr, hündürlüyü 30 metrdir. ***750*** il yaşı olan çinarın gövdəsinin diametri isə 370 satimetr, hündürlüyü 30 metrdir. Çinarlar ***Fuqanlı*** kəndinin ərazisində olduğu üçün ***Fuğanlı çinarları*** adlandırılmışdır. İşğala qədər bu ağaclar qorunurdu...

## FUQANLI KƏNDİ

***Fuqanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 8 kilometr cənub-şərqdə, Şükürbəyli inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən sayılırdı. Kəndin əhalisi 300 nəfərdir. Kənddə ibtidai məktəb, kitabxana, klub, tibb məntəqəsi, kəhriz, yaşı yüzillərlə ölçülən *Fuğanlı* çinarı və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Fuqanlı*** kəndinin keçmiş adı İmambağı olmuşdur. Bəzi ədəbiyyatlarda səhvən bu yaşayış məntəqəsinin adı İmambaş formasında qeyd olunmuşdur. Kəndin adı ***Fuğani*** ağanın adı ilə bağlıdır. ***Fuğani ağa*** Maqsud ağanın oğludur. ***Fuqanlı*** yaşayış məntəqəsini *alməmmədlilər, alıkeyxalılar, rüstəmlilər* və *şamməmmədlilər* nəsillərinə mənsub olan ailələr salmışlar. Bəziləri səhv olaraq toponimin XV əsrdən Naxçıvanda məlum olan ***Fəqan*** qalasının adından və mənsubiyyət bildirən ***-lı*** şəkilçisindən ibarət olduğunu hasab edir. Onların fikrincə, guya kənd mənşəcə *Fəqan* qalasından köçüb gəlmiş ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Əlbəttə ki, bu fikir inandırıcı deyildir.

***Cəbrayıl*** elinin ***18*** oymağından biri olan ***Fuğanlı obası*** XVIII - XIX əsrlərə aid mənbəyə görə, həmin dövrdə ***Seydikarlı*** ərazisində məskunlaşmışdılar...

## "G"

### GAVUR DÜZÜ

***Gavur düzü*** oronimi Cəbrayıl rayonunun Şahvəlli kəndində qeydə alınmışdır. Oronimin tərkibindəki ***düz*** coğrafi termini mənfi relyef forması bildirir. ***Düz*** və ya ***düzənlik*** sözü oronimiyada həm *"düz"* həm də *"düzənlik"* formalarında öz əksini tapmışdır. Respublikamızın ərazisinin ***30*** %-dən çoxunu *düzənlik* sahələr əhatə etdiyindən çöl materialları içərisində coxlu sayda adının tərkibində ***düz*** termini iştirak edən toponimlər toplanmışdır. Hazırda bu tipli toponimlərin sayı ***11 000***-dən çoxdur.

Toponimin tərkibindəki ***gavur*** sözü *"kafir"* anlamındadır. Məlumdur ki, atəşpərəstlərin zamanında onlara ***kəbr*** deyilirdi. Bu tipli toponimlərə respublikamızın digər bölgələrində də rast gəlirik. Ağcabədi, Ağdaş, Beyləqan, Biləsuvar, Xocavənd, İmişli, Salyan, Ucar və digər rayonların ərazilərində ***Gavurarx*** (***Govurarx***) hidronimi də qeydə alınmışdır.

### GEN DƏRƏ

Cəbrayıl rayonu ərazisində ***Gendərə*** adlı iki oronim qeydə alınmışdır. Minbaşılı və Soltanlı kəndləri yaxınlığında qeydə alınan ***Gen dərə*** oronimi formasına görə adlanmış oronimlərdəndir. Türk dillərində ***gen*** sözü *"gen, geniş, böyük, uzaq, aralı"* mənalarında işlənir. ***Gen dərə*** oronimi *"geniş ərazisi olan dərə"* mənasını ifadə edir. ***Dərə*** coğrafi termini müsbət relyef forması bildirir. Azərbaycan Respublikasının ərazisində ***dərə*** termini ilə bağlı çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

### GENYATAQ

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Genyataq*** adlanır. ***Genyataq*** oronimi mürəkkəb söz olub, ***gen*** və ***yataq*** sözlərindən ibarətdir. ***Genyataq*** toponimi *"geniş əraziyə malik olan yataq"*





mənasındadır. Davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililəri olan xüsusi sahəyə ***yataq*** deyilir. ***Yataqlar*** maldarlığın inkişafı ilə əlaqədar olaraq hələ çox qədim zamanlardan məlumdur. ***Yataq*** yaylaqda, əsasən daşdan, aranda müxtəlif ağac, daş, qamış, qarğı və s. materiallardan tikilən ağıl, xalxal və s.-dən ibarətdir. *Yataqlar* bir qayda olaraq yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın ərazilərdə salınır.

### GƏYƏN DÜZÜ, GƏYƏN ÇÖLÜ

***Mən aşiq Gəyən yeri,***
***Saralıb Gəyən yeri.***
***İlan olub yalaram***
***Ayağın dəyən yeri...***

***Mən aşıq Gəyən yerlər,***
***Göyərmiş gəyən yerlər.***
***Mənə nişanə qaldı***
***Ayağın dəyən yerlər.***

***Gəyən düzü, Gəyən çölü*** Azərbaycanın Cəbrayıl rayonunda, rayonun qərb hissəsində, Dərvişpirimdən başlayaraq Cəbrayıl çaylağına qədər uzanan geniş ərazidə, Qarabağ silsiləsi ilə Araz çayı arasında yerləşir. ***Gəyən*** düzünün sahəsi min hektarlarla olan yovşanlı düzənliklərdən ibarətdir. ***Düz*** (çöl) Araz çayına tərəf meyllidir. Yarımsəhra və quru çöl landşaftına, qış otlağına malik olan ***Gəyən çölü*** (bəzən adını ***Gəyan*** kimi də yazırlar) antropogen sisteminin qum, gilcə, çaqıl daşlarından təşkil olunmuşdur. Hündürlüyü *250* metrdən *800* metrə qədərdir. ***Gəyən*** çölündə taxıl, üzüm və s. kənd təsərrüfatı məhsulları yetişdirilir. Araz çayı sahilində yerləşən ***Gəyən çölü*** (***düzü***) Mil düzünün bir hissəsi hesab olunur. ***Gəyən düzü*** və ***Gəyən çölü*** coğrafi adlarının tərkibindəki ***düz*** və çöl terminləri mənfi relyef formalarını ifadə edir.

Bir fikrə görə, *Gəyənin* əsl adı ***Göyən*** olmuşdur. Yazda və payızda *göy* otla zəngin olduğundan keçmişdə maldar tayfalarının köç vaxtı dayanacaqları idi. ***Göyən*** (***Gəyən***) toponimi ***göy*** (bu söz *"yaşıl ot"*, *"gen"*, *"geniş"* mənalarını ifadə edir) sözündən və məkan bildirən -***an*** (*"yer"*, "ərazi") şə-

kilçisindən əmələ gəlib, *"geniş yer"*, *"göy otlaq"*, *"göylük"* mənasını bildirir.

Başqa bir fikrə görə, ***Gəyən*** türk mənşəli sözü coğrafi termin olub, *"təpəliklərin üstündəki geniş sahə, çöl, düz"*, *"genişlik"*, *"susuzluq"*, *"yarıqaranlıq"*, *"açıqlıq"*, *"tam aydın"*, *"quraqlıq"* mənasındadır. El yozumu ilə ***Gəyən*** (***Gəyan***) sözünü *"açıq, buludsuz səma"* kimi də mənalandıranlar var. Belə bir fikir də var ki, farsdilli ***gəyan*** məfhumu *"həyat"* anlamındadır. Bunu onunla əlaqələndirirlər ki, *gəyən* nəsilləri tarixən oturaq əkinçilik və köçəri maldarlıqla məşğul olmuşdur. ***Gəyən*** qədim türk mənşəli söz olub, *"geniş yer, ərazi"* deməkdir.

***Gəyən çölü, Gəyən düzü*** təbii yataqlarla zəngindir. Gəyən çölünün qərb hissəsi İncəçöl, şərq hissəsi isə Çaxmaqçöl adlanır. Cənubi Azərbaycanda da bu tipli toponimlərə rast gəlirik. Orada *Gəyən* adlı kənd də vardır.

## GİLASLIQ

Qalacıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Gilaslıq*** adlanır. Adından da göründüyü kimi oronim ***gilas*** sözündən və ***-lıq*** şəkilçisindən ibarətdir. ***Gilaslıq*** toponimi *"**gilas** ağaclarının çox olduğu yer"* anlamındadır. ***Gilas*** – gülçiçəklilər fəsiləsindən albalı cinsindən yarpağı tökülən ağacdır. ***Gilas ağacı*** uzunsaplaqlı, çiçəkləri iri, meyvəsi çəyirdəkli çətiri yumurtavarı, gövdəsinin diametri 50-60 sm, hündürlüyü 30 metrədək olur. Gilasların becərilən forması ***100*** ilədək yaşayır. Meyvəsinin tərkibində, şəkər, alma turşusu, S vitamini olur. Balverən bitki olan ***gilas*** ağacının oduncağından musiqi alətləri də hazırlanır.

## GORDU BABA

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Gordu Baba*** *(bəzən adını **Gordubaba** şəklində də yazırlar)* coğrafi adıdır. Toponim ***gordu*** və ***baba*** sözlərindən ibarətdir. *Gordu Baba* adlanan həmin ərazi yerli əhali tərəfindən müqəddəs hesab edilir. Qədim tarixə malik olan bu pir Xələfli camaatının inanc ocağıdır. ***Gordu Baba*** toponimi ilə bağlı müxtəlif əfsanələr də yaranmışdır...





## GOVURARX

Niyazqulular kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Govurarx*** adlanır. Hidronim ***govur*** və ***arx*** sözlərindən ibarətdir. ***Gavur*** (***govur***) sözü fars dilindəki ***kəbr*** (***gəbr***) sözündəndir və ümumiyyətlə atəşpərəstlərə verilən addır. ***Govur*** sözü türklərdə *"dinsiz"*, *"kafir"*, *"islamdan kənar"* anlamındadır. ***Govur*** (***gavur***) bir sıra müsəlman xalqlarında digər dinlərə sitayiş edənlərə, bidətçilərə və başqalarına verilən addır.

Azərbaycanda – Mil və Muğan düzlərində qədim suvarma kanalı olan Govurarx hidronimi də qeydə alınmışdır.

## GÖDƏKBURUN

Cəbrayıl rayonunun Dağ Tumas kəndində qeydə alınmış ***Gödəkburun*** oronimi ***gödək*** və ***burun*** sözlərindən ibarətdir. ***Burun*** termini *"qayanın, dağın, qurunun sivri bucaq* şəklində çıxıntısı" mənasındadır.

Gədəbəy rayonunun Dəyəqarabulaq, Kəlbəcər rayonunun Mozkənd, Tərtər rayonunun Çaylı kəndlərinin ərazilərində də ***Gödəkburun*** adlı oronim qeydə alınmışdır.

## GÖLDƏRƏ

***Göldərə*** oronimi Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmışdır. Bu coğrafi ad tərkibində ***göl*** sözü olan hidronimdən yaranmış oronimlərdəndir. Zəngilan rayonunun Günqışlaq, Gədəbəy rayonunun Dəyəqarabulaq və Tovuz rayonunun Cəlilli kəndlərində də ***Göldərə*** oronimi qeydə alınıbdır.

## GÖY ATLI QƏBRİ

***Göy atlı qəbri*** coğrafi adı Cəbrayıl rayonunun Sirik kəndi yaxınlığında, Qoravar düzünün baş hissəsində qeydə alınmışdır. Yaşı bilinməyən

bu ***qəbirdə*** qara qazağı papaqlı ***göy atlı*** bir igid uyuduğu üçün yerli əhali tərəfindən toponim belə adlandırılmışdır. İşğala qədər (*1993-cü il*) yerli əhali bu qəbri əziz tuturdu...

## GÖYCƏ DƏRƏSİ, GÖYDƏRƏ

Rayonun Mahmudlu kəndinin ərazisində qeydə alınmış ***Goycə dərəsi*** oronimi ***Göycə*** sözündən, ***dərə*** mənfi relyef forması ifadə edən coğrafi termindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir.

***Göydərə*** oronimi Cəbrayıl rayonunun Dəcəl kəndi ərazisində qeydə alınmışdır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. ***Göy*** termini isə *rəng* mənasındadır; yəni, dərənin yaşıllıq, ***göylük*** (*göy otlu*) olmasını əks etdirir.

Kəlbəcər rayonunun Abdullauşağı və Zəhmətkənd kəndlərində, Culfa rayonunun *Göydərə*, Şəmkirin Orconikidze kəndlərində ***Göydərə*** və Kəlbəcərin Başlıbel kəndində qeydə alınmış ***Göycə təpə*** toponimləri də bu qəbildəndirlər,

Qərbi Azərbaycanda (*Ermənistan*), Masis rayonunda da vaxtilə ***Göydərə*** adlı kənd olub; 1948-ci ildə əhalisi Azərbaycana köçürülüb, kəndin adı isə ermənilər tərəfindən dəyişdirilərək *Qukasavan* adlandırılıb...

## GÖYƏRÇİN VEYSƏLLİ KƏNDİ

***Göyərçin Veysəlli kəndi*** Cəbrayıl rayonununda, Gəyən çölləri ilə Topcaq düzünün qovuşduğu axar-baxarlı yerdə, Şahvəlili kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 35 kilometr cənubda, Gəyən düzündə, Mincivan-Horadiz avtomobil yolu kənarında yerləşir. Əhalisinin sayı *900* nəfərdir. Əhali əsasən taxılçılıq, üzümçülük, heyvandarlıq və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, kəhriz və s. vardı. Kənddə *Axarəm bulağı, Ağ hərəm kəhrizi, Heydərqulu dağı, İsmayılölən, Qarasu kəhrizi, Sələmə dərəsi, Yarırğan dağı, Yolaşan, Rəsul ziyarətgahı, Göytəpə nişangahı, Seyid daşı* və s. kimi toponimlər qeydə alınmışdır. Kəndin ərazisində yüksək növlü xammal-vulkan





külü yatağı da tədqiq olunmuşdur. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Göyərçin Veysəlli*** toponimi ***Göyərçin*** sözündən və ***Veysəlli*** etnonimindən ibarətdir. ***Veysəlli*** tirəsinin əsasını ***Veysəl*** adlı dövrünün nüfuzlu şəxsi qoymuşdur. Toponimin tərkibindəki ***göyərçin*** (***göyərcik***) sözünü peçeneqlərin ***küyərçi*** tayfası ilə bağlamaq istəyənlər də var. Məlumdur ki, XVI əsrdə Anadoluda *Boz-Ulus* türk tayfa birləşməsinin bir tayfası ***kuqar/kuxar*** adlanırdı. ***Kuqar*** etnonimindən ***kuyarçi/küyərçi*** etnonimi düzəlmişdir. Qədim peçeneqlərin dilində başqa türk dillərindəki "***q***" səsi "***y***" kimi tələffüz olunurdu. ***Quqarçi*** tayfasının adı toponimlərdə ***Göyərçi, Göyərçinli*** formasında əks olunmuşdur. Həmin sözü ***göyərçin*** quş adı ilə də əlaqələndirənlər vardır.

Bəzi tədqiqatçılara görə, ***Göyərçin Veysəlli*** toponiminin tərkibindəki ***Göyərçin*** komponenti əslində ***Göyərcik*** oykoniminin təhrif olunmuş formasıdır (***Göyərcik Veysəlli*** – yəni, ***Göyərcik kəndi*** yaxınlığındakı ***Veysəlli kəndi***). ***Veysəlli*** patronimik toponimdir. Rayonda ***Daşveysəlli kəndi*** də var.

1728-ci ildə İrəvan əyalətinin Dərələyəz nahiyəsində ***Veysəlli*** (***Veysəllu***) adlı kənd olmuşdur. Vaxtilə Qərbi Azərbaycanda (*Ermənistanda*) əhalisi azərbaycanlılardan ibarət olan ***Göyərçinli, Göyərçin, Göyərçinqala*** adlı kəndlər də mövcud olmuşdur.

Azərbaycan Respublikasının Füzuli və Göyçay rayonlarında da ***Veysəlli kəndi*** vardır.

Əlavə məlumat üçün bax: **Daşveysəlli kəndi.**

## GÖYƏRÇİNLİ DAĞ

Toponimiyada zoonim ilə ifadə olunmuş oronimlər çoxdur. Cəbrayıl rayonunun Veysəlli kəndi yaxınlığında qeydə alınan belə oroqrafik obyektlərdən biri ***Göyərçinli dağ*** adlanır. Azərbaycan onomastikasında *göyərçinkimilər* dəstəsinin bir fəsiləsi olan ***göyərçinlərlə*** bağlı çoxlu oronimlər qeydə alınmışdır. Abşeron və Cəbrayıl rayonlarında ***Goyərçinli dağ***, Quba, Goranboy və Samux rayonlarında *Göyərçin qayası*, Laçın rayonunda *Göyərçinli təpə* oronimlərinin yaranmasına səbəb orada rast gə-

linən ***göyərçin*** quşu olmuşdur. Adları çəkilən bu oronimlər zoonim ilə ifadə olunmuşdur.

Toponimiyamızda qədim türkdilli tayfalardan biri olan peçeneqlərin və onların tərkibinə daxil olmuş tayfa və tirələrin adları qalmışdır. VIII - IX əsrlərdə Cənubi-Rus çöllərində yaşamış peçeneqlərin tayfalarından biri ***küyərçi*** (***kuyerçi***) adlanmışdır. Oronimin tərkibindəki ***göyərçin*** komponenti ***küyərçi*** tayfası adının təhrif olunmuş formasıdır. *Dağın* düzgün adı ***Kuyərçi*** olmalıdır.

XIX əsrə aid olan məlumata görə, Qars əyalətinin Kaqızman dairəsində ***Göyərçin*** adlı iki kənd və bir *dağ*, Cavad qəzasında *Göyərçin qışlağı*, İrəvan qəzasında *Göyərçin* adlı xarabalıq mövcud olmuşdur.

Qazax rayonu ərazisində *Göyərçin dağı*, Laçın rayonunun Minkənd kəndində *Göyərçin qayası*, Quba rayonunun Gürzalılar kəndində *Göyərçin qayası* və s. oronimlər də öz adlarında ***kuyerçi, kuerçi*** (***göyərçin***) qədim türk tayfasının adını əks etdirir.

## GÖYƏRÇİNLİ KƏHRİZİ

Quş adı əsasında əmələ gəlmiş zoohidronimlərdən biri ***Göyərçinli kəhrizi*** adlanır. Bu coğrafi ad ***göyərçin*** quş adından, ***-li*** şəkilçisindən və ***kəhriz*** sözündən ibarətdir. Toponim "ətrafında göyərçinlər olan kəhriz" anlamındadır.

***Göyərçin*** – göyərçinkimilər dəstəsinin bir fəsiləsinə aid olan quş növüdür. Müxtəlif rəngdə olan göyərçinlərin mülayim və tropik qurşaqda ***255*** növü məlumdur. Azərbaycanda göyərçinlərin ***4*** növü (çöl göyərçini, meşə göyərçini, alabaxta, qumru) yaşayır. Qumru köçəri, qalanları oturaqdır. Göyərçinlər ildə *2*, bəzən də *4-5* dəfə yumurtlayır. Ağac koğuşunda, kol və uçurumlarda düzəltdiyi yuvaya 2 ağ yumurta qoyur. ***Göyərçinlər*** adətən toxum və meyvə ilə qidalanır. Göyərçinlər ***3*** qrupa bölünür: *poçt göyərçinləri, dekorativ göyərçinlər, ətlik göyərçinlər.*

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq





üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## GÖYTƏPƏ NİŞANGAHI

Göyərçin Veysəlli kəndi ilə Keyxalı kəndinin arasından keçən qədim karvan yolunun üzərində, təpə üstündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Göytəpə nişangahı*** adlanır. Oronim ***göy***, ***təpə*** və ***nişangah*** sözlərindən ibarətdir. Hərrəmə daş qalağından ibarət olan bu oronim ***göy*** rəngə çalan ***təpə*** üzərində yerləşdiyi üçün belə adlandırılmışdır. Təpənin süxurlarının rəngi baxdıqda ***göy, göyümtül*** rəngə bənzədiyinə görə ***təpə*** bu cür ad almışdır.

## GUR MUSTAFA PİRİ

***Gur Mustafa piri*** Cəbrayıl rayonunun Dağ Məzrə kəndinin ayağındakı tayfa qəbiristanlığında yerləşir. Adına bəzən ***Gurmuştu piri*** də deyirlər. ***Gur Mustafa piri*** daş hərləməsi olan hasardır. Bu hasarın içərisində qaramux kolu bitir. Yerli sakinlər bu kolun dibindən tez-tez işıq şöləndiyinin şahidi olmuşlar. İnancı olanlar niyyət edib, bu kolun dibində şam yandırır, kolun qanadlarına ip, sap, parça kəsikləri düyünləyirdilər. Bu ***pir*** yerli sakinlər tərəfindən müqəddəs ocaq kimi əziz tutulurdu. Coğrafi adın tərkibindəki ***Mustafa*** sözü adam adı ilə bağlıdır.

## GUP - GUP

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 4 kilometrliyində, Dağ Tumasdan Qazanzəmi və Xanaöabulağı kəndlərinə gedən yolla-

rın ayrıcında, Lələ bulağının üstündə, dağətəyi sahədə qeydə alınan oronimlərdən biri ***Gup-gup*** adlanır. ***Gup-gup*** oronimi dağlı-daşlı təpəliyin üzərində yerləşir. Toponimin ***Gup-gup*** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr vardır...

## GÜL OCAQ

Çələbilər kəndi ərazisində Hacı Qaramana məxsus qədim Qara damın *ocaq* yeri ***Gül ocaq*** adlanır. Toponim ***gül*** və ***ocaq*** sözlərindən ibarətdir. Yerli sakinlərin dediklərinə görə dəfələrlə ocaq yerində ***gül*** bitməsi, çiçək açması müşahidə olunur. Bu, doğrudan da möcüzədir. Qara damın başqa bir möcüzəsi də orta dirəyinin hələ də yerində olmasıdır. Bu dirəyin indi ancaq kol bitkisi kimi rast gəlinən *topurqulu* ağacından yonulması bildirilir.

Məlumdur ki, Azərbaycanda ***ocaq, pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında aantroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Ocaq*** və ya ***pir*** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

## GÜLABİ YATAĞI

***Gülabi yatağı*** adlandırılan coğrafi ad Cəbrayıl rayonunım Səfərşa kəndi ərazisində qeydə alınmışdır. ***Yataq*** - maldar ellərinin qışlaq yerində müvəqqəti yaşayış yeri yaxınlığında təsərrüfat tikilişinə deyilir. Gecələr qoyunlar (hər ***yataq*** təxminən ***50*** qoyun üçün nəzərdə tutulurdu) *yatağa* salınırdı. ***Yataq*** termini ilə bağlı ölkəmizdə ***400***-ə qədər oronim qeydə alınmışdır.





***Gülab*** - qızılgüldən xüsusi üsullarla alınan duru mayeyə deyirlər. Ehtimal ki, toponim keçmişdə paltar yumaq üçün istifadə olunan *gilabın* çıxarıldığı yer ilə əlaqədardır.

Vaxtilə Tiflis quberniyasının Borçalı qəzasında *Gülabi dağ* oronimi, eləcə də İrəvan quberniyasının Sürməli qəzasında *Gülabi kəndi* də qeydə də alınmışdır...

## GÜLMƏMMƏDLİLƏR DƏRƏSİ

Dağ Tumas kəndinin yaxınlığında, *Gödəkburun* ilə *El cədəsi* arasında o qədər də uzun olmayan dərə ***Gülməmmədlilər dərəsi*** adlanır. Oronim ***Gülməmməd*** şəxs adından, ***dərə*** mənfi relyef forması ifadə edən coğrafi termindən, eləcə də ***-li, -lər*** və ***-si*** şəkilçilərindən ibarətdir. ***Gülməmmədlilər dərəsi*** toponimi "*Gülməmmədli nəslinə məxsus olan dərə*" anlamındadır. Bu tipli oronimə Azərbaycanın digər rayonlarında da rast gəlmək olur.

## GÜLOĞLAN YATAĞI

Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Güloğlan yatağı*** oronimi ***Güloğlan*** şəxs adından və ***yataq*** terminindən əmələ gəlmişdir. Toponim "*Güloğlana məxsus olan yataq*" mənasındadır. ***Yataq*** – davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililəri olan xüsusi sahələrə deyilir. Bu termin maldarlığın inkişafı ilə əlaqədar hələ çox qədim zamanlardan məlumdur. ***Yataqlar*** yaylaqda, əsasən daşdan, aranda müxtəlif qamış, ağac, daş, qarğı və s. materiallardan tikilən ağıl, xalxal və s.-dən ibarətdir. Yataqlarda çobanlar üçün yaşayış mənzilləri, alaçıqlar, çadırlar, aran yerlərində isə heyvanların qışlaması üçün damlar olur. ***Yataqlar*** bir qayda olaraq yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınır.

## GÜLYAZ PİRİ

***Gülyaz piri*** oroqrafik obyekti Cəbrayıl rayonunun Minbaşılı kəndi ərazisində, kəndin gündoğanındakı *Pir dərəsi* deyilən yerdə qeydə alınmışdır. Kiçik daş hərləməsindən ibarət olan bu pirin mənşəyi qeyri-müəyyəndir. ***Gülyaz piri*** Minbaşılı kənd *camaatının müqəddəs inanc yeri* hesab olunurdu. Niyyət tutub ziyarətə gələnlər buradakı daşların üstündə şamlar yandırar, niyyətlərinin yerinə yetməsi üçün dualar edərdilər.

## GÜNBƏZ PİRİ

Dağtumas kəndindən 3 kilometr cənubda, Gəyən düzü ərazisində, tökmə təpə üzərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Günbəz piri*** adlanır. Üst örtüyü olmadığından ona ***Başıkəsik günbəz*** də deyirlər. Bu pirin üzlik daşı ağ rəngdədir. El arasında *Günəş günbəzi* hesab olunur. Havalar uzun müddət yağışlı keçəndə günbəzdə mal qurbanları kəsilər və kəsilmiş heyvanın əti evlərə paylanardı. Günbəz pirindən yağışın kəsməsi, günəş çıxması dilək edilərdi.

Dairəvi, çoxbucaqlı və ellipsvarı bina və qurğuların çevrilmiş kasa formal örtüyünə ***günbəz*** deyirlər. ***Günbəz*** oturacaqdan yuxarıya doğru hörgü sıralarının getdikcə daraldılması vasitəsilə yaradılır. **Günbəzlər** lap qədim dövrlərdən məlumdur. *Günbəzlər* əvvəllər gildən, sonralar isə daş, bişmiş kərpic, beton və s. materiallardan tikilirdi. XIX əsrdən memarlıqda kərpic və daş günbəzlərlə yanaşı, metal karkaslı ağac və dəmir-beton **günbəzlər** də tətbiq olunmağa başlandı.

Məlumdur ki, Azərbaycanda ***pir-ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən sonralar ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.

***Pirlər*** əhali tərəfindən müqəddəs tapınaq yeri hesab olunur. ***Pir*** - farsca *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalara





malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim, hidronim və ***37*** yaşayış məntəqəsi (*oykonim*) vardır.

## GÜNEY DAĞ

Cəbrayıl rayonu ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Güney dağ*** adlanır. ***Güney*** coğrafi termini - *"təpənin, dağın cənuba, cənub-şərqə tərəf baxan hissəsi"*, *"Günəş şüası çox düşən tərəf"*, *"dağın gündüşən, meşəsiz tərəfi"*, *"cənub"* kimi mənalar ifadə edir. Azərbaycanda bu terminlə bağlı ***2500***-dən çox oronim qeydə alınmışdır. ***Dağ*** - müsbət relyef forması bildirən coğrafi termindir. Azərbaycan ərazisində çöl materiallar içərisində ***1300*** dağ adı toplanmışdır.

Azərbaycan Respublikasının Daşkəsən, Goranboy və s. rayonlarında da *Güney dağ* oronimi qeydə alınmışdır.

## GÜNEY YATAQ

Nüzgər kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Güney yataq*** adlanır. Oronim ***güney*** coğrafi terminindən və ***yataq*** sözündən ibarətdir. Müsbət relyef forması bildirən ***güney*** coğrafi termini *"dağın, təpənin, binanın və s.-nin çoxlu gün düşən tərəfi"*, *"günəşli yer"*, *"cənub"* mənasını ifadə edir. ***Quzey*** sözünün əksi olan ***güney*** termininə coğrafi adların tərkibində çox rast gəlirik.

Toponimin tərkibindəki ***yataq*** termini davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililəri olan xüsusi sahəni ifadə edir. ***Yataqlar*** maldarlığın inkişafı ilə əlaqədar hələ qədim zamanlardan məlumdur. *Yataqlar* yaylaqda əsasən daşdan, aranda müxtəlif qamış, ağac, daş, qarğı və s. materiallardan tikilən ağıl, xalxal və s.-dən ibarətdir. Adətən ***yataqlar*** yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınır. Yataqlarda çobanlar üçün yaşayış mənzilləri, alaçıq, çadır, aran yerlərində isə heyvanların qışlaması üçün damlar olur. ***Yataq*** termini ilə bağlı respublikamızda çoxlu sayda toponimlər mövcuddur...

## GÜNƏŞ ATA

Müqəddəs Cəbrayıl rayonunun ərazisində çoxlu sayda ***Ata*** və ***Nənə*** xaqanlığını özündə əks etdirən **Ata** və **Nənə** qəbirləri vardır. Məsələn: ***Tumas Ata, Günəş Ata, Dom Ata, Cəbrayıl Ata, Şıx Ata, Müşk Ata, Çomaq Ata, Çəpik Ata*** və s. Məlumdur ki, ən qədim türklər əvvəllər Tanrıya ***Ata***, Allahlar anasına ***Nənə*** (***Nanə***) demişlər. ***Ata*** sırf türk sözüdür. ***Ata*** sözü miladdan öncəki dövrlərdə və erkən orta əsrlərdə müqəddəsliyi olan mənəviyyat sahiblərinə, böyük nüfuzlu şəxslərə, elinə yurduna bağlı olan xeyirxah insanlara, tayfa və qəbilə başçılarına verilirdi. Zaman keçdikcə bu ***müqəddəs*** insanların qəbirləri ziyarətgahlara çevrilmişdir. Bu inanış günümüzə qədər davam etmiş və yəqin ki, bundan sonra da belə davam edəcəkdir.

***Günəş Ata*** Tumas Atanın yeddi qardaşlarından biri hesab edilir. O, Çaytumas kəndinin Yuxarı məhəllə qəbiristanlığının cənub hissəsində, Gündoğan çalasında dəfn edilmişdir. Qəbirin üzərində qaratikan kolu və daş nişanələri vardır. İnanclara görə havalar həddindən çox yağmurlu keçəndə kənd camaatı *Günəş Ataya* qurban deyər, günəşin çıxmasını ondan diləyərdilər...





## "H"

## HACANUR

Qazanzəmi kəndi yaxınlığında, Təktüklü dağı ilə üz-üzə, təpə üzərində, zirvədə yerləşən oroqrafik obyekt ***Hacanur (Haçanur kimi də yazılır)*** adlanır. Bəzən sənədlərdə onu ***Hacatüklü*** də adlandırırlar. Zirvənin tili dəvə hürgücünə bənzəyən iki kiçik təpəyə ayrılır. Hər iki təpənin başında ağcaqayın ağacı bitir. ***Hacanur*** eyniadlı təpənin iki tili arasında hasara alınmış bir qəbir yerindən ibarətdir. Kimə məxsus olduğu məlum olmayan bu qəbiri yerli əhali ***ziyarətgah*** hesab edir. Kəndin camaatı vaxtilə Novruz bayramları günlərində burada qurbanlar kəsər, şənliklər keçirər, Ulu Tanrıdan yeni ilin məhsuldar olmasını arzulayardılar...

## HACI AXUND BAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Axund bağı*** adlanır. Bu bağda çoxlu sayda meyvə ağacları və digər bitkilər vardı. Oronim ***hacı*** və ***axınd*** dini titullarından və ***bağ*** sözündən ibarətdir. Toponim *"Hacı Axunda məxsus olan bağ"* anlamındadır.

## HACI ƏRƏB ZİYARƏTGAHI

Rayonun Kavdar kəndi yaxınlığında, dağətəyi ərazidə, çox da hündür olmayan bir təpənin üstündə qeydə qlınan oroqrafik obyektlərdən biri ***Hacı Ərəb ziyarətgahı*** adlanır. Bu ***ocaq-ziyarətgah*** səliqə ilə düzülmüş yumru və yastı daş qalağı ilə əhatələnən hasarın içərisində oturacağı çökək, hündür bir qaya parçasından ibarətdir. Yerli məlumata görə, bu daş parçasının oturacaq hissəsində vaxtilə şam yanar və ətrafa işıq saçarmış. Ocağa bəzən *Naməlum bir övliyanın nişangahı* da deyirdilər. ***Ziyarətgah*** Kavdar kəndinin ərazisində yerləşdiyi üçün adına bəzən ***Kav-***

***dar Ərəb ziyarətgahı*** deyilirdi. Yerli əhali buranı müqəddəs ***ziyarətgah*** kimi qəbul edirdi və onu əziz tuturdu. Buranı ziyarətə rayonun demək olar ki, hər yerindən gəlirdilər. Kimin istəyi, arzusu, niyyəti vardısa, çərşənbə günləri gəlib burada pitə yandırar və bununla da onların arzuları, niyyətləri həyata keçərdi. Hacı Qaramanın kiçik qardaşı kimi xarakterizə olunan bu ocaq xüsusilə, Kavdar, Mirək, Hacılı, Hüseynalılar və digər kəndlərin əhalisinin inanc yeri sayılırdı. Yerli əhalinin mənə verdikləri məlumatlara görə, bu ziyarətgahda ilahi qüvvə varmış. Hacı Ərəb ziyarətgahı ilə bağlı çoxlu əfsanələr, rəvayətlər vardır...

Deyilənə görə hasarın içərisində iki qadın dəfn olunubdur. Onlar Həccə ziyarətə gediblər. Biri on iki aya gəlib, o biri ondörd aya. Gəlib kəndə çatan kimi rəhmətə gediblər. Camaat onları həmin bu yerdə dəfn edib. Onun yanında bir dalaq daşı da var. Adətən yağış yağanda, nəmişlik olanda həmin daşın yuxarısından qan kimi su çıxarmış. Mədəsi ağrıyanlar, hamilə qadınlar özlərini həmin daşa yaxınlaşdırıb mədələrini, qarınlarını ona sürtərdilər. Deyilənə görə bu, onlara çox xeyir edirmiş. İnsanlar şəfa tapmaq üçün 3 çərşənbə dalbadal bura gələrmişlər. Bu ərazidə Yəhya babanın, Səkinə Çələbinin, Mirhüseyn babanın da məzarları vardır...

## HACI HÜSEYNLİ BAĞI

Xələfli kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Hüseynli bağı*** adlanır. Oronim ***Hacı Hüseyn*** şəxs adından, ***bağ*** sözündən, ***-li*** şəkilçisindən ibarətdir. Yerli məlumata görə, ***Hacı Hüseyn*** bu bağın yaradıcısının adıdır. Bu bağda çoxlu sayda müxtəlif növ ağaclar vardı. Toponim *"Hacı Hüseynin yaratdığı bağ"*, *"Hacı Hüseynə məxsus olan bağ"* mənasındadır. Belə toponimlər Azərbaycanın digər bölgələrində də vardır.

## HACI XOŞDAN

Tey dağının günbatan gədiyində, talada yerləşən qəbir ***Hacı Xoşdan*** adlanır. Talanın günbatanında ***Qoturbulaq*** adlı çeşmə var. Deyilənə görə





qəbirdə ***Hacı Xoşdan*** adlı pirani bir şəxs uyuyur. Vaxtilə *Hacı Xoşdan* həmin bulağın suyu ilə dəstəmaz edər, talada namaz qılarmış. Bəzi məlumatlara görə pirin *yağış yağdırma kəraməti* var. Quraqlıq zamanlarda halal bir insanın qəbir üstə qalxmağı, əhd ilə xoruz qurbanı kəsməsi yağış yağmasına kifayət edər...

## HACI QARAMAN PİRİ

***Hacı Qaraman piri (ocağı)*** Cəbrayıl rayonunun ərazisində, Çələbilər kəndinin yaxınlığında, Gəyən düzünün Gizgə dağı söykənənəciyində yerləşir. Bu ***pir (ocaq)*** əhali arasında ***Hacı Qaraman məzarlığı*** ilə tanınan, daş hasara alınan qəbirdən ibarətdir. Hasarın qapısında qara daş, içərisində isə ardıc ağacı vardır. Burada zəmanəsinin böyük övliyası, sinəsi hikmət xəzinəsi olmuş məşhur din xadimi, təriqət başçısı ***Hacı Qaraman*** dəfn olunmuşdur. Yaşlı nəslin mənə dediklərinə görə, Hacı Qaraman ocağının sayəsində neçə-neçə xəstələr şəfa tapmış - dəlilər ağıllanmış, ağzı əyilənlərin ağzı düzəlmiş, danışa bilməyənlərin dilləri açılmış, sonsuz hesab edilən qadınlar sonradan ana olmuşlar. Bu ocaq həmişə kimsəsizlərə dayaq idi. Qarabağ camaatı həmişə bu ocağın ziyasından, kəramətindən bəhrələnmişlər. Əfsuslar olsun ki, onlarla, yüzlərlə digər pirlərimiz, ocaqlarımız kimi **Hacı Qaraman ocağı** da 1993-cü ildə erməni işğalçı qüvvələrinin əlinə keçdi.

***Hacı Qaraman Əfəndi*** (Əhməd Çələbi Əfəndi) Araz çayının sol sahilinin dini rəhbəri olmuşdur. O, çoxlu maral saxlayar və maldarlıqla məşğul olardı. Yerli məlumata görə, ***Hacı Qaraman*** (Əhməd Çələbi Əfəndi) buraya təxminən *600* il bundan əvvəl Diyarbəkirdən gəlmişdir. ***Hacı Qaraman*** Cəbrayıl torpaqlarına gələndən sonra burada ***Yetər*** adlı bir nəfər ilə ailə həyatı qurmuş və onlar çoxlu oğul-uşaq sahibi olmuşlar. Çələbilər nəslinin davamı bu iki adamın adı ilə bağlıdır. ***Hacı Qaraman*** vəfat edəndən sonra onun dəfn olunduğu yer *pir*, *ocaq* kimi tanındı. ***Hacı Qaraman piri*** yerli əhali tərəfindən *pir-ocaq* kimi çox əziz tutulur, müqəddəs inanc yeri hesab edilir. Bu etiqad cəbrayıllılarda indi də vardır.

Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevril-

mişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.

Azərbaycanda ***pir*** adlarında etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. Cəbrayıl rayonunda, Çələbilər kəndi ərazisində qeydə alınan XIV əsrə aid ***Hacı Qaraman piri*** (*məzarı*) də belə müqəddəs tapınaq yerlərindəndir. ***Hacı Qaraman ocağı*** xalqın müqəddəs bildiyi inanc yeri, ümidgahı olmuşdur. Məlumdur ki, Məkkəni, Kəbəni ziyarət edənlərə ***Hacı*** deyirlər. Bu ***piri*** ziyarət edənlər niyyətlərinin hasil olmaları üçün tapınağa parça qırığı, yaylıq, rəngli ***ip*** də bağlayırlar. ***Hacı Qaraman piri*** ocağında da bu adət saxlanılmışdır. Bəlkə də, elə dilimizdəki ***ipləmə*** ("*ifləmə, dəli*") ifadəsi də belə etiqadın "izlərindəndir..." Bu tip pirlərə *Soltan Xələc piri* (Quba rayonu), *Pirsaat piri* (Şamaxı rayonu), *Qaradonlu piri* (İmişli rayonu), Şıxlar və başqalarını nümunə göstərə bilərik.

***Pir*** - farsca "*nurani qoca*", "*müqəddəs*", "*dini icmanın başçısı*" və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi var.

***Qaraman*** ad ***qara*** və ***man*** sözlərindən ibarətdir. ***Qara*** – "*böyük*", "*igid*", "*cəsarətli*", "*güclü*", "*qorxmaz*" anlamını ifadə edir; ***man*** komponenti isə "*adam*", "*insan*" mənasını bildirir. Bu mənada ***Qaraman*** toponimi "*cəsarətli insan*", "*igid adam*" mənasındadır.

Tarixdən məlumdur ki, vaxtilə ***Qaraman*** (***Karaman***) adlı qədim türk tayfası da olmuşdur. *Don Juan İranlı* adı ilə tanınmış Oruc bəy Bayat qızılbaş tayfaları və onların şaxələrinin tam siyahısında ***qaramanlı*** tayfasının da adını çəkmişdir.

Tarixi mənbələrdən məlumdur ki, ***qaramanlar tayfası*** orta əsrlərdə geniş yayılmış qədim türk tayfasıdır. Onlar X – XI əsrlərdə Orta Asiya və Türkiyədə daha çox yayılmışlar. Bəzi tədqiqatçılara görə, oğuz tayfasından olan ***qaramanlılar 2000*** çadırdan ibarət bir tayfa kimi XI əsrdə Səlcuq sultanı Toğrul bəyin dövründə Anadoluya, Azərbaycana və başqa ərazilərə gəlmişlər. *Qaramanların* XII əsrdə şimaldan Azərbaycana gəlmələri və onların müəyyən hissəsinin buradan Ön Asiyaya köçməsi fikri də tarixdə özünə yer almışdır. Bu da məlumdur ki, Qaraqoyunlu Qara Yu-





sifin qoşun başçısının adı ***Qaraman*** olmuşdur. XIV əsrin ikinci yarısında *Bərdə* və *Gəncə* mahalları köçəri ***qaraman*** tayfasından olan Əmir Yarəhməd Qaramanın əyaləti idi. XV əsrin sonunda bu tayfa Şah İsmayıl Xətainin tərəfində Qızılbaşların tərkibinə ***Qaraman*** adı ilə daxil olmuşlar.

Uralda, Volqaboyunda, Şimali Qafqazda da ***Qaraman*** etnonimi ilə bağlı toponimlərin olması onların bir hissəsinin şimaldan gəldiyini göstərir. Qaramanların ***varsaq, qara, isa, kosun, qıştəmir*** və s. qolları olub. ***Qaramanlar*** IX əsrdə Volqa boyunda bir dövlət yaratmış, XI əsrdə qıpçaqlarla toqquşmada məğlub olmuş və bundan sonra onların bir hissəsi Azərbaycana gəlmişlər. Tarixi sənədlərdən məlum olur ki, vaxtilə səlcuq türklərinə məxsus ***Qaraman xanlığı*** mövcud olmuşdur. 1471-ci ildə xanlıq Osmanlı dövləti ilə birləşmiş, bundan az sonra əhalisinin bir hissəsi Azərbaycana gəlmişdir. Azərbaycanda müxtəlif vaxtlarda 5 müxtəlif variantda ***Qaraman kəndi*** qeydə alınmışdır. Tarixi bilgilərdən aydındır ki, hərbi xidmətlərinə, döyüşkənliklərinə, mərdliklərinə görə Səfəvi şahları *qaramanlara* Azərbaycan ərazilərində çoxlu yerlər vermişlər.

Mənbələrdən məlum olur ki, Çində yaşayan salarlar arasında da ***qaraman*** tirəsi mövcud olmuşdur. XIX əsrin ortalarına aid sənədlərdə indiki Salyan rayonunun ərazisində ***29*** ailədən ibarət ***qaramanlı*** adlı köçəri tayfanın yaşaması göstərilir. Onlar oturaqlaşandan sonra ***Aşağı Qaramanlı*** və ***Yuxarı Qaramanlı*** kəndlərini yaratmışlar.

Ağdam, Yevlax, Kürdəmir, Göyçay, Neftçala, Salyan, Cəbrayıl və s. rayonlarda *qaramanlılarla* bağlı xeyli toponimlər qeydə alınmışdır. Onlara nümunə olaraq ***Qaraman kəndi*** (Göyçay rayonu), ***Qaramandağ*** (Ağdam rayonu), ***Qaramanlı kəndi*** (Qubadlı rayonu), ***Qaramanlı kəndi*** (Yevlax rayonu) və başqalarını misal göstərmək olar. Vaxtilə Qərbi Azərbaycanın (*Ermənistanın*) Göyçə mahalında, Vardenis rayonunda da Azərbaycan türklərinin yaşadıqları ***Qaraman*** adlı kənd mövcud olmuşdur. ***Qaraman*** (***Karaman***) qədim türk tayfasının adı ilə bağlı Türkiyədə, İranda, Gürcüstanda, Ermənistanda, Rusiyada, Orta (*Mərkəzi*) Asiya respublikalarında və digər ölkələrdə çoxlu sayda coğrafi adlar vardır.

***Hacı Qaraman piri*** ilə bağlı xalq arasında xeyli nağıllar, əfsanələr, rəvayətlər mövcuddur. Məncə onlardan bir neçəsini oxucuların diqqətinə çatdırmaq pis olmazdı:

* * *

*Hacı Qaraman maralı minib şallağı da əlinə alıb gedirmiş. Ona deyirlər ki, bəs burda, Araz qırağında bir ocaq var. Onunla da görüş, adı da Şıx Hümmətalıdır. Hacı Qaraman Şıx Hümmətalıya tərəf gedəndə görüb ki, Şıx Hümmətalı divarı canlı heyvan kimi minib buna tərəf gəlir, əlində də çubuq əvəzində ilan. Bunu görən Hacı Qaraman deyir:*

*Sən məndən güçlü ocaqsan. Mənim mindiyim ayaqları üstündə yeriyir, sənin mindiyin ayaqsızdır.*

*Sonra onlar yarışırlar. Şıx Hümmətalı Arazın üstündə ocaq yandırır. Amma Hacı Qaraman Arazın üstündə ocaq yandıra bilmir. Ondan deyirlər ki,* yanmadı Qaraman ocağı.

* * *

*Deyirlər ki, Çaldıran döyüşündə Şah İsmayıl məğlub olanda ona ox atıblar. Bir nəfər sinəsini verib oxun qabağına. Sinəsini oxa verəndə Şah İsmayıl bilib ki, bu adam Hacı Qaramanın qardaşı Mehdi Çələbinin oğludur. Onda əmr verib ki, bunu təcili Çələbilərə çatdırın. Çələbilər də Şahın Şirvana hücumu zamanı indiki Çələbilərə köçmüşlər. Həmin yaralı gətirilərkən Naxçıvanın Badamlı kəndində ölür. Məlumatlara görə, XX əsrin 30-cu illərinə qədər həmin qəbir ziyarət yeri imiş...*

* * *

*Bir oğlan bərk xəstə idi. O qədər yer gəzir, həkim, təbib, dərdinə çarə olmur. Axırda deyirlər ki, bala, filan yerdə Hacı Qaraman baba var. Onun yanına gedərsən, ondan sənə çarə olar. Bu da soraqlaşa-soraqlaşa gəlib çatır Hacı Qaraman babagilə. Hacı Qaraman baba qızına deyir ki, o, uzaq yerdən gəlibdir, buna çay-çörək gətir. Çay-çörək gətirilir. Bişmiş hazırlanınca Hacı Qaraman baba qatığı gəncin qabağına qoyub deyir:*

*- Bala, uzaq yerdən gəlmisən, ye.*

*Oğlan qatıqdan bircə dəfə ağzına qoyan kimi yüngülləşir. Bu, ona təəccüblü gəlir. Odur ki, belə fikirləşir: "Bu gecə qalacağam burda, görüm bu nə olan şeydir".*

*Gecəni burda yatır. Səhər açılanda görür ki, Yetər nənə nə isə ocağı qaladı, orda qabda məlhəm kimi bir şey hazırlayıb getdi. Durdu bunun dalınca çıxdı ki, görə bu nə olan şeydir. Gördü ki, bir bölük maral gəldi Hacı Qaraman babanın ocağına. İçərisində ovçu vurub, yaralanı da vardı. Arvad nə birini çağırdı, nə bir şey elədi. O yaralı gəlib durdu arvadın yanında, məlhəm qoyub sarıdı. O, yaralıların hamısını sarıdı, qalan maralların da hamısını sağdı, südünü götürüb dedi:*

*- Ay Allahın heyvanı, indi gedə bilərsən.*

*Oğlan həyətdə maral buynuzlarının yerə töküldüyünü görür. Gəlib evdə deyir ki, hə bu qatıq onun - maralın qatığıdır.*

*Onlar da gəlib Hacı Qaraman babadan soruşurlar:*

*- Hacı Qaraman baba, bu qatıq nə qatığı idi?*

*Deyib:*

*- Bala, həmin maralın qatığı idi.*

*Oğlan deyir:*

*- Deyirəm axı, onu yeyəndən yaxşılaşmışam.*

*Beləcə bundan sonra maral buynuzu töküldüyü Hacı Qaraman babanın ocağı o ailə üçün də and yerinə çevrilir...*

* * *

*Deyilənə görə, bir gün İran şahı Hacı Qaramana deyib:*

*- Hacı Qaraman, mənimlə qabaq-qənşər gəl, görək kim güclüdür.*

*Bu İran şahı bir divar minir, əlinə də qamçı yerinə bir ilan alıb deyir:*

*- İndi çıx döşümə görüm sən neyləyəcəksən.*

*Bu hadisə də Araz çayının qırağında baş veribdir. Deyib:*

*- Gəl, durmuşam.*

*- Sənin nəcabətin ağırdır. Qabaqca sən möcüzə göstər.*

*- Bala, get Arazın üstündə ocaq qala.*

*- Suyun üstündə ocaq yanarmı?*

*- Get qala.*

*O, gedib ocağı qalayır, yanmır. Deyir:*

*- Ay Qaraman baba, yanmır axı.*

*O da deyib:*

*- Dənən inşaallah, yanar Hacı Qaraman babamın ocağı.*

*Ondan sonra suyun üzərində ocaq alovlanır. Odur ki, deyir:*

*- Hacı Qaraman baba, mənim daha sənə sözüm yoxdur.*

* * *

*Bir nəfər ilan sümüyü udub, gəlib Hacı Qaraman babanın qarşısında ağzı açıq durub, Hacı Qaraman babaya minnət edir ki, məni bundan qurtar. Hacı Qaraman baba bir qadına deyibdir ki, irəli dur, qorxma, get onun ağzından sümüyü çıxart. Ondan sonra sən olacaqsan tanınmış adam.*

*Qadın deyib:*

*- Qorxuram.*

*Əl çəkməyib. Durub yanında. İlanın ağzından sümüyü çıxarıb. Bundan sonra həmin qadın məşhur bir adam olub. Kimə əlin çəkərmiş, bununla da o, yaxşı olarmış.*

*Bir də yığışıb oturublar evdə. Bunun ailəsi görür ki, kişini çağırıblar çölə. Durub çölə çıxanda görübdür ki, ilanların yekəsi qoşunu ilə gəlib durub qapıda. Deyib ki, biz gedirik İrandakı ilanlarla müharibəyə. İlana dua oxuyubdur, gedib. Bunu da qadın arxadan eşidir, görür. Ta, çevrilməyib, gedib. Aradan bir həftə keçəndən sonra yenə görüb ki, kişini çağırırlar. Kişi çıxıb qapıya deyibdir ki, nətər getdiniz, nətər gəldiniz? Deyiblər ki, elə getdik, elə gəldik ki, birimizin irtməyi qırıldı. Qalanımıza heç nə olmadı. Sənin o duanın hesabına yaxşı gedib-gəldik...*

* * *

*Deyirlər ki, Mir Cəfər Bağırovun vaxtında yığılırlar ki, bu nə ocaqdır? Gedin onu dağıdın. Kimi göndəriblərsə, getməyib. Biri deyib:*

*- Allah ölümü deyil ha. Atı ver, mən gedim dağıdım.*

*Ona deyiblər:*

*- Ə, otur yerində.*

*Deyib:*

*- Nə olacaq ki? Ta üstümüzü kəsillər də, gedək.*

*Gəlib elə Ələmdarların yanından keçəndə at onu yerə salır. Boynu da, beli də qırılır, elə oradaca məhv olur. Odur ki, deyirlər:* **"Uçurdunmu Hacı Qaramanın qalağın?"**

* * *





*Bir nəfər taxıl əkirmiş. Quraqlıq olduğundan taxıl bitməyib. Hacı Qaraman da bu zaman buradan keçirmiş. Həmin adam deyib:*

*- Ay baba, bəs nə edəcəyik, yağış yox, taxıl yox. Bu il bizim balalarımız acından qırılacaqdır.*

*Hacı Qaraman iki rükət namaz qılıb, Allaha yalvarıb, dua edib. Heç iki dəqiqə keçməmiş yağış yağıbdır. Yağış çəkiləndən sonra taxıl bitibdir.*

## HACI MƏCNUN OCAĞI

Cəbrayıl rayonunun ərazisində, Çələbilər kəndinin qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Hacı Məcnun ocağı** adlanır. Deyilənə görə, **Hacı Məcnun** özü əslən Qarabağdan imiş. Çələbilər kəndində məktəbdə oxumuş, sonra özü orda müəllim kimi (*məşhur Azərbaycan şairi Molla Vəli Vidadi də Çələbilər kəndində müəllim işləmişdir*) çalışmışdır. **Hacı Məcnun** vəfat edəndə onu burada dəfn etmişlər. Sonralar onun *qəbri* də digər müqəddəs ziyarətgahlar kimi yerli əhali tərəfindən əziz tutulmuşdur.

Azərbaycanda **ocaq, pir** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan **ocaqlar, pirlər** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. **Pir-ocaq** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. **Pir** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. **Ocaq** və ya **pir** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır ki, bunun da böyük bir qismi Cəbrayıl rayonunun ərazisindədir.

## HACI MİSİRXAN DƏRƏSİ

Dağ Tumas kəndinin yaxınlığında, Sutöküləndən Cədə yoluna qədər uzanan geniş düzənlik ***Hacı Misirxan dərəsi*** adlanır. Toponim ***hacı*** dini titulundan, ***Misirxan*** şəxs adında, ***dərə*** coğrafi terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Hacı Misirxan dərəsi*** toponimi *"Hacı Misirxana məxsus olan təpə"* anlamındadır.

Oronimiyada relyefin dar və ya çökək forması ***dərə*** termini ilə ifadə olunur. Azərbaycan oronimiyasında ***dərə*** coğrafi termini ilə işlənən toponimlər üstünlük təşkil edir. Respublikamız ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** termini iştirak edən ***30 000***-dən çox oronim qeydə alınmışdır.

## HACI RƏHİM OCAĞI

Dağtumas kəndinin qədim qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Hacı Rəhim ocağı*** adlanır. Bu ***ocaq*** daş hasara alınmış qəbirdən ibarətdir. Burada dövrünün böyük nüfuz sahibi, ruhani-alim ***Hacı Rəhim*** adlı hörmətli bir şəxs uyuyur.

Məlumdur ki, Azərbaycanda ***ocaq, pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir.

## HACI SEYİD BABANIN ÇEVİRMƏSİ

Hovuslu kəndinin köhnə yurd yerinin qarşısında qeydə olınmış oronimlərdən biri ***Hacı Seyid Babanın*** çevirməsi adlanır. Bu oroqrafik obyekt daş hasara alınmış ***saqqız*** ağacından ibarətdir. Yerli məlumata görə,





burada Hovuslu elatının mömin bəndəsi, dövrünün böyük nüfuz sahibi olan ***Hacı Seyid Baba*** namaza durmuş, zikr etmişdir. Deyilənə görə *Hacı Seyid Babanın* qəbri Qərbi Azərbaycanda (*Ermənistanda*), Sisyan rayonunun ərazisində, Hovuslu kəndinin yaylaq yerindədir. Hovuslu və ətraf kəndlərin əhalisi ***Hacı Seyid Babanın çevirməsi*** adlanan bu oroqrafik obyekti müqəddəs tapınaq yeri kimi əziz tuturdular.

## HACIİSAQLI KƏNDİ

***Hacıisaqlı kəndi*** Cəbrayıl rayonunda, Şahvəlili kənd inzibati ərazi vahidində, rayon ərkəzindən 34 kilometr məsafədə, Gəyən düzündə yerləşir. Əhalisinin sayı 630 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən sayılırdı. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. ***Hacıisaqlı*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Hacıisaqlı*** oykonimi ***Hacı*** İshaq şəxs adından və mənsubluq bildirən ***-lı*** şəkilçisindən ibarət olub, *"Hacıisağa məxsus olan oba"*, *"Hacıisaqlılar"* mənasındadır. ***Hacıisaqlılar*** Əhmədlilərin qoludur. Əhmədlilər (*onlar sünnü idilər*) Səfəvi-Osmanlı müharibələrində osmanlılara dəstək olduqları üçün 1615-ci ildə Şah Abbas Əhmədli ***obası*** tayfalarını - *çələbiləri, ködəkliləri*, şahvəliləri, *hacıisaqlıları, isaqlıları, tatarları, şıxları* Mazandarana sürgün etmişdir...

## HACILI ÇİNARLARI

Rayonun Hacılı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən ikisi ***Hacılı çinarları*** adlanır. Bu şərq çinarları çox qədim tarixə malikdir. Bu çinarların birinin ***1000***, digərinin ***700*** yaşı vardır. ***1000*** yaşı olan çinarın gövdəsinin diametri 800 santimetr, hündürlüyü 45 metrdir. ***700*** il yaşı olan çinarın gövdəsinin diametri isə 350 satimetr, hündürlüyü 30 metrdir. Çinarlar ***Hacılı*** kəndinin ərazisində olduğu üçün ***Hacılı çinarları*** adlandırılmışdır. İşğala qədər bu ağaclar yerli sakinlər tərəfindən qorunurdu...

## HACILI KƏNDİ

***Hacılı kəndi*** Cəbrayıl rayonunda, Hacılı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr cənub-şərqdə, dağətəyi ərazidə yerləşir. Əhalisi 400 nəfərdir. Kəndin əhalisi kənd təsərrüfatı sahələrindən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, müqəddəs Düldül ocağı yeri və s. vardı. Hacılı kəndinin ərazisində *Hüseynalılar bağı, Hüseynalılar kəhrizi, Qara daş, Qayalı yeri, Mirzəcanlı dərəsi, Nəcəfalılar kəhrizi, Sarı yol, Təzə məhlə, Tuluslu yeri* və s. coğrafi adlar qeydə alınmışdır. ***Hacılı*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Hacılı*** yaşayış məntəqəsi (*Pirəyatağı*) Dübar adlı sahədə ***hacılı*** türk tayfa tirəsinə mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***Hacılı*** - Cəbrayılın qədim tarixə malik olan kəndlərindən hesab olunur. *Hacılı tirəsi* ***zülqədər*** qızılbaş tayfasına mənsubdur. Onlar Qaraqoyunluların subetnonimi olaraq ***qızılbaş*** tayfaları ilə qaynayıb-qarışmışlar.

***Hacılılar*** türkdilli tayfalardır. Onlar əvvəl Şərqi Anadoluda yaşamış, Qaraqoyunlu dövlətinin (1410 - 1468) siyasi həyatında yaxından iştirak etmişlər. Qubalı Fətəli xanın dövründə (1758 - 1789) şahsevən Məmməd xanın başçılığı ilə Ərdəbil əyalətindən Quba xanlığına köçüb Müşkür və Şabran mahallarında məskunlaşmış səkkiz Azərbaycan tayfası arasında ***Hacılı*** tayfası da var idi. Məlumdur ki, Məkkəni ziyarət etmiş adamlara ***Hacı*** deyilir. Bu kənddən də ziyarətə gedənlər çox olub...

***Hacılı*** tayfası adı ilə bağlı Azərbaycanda bir neçə yaşayış məntəqəsi yaranmışdır. Vaxtilə İrəvan quberniyasının Karbi və Şirakel nahiyəsində də ***Hacılı*** adlı kənd olmuşdur.

Azərbaycan Respublikasının Füzuli və Şamaxı rayonlarında da ***Hacılı kəndi*** vardır. 1728-ci il sənədinə görə, İrəvan əyalətinin Karbi və Şirakel nahiyələrində də ***Hacılı*** adlı kənd mövcud olmuşdur.

## HACILI TAPI

***Hacılı tapı*** patronimik oronimi Cəbrayıl rayonunun Horovlu kəndi ərazisində qeydə alınmışdır. ***Hacı*** termini dini titul bildirir. Toponimin tərkibindəki ***hacılı*** sözü nəsil, tirə adı bildirir. Patronimik oronimlər tayfa, nəsil, tirə adlarını əks etdirən oroqrafik obyekt adlarıdır. ***Tap*** termininin oronimiyamızda *"dağ döşündə düzənlik", "su çıxmayan düz yer", "düzən yerdə təpə", "dağ düzənliyi"* və s. mənaları vardır. ***Tap*** coğrafi termini ilə əlaqədar Azərbaycan Respublikası ərazisində ***500*** oronim qeydə alınmışdır.





## HACIMƏMMƏDLİ BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Hacıməmmədli bulağı*** adlanır. Bu bulağın dumduru və soyuq suyu vardır. Hidronim ***Hacı Məmməd*** şəxs adından, ***-li*** şəkilçisindən və təsirlik halında işlənən ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Hacı Məhəmməd*** (***Hacıməmməd***) vaxtilə həmin *bulağı* üzə çıxaran adamın adıdır. Hidronim ***Hacı Məhəmməd*** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim *"Hacıməmmədli nəslinə məxsus olan bulaq"* anlamını ifadə edir.

## HACISANLI TUT BAĞI

Qalacıq kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Hacısanlı tut bağı*** adlanır. Bu bağda çoxlu sayda ***tut*** ağacları vardı. Bu *tut bağı* ***Hacısanlı*** nəslinə mənsub olan ailələr tərəfindən salındığı üçün belə adlandırılmışdır. Cəbrayıl rayonunun ərazisində bu tipli oronimlərə çox yerdə rast gəlmək olur.

## HASANLI DÜZÜ

(*Bax:* **Həsənli düzü**)

## HASANLI KANALI

Cəbrayıl rayonunun Hasanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Hasanlı kanalı*** adlanır. Bəzən sənədlərdə adı ***Həsənli kanalı*** kimi də yazılır. ***Hasanlı kanalı*** hidronimi ***Hasanlı*** (***Həsənli***) sö-

zündən və ***kanal*** hidronimik terminindən ibarətdir. Toponim kəndin adı ilə əlaqədar olaqraq belə adlandırılmışdır. Bu tipli toponimlərə digər rayonların ərazisində də tez-tez rast gəlmək olur.

## HASANLI KƏNDİ

(*Bax:* **Həsənli kəndi**)

## HAV YERİ

Dağ Tumas kəndinin yaxınlığında qeydə alınan və Şaqqıldaqlıqdan Dəli yarğanın qarşısına qədər uzanan böyük düzənlik ***Hav yeri*** adlanır. Bəzi araşdırıcılara görə, ***hav*** termini ərəb və fars dillərində işlənən ***həvadar*** sözünün təhrif olunmuş formasıdır. ***Həvadar*** sözü *"tərəfdar", "tərəf saxlayan", "kömək edən", "həvadar"* anlamlarını ifadə edir. Yerli məlumata görə varlı, xeyirxah olan bir insan tez-tez bu yerdə yığışan adamlara əl tutar, köməklik edərmiş. Sonralar bu ***yer*** camaat arasında ***Hav yeri*** adlanmışdır. Oronimin mənasına başqa prizmadan da yanaşanlar vardır. ***Hav*** sözünün *"qızışmış", "hirs, hirsli"* və s. anlamları da məlumdur.

Füzuli rayonunun Gecəgözlü kəndi ərazisində də ***Hav yeri*** (***Hav dərəsi***) adlı coğrafi ad qeydə alınmışdır.

## HAVUSLU KƏHRİZİ

Cəbrayıl rayonunun Havuslu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Havuslu kəhrizi*** adlanır. *Kəhriz* ***Havuslu*** kəndində olduğu üçün belə adlandırılmışdır. Məlumdur ki, qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya ***kəhriz*** deyilir. *Kəhrizlər* adətən peşəkar olan kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Tarixi sənəd və materiallarda göstərilir ki, Azərbaycan Respublikası ərazisində XX əsrin ortalarında ***900***-dən çox ***kəhriz*** mövcud olmuşdur.





## HAVUSLU KƏNDİ

***Havuslu kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 27 kilometr qərbdə, Çaxmaq çayı sahilində, Havuslu inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşirdi. Əhalisinin sayı 1330 nəfər idi. Üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən sayılırdı. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət-iaşə obyektləri, kəhrizlər və s. vardı. Yaşayış məntəqəsinin ərazisində *Xan bağı, Xan bağı kəhrizi, Havuslu kəhrizi, Cin dərəsi*, Çaxmaq çayı, Ümürlü düzü və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdur.

***Havuslu*** (*bəzən adını sənədlərdə* ***Hovuslu*** *kimi də yazırlar*) kəndini ***havuslu*** tirəsinə mənsub olan ailələr saldığına görə kənd belə adlanmışdır. Yerli əhalinin məlumatına görə, ***Havuslu*** yaşayış məntəqəsi ***Havıs*** (***Havus, Hafiz***) şəxs adı ilə əlaqədardır. Deyilənə görə ***Hafiz*** böyük bir türk tayfasının başçısı olmuşdur və kənd əhalisi də *Hafiz* nəslinin törəmələridir.

XVIII - XIX əsrlərə aid mənbəyə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Havuslu*** (***Hafizli***) obası həmin dövrlərdə *Qətrandərə* adlanan ərazilərdə məskunlaşmışlar...

Bəzi araşdırıcılar toponimi yaxınlıqdan keçən Çaxmaq çayının "***hovlu***" axması (*"hovlu su"*) ilə əlaqələndirir.

## HEYDƏRQULU DAĞI

Azərbaycan oronimiyasında şəxs adları ilə bağlı çoxlu sayda müsbət relyef formaları vardır. Belə oronimlərdən biri də Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan ***Heydərqulunun dağı*** coğrafi adıdır. Bu ***dağ*** XIX əsrdə yaşamış Göyərçin Veysəlli kəndinin sakini, dövrünün nüfuzlu, hörmətli şəxsiyyəti ***Heydərqulu*** kişinin adı ilə əlaqədar olaraq belə ad almışdır.

***Dağ*** coğrafi termini müsbət relyef forması bildirən coğrafi termindir. Azərbaycan Respublikasının ərazisində ***dağ*** termini ilə bağlı ***1 300*** oronim toplanmışdır. Türkdilli xalqların dillərində ***dağ*** termini ***tau*** (qa-

zax, başqırd), ***tağ*** (tatar, özbək), ***too*** (qırğız) və s. yazılış formalarındadır. Keçmişdə maldar ellərin *dağ* yerlərində, yaylaq və qışlaqlarda məskunlaşması ***dağ*** sözü ilə düzəlmiş külli miqdarda oronimlərin yaranmasını şərtləndirmişdir.

## HEYVA PİRİ

Rayonun Çərəkən kəndi ərazisində, kəndin gündoğan tərəfində, Alözü dərəsinin ağzında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Heyva piri*** adlanır. Burada iki bar verməyən iri gövdəli ***heyva*** ağacı olduğu üçün toponim belə ad almışdır. Ağacın həndəvərində zoğal pöhrələri vardı. ***Heyva piri*** yerli əhali üçün müqəddəs hesab olunurdu. Yerli camaat bir qayda olaraq ölüsünü qəbiristanlıqda dəfn edib qayıdanda axşam üstü bu ağacların dibində şam yandırardı. Məhz bundan sonra dəfn mərasimi bitmiş hesab edilirdi.

## HEYVALI DAĞ, HEYVALI DƏRƏ

Almakimilər yarımfəsiləsindən ***heyva*** bitki cinsi adı ilə düzəlmiş oronimlərə respublikamızın bir çox rayonlarında rast gəlirik. Cəbrayıl rayonu ərazisində də ***Heyvalı dağ, Heyvalı dərə*** adlı belə oroqrafik obyektlər qeydə alınmışdır. Bu tipli toponimlərə respublikamızın digər bölgələrində də rast gəlirik. Qazax və Masallı rayonlarında da *Heyvalı dağ* oroniminə rast gəlinir. Bunlardan başqa Goranboy, Masallı, Tovuz və s. rayonların ərazilərində də *Heyvalı dərə* coğrafi adı qeydə alınmışdır.

***Heyva*** meyvə ağacı bitkisinin adını özündə əks etdirən coğrafi adlara *Heyvalı düzü* (Qax rayonu), *Heyvalı talası, Heyvalı* çökəyi (Tovuz rayonu) *Heyvalı dərə* (Salyan rayonu) və başqalarını nümunə göstərmək olar.

Bəziləri hesab edir ki, ***heyvalı*** - əhalinin hərəkəti (*köçü*) ilə əlaqədar olaraq Anadoludan gətirilmə addır. 1308-ci ilə aid mənbəyə görə. Anadoluda *Heyvə qalası* olmuşdur.

Vaxtilə (*XIX əsrə qədər*) İrəvan əyalətinin Göyçə mahalında ***Heyvalı*** adlı kənd də mövcud olmuşdur.





## HƏMİD BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Həmid bulağı*** adlanır. Hidronim ***Həmid*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Həmid*** bu ***bulağı*** üzə çıxaran adamın adıdır. Məhz bu səbəbdən də hidronim onun adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim "*Həmidə məxsus olan bulaq*" anlamındadır. Belə toponimlərə digər rayonların ərazilərində də tez-tez rast gəlirik.

## HƏRƏM BULAĞI

Hacı Qaraman məzarlığı ilə keçmişdə mövcud olmuş Saracıq yurd yerinin arasında yerləşən Qursalan dərəsinin başında qeydə alınan hidronim ***Hərəm bulağı*** adlanır. Kəhriz tipli *Hərəm* bulağının suyu şirin və soyuqdur. ***Hərəm bulağı*** az sulu bulaqdır. Hidronim ***hərəm*** və ***bulaq*** sözlərindən ibarətdir. Bu toponim ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Ərəb dilində hərəm sözü "*qadağan olunmuş*", "ərli qadın", "*müqəddəs yer, ziyarətgah*" mənalarını ifadə edir. ***Hərəm bulağı*** ilə bağlı bir neçə əfsanə də uydurulmuşdur...

## HƏRƏMİLƏR OCAĞI

Cəbrayıl rayonunun ərazisində, Sofulu kəndindən bir qədər aşağıda, Şıxlar kəndinin quzey hissəsində, "*Qışgüneyi*"nə söykənən dağın başında qeydə alınan oroqrafik obyekt ***Hərəmilər ocağı*** adlanır. ***Hərəmilər ocağı*** daş hərləməsi olan qəbirdən ibarətdir. Deyilənə görə burada adı məlum olmayan və dövrünün böyük nüfuz sahibi olan bir övliya dəfn olunmuşdur...

## HƏSƏN BULAĞI

Dağ Tumas kəndinin yaxınlığında, Tumas bağının cənub-qərb ətəyində, Böyük kovun yuxarı başında, dağətəyi ərazidə qeydə alınan hid-

ronim ***Həsən bulağı*** adlanır. Hidronim şor suyu olan qaynama bulaqdır. Toponim ***Həsən*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Həsənin kim olması qeyri-müəyyəndir. Çox güman ki, o, bulağın üzə çıxmasında, ətrafının təmir olunmasında müəyyən əməyi olmuş bir insandır.

## HƏSƏNQAYDI KƏNDİ

***Həsənqaydı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 12 kilometr cənub-şərqdə, Şükürbəyli inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 180 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə ibtidai məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Həsənqaydı*** kəndinin başqa bir adı da ***Vəlixanlı*** olmuşdur. Bir sıra sənəd və materiallarda göstərilir ki, əsasən maldarlıqla məşğul olan ***vəlixanlı*** tirəsinə mənsub ailə və nəsillər XIX əsrdə bu yaşayış məntəqəsini salmışlar. ***Həsənqaydı*** yaşayış məntəqəsi ***Həsənqaydı*** adlanan köhnə kənd yerində salındığı üçün oykonim belə adlanmışdır. ***Həsənqaydı*** toponimi əslində *"Həsən qayalı"* mənasındadır.

Laçın rayonunda da *Həsənqaydı* coğrafi adı qeydə alınmışdır.

## HƏSƏNLİ DÜZÜ

Cəbrayıl rayonunun ərazisində, Arazboyu düzənlikdə, Həsənli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Həsənli düzü*** adlanır. Bu coğrafi adı bəzən sənədlərdə ***Hasanlı düzü*** kimi də yazırlar. Oronim ***Həsən*** şəxs adından, ***düz*** mənfi relyef forması bildirən coğrafi termindən və ***-li*** şəkilçisindən ibarətdir. Bu oroqrafik obyekt ***Həsənli*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. ***Həsənli düzü*** toponimi *"Həsənli kəndinin yaxınlığında olan düzənlik ərazi"* anlamındadır. Belə toponimlərə digər rayonların ərazilərində də rast gəlirik.





## HƏSƏNLİ *(HASANLI)* KƏNDİ

***Həsənli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 29 kilometr cənubda, Maşanlı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Yaşayış məntəqəsinin adı bəzən sənədlərdə ***Hasanlı*** kimi də yazılır. Cəbrayıl şivəsi üçün ***ə - a*** səs əvəzlənməsi qanunauyğun hal hesab olunur. Əhalisinin sayı 490 nəfərdir. Kənddə 105 ev var idi. Taxılçılıq, üzümçülük, heyvandarlıq, baramaçılıq əhalinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət-iaşə obyektləri və s. vardı. Həsənli kəndinin ərazisində *Sirli təpə, Qala xarabalığı* və s. coğrafi adlar qeydə alınmışdır. Kənd 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Həsənli*** (***Hasanlı***) toponimi antroponim ilə ifadə olan oykonimdir. Oykonim ***Həsən*** şəxs adından və ***-li*** şəkilçisindən ibarətdir. Yerli məlumata görə, ***Həsənli*** yaşayış məntəqəsini keçmişdə *Baydili* adlanan ərazidə Azərbaycanın əfşar tayfasından olan XVI əsrdə yaşamış *Cəbrayıl* adlı şəxsin altı oğlundan biri ***Həsən*** (***Hasan***) salmışdır. ***Həsənli*** toponimi*"Həsənin nəslindən olanlar, həsəngillər"* mənasındadır. ***Həsənli kəndi*** yerli əhali arasında ***Hasanlı*** adı ilə də tanınır.

Bərdə, Masallı, Sabirabad, Salyan, Tovuz, Cəlilabad rayonlarında da ***Həsənlı kəndi*** var. Vaxtilə (*XX* əsrin *ortalarına qədər*) İrəvan xanlığının Zəngibasar mahalında da ***Həsənlı*** adlı kənd mövcud olmuşdur.

## HƏVƏZƏ NƏNƏ PİRİ

Qalacıq kəndinin yaxınlığında, Marahanlı düzünün ərazisində, Çaxmaq çaylağında qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri ***Həvəzə nənə piri*** adlanır. Bəzi sənədlərdə adı ***Həvəzə Çələbinin nişangahı*** kimi də yazılır. Fuğanlı kəndinin sakini *Tapdıq Rza oğlunun* evinin arxasında olan daş *nişangah* da ***Həvəzə Çələbinin nişangahı*** adlanır. ***Pir-nişangah*** daş hərləməyə alınmış *Mərmərik* ağacından ibarətdir. Yerli məlumata görə, təmiz və müqəddəs bir adam olan Həvəzə nənə burada namaz qılmış və Allaha həmd-sanalar oxumuşdur. Danışırlar ki, vaxtilə Azərbaycan Kommunit Partiyası Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırov

Həvəzə nənəni sürgün etdirmiş, sonra isə bu hərəkətindən peşman olmuşdur. Deyilənə görə **Həvəzə nənə** Murmanskda, dustaqlıqda rəhmətə gedib. ***Həvəzə nənə*** haqqında müxtəlif əfsanə və rəvayətlər vardır.

*Həvəzə nənə övladsız adammış. Qubadlı rayonunun Dondar kəndindən olan bir nəfər ilə ailə qurmuşdu. Deyirlər ki, Həvəzə nənəni tutanda Quranı qaratikan kolunun altında gizlərib, özü çaya tərəf qaçıb. Bir qadın onu tutmağa gələnlərə Həvəzə nənənin Quranı harada gizlətdiyi yeri göstərib. Quranı çıxarıb yandırıblar. Həvəzə nənəyə çatdırıblar ki, bəs başına dönüm, Quranın yerini filankəs dedi. O da belə qarğış edib ki, görüm onu öləndə harsın surətdə ölsün. Bir müddət sonra həmin arvad xəstələnir. Oğlanları varlı-hallı adammışlar. Onu Bakıya "Semaşko" xəstəxanasına gətirirlər. Arvad burada rəhmətə gedir. Uşaqları onu rayona, kəndə gətirirlər. Arvadı yuyanda görürlər ki, o deyil, harsındır – Hərəkülün yanındakı Cilan kəndindən olan harsın. Uşaqlar deyirlər ki, bu, bizim anamız deyil. Ataları gəlib deyir ki, o zaman ananız belə bir iş görmüşdü. Həvəzə çələbi də belə bir söz demişdi. Həmin sözdür. Səs salmayın. Elə də basdırırlar...*

***Pir*** sözü fars dilində *"müqəddəs"*, *"nurani qoca"*, *"dini icmanın başçısı"* və s. mənaları ifadə edir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə toponim (eləcə də ***38*** oykonim) qeydə alınmışdır. Azərbaycanda ***pir-ocaq*** kultu tarixin çox qədim çağlarından xəbər verir. Keçmişdən bizlərə yadigar qalan ***pirlər*** indi müqəddəs ziyarətgahlara çevrilmişlər. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və buraya kənardan gətirilən xristianlıq və islam dinlərinin təsirinə məruz qalsa da, öz yaşantısını itirməmişdir. Pirlərdə qurbanlar kəsilir, oraya nəzir-niyaz verilir, müxtəlif bəxşişlər (*paltar, pul, çay, qənd* və s.) gətirilir. Əhali *pirləri* müqəddəs inanc yeri, ümidgah hesab edir.

## HƏZİNİN MEŞƏSİ

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Duzlaq qayasının şimalında, Kollu dərənin şərqində, yamac quzeyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Həzinin meşəsi*** adlanır. Yerli məlumatlara görə vaxtilə bu ərazidə çoxlu sayda *palıd* ağacları olmuşdur. Hazırda burada seyrək palıd ağacları ilə bərabər digər növ ağaclara da rast gəlmək olar. ***Həzinin meşəsi*** oronimi ***Həzi*** şəxs adından, ***meşə*** sözündən, eləcə də ***-nin*** və ***-si*** şəkilçisindən ibarətdir. Coğrafi adın tərkibindəki ***-si*** şəkilçisi mənsubiyyət ifadə edir. Toponim *"Həziyə məxsus olan meşə"*, *"Həzinin yaratdığı meşə"* mənasındadır.





## HOROVLU KƏNDİ

***Horovlu kəndi*** Cəbrayıl rayonunda, Horovlu inzibati ərazi vahidində, rayon mərkəzindən 8 kilometr şərqdə, dağətəyi bir düzənlik ərazidə yerləşir. Əhalisinin sayı *1850* nəfərdir. Əhali taxılçılıq, üzümçülük, heyvandarlıq, baramaçılıq və bağçılıqla məşğul olurdu. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, kəhriz və s. vardı. Kəndin yaxınlığında aşkar edilən qədim yaşayış məskənindən uzunluğu 30 sm, diametri 13 sm olan qara gildən düzəlmiş naxışlı, kuzə, dolça, heyvan rəsmli qablar (*e.ə. III-II minilliklərə aid*) tapılmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, ***Horovlu*** yaşayış məntəqəsini Cənubi Azərbaycanın ***Horov*** kəndindən XVIII əsrdə gələn ailələr saldığı üçün kənd belə adlandırılmışdır. Kəndin bəzi sakinləri *xürrəmiləri* özlərinin əcdadları hesab edirlər. ***Hor*** (***Xür***) - farsca *"günəş"*, *"atəş"*, *"od"*, *"işıq"* deməkdir. Toponimi *"oda sitayiş"* ilə də əlaqələndirənlər var. Orta əsrlər dövrü müəlliflərinin (İbn əl-Əsir, Qütbəddin Şirazi, Şihabəddin Sührəverdi və s.) əsərlərində ***hor*** sözü *"od"*, *"Günəş"*, *"işıq"* mənasında işlədilmişdir. Talış dilində ***hor*** sözünün *"mal saxlamaq üçün təknə"* anlamı da var. ***Hor (oura)*** sözünün *"qala"* mənası da vardır.

***Horovlu*** oykonimi müasir dilimiz üçün asemantik ***hor*** kökünə ***-ov*** şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Bəzi tədqiqatçılara görə, ***Horovlu*** toponimi ***hor*** tayfasının adı ilə əlaqədar olaraq formalaşmışdır.

Tədqiqatçı R.Kərimli ***Horov*** oykoniminin mənşəyini ***Xoruv*** kimi səciyyələndirir. Bəzi tədqiqatçılar oykonimi ***hor*** tayfasının adı ilə əlaqələndirirlər. ***Horuv*** sözünün *"xoşbəxtlər məkanı"* kimi də yozumu olduğunu bildirənlər var. "***Hor***" sözünün *"od, günəş"* anlamı da məlumdur. XVIII əsrin ikinci yarısına aid olan tarixi sənədə görə ***Horovlu kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur. 1823-cü ilin siyahıyaalınmasına görə, kənddə ***64*** ev ol-

muşdur (siyahıya alan senator *Moqilevski*, polkovnik *Yermolov*).

Adının tərkibində ***hor*** komponenti olan coğrafi adlara nümunə olaraq *Horovlu kəndi* (Cəbrayıl rayonu), *Horadiz kəndi, Horadiz şəhəri* (Füzuli rayonu), *Horavar kəndi, Horonu kəndi* (Yardımlı rayonu), ***Horadil dağı*** (Şamaxı rayonu) və başqalarını göstərmək olar.

## HÜMBƏT KƏHRİZİ

Rayonun Daş Veysəlli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Hümbət kəhrizi*** adlanır. Hidronim ***Hümbət*** şəxs adından və kəhriz terminindən ibarətdir. ***Kəhriz*** sözü hidronimik apelyativdir. ***Hümbət*** adlı adam həmin kəhrizin suyunun yerin üstünə şıxarılmasına çalışan şəxs olmuşdur. Məhz bu səbəbdən hidronim belə ad almışdır. Toponim *"Hümbətə məxsus olan kəhriz"* anlamını ifadə edir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım atılır. Kəhrizin suyu təmiz və saf olur. Kəhrizlər fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

Bu tipli toponimlərə digər rayonların ərazilərində də rast gəlmək mümkündür.

## HÜMBƏTLİ BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Hümbətli bulağı*** adlanır. Hidronim ***Hümbətli*** etnonimindən və ***bulaq*** apelyativindən ibarətdir. Coğrafi adın tərkibindəki ***Hümbət*** sözü həmin nəslin (***Hümbətli***) adı ilə bağlıdır. Toponim *"Hümbətlilərə məxsus olan*





*bulaq"* mənasındadır. Bu tipli toponimlərə digər rayonların ərazilərində də rast gəlmək olur.

## HÜNGÜS YALI

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Hüngüs yalı*** adlanır. Oronim ***Hüngüs*** və ***yal*** sözlərindən, həmçinin -ı şəkilçisindən ibarətdir. ***Hüngüs*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə edilir. ***Yal*** coğrafi termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***550*** oronim qeydə alınmışdır.

## HÜSEYN AĞA KƏHRİZİ

Cəbrayıl şəhərindəki ***Hüseyn Ağa*** (*bəzən bu hidronimin adı **Hüseynağa kəhrizi** kimi də yazılır*) kəhrizini Pənahəli xanın nəslindən olan Cəbrayıllı şair təbiətli ağsaqqal - xeyriyyəçi ***Hüseyn Ağa*** tikdirdiyi üçün ***kəhriz*** də onun adı ilə əlaqədar olaraq belə adlanmışdır. Onu da qeyd etməyi lazım bilirəm ki, vaxtilə Cəbrayıl rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış Fikrət Vəlixanovun zəhməti sayəsində ***Hüseynağa*** kəhrizinin suyundan çəkilib düzəldilən şəlalə-*bulaq* xalq arasında ***Vəlixanov bulağı*** adlandırılmışdır. ***Hüseyn Ağa kəhrizi*** bir müddət ***Lenin*** (*?*) adını da daşımışdır...

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım atılır. Kəhrizin suyu təmiz və saf olur. Kəhrizlər fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## HÜSEYNALI ZƏMİSİ

***Hüseynalı zəmisi*** adlanan tarla yeri Diri dağın qoynunda yerləşir. Bu oronim öz adında ***Hüseynalı*** şəxs adını əks etdirir. ***Hüseynalı xan*** - məşhur aşıq-şair Dirili Qurbanın əmisidir. Həmin ***zəmi*** də ona məxsus olduğu üçün bu oronim belə ad almışdır. Deyilənə görə, ***Hüseynalı zəmisi*** çox məhsuldar əkin yeri idi...

## HÜSEYNALILAR DÜZÜ

Cəbrayıl rayonunun Daş Veysəlli və Hacılı kəndləri arasında yerləşən gillicə və iridənəli süxurlarının növbələşməsindən ***Hüseynalılar düzü*** əmələ gəlmişdir. Düzün belə adlanması Cəbrayıl qəzasının *hacılı* icmasına mənsub olan ***hüseynalılar*** tirəsinin adı ilə əlaqədardır...

## HÜSEYNALILAR KƏNDİ

***Hüseynalılar kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 7 kilometr cənubda, Hacılı kənd inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 200 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə əsas məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Hüseynalılar kəndi*** Böyük Oktyabr Sosialist İnqilabından əvvəl Cəbrayıl qəzasının ***hacılı*** icmasına mənsub olan ***hüseynalılar*** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Hüseynalılar coğrafi adı etnotoponimdir.

Ağdam və Bərdə rayonlarında da ***Hüseynalılar kəndi*** vardır.

## HÜSEYNBƏY DÜZÜ

***Hüseynbəy düzü*** cəbrayıl rayonu ərazisində, Kavdar və Əmirvarlı kəndləri arasında, düzənlik ərazidə yerləşir. Bu düz gillicə və qumluca narındənəli süxurlarından təşkil olunmuşdur. Düzün quruluşunda iridənəli süxurlar az rol oynayır və əsasən başlanğıcında, Kavdar kəndinə yaxın əraidə müşahidə olunur. ***Hüseynbəy düzü*** ərazisində bir çox səbəblərdən meridianal istiqamətdə çökmələr olmuşdur. Elə buna görə də ətrafdakı yataq sahəsi *Hüseynbəy* düzündən ayrılmışdır.

***Düz (düzənlik)*** - kiçik hündürlüyü və az meylliyi ilə səciyyələnən yer səthinin, dəniz və okean diblərinin mühüm relyef elementlərindən biridir. ***Hüseynbəy düzü*** oronimi ***Hüseynbəy*** adı ilə əlaqədar yaranmışdır.

Bərdə və Füzuli rayonlarında bu qəbildən olan *Hüseynbəyli* kəndləri də vardır. Vaxtilə İrəvan quberniyasının Novobayazid qəzasında da *Hüseynbəyli kəndi* mövcud olmuşdur.





## HÜSEYNBƏYLİLƏRİN YURD YERİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektləedən biri ***Hüseynbəylilərin yurd yeri*** adlanır. Bu ***yurd yeri*** tayfanın ulu babası sayılan ***Hüseyn bəy Cəbrayıllı*** (*sənədlərə əsasən o, XVIII əsrdə yaşamışdır*) adlı bir şəxsin adı ilə bağlıdır. ***Hüseyn bəy obası*** vaxtilə ***Cəbrayıllı*** elindən ayrılaraq Arazboyu torpaqlarda məskunlaşmışdılar. Bu ***yurd yeri*** onlara məxsus olduğundan belə adlandırılmışdır. Onların törəmələri *Hüseynbəyov* və ya *Hüseynov* soyadlarını daşıyırlar. ***Hüseynbəyli*** tayfasından çoxlu sayda görkəmli adamlar, ziyalılar çıxmışdır. Məşhur akademik (1968-ci il), əməkdar elm xadimi (1960-cı il), fizika-riyaziyyat elmləri doktoru, professor (1948-ci il) Əşrəf Hüseynov (1907 - 1981) ***hüseynbəylilər*** tayfasından (*o, Hüseyn bəyin ikinci oğlu olan Abdulla bəyin üçüncü oğlu İsgəndər bəyin oğludur*) olan Azərbaycanın görkəmli ziyalı alimidir.

## "X"

### XALVAR DƏRƏSİ, XALVAR DƏRƏSİ AĞZI

***Xalvar dərəsi*** oronimi Cəbrayıl rayonunun Sarıcalı kəndi ərazisində qeydə alınmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Dərə*** - mənfi relyef forması ifadə edən coğrafi termindir. Oronimiyada ***dərə*** termini relyefin *dar* və çökək formasını ifadə edir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***dərə*** termini ilə bağlı ***30 000*** oronim qeydə alınmışdır.

***Xalvar*** sözü vaxtilə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda və Orta Asiyada mövcud olmuş "çəki *vahidi*" mənasındadır. Adı bəzi sənədlərdə ***xarvar*** kimi də yazılır. Xalvarın həcmi ayrı-ayrı ərazi və dövrlərdə müxtəlif olmuşdur. Məsələn: ***1 xalvar*** XIX əsrdə Naxçıvanda *19 pud*, Şamaxı qəzasında *15 pud*, Lənkəran qəzasında *26 pud*, Bakı qəzasında *23,5 pud* olmuşdur.

Azərbaycanda ***xalvar*** sözü ilə bağlı bir neçə oronim qeydə alınmışdır. Cəbrayıl rayonunun Sarıcalı kəndi ərazisində ***Xalvar dərəsi ağzı*** oronimi də qeydə alınıb. ***Ağız*** çoxmənalı metafor termini "*axar suyun, çayın gölə, dənizə töküldüyü yer*", "*dərənin düzənliyə* çıxan *hissəsi*", "*bir yerin giriləcək tərəfi, qapısı*" və s. mənalar bildirir.

### XALVAR KƏHRİZİ

Cəbrayıl rayonunun Sarıcallı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xalvar kəhrizi*** adlanır. Hidronim ***xalvar*** sözündən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. ***Xalvar*** sözü vaxtilə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda və Orta Asiyada mövcud olmuş "çəki vahidi" mənasındadır. ***Xalvar*** sözü bəzi sənədlərdə ***xarvar*** kimi də yazılır. Xalvarın həcmi vaxtilə ayrı-ayrı ərazilərdə müxtəlif olmuşdur. Məsələn: ***1 xalvar*** XIX əsrdə Naxçıvanda *19 pud*, Şamaxı qəzasında *15 pud*, Lənkəran qəzasında *26 pud*, Bakı qəzasında *23,5 pud* olmuşdur.

Azərbaycan Respublikasının ərazisində ***xalvar*** sözü ilə bağlı onlarla





coğrafi ad qeydə alınmışdır. Cəbrayıl rayonunun ərazisində bu tipli coğrafi adlara ***Xalvar kəhrizi***, *Xalvar dərəsi, Xalvar dərəsi ağzı* və başqalarını nümunə göstərmək olar.

Əlavə məlumat üçün bax: **Xalvar dərəsi, Xalvar dərəsi ağzı.**

### XAN BAĞI

Havuslu kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xan bağı*** adlanır. Burada vaxtilə Qarabağ xanlarının ***bağ*** yeri olmuşdur. Bu bağda çoxlu sayda müxtəlif meyvə ağacları vardı. ***Xan bağı*** toponimi "*xana məxsus olan bağ*" anlamını ifadə edir.

### XAN BAĞI KƏHRİZİ

Cəbrayıl rayonunun Havuslu (Hovuslu) kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xan bağı kəhrizi*** adlanır. Toponim "*xanın bağ yerində olan kəhriz*" anlamındadır. Kəhrizin yerləşdiyi ərazi vaxtilə ***xana*** məxsus olan yerlər olduğundan bu hidronim belə adlandırılmışdır.

***Kəhriz*** sözü qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Onların lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Tarixi sənəd və materiallarda göstərilir ki, XX əsrin ortalarında Azərbaycan Respublikası ərazisində ***900***-dən çox ***kəhriz*** mövcud olmuşdur.

### XAN BULAĞI

Cəbrayıl rayonunun Hovuslu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xan bulağı*** adlanır. Hidronim ***xan*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Xan*** bulağının göz yaşı kimi dumduru, buz kimi soyuq suyu vardır. Toponim "*xana məxsus olan bulaq*" anlamını ifadə edir. Bu adda toponimə Azərbaycan Respublikasının digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.

## XAN ÇİNAR

Şükürbəyli kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Xan çinar*** adlanırdı. Bu oroqrafik obyekt kənd sakinlərinin pir kimi, ocaq kimi ziyarət etdikləri müqəddəs bir yer idi. İnsanlar dini bayramlarda burada süfrə açar, ac qarınları doydurardılar. Qonşu kəndlərin camaatı da buraya iman gətirərdilər. ***Xan çinar*** oronimi titul bildirən ***xan*** sözündən və çinar bitki adından ibarətdir. Çinar – çinar fəsiləsindən olan bitki cinsidir. Yarpaqları növbəli düzülən çinarın xırda çiçəkləri bircinsiyyətlidir. Sıxçətirli çinar ağacının hündürlüyü bəzən ***50*** metrə çatır. Azərbaycan Respublikasının ərazisində tərkibində çinar ağacının adı olan çoxlu sayda toponimlər mövcuddur.

## XANAĞABULAQ KƏNDİ

***Xanağabulaq kəndi*** Cəbrayıl rayonunda, Qazanzəmi kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 50 kilometr qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 30 nəfərdir. Taxılçılıq və heyvandarlıq əhalinin əsas məşğuliyyəti sayılırdı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Xanağabulaq*** adı iki sözdən - ***Xanağa*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Xanağabulaq*** toponiminə başqa prizmadan yanaşanlar da var. Toponimi *"xanəgah"* sözü ilə də əlaqələndirənlər də vardır.

## XANƏGAH

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Xanəgah*** adlanır. İran mənşəli ***Xanəgah*** (***Xangah***) sözü *"ev yeri"* anlamındadır. *Xanəgahlar* qonaq evi tipində dini tikililər olmuşdur. Toponimin tərkibindəki ***xanə*** (***xana***) *"ev"*, ***gah*** komponenti isə *"yer"*, *"məkan"* mənasındadır. Mənbələrdən məlumdur ki, təriqətin başçıları və nüfuzlu üzvləri üçün tikilən binalar, müqəddəs ocaqlar ***Xanəgah*** adlandırılır.





V.V.Bartold ***xanəgah*** sözünü ***xanaka*** variantında götürür və onun ***xane*** sözünün soqdi dilindəki ifadə forması olduğunu göstərir. Onun fikrincə, həmin söz islamaqədərki dövrdə *"bütpərəst və manixey, zahid və tərki-dünyaların hücrəsi"* mənası daşımış, sonralar müsəlman dərvişləri tərəfindən qəbul olunaraq əvvəllər *"müqəddəs yer"* kimi məlum olan yerlərdə salınmış tikililər ***xanəgah*** adlandırılmışdır. ***Xanəgahlar*** haqqında ilk məlumatlar X - XV əsrlərə aid edilir. İslamiyyətə görə ***xanəgah*** sözü "şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer", *"təkyə"*, *"zaviyə"* mənasında işlənərək dini məzmun daşımışdır. Vaxtilə adətən dərvişlərin (*sufilərin*) yaşadıqları ***Xanəgahlar*** sufiliyin təbliğat mərkəzlərindən olmuşdur. Onlar manilik və buddizm zahidlərinin hücrələrindən əmələ gəlmişdir. Sonralar *xanəgahlar* müxtəlif tikililərdən (*hücrə, məscid, türbə* və s.) ibarət kompleksə çevrilmişdir. Xanəgahların əksəriyyəti mərkəz günbəzli salon və ya həyət ətrafında qruplaşmış binalardan ibarət olur. ***Xanəgahlar*** forma, kompazisiya və memarlıq bəzəklərinə görə tikildiyi dövrün və ərazinin memarlıq xüsusiyyətlərini özündə əks etdirir.

Azərbaycan Respublikasının Abşeron, Bərdə, Cəlilabad, Culfa, Xızı, İsmayıllı, Lerik, Quba və digər rayonlarının ərazilərində də ***Xanəgah*** toponimlərinə rast gəlmək mümkündür.

## XANIMAĞA QAÇAN TAP

Bu oronim Cəbrayıl rayonunun Papı kəndi ərazisində qeydə alınmışdır. Patronimik oronimlərdən olan ***Xanımağa qaçan tap*** coğrafi adı ***Xanımağa*** adlı qızın həmin ərazidə ***qaçması*** ilə əlaqədardır. Oronimin tərkibindəki ***tap*** termini *"su çıxmayan düz yer"*, *"düzən yerdə təpə"*, *"dağ döşündə düzənlik"*, *"dağ düzənliyi"* və s. mənalarda işlədilir. Toponim *"Xanımağa qaçdığı düzən yerdəki təpə"* mənasındadır.

## XƏLƏF PİRİ

Cəbrayıl rayonunun ərazisində, Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xələf piri*** adlanır. ***Xələf*** – şəxs adıdır. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı ***38*** yaşayş məntəqəsi, yüzlərlə oronim qeydə alınmışdır.

Azərbaycanda ***pir-ocaq*** kultu inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən əhali tərəfindən ziyarətgahlara çevrilmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. ***Pir*** adlarında *ad* və ya *etnonimin* işlənməsi hər ulusun və ya elin öz tapınağı olduğunu göstərir.

## XƏLƏFLİ GÖLÜ

Cəbrayıl rayonunun ərazisində, Xələfli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Xələfli gölü*** adlanır. Bu ***göl*** rayon mərkəzinin 8 kilometrliyində, ***Xələfli*** kəndinin yaxınlığında yerləşdiyi üçün yerli əhali onu kəndin adı ilə əlaqədar olaraq belə adlandırmışlar. Bu tipli etnohidronimlərə digər rayonların ərazilərində də rast gəlirik.

## XƏLƏFLİ KƏNDİ

***Xələfli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 7 kilometr şimal-şərqdə, Xələfli kənd inzibati ərazi vahidində, dağətəyi və düzənlik ərazidə yerləşir. *Gordu Baba dağı* kəndin qarşısında, *Xələf dağı* isə arxasında yerləşir. Bəzən yaşayış məntəqəsinin adına (onu *Stansiya Xələflidən* (***Xələfli qəsəbəsi***) fərqləndirmək üçün) ***Dağ Xələfli*** də deyirlər. Kəndin əhalisi 700 nəfərdir. Əhali taxılçılıq, heyvandarlıq, baramaçılıq və üzümçüklə məşğul olurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Xələfli kəndi ərazisində çoxlu tarixi-memarlıq abidələri, ziyarətgahlar vardır. Onlara nümunə olaraq yaşı minillərlə, yüzillərlə ölçülən *Mazannənə* və ya *Mərmərnənə məqbərəsi*, *Başıkəsik Günbəz* (XIII





– XIV əsrlər), *Qız qalası* (XVI XVII əsrlər) və başqalarını göstərmək olar. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

XVI əsrə aid Qız qalası tarixi abidəsi də bu kənddədir. Kəndin ərazisində *Ağ yol*, *Ağayır çalası*, *Alçalı bulaq*, *Ballı qaya*, *Bənd*, *Çağala*, *Çinarlı*, *Xələf piri*, *Gavur qəbiristanlığı*, *Gordu Baba*, Şirvan *qəbiristanlığı*, Şəfli *yeri*, *Maral zəmisi*, *Yalzəmi*, *Qozlu* çalası, *Almalı*, *Bala* çökək, *Böyük* çökək, Şükür *dərəsi*, *Dağdağan ocağı*, Əfəndilər yeri, İmrəli *dərəsi*, İsağın *bağı*, *Abuzər meşəsi*, *Kərim uçan qaya*, *Küm dərəsi*, *Saqqızlı*, *Sal qaya*, *Sapand daşı*, *Sarı bulaq*, *Sədəd bulağı*, *Səsli qaya*, *Suat dərəsi*, *Surçaq*, *Sümüklü*, Şəngərək, Şərəf *yaylağı*, Şirvan *bulağı*, *Taxça*, *Tənəkli*, *Qurbani piri*, *Mazannənə piri*, *Mirzə suyu*, *Mirin bulağı*, *Nəsrin piri*, *Palanlı qaya*, *Papaq daşı*, *Pəri bulağı*, *Pultapılan*, *Diri dağı*, *Ditdili dərəsi*, *Donuz dərəsi*, *Duzdağ*, *Dünyamalı bulağı*, *Hacı Hüseyn gölü*, *Hacı Hüseynli bağı*, *Yaylağabaxan*, Şəngərək, *Qarqışlaq*, *Xırman yeri* və s. kimi coğrafi adlar qeydə alınmışdır.

Yerli məlumata görə, ***Xələfli*** yaşayış məntəqəsini ***Xələf*** adlı dövrünün nüfuzlu bir şəxsi burada saldığı üçün kənd də onun adı ilə əlaqədar belə adlanmışdır. Hazırda vaxtilə kəndin bünövrəsini qoyan həmin Xələfin qəbri ***Xələf piri*** adı ilə kəndin şərq hissəsində yerləşir.

Türkdilli ***Xələfli*** (***Xəlfəli***) tayfası mənşəcə şahsevənlərdən olmuşlar. Tayfa adını özündə əks etdirən ***Xələfli*** oykonimi geniş yayılmış toponimlərdəndir. ***Xələfli*** (***Xəlfəli***) şahsevən qəbiləsinə mənsub olan *Kürdbəyin* nəslinin adıdır. Bu nəsildən olan tirələr Azərbaycanın müxtəlif ərazilərində bir sıra kəndlər yaratmışlar. Vaxtilə indiki Gəbrayıl rayonunun Abdal və Həreylan torpaqlarında məskunlaşan ***xələflilər*** Cəbrayıl elinin ***Eyvatlı*** obasına aid olmuşlar.

Bəzi araşdırıcılar ***Xələfli*** sözünü ***Xəlifə*** (***Xəlfə***) sözü ilə də əlaqələndirirlər. Tarixdən o da məlumdur ki, ***Xələflilər*** lap uzaq keçmişdə Qarabağ ərazisində yaşamışlar. Müxtəlif tarixi, ictimai-siyasi hadisələrlə əlaqədar müəyyən zamanlarda indiki respublikamızın ərazisini bəzi tayfalar kimi onlar da tərk etmək məcburiyyətində qalmışdır. Onların bəzilərini Quba xanı Fətəli xan 1784-cü ildə Ərdəbil səfəri zamanı Cənubi Azərbaycandan gətirmişdir. *Xəlfəlilərin* (*xələflilərin*) bir qismi Qarabağ xanı Mehdiqulu xana mənsub olmuşdur. Mehdiqulu xan (1806 - 1822) İrana qaçdıqdan sonra həmin ***xəlfəlilər*** oturaqlaşaraq bir neçə yaşayış məntəqələri yaratmışlar. XIX əsrin ortalarında onlar Azərbaycanda təxminən ***300*** ailədən ibarət olmuşlar.

*Xəlfə* (*"xəlifə"*) sözü ərəb dilində 1) *"canişin"*; 2) islamiyyətdə: *"peyğəmbərin yerində oturan şəxs"*; 3) *"məclisdə başçılıq edən"*; 4) *"keçmişdə molla məktəbində müəllimin köməkçisi"* və s. mənalarda işlədilir.

Azərbaycan Respublikasının ərazisində ***xələf*** (***xəlifə, xəlfə***) sözü ilə bağlı çoxlu sayda toponimlər qeydə alınmışdır. Qax rayonunda *Xələftala kəndi*, Füzuli rayonunda *Xələfşə kəndi*, Dəvəçi və Masallı rayonlarında *Xəlfələr kəndi*, İmişli, Sabirabad, Şuşa rayonlarında *Xəlfəli kəndi*, Lerik rayonunda *Xəlfəlikənd kəndi* və digər bu tipli toponimlər də ***şahsevən*** tayfalarına mənsub olan ***xəlfələr, xəlfəli, xələflər*** tayfalarının adı ilə bağlıdır.

***Xələfli*** oymağı ilə bağlı çoxlu rəvayətlər, gülməcələr vardır. Onlardan bir neçəsini xatırlamaq yerinə düşərdi:

* * *

***Xələfli*** *oymağında Nurməmmədli Hüseynə* ***"Motal"*** *ayaması qoymuşdular. Hüseyn kişi bu ayama ilə çağırılanda bərk cırnayıb pərt olardı. Bunu görən onun əmisi oğlu Vəli kişi belə bir məsləhət edir ki, sən get bir toğlu kəs, mən oymağın ağsaqqallarını yığıb sənin ayamanı dəyişdirəcəyəm. Hüseyn kişi sevincək evə gəlib saz bir erkək kəsir. Arvad-uşağa möhkəm tapşırır ki, yaxşı bozarta bişirsinlər. Uşaqlardan birini də oymağın ağsaqqallarına xəbərə göndərir. Elə ki, qaş qaralır, oymağın başbilənləri bir-bir, iki-bir görünməyə başlayırlar. Hüseyn kişi də irəli çıxıb gələnləri hörmətlə əyləşdirir. Süfrəyə çaydan sonra dadlı bozartma gəlir. Qonaqlar doyunca yeyib-içirlər. Yeyib doyan qonaqlar dağılışmağa başlayanda Vəli kişi onları əylədir. Bildirir ki, əmioğluluqda yaxşı hərəkət deyil, gəlin Hüseyn kişinin üstündən* ***"Motal"*** *ayamasını götürək. Hamı razılaşır. Vəli kişi göz basıb Rzaqulu kişini ayağa qaldırır:*

*- Məşədi Əziməmmədin oğlu, yenə sən yaxşısan, Hüseyn kişinin ayamasını dəyiş.*

*Rzaqulu ağa yağlı əlini bığına çəkib boğazını arıtlayaraq sözə başlayır:*

*- Ay oba əhli, bu gündən sonra Motal Hüseyni* ***Tecan Hüseyn*** *çağırarsınız. Necədir? Dilinizə yatırmı?*

*Oymağın ağsaqqalları altdan-altdan qımışırlar. Hüseyn kişi işi belə görüb:*

*- Başınıza dönüm, tecandan motal yaxşıdır; tecandan motal böyükdür, - deyib gülüşənlərə qoşulur...*





* * *

***Xələfli*** *Dünyamalı kişi çox cantaraq adam idi. Günlərin bir günü Arazı adlayıb Qaradağ yörəsinə keçir. Gəzib-gəzib gəlir çıxır bir hampanın anbarına. Baxır ki, bir dəvə çuvalı buğda var. Sevincək əlini əlinə sürtür ki, ta uşaqların qış azuqəsi düzəldi. Çuvalı çiyninə alıb, yola düzəlir. Ev yiyəsi hənir eşidib oyanır. Baxır ki, bir azman boylu adam onun buğda çuvalını şələyib gedir. Nökər-naibini də oyadıb düşür onun dalınca. Dünyamalı düz gəlib çıxır oymaqlarına. Çuval yiyəsi də onun arxasınca. Oymağın ağır ağsaqqalları tökülüb gəlir. Yetirən Dünyamalını danlayır. Bir ağsaqqal da qayıdır ki, əşi, bunun ağlı kəsməyib gedib bir çuval buğda gətirib; bəs sizə nə olmuşdu bu uzunluqda yolu dən-düşdən ötəri vurub gəlirdiniz?*

*Qaradağlı hampa da eləmə tənbəllik, qayıdır ki, məni o qədər də taxıl-tərnə maraqlandırmırdı. Ona maraqlanırdım ki, görüm bu dəvə köpəkoğlu kimdi belə bu uzun yolda o ağırlıqda çuvalı bir dəfə də olsun yerə qoyub dincini almadı?..*

*Mərəkəyə yığılan camaat arasında gülüşmə düşür. Elə o zamandan bəri hamı Dünyamalıya* ***Dəvə Dünyamalı*** *deyir...*

Əlavə məlumat üçün bax: **Xələfli qəsəbəsi**.

## XƏLƏFLİ QƏSƏBƏSİ *(STANSİYA XƏLƏFLİ KƏNDİ)*

***Xələfli qəsəbəsi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 40 kilometr cənubda, Qumlaq inzibati ərazi vahidində, Araz çayının sol sahilində, Bakı-Şərur dəmir yolu kənarında, düzənlik ərazidə yerləşirdi. Əhalisinin sayı 400 nəfər idi. Qəsəbədə əsas məktəb, klub, kitabxana, ticarət, iaşə obyektləri və s. vardı. Bu yaşayış məntəqəsinin adına ***Stansı Xələfli*** və ya el arasında ***Diridağ kəndi*** də deyirlər. Yaşayış məntəqəsinin ərazisində *Dirili, Aşağı Xudayarlı, Yuxarı Xudayarlı* və s. yurd yerləri olmuşdur. ***Xələfli*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Xələfli*** qəsəbəsini Cəbrayıl rayonunun ***Xələfli*** kəndindən çıxmış ailələr salmışlar. 1965-ci ildən bu yaşayış məntəqəsi ***Xələfli qəsəbəsi*** adlanmışdır. ***Xələfli*** oykonimi ***Xələf*** şəxs adı ilə əlaqədardır. Oykonim *"xələflilər"* anlamındadır. Bu tipli toponimlərə respublikamızın digər bölgələ-

rində də rast gəlirik

Vaxtilə ***Yuxarı Xələfli*** adlanan keçmiş *Eyvatlı obası* XVIII - XIX əsrlərə aid sənədlərə görə, həmin zamanlarda *Abdal, Hareylan* adlı ərazilərdə məskunlaşmışlar...

Əlavə məlumat üçün bax: **Xələfli kəndi**.

## XƏLİFƏ KƏHRİZİ

Cəbrayıl rayonunun Harovlu kəndi ərazisində qeydə alınan kəhrizlərdən biri ***Xəlifə kəhrizi*** adlanır. Bu hidronim ***xəlifə*** və ***kəhriz*** sözlərindən ibarətdir. ***Xəlifə*** sözü ***Xilafət*** ilə bağlı olan bir termindir. ***Xəlifə*** - ərəb dilində *"müavin, varis, xələf, canişin"* mənalarını ifadə edir. 632-ci ildə Məhəmməd Peyğəmbərin ölümündən sonra müsəlman icması və teokratik müsəlman dövlətinin (*Xilafətin*) dini və dünyəvi başçısı ***xəlifə*** adlanırdı. XIII əsrdə Abbasilər dövlətinin süqutundan sonra bütün müsəlmanlar üzərində dini hakimiyyət iddiasında olan bəzi müsəlman dövlətlərinin hökmdarları (*Türkiyə sultanları* və s.) ***xəlifə*** titulunu qəbul etmişdilər...

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## XƏLİFƏ QÜRBƏT QƏBRİ

Sirik kəndi ərazisində, Çay dərəsinin gündoğan üzündə qeydə alınan qəbir ***Xəlifə Qürbət*** adlanır. Qəbirin böyük hərləməsi var. Hərləmənin içərisində iri gövdəli *ardıc* ağacı vardır. Bu qədim qəbirin ətrafında çox-çox





əvvəllər mövcud olmuş yaşayış yerinin qalıqları, yurd yerinin izləri müşahidə edilir. Adamlar qəbri ziyarət edərkən niyyətlər tutar, qurbanlar kəsərdilər. ***Xəlifə Qürbət qəbri*** ətrafda yaşayan əhali tərəfindən əziz tutulurdu.

## XƏSTƏ BULAQ

Cəbrayıl rayonu ərazisində qeydə alınan hidronimlərdən biri ***Xəstə bulaq*** adlanır. Bu bulağın dumduru və soyuq suyu vardır. Hidronim ***xəstə*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Hidronimin belə adlandırılması ilə bağlı yerli əhali müxtəlif fikir və mülahizələr yürüdürlər.

## XƏSTƏ KƏHRİZ

Rayonun Balyand kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Xəstə kəhriz*** adlanır. Bu coğrafi ad göründüyü kimi, ***xəstə*** və ***kəhriz*** sözlərindən ibarətdir. Bu hidronim ilə bağlı müxtəlif əfsanələr uydurulmuşdur. Onlardan biri təxminən belədir:

*Bu yerlərin camaatı bir zamanlar ağır, yoluxucu xəstəliyə mübtəla olublar. Bir ailədən yeganə sağ qalmış* ***xəstə*** *bir nəfər özünü çətinliklə kəhrizin yerindən axan sızqa bulağa çatdırır. Bulağın suyundan içən həmin* ***xəstə*** *adam sağalıb cana gəlir. Guya deyirlər ki, bundan sonra sağ qalan bir neçə adam da həmin suyu içəndən sonra şəfa tapmışdır. Bəlkə elə bu kimi əfsanələrin təsirindən kənddəki bu hidronim* ***Xəstə kəhriz*** *adını almışdır...*

## XƏZNƏDAR YERİ

Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 5 kilometr aralıda, Qırmızıların şərqində, Aralıq dərəsinin Tumas dağının zirvəsinə qalxan hissəsində, dağ ətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Xəznədar yeri*** adlanır. ***Xəznədar yeri*** yaşıllıqlardan ibarət bol otlu sahə olduğu üçün belə adlandırılmışdır. Doğrudan da sanki burada bol ***ot xəzinəsi*** vardır...

## XIRDA-PARA DİZAQ MAHALI

Qarabağın mahallarından biri ***Xırda-para Dizaq*** adlanır. Mahalın sərhədi güneydə *Araz çayı*, quzeydə *Dizaq mahalı*, günbatanda *Dizaq-Cəbrayıllı mahalı*, gündoğanda *Cavanşir-Dizaq mahalı* ilə əhatələnir. Mahal əski Dizaq nahiyəsinin və Arazbar qəzasının əraziləri əsasında yaranmışdır. ***Dizaq*** (***Dizak***) Qarabağın qədim əyalətlərindən birinin adı olmuşdur. ***Xırda-para Dizaq*** mahalını Qarabağ xanı Pənahəli xan Dizaq mahalından, bir az da Arazbar mahalından, necə deyərlər, kəsib ayırmışdır. Mahalın ərazisində ancaq müsəlmanlar yaşayırdılar.

Mahalın ərazisində olan bəzi kəndlər və obalar Cəfərqulu xan Sarıcalı-Cavanşirə bağlı idi. Savaş zamanı kənd əhalisini meydana naib Vəli ağa Arayatılı, oba əhalisini naib Məşədi Abdulla bəy Xəlil bəy oğlu Təzəkçili aparırdı. 1797-ci ildə İran şahı Ağaməhəmməd şah Qovanlı-Qacarın Qarabağa yürüşündə mahalın onlarla kənd və obaları viran edilmişdir.

***Xırda-para Dizaq*** (bəzi sənəd və mənbələrdə ***Xırdapara-Dizaq*** kimi də yazılır) mahalının inzibati mərkəzi əvvəl ***Pirəhmədli kəndi*** (indiki Füzuli rayonunda), sonra ***Sarıcalı kəndi*** olmuşdur. Mahalı naiblər idarə edirdilər. İlk naibi Məlik Namazəli bəy Şəmil bəy oğludur. O, mahalın mərkəzi *Pirəhmədli* şenliyində otururdu. Ondan sonra mahalın başçısı Məlik Həsən bəy Saracıqlı (*o, Saracıq kəndində otururdu*), onun oğlu Məlik Həmzə bəy Saracıqlı olmuşdur. Məlik Həmzə bəyin ağalığı dövründə ***mahal*** inzibati ərazi vahidi ləğv olunur və o, 1822-ci ildə Dizaq-Vərəndə sahəsinin tərkibinə verilir.

***Xırda*** termini burada "*kiçik*" mənasındadır; ***para*** komponenti "*yarı*" anlamını ifadə edir. ***Dizaq*** sözünün tərkibindəki ***diz*** (***dizə***) termini qədim İran dillərində "*qala*", "*istehkam*" anlamındadır.

Bəzi tarixi sənədlərə əsaslansaq, görərik ki, ***Xırdapara Dizaq*** mahalının tərkibinə aşağıdakı kəndlər daxil idi: 1. *Maralyan kəndi*; 2. *Süleymanlı kəndi*; 3. *Quycaq kəndi*; 4. *Daşkəsən kəndi*; 5. *Qaracallı kəndi*; 6. *Qışlaq kəndi*; 7. *Sirik kəndi*; 8. *Çapand kəndi*; 9. *Cəfərabad kəndi*; 10. *Şaybəy kəndi*; 11. *Karxulu kəndi*; 12. *Mehdili kəndi* (*obası*); 13. *Mollalı* (*Qaradərə*) *kəndi*; 14. *Horovlu kəndi*; 15. *Nüzgər kəndi*; 16. *Çaxırlı kəndi*; 17. *Zülfüqarlı kəndi*; 18. *Balyand kəndi*; 19. *Sarıcalı kəndi*; 20. *Səfərşa kəndi*. 21. *Pirəhədli kəndi*; 22. *Qoçəhmədli kəndi*; 23. *Xatınbulaq kəndi*; 24. *Saracıq kəndi*; 25. *Gorazıllı kəndi*; 26. *Əhmədbəyli kəndi*; 27. *Güzdək kəndi*; 28. *Qarğabazar kəndi*; 29. *Hüngütlü kəndi* (*obası*); 30. *Qaradağlı kəndi*. 31. *Babı kəndi*; 32. *Horadiz kəndi*; 33. *Molla Məhərrəmli kəndi*; 34. *Mirzə Nağılı kəndi* (*obası*); 35. *Qazaxlar kəndi*; 36. *Qarakollu kəndi*; 37. *Manaflar kəndi*; 38. *Dördçinar kəndi*; 39. *Təzəkçi kəndi* (*obası*); 40. *Allahverdi kətxuda kəndi* (*obası*); 41. *Kürdmahmudlu kəndi* (*obası*); 42. *Minəxur Hüseynqulu kəndi* (*obası*) və s.

***Dizaq*** və ya ***Dizaqlı*** toponiminin paralellərinə çox yerlərdə rast gəlirik. Hazırda Azərbaycan Respublikasının Qəbələ rayonunda bu qəbildən olan *Dizaxlı kəndi* vardır. Bu tipli oykonimlərə Mərkəzi Asiya ölkələrində də rast gəlmək olar.

Əlavə məlmuat üçün bax: **Dizaq mahalı**.

## XIRXA OCAĞI

Balyand və qaracallı kəndlərinin arasında, Çaqqalaşan yalının gündoğanında qeydə alınan oroqrafik obyektlərdən biri ***Xırxa ocağı*** adlanır. Bu ***ocaq*** iki yerə ayrılmış iri daş qalağından və qalaq üstə tökülmüş quru ***dağdağan*** ağacının qol-budağından və ağacın kök yerindən boy atmış 4-5 dağdağan pöhrəsindən ibarətdir. Daş qalağının ortasından cığır keçir. Ziyarətçilər niyyət edib bu cığırdan keçir, daşlar üzərinə nəzir-niyaz qoyurlar. Ziyarətə daha çox sonsuzluğu olan qadınlar gəlirlər. Onlar övlad diləyi niyyəti edib, ağacın lələklərindən, budaqlarından yüyürcəklər asır, ip, sap, parça qırıqları bağlayırlar. ***Xırxa*** sözü "*çayın iki dağ arasından axıb düzənliyə çıxdığı yer*" anlamını ifadə edir.

Azərbaycanda ***ocaq, pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. Şıx Sədi piri də belə toponimlərdəndir. ***Ocaq*** və ya ***pir*** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

## XIRMAN YERİ

Xələfli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Xırman yeri*** adlanır. Oronim ***xırman*** və ***yer*** sözlərindən ibarətdir. Məlumdur ki, taxılın döyülən, təmizlənən və qurudulan yeri ***xırman*** adlanır. *Xırmanlar* bir qayda olaraq külək tutan sahələrdə düzəldilir. Xırmanda yaba, kürək, vəl, sadara, xəlbir, yaxınlığında isə su quyusu, daldalanacaq, samanlıq olur. ***Xırman*** termini geniş yayılmışdır. Mərkəzi Asiya, İran, Dağıstan xalqları arasında da ***xırman*** sözü işlənməkdədir. Azərbaycanda ***xırman*** termini ilə əlaqədar ***100*** oronim yaranmışdır.

Əlavə məlumat üçün bax: **Xırmanın yalı, Xırmanmərək yalı.**

## XIRMANIN YALI, XIRMANMƏRƏK YALI

***Xırman*** - taxılın döyülüb-təmizlənməsi, qurudulması üçün ayrılmış meydançadır, yerdir. Adətən, xırmanları hündür və külək tutan yerlərdə düzəldirlər. Xırmanda vəl, yaba, kürək, şadara, xəlbir və s., yaxınlığında isə su quyusu, samanlıq, daldalanacaq olurdu. Müasir dövrdə xırmandan kombaynla döyülmüş taxılın və digər kənd təsərrüfatı məhsullarının qurudulması, təmizlənməsi üçün istifadə olunur. ***Xırman*** termini İran, Orta Asiya və Dağıstan xalqları arasında da geniş yayılmışdır. Azərbaycanda ***xırman*** sözü ilə bağlı ***50*** oronim vardır.

***Xırmanın yalı*** oronimi Cəbrayıl rayonunun Qazanzəmi kəndi ərazisində qeydə alınmışdır. Yuxarı Sirik kəndi ərazisində isə ***Xırmanmərək yalı*** oroqrafik obyekt adı da qeydə alınıb. ***Yal*** müsbət relyef ifadə edən coğrafi termindir. Toponimi türk dillərində ***kərmən*** (*"qala"*) sözü ilə də əlaqələndirənlər var. Qubadlı rayonunun Saldaş kəndi ərazisində də ***Xırmanmərək yalı*** coğrafi adına rast gəlirik.

Ağsu rayonunun Kövlüc və Laçın rayonunun Zeyvə kəndlərində *Xırmantəpə* coğrafi adları da qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Xırman yeri.**





## XOR-XOR BULAĞI

Rayon ərazisində, Keçəlməmmədli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Xor-Xor bulağı*** adlanır. Bu bulağın dumduru, soyuq suyu var. Hidronim qaynadığı yerdən çıxardığı səs ilə əlaqədar olaraq belə adlandırılmışdır. ***Xor-Xor bulağı*** toponimi *"xoruldayan, xorultu səsi çıxaran bulaq"* mənasındadır.

## XUBYARLI KƏNDİ

***Xubyarlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 3 kilometr kənarda, Cəbrayıl şəhər inzibati ərazi vahidində, düzənlik ərazidə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 80 nəfərdir. Taxılçılıq, üzümçülük, heyvandarlıq əhalinin əsas məşğuliyyəti sayılırdı. Kənddə kitabxana, klub, tibb məntəqəsi və s. vardı. *Dairəvi səkkizguşəli türbə* (XVI əsr), orta əsrlərə aid *Xanəgah, Pir, məqbərələr* və qədim türk qəbiristanlığındakı *Türbə* də (XIV əsr) Xubyarlı kəndindədir. Xubyarlı yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, ***Xubyarlı*** yaşayış məntəqəsini vaxtilə Dağ Maşanlı (*1968-ci ildən **Təzəkənd***) kəndindən çıxmış ***Xubyar*** adlı şəxs saldığına görə kənd də onun adı ilə adlandırılmışdır. Rəvayətə görə, dövrünün böyük nüfuz sahibi olan Cəbrayıl Atanın oğlanlarından birinin adı da ***Xubyar*** olmuşdur. Bir qrup tədqiqatçılar isə ***Xubyarlı*** oykonimini bolqarların ***xuvyar*** tayfasının adı ilə əlaqələndirirlər.

Bir sıra tədqiqatçılar mürəkkəb quruluşa malik olan ***Xubyarlı*** oykonimini ***xub*** və ***yar*** sözləri ilə yozurlar. ***Xub*** farsca *"yaxşı"*, *"qəribə"*, *"əcaib"*, *"gözəl"*, *"göyçək"* deməkdir. Fars dilində ***yar*** sözünün *"dost, tanış, yoldaş, sevgili, yardımçı"* mənalı anlamları da məlumdur. Toponimin tərkibindəki ***yar*** sözü burada cüzi dəyişikliyə uğramışdır; əslində ***"yer"*** olmalıdır. Bu yozumda toponim *"yaxşı yer"*, *"məhsuldar, keyfiyyətli torpaq"* kimi mənalandırılır.

İmişli rayonunda da *Xubyarlı kəndi* var.

## XUBYARLI TÜRBƏSİ

Rayonun Xubyarlı kəndi ərazisində, qədim türk qəbirstanlığındaqeydə alınan qədim tarixi-mədəni abidələrdən biri ***Dairəvi türbə*** adlanır. Bəzən sənədlərdə adı ***Xubyarlı türbəsi*** kimi də çəkilir. Bu türbə son orta əsrlərə aid edilir. Üzərində ərəb dilində yazı olan bu türbənin dairəvi ölçüsü 14 metr 74 santimetrdir. Türbənin hündürlüyünün cəmi 5,5 m, gövdəsi 2,5 m-dir. Onun içəridən diametri 3,25 sm, içəridən hündürlüyü 3,53 sm, hörgüsünün eni 83 sm, qapısının eni 59 sm, qapısının uzunluğu 108 sm-dir. Türbənin günbəz hissəsi 3 metrdir. Türbə ***Xubyarlı kəndi*** ərazisində olduğu üçün çox zaman ***Xubyarlı türbəsi*** də adlanır.

Kəndin ərazisində XVII əsrə aid edilən səkkizguşəli ***türbə*** də var ki, onun adı da sənəd və materiallarda ***Xubyarlı türbəsi*** kimi çəkilir.

## XUDAFƏRİN KƏNDİ

Vaxtilə Cəbrayıl rayonunun kəndlərindən biri ***Xudafərin*** adlanmışdır. Bu yaşayış məntəqəsinin ən azından min yaşı vardır. Kəndin adı ***Xudafərin*** körpüsünün adından götürülmüşdür. Mürəkkəb quruluşa malik olan ***Xudafərin*** toponimi ***Xuda*** və ***afərin*** sözlərindən ibarətdir. ***Afərin*** sözü dilimizdə *"alqış"* mənasını ifadə edir. Toponim *"**Xudaya afərin**", "Xudaya alqış", "Xudaya əhsən"* anlamındadır.

## XUDAFƏRİN KÖRPÜSÜ

***Xudafərin körpüsü (körpüləri)*** erkən orta əsrlərdə Araz çayı üzərində, Cəbrayıl rayonu ərazisində salınmış iki körpüdən ibarətdir. Bu ***körpülər*** Yaxın və Orta Şərqdə memarlıq üslubuna görə ən əzəmətli körpülər sırasına daxildir. Körpülərin biri ***15***, o biri ***11*** aşırımlıdır. Onlar bir-birindən ***800*** metr aralıda yerləşir.

Bəzi məlumatlara görə, ***11 tağlı (aşırımlı) körpü*** hicri 15-ci ildə *(miladi 636-cı ildə) Bəkr ibn Abdullah* tərəfindən salınmışdır. Buna görə də o, *"Xuda Afərin"*, yəni *"Allah yaratmış"*adlanmışdır. Yerli məlumata





görə, *Karkar* ticarət mərkəzinin yaxınlığında yerləşən ***15 aşırımlı körpü*** xeyriyyə məqsədilə *Diya Əl Mülk Naxçıvani* tərəfindən salınmışdır.

Kərpicdən tikilmiş ***15 aşırımlı körpü*** təbii şəraitlə üzvi əlaqələndirilmiş, onun dayaqları süni oturacaqlar əvəzinə çayın axarındakı qayalar üzərində qurulmuşdur. Elə bu səbəbdən də körpünün aşırımları təbii qayalar arasındakı məsafəyə görə müxtəlif ölçülüdür. Körpünün uzunluğu ***200*** metr, eni ***4,5*** metr, hündürlüyü ***10*** metrdir. Bəzi qaynaq və mənbələrdə 15 aşırımlı körpünün hələ VII əsrdə (bəzi mənbələrdə V əsr də göstərilib) mövcud olması göstərilsə də, indiki körpü əsasən sonrakı yüzilliklərə aid olub sonralar bərpa və təmir edilmişdir.

***11 aşırımlı körpü (Baş Xudafərin körpüsü)*** tamamilə başqa quruluşa və memarlıq görkəminə malikdir. Bir sıra məlumatlara görə, bu körpü Əhəməni imperiyası zamanı tikilmişdir. Bu körpünün hicri 15-ci ildə (*miladi 636-cı ildə*) Bəkr ibn Abdullah tərəfindən salınması ağılabatandır.

Çaydaşı və əhəng daşından tikilmiş bu körpünün dayaqları təbii qayalar üzərində qurulduğundan aşırımların ölçüsü müxtəlifdir. Körpünün mərkəzi hissəsindəki 3 böyük aşırım kiçik aşırımlarla birlikdə əzəmətli kompozisiya əmələ gətirir. İndiyədək ***11*** aşırımlı körpünün XI, XII və ya XIII əsrdə (*Səlcuq türklərinin gəlişindən az* əvvəl və ya onların zamanında, *yaxud da Elxanilər dövründə*) tikilməsi ehtimal olunurdu. Bu körpünün də tikilməsi tarixi dəqiq bilinmir. Hündürlüyü ***12*** metr, uzunluğu ***130*** metr, eni ***6*** metrdir. Ümumiyyətlə, bu körpülərin islamdan əvvəl tikilməsi daha real görünür. Bir çox tədqiqatçılar hesab edirlər ki, ***11 aşırımlı körpü*** hələ eramızdan əvvəl V əsrdə tikilmişdir.

Rus tarixçisi Platon Zubovun 1933-cü ildə çapdan çıxmış "Gürcüstan və Qafqaz" haqqında 6 məktubun üçüncüsündə 1828-1829-cu illərdə müşahidə etdiklərini qələmə almışdır. O yazır: *"Qarabağ xanlığı ilə İran arasındakı sərhədda salınmış **11 tağlı Xudafarin körpüsü** böyük sənətkarlıqla inşa edilmiş, ecazkar memarlıq abidəsi kimi diqqəti cəlb edir. Körpünün inşasındakı memarlıq mədəniyyətinə baxanda onun sərkərdə Pompey vaxtında Rima sənətkarlığı zirvəsində inşa edilməsinə heç bir şübhə yeri qalmır"* (həmin kitab, üçüncü məktub, səhifə 15).

Xudafərin körpülərinin tikilmə tarixi haqqında tarixi mənbələrdə fərqli fikirlər hələ də qalnaqdadır. Həmdullah Qəzvini yazır ki, *"Xudafərin körpüsü hicri 15-ci ildə (miladi **636**-cı ildə) **Bəkir ibn Abdullah** adlı mötə-*

*bər bir şaxs tərəfindən inşa edilmişdir"*. Məlumdur ki, hətta bəzi *"Azərbaycan tarixi"* dərsliklərində *15 aşırımlı* ***Xudafərin*** *körpüsü memarlıq abidəsinin* Şəddadilər hökmdarı I Fəzl ibn Məhəmmədin vaxtında inşa edildiyi də göstərilir. Təbii ki, bu fikir mütəxəssislər tərəfindən qəbul olunmur. Əlbəttə, *Xudafərin* körpülərinin tikilmə tarixləri haqqında mənbələrdə fikirlər müxtəlifdir. Amma heç də sirr deyildir ki, bu körpülər hərbi və ticarət məqsədilə tikilmişdir. Qədim Azərbaycan memarlarının böyük və uğurlu zəka məhsulu olan bu körpülər ticarət və hərbi məqsəd ilə bərabər, türk xalqlarının mədəni-iqtisadi əlaqələrinin inkişafında da əhəmiyyətli rol oynamışdır. ***Xudafərin körpüləri*** tarixi memarlıq abidəsi kimi Yaxın və Orta Şərqdə ən əzəmətli körpülər sırasına daxildir. Bu körpü haqqında belə bir əfsanə də var:

*...Qədimdə bu yerlərdə var-dövləti başından aşan şöhrətli bir hökmdar var imiş. O, Araz çayı üzərindən körpü saldırmaq üçün vəzir-vəkili yığıb onlarla məsləhətləşir. Qəti qərara gələndən sonra qonşu vilayətlərin mahir sənətkarlarını yanına çağırıb fikrini onlarla bölüşür. Onlara belə deyir: "Ey insanlar, alqış qazanmaq, ölənlərimə rəhmət oxutdurmaq istəyirəm. Arazın üzərindən körpü salmaq, ucalıq yaratmaq arzusundayam. Yaxşı əməlimlə tarixə düşmək, tarixdə qalmaq istəyirəm. Onsuz da bu cah-cəlalı özümlə aparası deyiləm. Süleymana qalmayan dünya mənəmi qalacaq?.."*

*Ustalarla çox qoy-götürdən sonra körpünün yeri müəyyənləşir. Tədbir tökülərək işə başlanılır. İşin qızğın çağında birdən nökər-qaravaş əllərində dolu yumurta səbətləri özlərini tələsik hökmdarın hüzuruna yetirirlər və irili-xırdalı yumurtaları ehmalca yerə tökürlər. Hökmdar yumurtaları sayır, irilərini seçir. Sonra da nökərlərinə açıqlanır:*

*- Bu xırdaları geri aparın, görün kimdən alıblarsa onlara da qaytarsınlar. Yoxsa hamınıza bir toy tutaram ki...*

*Ustalar məəttəl qalırlar. Bu xırdaçılıq onları məyus edir. Onlar da hiyləyə əl atmalı olurlar:*

*- Hökmdar sağ olsun, buranın torpağı yumşaqdır, su çox iti axdığından qurğunu tez uçura, yuya bilər...*

*Hökmdar onları səbrlə dinləyir və niyyətlərini gözlərindən oxuyur. Qəfildən ayağa qalxır, naxışlı heybəsinin qotazlı bağını açır və böyük qızıl kisəsini çıxarıb qızıldan bir neçə dolu ovuc götürüb münasib sahələrə səpələyir. Qızıl tökdüyü yerlərdən körpünün dayaqlarının qaldırılmasını*





*bildirir. Ustalar gözlərinə inanmırlar. Bayaq yumurta sayan hökmdar indi qızılı kisə-kisə, bol-bol sağa-sola səpələyir. Sənətkarlar onlar üçün qaranlıq qalan bu işin sirlərinə vaqif olmaq istəyirlər. Hökmdar böyük məclis düzəldir ki, məclis nə məclis. Dadlı, ləziz xörəklər, mer-meyvələr, çərəzlər bir-birinə qarışır. Çox sorğu-sualdan sonra hökmdar sözünə belə başlayır:*

*- Əziz qonaqlar, hörmətli sənətkarlar! Əgər mən yumurta saymasam, yeri gələndə xəsislik etməsəm, irini xırdadan ayırmasam, onda bu var-dövlətin sahibi olardımmı heç? Bu hirsli Arazın üzərindən möhtəşəm abidə ucaltmağa imkanım çatardımı? Məndən sizə nəsihət: "...çalışın həmişə qənaətcil olun, hər şeyin qədir-qiymətini bilin. Unutmayın ki, damo-dama göl olar, tikə-tikə körpü. El körpüsü, el yaraşığı".*

*Kef məclisindən sonra ertəsi günü gecə-gündüzə qatılıb, sal qayalar çapılıb, tağlar tağda sıralanıb, Araz çayı üzərində möhkəm özülləri olan əzəmətli, möhtəşəm körpü çatılır.*

Min ildən çoxdur ki, ***Xudafərin körpüsü*** - bu möhtəşəm tarixi memarlıq abidəsi insanlara gərək olur...

***Xudafərin*** oykonimi ***xuda*** və ***afərin*** sözlərindən ibarətdir. ***Xuda*** sözü dini termindir. ***Afərin*** sözü isə dilimizdə *"alqış"* mənasındadır. ***Xudafərin*** toponimi *"Xudaya alqış"*, *"Xudaya afərin"*, *"Xudaya* əhsən" mənası kəsb edir. Bu sözün fars yozumu *"Allaha mərhaba"*, *"Allah tərəfindən yaradılmış"*, *"Allahın yaratdığı"* deməkdir. Bəzi tədqiqatçılara görə, hər iki körpünün dayaqları insan əli ilə salınmış bünövrə üzərində yox, çayın ortasında olan təbii sal daşlar üzərində möhkəmləndirildiyi üçün onlara *"Allah tərəfindən yaradılan"* - mənasında ***Xudafərin*** (***Xuda-afərin***) adı verilmişdir.

Tarixi qaynaqlarda, bədii ədəbiyyatlarda bu körpülərin yaşı haqqında fikir ayrılıqları olsa da, hər iki körpünü islamaqədərki abidələrdən (*mütəxəssis rəylərinə* əsaslansaq, ***11*** *aşırımlı korpünün* **V** *yüzildə*, ***15*** *aşırımlı körpünün isə* **VII** *əsrdə tikilməsi qənaətinə gəlmiş olarıq*) hesab etmək olar.

***Xudafərin körpüsü*** Yaxın Şərq ilə Avropa arasında tarixən möhtəşəm bir qapı olmuşdur. Tədqiqatlar ümumi şəkildə bunu deməyə əsas verir ki, *Xudafərin körpüləri* sovet dönəmində bəzi sənədlərdə göstərildiyi ***1027***-ci il tarixindən çox-çox əvvəl tikilmişdir...

## XUDAVERDİLİ DAĞI

Qarabağ silsiləsinin ətəyində, Cəbrayıl rayonunun Xudaverdili kəndi yaxınlığında, düzənlik ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Xudaverdili dağı*** adlanır. Oronim ***Xudaverdi*** şəxs adından, ***dağ*** terminindən, eləcə də ***-li*** və ***-ı*** şəkilçilərindən ibarətdir. ***Xudaverdi*** vaxtilə qonşu *Hacılı* kəndindən köçüb gələn bir şəxsin adıdır.

Toponimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Yer səthində ətraf düzənliklərdən hündürdə olan, yamacları, zirvəsi, ətəkləri ilə seçilən yüksəkliklərə ***dağ*** deyilir. Mənşəyinə görə ***dağlar*** üç cür - *vulkanik, tektonik* və *erozion* olurlar. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***dağ*** coğrafi termini iştirak edən ***1 300***-dən çox oronim qeydə alınmışdır.

## XUDAVERDİLİ KƏNDİ

***Xudaverdili kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 3 kilometr cənub-şərqdə, Cəbrayıl şəhər inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 230 nəfərdir. Taxılçılıq, heyvandarlıq və üzümçülük kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən sayılırdı. Kənddə kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, ***Xudaverdili*** yaşayış məntəqəsini vaxtilə qonşu Hacılı kəndindən köçüb gəlmiş ***Xudaverdi*** adlı şəxs salmışdır. Kənd də onun adı ilə ***Xudaverdili*** adlanmışdır. Mənbələrdə göstərilir ki, 1728-ci ildə İrəvan əyalətinin Abaran nahiyəsində də ***Xudaverdi kəndi*** olmuşdur.

Cəbrayıl rayonu ərazisində ***Xudaverdili kəndi*** yaxınlığında *Xudaverdili dağı* patronimik oronimi də qeydə alınmışdır.





## XUDAYARLI *(XUDAFƏRİN)* KƏNDİ

***Xudayarlı kəndi*** Cəbrayıl rayonunda, Diridağın ətəyində, rayon mərkəzindən 35 kilometr cənubda, Qumlaq inzibati ərazi vahidində, Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Kəndin ərazisində *Xudayarlı türbəsi memarlıq abidəsi, bulaq* və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Xudayarlı*** yaşayış məntəqəsini vaxtilə ***Xudayar*** adlı şəxs saldığına görə kənd də onun adı ilə adlandırılmışdır. Kəndin ***4*** nəslindən biri indi də ***xudayarlı*** adlanır. ***Xudayarlılar*** Məhəmmədxanlı elinin ***Xumarlı*** obasından çıxmışlar (Araz çayının o biri tayında da *xumarlılar* yaşayırlar. Onlar əsasən bu tayda Zəngilanda, o tayda Xudafərin Vəxşidə yaşayırlar).

Böyük Vətən Müharibəsi illərində kənd əhalisinin bir hissəsi *Xələfli* qəsəbəsində, qalan hissəsi isə *Xudafərin* körpüsünün yaxınlığına köçmüşdür. Elə buna görə də kənd bəzən ***Xudafərin*** (***st. Xudafərin***) kimi də tanınır. Bu torpaqları Cəfərqulu xan mülk kimi Oruc yüzbaşının oğlu ***Xudayar yüzbaşı*** adlı bir şəxsə bağışlamışdır.

Vaxtilə Zəngəzur qəzasında da ***Xudayarlı*** adlı kənd olmuşdur. ***Xuda*** sözü fars dilində *"Allah, Tanrı, sahib, yiyə"* mənalarındadır.

## XUDAYARLI TÜRBƏSİ

Cəbrayıl rayonunun Xudayarlı kəndinin ərazisində qeydə alınan tarixi-memarlıq abidəsi ***Xudayarlı türbəsi*** adlanır. Bu qiymətli memarlıq abidəsi mütəxəssislərin fikirlərinə görə, XIX əsrdə inşa edilmişdir. ***Türbə*** Xudayarlı kəndində yerləşdiyi üçün kəndin adı ilə də adlandırılmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq ifadə edir. ***Xudayarlı türbəsi*** rayon əhəmiyyətli memarlıq abidəsi hesab edilir. ***Türbə*** (bəzən ona ***məqbərə*** də deyirlər) görkəmli şəxsiyyətlərin qəbirləri üzərində ucalan binadır. Görünür burada dəfn olunan şəxs dövrünün nüfuzlu adamlarından biri olmuşdur.

Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində ***türbələr*** geniş yayılmış-

dı. Memarlıq quruluşuna görə orta əsr türbələri kubşəkilli, səkkizbucaqlı və qülləvarı olurdu. Günbəzlə örtülən kubşəkilli türbələrdə sənduqə döşəmə səviyyəsində, qülləvarı türbələrdə isə yeraltı sərdabada yerləşirdi. Türbələrin xarici səthləri memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi.





## "İ"

## İBİCİ ÇEŞMƏSİ, İBİCİ QUZEYİ

Tumaslı dağının hündür zirvəsinin günbatan yamacında, İbici quzeyinin cənub çökəyində, Şallı bayırın yanında, Sulu kühüldən 1 kilometr şərqdə, bu kühüldən bir qədər aşağı səviyyədə, dağətəyi ərazidə qeydə alınan hidronimlərdən biri İbici çeşməsi adlanır. Qaynayan İbici çeşməsinin suyu şirin, soyuq və daimidir.

Oronimiyada ***quzey*** coğrafi termini müsbət relyef forması bildirir. ***Quzey*** sözü *"dağın, təpənin şimal yamacı", "dağın, təpənin günəş şüası düşməyən kölgəli tərəfi", "dağın, təpənin, binanın və s.-nin günəş düşməyən tərəfi", "güneyin əksi"* mənalarındadır. Azərbaycan toponimiyasında coğrafi adların tərkibndə ***quzey*** terminınə çox təsadüf edirik. Türk dillərində ***quzey*** termini "şimal" anlamında işlədilir. Azərbaycan Respublikasında quzey termininin ***quzay***, ***quzoy*** formalarına da təsadüf edirik. Azərbaycanda çöl materialları içərisində adının tərkibində ***quzey*** termini iştirak edən ***2 800*** oronim qeydə alınmışdır.

Çeşmənin və quzeyin belə adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Bəzi araşdırıcılar belə hesab edirlər ki, bu coğrafi adlar antroponimik toponimlərdir, yəni İbi şəxs adı ilə bağlıdır. Təbii ki, başqa fikirlər də vardır...

## İLANNICA DAĞI

Azərbaycan Respublikasının ərazisində ***ilan*** komponentli çoxlu coğrafi adlar vardır. Cəbrayıl rayonu ərazisində, Keçəlməmmədli kəndinin cənub hissəsində, Soltanlı kəndinin qərbində qeydə alınmış İlannıca ***dağı*** coğrafi adı zoonimlə bağlı olan oronimdir. Görünür bu ərazidə vaxtilə çoxlu ***ilan*** olduğu üçün ona belə ad verilmişdir. Oronimin tərkibindəki ***-nı*** və ***-ca*** şəkilçiləri "*nisbi* çoxluğu" ifadə edir. Əslində oronim İlanlıca şəklində yazılmalıdır. Coğrafı ad yerli tələffüzə uyğunlaşdırılmışdır. İlannıca toponimi *"ilanların* çox *olduğu yer", "ilanlı yer"* mənasındadır.

## İMAM YALI

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri İmam yalı adlanır. Oronim ***imam*** və ***yal*** sözlərindən, eləcə də -ı şəkilçisindən ibarətdir. Əfsanəyə görə, bu *yaldan* vaxtilə ***imam*** övladlarının nəslindən olan ailələr keçdiyinə görə yüksəklik belə adlanmışdır.

Dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə edilir. ***Yal*** coğrafi termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***550*** oronim qeydə alınmışdır.

## İMAMBAĞI KƏNDİ

***İmambağı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 3 kilometr məsafədə, Cəbrayıl şəhər inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 50 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü il tarixdə işğal edilmişdir.

***İmambağı kəndi*** bəzən sənədlərdə adını ***İmanbağı*** kimi də qeyd olunur. ***İmambağılılar*** nəsli mirzəcanlı tirəsinin bir qoludur. Yerli məlumata görə, ***İmambağı*** yaşayış məntəqəsini keçmiş Mirzəcamallı kəndindən köçmüş ailələr ***İmambağı*** adlı ərazidə saldığı üçün kənd də belə adlanmışdır. Toponimi *"imam* övladları *nəslindən olan bir* çox *ailələrin bağ yeri"* kimi mənalandırmaq olar.

Füzuli şəhərinin mərkəzində də ***İmambağı*** deyilən ərazi, sahə vardı. XVIII-XIX əsrə aid mənbəyə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan Mirzəcanlı obası bəhs olunan dövrdə ***İmambağı*** adlanan ərazidə məskunlaşmışlar...

## İMAMƏLİ KƏHRİZİ

Cəbrayıl rayonunun Balyand kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***İmaməli kəhrizi*** adlanır. Hidronim İmaməli şəxs adından





və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. ***İmaməli kəhrizi*** coğrafi adı antroponimik toponimdir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## İMANQULU TƏPƏSİ

Dağ Tumas kəndinin 5 kilometrliyində, Çaytumasa gedən yol ilə Narlığa gedən yolun ayrıcında qeydə alınan oronim ***İmanqulu təpəsi*** adlanır. Oronim ***İmanqulu*** şəxs adından, müsbət relyef forması ifadə edən ***təpə*** coğrafi termindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Toponim "İmanquluya məxsus olan olan təpə" anlamındadır.

***Təpə*** - relyefin müsbət formalarından olub, ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklikdir. Azərbaycan toponimiyasında ***təpə*** müsbət relyef forması bildirən coğrafi termininin iştirakı ilə çöl materialları arasında ***3500*** oronim toplanmışdır.

## İMMİ OCAĞI

Keçəlməmmədli kəndinin sakini Nəcim İsmayıl oğlunun həyətyanı sahəsində hasara alınmış ***ocaq*** yeri ***İmmi ocağı*** adlanır. Bəzən adına ***Yel ocağı*** da deyirlər. Bu *ocaq* İmmi adlı mömin bir qadının dam yeri olubdur. Ziyarətçilər burada şam yandırır, torpağından bədənlərinin ağrıyan yerlərinə sürtürdülər. Bəzi məlumatlara görə ***İmmi*** ocağında gecələr öz-özünə işıq şöləsi müşahidə olunardı. Ona yaxınlaşanda işıq sönər, ondan

uzaqlaşanda isə təkrar yanardı.

Azərbaycanda ***ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır.

## İMRƏLİ DƏRƏSİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***İmrəli dərəsi*** adlanır. Toponim İmrəli sözündən, ***dərə*** terminindən və ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. ***Dərə*** coğrafi termini mənfi relyef forması ifadə edir. Toponim *"İmrəliyə məxsus dərə"* mənasını daşıyır.

## İNAMLI OCAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***İnamlı ocağı*** adlanır. Yerli əhali bu ***ocağa*** böyük ***inam*** bəslədiyi üçün el arasında onu İnamlı ocağı adlandırmışdır. İnamlı ocağı rayonda ***inamlı ocaq*** kimi yerli əhali tərəfindən çox əziz tutulur və müqəddəs ***inam, inanc*** yeri hesab edilir. ***İnamlı ocağı*** ilə bağlı xalq arasında xeyli nağıllar, əfsanələr, rəvayətlər mövcuddur.

Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Ocaqlarda, pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.





## İNCƏ DƏRƏSİ

***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. ***Dərə*** termini ilə bağlı respublikamımzın ərazisində çöl materialları içərisində ***30 000*** oronim toplanmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. İncə - monqol-tatar mənşəli sözdür. Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndi yaxınlığında qeydə alınan ***İncə dərəsi*** oronimi qıpçaqların ***öncə//əncə//incə*** tayfasının adı ilə bağlıdır. İncə tayfasının nəsilləri hələ qədimdən burada məskunlaşdıqları üçün bu dərəyə də belə ad verilmişdir. XIII əsrin birinci yarısında *incələrin//əncələrin* bir qismi qıpçaqların tərkibində Azərbaycana gəlmişlər.

Qazax və Goranboy rayonları ərazisində də *İncə dərə* oronimi qeydə alınmışdır. Qazax rayonu ərazisində *İncəsu* hidronimi də var. Göyçay və Şəki rayonlarında *İncə kəndi*, Şəki rayonunda *İncədağ*, Cəlilabad, Tərtər və Yevlax rayonlarında *İncəçay çayları*, Cəlilabad rayonunda *İncilli kəndi*, Qax rayonunda *Oncallı kəndi*, Masallı rayonunda *Oncaqala kəndi*, Cəbrayıl rayonu ərazisində *İncəçöl düzü* və s. adların da ***incələrlə*** əlaqədar yaranması güman edilir.

## İNCƏ KƏHRİZİ

Dağ Tumas kəndinin ərazisində, Gəyən düzündə qeydə alınan hidronimlərdən biri İncə kəhrizi adlanır. ***Kəhriz*** öz başlanğıcını ***İncə*** çayının yatağından götürür. Bu qədim ***kəhriz*** 18 quyudan ibarətdir. ***İncə kəhrizi*** bol sulu kəhrizdir. Onun suyundan ən çox yaylağa gedib-gələn elat camaatı istifadə edir. ***Kəhriz*** yaxınlıqdan axan ***İncə*** çayının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya ***kəhriz*** deyilir. Maili lağım şəbəkəsindən ibarət olan *kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada

geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallardan aydın olur ki, XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** mövcud idi.

## İNCƏÇAY, İNCƏÇAY DƏRƏSİ

Azərbaycanda çay. Uzunluğu ***51*** kilometr olan İncəçay çayının çox hissəsi Cəbrayıl rayonu ərazisindədir. Arazın sol qolu olan bu çay Qarabağ silsiləsinin 1370 metr hündürlüyü olan yüksəkliyindən başlanır. Əsasən yeraltı və yağış suları ilə qidalanan bu çayın hövzəsinin sahəsi 351 kvadrat kilometrdir. İllik axın həcmi 18 milyon kub metr olan İncəçayın suyundan suvarmada geniş istifadə olunurdu. Çayın aşağı axını ilin çox vaxtı quruyur. ***İncə*** sözü "*nazik*", "*dayaz*" anlamlarını ifadə edir.

***İncəçay*** hidronimi *qıpçaq* mənşəli ***incələr//əncələr//öncələr//oncalar*** tayfasının adı ilə bağlıdır. XI-XIII əsrlərdə Cənubi Rusiya çöllərində və Şimali Qafqazda yaşamış qıpçaq tayfalarından *(tərtər, qarabörk, vərəndə, qöv, uran, tuq, kotyan* və *s.)* biri də ***incələr*** idi. Onların bir qismi Azərbaycana XIII əsrin birinci yarısında gəlmişdir. Hazırda Azərbaycanda *incələrlə* bağlı onlarla yer adları vardır.

İncəçayın sahili boyu ***İncəçay dərəsi*** uzanır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** adlanır. ***Dərə*** termininin iştirakı ilə ölkəmizdə ***30 000*** oronim qeydə alınmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir.

Goranboy, Yevlax və Cəlilabad rayonlarında da İncəçay ***dərəsi*** oronimi qeydə alınmışdır. ***İncəçay dərəsi*** oronimi tərkibində çay sözü olan hidronimi əks etdirən oronimdir. İrəvan əyalətinin Dərəkənd, Parçenis, Maku, Sürməli, Vedi, Xınzirək və Zəngəzur nahiyələrində də qıpçaqların ***İncə//Əncə*** tayfasının adı ilə bağlı vaxtilə azərbaycanlıların yaşadığı kəndlər mövcud olmuşdur. Bu tip oronimlərə Orta Asiya respublikalarında da rast gəlinir.

Əlavə məlumat üçün bax: **İncə dərəsi**.





## İNCƏÇÖL DÜZÜ

Azərbaycanın Cəbrayıl rayonu ərazisində, Kiçik Qafqazın cənub-şərq ətəyində, Araz çayının sol sahili boyunca uzanan ərazi İncəçöl düzü adlanır. İcəçayın sahili boyunca uzanan İncəçöl düzünün uzunluğu qərbdən şərqə ***18*** km, eni ***6*** kilometrdir. Səthi bəzi yerlərdə dalğavari, təpəli-tirəli olan İncəçölün hündürlüyü ***450-500*** metrdir. Çöl Üst Pliosen və Antropogen allüvial-prolüvial çöküntülərindən təşkil olunmuşdur. Heyvandarlıq və digər sahələr inkişaf etmiş bu çölün ərazisində dağətəyi yarımsəhra və quru çöl landşaftı var. ***İncəçöl düzü*** Arazın qolu olan İncəçayın sahili boyu yerləşdiyinə görə belə adlanmışdır. Bəzi tədqiqatçılara görə, ***İncəçöl*** adındakı ***incə*** sözü qədim türk mənşəli qıpçaq tayfasının adını əks etdirir. Oronim türk mənşəli qıpçaqların ***incə/əncə*** tayfasınının adı ilə əlaqədardır.

***Çöl*** - quru iqlimə uyğunlaşmış ot bitkiləri ilə örtülü "*meşəsiz sahə, genis düzənlik*", "*səhra, bozqır, susuz düzənlik*" deməkdir. Öz adında qıpçaq əsilli ***incə ("öncə")*** tayfasının adını əks etdirən ***İncəçöl*** oronimi "İncə *tayfasından olanların məskən saldığı* çöl, düzənlik" anlamındadır.

Əlavə məlumat üçün bax: **İncə dərəsi** və **İncəçay.**

## İNCİR OCAĞI

***İncir ocağı*** oroqrafik obyekti Cəbrayıl rayonunun ərazisində, Sarıcallıdan keçən asphalt yolun yaxınlığında, toxmaçarlığın içində qeydə alınmışdır. ***İncir ocağı*** topa ***incir*** kolluğundan ibarətdir. Bəzən onun adına ***Ziyil ocağı*** da deyirlər. Əlində, barmağında ziyili olan adamlar incirin *(əncirin)* qanadından birini burub buraxır, ağacın dibinə nəzir-niyaz qoyur və bununla da ziyilləri tökülür.

Bilirik ki, ***ocaq-pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. ***Ocaq*** uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***ocaq*** əvəzinə ***pir*** ifadəsi də işlədilir. ***Pirlər*** (***ocaqlar***) ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti ocaqları, pirləri ziyarətgah, ümidgah hesab edirlər.

## İNCİR PİRİ

Cəbrayıl rayonu ərazisində, Diridağ ətrafında qeydə alınmış bu ***pir - ocaq*** öz adında ***əncir*** (*yerli tələffüzdə adına* ***incir*** *də deyirlər*) ağacının adını əks etdirir. İlan *ocağı* sayılan ***İncir piri*** Diridağ ərazisində ilkin inanclarımızın izini saxlayır. Keçmişdə *ilan* vuranları bu *pirə* gətirərmişlər. İncir ***piri*** çox dərdlilərin ümidgah yeri idi...

Oronimiyamızda ***əncir*** meyvə ağacının adı ilə çoxlu oroqrafik obyektlər yaranmışdır.

Əlavə məlumat üçün bax: **İncirli pir.**

## İNCİRLİ KƏHRİZİ

Sofulu kəndinin cənub hissəsində, İncirlik dərəsindəki bağın başında qeydə alınan hidronim ***İncirli kəhrizi*** adlanır. Yerli əhali ***əncir*** sözünü çox zaman ***incir*** şəklində tələffüz edir. Bu ***kəhriz*** baxımsızlıq ucbatından batmışdır. Hidronim ***incir*** və ***kəhriz*** sözlərindən, eləcə də ***-li*** şəkilçisindən ibarətdir. Hidronim "əncir (*incir*) *ağacı yaxınlığında olan kəhriz*" mənasındadır.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda ***kəhriz sistemi*** e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## İNCİRLİ PİR

***İncirli pir*** İsaqlı kəndinin baş tərəfindəki yamacda yerləşir. Bu ***pir*** daş hərləmədən ibarətdir. Vaxtilə həmin bu daş hərləmənin içərisində ***incir*** (əncir) ağacı olmuşdur. Son zamanlarda (*erməni işğalına qədər*) onun kötüyü dururdu. Yerli məlumata görə vaxtilə burada din uğrunda mübarizə aparan mücahid dəfn edilmişdir. Amma hasarın içərisində qəbir yeri bilinmir. Hasarın içərisində vəhşi quşlar üçün dən səpilirdi. Yerli camaat bu İncirli ***piri*** əziz tutur, burada niyyətlər edilir, nəzir-niyaz verilirdi.

Azərbaycanda ***pir, ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** termini ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

## İSA BAĞI

İncə çayının qərb sahilində, İsrafil ağanın bağ yerinin ayağında, Dağ Tumas kəndindən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***İsa bağı*** adlanır. Toponim İsa və ***bağ*** sözlərindən, eləcə də ***-ı*** şəkilçisindən ibarət olub, *"İsaya məxsus olan bağ", "İsanın bağı"* mənasındadır. Bu bağda çoxlu sayda meyvə ağacları, kollar əkilmişdir.

## İSA BİÇƏNƏYİ

Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***İsa biçənəyi*** adlanır. ***Biçənək*** sözü *"biçiləcək yer, otlaq, çəmənlik"* deməkdir. Bu ***biçənək*** yeri olan otlaq sahəsi İsa adlı bir şəxsə məxsus olduğu üçün toponim belə adlanmışdır. Oronim *"İsaya məxsus olan otlaq sahəsi", "İsaya aid olan çəmənlik"* mənasındadır. Belə coğrafi adlara digər rayonlarımızın ərazilərində də rast gəlmək mümkündür.

## İSAĞIN BAĞI

Xələfli kəndinin ərazisində qeydə alınmış oronimlərdən biri ***İsağın bağı*** adlanır. Toponim ***İsaq*** şəxs adından və ***bağ*** sözündən ibarətdir. Bu *bağda* çoxlu sayda ağaclar əkilmişdir. İsağın bağı toponimi *"İsağa məxsus olan bağ"* anlamındadır.

## İSAQLI KƏNDİ

***İsaqlı kəndi*** (tələffüzdə İsaxlı şəklində deyirlər) Cəbrayıl rayonunda, rayon mərkəzindən 31 kilometr qərbdə, Havuslu kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisi 260 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük, baramaçılıq kənd əhalisinin məşğul olduqları əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana və s. vardı. Kəndin ərazisində *Kəmərə qaya, Məlik bulağı* və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***İsaqlı*** yaşayış məntəqəsi Qərbi Azərbaycanın (*Ermənistanın*) ***Dəstəkert*** kəndinin zəlzələ nəticəsində dağılmasından sonra 1931-ci ildə həmin yaşayış məntəqəsinin əhalisinin bəzisinin köçüb buraya gəlməsi ilə əlaqədar yaranımşdır.

Kənd XIX əsrdə Zəngəzur qəzasında yaşayan ***xocaisaqlı*** tayfasına mənsub olan ***İsaqlı*** qışlağında salındığı üçün belə adlandırılmışdır. ***İsaqlı*** sözü ***İsaq*** şəxs adından və ***-lı*** şəkilçisindən yaranmışdır. Azərbaycan toponimiyasında şəxs adından əmələ gələn coğrafi adlar çoxdur. İsaqlı toponimi antroponimdən və mənsubluq, aidlik bildirən ***-lı*** şəkilçisindən ibarətdir.

## İSBİRİ OCAĞI

Balyand kəndinin qabağında, Kollukənd adlanan köhnə qışlaq yerində qeydə alınan oronimlərdən biri ***İsbiri ocağı*** adlanır. Bu ***ocaq*** topa bitişikli qaratikan kolluğundan ibarətdir. Kollara əsgilər bağlanır, burada niyyət edirdilər. Bu tipli toponimlərə Azərbaycan Respublikasının çox





yerlərində rast gəlmək mümkündür. Ocağın ən çox torpağından istifadə olunur. Bədənində ağrısı, yarası olanlar bura gəlir, pirin torpağından yara yerlərinə, ağrılı nahiyələrinə sürtürlər.

Bu toponimlərlə əlaqədar müxtəlif fikir və mülahizələr mövcuddur.

## İSBİRLİ PİRİ

Şəybəy kəndinin ərazisində, kəhriz ilə məktəb binası arasında, çaylağın gündoğanında da ***İsbiri piri*** coğrafi adı qeydə alınmışdır. ***Pir*** enli daş hərləməsindən və onun içərisindəki kiçik daşhərləməsinin ortasına qoyulmuş iri həcmli dəmir kasadan ibarətdir. Niyyət edənlər kasada piltə yandırır. Bu pirə daha çox dəri xəstələri, əzalarında ağrısı olanlar gələrdilər. Xəstələr ağrıyan bədən nahiyələrini pirin daşlarına sürtməklə şəfa tapardılar.

## İSLAM BULAĞI

Dağ Tumas kəndində, İslam Hacı oğlunun həyətində qeydə alınan hidronim ***İslam bulağı*** adlanır. ***İslam bulağı*** əvvəllər şirin sulu qaynayan ***bulaq*** olmuşdur. Sonralar bulağın gözü basdırılmışdır. Hidronim ***İslam*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, *"İslama məxsus olan bulaq"* deməkdir.

## İSMAYILÖLƏN YER

Göyərçin Veysəlli kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***İsmayılölən*** yer adlanır. Məlumdur ki, oroqrafik obyektlərin bəzisinə orada baş vermiş müxtəlif hadisə ilə əlaqədar ad verilmişdir. ***İsmayılölən yer*** ərazisində də vaxtilə ***İsmayıl*** adlı şəxsin *ölümü* səbəbindən oronim belə ad almışdır. Yerli əhalinin mənə dediklərinə görə, bu bədbəxt hadisə belə baş vermişdir: ***İsmayıl*** adlı bir adam əkin sahəsində, şumun kəna-

rında, traktorun kölgəsində yatdığı üçün traktor hərəkətə gələrkən onun altında qalıb ölmüşdür. Baş vermiş bu bədbəxt hadisədən sonra həmin yer ***İsmayılölən*** adlandırılmışdır.

## İSMİLLİ DƏRƏSİ

***İsmilli dərəsi*** Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində qeydə alınmışdır. Bu oronim patronimik (bəlkə də İsmayıl adı ilə bağlıdır) oronimdir. Hər bir tirə və nəsil müəyyən bir tayfanın xırda qolundan ibarət olsa da, bəzi oronimlərdə əksini tapmış patronimlərin müəyyən hissəsinin hansı tayfaya mənsub olmasını müəyyən etmək mümkün deyildir. ***İsmilli dərəsi*** də belə oronimlərdəndir.

Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada relyefin dar və çökək forması ***dərə*** adlanır. Respublikamız ərazisində adının tərkibində ***dərə*** coğrafi termininin iştirak etdiyi ***30 000*** oronim toplanmışdır.

## İSRAFİL AĞANIN BAĞI

İncə çayının şərq sahilində, Keçəl təpənin qərb ətəyində, Dağ Tumas kəndindən 5 kilometr aralıda qeydə alınan oroqrafik obyektlərdən biri ***İsrafil ağanın bağı*** adlanır. Oronim ***İsrafil*** şəxs adından, eləcə də ***ağa*** və ***bağ*** sözlərindən ibarət olub, *"İsrafil ağaya məxsus olan bağ"* mənasındadır. Bu bağda çoxlu meyvə ağacları vardı.

## İT ÖLƏN DƏRƏ

Cəbrayıl rayonunun Sofulu kəndi ərazisində qeydə alınan ***İt ölən dərə*** oronimi öz adında ***it*** ev heyvanının adını əks etdirir. Oronim itin həmin ***dərədə ölməsi*** hadisəsi ilə əlaqədar belə ad almışdır.

Gədəbəy rayonunun Arabaçı kəndində *İtvurulan yaylaq*, Laçın rayonunun Çəmbərxaç kəndində *İtqırılan dağ* və s. oronimlər də bu qəbildəndir.





## İYDƏLİ PİRİ

Qoşabulaq kəndindən Aşağı Sirik kəndinə gedən yolun üstündə, Qamışlı dərədə yerləşən oronim ***İydəli piri*** adlanır. Oronim ***iydə*** ağac adından və ***pir*** sözündən ibarət olub, *"iydə ağacı olan pir"* anlamındadır. Pirin gövdəsi çarhaqla daş hərləməsinə alınan ***iydə*** ağacından ibarətdir. Bu ***iydə*** ağacının kölgəsində Əli Çələbinin dincəldiyini söyləyirlər. Qoşabulaq camaatı ürəklərində niyyət tutub həmin ağacın budağlarına ip, sap, rəngbərəng parça qırıqları və s. bağlayırdılar.

***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Pirə gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır. ***Pir*** sözü farsca *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim, hidronim və ***37*** yaşayış məntəqəsi (*oykonim*) vardır.

Azərbaycan Respublikasının ərazisində bu tipli yüzlərlə fitonimik oronimlər qeydə alınmışdır.

# "K"

## KAFTAR YAMACI

Yırtıcı məməlilər fəsiləsindən xarici görünüşünə görə itə bənzəyən ***kaftar*** *(adına **gorəşən** də deyirlər)* çöl heyvanı adı və oroqrafik terminlərdən düzəlmiş oronimlərə respublikamızın əksər bölgəsində təsadüf olunur. ***Kaftar*** əsasən yarımsəhra və sahralarda yaşayan yırtıcı məməli heyvanlardır. *"Azərbaycan respublikasının Qırmızı kitabı"*na düşən və əsasən leş ilə qidalanan ***kaftarlar*** nəsli kəsilməkdə olan heyvanlardandır.

Cəbrayıl rayonu ərazisində *(rayon mərkəzindən 7 km cənubda)* də adına ***Kaftar yamacı*** deyilən belə bir oronim qeydə alınmışdır. Müsbət relyef forması bildirən ***yamac*** termini *"dağın və ya təpənin ətəyindən zirvəsinə qədər olan hissəsi"* deməkdir. Bu tip oronimlərə Qazax və Qobustan rayonlarında *(Kaftarın dağı)*, Ağdaş, Qəbələ, Qubadlı, Zəngilan, Zərdab, İmişli, Füzuli rayonlarında *(Kaftarlı dərə)*, Qax rayonunda *(Kaftar qobusu)*, Qəbələ rayonunda *(Kaftar çalası)*, Xocavənd rayonunda *(Kaftarlı dağ)* və başqa ərazilərdə rast gəlinir.

## KAHA BULAĞI

Tumaslı dağının yaxınlığında, Abdulla kahasının qabağında, İncə çayının sağ sahilində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Kaha bulağı*** adlanır. Azərbaycanın bəzi regionlarında kahaya *mağara* da deyirlər. Hidronim ***kaha*** və ***bulaq*** sözlərindən ibarət olub, *"kahanın, mağaranın yanında olan bulaq"* anlamındadır. ***Bulaq*** Abdulla kahasının qarşısında yerləşdiyindən belə adlandırılmışdır. ***Kaha*** bulağının soyuq, şirin və gur suyu vardır.

## KALAFALI DƏRƏ

Cəbrayıl rayonu ərazisində qeydə alınmış oronimlərdən biri də ***Kalafalı dərə*** adlanır. ***Dərə*** – mənfi relyef forması bildirən coğrafi termindir.





Oronimiyada relyefin çökək forması ***dərə*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində ***dərə*** termini ilə əlaqədar ***30 000*** oronim qeydə alınıb. ***Kalafa*** sözü *"geniş"*, *"dərin"* mənasındadır.

Astara, Füzuli, Goranboy, Göygöl, Laçın, Tovuz, Şahbuz, Şuşa, Zəngilan rayonlarının ərazilərində də *Kalafalı dərə* oronimi qeydə alınmışdır.

## KALAFALIQ

Rayonun Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Kalafalıq*** adlanır. Bu ərazinin torpağından məişət qablarının yuyulmasında istifadə edilirdi. Oronim ***kalafa*** sözündən və ***-lıq*** şəkilçisindən ibarətdir. ***Kalafa*** sözü *"qazılmış çökək yer"* anlamında işlədilir.

Azərbaycan Respublikasının ərazilərində yüzlərlə bu tipli coğrafi adlara rast gəlirik. Laçın rayonunun Vağazin inzibati ərazi vahidində ***Kalafalıq*** adlı kənd də vardır.

## KAMİLXAN BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Kamilxan bulağı*** adlanır. Bu bulağın soyuq və şirin suyu vardır. Hidronim ***Kamilxan*** şəxs adından və ***bulaq*** sözündən ibarətdir. Bulağın üzə çıxarılmasında *Kamilxanın* əməyi, rolu olduğu üçün hidronim onun adı ilə adlandırılmışdır. ***Kamilxan bulağı*** hidronimi *"Kamilxana məxsus olan bulaq"* anlamındadır.

## KAR DAŞ

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndindən Qarağaca gedən yolun Sarı yoxuşun ayağından düzə çıxan hissəsində qeydə alınan oroqrafik obyekt ***Kar daş*** adlanır. Kənardan baxanda ilk baxışda adama elə gəlir ki, ***Kar daş*** yolun üstünə sanki əllə, ehtiyatla qoyulmuşdur. Qəribədir ki, bu ***daşa*** toxunduqda heç bir cingilti səsi gəlmir; sanki o, ***kardır***,

heç bir səsi eşitmir. Kim bilir, bəlkə də elə bu səbəbdən o, belə adlandırılmışdır. ***Kar daş*** haqqında rəvayətlər, əfsanələr də uydurulmuşdur.

Füzuli rayonunun Horadiz kəndi ərazisində də bu tipli ***Kar daş*** toponiminə rast gəlirik.

## KARXULU KƏNDİ

***Karxulu kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 22 kilometr cənub-şərqdə, Karxulu inzibati ərazi vahidində, Mincivan-Horadiz avtomobil yolu kənarında, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 850 nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi, kəhriz və s. vardı. Kənd 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

XVIII əsrə aid olan sənədə görə ***Karxulu kəndi*** (*adı əvvəllər **Sərkərli** olub*) Xırdapara Dizaq mahalı tərkibində olmuşdur. ***Karxulu*** yaşayış məntəqəsini Qarabağdan gəlmiş *Allahverdi* və *Xudaverdi* adlı qardaşlar ***Karxulu*** adlanan yerdə salmışlar. Yerli məlumata görə, toponim adına ***Kar Qulu*** deyilən şəxsin adı ilə əlaqədardır. XX əsrin əvvəllərinə aid ədəbiyyatda Tiflis quberniyasında ***Karxul*** adlı dağ və çay qeydə alınmışdır. ***Karxulu*** adı ilə bağlı müxtəlif yönümlü izahlar varsa da, bu sözün dəqiq elmi mənası hələ müəyyənləşdirilməmişdir.

Oykonimin ***kar*** formantı *"iş, qazanc, xeyir, fayda"* deməkdir. Qədim şumercə ***kar*** komponentinin *"oğurlamaq"* mənası, qədim türkcə *"qarət", "əlin bir hissəsi", "yaxalamaq"* və s. anlamları vardır.

## KASA BULAQ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Kasa bulaq*** adlanır. Bu bulağın göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. Hidronim ***kasa*** və ***bulaq*** sözlərindən ibarətdir. Bulağın suyu axıb daşı o qədər yumuşdur ki, daş zahirən *kasaya* oxşadığından hidronim belə ad almışdır. Bu tipli hidronimlərə digər rayonların ərazilərində də rast gəlirik.





## KAVDAR GÖLÜ

Kavdar kəndinin ərazisində ***Kavdar gölü*** hidronimi də qeydə alınmışdır. Hidronim ***kavdar*** (*"daşlı keçid"*) sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Toponim türkdilli ***kavdar*** (***qovlar***) peçeneq tayfasının adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Əlavə məlumat üçün bax: **Kavdar kəndi**.

## KAVDAR KƏNDİ

***Kavdar kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 8 kilometr cənubda, Hacılı kənd inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Taxılçılıq, üzümçülük, heyvandarlıq və baramaçılıq əhalinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə əsas məktəb, kitabxana, klub, tibb məntəqəsi, kəhriz və s. vardır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

Xalq etimologiyasına görə, ***Kavlar*** (Kavdar) şəxs adı olmuşdur. Sonralar bu söz ***Kavdar*** formasında kəndin adına çevrilmişdir. Çox güman ki, oykonim özündə qədim türkdilli ***qov*** etnonimini əks etdirir. ***Qovlar*** sözünün ***Kavlar***, sonra isə ***Kavdar*** şəklinə düşməsi Azərbaycan dilinin fonetika qanunlarına uyğundur.

Peçeneqlərin ***qov*** tayfasının adı qədim rus salnamələrində ***kou*** şəklində öz əksini tapmışdır. Bəzi müəlliflərə görə, ***qovlar*** türkdilli peçeneqlərin tərkibində VIII - IX əsrlərdə, bəzilərinin fikrincə isə, IX - XI əsrlərdə Azərbaycana gəlmişlər.

Sabirabad və Tovuz rayonlarındakı *Qovlar kəndi*, İsmayıllı rayonundakı *Qovdağ Silsiləsi*, Samux rayonundakı *Qovlarsarı kəndi* də ***qov*** etnonimi ilə əlaqədardır.

***Kavdar/Kavtar*** oykonimini başqa cür yozanlar da var. Ancaq bu yozumların hələlik heç bir elmi əsası olmadığını nəzərə alıb onların üzərin-

də dayanmağı lazım bilmirəm...

"*Kavdar*" - "*daşlı dağ keçidi*", "*daşlı aşırım*" mənasındadır. ***Kav*** termini fars dilində "*dağ keçidi*", "*aşırım*" anlamındadır. "***Kav***" sözünün "*mal-qara*" mənası da var. Bu mənada ***kavdar*** toponimi "***maldar***" deməkdir. XIX əsr mənbəsinin məlumatına görə, Cəbrayıl elinin Əlibəyli obası ***Kavdar*** adlanan ərazinin torpaqlarında məskunlaşmışdır. Bu səbəbdən də kənd sonralar ***Kavdar*** adlanmışdır. Bu kənd Cəbrayıl rayonunun qədim tarixə malik kəndlərindəndir.

## KAVDAR YATAĞI

Cəbrayıl rayonunun Kavdar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kavdar yatağı*** adlanır. Oronim ***Kavdar*** kənd adından və ***yataq*** terminindən ibarət olub, "*Kavdar kəndi yaxınlığındakı mal-qara və davar yatağı*" anlamındadır.

***Yataq*** termini "*davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililərdən ibarət olan xüsusi sahə*" anlamındadır. Çox qədim zamanlardan məlum olan ***yataqlar*** yaylaqda əsasən, daşdan, aranda qamış, ağac, daş, qarğı və s.-dən tikilən ağıl, xalxaldan ibarətdir. Adətən yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınan yataqlarda çobanlar üçün yaşayış mənzilləri alaçıq, çadır, aran yerlərində isə heyvanların qışlağı üçün damlar olur.

## KEÇƏL MƏMMƏDLİ KƏNDİ, KEÇƏL MƏMMƏDLİ TAPI

Cəbrayıl rayonunda, XX əsrin 20-ci illərinin sonuna qədər ***Keçəl Məmmədli*** kəndi (bəzən oykonimi ***Keçəlməmmədli*** şəklində də yazırlar) adlı kənd olub. Kollektivləşmə illərində bu ***Keçəl Məmmədli kəndi*** yaxınlıqdakı *Soltanlı kəndi* ilə birləşib. Kəndin yaxınlığında *Abaslı yaylağı, Aeroport yeri, Farmaş təpə, Gendərə, Genyataq, Gəyən düzü, Göyərçinli, Güllab düzü, İlannıca, İmmə ocağı, Kərməli yataq, Qılıclı, Qırmızı anbar, Qobu, Sarıyal, Topcaq düzü, Yanarxac gölü, Yantəpə, Yellicə* və s. adlı coğrafi adlar qeydə alınmışdır...





***Keçəl Məmmədli tapı*** Cəbrayıl rayonunun Göyərçin Veysəlli kəndi yaxınlığında qeydə alınmışdır. Bu oroqrafik obyekt patronimik oronimlərdəndir. Patronim dedikdə şəxs adlarının iştirakı ilə yaranan oronimlər nəzərdə tutulur. Toponimin tərkibindəki ***tap*** sözü "*düzən yerdə təpə*", "*dağ düzənliyi*", "*dağ döşündə düzənlik*", "*su çıxmayan düz yer*" və s. mənalarda işlənir. Azərbaycanda ***tap*** termini ilə əlaqədar ***500*** oronim qeydə alınmışdır.

Oronim ***Keçəl Məmmədin*** adı ilə bağlıdır. ***Keçəlməmmədli*** adlı tayfa da var... Vaxtilə Cəbrayıl rayonunda *Keçəlməmmədli* adlı yaşayış məntəqəsi də olmuşdur. Yaşlı nəslin nümayəndələrinin mənə dediklərinə görə, onun (***Keçəl Məmmədin***) ***5*** övladı varmış. Onun övladları kəndin müxtəlif hissələrində məskən salmışlar. Oykonim nəsil adı ilə bağlıdır. Yaşayış məntəqəsinin adı "ölü *kəndlər*" siyahasında olsa da, işğaldan bir müddət əvvəl kəndin öz əvvəlki adı (***Keçəlməmmədli***) da bərpa olunmuşdur...

## KEÇƏL TƏPƏ

***Keçəl təpə*** oronimi Cəbrayıl rayonunun Göyərçin Veysəlli və Dağ Tumas kəndləri ərazisində qeydə alınıbdır. Oronim *təpənin* səthinin *bitkisiz*, ***keçəl*** olması ilə əlaqədar belə adlanmışdır. Zirvəsində bitki örtüyü olmadığı üçün belə adlanan (*Keçəl dağ*, ***Keçəl təpə***, *Keçəl yamac, Keçəl qaya, Keçəl dik, Keçəl gədik, Keçəl tap, Keçəl taxta, Keçəl bazı, Keçəl quzey* və s.) oronimlər çoxdur. Respublikamızın ərazisində bu tipli oronimlərə digər bölgələrdə də rast gəlmək olur.

Qazax rayonunun Kəmərli, Qubadlı rayonunun Göyər Abbas, Zəngilan rayonunun Şəfibəyli, Kəlbəcər rayonunun Alçalı, Laçın rayonunun Zeyvə, Sədərək rayonunun Göytəpə, Şərur rayonunun Şaxtaxtı, Qaradağ rayonunun Güzdək kəndlərinin ərazilərində də ***Keçəl təpə*** oronimi qeydə alınmışdır. Vaxtilə Gəncə (*Yelizavetpol*) quberniyasının Qazax qəzasında (*indi Ermənistanın Noyanberyan rayonunda*) ***Keçəltəpə*** adlı qışlaq yeri və kənd də mövcud olmuşdur.

## KEÇMİŞ QARADƏRƏ KƏNDİ

Rayonun Horovlu və Quycaq kəndləri arasında vaxtilə ***Qaradərə*** adlı kənd mövcud olmuşdur. Bu kənd uzaqdan baxdıqda *böyük* bir *dərədə* yerləşdiyi üçün belə adlanmışdır. Səfər şahın və Əziz yüzbaşının hakimiyyəti illərində həmin sahə molla mülkü kimi Horovludan alınmış və Əziz yüzbaşının varisləri oranı özəlləşdirmişlər. Yerli məlumata görə, ***Qaradərə kəndi*** Böyük Vətən müharibəsi illərində dağılmışdır. Deyilənlərə görə bu yerlərdə tez-tez cıdır-at yarışları da keçirilərmiş...

## KƏHRİZ BAĞI

Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Kəhriz bağı*** adlanır. Toponim ***kəhriz*** və ***bağ*** sözlərindən, eləcə də -ı şəkilçisindən ibarətdir. Buradakı əsasən meyvə ağaclarından ibarət olan ***bağ*** kəhrizin yanında yerləşdiyi üçün toponim belə ad almışdır.

Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya ***kəhriz*** deyilir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## KƏHRİZİN ÜSTÜ

Dağ Tumas kəndinin yaxınlığında qeydə alınan toponimlərdən biri ***Kəhrizin üstü*** adlanır. Bu coğrafi ad ***kəhriz*** və üst sözlərindən ibarətdir. Buradakı kəhrizin adı İncə kəhrizi adlanır. ***Kəhrizin üstü*** oroqrafik obyekti İncə kəhrizinin üst hissəsindəki düzəngahın adıdır.





***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. O, maili lağım şəbəkəsindən ibarətdir. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## KƏKLİK QAYA, KƏKLİK QAYASININ DÖŞÜ

Respublikamızın müəyyən rayonlarında quşların yayılma coğrafiyası müxtəlifdir. Azərbaycanda ***kəklik*** quşunun adını özündə əks etdirən çoxlu sayda oronimlər də qeydə alınmışdır. Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndindən 6 kilometr aralıda, Peyintökülənin qərbində qeydə alınan ***Kəklik qaya*** oronimi öz adında ***kəklik*** quşunun adını əks etdirir. ***Kəklik*** - qırqovulkimilər fəsiləsinin bir növüdür. Bəzən ona ***daş kəkliyi*** də deyirlər. Azərbaycanda ***kəkliklər*** Türyançay dövlət qoruğunda və Göygöl ovçuluq təsərrüfatında qorunur.

***Kəklik*** quş adı ilə bağlı oronimlərə Qubadlı rayonunun Ləpəheyranlı kəndinin ərazisində (*Kəklik dərəsi*), Biləsuvar rayonunun Əliabad kəndinin ərazisində (*Kəklikli təpə*), Ağsu rayonunun ərazisində (*Kəklik qaya*) və s. yerlərdə rast gəlmək olar.

Cəbrayıl rayonu ərazisində qeydə alınmış maraqlı coğrafi adlardan biri də ***Kəklik qayasının döşü*** adlanır. Oronimiyada dağın, təpənin yuxarı hissəsi ilə ətəyi arasında sahə, dağ yamacının yuxarı və orta sahələri arasında qalan hissə, həmçinin yamacın yuxarı hissəsi ***döş*** adlanır. ***Döş*** coğrafi termininin iştirakı ilə əlaqədar respublikamızın ərazisində ***200*** oronim qeydə alınmışdır.

## KƏL DƏRƏSİ

Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınan oronim ***Kəl dərəsi*** adlanır. ***Kəl dərəsi*** oronimi ***kəl*** sözündən, mənfi relyef forması bildirən ***dərə*** terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"kəl olan dərə"* mənasındadır. Bu oroqrafik obyekt öz adında ***kəl*** deyilən yaşlı erkək camışın adını əks etdirir.

## KƏLBATAN

Rayon ərazisində qeydə alınan coğrafi adlardan biri ***Kəlbatan*** adlanır. Oronim ***kəl*** və ***batan*** sözlərindən ibarətdir. Bu mikrotoponim vaxtilə burada baş vermiş hadisə ilə (*kəlin batması hadisəsi ilə*) əlaqədar olaraq belə adlandırılmışdır. Bu tipli oronimlərə Azərbaycan Respublikasının digər bölgələrində də rast gəlirik.

## KƏMƏR QAYA

Rayonun İsaqlı və Qalacıq kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kəmər qaya*** adlanır. Bəzən yerli əhali onun adını ***Kəmərə qaya*** kimi tələffüz edir. Bir sıra relyef formaları onların zahirən nəyə bənzədiyi ilə əlaqədar olaraq ad almışdır. ***Kəmər qaya*** metafor oronimi də belələrindəndir. ***Qaya*** xarici görünüşcə ***kəmərə*** bənzədiyinə görə bu cür adlanmışdır.

## KƏMƏR QOŞMAR PİRİ

Vaxtilə Cəbrayıl rayonunun ərazisində, Qumlaq kəndi ilə Xudafərin körpüləri arasında ***Kəmər Qoşmar*** adlı bir ***pir*** var idi. Deyilənə görə, Xudafərində *Qaraş* adlı bir kişi varmış ki, ruslar o pirin daşlarını bu kişiyə daşıtdırıb Araz çayına tökmüşlər. Sərhəd çəkiləndə sərhədə düşmüşdü. Sonralar o, hətta bir az dəli kimi olmuşdu. ***Kəmər Qoşmar piri*** haqqında





əfsanə və rəvayətlər də vardır.

Aydındır ki, ***pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə bəzən ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz verdikləri, ibadət etdikləri yer olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir. Azərbaycanda ***pirlər*** müqəddəs tapınaq yeri kimi əziz tutulur.

Toponimin tərkibindəki ***Kəmər (Kəmərə)*** sözü bir-birinə paralel qaya sıraları arasında qalan və zahirən ***kəmərə*** oxşayan iki torpaq zolağından ibarət olan əraziyə deyilir. Məhz elə bu səbəbdən – ***kəmərə*** bənzədiyindən oronim belə ad almışdır.

## KƏMƏRBƏNDLİ

Rayon ərazisində, Araz çayının sol sahilində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Kəmərbəndli*** adlanır. Toponim ***kəmər*** və ***bənd*** sözlərindən, eləcə də ***-li*** şəkilçisindən ibarətdir. Buradakı ***bənd*** zahirən ***kəmər*** şəkilli olduğu üçün toponim belə ad almışdır. İslam memarlıq abidələrindən hesab edilən ***Kəmərbəndli*** abidəsi də erməni işğalından sonra dağıdılmışdır...

## KƏMƏRƏLƏR

Dağ Tumas kəndindən 5 kilometr aralıda, Peyintökülənin gündoğan ətəyində, dağətəyi ərazidə qeydə alınan oronim ***Kəmərələr*** adlanır. Oronim ***kəmər*** (***kəmərə***) sözündən və ***-lər*** cəm şəkilçisindən əmələ gəlmişdir. ***Kəmərələr*** – bir-birinə paralel qaya sıraları arasında qalan və zahirən ***kəmərə*** oxşayan iki torpaq zolağından ibarətdir. Məhz elə bu səbəbdən – ***kəmərə*** bənzədiyindən oronim belə ad almışdır. Azərbaycanda bu tipli coğrafi adlara digər rayonların ərazilərində də rast gəlirik.

## KƏPİRLİ DƏRƏ

Cəbrayıl rayonunun Şıxalıağalı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri ***Kəpirli dərə*** adlanır. ***Dərə*** coğrafi termini mənfi relyef forması ifadə edir. ***Kəpirli*** sözünü araşdırıcılar müxtəlif mənalarda izah etməyə çalışırlar. Bəzisi bu sözün ***kəbirli*** (***kəbərli***) türkdilli tayfasının adı ilə əlaqədar yarandığını, bəziləri isə həmin ərazinin bir qədər şoranlıq olması ilə ("***kəvir***" farsca "şoranlıq" deməkdir) əlaqələndirirlər. Oronim *"şoran çökəklik dərə"* mənasındadır.

## KƏRBƏLAYI HƏSƏN BAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Kərbəlayı Həsən bağı*** adlanır. Bu coğrafi ad ***Kərbalayı Həsən*** adlı şəxsin adından və ***bağ*** sözündən ibarətdir. Bu bağda çoxlu sayda meyvə ağacları vardır. ***Bağ*** onun qurucusu olan ***Kərbalayı Həsən*** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Bu tipli coğrafi adlara rayonun digər ərazilərində də rast gəlmək mümkündür.

## KƏRİM QIŞLAĞI

Dağ Tumas kəndindən 6 kilometr məsafədə, Dəyirman yolunun alt hissəsində, gündoğan qayalıq ərazidə qeydə alınan oronimlərdən biri ***Kərim qışlağı*** adlanır. Qışlağın arxa tərəfi iri təpəlikdən ibarətdir. ***Kərim qışlağı*** oroqrafik obyekti ***Kərim*** şəxs adından və qışlaq sözündən əmələ gəlmişdir. Toponim *"Kərimə məxsus olan qışlaq"* anlamındadır.

***Qışlaq*** - mal-qaranın qışladığı otlaq sahəsidir. ***Qışlaqlar*** maldarlıq təsərrüfatının meydana çıxması ilə əlaqədar yaranmışdır. Qarabağ, Şirvan, Muğan, Mil və s. ərazilər qoyunçuluğun qədim qışlaqlarından hesab edilir. Soyuq havalarla əlaqədar mal-qara təxminən ***8*** ay qışlaqlarda saxlanılır və otarılır. Təqribən ***6 000*** illik tarixi olan qışlaqlardan heyvandarlıq təsərrüfatında indi də geniş istifadə edilir.





## KƏRPİCLİ JİLDOM

Cəbrayıl şəhərində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Kərpicli jildam*** adlanırdı. Bu yaşayış binasında 16 ailə qalırdı. Birmərtəbəli və uzun bu kommunal yaşayış evi çiy kərpicdən tikildiyi üçün orada və yaxın ətrafda yaşayanlar arasında beləcə - ***Kərpicli jildam*** adını almışdı.

## KƏRTDƏŞ YER

Cəbrayıl rayonunun ərazisində, Çullu kənd yolunun üstündə torpağı qırmızı rəngdə olan gilli sahə ***Kərtdəş yer*** adlanır. Yerli sakinlərin mənə verdikləri məlumatlara görə, keçmiş zamanlarda kənd camaatı buradakı gildən gətirib tikinti işlərində istifadə edirlər. ***Kərt (kərd)*** sözünün fars dilində *"əkilmiş tarla", "lək", "gərdi", "meşənin qurulmaq üçün ayrılmış sahəsi"* mənaları da vardır.

## KİRİŞDİK

Qalacıq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Kirişlik*** adlanır. Yerli şivəyə uyğun olaraq bəzən onun adına ***Kirişdik*** də deyirlər. Bəzi tədqiqatçılar bu coğrafi adı ***Çirişlik (Çirişdik)*** sözü ilə əlaqələndirirlər. Oronim haqqında müxtəlif mülahizələr, rəvayətlər uydurulmuşdur. ***Çiriş*** (***kiriş***) bitkisinin adı ilə bağlı Azərbaycanın digər rayonlarında da bir sıra oronimlər qeydə alınmışdır.

## KİRPİK QUZEY

***Kirpik quzey*** oronimi Cəbrayıl rayonunun Qalacıq kəndində qeydə alınmışdır. Bəzən toponim yerli şivəyə uyğun olaraq **Kiprik quzey** kimi də səsləndirilir. ***Quzey*** coğrafi termini – *"dağın, təpənin şimal yamacı, günəş şüası düşməyən kölgəli tərəfi"* deməkdir. Bu söz türk dillərində *"şi-*

*mal"* mənasında işlənir. ***Kirpik quzey*** zahiri görünüşü, coğrafi relyefinə görə belə ad almışdır.

## KİRPİLİ YAL

Dağ Tumas kəndinin yaxınlığında, kəndin sol cinahının qənşərində qeydə alınan oronim ***Kirpinin yalı*** adlanır. ***Kirpili yal*** oronimi iri təpədən ibarətdir. Bu coğrafi ad ***kirpi*** heyvan adından və ***yal*** coğrafi terminindən əmələ gəlmişdir. Vaxtilə bu təpədə, yalda ***kirpiyə*** rast gəlindiyi üçün oronim belə adlandırılmışdır. Toponim *"kirpi olan təpə yalı"* anlamındadır. Toponimin tərkibindəki ***yal*** sözü müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə edilir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***yal*** coğrafi termininin iştirak etdiyi ***600*** oronim qeydə alınmışdır.

## KOL OCAĞI

Qaracallı kəndi ilə kəndin Qışlaq adlanan ərazisində yerləşən oroqrafik obyekt ***Kol ocağı*** adlanır. *Kol ocağı* üzüm bağının ortasında olan ***kol*** topasından ibarətdir. *Ocağın* mənşəyi ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bu ***ocaq*** ətrafda yaşayan əhali tərəfindən əziz tutulur. ***Kol ocağı*** Qaracallı kənd camaatının inam və inanc yeridir.

## KOL PİRİ

***Kol piri*** Dağtumas kəndində 3 kilometr məsafədə, Gədə yolunun altında, Dəli yarğan ilə Gədədən Qəhrəman yurduna dönən yolun arasında yerləşir. *Kol piri* iri çevrəsi olan qaramux kolundan ibarətdir. Elə bu səbəbdən də ***Kol piri*** adlanır. Pirin mənşəyi qeyri-müəyyəndir. Onun kölgəsində əsasən yolçular oturar, istirahət edər, ocağa niyyət edərək dualar oxuyardılar. ***Kol piri*** yerli əhali tərəfindən əziz tutulan pir-ocaqlardandır.





Məlumdur ki, ***pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənalarını ifadə edir.

## KOLLU DƏRƏ

Qalacıq kəndi ətrafında qeydə alınan oronimlərdən biri ***Kollu dərə*** adlanır. Toponim ***kol*** və ***dərə*** sözlərindən, eləcə də ***-lu*** şəkilçisindən ibarət olub, *"kol-kasla dolu olan dərə"* mənasını bildirir. Doğrudan da həmin ərazi kolluqlardan ibarətdir. Məhz elə bu səbəbdən də oronim belə ad almışdır.

***Dərə*** - xətti istiqamətdə uzanan, əksərən qeyri-bərabər enən mənfi relyef formasıdır. *Dərələr* adətən axar suların eroziya fəaliyyəti nəticəsində, daxili və xarici proseslər əsasında yaranır. ***Dərələr*** üçün səciyyəvi cəhət bir başdan o biri başa kimi əsasən maili olmasıdır. ***Dərə*** coğrafi termini *"çay yatağı", "çayın axdığı yer", "uzun dərin süxur"* və s. mənalar daşıyır. Azərbaycan Respublikası ərazisində ***dərə*** termini ilə əlaqədar çöl materialları içərisində ***30 000*** oronim toplanmışdır.

## KOMA YALI

Cəbrayıl rayonunun ərazisində, Qarağac kəndinin arxa tərəfində, dörd tərəfi meşəlik, zirvəsi isə çəmənlik olan çox hündür təpə ***Koma yalı*** adlanır. Oronim ***koma*** sözündən, ***yal*** terminindən və ***-ı*** şəkilçisindən ibarətdir. ***Yal*** – müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə edilir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***yal*** coğrafi termininin iştirak etdiyi ***600*** oronim qeydə alınmışdır.

***Koma yalı*** coğrafi adı ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bir rəvayətə görə, ***Koma yalı*** Əmir Teymurun oğlu Miranşahın gözətçi dəstələrinin qaraul, keşik çəkdikləri yer olubdur. Qoşun hissələri ***yalın*** ətəyindəki kiçik ***komalarda*** yerləşirmiş. Deyilənə görə elə o zamandan da yerli əhali bu yüksəkliyi ***Koma yalı*** adlandırmışdır.

## KOR BULAQ

Sofulu kəndindən cənubda, Dağ Tumas kəndindən Hovuslu kəndinə gedən maşın yolunun üstündə, dağətəyi ərazidə qeydə alınan hidronim ***Kor bulaq*** adlanır. *Kor* bulağın suyu sızqa olsa da, şirin və soyuqdur. Bu coğrafi ad ***kor*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Hər dəfə sel gələndə bulağın gözü tutulduğundan ona ***Kor bulaq*** adı verilmişdir. Adətən yay aylarında, quraqlıq zamanlarda quruyan və ya gözü tez-tez tutulan, yəni susuz qalan belə bulaqlara el arasında ***Kor bulaq*** deyirlər.

Ağdam, Füzuli, Gədəbəy, Xocalı, Kəlbəcər, Laçın, Şuşa və digər rayonların ərazilərində də ***Kor bulaq*** hidroniminə rast gəlirik.

## KORA DƏRƏSİ

***Kora dərəsi*** oronimi Cəbrayıl rayonunun Yarəhmədli kəndi ərazisində qeydə alınmışdır. Qədim türk sözü olan ***kora*** (***qura***) termini "*mal-qara üçün tövlə*", "*qışlaqda düşərgə yeri*", "*qoyun saxlamaq üçün pəyə*" və s. mənalarda işlənir. Oronimiyamızda ***kora*** sözü ilə əlaqədar çöl materialları içərisində ***150*** oroqrafik obyekt qeydə alınmışdır.

XVIII əsrin ortalarında Göyçə mahalında ***Koratağ*** adlı kənd də olmuşdur...

## KOSA QƏNBƏR PİRİ

Dağtumas kəndindən bir qədər aralıda, Gəyən düzündə, Qara qayanın arxasındakı təpə üstündə daş hasara alınmış qəbir ***Kosa Qənbər piri***





adlanır. Toponim ***kosa***, ***Qənbər*** və ***pir*** sözlərindən ibarətdir. Burada ***Kosa Qənbər*** adlı mömin, ruhani bir şəxs dəfn olunmuşdur. ***Kosa Qənbər piri*** Cəbrayıl rayonu ərazisində kəramətli pirlərdən hesab olunur.

Məlumdur ki, Azərbaycanda ***pir-ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən sonralar ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.

***Pirlər*** əhali tərəfindən müqəddəs tapınaq yeri hesab olunur. ***Pir*** sözü farsca "*nurani qoca*", "*müqəddəs*", "*dini icmanın başçısı*" və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim, hidronim və ***37*** yaşayış məntəqəsi (*oykonim*) vardır.

## KOŞDƏRƏ

Bu oronim Cəbrayıl rayonunun Süleymanlı kəndi ərazisində qeydə alınmışdır. ***Koşdərə*** sözü ***koş*** ("*müvəqqəti köç yeri*") terminindən və ***dərə*** sözündən ibarət olub, "*köç yeri dərəsi*" mənasındadır. ***Koş*** (***xoş***) sözü türk dillərində "*maldar elin yaylaq düşərgəsi*", "*köç yeri*", "*müvəqqəti yurd yeri*", "*düşərgə*" və s. mənalar kəsb edir. Keçmişdə yaylaq yerlərində maldarların yaşadıqları yer türk dillərində ***koş*** ("*düşərgə*") adlanırdı. Bu sözlə əlaqədar respublikamızda ***50*** oronim qeydə alınmışdır.

## KÖHNƏ KƏHRİZ

Cəbrayıl rayonunun Daşkəsən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Köhnə kəhriz*** adlanır. Hidronim ***köhnə*** sözündən və ***kəhriz*** hidronimik apelyativindən əmələ gəlmişdir. Bu kəhrizin vurulma tarixi dəqiq məlum deyildir. Görünür işğaldan əvvəl ərazidə *təzə* vurulmuş *kəhriz* də mövcud olmuşdur. Bu tipli toponimlərə digər rayonların ərazilərində də rast gəlmək olar.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## KÖHNƏ QIŞLAQ

Cəbrayıl rayonunun Qalacıq kəndi yaxınlığında qeydə alınan toponimlərdən biri ***Köhnə Qışlaq*** adlanır. Yerli məlumata görə, qədim Qalacıq kəndi məhz bu ərazidə mövcud olmuşdur. Toponim ***köhnə*** və ***qışlaq*** sözlərindən ibarət olub, *"keçmiş qışlaq yeri"* anlamındadır. Əvvəllər burada yaşayış məntəqəsi salındığı üçün ***Köhnə Q***ışlaq adlanmışdır.

***Qışlaq*** – mal-qaranın qışladığı əraziyə, otlaq sahəsinə deyilir. ***Qışlaqlar*** maldarlıq təsərrüfatı ilə əlaqədar yaranmışdır. Qarabağda, eləcə də Cəbrayıl rayonunun ərazisində qoyunçuluğun qədim qışlaqları olmuşdur. Soyuqlarla əlaqədar olaraq mal-qara qışlaqlarda 7 - 8 ay saxlanılıb-otarılır. İqliminin mülayimliyi, örüş yerlərinin genişliyi, yem ehtiyatının bolluğu qışlaqlar üçün əsas səciyyəvi xüsusiyyətlərə malikdir. Qışlaqlardan istifadənin təxminən ***6 000*** il yaşı vardır. Qışlaqlarda əvvəllər binələr salınır, sonralar isə onlar tədricən daimi yaşayış məntəqələrinə çevrilirdi. Rayondakı ***Köhnə Qışlaq*** oykonimi də vaxtilə eləcə yaranıb formalaşmışdır...

## KÜFÜLYATAQ KƏHRİZİ

Cəbrayıl rayonunun Hacılı kəndi ərazisində qeydə alınmı hidronimlərdən biri ***Küfülyataq kəhrizi*** adlanır. Əslində kəhrizin adı ***Kühülyataq*** şəklində yazılmalıdır. Hidronim ***küfül***, ***yataq*** və ***kəhriz*** sözlərindən





ibarətdir. Bu kəhrizin soyuq və dumduru suyu vardır. Deyilənə görə, ***kəhriz*** 1900-cü ildə vurulmuşdur.

***Kühül*** (yerli əhali bu sözü çox zaman ***küfül*** şəklində tələffüz edir) sözü *"qədim ev tipi"*, *"süni düzəldilmiş yeraltı yaşayış məskəni"* anlamını ifadə edir. ***Kühüllər*** keçmiş zamanlarda Azərbaycanda (xüsusilə Şirvanda) geniş yayılmışdır. Sonralar yaşayış əhəmiyyətini itirən kühüllərdən təsərrüfat binası kimi istifadə edilmişdir.

***Yataq*** sözü davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililəri olan xüsusi sahə anlamını bildirir. Qədim zamanlardan məlum olan yataqlarda yaylaqda əsasən daşdan, aranda isə müxtəlif qamış, ağac, daş, qarğı və s. materiallardan tikilən ağıl, xalxal və s.-dən ibarətdir. ***Yataqlar*** adətən yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın olan yerlərdə salınır.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## KÜRD DƏRƏSİ

***Kürd*** etnonimi ilə bağlı oykonimlər, oronimlər və hidronimlər Azərbaycanın müxtəlif ərazilərində qeydə alınmışdır. Bu etnonim bəzi oronimlərdə də öz əksini tapmışdır. Bunlardan biri də Cəbrayıl rayonunun Sofulu və Həsənqaydı kəndləri ərazisində qeydə alınmış ***Kürd dərəsi*** oronimidir. ***Dərə*** - bir başdan o biri başa qədər maili, əyri-üyrü, nisbətən dar və uzunsov çökək formalı yerə deyirlər. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Dərə*** mənfi relyef forması bildirən coğrafi termini və ***kürd*** etnonimi ilə bağlı Gədəbəy rayonunda, eləcə də Xocavənd

rayonunun Kert kəndi ərazisində ***Kürd dərəsi*** oronimi qeydə alınmışdır.

Azərbaycan Respublikasının ərazisində qeydə alınan *Kürdqobu çayı* (Ağsu və Kürdəmir rayonlarının ərazilərində), *Kürd meşəsi* (Bərdə rayonu, Əmirli kəndi), *Kürd düzü* (Qubadlı rayonu, Qundanlı kəndi), *Kürd qəbri yalı* (Qubadlı rayonu, Göyyal kəndi), *Kürd çökəyi* (Daşkəsən rayonu, Əmirvar kəndi), *Kürd dağı* (Zaqatala rayonunda, Hamamçay çayı kənarında), *Kürd navı* (Zəngilan rayonu, Sarılıxəştab kəndi), *Kürdün quzeyi* (Kəlbəcər rayonu, Bağırlı kəndi), *Kürd qobu* (İsmayıllı rayonu), *Kürd güneyi* (Kəlbəcər rayonu), *Kürd dağı* (Şəki rayonu) və başqa bu kimi oronimlər də ***kürd*** etnonimi ilə əlaqədardır.

## KÜRDLƏR BULAĞI

Qəbilə və ya tayfa adları ilə bağlı əmələ gəlmiş hidronimlərə Cəbrayıl rayonunun ərazisində də rast gəlirik. Belə hidronimlərdən biri də rayonun Kürdlər kəndi ərazisində qeydə alınan ***Kürdlər bulağı*** adlanır. Bulağın soyuq və dumduru suyu vardır. ***Bulaq*** ərazidəki ***Kürdlər*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Kürd dərəsi, Kürdlər kəndi.**

## KÜRDLƏR KƏNDİ

***Kürdlər kəndi*** Cəbrayıl rayonunuda, rayon mərkəzindən 8 kilometr şimai-qərbdə, Xəlfəli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 170 nəfərdir. Taxılçılıq, heyvandarlıq və üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə kitabxana, ibtidai məktəb, klub və s. vardı. ***Kürdlər*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Bəzi məlumatlara görə, ***Kürdlər*** yaşayış məntəqəsini 1887-ci il tarixdə Cənubi Azərbaycanın, Qaradağın Çələbiyanlı elindən çıxmış ailələr salmışlar. Bəzi mənbələrdə Çələbian elinin Ərzurumdan (*Türkiyə*) gəlmələri də göstərilmişdir. Çələbian elinə mənsub olan tirələr əvvəlcə Cəbrayıl rayonunun Xudayarlı kəndində məskunlaşmış (*onlardan Soltanlı kəndində də məskunlaşan olubdur*), sonralar onlardan bir neçə ailə indiki ***Kürdlər*** kəndinin əsasını qoymuşdur. Kəndin əsasını qoyan həmin tirəyə mənsub olan ailələr buraya müəyyən inciklik və mübahisə zəminində gəldikləri üçün özlərinin saldıqları yaşayış məntəqəsinin adının nədənsə ***Kürdlər*** adlanmasını lazım bilmişlər. Onların ***kürd*** qarışıqları olmasa da, hansı səbəbdənsə özlərini "***kürd***" kimi qələmə vermişlər. Əslində kənd sakinlərinin kürdlərlə heç bir etnik əlaqəsi yoxdur. Kənd camaatı Əhmədli türk tayfasına məxsusdur. Vaxtilə Zəngəzur qəzasından bəzi obalar kəndin ərazisindəki qışlaq yerinə gələrdilər. 1922-ci ildə çap edilmiş Azərbaycanın yaşayış məntəqələrinin siyahısında kəndin adı ***Hacıisaqlı*** kimi qeydə alınmışdır. ***Kürd/kərt*** sözünün fars dilində "*qoçaq, igid, bahadır*" mənaları da vardır.

Respublikamızın ərazisində irandilli tayfalardan olan kürdlərin də müəyyən dövrlərdə Azərbaycanın bir sıra zonalarına miqrasiyası və məskunlaşmaları nəticəsində yaranan və onların etnik adını daşıyan təkrarlanan etnotoponimlərə də rast gəlinir. ***Kürd*** etnonimi ilə əlaqədar Qəbələ və Göyçay rayonlarında *Kürd kəndi*, Şərur rayonunda *Kürdkənd kəndi*, Göyçay rayonunda *Kürdəmiş kəndi*, Ağdam, Ağcabədi, Cəbrayıl, Cəlilabad və Füzuli rayonlarında *Kürdlər kəndi* və s. oykonimlər, eləcə də onlarla digər oronimlər qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Kürd dərəsi.**

## "Q"

### QABAQ DÜZ

***Qabaq düz*** coğrafi adı Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınmışdır. ***Qabaq*** (***kapak***) sözü qədim türk dillərində *"təpə"*, *"dağ silsiləsi"* mənalarında işlənir. Toponimiyamızda ***qapaq*** termini *qabaq* sözü kimi də işlədilir. ***Qabaq*** temini ilə bağlı *Qabaq düz* (Xocavənd rayonu, Dolanlar kəndi), *Qabaqdağ* (Daşkəsən və Kəlbəcər rayonları), *Qabaqyal* (Gədəbəy rayonu, Samanlıq kəndi; Tovuz rayonu, Girən kəndi), *Qapaq quzey* (Gədəbəy rayonu, Gərməşədlü kəndi), *Qabaqtəpə* (Qazax, Laçın, Şəmkir rayonları) və s. oronimlər qeydə alınmışdır. Şərur-Dərələyəz qəzasında *Qabaq yal* adlı dağ da var.

### QAÇAQ QƏBRİ

Cəbrayıl rayonunun Dağ Tumas kəndindən 4 kilometr aralıda, Qara mərəkə ilə meşənin kəsişdiyi yerdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qaçaq qəbri*** adlanır. Yerli əhalinin mənə verdikləri məlumatlardan aydın olur ki, bu ***qəbir*** XX əsrin 20-30-cu illərində ***qaçaqlıq*** həyatı yaşayan, rus əsgər-zabitlərinə qarşı barışmaz olan və onlarla mübarizə apararkən qəhrəmanlıqla həlak olan bir nəfərə məxsusdur. Burada dəfn olunmuş həmin adam ***qaçaq*** həyatı yaşadığı üçün sonralar bu ***qəbir*** də ***Qaçaq qəbri*** coğrafi adını almışdır.

### QALA DAĞI

***Qala dağı*** oronimi Cəbrayıl rayonu ərazisində, Havuslu və Qalacıq kəndlərinin yaxınlığında qeydə alınmışdır. ***Qala*** coğrafi termini ümumiyyətlə, oronimlərdə əsasən dağlıq ərazilər üçün səciyyəvidir. ***Qala*** termini ilə müsbət relyef bildirən ***dağ*** termini birləşərək ***Qala dağı*** coğrafi adını





əmələ gətirmişdir. Respublikamızda ***qala*** yaşayış məntəqə tipi bildirən sözlərlə əlaqədar təxminən ***600*** oronim qeydə alınmışdır. Qalaların yerləşdiyi, yaxud xarabalıqları qalmış əraziləri əhali tərəfindən sadəcə olaraq "***Qaladağ***" adlandırılır.

Respublikamızda, Astara rayonunun Miki kəndində, Kəlbəcər rayonunun Çaykənd kəndində, Xocavənd rayonunun Dağdaş kəndində və s. ərazilərdə də ***Qala dağı*** coğrafi adına rast gəlmək olar.

### QALA YERİ

***Qala yeri*** oronimi Cəbrayıl rayonu ərazisində, Diridağla üzbəüz sahədə qeydə alınmışdır. Bu ərazidə çoxlu qədim ***qalaların*** xarabalıqları da vardır. Xalq arasında ***Qala yeri*** adlanan bu sahədə vaxtilə alban kilsəsi və monastırı olmuşdur. *Tiri* kilsəsində saxlanılan qurudulmuş cəsəd tarixi qaynaqlara görə, Albaniyada xristianlığı yaymış missioner Pandalionundur. Toponim *"qala ilə əhatələnmiş yer"* mənasındadır.

### QALACIQ DAĞI

Cəbrayıl rayonu ərazisində, Doşulu kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qalacıq dağı*** adlanır. Oronim yaxınlıqda yerləşən yaşayış məntəqəsinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim ***qala*** sözündən və *"kiçiltmə"* mənasını ifadə edən **-cıq** komponentindən ibarətdir. ***Qalacıq*** toponimi *"kiçik qala dağı"* anlamındadır. Laçın rayonunun Zerti kəndi ərazisində də *Qalacıq dağı* oronimi qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Qalacıq kəndi.**

### QALACIQ KƏNDİ

***Qalacıq kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 29 kilometr qərbdə, Havuslu (*Hovuzlu*) inzibati ərazi vahidində, Araz çayının qolu olan Çaxmaq çayının sahilində, dağlıq zonada, Qarabağ silsiləsinin ətə-

yində yerləşir. Yaşayış məntəqəsinin adını bəzən ***Qalaçıq*** formasında da yazırlar. Əhalisinin sayı 400 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq və bağçılıqla məşğul olurdu. Kənddə əsas məktəb, kitabxana, klub, dəyirman, kəhriz, bulaq, ticarət-iaşə obyekti, Tunc dövrünə aid olan *"Məscid təpəsi"* arxeoloji kurqan abidəsi, *"Qumtəpə"*, *"Canqulu"* kurqanları və s. vardı. Kəndin ərazisində *Əhməd dərəsi, Babaşın kühülü, Dağdağan piri, Ərik piri, Çələbilərin çevirməsi, Çinar kəhrizi, Donuz dərəsi, Hacısanlı tut bağı, Sarı dərə, Məscid təpəsi, Murad bulağı, Murad burnu, Çaxmaq çaylağı, Çaxmaq dərəsi, Cəbrayıl bağı, Kalafalıq, Kəmər qaya, Kollu dərə, Gilaslıq, Adamölən dərə, Qala dağı, Dikdaş, Bulaqlı dərə, Alma bağı, Səngər yalı, Sutökülən dərə, Qaraquzey, Muncuqtapılan yal, Nəfəsçıxan dağ, Qovşudlu yurdu, Nalbənd qaya təpəsi, Kirişdik, Köhnə qışlaq, Həvəzə nənə piri, Həvəzə nənənin nişangahı, Şıx-Ata qəbri, Marahanlı düzü, Çinardibi kəhrizi, Aşıq Məmməd bağı* və s. toponimlər qeydə alınmışdır. **Qalacıq** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Tarixdən məlumdur ki, vaxtilə ***qalacıqlılar*** adlı türk tayfaları mövcud olmuşdur. Görünür, toponim bu səbəbdən belə ad almışdır. ***Qalacıq*** yaşayış məntəqəsinin keçmiş adı ***Əhmədli*** olub. Kəndin əhalisi ***Əhmədli*** türk tayfasına (bəzi yazılı sənədlərdə bu tayfa ***Əhmədli eli*** də adlandırılır) məxsusdur.

***Qalacıq*** yaşayış məntəqəsi orta əsrlərə aid qədim ***Qala*** xarabalığının yaxınlığında salındığı üçün belə adlanmışdır. Toponimin tərkibindəki **-cıq** komponenti *"kiçiltmə"* anlamındadır. ***Qalacıq*** toponimi *"kiçik qala"* mənasındadır. Kəndin yaxınlığında müdafiə məqsədi ilə (*bəlkə də mal-qara saxlamaq* üçün) kifayət qədər iri sal daşları palçıqdan istifadə etmədən nizamla düzərək ucaldılan siklop tikintiləri (bunlara el arasında ***Təpəgöz qalalar*** deyirlər) bəlkə də sinifli cəmiyyətə keçidin nişanələridir.

Azərbaycan Respublikasının Qusar və İşmayıllı rayonlarında da ***Qalacıq*** adlı kənd var. İsmayıllı rayonunda ***Qalacıq*** adlı çay da vardır. Cəbrayıl rayonunun Doşulu kəndi ərazisində də ***Qalacıq dağı*** oronimi qeydə alınıb. Laçın rayonunun Zerti kəndi ərazisində ***Qalacıq dağı*** adlı oroqrafik obyekt də qeydə alınmışdır.

XVI - XVIII əsrlərə aid olan tarixi sənədlərə görə, həmin dönəmlərdə təkcə Qərbi Azərbaycanda (*Ermənistanda*) ***16*** adda ***Qalacıq kəndi*** mövcud olmuşdur.





## QALAÇA DƏRƏSİ

Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Qalaça dərəsi*** adlanır. Məlumdur ki, ***dərə*** - mənfi relyef forması ifadə edir. Oronim həmin *dərədə* xarabalığı qalmış *"kiçik qala"*nın adı ilə əlaqədar olaraq belə ad almışdır. Oronimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir.

***Qalaça dərəsi*** oroniminə Qusar və İsmayıllı rayonlarının Qalacıq kəndləri ərazisində, Gədəbəy rayonunun Şurakənd kəndi ərazisində, Ordubad rayonunun Qoşa Dizə kəndi ərazisində və başqa ərazilərdə də rast gəlinir.

Vaxtilə İrəvan əyalətinin Dərəkənd-Parçenis, Abaran, Şirakel mahal və nahiyələrində də ***Qalaça*** oykonimi qeydə alınmışdır.

## QALALILAR MƏHƏLLƏSİ

Cəbrayıl şəhərinin mərkəzi hissəsində, uşaq bağçası yaxınlığındakı ensiz asfalt yolun sağ və sol tərəfində yerləşən ərazi ***Qalalılar məhəlləsi*** adlanırdı. Bu məhəllədə bir-birinə yaxın çiy kərpicdən tikilmiş çoxlu sayda birmərtəbəli evlər var idi. Hər bir evin küçəyə açılan qapısı yaxınlığında əsasən yazda və yayda axşamlar oturub dincəlmək, istirahət etmək üçün oturacaqlar düzəldilmişdi.

***Qalalılar məhəlləsi*** adından da göründüyü kimi ***qalalılar*** və ***məhəllə*** sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Yerli əhalinin dediklərinə görə, vaxtilə burada Şuşadan (Şuşadan olanlara el arasında çox vaxt ***qalalı*** *da deyilir*) olan bir neçə ailə məskunlaşdığı üçün toponim belə ad almışdır.

## QAMIŞLI BULAĞI

Dağ Tumas kəndinin yaxınlığında, İnəkdoğan yalının günbatan ətəyində, İnəkdoğan dərəsində, Narlıq bulağından 550 metr qərbdə, dağətəyi ərazidə qeydə alınan hidronim ***Qamışlı bulağı*** adlanır. Bu qaynama

bulağın şirin və soyuq suyu vardır. Hidronim ***qamış*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Bulağın yerləşdiyi ərazi ***qamışlıq*** olduğundan o, belə adlandırılmışdır. ***Qamışlı bulağı*** toponimi *"qamışlı yerdə olan bulaq"* anlamındadır.

## QAMIŞLI DƏRƏ AYAĞI

***Qamışlı dərə ayağı*** oronimi çox güman ki, öz adında Qızılbaşların ***qaradağlı*** tayfasının ***komuşlu*** tirəsinin adını əks etdirir. Toponimi Cənubi Azərbaycanın ***Komuş*** əyalətindən gələnlərlə də əlaqələndirirlər.

Metafor strukturlu ***Qamışlı dərə ayağı*** oronimi Cəbrayıl rayonunun Cəfərabad kəndi ərazisində qeydə alınmışdır. ***Ayaq*** metafor termini oronimiyada *"dağın düzənliklə birləşdiyi zolaq"*, *"dağın, dərənin, çayın qurtaracağı"*, *"son, axır, qurtaracaq"* və s. mənaları bildirir. ***Ayaq*** termininin iştirakı ilə Azərbaycanda ***50*** oronim toplanmışdır. Cəbrayıl rayonunun Yarəhmədli kəndi ərazisində də bu qəbildən olan ***Atpiri dərəsi ayağı*** oronimi qeydə alınmışdır.

***Qamışlı d***ərə ayağı toponimini Şərqi Türkiyənin ***Kamis (Kamış)*** mahalından gəlmiş ailələrin özləri ilə gətirdikləri ad ilə də bağlayanlar var.

## QAMIŞLIQ

Cəbrayıl rayonunun Maşanlı kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qamışlıq*** adlanır. Toponim ***qamış*** sözündən və ***-lıq*** şəkilçisindən ibarətdir. ***Qamışlıq*** coğrafi adı orada bitən ***qamış*** bitkisinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Bəzi araşdırıcılara görə quruluşca düzəltmə ***Qamışlıq*** oronimi etnotoponimdir.

Ağdaş, Beyləqan, Füzuli, Hacıqabul, İmişli, Kürdəmir, Sabirabad, Ucar və s. rayonların ərazilərində də ***Qamışlıq*** toponiminə rast gəlirik.

Əlavə məlumat üçün bax: **Qamışlı dərə ağzı.**





## QAMQALAQLI TƏPƏ

Qazanzəmi kəndinin yaxınlığında, yaşayış məntəqəsinin qərb hissəsində, Kiçik Həkəri çayına enən yamacda qeydə alınan oroqrafik obyektlərdən biri ***Qamqalaqlı təpə*** adlanır. Oronim ***qamqalaq*** və ***təpə*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. Burada vaxtilə kənd sovetinin inzibati binasının tikintisi üçün qırılan milləri yonarmışlar və bu səbəbdən də yerdə çoxlu ***qamqalaq*** qalarmış. Məhz elə bu səbəbdən də toponim belə ad almışdır.

## QANLI GÖL

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qanlı göl*** adlanır. Bəzən sənədlərdə bu hidronim ***Qanlıgöl*** kimi də yazılır. Mürəkkəb hidronim olan ***Qanlıgöl*** hidronimi ***qan*** sözündən, ***-lı*** şəkilçisindən və ***göl*** hidronimik apelyativindən əmələ gəlmişdir. ***Qanlı*** adı gölə vaxtilə ətrafında baş vermiş bədbəxt hadisələrlə əlaqədar verilmişdir. ***Qanlı göl*** (***Qanlıgöl***) adının paralellərinə Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlirik. Bakı şəhərində, eləcə də Tərtər, Şahbuz, Şamaxı və digər rayonların ərazilərində də ***Qanlıgöl*** coğrafi adına rast gəlinir.

## QARA BABA PİRİ

***Qara Baba piri*** rayonun Dağ Məzrə kəndinin ərazisindəki eyniadlı yalın üstündə qeydə alınmışdır. ***Qara Baba piri*** daş hərləmədən ibarətdir. Hərləmənin içərisində qaramux kolu bitir. Ziyarətə gələnlər hərləmənin başına dolanaraq niyyət edir, həmin qaramux kolunun qol-budağına rəngbərəng parça qırıntıları bağlayırdılar. Yerli camaat bu ***piri*** müqəddəs hesab edirdilər. ***Qara Baba piri*** ilə bağlı yerli əhali arasında müxtəlif əfsanələr dolaşmaqdadır...

## QARA BULAQ

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Qara bulaq*** adlanır. ***Qara*** bulağın dumduru, şəffaf, soyuq və şirin suyu vardır. Yerli əhalinin dediklərinə görə, bu bulağın insan sağlamlığı üçün keyfiyyətli olan suyu müalicə əhəmiyyyətlidir. Hidronim ***qara*** və ***bulaq*** sözlərindən ibarətdir. Hidronimin tərkibindəki ***qara*** sözü rəng və böyüklük bildirir. ***Bulaq*** komponenti hidronimik apelyativdir. Toponim *"qara rəngli böyük bulaq"* anlamındadır.

## QARA DAŞ

***Qara daş*** oroqrafik obyekti Araz Maşanlı ilə Alıkeyxalı kəndlərinin arasında, keçmiş kolxoz qarajının üst tərəfində qeydə alınmışdır. Bu *inanc yeri* iki böyük daşdan ibarətdir. Obyektin ətrafı iydə ağacları ilə əhatə olunmuşdur. Buranı ziyarətə gələnlər adətən niyyət edib çıraq yandırardılar. Yerli məlumatlara görə, bu sahə qədim zamanlarda *Sarı Mərmər* nənənin oturaq yeri olmuşdur. Ətraf kəndlərin camaatı ***Qara daş*** inanc yerini çox əziz tutardı.

## QARA MOLLA PİRİ

El arasında adına ***Qara Molla piri*** deyilən bu ocaq Daşkəsən kəndinin girəcəyində, iki quru çaylağın qovuşağında yerləşir. Bu ***pir*** daş hasara alınmış, qabıq qoymuş yaşlı saqqız ağacından ibarətdir. Hasarın girişindən içəri tərəfdə ocaq yeri, ətrafında daşlar vardır. Buranı ziyarətə gələnlər daşların üstündə şam yandırar, niyyət edib ağacın qanadlarına parça qırıqları bağlayardılar. ***Qara Molla piri*** haqqında müxtəlif rəvayətlər uydurulmuşdur.





## QARA OYUQ OCAĞI

Rayonun ərazisində, Qovşudlu kəndinin kövşənində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qara oyuq ocağı*** adlanır. Bu ***oyuq-ocaq*** bir metr hündürlüyü və içərisi ***oyuq*** olan yerə bitili ***qara*** dik daşdır. ***Qara*** daşın özünəməxsus hərləməsi vardı. Ziyarətə gələnlər adətən bədənlərinin ağrıyan nahiyələrini həmin daşa sürtər, ocaqdan özlərinə şəfa diləyərdilər. Oronimin tərkibindəki ***ocaq*** komponenti *"müqəddəslik"* anlamındadır. Azərbaycanda ***pir-ocaq*** kultu tarixin çox qədim çağlarına gedib çıxır. Əsrlər keçsə də, *pir-ocaq* inanışı Azərbaycanda yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar adətən qutsal sayılır. Keçmişdən bizlərə yadigar qalan ***ocaqlar, pirlər*** insanlar tərəfindən ziyarətgahlara çevrilmişdir.

Rayonun digər şəfa ocaqları kimi ***Qara oyuq ocağı*** da uzun illərdir ki, erməni əsirliyində inləməkdədir...

## QARAAĞAC DƏRƏSİ

***Qaraağackimilər*** fəsiləsindən yarpağı tökülən boz qəhvəyi - qabıqlı ***qaraağac*** bitki cinsinin adı ilə Azərbaycanda çoxlu oykonim və oronimlər yaranmışdır. Cəbrayıl rayonunun Horovlu kəndinin ərazisində qeydə alınan bu tipli oronimlərdən biri ***Qaraağac dərəsi*** adlanır. Oronim ***qaraağac*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"qaraağac bitkisi olan dərə"* anlamındadır. Kəndin məhsuldar əkin sahələrindən biri olan ***Qaraağac dərəsi*** Sarıocaq ziyarətgahından başlayaraq keçmişdə (*XX əsrin ortalarına qədər*) mövcud olmuş Qaradərə kəndinə qədər olan böyük bir ərazini əhatə edir. Yerli məlumata görə, vaxtilə bu ərazidə böyük bir bağ mövcud olmuşdur. Həmin bağda çoxlu sayda ***qaraağac*** olduğundan ona *Qaraağac bağı* deyilmişdir. Sonralar quraqlıq iqlimə dözə bilməyən bağ və onun ərazisindəki bulaqlar məhv olaraq sıradan çıxmış, bağ və ətraf yerlər ***dərə*** mənfi relyef formasına çevrilmişdir. Orada ancaq bəzi ***qaraağac*** bitkisi salamat qalmışdır.

## QARAAĞACBULAQ

Elə hidronimlər var ki, onların formalaşmasında ümumi fitonimlər əsas rol oynayır. Onlar toponimyaratma ilə yanaşı, hidroobyektin yerləşdiyi ərazinin hidronimdə adı çəkilən ağac və bitki növləri ilə zəngin olduğunu göstərir. Belə hidronimlərdən biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Qaraağacbulaq*** coğrafi adıdır. Hidronim ***qaraağac*** bitkisinin adından və ***bulaq*** apelyativindən əmələ gəlmişdir. Bu tipli hidronimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək olar...

## QARAAĞACLI PİRİ

***Qaraağaclı piri*** Şahvəlili kəndinin ərazisində, Qarasu adlanan sahədə, balaca bir təpə üstündə yerləşir. Bu ***pir*** daş hərləmədən ibarətdir. Pirin ətrafında çoxlu ***qaraağac*** bitkisi olduğu üçün ***Qaraağaclı piri*** adlanır. Qəbrinin yeri bilinməsə də, deyilənə görə bura şəhid olmuş bir mücahidin nişangahı, dəfn olunduğu yerdir. Yeli əhali bu yeri əziz tuturdu.

***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** sözü farsca *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim, hidronim və ***37*** yaşayış məntəqəsi (oykonim) vardır.

## QARABAĞ

Azərbaycanda Kiçik Qafqaz dağlarından başlamış Kür və Araz çayları arasındakı ərazini əhatə edən tarixi vilayət ***Qarabağ*** adlanır. Cəbrayıl rayonu da bütünlüklə Qarabağ tarixi vilayətinə (Yuxarı Qarabağ iqtisadi rayonuna) daxildir. ***Qarabağ*** ən qədim insan məskənlərindən biridir. Yaşı 1,2 - 1,5 milyon olan Quruçay mədəniyyəti, 400 000 ilə qədər yaşı olan Azıxantrop, Azıx və Tağlar mağaraları, Tunc dövrünün mədəniyyət abidəsi sayılan Xocalı-Gədəbəy abidələri və daha neçə-neçə qədim abidələr burada aşkarlanmışdır.





***Qarabağ*** qədim dövrdən Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. IV əsrdə Qarabağda xristianlıq yayılmağa başlamışdır. V əsrdə hunlar, VII əsrdə isə xəzərlər Qarabağda məskunlaşmışlar. VII-VIII əsrlərdə ərəb işğalından sonra burada islam dini yayıldı. Ərəb xilafətinin zoru və erməni kilsəsinin təzyiqi nətijəsində Qarabağın Xocavənd rayonunun da daxil olduğu dağlıq ərazisində (Arsaxda) yaşayan əhali tədrijən qriqorianlaşdı (xeyli sonralar onlar erməniləşdi). Arranda yaşayan əhali isə islam dinini qəbul etdi. IX əsrdən Babəkin başçılıq etdiyi azadlıq hərəkatı Qarabağı da bürümüşdü.

X əsrdə ***Qarabağ*** Şəddadilərin, XI əsrdə Səljuqilərin, XII əsrdə Eldəgəzlər dövlətinin tərkibində olmuşdur. XIII əsrdə monqollar Azərbayjanı işğal edirlər. XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olan Qarabağ 1501-ci ildə Səfəvilər dövlətinin tərkibinə keçir. Səfəvilər dövlətinin ən böyük ərazi inzibati bölgülərindən biri ***Qarabağ bəylərbəyliyi*** idi.

XVIII əsrin 40-cı illərində, Nadir şahın ölümündən sonra Azərbaycanda yaranan ən güclü feodal dövlətlərindən biri ***Qarabağ xanlığı*** idi. 1813-cü ildə bağlanmış *"Gülüstan"* sülh müqaviləsinə əsasən ***Qarabağ*** da Rusiyaya birləşdrilir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekretinə əsasən Qarabağın dağlıq hissəsində Azərbaycanın tabeliyində olmaq şərti ilə ' (1923-1991-ci illər) yaradılır...

***Qarabağ*** adı mənbələrdə 1284-cü ildən çəkilir. Erkən orta əsrlərdə Qarabağ düzü alban tayfası olan qarqarların adı ilə ***Qarqar düzü*** adlanırdı. Bəzi tarixçilər Qarabağ düzünün öz adını vaxtilə Qarabağda, Araz çayı kənarında, indiki Füzuli rayonunun ərazisində, Arayatlı və Babı kəndləri yaxınlığında mövcud olmuş ***Qarabağ*** şəhərinin adından aldığını göstərirlər. Onlar bu fikirdə Həmdullah Qəzviniyə (XIV əsr) əsaslanırlar. Adam Oleari (XVIII əsr) öz xəritəsində indiki Horadiz dəmiryol stansiyasından şərqdə ***Qarabağ*** adlı yaşayış məntəqəsinin adını qeyd etmişdir.

***Qarabağ*** adının ***qara ("böyük")*** və ***bağ*** *(qədim türk dillərində "el", "tayfa", "soy")* sözlərindən ibarət olduğunu güman edənlər də var.

Məlum olduğu kimi qədim kəngər-peçeneqlərin tərkibində ***qarabağ*** adlı tayfa da olmuşdur. Peçeneqlər hələ eramızın əvvəllərindən Azərbaycanda yaşamışlar. Məhz buna görə də bu adı ***(Qarabağ)*** həmin tayfanın adı ilə əlaqələndirirlər.

***Qarabağ*** toponimi geniş areala malikdir. Türkdilli xalqların toponimiyasında ***Qarabağlı*** (Özbəkistan), ***Qarabağ*** (Türkmənistan, Əfqanıstan, Şimali Qafqaz, Tacikistan, Türkiyə) və s. toponimlər qeydə alınmışdır.

Əlavə məlumatlar üçün bax: **Müqəddəs Qarabağım, Qarabağ düzü.**

## QARABAĞ ATLARI

Azərbaycanın ən qədim dağ minik cinslərindən olan ***Qarabağ*** atlarının şöhrəti bütün dünyaya yayılmışdır. Qarabağda yetişdirilən bu atların süysüyünün hündürlüyü 148,5 sm, döş qucumu 165,8 sm, əldarağının çevrəsi 18, 3 sm-dir. Qarabağ atları əsasən, qızılıkürən və kəhər atlardır. Onlar ortaboylu, mütənasib bədən quruluşlu, ilxı şəraitinə davamlı və ümumiyyətlə, çox dözümlü olurlar.

***Qarabağ atları*** vaxtilə baxış (yarış) üçün Rusiyaya, Polşaya, İngiltərəyə, Almaniyaya və s. ölkələrə aparılmış və hamını heyran etmişdir. Zaqafqaziyada və Şimali Qafqazda Müxtəlif at cinslərinin, o cümlədən, Don atının yaxşılaşdırılmasında Qarabağ atlarının böyük təsiri olmuşdur.

1946-cı ildən başlayaraq Azərbaycanın Ağdam Atçılıq zavodunda (Eyvazxanbəyli kəndində) cinslə damazlıq işi aparılır. XX əsrin Sovet dönəmində Ağdam rayonunun ərazisində 2 yerdə ***Qarabağ atları*** yetişdirilmişdir. Eyvazxanbəyli kəndi ərazisində yaradılan atçılıq təsərrüfatında Qarabağ atları cinsinin qorunması, yaxşılaşdırılması üçün çox işlər görülmüşdür. Vaxtilə SSRİ rəhbəri N.S.Xruşşov burada bəslənmiş ***Zaman*** adlı atı 1957-ci ildə İngiltərə kraliçasına bağışlamışdır *(həmin at vətən həsrətindən qəribsəyərək vaxtsız dünyasını dəyişmişdir).* XX əsrin 70-ci illərindən başlayaraq, İtaliya, Almaniya, Hollandiya, Avstraliya kimi ölkələrə onlarla Qarabağ atı satılıb və zavoda 100 min dollarla xeyir gəlib.

1992-ci ildə zavodda 85 cins at var idi. 1993-cü ildə Ağdam rayonu ermənilər tərəfindən işğal ediləndə ***Qarabağ atları*** da didərgin düşdü. Hazırda bu atlar Bərdə rayonunun Ləmbəran kəndi yaxınlığındakı qışlaqda çöl şəraitində saxlanılır. İndi onlar da vətəndən kənarda köçkün həyatı yaşayır...

Bu atlar Qarabağda bəslənib-yetişdirildiyi üçün onlara ***Qarabağ atları*** deyilir.





## QARABAĞ BƏYLƏRBƏYİLİYİ

Tarixdən məlumdur ki, Səfəvilər dövlətinin inzibati vahidlərindən biri də ***Qarabağ bəylərbəyiliyi*** olmuşdur. Bəzi sənəd və materiallarda onun adı Gəncə bəylərbəyiliyi kimi də qeyd olunmuşdur. Mərkəzi Gəncə şəhəri olan bu bəylərbəyiliyin ərazisinə indiki Cəbrayıl rayonunun əraziləri də daxil idi. Şirvan, Təbriz, Çuxursəd bəylərbəyilikləri, Kartli və Kaxeti ilə həmsərhəd olan Qarabağ bəylərbəyiliyi XVI əsrin I yarısında yaradılmışdır.

***Qarabağ*** bəylərbəyiliyini qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. Şahverdi Sultan ilk bəylərbəyi olmuşdur. 1588-ci ildə Səfəvi-Osmanlı müharibələri zamanı Osmanlı qoşunları Qarabağ bəylərbəyiliyinin ərazilərini tutdular. Gəncədə və digər şəhərlərdə Osmanlı qarnizonları yerləşdirildi. Şah Abbas (1587-1629) bir neçə dəfə Qarabağ bəylərbəyiliyini geri almağa səy göstərmişdir. 1606-cı ildə Şah Abbas Gəncəni alandan sonra Məhəmməd xanı Qarabağa bəylərbəyi təyin etdi. Şah Abbas hakimiyyətinin son illərində sərkərdə Allahverdi xanın oğlu Davud xanı bəylərbəyi təyin etdi. Bununla da Ziyadoğluları bəylərbəyilikdən kənar olundular. Amma Şah Abbasın vəfatından sonra Qarabağ bəylərbəyiliyinin idarəsi yenidən Ziyadoğullarına qaytarıldı.

Cəbrayıl rayonunun da daxil olduğu ***Qarabağ bəylərbəyiliyi*** ərazisində əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf etmişdir. Gəncə və digər şəhərlər mühüm ticarət və sənətkarlıq mərkəzləri idi. Qarabağ bəylərbəyiliyində pul da kəsilirdi. XVIII əsrin 40-cı illərində Qarabağ bəylərbəyiliyi ərazisinin çox hissəsində *Qarabağ* və *Gəncə* xanlıqları yaradıldı.

## QARABAĞ DÜZÜ

Cəbrayıl rayonunun da əhatə etdiyi Kür-Araz ovalığının bir hissəsi ***Qarabağ*** düzü adlanır. Hündürlüyü dağətəyi ərazidə 500 metrdir. Şimal-qərbdən Gəncə-Qazax düzənliyi, qərbdən Kiçik Qafqazın Murovdağ və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatələnmişdir ***Qarabağ düzü*** Kür çayı vasitəsilə Şirvan düzündən ayrılır. Cənub-şərq kanalında okean səviyyəsindən aşağıdır. ***Qarabağ düzü*** Qarabağ tarixi ərazisinin adı ilə əlaqədar olaraq belə adlanmışdır.

Qarabağ düzünün səthi zəif dalğavari və terraslıdır. Dağətəyi üzrə relyef hissədə dərə və yarğanlıqdır. Düz faydalı qazıntılarla zəngindir. İqlimi mğlayim isti və quru subtropikdir. Orta temperatur yanvarda -1°C, iyulda +28°C-dir. İllik yağıntısı 300 mm-dir. Çayları (İncəçay, Tərtər, Xaçın, Qarqar və s.) Kür hövzəsinə aiddir. Yuxarı Qarabağ kanalı Qarabağ düzündən keçir. Mil-Qarabağ kollektoru Qarabağ düzündən başlanır.

Yarımsəhra, quru-çöl və kolluq-çöl landşaftı ***Qarabağ düzü*** üçün xarakterikdir. Ərazidə düzən meşələri, Kür çayı sahilində isə seyrək tuqay meşələri, eləcə də, kolluqlar var. Qış otlaqları ilə zəngin olan Qarabağ düzündə heyvandarlıq geniş inkişaf etmişdir. Burada üzüm, pambıq, taxıl, bostan bitkiləri və quru subtropik meyvələr yetişdirilir.

***Qarabağ*** Azərbaycanda tarixi ərazinin adıdır. Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı geniş ərazini əhatə edən ***Qarabağ*** ən qədim insan məskənlərindəndir. Xocalı-Gədəbəy mədəniyyətinin abidələri də ilk dəfə burada aşkarlanmışdır. Ta qədimlərdən Qafqaz Albaniyasının tərkib hissəsi olan Qarabağda alban, arraz, qoroz, uti, qarqar, peçeneq və başqa tayfalar yaşamışdır. Qarabağ bir neçə tarixi vilayət və əyalətlərə bölünürdü...

IV əsrdə Qarabağda xristianlıq (dünya dinlərindən biri) yayılmağa başladı. V əsrdə hunlar, VII əsrdə isə xəzərlər Qarabağda məskunlaşmışlar. Ərəblər Qarabağı işğal etdikdən sonra - VIII əsrdən başlayaraq burada islam dini geniş yayılmağa başladı, Qarabağın dağlıq ərazisində, xüsusilə, Artsaxda yaşayan əhali tədricən qriqorianlaşdı. Şəhərlərdə yaşayan əhali isə islam dinini qəbul etdi.

IX əsrdə Babək hərəkatı Qarabağı da bürümüşdü. Orta əsrlərdə xəzərlərin kəbər, tərnə, bizal, qaraçur və s. tayfalarının adları ilə bağlı ola-





raq Qarabağda Kəbirli, Tərnəvğt, Bizallar, Qaraçorlu yaşayış məntəqələri vardı...

X əsrdə ***Qarabağ*** Şəddadilərin, XI əsrdə isə Səlcuqların hakimiyyətinə keçdi, XII əsrin 2-ci yarısından ***Qarabağ*** Eldəgəzlər dövlətinin mühüm əyalətlərindən biri idi. XIII əsrin 30-cu illərində Qarabağı monqollar işğal etdi. XV əsrdə əvvəl Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətinin tərkibində olan ***Qarabağ*** 1501-ci ildə Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Bu dövrdə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyini qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. 1736-cı ildə Ziyadoğulları Nadirin şahlığı əleyhinə çıxdılar. Nadir şah onların iqtisadi və hərbi qüdrətini sarsıtmaq məqsədilə bəzi əyalətləri, eləcə də, Qarabağın Xəmsə məliklərini onlardan alıb öz tabeliyinə keçirdi.

XVIII əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri ***Qarabağ xanlığı*** idi. ***Qarabağ xanlığı*** Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan Qarabağ xanlığı Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi. 1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. 33 gün Şuşanı mühasirədə saxlasa da, şəhəri ala bilməyib Gürcüstana hücum etdi. 1797-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürğldğ, İran qoşunları Qarabağdan çəkildi...

1805-ci ilin 14 mayında (*"Kürəkçay"* müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. 1813-cü ildə bağlanmış *"Gülüstan"* sülh müqaviləsinə əsasən Qarabağ Rusiyaya birləşdirildi. 1822-ci ildə çar fərmanı ilə ***Qarabağ xanlığı*** ləğv olundu. 1828-ci ildə *"Türkmənçay"* müqaviləsi imzalandı. Bu illərdən etibarən Qarabağ əhalisinin etnik tərkibi ermənilərin xeyrinə kəskin dəyişməyə başladı. İran və Türkiyədən on minlərlə erməni ailəsi bu ərazilərdə məskunlaşdırıldı...

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda *Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Bayat, Əfşar, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər* və başqa ellərin yaşadığı göstərilir...

XIX əsrin II yarısında Qarabağ ərazilərində Şuşa, Cəbrayıl (Qaryagin) və Cavanşir qəzaları yarandı. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan MİK-nin ***7 iyul 1923-cü il*** tarixli dekreti ilə Qarabağın dağlıq hissəsində ***Dağlıq Qarabağ Muxtar Vilayəti*** yaradıldı. Qarabağın digər əraziləri 1930-cu ildə ayrı-ayrı inzibati rayonlara bölündü.

***Qarabağ*** adı VII əsrdən, bir əyalət kimi isə mənbələrdə XII-XIII əsrlərdən başlayaraq çəkilir (Anili Samuel: "Sev ayqi", Tovma Ardsruni Qarabağ, İbn əl-Əsir "Qarabağ"). 1284-cü il mənbəsində də ***Qarabağ*** adı çəkilir.

Erkən orta əsrlərdə ***Qarabağ düzü*** alban tayfalarından olan qarqarların adı ilə ***Qarqar düzü*** adlanmışdır. Adından da görğndüyü kimi, Qarabağ toponimi türk mənşəlidir. Bu toponim haqqında Müxtəlif mülahizələr mövcuddur. Əcəmlər lap qədimdən Qarabağa ***Sisaqan*** deyərdilər. Sonralar səlcuqlar ona ***Qarabağ*** adı verdi.

***Qara*** sözünün toponimiyada 20-dən çox anlamı var *("boyük", "geniş", "uca", "ağır", "qalın", "qərb", "qoçaq", "əzəmətli", "qüdrətli", "hündür", "pis", "nəhəng", "qaranlıq", "bədbəxt", "güclü", "başçı", "qəm", "xalq", "yaraşıq", "sevinc", "sıxlıq", "keyfiyyətsiz", "şimal", "çox", "rəng" və s.).* Qarabağ toponimini bir qrup araşdırıcılar *"böyük, bağlı-bağatlı yer"* kimi mənalandırır.

X əsr müəllifi Konstantin Baqryanarodnı ***Qarabağ*** terminini peçeneq tayfalarından biri kimi səciyyələndirir. Azərbaycan alimi Qiyasəddin Qeybullayev də bu fikrə tərəfdar çıxır.

İ.Şopen ***Qarabağ*** terminini ***Xaraba*** sözü ilə əlaqələndirir. Bu sözü ***xaraba*** sözü kimi yozanlar da var. S.Aşurbəyli Qarabağ toponiminin baq komponentini ***baq (bak, bağı)*** qəbiləsinin adı ilə bağlayır. Ş.Sədiyev Qarabağ sözünü qara (rəng) və bağ (bağça, bağat) hissələrinə ayırır. Ə.Fərzəli ***qara*** sözünü *"böyük, sevinc, xalq, qəhrəman"*, ***bağ*** sözünü isə *"tanrı"* kimi mənalandırır. M.Seyidov qara sözünü *"rəng, pis, bədbəxt, güclü, başçı"*, ***bağ*** komponentini isə *"düyün, ip", "meyvə ağacı əkilmiş sahə"* anlamı ilə səciyyələndirir.

Bəzi tədqiqatçılar Qarabağ düzünün adını vaxtilə Qarabağda mövcud olmuş ***Qarabağ*** şəhərinin adı ilə əlaqələndirir. Onlar bu fikirdə İran tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzviniyə (1281 - 1350), Səfəvi tarixzisi İsgəndər bəy Münşiyə (1560 - 1634) və alman alimi Adam Olearinin (1603 -1671) "İran səltənəti" xəritəsinə əsaslanırlar. Tarixdən məlumdur ki, A.Olearinin (XVII əsr) xəritəsində 39° şimal en dairəsi, 82° 21' şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə ***Qarabağ şəhəri*** (indiki Füzuli rayonunun Horadiz dəmir yol stansiyasından azacıq aralıda - Mollaməhərrəmli, Babı, Arayatlı kəndləri yaxınlığında) göstərilir. İran Azərbaycanında Kiçik Qafqaza gedən böyük ticarət yolu da ***Qarabağ*** şəhərindən keçirmiş. Böyük bir mahalın bu şəhərin adı ilə adlanması ***Qarabağ*** şəhərinin böyük bir şəhər olduğundan xəbər verir.





Əksər araşdırıcılar toponimin ***qara*** *("böyük")* ***və*** *bağ* (qədim türk dillərində *"soy", "tayfa", "el"*) sözlərindən ibarət olduğunu ehtimal edirlər. Məlum olduğu kimi, qədim kəngər-peçeneqlərin tərkibində ***Qarabağ*** adlı tayfa da olmuşdur...

Ərəb salnaməçisi İbn əl-Əsir (XII əsr) 1064-cü ildə oğuzların Ruma hərbi səfəri ilə əlaqədar olaraq Şərqi Anadoluda ***Qarabağ*** toponiminin də adını qeyd etmişdir. Bir çox mənbələrdə Qars əyalətinin Ərdahan nahiyəsində ***Qarabağ*** şəhər xarabalığının adı da çəkilmişdir. Vaxtilə Qərbi Azərbaycanın Eçmiadzin, Ağcaqala, Maku, Dərəkənd - Parçenis, Vedi, Sğrməli, Kərai ərazilərində də ***Qarabağ, Qarabağlar, Qarabağlı, Qarabağlı Kəbir, Qarabağlı Sıqır*** və s. yaşayış məntəqələri mövcud olmuşdur...

XIX əsrdə Qafqazda noqaylarda, Moldovada qaqauzlarda qarabağ adlı tayfa olmuşdur. Həmin zamanlarda Qazax mahalında yaşayan qarabağlı adlanan bir el də vardı.

***Qarabağ*** toponiminin yayılma arealı, görğndüyü kimi, çox genişdir. Əfqanıstan, Özbəkistan, Türkmənistan, İran, Şimali Qafqaz və digər ərazilərdə də Qarabağ toponimləri qeydə alınmışdır. Elə bütün bunlar da ***Qarabağ*** toponimini etnonimlə əlaqələndirməyə bizə haqq qazandırır.

Əlavə məlumat üçün bax: **Müqəddəs Qarabağım fəsli.**

## QARABAĞ ELLƏRİ

Tarixdən məlumdur ki, Qarabağ ərazilərində ta qədimdən eramızın X əsrinə qədər hunlar, barsillər, savurlar, avarlar, bulqarlar, albanlar, xəzərlər, qıpçaqlar və s. tayfalar yaşamışlar. X əsrdən sonra burada *oğuzlar, monqollar, qacarlar, avşarlar, bayatlar, bayandurlar, şamlılar, bəydililər, qaramanlar, şahsevənlər, hacılar, əhmədlilər, iyirmidördlər, otuzikilər, xurcunlular, cavanşirlər, kəbirlilər, kəngərlilər, kolanılar qaraçorlular, püsyanlılar, cəbrayıllılar,*

*təklələr, muğanlılar, dəmirçihəsənlilər, qaradolaqlar, abdallar, cəmillilər, əbdürrəhmanlılar, seyidəhmədlilər, zərgərlər, dilağardalılar, hacıəlililər, sarıcalılar, bəhmənlilər, mərzililər, mərcanlılar, qaradağlılar, qazaxlar, xalaclar* və s. onlarla el, tayfa, tirə məskunlaşmışdır.

## QARABAĞ XALÇALARI, QARABAĞ KİLİMİ

Azərbaycan xalçaçılıq məktəblərindən biri də ***Qarabağ xalçaçılıq məktəbi*** hesab olunur.

Şuşa, Bərdə, Ağcabədi, Cəbrayıl, Füzuli və s. xalça məntəqələrində xovlu və xovsuz xalçalar, eləcə də, xurcun, məfrəş, heybə, çuval, çul və s. toxunmuşdur. Bu xalçalarda rəmzi xarakterli rəsmlər, həndəsiləşdirilmiş nəbati naxışlar dekorativ və təsviri sənətin Müxtəlif sahələrini əhatə edən kompozisiyalar və s. öz əksini tapmışdır. *"Açmayumma", "Aran", "Bağçada gğllər", " Balıq", "Bərdə", "Bəhmənli", "Buynuz", "Qarabağ", "Qasımuşağı", "Qoca", "Ləmbərani", "Lampa", "Malıbəyli", "Muğan", "Xanqərvənd", "Xanlıq", "Xan-tirmə", "Çələbi", "Şabalıdbuta"* və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

Hələ XVI-XVII əsrlərdə Bərdə xalçaçılarının ipək zilləri (Berlin İncəsənət Muzeyi) və XVIII əsrdə Ləmbəran kəndində toxunan xovsuz vərni (Nyu-York, Metropoliten-muzey) dünya şöhrəti qazanmışdır. XIX əsrdə Ağdamda, Ağcabədidə, Füzulidə, Şuşada yaradılmış həndəsi ornamentli cecimlər, şəddələr xovsuz xalçaların gözəl nümunələri hesab olunur.

***Qarabağ*** xalçalarının forması uzunsov, rəngləri isə şux və əlvandır. Bu rənglər içərisində alqırmızı, dəliqırmızı, qızılı, çəhrayı, palıdı və sarı rənglər üstünlük təşkil edir. Qarabağ evlərinin interyerlərinə uyğunlaşdırılmış 4 xalçadan ibarət məşhur dəst xalı-gəbə də geniş yayılmışdır. Qarabağ xalçalarında təbiət mənzərələri, ov səhnələri, insan və heyvan təsvirləri, Müxtəlif tarixi qəhrəmanların obrazları məharətlə əks olunmuşdur.

XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Təbriz xalçaçılıq məktəbinin təsiri ilə ***"Laçəklürünc"*** çeşnili xalçalar və eləcə də, ***"Bulud", "Bağçadagüllər", "Saxsıdagüllər"*** xalçaları və s. süjetli xalçalar toxunurdu. Berlin, Vyana, Moskva, Paris və Peterburqda açılmış incəsənət sərgilərində Qarabağ xalçaları dəfələrlə qızıl, gümüş və bürünc medallara





layiq görülmüşdür...

Xovsuz xalça növü olan kilim Azərbaycanda, eləcə də Qarabağda qədim dövrlərdən məlumdur. Kilim Qafqaz, Orta Asiya, İran, Türkiyə, Misir, Bolqarıstan, Ukrayna və s. yerlərdə müxtəlif adlarla (kilim, qilam, qilem, kerim, kerem, qız qiləm və s.) istehsal edilmişdir. Miladdan öncə V əsrə aid olan ən qədim ***kilim*** nümunəsi Dağlıq Altay Muxtar Vilayətinin Pozırık kurqanlarından tapılmışdır.

Azərbaycanda toxulmuş kilimlər ***5*** qrupa bölünür:

***1) Abşeron***
***2) Qarabağ***
***3) Qazax***
***4) Muğan***
***5) Şirvan***

Ümumi üslub xüsusiyyətlərini özündə birləşdirən bu kilimlər kompazisiya, naxış və rəng koloritinə görə fərqlənirlər. ***Qarabağ kilimləri*** üçün nəbati motivli göllər, rombvarı, qarmaqlı elementlər, şux rənglər, iri ölçülər, bəzəkli naxışlar, incə toxunuş səciyyəvidir. Kilimlərin hər iki üzündən istifadə olunur. Yaxşı kilimlərin nümunələri Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənətinin Dövlət Muzeyində qorunub saxlanılır və nümayiş etdirilir...

## QARABAĞ XANLIĞI

1823-ci ildə "Qarabağ əyalətinin həqiqi dövlət müşaviri Mogiyyevski və polkovnik Yermolov tərəfindən tərtib edilmiş təsviri" (Tiflis, 1866) vergi reyestrinə görə 1822-ci ildə xanlıq ləğv edilən zaman orada 90.000 əhali (20.095 ailə; 15.729 – azərbaycanlı ailə, 4366 erməni ailə) yaşayır. Xanlıq dönəmində 1 şəhər, 610 kənd (cəmi 140 kənddə erməni yaşayırdı) vardı. Şuşa şəhərində 1048 ailə vardı ki, bunun da cəmisi 474-i erməni ailəsi idi. Kəndlərdə 12.902 ailə (43.311 nəfər) yaşayırdı.

XIX yüzilin 20-ci illərində Yermolovun tələb və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan 18.563 ailədən yalnız 1559-u (8%-i) erməni ailəsi olmuşdur. Bundan cəmi bir neçə il sonra 1832-ci ildəki kameral əhali sayına görə, İran və Türkiyədən köçürülən erməni

ailələrinin hesabına Qarabağda ermənilərin sayı artdı.

XVIII əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri ***Qarabağ xanlığı*** idi. Qarabağ xanlığı Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan ***Qarabağ xanlığı*** Pənahəli xanın (1747-1759) və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi. Həmin vaxt Qarabağ xanlığının mərkəzi Boyat qalası idi. Sonralar Pənahəli xan xanlığn mərkəzini Şuşaya köçürmüşdü.

1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. O, 33 gün Şuşanı mühasirədə saxlasa da, şəhəri ala bilməyib Gürcüstana hücum etdi. 1797-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürüldü. Başsız qalan İran qoşunları Qarabağdan çəkildi.

1805-ci ilin 14 mayında (***"Kürəkçay"*** müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. 1813-cü ildə bağlanmış ***"Gülüstan"*** sülh müqaviləsinə əsasən ***Qarabağ*** Rusiyaya birləşdirildi. 1822-ci ildə çar fərmanı ilə ***Qarabağ xanlığı*** ləğv olundu.

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda *Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər* və başqa ellərin yaşadığı göstərilir.

## QARABAĞ SİLSİLƏSİ

***Qarabağ silsiləsi*** Kiçik Qafqazda, Azərbaycanda Xocavənd rayonunun da bir hissəsini əhatə edən dağ silsiləsidir. O, şimal-qərbdən cənub-şərqə doğru təxminən 120 km bir məsafədə uzanır. Ən hündür zirvələri Qızqala (2843 m), Böyük Kirs (2775 m), Alaqaya (2583 m) dağlarıdır. ***Qarabağ silsiləsi*** ərazisində üzüm, tərəvəz, tütün, taxıl, meyvə, barama və s. yetişdirilir. Ərazidə meşə landşaftı geniş yer tutur; yay otlağı vardır. Qarabağ silsiləsi ərazisində heyvandarlıq geniş inkişaf etmişdir. Xaçınçay, Köndələnçay, Qarqarçay, Qozluçay və başqa çaylar öz mənbələrini ***Qarabağ silsiləsindən*** götürür. Qarabağ dağ silsiləsi oronimi öz adını ***Qarabağ*** tarixi ərazisinin adından götürmüşdür.





Böyük məsafədə müəyyən xətt istiqamətində uzanan və əks tərəflərə düşən yamacları ilə səciyyələnən dağ qurğusuna dağ silsiləsi deyilir. Dağ silsilələri aydın nəzərə çarpan və üzərində yüksək zirvələr yerləşən vahid suayrıcı xəttinin olması ilə xarakterizə olunur.

## QARABAĞ ŞİKƏSTƏSİ

Azərbaycan zərbi muğamlarından biri; ağır tempdə oxunan ***Qarabağ şikəstəsi*** muğamının ölçüsü 2/4, məqam əsası isə segahdır. Xanəndə və müğənnilər tərəfindən oxunan hər bənddən sonra Müxtəlif melodiyalı araçalğı (instrumental epizod) ifa olunur. Ü.Hacıbəyov *"Əsli və Kərəm"*, M.Maqomayev *"Şah İsmayıl"*, Z.Hacıbəyov *"Aşıq Qərib"*, R.Qliyer *"Şahsənəm"* operalarında ***"Qarabağ şikəstəsi"***ndən istifadə etmişlər. Xalqımız tərəfindən çox sevilən şikəstələr - vokal-instrumental zərbi muğam deməkdir. Şikəstələrin ***"Qarabağ şikəstəsi"*** ilə yanaşı, *"Kəsmə şikəstə"*, *"Şirvan şikəstəsi"* və başqa növləri də var. ***"Qarabağ Şikəstəsi"*** ilə bağlı xalq tərəfindən müxtəlif rəvayətlər də qoşulmuşdur.

## QARABURUN DAĞI

***Qaraburun dağı*** Cəbrayıl rayonunun Cəfərabad kəndi ərazisində qeydə alınmışdır. ***Burun*** sözü toponimiyada *"qurunun, dağın və ya qayanın sivri bucaq* şəklində *düzə tərəf uzanan hissəsi"* mənasındadır. ***Burun*** termini ilə əlaqədar oronimiyamızda ***350*** coğrafi ad əmələ gəlmişdir. Yuxarılarda qeyd etdiyimiz kimi, ***qara*** termininin müxtəlif məna çalarları vardır.

Tovuz rayonunda da *Qaraburun dağı* coğrafi adı qeydə alınmışdır. Vaxtilə İrəvan quberniyasının, İrəvan qəzasında və Şirakel nahiyəsində də *Qaraburun dağı* oroqrafik obyekti qeydə alınmışdır. Talin rayonunda *Qaraburun kəndi* (1950-ci ildə ermənilər adını dəyişib *Karmraşen*, 1965-ci ildə isə *Karakert* qoymuşlar) də mövcud olmuşdur...

## QARACALLI KƏNDİ

***Qaracallı kəndi*** (bəzən bu yaşayış məntəqəsinin adını ***Qaraçallı*** şəklində də yazırlar) Cəbrayıl rayonunda, rayon mərkəzindən 16 kilometr şimal-şərqdə, Balyand kənd inzibati ərazi vahidində, düzənlik ərazidə, Gəyən çölündə yerləşirdi. Əhalisinin sayı 800 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq, bağçılıq və üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri sayılırdı. Bu kənddən çoxlu sayda dəyərli ziyalılar çıxmışdır. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi, müxtəlif ticarət-iaşə obyektləri və s. vardı. ***Qaracallı kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Bir fikrə görə, kəndin adının ilkin forması ***Qarahacılı*** olmuşdur. Oykonim nisbətən asan səslənən ***Qaracallı*** danışıq dilinə uyğunlaşdırılmışdır. ***Qara*** – "*mərd, cəsarətli, qorxmaz, igid*" mənasındadır. ***Qarahacılı*** toponimi "*mərd Hacı*" anlamına uyğun gəlir. Başqa bir fikrə görə isə, ***Qaracallı*** yaşayış məntəqəsinin adı XVIII əsrdə Naxçıvandan Qarabağlı Pənahəli xanın Qarabağa köçürdüyü kəngərlilərin ***qaracallı*** tayfasının adını özündə əks etdirir. Əvvəllər Qarabağa köçmüş ***qaracallı*** nəsilləri orada yaşamış, sonralar Azərbaycanın müxtəlif rayonlarına yayılaraq bir neçə ***Qaracallı*** adlı yaşayış məntəqəsi bina etmişlər. Bu kənd Cəbrayıl rayonu ərazisində qədim kəndlərdən biri hesab olunur. XVIII əsrə aid sənədlərdə bu kəndin də adı çəkilmişdir. Bu kənd Xırdapara Dizaq mahalına aid idi.

İ.Şopenə görə, ***Qaracallı*** kənd adları ***kəngərli*** tayfasının *qaracallı* tirəsinin adı ilə bağlı yaranmışdır. Amma nədənsə əksər tarixi sənədlərdə onların XIX əsrin əvvəllərində yalnız Naxçıvanda yaşamaları göstərilmişdir. Azərbaycanın müxtəlif zonalarında eyniadlı və eynimənşəli oykonimlərin mövcudluğu sübut edir ki, Qarabağ xanları tərəfindən Naxçıvandan Qarabağa və başqa yerlərə köçürülən ***kəngərlilər*** içərisində ***qaracallı*** tirəsinə məxsus qruplar da olmuş və onlar məskən saldıqları ərazilərdə yaratdıqları yaşayış məntəqələrini tirələrinin adı ilə əlaqədar olaraq ***Qaracallı*** adlandırmışlar. Kəngərli tayfasının ***qaracallı*** tirəsinin adı ilə bağlı olaraq Qubadlı, Ucar, Xaçmaz rayonlarında da ***Qaracallı kəndi*** vardır.

Ümumiyyətlə götürsək, qeyd edə bilərik ki, ***Qaracallı*** kəndlərini türk tayfası olan ***qaracallılar*** saldığı üçün kəndlər də bu ad ilə adlanmışdır. Bəzi araşdırıcılar ***qaracallı*** (***qaraçalı***) nəsillərini yerli *kürd* qəbiləsinin adı ilə bağlayırlar.





Bir versiya da var ki, ***Qaracallı kəndi*** yerləşdiyi mövqeyə görə (***Qara çala*** – "*böyük çala*"da yerləşdiyi üçün) belə adlanıbdır. Başqa bir yerli fikrə görə isə, yaşayış məntəqəsi ***Qaraca*** şəxs adı ilə əlaqədardır. Tarixdən o da məlumdur ki, ağqoyunluların ***Qarahacılı*** adlı tayfası da olmuşdur. R.Yüzbaşov, K.Əliyev, Ş.Sədiyev birlikdə yazdıqları "*Azərbaycanın coğrafi adları*" adlı kitabda nədənsə ***Qaracallı*** oykonimini yerli kürd qəbiləsinə mənsub olan nəsil kimi izahlandırırlar. Bu fikirdə görünür onlar yanlışlığa yol vermişlər. Bəzi araşdırıcılar ***Qarahacılı*** tayfasını orta əsrlərdə Anadoluda yaşamış *Yeryük* tayfa birləşməsinin bir qolu hesab edirlər. Oykonimi *qılıclı* tayfasının ***qaracalar*** tirəsi ilə də əlaqələndirənlər vardır.

Azərbaycan Respublikasının Xaçmaz, Qubadlı və Ucar rayonlarında da *Qaracallı* adlı kənd var. Saatlı rayonunda *Qaracalar kəndi*, Salyan rayonunda *Qaraçala qəsəbəsi* də vardır. Vaxtilə İrəvan əyalətinin Qırxbulaq və Zarzəmin nahiyələrində *Qaracalı* adlı kəndlər də mövcud olmuşdur...

## QARADAĞ

Oronimiyamızda rəng bildirən sözlərdən və müsbət relyef forması ifadə edən terminlərdən düzələn oronimlər çoxdur. Onlardan biri də Cəbrayıl rayonu ərazisində, Şahvələdli kəndi ərazisində qeydə alınan ***Qaradağ*** oronimidir. Oronim ***qara*** və ***dağ*** sözlərindən ibarətdir. ***Dağ*** – yer səthində ətraf düzənliklərdən yüksəkdə olan, yamacları, zirvəsi, ətəkləri ilə seçilən sahələrdir. Mənşəyinə görə ***dağlar*** vulkanik, tektonik və erozion olur. ***Qara*** komponentinə gəlincə, onun müxtəlif məna çalarlarını ("*rəng*", "*böyük*", "*hündür*" və s.) qeyd etmək lazımdır. ***Qaradağ*** oronimindəki "***qara***" sözü buradakı ***dağ*** süxurunun rəngini göstərir. Toponim "*qara rəngə* çalan *dağ*" mənasındadır.

Abşeron, Ağsu, Qaradağ, Qazax, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Tovuz, Xaçmaz, Şahbuz, Şərur rayonlarının ərazilərində də ***Qaradağ*** coğrafi adına rast gəlirik.

## QARADAŞ DÜZÜ

***Qaradaş düzü*** oronimi Cəbrayıl rayonunun Qovşutlu kəndi ərazisində qeydə alınmışdır. ***Qara*** sözü ilə bağlı respublikamızda *yüzlərlə oronim* mövcuddur. ***Qaradaş*** sözü ***qara*** (burada *rəng* bildirir) və ***daş*** (*qaya*) sözlərindən ibarətdir. ***Qara*** sözü toponimiyamızda müxtəlif məna çalarlarına malikdir. ***Qaradaş*** sözündəki ***qara*** komponenti *daşın* süxurlarının rəngini ifadə edir. Bəzi araşdırıcılar bu formantı *"böyük"* mənasında qəbul edir. ***Düz*** mənfi relyef forması bildirən coğrafi termini *"yoxuşu, enişi, təpəsi, çuxuru olmayan hamar relyef səthi"* mənasındadır. Azərbaycan Respublikasının ərazisində ***düz*** coğrafi termini ilə bagl ı ***11 000*** oronim qeydə alınmışdır.

XIX əsrdə Cənubi Qafqazda ***13*** adda ***Qaradaş*** toponimi qeydə alınmışdır. Vaxtilə İrəvan quberniyasının Sürməli qəzasında *Qaradaş dağı* oronimi də qeydə alınmışdır. Borçalı qəzasında da vaxtilə *Qaradaş* (ermənilər bu yaşayış məntəqəsinin adını dəyişərək ***Sevkar*** adlandırmışlar) adlı kənd mövcud olmuşdur.

## QARADƏRƏ

***Qaradərə*** coğrafı adı Cəbrayıl rayonunun Karxulu kəndində qeydə alınmışdır. ***Qaradərə*** oronimi ***qara*** sözündən və mənfi relyef forması bildirən ***dərə*** oronimik terminindən ibarətdir. Oronimiyada ***qara*** sözünün müxtəlif məna çalarları vardır. ***Dərə*** - xətti istiqamətdə uzanan və talveq üzrə yeknəsək, əksərən qeyri-bərabər enən mənfi relyef formasıdır. Adətən ***dərələr*** axar suların eroziya fəaliyyəti nəticəsində, daxili və xarici proseslər əsasında yaranır. ***Dərələr*** üçün xarakterik cəhət bir başdan o biri başa kimi maili olmasıdır; onlar heç zaman bir-birini kəsmir. ***Dərə*** termini *"çay yatağı", "uzun, dərin süxur", "çayın axdığı yer"* və s. mənalarda işlədilir. ***Qaradərə*** oroniminin tərkibindəki ***qara*** sözünü *"dərinlik", "rəng", "böyüklük"* və s. kimi mənalandırırlar. ***Qara*** komponentini – *"dərinlik"* anlamında qəbul etsək, toponim *"dərin dərə"* mənasına uyğun gələr.

Babək, Füzuli, Qazax, Zəngilan, Xocavənd, Cəbrayıl, Culfa və s. rayonların ərazisində də ***Qaradərə*** oronimi qeydə alınmışdır.





Vaxtilə (*son orta* əsrlərdə) Cəbrayıl rayonu ərazisində *Qaradərə* adlı kənd də olmuşdur. XVIII əsrin əvvəllərində İrəvan əyalətində də *Qaradərə* adlı kənd olmuşdur...

## QARAĞAC DAĞI

***Qaraağackimilər*** fəsiləsindən yarpağı tökülən boz qəhvəyi - qabıqlı ***qaraağac*** bitki cinsinin adı ilə Azərbaycanda çoxlu oykonim və oronimlər yaranmışdır. Cəbrayıl rayonunun ərazisində, ***Qarağac*** kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Qarağac dağı*** adlanır. Oronim ***qarağac*** və ***dağ*** sözlərindən, eləcə də ***-ı*** şəkilçisindən ibarətdir. Bu coğrafi ad fitonimdən törənən oronimdir. Toponim *"qaraağac bitkisi olan dağ"* anlamındadır. Bəzi yerlərində məhsuldar əkin sahələri olan ***Qarağac dağı*** böyük bir ərazini əhatə edir. Dağın yerləşdiyi ərazidə çoxlu sayda ***qaraağac*** bitkisi olduğundan ona ***Qarağac (Qaraağac) dağı*** deyilmişdir. Ərazidə başqa ağaclar da vardı. Ancaq orada ***qaraağac*** bitkisi daha çox idi. XX əsrdə oradakı ağacların çoxusu qırılıb-dağıdılmışdır. Orada ancaq bəzi ***qaraağac*** bitkisi salamat qalmışdı. Azərbaycanda fitonimlərdən düzələn toponimlər çoxdur.

***Qarağac dağı*** oroniminin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan Respublikasının ərazisində toplanan çöl materialları içərisində ***1 300*** ***dağ*** adı vardır ki, onlardan da biri Cəbrayıl rayonunun ərazisindəki ***Qarağac dağı*** oroqrafik obyektidir.

## QARAĞAC DƏRƏSİ

Cəbrayıl rayonunun Qarağac kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Qarağac dərəsi*** adlanır. Oronim ***qarağac*** bitkisinin adından, mənfi relyef forması ifadə edən ***dərə*** coğrafi terminindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Toponim ***Qaraağackimilər*** fəsiləsindən olan, yarpağı tökülən boz qəhvəyi - qabıqlı ***qarağac*** bitki cinsinin adı ilə əlaqədar yaranmışdır. Azərbaycan Respublikasının ərazisində ***qarağac*** bitkisinin adını özündə əks etdirən çoxlu sayda oykonim və oronimlər mövcuddur.

## QARAĞAC KƏNDİ

Cəbrayıl rayonunda, rayon mərkəzindən 30 kilometr qərbdə, Dağ Tumas kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsi ətəyində yerləşən kənd. Əhalisinin sayı 172 nəfərdir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana, feldşer-mama məntəqəsi və s. vardı.

Əslində kəndin adı ***Qaraağac*** (***Qaraağaclı***) şəklində olmalıdır. Bu yaşayış məntəqəsi ***Qaraağac yeri*** adlı bir ərazidə salındığı üçün belə adlandırılmışdır.

***Qaraağackimilər*** fəsiləsindən yarpağı tökülən boz qəhvəyi - qabıqlı ***qarağac*** bitki cinsinin adı ilə Azərbaycanda çoxlu oykonim, hidronim və oronimlər yaranmışdır. Onlara nümunə olaraq Qubadlı, Tərtər, Sabirabad, Cəlilabad rayonlarındakı ***Qaraağac kəndi***, Zaqatala rayonu ərazisindəki *Qaraağac çayı*, Sabirabad rayonu ərazisindəki *Qaraağac yeri*, Kəlbəcər rayonunun Qazıxanlı kəndindəki *Qarağac yalı*, Tovuz rayonunun Qurudərə kəndindəki *Qarağaclı çökəyi*, Qubadlı rayonunun Eyvazlı kəndindəki *Qarağac dərəsi*, Masallı rayonunun Güllütəpə kəndindəki *Qarağac yamacı*, Laçın rayonu ərazisindəki *Qarağaclı çuxuru* və başqalarını göstərə bilərik...

## QARAĞANLI SIRA DAĞLARI, QARAĞANLI DAĞ, QARAĞANLI DƏRƏ, QARAĞANLI TAXTA

***Qarağanlı*** - Cəbrayıl rayonunun cənub-qərb hissəsində yerləşən sıra dağların adıdır. ***Qarağanlı*** oronimi orada üstünlük təşkil edən ***qarağan*** bitkisinin adı ilə bağlıdır. Toponim "*qarağan bitən yer*" mənasındadır. ***Qarağanlı*** oronimini ***qara*** (burada "*adi, sadə*") sözü və ***qanlı (qanqlı)*** oğuz türkləri ilə də əlaqələndirənlər var. Bir tayfa kimi III əsrdən məlum olan ***qanlılar (qanqlılar)*** XI – XII əsrlərdə səlcuq oğuzlarına birləşmişlər. VIII əsrdə Sırdərya hövzəsində yaşayan ***qanlılar*** *oğuz* və *karluqların* basqınından sonra iki yerə parçalanmışdır. Onların bir hissəsi Aral dənizinin şimal çöllərinə köçərək peçeneqlərə qarışmış, daha sonra xəzərlərin ərazisində məskunlaşmışlar. Digər hissəsi isə Xarəzmə getmiş və 1218-ci





ildə monqolların tərkibinə daxil olmuşlar. Tarixdən məlumdur ki, XIII əsrdə Azərbaycanın monqollar tərəfindən işğal olunması zamanı monqolların tərkibində *uyğur* və *xeleçlərlə* yanaşı, ***qanlı*** tayfası üzvləri də iştirak etmişdir. Toponimin tərkibindəki ***qara*** komponentini "*adi, sadə, aşağı silkə mənsub*" anlamı ilə əlaqələndirənlər var.

Bəzi tədqiqatçılar toponimi orta əsrlərdə Qarabağda yaşamış ***Qarağanlı*** (***Qaraqanlı***) etnonimi ilə də bağlayırlar. Görünür, *qaraqanlı tayfası* ilə buraların bağlılığı olub. ***Qarağanlı*** türk tayfasının Azərbaycana gəlmə vaxtı dəqiq məlum deyildir. Bu etnonim ilə əlaqədar Aşağı Sirik kəndinin ərazisində ***Qarağanlı dərə***, Şükürbəyli kəndinin ərazisində ***Qarağanlı taxta*** oronimləri də yaranmışdır.

***Dağ*** - müsbət, ***dərə*** isə mənfi relyef forması bildirən coğrafi terminlərdir. ***Taxta*** termini "*hündür ərazidə düzənlik*", "*dağlıq yerdə hamar sahə*", "*iki dərə arasında düz yer*", "*əkin üçün ayrılmış sahə*" və s. mənalarını ifadə edir.

Zəngilan rayonunun Məmmədbəyli kəndində qeydə alınan *Qarağanlı dərə*, Masallı rayonunun ərazisində *Qarağanlı dağı*, Lerik rayonunun Ağqışlaq kəndinin ərazisindəki *Qarağanlı təpə* coğrafi adları da ***qaraqanlı*** tayfasının adı ilə əlaqədardır.

## QARAQAŞLI SIRA DAĞLARI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan ***Qaraqaşlı sıra dağları*** coğrafi adı etnonimdən törənən oronimdir. Bu tipli oroqrafik obyektlərə respublikamızın digər ərazilərində də rast gəlmək olar. Tarixi sənədlərdə göstərilir ki, XIX əsrin ortalarında respublikamızın ərazisində ***376*** ailədən ibarət olan ***qaraqaşlı*** eli yaşamışdır. ***Qaraqaş tayfası*** Asiyada, Altayda yaşamış ***qarakeş*** (***qaraqaş***) tayfasının oğuz və monqolların tərkibində Azərbaycana gəlmiş bir hissəsidir. Toponimin ***qaraqaş*** tayfa adından və ***-lı*** şəkilçisindən ibarətdir. Rayon ərazisindəki bu ***sıra dağlar*** türk-oğuz əsilli ***qaraqaş*** (***qarakeş***) tayfasının adı ilə əlaqədardır. Azərbaycan Respublikasının Ağdam, Ağsu, İmişli, Neftçala, Sabirabad və Xaçmaz rayonlarındakı ***Qaraqaşlı kəndi*** həmin ***qaraqaşlı*** tayfasının adı ilə bağlıdır.

Bəzi araşdırıcılar ***Qaraqaşlı*** sözünü ***qara*** və ***qaş*** sözlərinə ayırırlar. ***Qara*** sözünün toponimiyada *"böyük"* və ya *"rəng"* anlamları var; ***qaş*** termini isə *"dağın, təpənin bir qədər irəli çıxmış hissəsi"* anlamını ifadə edir.

## QARAQAŞLI TAXTA, QUZU TAXTASI

***Qaraqaşlı taxta*** coğrafi adı Cəbrayıl rayonunun Şükürbəyli kəndində qeydə alınmışdır. ***Taxta*** müsbət relyef forması bildirən coğrafı termini *"hündür yerdə düzənlik"*, *"iki dərə arasında düz"*, *"dağlıq, təpəlik yerdə hamar sahə"* və s. mənalarda işlədilir. Bir çox oronimlərin yaranmasında ***taxta*** sözü iştirak edir. ***Taxta*** sözü ilə əlaqədar oronimiyamızda ***25*** coğrafi ad yaranmışdır. Cəbrayıl rayonunun Hacısaqlı kəndinin ərazisində qeydə alınan ***Quzu taxtası*** adlı oronim də bu qəbildəndir.

***Qaraqaşlı taxta*** XIX əsrin ortalarında ***376*** ailədən ibarət olan ***qaraqaşlı*** elinin adı ilə bağlıdır. ***Qaraqaş tayfası*** Asiyada, Altayda yaşamış ***qarakeş*** (***qaraqaş***) tayfasının oğuz və monqolların tərkibində Azərbaycana gəlmiş bir hissəsidir. Ağdam, Ağsu, İmişli, Neftçala, Sabirabad və Xaçmaz rayonlarında *Qaraqaşlı kəndi* həmin ***qaraqaşlı*** tayfasının adı ilə bağlıdır. ***Qaş*** – *"dağın, təpənin bir qədər irəli çıxmış hissəsi"* mənasındadır.

Əlavə məlumar üçün bax: **Qaraqaşlı sıra dağları.**

## QARAQAYA, QARAQAYANIN QABAĞI

Azərbaycan oronimiyasında rəng bildirən ***qara*** sözü və ***qaya*** oronimik termini ilə düzələn çoxlu sayda ***Qaraqaya*** coğrafi adı qeydə alınmışdır. Məlumdur ki, sıra dağlardan ayrılmış qol və ya dağların müəyyən hissəsində çətin keçilən yer oronimiyada ***qaya*** müsbət relyef forması bildirən coğrafi termini ilə ifadə olunur. Respublikamız ərazisində çöl materialları içərisində tərkibində ***qaya*** coğrafi termini iştirak edən ***3000*** oronim toplanmışdır.

Dağ Tumas kəndinin 5 kilometrliyində, İncə çaylağının günbatan tərəfində qeydə alınan oroqrafik obyekt ***Qaraqaya*** adlanır. Onun yaxınlığında, İncə çayının gündoğanında, Qaraqaya ilə üzbəüz yerləşən əkin sahəsi ***Qaraqayanın qabağı*** adlanır. ***Qaraqaya*** oronimi ***qara*** rəngli daşlardan ibarət dağ silsiləsi yaratdığı üçün belə adlanmışdır. ***Qaraqaya*** adına *Abşeron, Qax, Qubadlı, Qusar, Gədəbəy, Kəlbəcər, Laçın, Lerik, Tovuz, Füzuli, Göygöl, Xocavənd, Cəbrayıl, Şərur, Şuşa, Yardımlı* və başqa rayonlarda rast gəlmək olar. ***Qaya*** coğrafi termini müsbət relyef forması bildirir.

***Qaraqaya*** oronimləri vulkan mənşəli olduqlarına görə, soyumuş və qara rəng almış qayalardan ibarətdir. Toponimiyada ***qara*** sözünün məna çalarları çoxdur. Oronimiyada ən maraqlı məsələlərdən biri də ***qara*** sözünün mənalarının dəqiq müəyyən edilməsidir. ***Qaraqaya*** oronimləri qayada süxurların rənginin ***qara*** olması ilə səciyyələnir. ***Qara*** sözünü *"böyük"* mənasında da izah etməyə çalışan tədqiqatçılar vardır.

Babək, İsmayıllı və Yardımlı rayonlarında ***Qaraqaya*** adlı kənd var. İrəvan xanlığının Vedibasar və Dərələyəz mahallarında da vaxtilə azərbaycanlılar yaşayan ***Qaraqaya*** kəndləri mövcud olmuşdur.

## QARAQUZEY

Cəbrayıl rayonu ərazisində, Qalacıq və Havuslu kəndlərinin yaxınlığında, Nəfəsçıxan dağının ətrafında qeydə alınmış ***Qaraquzey*** oronimi rəng bildirən ***qara*** sözündən və müsbət relyef forması bildirən ***quzey*** oronimik terminindən ibarətdir. ***Quzey*** - təpənin, dağın və s.-nin *"günəş düşməyən, gün tutmayan, kölgəli* şimal *yamacı"* deməkdir. Bu terminə müxtəlif ərazilərdə başqa-başqa yazılış və tələffüz formalarında (***quzey, qüzey, quzay, quzoy*** və s.) rast gəlirik. Dağın (*təpənin*) şimal yamacı, Günəş şüasının düşməyən kölgəli tərəfi dilimizdə ***quzey*** adlanır. ***Quzey*** sözünün türk dillərində *"şimal"* mənası da vardır. Azərbaycanımızda ***quzey*** termininin iştirak etdiyi oronimlərin sayı ***3000***-dən çoxdur.

***Qaraquzey*** oronimindəki ***qara*** komponentini *"böyük"*, *"hündür"* kimi mənalandırmaq da olar. Bu halda toponim *"böyük quzey"*, *"hündür quzey"* mənasındadır. Əslində ***qara*** komponenti burada dağ süxurunun rəngi mənasında yox, *"böyük"* anlamındadır.

Qubadlı, Zəngilan, Kəlbəcər, Gədəbəy, Goranboy, Laçın, Tovuz, Göygöl, Xocavənd, Şəki və başqa rayonların ərazilərində də ***Qaraquzey*** oro-

nimi qeydə alınmışdır.

Vaxtilə İrəvan xanlığının Vedibasar mahalında ***Quraquzey*** adlı kənd də olmuşdur. 1948-1951-ci illərdə əhalisi Azərbaycana köçürüldükdən sonra həmin kənd ermənilər tərəfindən dağıdılmışdır.

## QARAMAN

(*Bax:* **Hacı Qaraman**)

## QARAR KƏNDİ

***Qarar kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 8 kilometr şimal-qərbdə, Xələfli kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 180 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, bağçılıq, baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, yerli əhalinin tapındığı müqəddəs Pir-ziyarətgah və s. vardı. Bəzi sənədlərdə bu yaşayış məntəqəsinin adı ***Qərər*** formasında qeyd olunmuşdur. Yerli əhali kəndin adını bəzən təhrif edərək şivəyə uyğunlaşdırıb ***Qərar*** və ya ***Qərər*** (***Qərəl***) formasında da tələffüz edirlər. Bu yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Bu toponim ilə bağlı müxtəlif fikir və mülahizələr, əfsanələr mövcuddur. XVIII - XIX əsrlərə aid olan mənbələrdən aydın olur ki, Anadoludan Cəbrayıl elinə gələn səlcuq türkləri içərisində Sultan Əhməd adlı nüfuzlu bir şəxsiyyət onlara başçılıq etmiş və sonda *Alaçıq* kəndini özünə iqamətgah seçmişdir. Müəyyən müddət sonra Alı Paşa adlı bir türk Sultan Əhməddən bu ərazidə sığınacaq istəmişdir. Sultan Əhməd də onu öz yaxını Cəbrayıl Atanın yanına göndərmişdir. Cəbrayı Ata Alı Paşaya onun öz mülkünə yaxın bir ərazidə məskən salmasına razılıq vermişdir. Alı Paşa indiki ***Qarar (Qərər)*** kəndinin ərazisində məskunlaşmışdır. Bu kəndin keçmiş adı ***Dursunlu*** olubdur. Kəndin cənub hissəsində bütün sututar sahə - son zamanlara (*işğala*) qədər mövcud olan Ata Alı bağı, İlan düzü, Həkul düzü vaxtilə Alı Paşanın bağ yerləri olmuşdur. Cəbrayıl Atanın dəfn





edildiyi dağlıq sahə Alı Paşanın otlaq yaylağı, qışlaq yeri isə Koradərə Yarəhmədlisində olmuşdur. Adamlar və otlaq heyvanları Koradərəyə getmək üçün ***Alı Paşa*** (*bəzən adını **Alıpaşa** kimi də yazırlar*) dağının mərkəz aşırımında, yol üstündə ***2*** qoşa soyuq sulu bulaqlardan içdikdən sonra rahatca yollarına davam edərdilər...

Burada yaşayan əhali kəndin adına ***Qərar Dursun*** (***Qərar Tursun***) da deyirdi. Yerli məlumata görə, bu yaşayış məntəqəsi XIX əsrin əvvəllərində buradakı ***Qarar Dursun*** pirinin yanında salındığı üçün onun adı ilə də adlandırılmışdır. Pirin adı isə, "***Dursun*** (***Tursun***) *adlı* şəxsin *dəfn olunduğu, burada qərar tutduğu yer*" mənasındadır. Bəzi araşdırıcılar toponimi bununla əlaqələndirirlər.

***Qarın*** ərəbcə "*mağara*" mənası da məlumdur...

## QARASU KƏHRİZİ

Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Qarasu kəhrizi*** adlanır. Toponim ***qara, su*** və ***kəhriz*** sözlərindən ibarətdir. ***Kəhriz*** – qrunt sularını toplamaq və yer səthinə çıxarmaq üçün maili lağım şəbəkəsindən ibarət yeraltı qurğudur. Onun lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. ***Kəhrizlər*** peşəkar kankanlar tərəfindən qazılır və lağımları adətən daş və bişmiş kərpiclə tağbəndvarı hörülür. Kəhrizin saf, təmiz suyundan cu təchizatında və suvarmada geniş istifadə olunur. ***Kəhriz sistemi*** Azərbaycanda miladdan öncə I əsrdən mövcuddur. XX əsrin 60-cı illərində Azərbaycan Respublikasının ərazisində ***850*** *kəhriz* mövcud idi.

## QARATİKANLI DAĞ SILSİLƏSİ

Bəzi oronimlərin yaradılmasında coğrafi obyektin bitki və ağac örtüyü əsas götürülür və təyinedici komponent kimi ondan istifadə olunur. Amma bir sıra hallarda coğrafi nomenin ellipsisi nəticəsində sadə və düzəltmə quruluşlu ümumi fitonimlər sadə oronimlər kimi işlənməyə başlayır. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Qaratikanlı dağ sil-***

***siləsi*** oronimi də bu tipli coğrafi adlardandır. ***Dağ*** coğrafi termini müsbət relyef forması bildirən coğrafi termindir. ***Dağ*** termininin iştirakı ilə Azərbaycan Respublikası ərazisində çöl materialları arasında ***1*** 300 oronim toplanmışdır.

***Qaratikanlı*** oronimi fitonimdən törənmişdir. Toponimin tərkibindəki ***-lı*** şəkilçisi ***qaratikan*** bitkisi adının sonluğuna qoşularaq dağ silsiləsini təyin edir. *Dağa* orada murdarçakimilər fəsiləsindən olan ***qaratikan*** kol bitkisinin çoxluğuna görə belə ad verilmişdir. *Qaratikanın* çox şaxələnən kolunun hündürlüyü ***3*** metrə qədər olur. Onun tam kənarlı yarpaqları növbəli düzülür. Qabığının və meyvəsinin tərkibində aşı maddəsi olan *qaratikandan* dekorativ bitki kimi və canlı çəpər çəkmək üçün istifadə olunur.

## QARAVUL DAĞI, QARAVUL DƏRƏSİ

***Qaravul dağı*** oronimi Cəbrayıl rayonunun Ağtəpə və Dağ Tumas kəndləri ərazisində qeydə alınmışdır. Qarağac kəndi ilə Sofulu kəndi arasında, Düzgə dağının cənubunda da ***Qaravul dağı*** adlı oronimə rast gəlirik. Daş Veysəlli kəndi ərazisində qeydə alınmış ***Qaravul dərəsi*** oronimi də bu qəbildəndir. Bu oronimlər gözətçi məntəqəsi məqsədilə yaranmış oronimlərdəndir. Vaxtilə rus işğalçıları bu dağ zirvələrində kazak gözətçi postları yerləşdirmişlər. ***Qaravul dağı, Qaravul dərəsi*** coğrafi adları *"gözətçi dağı, dərəsi"* mənasındadır. ***Dağ*** müsbət relyef forması bildirən, ***dərə*** isə mənfi relyef ifadə edən coğrafi terminlərdir.

***Qaravul*** sözü ilə yaranmış oronimlərə *Qaravultəpə* (Zaqatala, Laçın rayonları), *Qarauldaş dağı* (Yardımlı rayonu), *Qaraultəpə* (Şərur rayonu), *Qaraultəpə zirvəsi* (Lerik rayonu), *Qaravul yalı* (Goranboy, Kəlbəcər rayonları), *Qaravul qaya* (Qubadlı rayonu), *Qaravultəpə* (Babək rayonu), *Qaravulxana dağı* (Ordubad rayonu) və başqalarını nümunə göstərə bilərik.





## QARĞULU DƏRƏSİ, QARĞULU ÖRÜŞÜ, QARĞULU TƏPƏSİ

Cəbrayıl rayonunun Alıkeyxalı kəndi ərazisində ***Qarğulu dərəsi, Qarğulu örüşü, Qarğulu təpəsi*** oronimləri də qeydə alınmışdır. ***Dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Örüş – otlaq sahəsinə deyirlər. ***Təpə*** coğrafi termini isə müsbət relyef formasını ifadə edir. İlk baxışda oronimi ***qarğı*** (***qamış***) adı ilə əlaqələndirmək mümkündür. Amma araşdırmalar sübut edir ki, ***Qarğulu*** toponimi türk dillərində ***çereqe***, monqol dilində ***kəruqə*** sözündən olub *"köçəri maldarların qış evləri"*, *"keçə ilə örtülmüş alaçıqlar"* deməkdir.

Ölkəmizdə bu tip oronimlərin sayı ***50***-dır. *Qarğulu dağ, Qarğulu təpə* (Şəmkir rayonu), *Qarğulu dərə* (Zəngilan rayonu) və s. oronimlər çöl materialları əsasında yaranmış bu qəbildən olan toponimlərdəndir...

## QARQIŞLAQ

Xələfli kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Qarqışlaq*** adlanır. Bəzən bu coğrafi ad sənədlərdə ***Qarıqışlaq*** kimi də yazılır. Toponimin tərkibindəki ***qışlaq*** termini *"mal-qaranın qışladığı ərazi, otlaq sahəsi"* anlamını ifadə edir. ***Qışlaqlar*** maldarlıq təsərrüfatı ilə əlaqədar yaranmışdır. Qarabağ əraziləri (*o cümlədən Cəbrayıl rayonunun ərazisi*) qoyunçuluğun qədim qışlaqları hesab olunur. Qışlaqlardan istifadənin təxminən ***6 000*** il yaşı vardır. İqliminin mülayim olması, örüş yerlərinin genişliyi, yem ehtiyatının bolluğu qışlaqların əsas xüsusiyyətləridir. Qışlaqlarda adətən əvvəllər binələr salınır, sonralar isi onlar tədricən yaşayış məntəqələrinə çevrilirdi...

## QARQIŞLAQ PİRİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qarqışlaq piri*** adlanır. Əslində deyilənə görə onun adı ***Qarıqışlaq piri*** olmalıdır. Toponim ***qar*** (***qarı***), ***qışlaq*** sözlərindən və ***pir*** komponentindən ibarətdir. Toponimin tərkibindəki ***qışlaq*** komponenti *"heyvanın,*

*mal-qaranın qışladığı otlaq sahəsi olan ərazi"* mənasındadır. Bu *qışlağın* çoxlu övliyası olub. Onun çil ağacı da vardı. Qışlaqda *kalafalıqlar ("xaraba qalmış evlər")* da çox idi. Buralar yerli əhali tərəfindən əvvəldən ***pir*** kii müqəddəs *ocaq* təki əziz tutulmuşdur. Deyilənə görə, vaxtilə Fatma nənənin əlində kündə olanda gavur *(kafir)* gəlib onun başının üstünü kəsibdir. Fatma nənə deyib:

*- Allah, mənim kündələrimi daş elə, amma gavıra qismət eləmə.*

Allah da onun çağırışını, duasını eşitmiş, balaca kündəni balaca daşa, yekə kündəni yekə daşa döndərmişdi. Onun duağı *(dördayağı)*, oxlavı da daş olmuşdu. ***Qarqışlaq (Qarıqışlaq)*** pirini ziyarət edənlər çıraq yandırar, bura xoruz, toyuq və s. gətirərdilər. ***Qarqışlaq piri*** Cəbrayıl rayonunda böyük ocaqlardan, pirlərdən sayılırdı...

Məlumdur ki, ***pir*** – dini etiqad və inamla bağlı ibadət, sitayiş yeridir. *Pirlər* uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca", "dini icmanın başçısı", "müqəddəs"* mənasını bildirir.

## QARNIYARIQ PİRİ

Horovlu kəndinin mərkəzi hissəsində, Orta kəhrizin 20 metrliyində qeydə alınan oroqrafik obyekt ***Qarnıyarıq piri*** adlanır. ***Qarnıyarıq piri*** nəhəng gövdəli, iri diametrli koğuşu olan bir kötükdən çıxan üç qanad çinar ağacından ibarətdir. Çinar o qədər böyük idi ki, onun koğuşuna eyni vaxtda 5-6 adam yerləşərdi. Niyyəti olanlar Novruz bayramlarında, İlaxır çərşənbələrdə çinarın koğuşunda qara çıraq yandırardılar. Bu kimi hərəkətlər ənənə şəklini almışdı. Ümumiyyətlə, *Qarnıyarıq pirə* niyyət edənlər ziyarətə adətən çərşənbə günləri gələrdilər. Ağacın koğuşu ***yarılmış, yarıq*** vəziyyətdə olduğu üçün toponim belə adlandırılmışdır.





## QARYAGIN QƏZASI

*(Bax:* **Cəbrayıl qəzası)**

## QASIM NİŞANGAHI

Keyxalı və Niyazqulular kəndlərinin arasında, Şahvəlili kəndi istiqamətindəki yolun kənarında olan Cigir bulağının qabağında qeydə alınan oroqrafik obyekt ***Qasım nişangahı*** adlanır. Bu ***nişangah*** daşdan ibarətdir. Yerli məlumata görə Şıx Hacı Qasım Çələbi Cingir bulağının suyu ilə abdəst alıb, burada namaza durardı. Oronim ***Qasım*** Çələbinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Həmin ***nişangah*** yerli camaat tərəfindən əziz tutulurdu.

## QAŞIQ BULAQ

Düzgə dağının gündoğanında, Həzrət Əli səngərinin ətəyində, mənzərəli təbiət qoynunda qeydə alınan hidronim ***Qaşıq bulaq*** adlanır. ***Qaşıq bulaq*** iri daş parçasının ensiz yarıq hissəsindən qaynama ilə çıxan zəif sulu bir çeşmədir. Suyu soyuq və şirindir. Çeşməni çalxaladıqca suyu da gurlaşır. ***Qaşıq*** ilə çalxaladıqda axın verdiyinə görə hidronim el arasında ***Qaşıq bulaq*** adını almışdır.

***Bulaq*** – yeraltı suların yerin üstünə təbii çıxma hadisəsidir. Bulağın suyu horizontun və ya çatın yer səthi ilə kəsişdiyi yerdə olur. ***Bulaqlar*** temperatur, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətləri və s.-yə görə bir-birindən fərqlənirlər. *Bulaqlar* əsasən ***2*** cür olur: ***1)*** çatlar və məsamələrlə enən bulaqlar (çeşmə); ***2)*** *qalxan bulaqlar (qaynaq)*. 1 litr bulaq suyunda 1 qramdan artıq həll olmuş duz, həmçinin müəyyən qədər qaz və ya nadir elementlərdən biri olarsa və o, müalicə əhəmiyyətlidirsə, belə bulaqlar *mineral bulaqlar* və ya *qaynaq* adlanır. Bulaqlar temperaturuna görə soyuq, ılıq, termal *(isti)* və hipotermal (çox isti) olurlar.

## QATAR QAYA

***Qatar qaya*** oronimi Qazanzəmi kəndinin yaxınlığında, Söyüdlü kəndinə gedən yolun üstündə Təktüklü dağın ətəyində yerləşir. Bu yüksək hündürlüklər vərgə ilə sıralanmış qayalardan ibarət olduğu üçün yerli əhali tərəfindən ***Qatar qaya*** adlandırılmışdır.

## QATIR DƏRƏSİ

***Qatır*** ev heyvanı adı ilə əlaqədar respublikamızda çoxlu oronimlər yaranmışdır. Çoxlu yük götürməsi, sıldırımlı dağ yolları ilə gedə bilməsi dağ şəraitində vaxtilə ***qatırı*** ən sərfəli nəqliyyat vasitəsinə çevirmişdir. Cəbrayıl rayonu ərazisində ***qatır*** heyvan adı ilə bağlı ***Qatır dərəsi, Qatır ölən dərə, Qatır uçan dərə*** oronimləri də qeydə alınmışdır. Öz adında ***qatır*** heyvan. adını əks etdirən oroqrafik obyektlərə nümunə olaraq *Qatır yaylağı* (Şuşa rayonu), *Qatır yoxuşu* (Zəngilan rayonu, Muğanlı kəndi), *Qatır çuxuru* (Laçın rayonu) və başqa oronimləri göstərmək olar.

***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada *"relyefin dar, çökək forması"* adətən ***dərə*** coğrafi termini ilə ifadə olunur. ***Dərə*** termini ilə bağlı respublikamız ərazisində çöl materialları içərisində ***30 000*** coğrafi ad toplanmışdır. Oronimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq ifadə edir. ***Qatır dərəsi*** toponimi *"qatır olan dərə"* mənasındadır.

Onu da qeyd etməyi lazım bilirəm ki, bəzi tədqiqatçılar bu tipli toponimləri ***qatar*** (***katar***) tayfasının adı ilə əlaqələndirirlər...

## QATIR ÖLƏN DƏRƏ, QATIR UÇAN DƏRƏ

***Qatır*** - at ilə erkək eşşəyin hibridi olan yük heyvanıdır. ***Qatır*** yük heyvanı vaxtilə sərfəli nəqliyyat vasitəsi olmuşdur. Azərbaycanda ***qatır*** minik və qoşqu heyvanından hələ e.ə. I minilliyin sonlarında istifadə olunmuşdur. ***Qatır ölən dərə*** oronimi Cəbrayıl rayonunun Şahvəlili kəndinin ərazisində qeydə alınmışdır. Bu oronim vaxtilə ***qatırın*** bu ***dərə*** ərazisində ***"ölməsi"*** ilə əlaqədar olaraq belə adlanmışdır. Azərbaycan oronimiyasında bu qəbildən olan oroqrafik obyektlər çoxdur.





Maraqlıdır ki, bu tipli daha bir oroqrafik obyekt - ***Qatır uçan dərə*** oronimi Cəbrayıl rayonunun Şahverdili kəndi ərazisində də qeydə alınmışdır. Oronim öz adında kəndin yaxınlığındakı yoxuşdan ***qatırın*** sürüşüb dərəyə düşərək ölməsini əks etdirir. Baş vermiş hadisəyə görə adlandırılan bu oronim qatırın dağdan, qayadan, hər hansı bir yüksəklikdən, zirvədən, yoxuşdan ***uçması***, *yıxılması* hadisəsini özündə əks etdirir.

Əlavə məlumat üçün bax: **Qatır dərəsi.**

## QAYABURNU KƏHRİZİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Qayaburnu kəhrizi*** adlanır. Toponim ***qaya***, ***burun*** və ***kəhriz*** sözlərindən ibarətdir. Kəhriz ***qayanın*** çıxıntılı, ***burun*** hissəsində yerləşdiyi üçün belə adlandırılmışdır. Bu kəhrizin soyuq və dumduru suyu vardır. Toponimin tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması bildirir. ***Burun*** coğrafi termini *"qurunun, dağın, qayanın sivri bucaq şəklində düzə tərəf uzanan hissəsi"* mənasındadır. Toponim *"qurunun sivri bucaq şəklində uzanmış hündür ərazisində olan kəhriz"* mənasındadır. ***Burun*** toponimi yerin coğrafı quruluşunu (*orada dağ burnunun olmasını*) əks etdirir.

***Kəhriz*** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## QAZANZƏMİ KƏNDİ

***Qazanzəmi kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 53 kilometr qərbdə, Qazanzəmi inzibati ərazi vahidində, Qubadlı rayonu ilə sərhəddə, Qarabağ silsiləsinin ətəyində, dəniz səviyyəsindən təxminən 1400 metr yüksəklikdə yerləşir. Əhalisinin sayı 462 (01.01.2008) nəfərdir. Heyvandarlıq, taxılçılıq, bağçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kəndin *Abdıuşağı, Ağauşağı, Ağıreyvazlı, Alınşağı, Azaruşağı, Əzimuşağı, Fezinuşağı, Hacıməmmaduşağı, Həşimuşağı, Xanpərinəvəsilər, İmişuşağı, Kazımuşağı, Lələuşağı, Məhəmmaduşağı* və s. adlı tayfa, tirə, nəsilləri vardır.

Kəndin yaxınlığında vaxtilə burada mövcud olmuş Kortuzan və Maxav yaşayış məntəqələrinin xarabalıqları indi də qalmaqdadır. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi, ticarət obyektləri və s. vardı. Kəndin ərazisində *Abbasın şırşırı, Ağa yatağı, Ağanın qışlağı, Ağcaqayınlı zəmi, Alban düzü, Arabaqayırılan yer, Arpa dərəsi, Ayı qayası, Azarəkən, Bahadurun qoz ağacı, Baxacaq yalı, Balakişinin dərə yeri, Bayramın bağı, Bayramın qoz ağacları, Bazavuzun təkəsi, Budaq dərəsi, Cavahirin bağı, Cimi dərəsi, Çaxnaxlar dərəsi, Çalaların dərəsi, Çardaqlı yurdu, Çələbi qəbri, Çinafarlı düzü, Çökək zəmi, Dadaşın bağı, Dalaqlı dağı, Daşlı yoxuş, Dəhnə yeri, Dəvə boynu, Düzlər yeri, Əşrəfin qoz ağacı, Əzimin yeri, Fezivurulan yer, Fezinin biçənəyi, Fezinin pöhrəliyi, Fərhadın dəyirmanı, Gədik zəmi, Gilasların dərəsi, Göyüş əkən, Gülünün quzeyi, Güney yeri, Hacanur, Hacıəkən, Hacanur dağı, Hav yeri, Həsənxan yeri, Həsənqışlaq, Həşimuşağı yeri, Humay yeri, Humayın bağı, Hüseyn xanın dəyirmanı, Xanqulunun yeri, Xəzərliyin dərəsi, Xıdırın qoz ağacı, İbrahimin dərə yeri, İldırımvuran qaya, İsa biçənəyi, Kahaların boynu, Kərimin armudu, Kərtdəş yer, Kitabının zoğallığı, Kolabatın dərəsi, Qamqalaqlı təpə, Qara torpaq, Qaraburunlar, Qarağaclı yer, Qaratikanlı düz, Qaraoğlanın qoz ağacları, Qasımın bağı, Qasımın dərəsi, Qasımın mərəyi, Qasımın taxtası, Qatar qaya, Qayaların boynu, Qırmızı qaya, Qoşabulağın dərəsi, Qotur suyun quzeyi, Qozun dərəsi, Laləli yer, Lətifin qoz ağacı, Mağazlı qışlağı, Maxav, Mardarıx dərəsi, Metal taxta, Maşanlı quzeyi, Maşanlı yalı, Məmməd daş yanan, Məmmədqulunun qoz ağacı, Moda zəmi, Molla Abbasqulunun qəbri, Moruqlu yal, Nərdivan daş, Nigar qarının qozları, Orta yal, Palçıqlı piri, Palçıqlı şırşırı, Papaq daş, Pırpızlı Mustafanın bağı, Rəcəblər yeri, Rusbasıran dağı, Saqqızlı yalı, Salatının qoz ağacları, Sayad təpəsi, Su çuxuru, Sustalıq piri, Şıxəzəddin ocağı, Şirinin yeri, Şükürvurulan, Tənnur dağı, Təktüklü, Tələqurulan, Tənəkli dərə, Toğlu təpə, Tumas yoxuşu, Ulaslı dərə, Usubuçan qaya, Veysəlli yer, Yelli yurd, Yolaşan, Yovşanlı yal, Yuanlı dağı, Zöhrəbanının təpəsi* və s. coğrafi adlar, eləcə də *Ağa bulağı, Almurad bulağı, Ayna bulağı, Balıq gölü, Cəddi bulağı, Cinfarlı bulağı, Daşbulaq, Dolayı bulaq, Əmiraslan bulağı, Fındıqlı bulaq, Həsənxan bulağı, Xanabulaq, Küllü bulaq, Qarağaclı bulaq, Qaramanlı bulaq, Qasım bulağı, Qızlar bulağı, Qoşa bulaq, Qotur su, Quş bulağı, Maxav bulaq, Maral bulağı, Novlu bulaq., Palçıqlı bulaq., Pəri bulaq, Soyuq bulaq, Sustalıq bulağı* və s. hidronimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi **25 avqust 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdir.

***Qazanzəmi*** kəndinin adı ***Qazan*** və ***zəmi*** (*taxıl* əkilən *sahə, yer*) sözlərindən ibarətdir. ***Qazan*** - şəxs adıdır (bu ad "*Kitabi-Dədə Qorqud*" dastanında da var). Oykonimin tərkibindəki ***zəmi*** sözü isə, "*əkin yeri*", "*taxıl əkilən sahə*" deməkdir. ***Qazanzəmi*** toponimi "*Qazanın yurdu*", "*Qazana məxsus yer*", "*Qazanın* əkin *sahəsi*" mənasındadır. ***Qazan*** qədim türk tayfa adının toponimiyamızda xüsusi yeri vardır. Tarixi mənbələrdə göstərilir ki, e.ə. II əsrdə Şimali Qafqazdan gələn qədim bolqarların ***qazanzəmi*** adlı bir tayfası da olmuşdur. Erkən orta əsrlərə aid olan mənbələrdə qeyd olunur ki, ***Qazan*** tayfa birlikləri Azərbaycana eramızın I əsrində hun türklərinin, V-VII əsrlərdə isə xəzər, suvar, avar və s. türk tayfalarının tərkibində gəlmişlər.

V əsrdən bizə məlum olan ***Qazan*** antroponimi bir çox qədim və müasir türk xalqlarında geniş yayılmış şəxs adıdır. ***Qazan*** antroponimi ilə çoxlu sayda toponimlər yaranmışdır. D.D.Paqirevə görə, XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazda ***qazan*** sözü ilə bağlı ***24*** coğrafi ad mövcud olmuşdur.

Bəzi tədqiqatçılara görə, ***Qazanzəmi*** oykonimi zahirən məişətdə işlənən ***qazana*** oxşadığı, ***qazan*** ağzına bənzədiyi üçün belə ad almışdır. Əlbəttə, belə fikirlər düzgün deyildir. Heç kəndin relyefi də bunu deməyə əsas vermir. Yəqin ki, bəzi sənəd və materiallarda əks olunmuş bu tipli izahlar həmin müəlliflərin öz təxəyyüllərinin məhsuludur.

## QƏDİM ARMUD

Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınmış toponimlərdən biri ***Qədim Armud*** adlanır. Bu, ***qədim*** bir ağacdan ibarətdir. Onun diametri ***60*** santimetr, hündürlüyü isə ***9*** metrdir. Bu ***armud*** ağacının yaşı təxminən ***300*** il olduğu üçün toponim belə ad almışdır. ***Qədim Armud*** adlanan bu ağac erməni işğalına yerli sakinlər tərəfindən qədər qorunurdu. Son məlumatlara görə o da məhv edilmişdir...

## QƏJƏR (QACAR) OCAĞI

***Qəjər ocağı*** (əslində ***Qacar ocağı*** şəklində yazılmalıdır) coğrafi adı Cəbrayıl rayonunun Soltanlı kəndindən şərq tərəfdə yerləşir, O, *Ağa Məhəmməd* Şah *Qacarın* adı ilə əlaqədar belə adlanmışdır. Rəvayətə görə, 1795-ci ildə ***Ağa Məhəmməd Şah Qacar*** Qarabağa, Şuşaya hücum edərkən indiki Cəbrayıl rayonunun Soltanlı kəndindən keçməli olur. Onun qoşunu burada güclü yağışa düşür. Burada böyük tonqal - ***ocaq*** qalanır. Əsgərlər islanmış paltarlarını qurutduqdan sonra yollarına davam edirlər. Kəndin ərazisində olan həmin yer o zamandan ***Qəjər (Qacar) ocağı*** adlanmışdır. ***ə-a*** və ***j-c*** hərf əvəzlənmələri Cəbrayıl şivəsinin səciyyəvi xüsusiyyətləri ilə əlaqədardır.

Vaxtilə Səfəvi şahı I Şah Abbas (*1587-1629*) qacarları Astrabada köçürmüşdür. ***Qacar*** türkdilli tayfa sülaləsi XVIII - XIX (*XX* əsrin *I rübünə qədər*) əsrlərdə İranda hakimiyyətdə olmuşdur. Türkmənşəli ***qəjər (qacar)*** tayfası qədimdə Gəncə və Bərdə şəhərlərində də yaşamışlar. Qacarların bir qismi Şamdan gəlmişdir. Bu tayfadan çoxlu sayda əmir, *sultan, hakim* çıxmışdır.

***Qacar*** etnonimi ilə bağlı Füzuli rayonunda *Qacar kəndi*, Bərdə rayonunda *Böyük Qacar* kəndi və *Kiçik Qacar kəndi*, Şuşa rayonunun Quşçular kəndi yaxınlığında *Qacar qayası* və s. coğrafi adlar da qeydə alınmışdır.





## QƏJİM NƏNƏ OCAĞI

***Qəjim nənə ocağı*** Gordu baba dağının cənubunda, xarabazarlığı qalmış Qarıqışlaq kəndinin qədim məzarlığında yerləşir. Bəzən adına Çilə ocağı da deyilir. Bu ***ocaq-qəbirin*** üzərində haçaqanad *dağdağan* ağacı bitir. Vaxtında yeriməyi bacarmayan uşaqları dağdağan ağacının haçasından keçirirlər. Buna çilədən keçirmə deyirlər. Yerli əhali bu ***ocağı*** müqəddəs hesab edir.

## QƏHRƏMAN YURDU

Dağ Tumas kəndinin yaxınlığında, İncə kəhrizinin üstü adlanan düzəngah ilə Gədə yolu arasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qəhrəman yurdu*** adlanır. ***Qəhrəman yurdu*** ərazisi uzunsov sahəyə malik bir yerdir. Toponimin tərkibi ***Qəhrəman*** və ***yurd*** sözlərindən ibarətdir. ***Qəhraman*** sözü şəxs adıdır. Toponim "*Qəhrəmana məxsus olan yurd*" anlamındadır.

## QƏMBƏR BAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Qəmbər bağı*** adlanır. Toponim ***Qəmbər*** şəxs adından, ***bağ*** sözündən və -ı şəkilçisindən ibarətdir. Bu bağda çoxlu sayda meyvə ağacları vardı. Oronim bağın qurucusu olan ***Qəmbər*** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim "*Qəmbərə məxsus olan bağ*" mənasındadır. Bu tipli coğrafi adlara digər rayonlarımızın ərazilərində də rast gəlmək olur.

## QƏNDİYALI DÜZÜ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qəndiyalı düzü*** adlanır. Bu oronim şəxs adı ilə əlaqədar yaranmış coğrafi adlardandır. Ümumiyyətlə Azərbaycan toponimiyasında antroponimik oronimlər üstünlük təşkil edir.

***Düz*** coğrai termini mənfi relyef forması ifadə edir. Azərbaycan Respublikası ərazisində adının tərkibində ***düz*** termininin iştirak etdiyi ***11 000*** toponim qeydə alınmışdır.

## QƏNŞƏR TƏPƏ

Dağ Tumas kəndinin yaxınlığında, Düzgə dağının ətəyində, Qarağac dağının gündoğan hissəsində qeydə alınan oronimlərdən biri ***Qənşər təpə*** adlanır. Toponim ***qənşər*** və ***təpə*** sözündən ibarətdir. ***Qənşər*** sözü *"qabaq"*, *"qarşı"* anlamındadır. ***Qənşər*** təpənin qarşısında başqa bir ***təpə*** də olduğu üçün toponim belə ad almışdır.

Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## QƏRƏR PİRİ

***Qərər piri*** adlanan oroqrafik obyekt Cəbrayıl rayonunun Qarar kəndi ərazisində, *Cəbrayıl-Xələfli* yolunun üstündə qeydə alınmışdır. Bu ***pir*** Qarar kəndi ərazisində yerləşdiyi üçün belə adlanmışdır. Toponim bir qədər təhrifə uğramışdır. Əslində o, ***Qarar piri*** adlanmalıdır. Bəzən adına ***Qara Əli piri*** və ya ***Dursun piri*** də deyirlər. Yerli məlumata görə, bu *pir-qəbir* ***Dursun*** adlı bir möminin dəfn olunduğu yerdir və bu ***pir*** də ***Qərər*** (***Qarar***) kənd icmasının inanc yerlərindən biri hesab edilir.

***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.





## QƏRƏL

Bəzi araşdırıcılara görə, ***Qərəl*** oykonimi bir qədər tərifə məruz qalmışdır. Belə ki, onlara görə toponim ***qara*** sözündən və əli komponentindən ibarətdir. ***Qara*** burada rəng anlamını ifadə edir. Azərbaycan Respublikasının ərazisində bu tipli toponimlərə cox yerdə rast gəlmək mümkündür.

## QƏRİB AĞANIN QƏBRİ

Rayonun Daşveysəlli kəndinin günbatanında, kənd qəbiristanlığının ortasında daş hərləməyə alınmış qəbir ***Qərib Ağanın qəbri*** adlanır. Yerli camaat tərəfindən bu qəbirdə dəfn olunan adamın mömin olduğu söylənilir. Burada uyuyan adamın şəxsiyyəti məlum olmadığından toponim belə adlandırılmışdır. Qəbirin üstündə qaratikan kolları vardır. Buraya ziyarətə gələnlər qəbirin daşları üstünə nəzir-niyaz qoyurlar. Ürəklərində niyyət tutub dilək edənlər kolun qol-qanadından yaylıq, parça qırıntıları bağlayar, tutya torpağından alınlarına sürtərdilər. ***Qərib Ağanın qəbri*** coğrafi adı ilə bağlı çoxlu rəvayətlər uydurulmuşdur.

## QƏRİB SEYİD OCAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri Qərib ***Seyid ocağı*** adlanır. Bu ***ocaq*** yerli sakinlər tərəfindən əziz tutulur. ***Ocaq*** adından da göründüyü kimi, ***qərib*** bir ***seyidin*** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. ***Ocaq*** sözü *"ev"*, *"ailə"*, *"məskən"*, *"yer"*, *"mənbə"* və s. anlamları ifadə edir. Qədim yunan, slavyan, alman, türk, Qafqaz , Sibir və başqa xalqlarda ***ocaq*** sözü müqəddəs yer hesab olunur. Azərbaycanın bəzi zonalarında ***ocaq*** əvəzinə ***pir*** ifadəsi də işlədilir. ***Pirlər*** (***ocaqlar***) ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər.

## QILIÇLI ÇÖLÜ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Qılıçlı çölü*** adlanır. İlk baxışda adama elə gəlir ki, toponim ***qılınc*** adından formalaşmışdır. Bu oronimin ***qılınc*** döyüş aləti ilə bağlılığı yoxdur. ***Qılıçlı*** sözü Mahmud Kaşğarinin lüğətində ***kilişli*** şəklindədir. XVIII əsrə aid olan mənbələrdə bu sözə ***Kılıclı*** şəklində rast gəlirik. Məlumdur ki, ***Qılıçlı*** adlı qədim türk tayfası var. Tarixi mənbələrdə bu tayfa adına tez-tez rast gəlinir.

***Qılıclı*** tayfasının ulu babası ***Qılıç*** kətxudadır. O, XVIII əsrin ikinci yarısında ***Cəbrayıllı*** elinin ***Alıkovxalı*** obasında yaşamışdır. Onun Rəhim (*1782-ci ildə anadan olub*) və Məhəmmədəli (*1784-cü ildə anadan olub*) adlı oğlanları vardı...

***Çöl*** termini oronimiyada *"geniş düzənlik"*, *"meşəsiz sahə"*, *"susuz düzənlik"*, *"bozqır"*, *"səhra"* mənalarını ifadə edir. ***Çöl*** coğrafi termini mənfi relyef forması bildirir. Azərbaycan Respublikasının ərazisində ***çöl*** termini ilə bağlı ***100*** coğrafi ad toplanmışdır.

## QILIÇLI (QILIŞLI) KƏHRİZİ

Soltanlı kəndinin ərazisində ***Qılıçlı*** (***Qılışlı***) ***kəhrizi*** mikrohidronimi də qeydə alınmışdır. Hidronim ***Qılıçlı*** yer adı ilə əlaqədar olarq belə adlanmışdır. Tarixi sənədlərdən aydın olur ki, ***qılıç*** (***qılış, kiliş***) adlı qədim türk tayfası da olmuşdur.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fasillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.





## QILIÇLI YERİ

Soltanlı kəndində qeydə alınan ***Qılıçlı*** oronimi ***qılıç//kiliş*** qədim türk tayfalarının birinin adı olmuşdur. M.Kaşğarinin *"Divani-lüğəti-türk"* əsərində bu söz *"kiliş"* şəklindədir. Artıq XVIII əsr mənbələrində bu sözə (***Qılıclı, Qılıçlı***) etnoniminə ***Kılıçlı, Qılıclı*** formasında rast gəlinir. Soltanlı kəndinin ərazisindəki bu ***yer*** həmin tayfanın adı ilə eyni olan ***Qılıc*** (***Qılınc***) adlı şəxsin adı ilə bağlıdır. Tayfanın ulu babası ***Qılıc kətxuda*** olmuşdur. ***Qılıc kətxuda*** XVIII əsrin ikinci yarısında Cəbrayıllı elinin Alıkovxalı obasında ömür sürmüşdür. Onun Rəhim və Məhəmmədəli adlı oğlanları olmuşdur. ***Qılıclı*** (***Qılıçlı, Qılınclı***) nəslinin adı ilə bağlı Azərbaycanda, eləcə də Cəbrayıl rayonu ərazisində xeyli toponim qeydə alınmışdır.

Laçın və Kəlbəcər rayonlarında *Qılıçlı kəndi* vardır.

## QILINCLI DÜZÜ

Soltanlı kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Qılınclı düzü*** adlanır. ***Qılınclı düzü*** toponimi ***qılınc*** və ***düz*** sözlərindən, eləcə də ***-lı*** və ***-ü*** şəkilçilərindən ibarətdir. ***Qılıc*** (***Qılınc***) şəxs adıdır. O, XVIII əsrdə yaşamış, obalarına başçılıq etmişdir. Onun Rəhim və Məhəmmədəli adlı oğlanları var idi. Ondan sonra gələn nəsil onun adı ilə əlaqədar ***qılıclı*** (***qılınclı***) adlanmışdır.

***Qılınclı düzü*** toponimi *"qılınca bənzər düz"* anlamındadır. Oronimiyada ***düz*** coğrafi termini mənfi relyef forması bildirir. Çöl materialları içərisində Azərbaycan Respublikası ərazisində adının tərkibində ***düz*** termini olan ***11 000*** düz (*düzənlik*) qeydə alınmışdır.

## QIRAXDIN

Cəbrayılın ən qədim toponimlərindən biri ***Qıraxdın*** adlanır. ***Qıraxdın*** - bir müddət Cəbrayıl rayonunun (şəhərinin) adı olmuşdur. Bu sözü bəzi araşdırıcılar Avropa mənşəli, italyan əsilli (***karantin*** - italyanca *"qırx gün"* deməkdir) söz hesab etmişlər. Əslində bu söz ***karantin*** sözündən

dönmə sözə bənzəmir. Bəzi araşdırıcılar ***qıraxdın*** sözünü *"dindən kənar"* anlamı ilə şərh edirlər. Toponimi qədim ***qır*** tayfalarının adı ilə də bağlayanlar vardır...

Hələ I Şah Abbasın hakimiyyət vaxtında (*1587 - 1629*) qıraxdınlıların Cənubi Azərbaycandan Arazdan şimala, Şuşa və Cəbrayıl rayonlarının ərazilərinə kütləvi axınları olmuşdur. Şuşanın yerli əhalisi və oraya gələnlərin bəziləri XVIII əsrin əvvəllərindən başlayaraq Cəbrayıl ərazisinə gəlirdilər. Onlar əsasən mərkəzdən bir qədər qıraqda - *Çinarüstü* hissədə məskunlaşırdılar. O zamanlardan qıraqdan (*qıraxdan*) gələnlərin hesabına Cəbrayıl böyüyərək şəhərciyə çevrilirdi. Şəhərciyin *Yuxarı* məhəlləsində İran Azərbaycanından gələnlər, Çökək məhəlləsində isə şuşalılar (*qalalılar*) yaşayırdılar. ***Quraxdın*** oykonimi ***qıraqdan*** Cəbrayıla gəlib, onun *qırağında* yer götürərək yurd salanların adı ilə əlaqədar yaranımşdır. Bu "***qıraxdanlaşma***" o dövrün ictimai-siyasi və iqtisadi hadisələri ilə bağlı olmuşdur. Doğrudan da, toponimi *"mal-qara xəstəliyinə qarşı mübarizə"* anlamlı ***karantin*** (*burada ucqarlarda ruslaşdırma siyasətini də unutmaq lazım deyil*) sözü ilə məhdudlaşdırmaq düzgün olmazdı. Türkiyədə və başqa türkdilli ölkələrdə də ***Qıraxdın*** toponiminə rast gəlirik.

Bəzi tədqiqatçılar ***Qıraxdın*** sözünü XVIII əsrdə Nadir şahın hakimiyyəti dövründə Azərbaycana köçmüş ***cəlair*** türk qəbiləsinə mənsub olan ***Qıraqlı//Qıraxlı*** nəslinin adı ilə əlaqələndirirlər. Tarixi mənbələrdən o da məlumdur ki, ***qır, qırlı, qırıxlı*** adlı türk tayfaları olmuşdur. Cəbrayıl rayonu üçün xarakterik olan ***a-ı*** səs əvəzlənməsini nəzərə alsaq, toponimin bu tayfa adı ilə bağlılığını görərik. ***Qıraxdın*** toponimi dilimizin qədim quruluşa malik olduğunu özündə mühafizə edən, qoruyub saxlayan toponimlərdəndir.

Güman etmək olar ki, Laçın rayonu ərazisində *Qıraxdın qayası, Kiraxdin yeri,* Culfa rayonunda *Qıraxdın yolu*, Saatlı rayonunda *Qıraqlı*, Tovuz rayonunda *Düz Qıraqlı*, Ağstafa və Qazax rayonlarında *Qıraq Kəsəmən, Qıraq Salahlı*, Xaçmaz rayonunda *Qıraqlı*, Goranboy və Göygöl rayonlarında *Qırıqlı*, Ağstafa rayonunda *Qırılı*, Zəngilan rayonunda *Qıraq Muşlan*, Ağsu rayonunda *Qırlar*, Abşeron yarımadasında *Qırdağ*, Qərbi Azərbaycanda (*Ermənistanda*) vaxtilə mövcud olmuş *Qıraqkənd* və başqa bu qəbildən olan toponimlər də ***qır, kırıklı, qıraxlı*** türk tayfaları adı ilə əlaqədar yaranmışdır.





## QIRMIZI TƏPƏ

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də ***Qırmızı təpə*** oronimidir. Oronimin tərkibindəki ***qırmızı*** termini təpənin süxurlarının rəngini əks etdirir. ***Təpə*** coğrafi termini müsbət relief formasını ifadə edir.

Toponimiyamızda tez-tez rast gəldiyimiz ***qırmızı*** sözü obyektin rəngini bildirməklə yanaşı, həm də məcazi mənalarda *"gözəllik, aydınlıq, parlaqlıq, qan rəngli,* şadlıq, *al"* və s. anlamları da ifadə edir.

Qazax, Qubadlı, Laçın rayonlarında da *Qırmızı təpə* coğrafi adı qeydə alınmışdır. Vaxtilə İrəvan quberniyasının Novobayazid vo Eçmiadzin qəzalarında da *Qırmızı təpə* dağı coğrafi adı olmuşdur.

## QIRMIZILAR

Dağ Tumas kəndinin 5 kilometrliyində, Kollu dərənin Tumas dağının zirvəsinə çatan yerində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qırmızılar*** adlanır. Bəzən onun adına ***İtuçan*** (*yerli məlumata görə vaxtilə buradakı sıldırım qayadan **it uçaraq*** yıxıldığı üçün oronim belə ad almışdır) da deyirlər. Toponim ***qırmızı*** sözündən və ***-lar*** cəm şəkilçisindən ibarətdir. Bu oronim ***qırmızı*** rəngdə olan sıldırım yüksəklikdən, qayadan ibarət olduğu üçün belə adlandırılmışdır.

## QISIRMAC

Cəbrayıl rayonu ərazisində, Dağ Tumas kəndindən 5 kilometr məsafədə, Zolaqlar deyilən yerin qərbində, Dağ Tumas – Maşanlı yolunun şərqində qeydə alınan oronimlərdən biri ***Qısırmac*** adlanır. Oronim bir qədər təhrifə uğramışdır; əslində ***Qısıryamac*** şəklində olmalıdır. Azərbaycan oronimiyasında bu tipli oronimlərə tez-tez rast gəlmək olur.

## QIŞLAQ KƏNDİ

***Qışlaq kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 16 kilomelr şimal-şərqdə, Süleymanlı kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə əsas məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Kəndin yaxınlığındakı *Nəbi yolu, Sulu dərə, Abbas haləngi* adlanan ərazilərdə e.ə. I minilliyə aid yaşayış məskənlərinin qalıqları aşkar olunmuşdur. ***Qışlaq kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Qışlaq*** toponimi həm coğrafi termin kimi, həm də yer adı kimi işlədilir. Yaşayış məntəqəsi keçmiş ***qışlaq*** yerində salındığı üçün belə adlandırılmışdır. ***Qışlaq*** toponimi ***qış*** sözündən və ***-laq*** komponentindən ibarət olub, *"qış yurdu"* mənasındadır. ***Qışlaq*** - mal-qara qışladığı əraziyə, otlaq sahəsinə deyilir. Qışlaqlar maldarlıq təsərrüfatı ilə əlaqədar yaranmışdır. Qarabağ ərazisi də qoyunçuluğun qədim qışlaqları hesab olunur. Mal-qara qışlaqlarda soyuqlarla əlaqədar adətən 7-8 ay saxlanılır, otarılır. İqliminin nisbətən mülayim olması, örüş yerlərinin genişliyi, yem ehtiyatının bolluğu qışlaqlar üçün əsas xarakterik xüsusiyyətlərdəndir. Qışlaqlardan istifadə etmənin təxminən ***6 000*** il yaşi vardır. İqlimi mülayim və yem ehtiyatı bol olan ərazilərdə yerləşən qışlaqlarda əvvəllər binələr salınır, sonralar isə buraya tədricən daimi yaşayış məntəqələrinə çevrilirdi. Cəbrayıl rayonundakı ***Qışlaq*** kəndinin adı da beləcə yaranıb-formalaşmışdır. XVIII əsrə aid tarixi sənədə əsasən, ***Qışlaq kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur. Məlumdur ki, əksər Mərkəzi Asiya ölkələrində ***kişlaq*** sözü kənd məfhumunu ifadə edir. Özbəklər və türkmənlər bu sözü ***keşlok***, qazaxlar ***kıstau***, qırğızlar ***kışto***, tuvinlər ***kıstaq***, yakutlar ***kıstax*** şəklində işlədirlər.

Laçın, Lerik, Xocalı rayonlarında da *Qışlaq kəndi* var. Şərur rayonunda isə *Qışlaq Abbas kəndi* vardır.

İrəvan əyalətinin Novobayazid, Zəngibasar, Xınzirək nahiyələrində də vaxtilə əhalisi azərbaycanlılardan ibarət olan *Qışlaq kəndi* olmuşdur.





## QIZ QALASI

Cəbrayıl rayonu ərazisində, Xələfli kəndi yaxınlığında, Diridağın zirvəsində yerləşən qalaya el arasında ***Qız qalası*** deyirlər. Mütəxəssislərin fikrincə ***Qız qalası*** XVI əsrə aid olan memarlıq abidəsidir. Sirik kəndindən şimal-şərqdə, tey dağının zirvəsində, Qızıl qayadan 15 kilometr şimalda, Qalacıq kəndindən azacıq aralıda başqa bir ***Qız qalası*** abidəsi də vardır. Bəzi sənədlərdən aydın olur ki, son orta əsrlərdə, eləcə də XIX əsrdə Qız qalasından keşikçi məntəqəsi kimi də istifadə olunmuşdur. Bir sıra sənəd və materiallarda göstərilir ki, 1939-cu ilə qədər Qız qalsı ətrafında yaşayış evləri mövcud imiş. ***Qız qalası*** ilə bağlı çoxlu əfsanə və rəvayətlər qoşulmuşdur.

*Bir əfsanəyə görə, bu qalada bir kafir qız yaşayırmış. Bir gün bir övliya Arazın suyundan dəstəmaz alıb namaz qılırmış. Kafir qızı da dağın zirvəsində dayanıb onu yamsılamağa başlayır. Bunu görən övliya namazını qılıb qurtarandan sonra sapandını belindən açıb, ona bir böyük daş qoyub qalaya tullayır. Qalanın dağıdıldığını görən qız qaçmağa başlayır. Övliya da onun dalınca qaçır. Qız qaça-qaça indiki Cəbrayıl rayonunun Daşkəsən kəndinə gəlib çıxır. Çevrilib arxaya baxanda görür ki, Övliya da onun dalınca gəlir. Üzünü göyə tutub daş olmasını diləyir. Deyilənə görə, o saat diləyi hasil olur. İndi Daşkəsən kəndində bir "**daş qız**" var. Diridağda isə xaraba qalmış **qala**, bir də yerlilərin müqəddəs bildikləri sapand daşı. **Qız qalası** haqqında başqa rəvayətlər də vardır...*

Bakı şəhərində, eləcə də Lerik, Şamaxı və digər rayonların ərazisində, Qəbələ rayonunun Zalam kəndi yaxınlığında, İsmayıllı rayonu ərazisində, Zəngilan rayonunun Vejnəli kəndi yaxınlığında, Gədəbəy rayonunun Söyüdlü kəndinin cənubunda, Gəncə şəhərinin 10 kilometrliyində, Şəki rayonunun Aydınbulaq və Çay Qaraqoyunlu kəndləri ərazisində, Şərur rayonunda - Arpaçay su anbarının kənarında da ***Qız qalası*** coğrafi adları qeydə alınmışdır. Gədəbəy, Laçın və Xocalı rayonlarında ***Qızqala*** oronimlərinə də rast gəlirik...

## QIZ QƏBRİ

Dağtumas kəndindən Çaytumasa enən yol ilə *Gədənin* – el yolunun kəsişdiyi yerdə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qız qəbri*** adlanır. Əfsanəyə görə burada böhtana salınaraq qardaşı tərəfindən qətlə yetirilən ***elat qızı*** dəfn olunmuşdur. Günahsız olduğu bilinəndə ***qızın qəbri*** müqəddəslik, saflıq, ismət, təmizlik simvolu kimi ***pirə*** çevrilmişdir. Yerli əhali ***Qız qəbri*** abidə-pirini həmişə müqəddəs hesab edir.

Laçın rayonunun ərazisində də ***Qız qəbri*** adl oroqrafik obyekt qeydə alınmışdır.

## QIZ PERXAN OCAĞI

***Qız Perxan ocağı*** Keçəlməmmədli kəndinin Abbaslı kövşənində, Alıkeyxalı – Cəbrayıl yolunun alt hissəsində yerləşir. Bu ***ocaq*** ətrafına daş düzülmüş çala yerindən və çala içərisində insan şəklinə bənzər daş parçasından ibarətdir. Bu ocaqla bağlı müxtəlif əfsanə və rəvayətlər vardır. Deyilənə görə, quraqlıq zamanı onun torpağından suya atanda yağış yağarmış. Onunla bağlı rəvayətin birinin məzmunu belədir ki, Araz çayının o biri tayında ***Perxan*** adlı bir ***qız*** aldadılaraq pis sifətli bir qocaya ərə verilir. Ərini gərdəyə girəndə onun idbar qoca olduğunu görən və aldadıldığını bilən ***Perxan*** ona yalan sataraq bayıra çıxır. Gecə ikən baş götürüb Arazın o tayına keçmək qərarına gəlir. Dan üzü ağaranda özünü bu yerdə tək-tənha görür. Çoban-çoluq əlinə düşməmək üçün Allaha üz tutur. Sidq-ürəkdən Allahdan dilək edir ki, onu daşa döndərsin. Böyük Yaradan da onun bu diləyini eşidərək qızı daşa döndərir. Onun əlində tutduğu yaylıq yerə düşür. Qızı soraqlayıb axtaranda onu yaylığından tanıyırlar...

Azərbaycanda ***ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır.





## QIZBOĞAN

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qızboğan*** adlanır. ***Qızboğan*** coğrafi adı ***qız*** və ***boğan*** sözlərindən əmələ gəlmişdir. Oronim vaxtilə burada baş vermiş bədbəxt hadisə (*qızın boğulması*) ilə əlaqədar olaraq belə adlanmışdır. Bu tipli coğrafi adlara Azərbaycan Respublikasının digər bölgələrində də rast gəlmək mümkündür.

## QIZIL QAYA QALASI

Cəbrayıl rayonunun Quşçular, Tatar, Qalacıq kəndləri yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən (qalalardan) biri ***Qızıl qaya qalası*** adlanır. ***Qızıl qaya*** sıldırım qaladan ibarətdir. ***Qala*** üç tərəfdən keçilməz qaya üzərində yerləşir. Qalaya yalnız bir yerdən şimal-şərq tərəfdən yol vardır. Qala yol tərəfdən 300 metr uzunluqda iri daşlarla hörülmüşdür. Hörgülərin eni 3 metr, hündürlüyü 4 və 5 metrdir. Qalanın 6 yerdə bürcü var. Qala daşları yonularaq bir-birinə kip bərkidilmişdir. Qalanın ətəyində bir neçə mağara vardır. Qala ***Qızıl qaya*** deyilən yerdə yerləşdiyindən ***Qızıl qaya*** qalası adlandırılmışdır.

Toponim ***qızıl*** *("qırmızı altun")* sözündən, qaya müsbət relyef forması bildirən coğrafi termindən ibarətdir.

## QIZIL TƏPƏ

Rayon ərazisində, Araz çayının sol sahilində qeydə alınan oronimlərdən biri ***Qızıl təpə*** adlanır. Oronimin belə adlanması ilə bağlı çoxlu rəvayətlər vardır. ***Qızıl təpə*** coğrafi adı ***qızıl*** və ***təpə*** sözlərindən ibarətdir. Bu ***təpə*** zahirən ***qızılı*** rəngdə göründüyü üçün belə ad almışdır. Bir versiya da var ki, bu təpədə vaxtilə ***qızıl*** tapıldığından toponim belə adlandırılmışdır.

***Qızıl təpə*** toponiminin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi

hündürlüyü təxminən ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təqribən ***3500*** coğrafi ad qeydə alınmışdır.

Erməni işğalından sonra alınmış məlumatlara görə, qədim İslam memarlıq abidələrindən hesab olunan ***Qızıl təpə abidəsi*** də dağıdılmışdır...

## QIZILCA PİRİ

Şıxlar kəndinin ərazisində, kəndin aşağı başında qeydə alınmış oroqrafik obyekt ***Qızılca piri*** adlanır. Bu ***pir*** üstünü qaramıx kolları basmış övliya qəbridir. Burada əl yerindən götürülən torpağı çimdik-çimdik suya qatıb ***qizilca*** tutmuş uşağa içirirlər. Deyilənə görə bununla da həmin adamda *qızılca* qurtarır.

## QIZILQAYA

Cəbrayıl rayonu ərazisində, Yuxarı Sirik kəndində qeydə alınan ***Qızılqaya*** oronimi iki hissədən - ***qızıl*** və ***qaya*** komponentlərindən ibarətdir. Oronimin adındakı ***qızıl*** termini *"al-qırmızı"* və ya *"qızılı rəngə* çalan" mənasındadır. Toponim *"qızılı rəngə* çalan *qaya*", *"qırmızı rəngə çalan qaya"* anlamındadır. Rəng bildirən ***qızıl*** (*qırmızı altun*) sözü ilə bağlı respublikamızda ***400***-ə qədər oronim qeydə alınmışdır. Rayonun Qalacıq kəndi yaxınlığına, kənddən təxminən 7 kilometr məsafədə bu tipli daha bir coğrafi ada (***Qızıl qaya***) rast gəlirik.

***Qızılqaya*** coğrafi adına respublikamızın digər ərazilərində - Babək, Qazax, Quba, Qubadlı, Qusar, Daşkəsən, Xocavənd, Kəlbəcər, Gədəbəy, Göygöl, Laçın, Şuşa, Tovuz, Yardımlı, Zəngilan rayonlarında da rast gəlmək olar.





## QIZLAR PİRİ

Şahvəlili kəndinin ərazisində, köhnə poçtun arxasındakı dərədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Qızlar piri*** adlanır. Bəzən el arasında onun adına Şəfa paylayan qızlar piri də deyirlər. Bu ***pir*** dairəvi daş hərləmələrindən ibarətdir. Hasarın icərisində qəbir izləri görünməsə də, yerli əhalinin məlumatlarına görə, burada mücahidlərə yardım göstərdikləri üçün qətlə yetirilmiş *iki bacı* dəfn edilmişdir. Camaat bu ***Qızlar pirini*** əziz tuturdu.

Azərbaycanda ***pir, ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, hələ də öz yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** termini ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır

## QIZLIQ YURDU

Dağ Tumas kəndindən bir qədər aralıda, Pirim kahasının qərbində, Şərif təpəsi yaxınlığında, dağətəyi ərazidə qeydə alınan coğrafi adlardan biri ***Qızlıq yurdu*** adlanır. Bu toponim *paklıq* rəmzi kimi yaranmışdır. ***Qızlıq yurdu*** coğrafi adı ilə bağlı müxtəlif əfsanə və rəvayətlər də uydurulmuşdur.

## QİYASƏDDİN TÜRBƏSİ

Cəbrayıl rayonu ərazisində qeydə alınan tarixi memarlıq abidələrindən biri ***Qiyasəddin türbəsi*** adlanır. Bu qiymətli memarlıq abidəsi XIV əsrdə inşa olunmuşdur. Türbədə ***Qiyasəddin*** adlı dövrünün nüfuzlu bir adamı dəfn olunduğu üçün ***türbə*** onun adı ilə adlanmışdır.

***Türbə*** dedikdə görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək

üçün onların qəbri üzərində tikilən bina nəzərdə tutulur. Bəzən onun adına ***məqbərə*** də deyilir. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayımışdı. Memarlıq quruluşuna görə orta əsr türbələri kubşəkilli, səkkizbucaqlı və qülləvarı olurdu. Günbəzlə örtülən kubşəkilli türbələrdə sənduqə döşəmə səviyyəsində, qülləvarı türbələrdə isə yeraltı sərdabada yerləşirdi. Türbələrin xarici səthləri memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi.

## QOŞA BULAQ

Qazanzəmi kəndinin ərazisində, Rəcəblər yerinin günbatanında, dərənin ayağında qeydə alınan hidronimlərdən biri ***Qoşa bulaq*** adlanır. Hidronim ***qoşa*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Qoşa bulaq*** bir-birindən bir neçə metr aralıda daşın dibindən çıxan ikitərəfli qaynamadır. Elə bu səbəbdən də hidronim ***Qoşa bulaq*** adlanır. XX əsrin ikinci yarısında (Sovetlər dönəmində) məktəblilər adətən 1 May bayramlarını ***Qoşa bulaq*** başında qeyd edərdilər.

## QORUQLAR KƏHRİZİ

Cəbrayıl rayonunun Dakəsən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qoruqlar kəhrizi*** adlanır. Hidronim ***qoruq*** sözündən, ***-lar*** cəm şəkilçisindən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. Kəhrizin baş quyusunun dərinliyi 25 metrdir. Kəhrizin yerləşdiyi ərazinin yaxınlığında ***qoruq*** olduğu üçün hidronim belə ad almışdır.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.





## QOŞABULAQ KƏNDİ

***Qoşabulaq kəndi*** Cəbrayıl rayonunda, Şahvəlili kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 38 kilometr cənubda, Gəyən düzündə, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 220 nəfərdir. Heyvandarlıq, üzümçülük, taxılçılıq, baramaçılıq kənd əhalisinin əsas məşğuliyyəti sayılırdı. Kənddə ibtidai məktəb, kitabxana, klub vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

***Qoşabulaq kəndi*** (bəzən bu kəndin el arasında adına ***Dəmşalaq*** da deyirlər) öz adını ərazisindəki ***Qoşabulaq*** hidronimindən almışdır. Bu yaşayış məntəqəsi oradakı ***Qoşabulaq*** adlanan bulağın adı ilə tanınmışdır. Toponim ***qoşa*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir.

## QOTUR BULAQ

Niftalılar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Qotur bulaq*** adlanır. Toponim ***qotur*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Qotur*** bulağın suyu ***qoturluq*** xəstəliyinə tutulanlar üçün müalicəvi əhəmiyyətə malik olduğundan ***bulaq*** da belə adlandırılmışdır.

Məlumdur ki, ***qoturluq*** insan və heyvanlarda törədicisi qoturluq gənələri olan yoluxucu dəri xəstəliyidir. *Qoturluq* insana bu xəstəliyin daşıyıcısı olan digər insanla kontaktda olanda, həmin adamın paltarından, yatağından və s. istifadə edəndə, bəzi hallarda isə xəstə heyvandan keçir. Antiparazitar dərmanlar, o cümlədən 33 %-li kükürd məlhəmi, Vilkinson məlhəmi, benzil-benzonatın 25 %-li sulu-sabunlu emulsiyası və s. *qoturluğun* müalicəsi hesab olunur. ***Qoturluq*** xəstəliyinə tutulanlar tez təcrid edilib müalicə və müayinə olunur, ona qarşı dezinfeksiya tədbirləri görülür.

## QOTUR PİRİ BULAĞI

***Qotur piri bulağı*** coğrafi adı rayonun Binnətli və Xubyarlı kəndləri arasında, Şır-şır bulağın yaxınlığında qeydə alınmışdır. ***Qotur piri bulağı*** müalicəvi əhəmiyyətə malikdir. Dəri xəstəliyi, ***qoturu*** olan adamlar bu suda yuyunar və bununla da şəfa tapardılar. Erməni işğalına qədər (*1993-cü il*) bu bulaq onlarla insanın qoturluq xəstəliyindən qurtulmasında müstəsna rol oynamışdır.

Əlavə məlumat üçün bax: **Qotur bulaq**.

## QOVŞUTLU *(QOVŞUDLU)* KƏNDİ

***Qovşutlu kəndi*** (bəzən adı ***Qovşudlu*** şəklində də yazılır) Cəbrayıl rayonunda, rayon mərkəzindən 23 kilometr cənub-qərbdə, Şahvəlili kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 450 nəfərdir. Əhali əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi, kəhriz və s. vardı. ***Qovşutlu*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

XIX əsr mənbəsinə görə, Cəbrayıl elinin ***Qovşudlu obası*** Şıxçinarı torpağında yaşamışdır.

Kəndin adı keçmişdə bir müddət ***Hüseynbəyli*** (*XIX* əsr) də adlanmışdır, Sonralar ***qovşutlu*** nəslinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Bəzən sənədlərdə kəndin adını ***Qovşudlu*** kimi də yazırlar. Kənd Cəbrayıl rayonunda ən qədim kəndlərdən biri hesab olunur.

***Qovşut*** vaxtilə bir sıra türk xalqlarında şəxs adı kimi çox geniş yayılmışdır. Qərbi Azərbaycanın Bazarçay yaylaqlarında ***Qovşutlu*** (***Qovşudlu***) adlanan *düşərgə* və *dərə* də vardı. Həmin ərazidə kəndin qədim *qəbiristanlığı* da mövcud olmuşdur. Qərbi Azərbaycandakı ***qovşutlu (qovşudlu)*** tirələri ilə Cəbrayıl rayonunun ***Qovşudlu*** kəndinin nəsillərinin qohumluq əlaqələri də vardır.

***Qovşutlu (Qovşudlu)*** kəndinin vaxtilə rayonda ən çox - 5600 hektar torpaq sahəsi (1934-cü il xəritəsində də göstərilmişdir) olmuşdur. Hətta, indiki (*işğala qədərki*) Soltanlı kəndinin bəzi ərazisi (şərab *zavodu, məktəb binası* və s. yerlər) ***Qovşudlu*** kəndinin yerləri olmuşdur. Şərab zavodu ərazisində qovşudluların qəbiristanlığı da vardı. ***Qovşutlu*** (***Qovşudlu***) yeganə kənddir ki, Gəyən düzündə, kəndin yerləşdiyi ərazidən 12 kilometr aralı bir sahədə, Mehdili kəndinin indi yerləşdiyi ferma ərazisində qədim qəbiristanlığı olmuşdur. Hazırda *qovşutluların* (*qovşudluların*) Mil və Muğan düzündə qış yataqları da var. İndi Beyləqan rayonu ərazisində təxminən ***300 qovşudlu ailəsi*** yaşayır...

***Qovşut//Qovşud*** türkdilli tayfasının adı ilə əlaqədar Orta və Ön Asiyada çoxlu sayda toponimlər qeydə alınmışdır...

Qubadlı rayonunun Hal kəndindən azacıq şimal-qərbdə *Qovşutyeri* mikrotoponimi də qeydə alınmışdır. Zəngəzur qəzasında da *Qovşud* adlı kənd vardı. ***Qovşut*** toponimlərinə Türkmənistanda (*Qovşut, Qovşutbənd, Qovşutyap, Qovşutqala, Qovşutxanqala, Qovşutxanbent*), Ermənistan deyilən Qərbi Azərbaycanda - Dərələyəz mahalında və Zəngəzur qəzasının Qafan rayonunda (***Qovşud kəndi*** (1991-ci ildə ermənilər adını dəyişib ***Kavçud*** qoymuşlar)) və başqa ərazilərdə rast gəlmək mümkündür. Bütün bunlar onu göstərir ki, ***Qovşut, Qovşud*** qədim türkdilli tayfanın adıdır.

## QOVŞUTLU TƏPƏSİ

Cəbrayıl rayonunun Qovşudlu (*Qovşutlu*) kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Qovşutlu təpəsi*** adlanır. Oronim ***Qovşutlu*** kəndinin adı ilə əlaqədar olaraq yaranmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## QOVŞUTLU YURDU

Rayonun Qalacıq kəndi yaxınlığında qeydə alınmış toponimlərdən biri ***Qovşudlu yurdu*** adlanır. Görünür vaxtilə burada ***qovşut (qovşud)***

tayfasına məxsus olan nəsillər, ailələr yaşamışlar. Toponim ***qovşut*** (***qovşud***) türkdilli tayfasının adını özündə əks etdirir.

Əlavə məlumat üçün bax: **Qovşutlu kəndi.**

## QOZLU BULAQ

Qarağac kəndinin sol tərəfində, kənddən 300 metr aralıda, dağətəyi ərazidə qeydə alınan hidronim ***Qozlu bulaq*** adlanır. *Qozlu bulaq* hidronimi ***qoz*** ağac adından, ***bulaq*** hidronimik apelyativindən və ***-lu*** şəkilçisindən əmələ gəlmişdir. Bu qaynama ***bulaq*** sıx ***qoz*** ağaclarından ibarət olan bağ sahəsinin ərazisində yerləşdiyinə görə ***Qozlu bulaq*** adlanmışdır. Bulağın şirin və soyuq suyu vardır.

## QOZLU BULAQ KƏHRİZİ

Dağ Tumas kəndinin ərazisində, kəndin cənub girəcəyində, Kiçik kovun başında, Tumas bağının ətəyində qeydə alınan hidronim ***Qozlu bulaq kəhrizi*** adlanır. Əvvəllər kəhrizin gözündə nov və göl olmuşdur. 1950-ci ildə onun suyu Baş gözdən birbaşa borular vasitəsilə yeni salınan Günbəz yaşayış məntəqəsinə çəkildiyindən nov və göl ləğv edilmişdir. ***Qozlu bulaq*** kəhrizinin ağır və şirin suyu vardır. Hidronim ***qoz, bulaq*** və ***kəhriz*** sözlərindən ibarətdir. Ətrafda ***qoz*** ağacları olduğu üçün hidronim belə adlanmışdır. ***Kəhriz*** – qrunt sularını toplamaq və yer səthinə çıxarmaq üçün maili lağım şəbəkəsindən ibarət yeraltı qurğudur. Kəhrizin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. ***Kəhrizlər*** peşəkar kankanlar tərəfindən qazılır və lağımları adətən daş və bişmiş kərpiclə tağbəndvarı hörülür. Kəhrizin saf, təmiz suyundan cu təchizatında və suvarmada geniş istifadə olunur. ***Kəhriz sistemi*** Azərbaycanda miladdan öncə I əsrdən mövcuddur. XX əsrin 60-cı illərində Azərbaycan Respublikasının ərazisində ***850*** *kəhriz* mövcud olmuşdur.





## QOZLU ÇALASI

Xəlfəli kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Qozlu çalası*** adlanır. Ornim ***qoz*** sözündən, çala terminindən, ***-lu*** və ***-sı*** şəkilçilərindən ibarətdir. Çala coğrafi termini mənfi relyef formasını ifadə edir. Toponimin tərkibindəki ***-sı*** şəkilçisi mənsubluq bildirir. ***Qozlu çalası*** toponimi *"qoz ağacları cox olan çala"* mənasındadır.

Azərbaycanda ***qoz*** bitkisinin adı ilə bağlı çoxlu sayda toponimlər vardır.

## QOZLU DƏRƏ

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qozlu dərə*** adlanır. ***Qozlu dərə*** oronimi ***qoz*** və ***dərə*** sözlərindən, eləcə də ***-lu*** şəkilçisindən ibarətdir. ***Qoz*** meyvə ağacının adını əks etdirir. Toponimin tərkibindəki ***dərə*** komponenti mənfi relyef forması bildirən coğrafi termindir. Azərbaycan Respublikasının oronimiyasında çöl materialları içərisində ***dərə*** termininin iştirakı ilə ***30 000*** coğrafi ad toplanmışdır.

***Qoz*** bitkisinin adı ilə bağlı ölkəmizdə çoxlu sayda toponimlər qeydə alınmışdır. Bunlara nümunə olaraq ***Qozlu dərə*** (Füzuli rayonu, Qacar kəndi), ***Qozlu dağ*** (Cəbrayıl, Tərtər rayonları), ***Qozlu təpə*** (Tərtər rayonu), ***Qozlu qobu*** (Qəbələ rayonu, Mıxlıqovaq kəndi), ***Qozlu qaya*** (Zəngilan rayonu), ***Qozlu çuxur*** (Kəlbəcər rayonu) və başqalarını göstərmək olar.

## QOZLUDAĞ, QOZLUDAĞ DİKİ

Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Qozludağ*** oronimi ***qoz*** meyvə ağacı növündən və ***dağ*** oronimik terminindən düzəlmişdir. ***Dağ*** coğrafi termini müsbət relyef formasını ifadə edir.

***Qoz*** bitkisinin adını özündə əks etdirən bu tipli oroqrafik obyekt adı Ağdərə rayonunda da qeydə alınmışdır. ***Dik*** coğrafi termini oronimiyada *"yuxarıya doğru* şaquli *istiqamətdə uzanan hündür sərt yoxuş"* mənasında işlədilir. Oronimiyada ***dik*** coğrafi termini ilə bağlı yaranmış oronimlərin sayı respublikamızda ***4000***-dən çoxdur.

## QULU BULAĞI

Çələbilər kəndinin şimalında, Teşdər meşəsinin günbatan hissəsində, Lələ zəmisi adlanan ərazidə qeydə alınan hidronim ***Qulu bulağı*** adlanır. ***Qulu bulağı*** bol və şirin sulu bulaqdır. ***Qulu bulağı*** hidronimi ***Qulu*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Yerli məlumata görə, ***Qulu*** bulağın gözünü təmir edən və onun suyunun yer üstünə çıxmasına şərait yaradan şəxsdir. Toponim *"Quluya məxsus bulaq"* anlamındadır.

***Bulaq*** – yeraltı suların yerin üstunə təbii çıxışıdır. Onun suyu horizontun və ya çatın yer səthi ilə kəsişdiyi yerdə olur. ***Bulaqlar*** temperatur, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətləri və s.-yə görə bir-birindən fərqlənirlər. *Bulaqlar* əsasən ***2*** cür olur: ***1)*** çatlar və məsamələrlə enən bulaqlar (çeşmə); ***2)*** *qalxan bulaqlar (qaynaq)*. 1 litr bulaq suyunda 1 qramdan artıq həll olmuş duz, həmçinin müəyyən qədər qaz və ya nadir elementlərdən biri olarsa və o, müalicə əhəmiyyətlidirsə, belə bulaqlar *mineral bulaqlar* və ya *qaynaq* adlanır. Bulaqlar temperaturuna görə soyuq, ılıq, termal (*isti*) və hipotermal (çox isti) olurlar.

## QUMLAQ KƏNDİ

***Qumlaq kəndi*** Cəbrayıl rayonu ərazisində, rayon mərkəzindən 45 kilometr cənub-qərbdə, Xudafərin körpüsü yaxınlığında, Qumlaq inzibati ərazi vahidində, Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 700 nəfərdir. Əhali taxılçılıq, heyvandarlıq, baramaçılıq, üzümçülük və bağçılıqla məşğul olurdu. Kənddə orta və səkkizillik məktəblər, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, ticarət, iaşə xidməti obyektləri və s. vardı. 11 və 15 aşırımlı məşhur Xudafərin körpüləri də bu kəndin ərazisində yerləşir. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

***Qumlaq*** yaşayış məntəqəsi XIX əsrdə *Qumlaq* adlı qoyun yatağı yerində salındığı üçün belə adlanmışdır. Yaşayış məntəqəsi ***qum*** sözündən və ***-laq*** şəkilçisindən ibarətdir. Kəndin ərazisi doğrudan da, vaxtilə ***qumlu*** sahələrdən ibarət idi. ***Qumlaq*** toponimi *"qumlu yer", "qum yeri"* mənasını ifadə edir.

Oğuz rayonunda da *Qumlaq kəndi* var.

Əlavə məlumat üçün bax: **Qumlaq qəsəbəsi**.





## QUMLAQ QƏSƏBƏSİ

***Qumlaq qəsəbəsi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 36 kilometr cənubda, Qumlaq inzibati ərazi vahidində, Araz çayının sol sahilində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Qəsəbədə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət və iaşə xidməti obyektləri və s. vardı.

XVIII əsrə aid mənbədə ***Qumlaq*** *minbaşılı* nəslinin bir tirəsi kimi göstərilmişdir...

***Qumlaq qəsəbəsi*** yaxınlıqdakı ***Qumlaq*** dəmir yolu keçidi yanında salındığına görə belə adlandırılmışdır. Bəzən sənədlərdə adına ***Stansiya Qumlaq kəndi*** formasında da rast gəlinir. ***Qumlaq*** toponimi *"qumlu yer", "qum olan* ərazi", *"qum yeri"* mənasındadır.

Cəbrayıl rayonunda ***Qumlaq kəndi*** də var. Bu adda kənd Oğuz rayonunda da qeydə alınmışdır. Toponimiyamızda ***qum*** topoformantına qoşulan söz və şəkilçilərdən çoxlu coğrafi adlar yaranmışdır. Onlara nümunə olaraq *Qumbaşı dağı, Qumbaşı kəndi, Qumyataq gölü, Qumlaq kəndi, Qumlaqçay, Qumluq dağı, Qumludaş dağı, Qumtəpə yeri, Qumluçay, Qumtəpə arxı* və digərlərini göstərmək olar.

## QUMLU TƏPƏ

Rayon ərazisində qeydə alınan yüksəkliklərdən biri ***Qumlu təpə*** adlanır. Oronim ***qum*** sözündən, ***təpə*** coğrafi terminindən və ***-lu*** şəkilçisindən ibarətdir. Yüksəklikdə yerləşən bu ərazi ***qumlu*** olduğu üçün yerli əhali arasında belə adlandırılmışdır. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması bildirir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik

anlamındadır. Azərbaycan Respublikasının toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## QUMTƏPƏ KURQANL

***Qumtəpə kurqanı*** Cəbrayıl rayonunun Mahmudlu kəndi yaxınlığında yerləşir. Bu ***kurqan*** qədim dövr abidəsi hesab olunur. ***Qumtəpə kurqanı*** oronimi ***qumlu təpə*** ərazisində yerləşdiyi üçün belə adlanmışdır. Toponim təpənin ***qumlu*** olması ilə əlaqədar belə ad almışdır. ***Kurqan*** - türkmənşəli söz olub *"torpaq, ağac və ya daşdan düzəldilmiş* əsasən *yanmkürə formalı qədim qəbirüstü abidə, süni ləpə"* anlamı ifadə edir. Müxtəlif ölçülərdə düzəldilən kurqanlarda qəbirlər sərdaba, katakomba, daş, yaxud taxta qutu və s. formalarda olurdu. Bəzi kurqanlarda ölü ilə bərabər onun silah, bəzək və yemək şeyləri, arvadı, atı, qulları və s. də basdırılırdı. Azərbaycanda müxtəlif tarixi dövrlərə (*Neolit, Eneolit* və s.) aid kurqanlar var.

Azərbaycanın digər ərazilərində də ***Qumtəpə*** adına rast gəlmək mümkündür...

## QURBAN (*QURBANİ*) BULAĞI

Yerləşdiyi mövqeyə, təbii-coğrafı şəraitə görə Cəbrayıl rayonu ərazisində çoxlu bulaqlar vardır. Bunlardan biri də ***Qurban bulağı*** antrohidronimidir. Bu ***bulaq*** onu üzə çıxaran ***Qurban*** adlı şəxsə məxsus olduğu üçün belə adlanmışdır.

Rayon ərazisində *Abaslı, Bəydili, Vəlixanov, Qarabulaq, Quşçular, Diri bulaq, Eminli bulaq, Kürdlər, Yasin bulağı, Pəri, Səadət, Tahir, Tanrıverdi. Mehdi, Həsənov, Üçgözlü, Yeddiqardaşlı, Şəkərxatun bulağı, Xəstə bulaq, Xor-xor, Abdil bulağı, Ana bulağı, Topcaq, Tey, Kor, Şır-şır, Hacıməmmədli* və s. adlı ***bulaqlar*** vardır...





## QURBANLI KƏNDİ

Vaxtilə Cəbrayıl rayonunda mövcud olmuş və sonralar müəyyən səbəblərdən dağılmış kəndlərdən biri də ***Qurbanlı*** kəndidir. Deyilənə görə, ***Aşıq Qurbani*** öz adını bu kəndin adından almışdır. Məlumatlardan aydın olur ki, nə zamanlarsa kəndi ilanlar bürüyür və qorxuya düşən əhali Arazın o tayına - Cənubi Azərbaycana köçür (*indinin özündə o tayda da **Qurbanlı** adlı kənd var*). Sonralar gedənlərdən bir neçə nəfər qayıdıb gəlir. Amma daha Mazannənədə yox, ondan bir qədər aşağıda - *Xudayarlı* qışlağında qışlayırlar...

## QURBANLI PİRİ

Hündür təpənin başında daş qalağından dairəvi formada düzəldilmiş ziyarətgahlardan biri - ***Qurbanlı piri*** Cəbrayıl rayonunun ərazisində, Diridağ yaxınlığında, Diri dağın Araz çayına baxan yamacında, Stansiya Xələfli kəndinin gündoğanında, dəmiryol keçən tunelin üstündəki təpənin üzərində, qəbiristanlığın qurtaracağında qeydə alınmışdır. ***Qurbanlı piri*** çay daşlarından dairəvi şəkildə təxminən 40 santimetr hündürlüyündə hasarla əhatə olunmuşdur.

Bəzi araşdırıcıların məlumatına görə, bu ***pir*** yeri Aşıq ***Dirili Qurbanın*** buta aldığı yer olduğu üçün onun adı ilə də adlanmışdır. Bəzən bu oroqrafik obyektin adına bəzi sənədlərdə ***Dirili Qurbaninin qəbri*** şəklində də rast gəlirik. ***Qurbani*** haqq aşığı olduğundan onun qəbri ziyarətgaha çevrilmişdir.

Rəvayətə görə, ***Aşıq Qurbani*** gəncəli Ziyad xanın qızı Pəri xanımı alıb geri qayıdarkən indi ***pir*** olan bu yerdə yatıbdır. Bu vaxt bir ilan onu yatdığı yerdə vurub. ***Aşıq Qurbani*** ölür və onu burada basdırırlar. ***Qurbani*** haqq aşığı olduğu üçün onun məzarı ziyarətgaha çevrilir.

Belə bir rəvayət də var ki, bir gün Qurbani kəndin cavanları ilə gedib gəzməyə. Gecə qayıtmayıb. Bütün gecəni onu axtarıblar, amma tapmayıblar. Səhər onu qoyun aparan çobanlar Mazannənənin başının üstünəki dağdan yatılı vəziyyətdə tapırlar. Görürlər ki, ağzından, burnundan köpük, su axır. Yığışıb baxıblar. Dünyagörmüş adamlar, başbilənlər gəlib deyirlər ki, buna

vergi verilibdir. O, haqq aşığıdır. İndi ona vergi verilən yerdə ***pir*** var. Bura ona buta verilən yerdir. Bu birisində isə onu basdırırlar, ona görə də ora pirdir. Adamlar ***Qurbanlı pirini*** əsasən duz və çərşənbə günləri ziyarət edər, niyyət tutub burada erkək dana, qoyun, qoç, xoruz kəsərdilər. *Pirə* gətirilən ***qurbanı*** pirdə kəsmək daha məqbul hesab edilirdi.

Pirə ziyarətə gedərkən əvvəlcə çöl tərəfdən saat istiqamətində ***3*** dəfə fırlanırsan. Bu zaman müəyyən istək deyilir və pirin daşlarından öpülür. Sonra pirin içərisinə keçilir. İçəridəki məzarın başına da ***3*** dəfə dövrə vurulur. Məzarı fırlanan zaman pirə müəyyən nəzirlər qoyulur. Deyilənə görə pirdən götürülən hər hansı bir nəzir daim evdə saxlanılarsa, o evdən xeyir-bərəkət heç vaxt əskik olmaz. Ziyarəti başa vurub, pirdən çıxarkən gərək hər bir kəs üzü pirə tərəf çıxa. *Pirin arxa tərəfində bir dağdağan* ağacı da var. Ziyarətdən sonra həmin ağaca parça bağlanılır. Novruz bayramı qabağı *pirə* daha çox ziyarətçilər gələrdilər...

Bəzi məlumalara görə isə, keçmişdə uzun müddət quraqlıq olduqda havaların yağmurlu keçməsi, məhsulun bol olması üçün burada ***qurbanlar*** kəsilərdi. Bu cür mərasimlər keçirilən yerlər müqəddəs sayıldığı üçün oronim də görünür belə ad almışdır. Yerli camaat bu ***Qurbani pirini*** əziz tuturdu. Pirin ***Qurbanlı*** adlanmasını başqa cür şərh edənlər də var...

Burada yerli əhali islama qədər günəşə və s. sitayiş edər, müxtəlif ***qurbanlar*** kəsərdilər. Bu kimi inamlar islamdan sonra da saxlanılırdı. Deməli, bu ***pir*** elə *islam ocağı* kimi də öz müqəddəsliyini qorumuşdur.

Azərbaycanda ***pir, ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, hələ də öz yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** termini ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır

***Pir*** - farsca *"nurani qoca", "müqəddəs", "dini icmanın başçısı"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi var.





## QURBANTƏPƏ KƏNDİ

***Qurbantəpə kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 2 kilometr məsafədə, Cəbrayıl şəhər inzibati ərazi vahidində, Gəyan çölündə, düzənlik ərazidə yerləşirdi. Əhalisinin sayı 40 nəfər idi. Taxılçılıq, heyvandarlıq və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi və s. vardı.

***Qurbantəpə*** oykonimi ***Qurban*** sözündən (şəxs *adı*) və müsbət relyef forması bildirən ***təpə*** apelyativ termindən ibarətdir. Toponim *"Qurbanın təpəsi", "Qurbana məxsus olan təpə"* və ya *"qurban kəsilən təpə"* mənasındadır.

Yerli məlumata görə, ***Qurbantəpə*** yaşayış məntəqəsini qonşu *Hacılı* kəndindən gəlmiş *hacılı* tayfasına mənsub olan ailələr ***Qurban təpəsi*** adlanan ərazidə saldığına görə, kənd belə adlanmışdır. Bir sıra məlumatlara görə, təpənin ***Qurban*** adlanması vaxtilə Cəbrayıl kəndinin (şəhərinin) əsasını qoyan müqəddəs Cəbrayıl Atanın oğlanlarından biri olan ***Qurbanın*** adı ilə bağlıdır...

Vaxtilə kənd ərazisindəki təpədə ***qurbanlar*** da kəsilərdi. Bu ***təpə*** ziyarətgah hesab olunurdu. Adamlar ürəklərində niyyət tutub bura gələrdilər. Bəlkə elə oykonim də bu səbəbdən belə adlanmışdır. Oykonimi Qurban bayramı ilə də əlaqələndirənlər var.

Bu tipli toponimlər Cəbrayıl rayonu ərazisində (***Qurbantəpə piri***), Qubadlı rayonu ərazisində (*Qurbantəpə dağı*), Laçın rayonu ərazisində (*Qurbankəsilən dağ*) və digər bölgələrdə də qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Qurbantəpə piri.**

## QURBANTƏPƏ PİRİ

Cəbrayıl şəhərinin cənub-qərbində, eyniadlı hündür bir təpə üzərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Qurbantəpə piri*** adlanır. Bu ***pir*** dibi daş topası ilə örtülmüş yemişan kolundan ibarətdir. Müqəddəs ocaq olan bu ziyarətgah *2,5 - 3* metr diametrdə daşlardan dairəvi formada 60 - 70 santimetr hündürlükdə pirdir. Yerli məlumata görə, ***Qurbantəpə***

***piri*** çox-çox qədim dövrün (*bəlkə də tunc dövrünün*) nişanəsidir. Əhalinin etiqadlarında Günəşə, Aya sitayiş elementləri də vardır. ***Qurbantəpə piri*** Qafqaz Albaniyası əhalisinin hələ Günəşə, Aya sitayiş etdikləri tunc dövrünün sonlarının nişanəsidir. Bu piri Sovet dönəmində də (*XX əsrdə*) vaxtaşırı ***ziyarət*** edərdilər. Yerli əhali yeni il ərəfəsində gələn ilin məhsulu bol olsun deyə pirdə ***qurbanlar*** kəsər, müxtəlif xörəklər bişirər, bişirilmiş yeməklərin ətini yeyər, suyundan gündoğana tərəf atar və şənlik edərdilər. Yerli məlumatlara görə, XIX əsrin ortalarında Cəbrayıl qəzasının başqa yerlərindən, əyalətlərindən köçüb bura gələn *hacılı* tayfasının bir hissəsi bu pirin yaxınlığında məskunlaşmış və onların saldıqları kənd ***Qurbantəpə kəndi*** adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Qurbantəpə kəndi.**

## QURD YOLU

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, Salın daşı ilə Abdulla kahasının birləşdiyi ərazidə qeydə alınan oroqrafik obyekt ***Qurd yolu*** adlanır. Toponim ***qurd*** və ***yol*** sözlərindən yaranmışdır. ***Qurd yolu*** çətin keçilən sərt dağ keçidindən ibarətdir. Məhz elə bu səbəbdən də oronim belə ad almışdır.

## QURDLU BULAQ

Dağ Tumas kəndindən Hovuslu kəndinə gedən maşın yolunun kənarında, Kor bulaq sızan dərənin günbatanındakı dərədə qeydə alınan hidronim ***Qurdlu bulaq*** adlanır. Bu gur qaynama bulağın suyu şirin və soyuqdur. ***Qurdlu bulaq*** coğrafi adı ***qurd*** sözündən, ***bulaq*** hidronimik apelyativindən və ***-lu*** şəkilçisindən ibarətdir. Bulağın yerləşdiyi ərazidəki su yatağı zəli və digər qurdlarla bol olduğuna görə Hidronim ***Qurdlu bulaq*** adını almışdır.





## QURDLU QUZEY

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 4 kilometrliyində, Kiçik kovdan Anbar daşına qədər uzanan Tumas dağının cənub silsiləsinin *quzeyində* qeydə alınan oronim ***Qurdlu quzey*** adlanır. Toponim ***qurd*** və ***quzey*** sözlərindən ibarət olub, "*qurd olan şimal yamacı*" mənasındadır. Vaxtilə yerli əhali burada tez-tez ***qurda*** (*canavara*) rast gəldiyi üçün oronim belə adlanmışdır.

***Quzey*** sözü müsbət relyef forması ifadə edən coğrafi termindir. Dağın, təpənin şimal yamacı, Günəş şüası düşməyən kölgəli tərəfi dilimizdə ***quzey*** termini ilə ifadə olunur. Türk dillərində ***quzey*** sözü "şimal" anlamını kəsb edir. Respublikamızın müxtəlif ərazilərində bu terminin dildə ***quzey, quzoy, quzay*** formalarına təsadüf edilir. Ölkəmizin ərazisində adının tərkibində ***quzey*** termini iştirak edən ***2800*** oronim qeydə alınmışdır.

## QURU DƏRƏ, QURU DÜZ, QURU ÇAY

Azərbaycan oronimiyasında bəzi oroqrafik obyekt adları oradakı suyun rejiminə, yay aylarında suyun olmaması və ya ***quruması*** ilə əlaqədar ad almışdır. Elə bu səbəbə görə də həmin oroqrafik obyektlərin əksəriyyətinin adında "***quru***" sözü işlədilir. Cəbrayıl rayonu ərazisində, Qalacıq kəndi yaxınlığında da bu qəbildən olan ***Quru dərə*** oronimi qeydə alınmışdır. ***Quru dərə*** - "*susuz dərə*" mənasındadır. Oronimiyada relyefin dar, çökək forması ***dərə*** sözü ilə ifadə olunur. ***Dərə*** - mənfi relief forması bildirən coğrafi termindir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** termini olan ***30 000*** oronim toplanmışdır.

Bəzən ***Qurudərə*** oronimini türk dillərindəki "***kura***" ("*tövlə*") *yerləşən dərə*" kimi də izah edirlər. ***Kora*** (***kura, qura***) sözü Azərbaycan dilində "*gecələr qışlaqda mal-qaranı salmaq* üçün *tövlə*" anlamındadır. Cəbrayıl rayonunun Yarəhmədli kəndi ərazisində, eləcə də Gədəbəy rayonunun Arısu kəndində ***Kora dərəsi*** coğrafi adı da qeydə alınmışdır. Qərbi Azərbaycanda (*Ermənistanda*) Novobayazid və Aleksandropol qəzalarında da ***Qurudərə*** toponimi qeydə alınmışdır. ***Qurudərə*** adlı İrəvan quberniyasının Aleksand-

ropol qəzasında dağ və çay, Eçmiadzin qəzasında göl də vardı.

Azərbaycanımızda ***Quru dərə*** oroniminə *Qazax, Qubadlı, Kəlbəcər, Kürdəmir, Füzuli, Gədəbəy, Goranboy, Laçın, Tərtər, Tovuz, Göygöl, Xocavənd, Xocalı, Hacıqabul*, Şəmkir, *Zəngilan, Zərdab* və s. rayonların ərazisində də rast gəlirik.

Cəbrayıl rayonu ərazisində ***Quru düz*** oronimi də qeydə alınmışdır. ***Düz*** coğrafi termini mənfi relyef forması bildirir. Məlumdur ki, Azərbaycan Respublikasının ***30*** %-dən çox hissəsi ***düzənlik*** ərazilərdir. Bu mənada ölkəmizdə adının tərkibində ***düz, düzənlik*** sözü olan coğrafi adlar da çoxluq təşkil edir. Oronimiyamızda ***düz*** termini ilə bağlı ***11 000*** toponim qeydə alınmışdır.

Rayonun hidronimlərindən olan ***Quru*** çay suyunun rejim xüsusiyyətlərinə görə belə adlanmışdır. Yazda daha çox axarlı olan, əsasən yağış suyu ilə qidalanan bu çay adətən yay fəslində *quruyur*, susuz olur. Məhz elə bu səbəbdən də çaya yerli əhali bu cür ad vermişdir.

## QURUTDU BULAĞI

Horovlu kəndinin yaxınlığında qeydə alınan maraqlı hidronimlərdən biri ***Qurutdu bulağı*** adlanır. Məndə olan məlumata görə, vaxtilə bu bulağın yerləşdiyi ərazidə *Qaraağac* adlı bağ, dərə və çoxlu bulaqlar mövcud olmuşdur. Zaman keçdikcə quraq iqlimə dözə bilməyən Qaraağac bağı *məhv olur və bulaqlar quruyur. Amma çaylaq ərazisindəki bir bulaq* qalır ki, bunun da adına ***Qurutda bulaq*** deyilərmiş. Onun suyundan içmək və heyvanları suvarmaq üçün istifadə edilərmiş. Müəyyən müddətdən sonra həmin bulaq da kəskin istidən *qurumağa* başlayır. Bulaq suyunu ***qurutduğuna*** görə sonralar onun adına ***Qurutdu bulağı*** deyilir.

## QURUYAN ÇAY

(*Bax:* **Çaxmaq çaylağı, Çaxmaqçay**)





## QUŞ TƏPƏSİ

Dağ Tumas kəndindən 5 kilometr aralıda, Maqsudun dərəsi ilə Günbəzin arasında yerləşən düzənlikdə qeydə alınan oronim ***Quş təpəsi*** adlanır. Oronim ***quş*** sözündən, müsbət relyef forması bildirən ***təpə*** coğrafi terminindən, eləcə də mənsubiyyət ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Tez-tez həmin təpədə ***quşlar*** göründüyü üçün oronim belə ad almışdır. Toponim *"quşlar olan təpə"* mənasındadır.

***Quş təpəsi*** coğrafi adının tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə bağlı təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## QUŞÇULAR BULAĞI

Cəbrayıl rayonunun Qışçular kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Quşçular bulağı*** adlanır. Bu coğrafi ad ***quşçular*** etnonimi ilə bağlıdır. Bu bulağın göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. Hidronim ***Quşçular*** kənd adından və ***bulaq*** hidronimik apelyatividən ibarət olub, *"Quşçular kəndinin ərazisindəki bulaq"* mənasındadır. Bu tipli hidronimlərə respublikamızın digər rayonlarının ərazilərində də rast gəlirik.

Məlumdur ki, ***quşçu*** (***koşsu***) qədim türk, Mərkəzi Asiya mənşəli tayfalardan biridir. Vaxtilə türklərin Qərb yürüşlərində ***quşçular*** da iştirak ediblər. XII əsrdə quşçular tayfası durbanlardan asılı vəziyyətə düşüblər. Monqolların Uraldan Qərbə doğru istilaçı yürüşlərində quşçular da iştirak etmişlər. Bəzi tədqiqatçılar *quşçuları* ***quşanlar*** (***kuşanlar***) ilə əlaqələndirir. ***Quşçu*** tayfalarının ***hunlar*** ilə bağlılığı da məlumdur(N.A.Aristov). Məmmədhəsən bəy Vəliyev-Baharlıya görə, ***quşçular*** III – VI əsrlərdə Azərbaycana gəlmiş hunların qalıqlarıdır. ***Quşçu*** etnonimi ilə bağlı toponimlərə Türkiyədə, İranda, Başqırdıstanda, Şimali Qafqazda, Mərkəzi Asiya ölkələrində və digər ərazilərdə rast gəlmək mümkündür.

Əlavə məlumat üçün bax: **Quşçular kəndi.**

## QUŞÇULAR KƏNDİ

Cəbrayıl rayonunun ***Qışçular kəndi*** qədim tarixə malik olan kənddir. Əhalisi əsasən heyvandarlıq və taxılçılıq ilə məşğul olmuşdur. XIX əsrin məşhur sazlı-sözlü şairlərindən olan Aşıq Mahmud bu kənddəndir. Kənd hazırda erməni işğalı altındadır.

***Quşçu*** etnonimi ilə bağlı Azərbaycanda çoxlu coğrafi adlar mövcuddur. Məlumdur ki, ***quşçular*** toponimləri ***quş*** etnonimindən formalaşan etnotoponimdir. ***Quşçu*** tayfaları qara hunlara - ***quşanlara*** aid olan türkdilli bir qəbilədir. Oykonim türkdilli ***quşçu*** tayfasının adını daşıyır. Quşçuların yayılma arealları çox genişdir. ***Quşçu*** topokomponenti Mərkəzi Asiya (xüsusilə Türkmənistan, Qazaxıstan, Qırğızıstan), Şimali Qafqaz, Zaqafqaziya (Azərbaycan, Gürcüstan, Ermənistan), Türkiyə, İran (xüsusilə Cənubi Azərbaycan) və digər ərazilərdə geniş yayılmışdır. Təkcə XIX əsrdə Qafqazda ***quş*** komponenti ilə bağlı ***40***-a qədər toponim qeydə alınmışdır. ***Quşçu*** etnonimi ilə bağlı toponimlərin hələ erkən orta əsrlərdə meydana çıxması güman olunur. Mənbələrə görə, ***quşçu*** tayfası Cənubi Qafqaza hələ III - IV əsrlərdə gəlmişdir.

Bəzi araşdırıcılar quşçuları *qara hunların* bir qolu ilə, bəziləri isə *sarmat* tayfaları arasındakı *quşilərlə* əlaqələndirir. ***Quşilər*** (***xuşilər***) - qədim pəhləvi qəbilələrindən birinin adıdır. ***Quş//kuç*** tayfa adından formalaşmış etnotoponimdir. Məlumdur ki, hun dəstələri əksər hallarda türkdilli qəbilələrdən ibarət olmuşlar. ***Quşçu*** etnoniminə türkdilli xalqların yaşadığı bir çox ərazilərdə rast gəlirik. ***Quşçu*** etnoniminə həmin kökdən olan adamları bildirmək üçün etnonimin adının sonuna ***-lar*** cəm şəkilçisi artırılaraq kəmiyyət toponimi yaranmışdır. ***Quşçu*** türk tayfaları Orta Asiyada I - III əsrlərdə *Kuşan çarlığı* da yaratmışlar. Mənbələrdə II Yezdəgirdin (438 – 457) quşanlarla vuruşmağa iberləri, albanları çağırmağa elçilər göndərdiyi haqqında məlumatlar da vardır.

Tarixi faktlar *quşçuların* qədim etnik ad olduğunu göstərir, Elxani (Hülakü) hökmdarı Ölcaytu xanın dövründə (3304 - 1316) ***quşçu*** ulusu qıpçaq tayfa ittifaqına daxil idi. Bəzi mənbələrə görə, ***quşçular*** Batı xanın (1224 - 1256) əsas hərbi qüvvələrindən biri idi. Təkudar (1282 - 1284) və Arqün xan (1284 - 1291) dövrlərində nüfuzu yüksək olan sərkərdələrin əksəriyyəti ***quşçu*** tayfalarından idi. "*Quşçular*"a aid sənədlərin birində qeyd olunmuşdur ki, Nadirin şah seçilməsinə razı olmaq istəməyən Ziyadoğlu, Otuziki, Kəbirli, Cavanşir tayfalarının başçıları Xorasana sürgünə yollananda Qazax və Borçalı mahalı Kartli hakiminə bəxş edilir. O zaman Kartli hakimliyinə boyun əyməyən ***Quşçu*** elinin bir qolu siyasi hadisələrlə əlaqədar Qarabağa (*Füzuli, Xocalı, Xocavənd, Cəbrayıl, Şuşa* və s. rayonların ərazisinə) gəlmişlər. Qədim pəhləvi qəbilələrindən birinin adı ***Quşan*** olmuşdur. Azərbaycanda ***Quşlar, Quşçular*** kimi çoxlu yer adları ölkəmizdə *quşanların, quşçuların* lap qədimlərdən yaşamalarından xəbər verir. R.İsmayılov Azərbaycanda quşçu tayfasının adı ilə bağlı 14 kəndin olduğunu qeyd etmişdir.

***Quşçu*** etnoniminə Azərbaycandan başqa digər türkdilli xalqların yaşadığı ərazilərdə də rast gəlmək olar. Bəzi tədqiqatçılar ***quşçu*** sözünün mənasını *„ev quşu bəsləyən", "ov quşları mütəxəssisi", "körpə və zahıları qoruyan huma quşu"* və s. kimi yozmağa çalışırlar. ***Quşçular*** (***quşanlar***) qədim hunlardan olub Azərbaycanın köklü sakinləridir. ***Quşçu*** tayfasından çox sayda ictimai və siyasi xadimlər, dəyərli ziyalılar yetişmişdir...

Vaxtilə Cəbrayıl qəzasının tərkibində olan ***Quşçular*** kəndinin əhalisi Əhmədli tayfasına məxsus olmuşdur. Kəndin ərazisində yaşı yüzillərlə ölçülən qocaman Çinar ağacı da var idi.

***Quşçu*** etnonimi ilə əlaqədar Dağlıq Qarabağ Muxtar Vilayətində vaxtilə ***Quşçubaba*** (Xocalı rayonu) adlı kənd də olmuşdur. Son onillərdə ermənilər bu kəndin də adını dəyişib *Moşxmhat* qoymuşlar. Vaxtilə indiki *Oğuz* rayonunun *Yaqublu* kəndinin yaxınlığında (*cənubunda*) da ***Quşçular*** adlı kənd mövcud olmuşdur. Onun xarabalığı indi də durur.

***Quşçu*** (***quşan, quş***) etnonimi ilə bağlı Azərbaycan Respublikasının Goranboy rayonunda *Quşçular kəndi*, Şuşa rayonunda *Aşağı Quşçular kəndi* və *Yuxarı Quşçular kəndi*, Daşkəsən rayonunda *Quşçu körpüsü qəsəbəsi*, Daşkəsən və Göygöl rayonlarının ərazilərində *Quşçu çayı*, Xocalı rayonu ərazisində *Quşçular çayı*, Daşkəsən, Yevlax, Laçın, Şamaxı rayonlarında *Quşçu kəndi*, Daşkəsən və Şamaxı rayonlarının ərazilərində *Quşçu dağı*, Xocavənd rayonu ərazisində *Qışçular dağı* (Tyak kəndinin yaxınlığında), Gədəbəy rayonunun ərazisində *Quşçunun yalı* (Göyəli kəndinin yaxınlığında), Qəbələ və Kürdəmir rayonlarında *Quşlar kəndi*, Qazax rayonunda *Quşçu Ayrım* kəndi, Göygöl rayonunda *Quşçu Goran (Quşçu Armavir)* kəndi, İsmayıllı rayonunda *Quşəncə kəndi*, Laçın rayonu ərazisində *Quşçu yol*

*ayrıcı* və *Quşçu qalası dağı*, Qazax rayonunun ərazisində *Quşqona dağı* və s. vardır. İrəvan xanlığının Sürməli və Dərələyəz mahallarında da *Quşçu* (*Quşi*) *kəndi* olmuşdur.

## QUYCAQ KƏNDİ

***Quycaq kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 5 kilometr şərqdə, Quycaq inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Bəzən bu yaşayış məntəqəsinin adını Quyçaq formasında da yazırlar. Əhalisinin sayı 800 nəfərdir. Heyvandarlıq, üzümçülük, taxılçılıq, baramaçılıq və bağçılıq əhalinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, 25 çarpayılıq xəstəxana, rabitə şöbəsi, ticarət xidməti obyektləri, kəhrizlər və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

Bir sıra ehtimallara görə, kəndin ilk sakinləri burada XVII əsrin ikinci yarısında burada məskunlaşmışdır.

Görkəmli Azərbaycan şairi Qasım Bəy Zakir M.F. Axundova yazdığı şeirdə ***Quycaq*** kəndinin adını da çəkmişdir:

***Belə vilayəti dağıtsın tarı,***
***Ziyadə məğşuşdu Araz kənarı,***
***Xırda-Para, Babı, Qarğabazarı,***
***Maralyan, Horadiz, Nüzgar, Quyucaq...***

Şeirlərindən birində şair Cəfərqulu xana belə bir işarə də vurmuşdur:

***Bidətin yandırıb qövmi əshabı,***
***Müşgüldü gətirmək bu zülmə tabı.***
***Düşüb Cəbrayıllı, Maralyan. Babı,***
***Horadiz, Quyucaq dərbədər səndən...***

1828-ci ilə aid olan sənədli mənbəyə görə, ***Quycaq*** qışlaq yeri olmuşdur. Mənbələrdə hər halda belə qeyd olunmuşdur. Oykonimin tərkibindəki ***caq*** formantının məna xüsusiyyəti şor dilindəki ***cuq*** mənasına uyğun gəlir. Əvvəl qışlaq yeri olmuş və ***Qışlaq*** adlanmış bu ərazi (*kənd*) sonralar Azərbaycanın cənubundan gəlmiş ailələrin burada məskən saldıqları böyük bir kəndə (yaşayış məntəqəsi) çevrilmişdir. Yaşayış məntəqəsi su quyusunun yanında yerləşdiyinə görə, ***Quycaq*** ("*Quyu yeri*") adlanmışdır. ***Quy*** (***kuy***) sözünün türk dillərində "*iri çala*", "*mağara*", "*zəlzələ nəticəsində yaranmış yarıq*" mənaları da məlumdur. Kənddən şimal-şərqdə yerləşən dərələrdən biri işğala qədər *Quyu dərəsi* adlanırdı. XVIII əsr sənədinə görə, ***Quycaq kəndi*** Xırdapara Dizaq mahalı tərkibində olmuşdur.

Cənubi Azərbaycanda da ***Quycaq*** adlı kənd vardır. Vaxtilə İrəvan xanlığının Sürməli mahalında da ***Quyuca*** adlı kənd (Türkmənçay müqaviləsindən az sonra bu kəndin azərbaycanlılardan ibarət əhalisi ermənilər tərəfindən buradan qovulmuşdur) olmuşdur. XVIII əsrdə orada ***Kuçaklı Sufla*** və ***Kuçaklı Ulya*** kəndləri də var idi.

Bəzi tədqiqatçılara görə, ***Quyuca*** (***Quycaq***) toponimi Anadoluda yaşamış *Yüryak* tayfasının ***Qüyü***, ***Küyü*** qolunun adını özündə əks etdirir; mənası "*kiçik Qüyü (Küyü) kəndi*", "*quyu olan yer*" deməkdir. Salyan rayonunda da eyni mənşəli ***Quycü kəndi*** qeydə alınmışdır. ***Quycaq*** kəndinin adı XIX əsrə aid mənbələrdə ***Kuçak*** kimi də göstərilmişdir.





## QUZEY BAĞI

Rayonun Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Quzey bağı*** adlanır. Oronim ***quzey*** coğrafi terminindən, ***bağ*** sözündən və -ı şəkilçisindən ibarətdir. Bu bağda çoxlu sayda müxtəlif ağaclar vardı. ***Bağ*** hündür təpənin gün düşməyən, kölgəli tərəfində yerləşdiyi üçün adına ***Quzey bağı*** deyilirdi. ***Quzey*** coğrafi termini müsbət relyef forması bildirir. ***Quzey*** sözü "*dağın, təpənin şimal yamacı*", "*dağın, təpənin günəş şüası düşməyən kölgəli tərəfi*", "*dağın, təpənin, binanın və s.-nin günəş düşməyən tərəfi*", "*güneyin əksi*" mənasındadır. Coğrafi adların tərkibndə ***quzey*** terminə çox təsadüf edirik. Türk dillərində ***quzey*** termini "*şimal*" anlamında işlədilir. Azərbaycan Respublikasında **quzey** termininin ***quzay***, ***quzoy*** formalarına da təsadüf edirik. Azərbaycanda adının tərkibində ***quzey*** termini iştirak edən ***2 800*** oronim qeydə alınmışdır.

## QUZEY YATAQ

Nüzgər kəndinin yaxınlığında adına ***Quzey yataq*** deyilən coğrafi ad da qeydə alınmışdır. Toponim ***quzey*** coğrafi terminindən və ***yataq*** sözündən ibarətdir. Oronimiyada ***quzey*** coğrafi termini müsbət relyef forması bildirir. Məlumdur ki, türkdilli xalqlarda ***quzey*** termini "şimal" anlamında işlədilir. ***Quzey*** sözünün *"dağın, təpənin şimal yamacı", "dağın, təpənin günəş şüası düşməyən kölgəli tərəfi", "dağın, təpənin, binanın və s.-nin günəş düşməyən tərəfi", "güneyin əksi"* mənaları vardır. Respublikamız ərazisində coğrafi adların tərkibndə ***quzey*** termininə çox təsadüf edirik. Azərbaycan Respublikasında **quzey** termininin ***quzay, quzoy*** formalarına da təsadüf edirik. Azərbaycanda adının tərkibində ***quzey*** termini iştirak edən ***2 800*** oronim qeydə alınmışdır.

***Quzey yataq*** toponiminin tərkibindəki ***yataq*** termini davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililəri olan xüsusi sahəni ifadə edir. ***Yataqlar*** maldarlığın inkişafı ilə əlaqədar hələ qədim zamanlardan məlumdur. *Yataqlar* yaylaqda əsasən daşdan, aranda isə müxtəlif qamış, qarğı, ağac, daş və s. materiallardan tikilən ağıl, xalxal və s.-dən ibarətdir. Adətən ***yataqlar*** yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınır. Yataqlarda çobanlar üçün yaşayış mənzilləri, alaçıq, çadır, aran yerlərində isə heyvanların qışlaması üçün damlar olur. ***Yataq*** termini ilə bağlı respublikamızda çoxlu sayda toponimlər qeydə alınmışdır.

## QUZĞUNLUQ ÇAYI

Cəbrayıl rayonu ərazisində İncəçayın (*Arazın qolu*) sağ qolu olan ***Quzğunluq çayı*** ətrafdakı ***Quzğunluq*** adlanan yerin yaxınlığından axdığı üçün belə adlanmışdır. ***Quzğunluq*** adı keçmişdə orada sərçəkimilər dəstəsinin ***qarğalar*** fəsiləsindən olan ***quzğun*** quşunun çox olması ilə əlaqədar əmələ gəlmişdir. Toponim ***quzğun*** və çay sözlərindən, eləcə də ***-luq*** və -ı şəkilçilərindən ibarətdir. Sərçəkimilər dəstəsinin qarğalar fəsiləsinə aid olan oturaq quş ***quzğun*** adlanır. Onun bədəninin uzunluğu 60–65 sm, rəngi göy və yaşılaçalan metal parıltılı-qaradır. Bu tipli zoohidronimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlirik.





## QUZGUNLUQÇAY

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Quzğunluq***çay adlanır. Hidronim ***quzğun*** sözündən, ***-luq*** şəkilçisindən və çay hidronimik apelyativindən ibarətdir. Çayda və onun sahilində tez-tez *quzğunlara* rast gəlindiyi üçün yerli əhali tərəfindən ona belə ad verilmişdir. ***Quzğunluq***çay coğrafi adı zoohidronimdir.

Azərbaycanda ***quzğun*** quşunun adı ilə bağlı çoxlu toponimlər qeydə alınmışdır. ***Quzğun*** – sərçəkimilər dəstəsinin qarğalar fəsiləsinə aid olan oturaq quşdur. Onun bədəninin uzunluğu 60–65 sm, rəngi göy və yaşılaçalan metal parıltılı-qaradır. Azərbaycanda əsasən, yüksək dağ meşələrində və alp qurşağında yaşayırlar. Həmişə eyni yerdə yuvalayırlar. ***Quzğun*** ağacların başında, qayalarda, uca tikililərdə düzəltdiyi yuvaya ildə bir dəfə 5-6 yumurta qoyur. ***Quzğunlar*** əsasən, leş, həmçinin xırda quş, gəmirici, balıq, molyusk və s. ilə qidalanır.

"L"

## LALƏ DÜZÜ

***Lalə*** - xaşxaşkimilər fəsiləsindən birillik və ya çoxillik bitki cinsidir. Lalənin vətəni Aralıq dənizi ölkələri hesab olunur. Azərbaycanda ***20***-dən çox ***lalə*** növü vardır. ***Lalə düzü*** oronimi Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınmışdır. Oronim həmin düzənlikdə bitən ***lalə*** bitkisinin adı ilə adlanmışdır. Oronimin tərkibindəki ***düz*** coğrafi termini mənfi relyef forması bildirir. Bu tipli toponimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.

## LƏLƏ DAĞI

Rayonun Cocuq Mərcanlı kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Lələ dağı*** adlanır. Oronim ***Lələ*** və ***dağ*** sözlərindən ibarətdir. ***Lələ*** hamımızın eşitdiyimiz, tarixdən, rəvayətlərdən tanıdığımız məşhur bir şəxsiyyətdir. Onun doğum və ölüm tarixləri də dəqiq bilinmir. Deyilənə görə, ***Lələ*** Azərbaycanı qarış-qarış dolanmışdır.

Oronimin tərkibindəki ***dağ*** komponenti müsbət relyef forması ifadə edən coğrafi termindir. Azərbaycan oronimiyasında çöl materialları içərisində adının tərkibində ***dağ*** termini olan ***1300***-dən çox coğrafi ad qeydə alınmışdır.

***Lələ*** haqqında çoxlu rəvayətlər, əfsanələr vardır. Onlardan biri belədir:

*Çoxdan ailə qurmuş, amma uşaqları olmayan bir ailə uşaqlarının olmaması ilə əlaqədar Həccə gedərkən yolüstü Lələgilin evində qalır. Lələnin arvadı qonaq qadından soruşur ki, uşağın varmı? O da cavabında deyir ki, uşağım olmur. Bu da ərindən xəlvət gətirib arvadın qucağına balaca bir daş qoyur. Daşı qoyurlar, yürüyürlər. Yürüyürlər, yürüyürlər, səhər duranda görürlər ki, həmin daş uşaq olub və uşaq da ağlayır. Həmin bu Lələnin evində. Ər-arvad daha Həccə getmirlər. Uşağı götürüb geri qayıdırlar...*





## LƏLƏ PİRİ

Çələbilər kəndinin ərazisində, gövdəsi daş hasara alınmış sıx yarpaqlı, gövdəsi tünd-göy qabıqlı dağdağan ağacından ibarət oroqrafik obyekt ***Lələ piri*** adlanır. Onun kölgəsi həmişə Hacı Qaraman oturub istirahət etdikləri yer olmuşdur. ***Pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

Cəbrayıl rayonunun ərazisində başqa ***Lələ piri*** adlı oroqrafik obyekt də vardır. Çocuq Mərcanlı kəndinin yaxınlığında, *Lələ düzü* adlanan kövşənin yanında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Lələ piri*** adlanır. ***Lələ piri*** daş hasara alınmış yabanı armud ağacından ibarətdir. Yerli camaat ***pira*** niyyət edər, qurbanlar kəsər, ağacın qanadlarına, budaqlarına parça qırıqları bağlayar, ondan diləklərini diləyərdilər. Yerli məlumata görə, ***Lələ piri*** məşhur *aşıq* olan ***Lələnin*** məqam yeri olmuşdur. Toponim bununla əlaqədar olaraq belə adlanmışdır.

## LƏLƏ TƏPƏSİ, LƏLƏ YAYLAĞI

***Lələ təpəsi*** oroqrafik obyekti Cəbrayıl rayonunun Maralyan və Mərcanlı kəndləri yaxınlığında yerləşir. Cəbrayıl rayonunun ərazisində, Nüzgər kəndinin yaxınlığında qeydə alınan bu tipli coğrafi adlardan biri də ***Lələ yaylağı*** adlanır. Məlumdur ki, *Qızılbaşlar* dövlətində yetkin yaşa çatmamış şahzadənin hamisinə, tərbiyəçisinə ***lələ*** deyilirdi. Oronim doğum və ölüm tarixləri dəqiq bilinməyən məşhur el aşığı, ozan, şair ***Lələnin*** adı ilə əlaqədardır. Onun qəbri Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığındakı Arğalı qəbiristanlığındadır.

Məşhur el sənətkarı olan ***Aşıq Lələ*** yüzlərlə bayatılar qoşmuşdur. Onlardan bəzisini xatırlamaq yerinə düşər:

*Lələ qeylü-qaldadır,*
*Gör dünya nə haldadır.*
*Kimi atlaz bəyənməz,*
*Kimin gözü şaldadır.*

*Lələ bir kümə tikdi,*
*Ağzını günə tikdi.*
*İçinin sahibi yox,*
*Bilmədi kimə tikdi.*

*Dağlarda qar, qış oldu,*
*Ömrünə dar qış oldu.*
*Lələnin şirin sözü*
*Fələyə qarğış oldu.*

*Lələ deyir yoldadır,*
*Gör dünya nə haldadır.*
*Kimi atlaz bəyənməz,*
*Kimin gözü şaldadır.*

*Lələnin çardağı var,*
*Gümüşdən bardağı var.*
*Lələ getdi, gəlmədi,*
*Bəlkə yolda yağı var.*

*Lələyəm, Babı haray,*
*Arğalı, Babı haray.*
*Haram aşıb daşsa da,*
*Boş qalır qabı, haray.*

*Lələyəm, Ərşə başı,*
*Çox verdim ər şabaşı.*
*- Namərddən kişi olmaz,-*
*Yetişsə ərşə başı.*

*Lələ, yerim Arğalı,*
*Mələməz ay arğalı.*
*Kəshakəs meydanında*
*Namərd qaçır, ər qalı.*

*Lələ deyir al malı,*
*Yaxşı tanı al malı.*
*Neyçün bağa gəlmirsən,*
*Yanaqları almalı?*

*Lələ bir dəyə tikdi,*
*Üzün güneyə tikdi.*
*Nə gələn var, nə gedən,*
*Bilmədi nəyə tikdi.*

*Lələyəm, bu başdan mən,*
*Yemərəm hər aşdan mən.*
*Nə atam var, nə anam,*
*Yaranmışam daşdan mən.*

*Lələ tikdi yay damı,*
*Hanı bunun adamı?*
*Payız cənnət, qış qurcu,*
*Yaz sultandır, yay damı.*

***Lələ*** adı ilə əlaqədar Azərbaycanda onlarla oroqrafik obyekt adları qeydə alınmışdır. Onlara nümunə olaraq *Lələkəpeşkə kəndi* (Astara rayonu), *Lələduran* kəndi, *Lələkəran kəndi* (Lerik rayonu), *Lələpaşa* kəndi, *Lələli kəndi* (Qax rayonu), *Lələbağırlı kəndi* (Laçın rayonu), *Lələağacı kəndi* (Zərdab rayonu), *Lələ düzü* (Füzuli rayonunun Horadiz kəndi yaxınlığında), *Lələli məhəlləsi* (Füzuli rayonu, Böyük Bəhmənli kəndi), *Lələli oymağı* (Füzuli rayonu, Yuxarı Yağlıvənd kəndi) və digərlərinin adlarını çəkmək olar.





## LƏNG ƏHMƏD

Məlumdur ki, Azərbaycanda şəxs adları ilə düzələn oronimlər çoğdur. Cəbrayıl rayonunun ərazisində də xeyli belə coğrafi adlar vardır. Onlardan biri də ***Ləng Əhməd*** (bəzən bu toponim ***Ləngəhməd*** formasında da yazılır) toponimidir. Adından da göründüyü kimi ***Ləng Əhməd*** coğrafi adı ***ləng*** komponentindən və ***Əhməd*** şəxs adından əmələ gəlmişdir. Bu ***yer*** əldən-ayaqdan, dildən iti olmayan ***Əhməd*** adlı tənbəl, yavaş və asta yeriyən bir şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

"M"

## MAHMUDLU KƏNDİ

***Mahmudlu kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 20 kilometr cənub-şərqdə, Karxulu inzibati ərazi vahidində, Mincivan-Horadiz dəmir yolu kənarında, Gəyan çölündə, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 500 nəfərdir. Heyvandarlıq, baramaçılıq, üzümçülük əhalinin əsas məşğuliyyəti sayılırdı, Kənddə orta məktəb, klub, kitabxana, ticarət obyektləri, arxeoloji abidələrdən Qumtəpə və Canqulu kurqanları vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Mahmudlu*** oykonimi ***Mahmud*** şəxs adından və mənsubluq bildirən ***-lu*** şəkilçisindən törəmişdir. Kənd Maqsud ağanın oğlu, Fuğani ağanın qardaşı ***Mahmud*** ağanın adı ilə bağlıdır. Mahmudluların *Heydərli, Ortaqışlaq, Nəziralılı, Bəbirli, Musaxanlı, Ələsgərli, İsgəndərli, Kərbəlayi Əlili, Əlihüseynli, Sovxanlı, Əlişirəli* adlı tirələri də olmuşdur. XVIII - XIX əsrlərdə ***mahmudlular*** Cəbrayıl elinin ***18*** oymağından biri kimi keçmişdə Əyri adlanan ərazidə yaşamışlar. Qədim türk tayfası olan ***Mahmudlular*** Azərbaycana müxtəlif vaxtlarda gəlmişlər. ***Mahmudlu*** yaşayış məntəqəsi ***mahmudlu*** türk taylasının burada məskunlaşması nəticəsində yaranmışdır. Bu tayfa qışı Qarabağda, yayı Zəngəzurda keçirərdi. XVI - XVII əsrlərdə Türkiyə ərazisində Van gölündən şərqdə yaşamış, sonralar ermənilərlə münasibət zəminində bir hissəsi Zaqafqaziyaya gəlmiş ***mahmudlu*** tayfası Azərbaycanın bir sıra inzibati rayonlarında yaşayış məskənləri salmışlar.

Tarixə istinadən qeyd etmək olar ki, ***Mahmudlu*** etnooykonimi XVI - XVIII əsrlərdə indiki Türkiyədəki *Van* gölünün şərqində yaşamış və sonralar digər tayfalarla qaynayıb-qarışaraq Zaqafqaziyada, eləcə də Azərbaycanda bir çox yaşayış məskənləri salmış eyniadlı tayfa adını özündə əks etdirir.

Azərbaycanda bəzi kəndlərin adında bu etnonim ***Kürdmahmudlu*** (*Füzuli rayonu*) kimi də öz əksini tapmışdır. Qubadlı, İmişli, Füzuli və Şəmkir rayonlarında da ***Mahmudlu kəndi*** vardır.

Azərbaycan toponimik sisteminin bu və ya digər makro və mikro





areallarında eyni toponimlərdən bir qisminin qarışıq semantic cərgəli fərqləndirici əlamətlərlə diferensiallaşdırılması müəyyən qanunayğunluqlardan əmələ gəlir. Bunun əsas səbəbi arealda eyni toponimlərin sayca çoxluğu və onların diferensiallaşdırılmasında konkret bir semantic qrupa daxil olan fərqləndirici əlamətlərin çatışmazlığı, başqa semantic qruplara məxsus fərqləndirici əlamətlərin həmin obyektlər üçün xarakterik olmasıdır. *Cəbrayıl - Qubadlı - Füzuli - İmişli* rayonlarında ***7*** dəfə təkrarlanan ***Mahmudlu*** oykonimlərini bir-birindən fərqləndirmək üçün əvvəlcə kəndlərin yaranma ardıcıllığını bildirən sözlərdən - *Mahmudlu kəndi* (Cəbrayıl) - *Mahmudlu kəndi* (Qubadlı) - *Birinci Mahmudlu kəndi* (Füzuli) - *İkinci Mahmudlu kəndi* (Füzuli) - *Üçüncü Mahmudlu kəndi* (Füzuli) istifadə olunmuş, sonra isə digər ***Mahmudlu*** toponimlərinin adını daşıdığı yaşayış məntəqəsinin vaxtilə məxsus olduğu zümrəni göstərən ***Seyid*** adını (*Seyidmahmudlu kəndi* - Füzuli rayonu), digəri əhalisinin müəyyən hissəsinin əvvəllər mənsub olduğu etnik qrup adını (*Kürdmahmudlu kəndi* - Füzuli və İmişli rayonları) artırmaqla diferensiallaşdırılmışdır.

Gəncə (*Yelizavetpol*) quberniyasının Zəngəzur qəzasında (*indi Qafan rayonu*) da vaxtilə azərbaycanlılar yaşayan ***Mahmudlu kəndi*** (əhalisi 1988-ci ildə Mahmudlu *qovulmuşdur*) mövcud olmuşdur.

## MAXAV BULAĞI

Qazanzəmi kəndinin ərazisində, Təknur dağının güney sinəsində qeydə alınan hidronim ***Maxav bulağı*** adlanır. ***Maxav bulağı*** daşdan süzülən bir bulaqdır. Bu ***bulaq*** adətən kəndin ən qədim məhəllərindən biri hesab edilən ***Maxav*** məhəlləsinin əhalisinin istifadəsində olduğu üçün elə həmin məhəllənin adı ilə adlanmışdır.

## MAQSUD DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Dəmçi təpəsinin gündoğanında qeydə alınan oronimlərdən biri ***Maqsud*** dərəsi adlanır. Bu gen ***dərə*** Şaqqıldaqlıq düzünədək uzanır. Oronim ***Maq-***

***sud*** şəxs adından, ***dərə*** mənfi relyef forması ifadə edən coğrafi termindən, eləcə də ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"Maqsuda məxsus olan dərə"* mənasındadır.

## MARAXANLI DÜZÜ

Havuslu və Qaraxanlı kəndlərinin yaxınlığında qeydə alınmış oronimlərdən biri ***Maraxanlı düzü*** adlanır. Bəzi sənəd və materiallarda bu coğrafi ad ***Marahan düzü*** kimi qeyd olunur. Toponimin tərkibindəki ***Maraxanlı*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur.

***Düz*** coğrafi termini mənfi relyef forması bildirir. ***Düz*** və ya ***düzənlik*** sözü oronimiyamızda həm ***düz***, həm də ***yazı*** formalarında öz əksini tapmışdır. Respublikamızın ərazisinin ***33 %****-i düzənlik* ərazilər olduğuna görə çöl materialları içərisində tərkibində ***düz*** və ya *düzənlik* termini iştirak edən ***11 000*** oronim qeydə alınmışdır.

## MARAL DAĞI

Rayonun Nüzgər kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Maral dağı*** adlanır. Oronim ***maral*** və ***dağ*** sözlərindən, həmçinin -ı şəkilçisindən ibarətdir. Toponim *"maral olan dağ"* anlamındadır. Yerli məlumata görə, vaxtilə burada ***maral*** olduğu üçün ***dağ*** belə adlandırılmışdır. ***Maral*** çöl heyvanının adı ilə bağlı Azərbaycan Respublikasının ərazisində çoxlu sayda coğrafi adlar qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Maral yeri, Maral yoxuşu, Maral zəmisi.**

## MARAL YERİ

Cəbrayıl rayonu ərazisində, Araz sahilində, Diridağdan bir qədər aralıda, "Üryan *Xıdır qalası*" ətrafında, Hacı Qaraman məqbərəsi yaxınlığında qeydə alınan oronim ***Maral yeri*** adlanır. Bu oroqrafik obyekt ***maral*** çöl heyvanının adı ilə bağlıdır. Deyilənlərə görə, bu ***yerlərdən*** maralların





hələ nəsli kəsilməmişdən öncə onlar həmişə gəlib məqbərənin üstündə mələşər, buynuzlarını dəyişərmişlər. Vaxtilə adamlar burada çoxlu marallara rast gələrmişlər.

## MARAL YOXUŞU

Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınan ***Maral yoxuşu*** oronimi ***maral*** çöl heyvanı adı və ***yoxuş*** coğrafi terminindən düzəlmişdir. ***Yoxuş*** – *"yolun dağa, təpəyə, yaylağa çıxan hissəsi"*, *"yamacın aşağıdan yuxarıya kəsimi"* mənasındadır. Oronimiyamızda ***yoxuş*** termini ilə bağlı ***2 000*** coğrafi ad qeydə alınmışdır.

Cəbrayıl rayonu ərazisində, Nüzgər kəndi yaxınlığında *Miranşah yoxuşu* (Əmir Teymurun oğlu *Miranşahın* adı ilə bağlıdır), Dağ Tumas kəndində *Naxışlı yoxuş* (*"bəzəkli, çeşidli"* mənasında), Tatar kəndində *Sarıyoxuş* (*süxurların rənginə görə*) və *Cilan yoxuşu* oronimləri də qeydə alınmışdır.

## MARAL ZƏMİSİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Maral zəmisi*** oronimidir. Toponim ***maral*** və ***zəmi*** sözlərindən, eləcə də ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. Vaxtilə bu yerlərdə ***maral*** çöl heyvanına rast gəlindiyindən oronim belə ad almışdır. Bu tipli coğrafi adlara Azərbaycan Respublikasının digər bölgələrində də rast gəlmək mümkündür.

## MARALBATAN GÖL

Heyvan və quş adları əsasında əmələ gələn zoohidronimlər Cəbrayıl rayonunun ərazisində də xeyli saydadır. Belə zoohidronimlərdən biri ***Maralbatan göl*** adlanır. Bu coğrafi ad ***maral*** heyvan adından, ***batan*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Vaxtilə bu göldə *maral*

*batdığı* üçün hidronim belə ad almışdır.

***Marallar*** cütdırnaqlılar dəstəsindən məməlilər fəsiləsinə aid olan hündür ayaqlı, qısa quyruqlu, yaraşıqlı heyvandır. Erkəkləri, adətən, hər il buynuzunu dəyişir. Rəngi kürəni və qonurdur. Bəzən xallıları da olur. Maralların ***40*** növü əhatə edən ***17*** cinsi məlumdur. Azərbaycanda *nəcib maral* və ya *Qafqaz maralı, cüyür, xallı maral* geniş yayılmışdır. Ov və sənaye əhəmiyyətli heyvan sayılan marallar yarpaq, zoğ, ağac qabığı və s. ilə qidalanırlar. Maralların bəzi növlərinin sayı həddindən çox azaldığından onları ovlamaq qadağandır.

## MARALYAN GÖLÜ

Cəbrayıl rayonunun Maralyan kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Maralyan gölü*** adlanır. Hidronim ***Maralyan*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Toponimin tərkibindəki ***Maralyan*** sözü Maralyan kəndinin adındandır. Toponim "*Maralyan kəndinin ərazisində olan göl*" anlamındadır.

## MARALYAN KANALI

Rayonun Maralyan kəndi yaxınlığında qeydə alınmış su kanalı ***Maralyan*** adlanır. Bu su kanalı *Maralyan* kəndinin adı ilə əlaqədardır. ***Maralyan*** suvarma kanalı işğala qədər rayonun kənd təsərrüfatının intensiv inkişafını təmin edirdi.

## MARALYAN KƏNDİ

Yaşlı adamlar, qocalar deyirlər ki, keçmişdə ***Maralyan*** kəndinin camaatı əkinçiliklə məşğul olurmuş. Lakin əkin sahəsi azlıq etdiyindən yaxındakı kiçik meşəni yandırmağı qərara alırlar. Kənd camaatının ağsaqqalı dünyagörmüş bir adam idi. Nahaq işə yol verməyən, gücsüzü güclüyə döydürməyən, ədaləti insaf tərəzisi bilən bu qoca ehtiyatla yeriyirdi





ki, ayağının altında bir günahsız qarışqa belə qalıb əzilməsin, ölməsin. Ona görə el ağsaqqalı rəiyyətinə deyir:

*- Onsuz da ağacı yandıranda günaha batacağıq. Barı elə edin bütün heyvanat aləmindən olan canlıların hamısını sağ-salamat qovub böyük meşəyə köçürə bilək.*

*Camaat ağsaqqalın məsləhətini can-başla yerinə yetirir. Sonra meşəyə od vururlar. Yeri şimlayıb taxıl əkirlər. O ili yaxşı buğda yetişir. Oraqlar işə düşür. Xırmanlarda sarı buğda tayalanır. Hamı bol məhsula sevinir. Camaat məhsul bayramına toplaşıb şənliyə başlayırlar. Bu arada kəndçilərdən biri yanıb kösövə dönmüş bir* ***maral*** *balasını ağsaqqalın hüzuruna gətirib, günahkarın tapılmasını tələb edir. Şənliyə elə bil su səpilir. Hamı yanmış maral balası üçün heyfsilənir. İşbilənlər aydınlaşdırır ki, heç kim* ***maral*** *balasına qəsd etməmişdir. Sən demə körpə dərəyə sıçrayarkən burxulub ayaqları sınmış, qaçıb canını alovdan qurtara bilməmişdir. El ağsaqqalı kədərlə köksünü ötürüb deyir:*

*- Bilmədim,* ***maral yana.***

*O gündən həmin kənd ağsaqqalın sözü ilə* **Maralyan** *adlanır.*

Əlavə məlumat üçün bax: **Aşağı Maralyan kəndi** və **Yuxarı Maralyan kəndi.**

## MARDARIX DƏRƏSİ

Qazanzəmi kəndinin yaxınlığında, Cimi dərəsinə gedən yolun üstündə qeydə alınan oroqrafik obyekt ***Mardarıx dərəsi*** adlanır. Bu ***dərə*** su döyən geniş bir çökəklikdən ibarətdir. Kənd camaatının bəzisi işğala qədər (1993-cü il) bu dərədə bostan becərirdi. Toponimin tərkibindəki ***dərə*** sözü mənfi relyef forması ifadə edir; ***-si*** şəkilçisi mənsubluq bildirir.

## MAŞANLI KƏNDİ

***Maşanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 26 kilometr cənubda, Maşanlı inzibati ərazi vahidində, Araz çayının sol sahilində, Mincivan-Horadiz dəmir yolu kənarında, düzənlik ərazidə yerləşir. Əha-

lisinin sayı 362 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin əsas məşğul olduğu kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət obyektləri və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Maşanlı*** kəndinə bəzən ***Araz Maşanlı*** da deyirlər. Yerli məlumata görə, bu yaşayış məntəqəsini həmin rayondakı ***Dağ Maşanlı*** (*Qazanzəmi kənd inzibati ərazi vahidində*) kəndindən köçüb gəlmiş ailələr Araz çayı sahilində saldığına görə, kənd də belə adlandırılmışdır. Oykonim ***Maşan*** sözündən və ***-lı*** şəkilçisindən ibarətdir.

Rəvayətə görə, bu yaşayış məntəqəsi Cəbrayıl kəndinin əsasını qoyan Cəbrayl Atanın ***Maşan*** adlı oğlunun adı ilə bağlıdır. Bu toponim haqqında ağızlarda dolaşan rəvayətlərə görə, Cəbrayıl kəndinin əsasını qoyan Cəbrayıl Atanın bir neçə oğlu olmuş və onlar böyüyüb ayrı-ayrı yerlərdə məskən salmış, saldıqları yaşayış məntəqələrini də öz adları ilə adlandırmışlar. Bu oğlanlardan da birinin adı ***Maşan*** olmuşdur. Əsasən heyvandarlıqla məşğul olmuş Maşanın törəmələri qışda Araz boyunda yaşamış və o yeri ***Araz Maşanlı*** adlandırmışlar. Onlar yayı Tumas dağının ətəklərində məskən salmış, buranı da ***Dağ Maşanlı*** adlandırmışlar. Elə o zamandan da bu yaşayış məntəqələrinin birinin adı ***Araz Maşanlı***, o birinin adı isə ***Dağ Maşanlı*** adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Dağmaşanlı kəndi.**

## MAZAN NƏNƏ OCAĞI

Araz çayının sol sahilində, Cəbrayıl rayonu ərazisində, Stansı Xələfli kəndindən 5 kilometr aralıda, Diridağın zirvəsində qərar tutan ***Mazan nənə*** (*bu ad bəzən **Mazannənə** formasında, bitişik də yazılır*) ***ocağı*** lap qədim çağlardan ünlü Diri kəndinin sığınacaq yeri olmuşdur. Deyilənə görə, ***Mazannənə piri*** tarixən mövcud olmuş madərşahlıq dövrünün abidəsidir. Bu ***pir-ocaq*** dördkünc şəkildə 3,5 – 4 metr ölçülərdə olan tikilidən ibarətdir. Abidənin yaxınlığında indiyədək nişanələri qalan qədim yaşayış məskəni – *Mazannənə kəndi* (bəziləri onun *Diri kəndi* adlandığını iddia edirlər) mövcud olmuşdur. Bir məlumata görə, XVI əsrdə yaşamış





məşhur aşıq Dirili Qurbani ***Mazannənə*** ocağında yatarkən ona buta verilmişdir. Bu kəndin ətrafındakı qədim qəbiristanlıqda sinə daşı üzərində "Əziz ibn Seyyid Əl-Məhəmməd" sözləri yazılmış qəbir (*buradakı qəbrin üzərində doğum və ölüm illəri - hicri 750 – 809 rəqəmləri yazılmışdır*), eləcə də buradakı digər qəbirlər bu yerlərin ən qədim sakinlərinin dədə-babalarımızın – azərbaycanlıların olmasını təsdiq edir.

***Mazan nənə piri*** adam boyundan yuxarı dairəvi şəkildə dağ daşları ilə hasara alınmış və qapı da qoyulmuşdur. İçəridə isə ***Mazan nənə*** basdırılmışdır. Bu pirə adətən, erkək qoyun, dana, xoruz və s. heyvanlar qurban deyilir. Pirə gətirilən qurban da çöl tərəfdən pirin ətrafına fırladılırdı. ***Mazan nənə piri*** ərazidə məşhur olduğundan yaxın və uzaq ellərdən bura çoxlu ziyarətçilər gələrdi.

Çox zaman bu coğrafi ad sənədlərdə ***Mazannənə piri*** kimi də yazılır. Bu tikili Xatın xaqanlığı (*professor Z.İ.Yampolski*) çağının uluq-uduq abidələrindəndir. **Mazan** – addır. ***Mərmər*** (*adına **Sarı Mərmər** də deyirlər*) isə Mazan nənənin anasının (*bəzi sənədlərə görə **qızının***) adıdır. ***Mazan nənə ocağı*** Cəbrayılda seçilən, sayılan, əziz və müqəddəs tutulan ziyarətgahlardan biridir. ***Mazannənə*** ocağının ətrafı çinar, saqqız, dağdağan, nar, əncir, meynə ağacları ilə əhatələnmişdir.

Buraya ziyarətə gələnlər qəbir divarına söykənmiş ***dağdağan*** ağacının gövdəsinə niyyət edərək mıx çalar və parça qırıqları bağlayardılar. Bu ziyarətgahın zəvvarları çox olardı. Ziyarətə gələnlər hasarın başına 3 dəfə dolanar, daşları öpər, pıçıltı ilə ocaqdan öz hacətlərini diləyərdilər. Sonra ayaqqabılarını soyunub hasarın içərisinə daxil olardılar. Burada da daşları öpərək qəbrin başına saat istiqamətində 3 dəfə fırlanardılar və niyyətlərini təkrar edərək nəzir-ziyazlarını qəbir üstünə qoyardılar. Qəbir divarının çıxıntısı olan daşların üzərində şam yandırardılar. Bundan sonra gətidikləri hər hansı bir qurbanlığı (*qoyun, quzu, keçi, dana, xoruz və s.*) kəsib bişmişindən və ya çiyindən ziyarətçilərə paylayardılar. Sonra yaxınlıqdakı qayadan süzülən bulağın şəfalı suyundan içər, çay dəmləyər, sonra da sudan gətirdikləri qablara doldurub geri qayıdardılar...

Toponim ***Mazan*** və ***nənə*** sözlərindən ibarətdir. Professor Mirəli Seyidovun məlumatına görə, ***nənə//nane*** qədim türkdilli tayfalarda "*Allahlar anasının adı*" olmuşdur. Məlumdur ki, qədim türk tayfalarında ***nənə*** adı "*Allahlar anasına*" verilərdi. Bəzi yerli əhali Hasanlı kəndi yaxınlığın-

dakı ***Mərmər nənə*** abidəsində dəfn olunan qadını (*Mərmər nənəni*) ***Mazan*** nənənin anası hesab edir.

***Mazannənə piri*** ilə bağlı çoxlu əfsanələr, rəvayətlər qoşulmuşdur.

* * *

***Rəvayətlərdən birində deyilir ki, bu qəbir böyük Turan hökmdarı Alp Ər Tunqanın (Əfrasiyabın) xanımı olan Anaqızın doqquzuncu qarnından doğulmuş Tomris ananın öz qəbridir. Qəbir də elə o zamandan müqəddəs tutulur, qorunub saxlanır. Amma ad təhrif olunmuşdur...***

* * *

***Başqa bir rəvayətdə deyilir ki, bir qadın gedib kündə eləyib. Paltar qazanı qoyub ki, paltar yuya, çörək sala. Süfrəni açıb, kündəni eləyib yığıb ora. Qayıdıb çörək salıb. Deyiblər:***

***- Evin yıxılmasın, - Mazan nənədir adı, bilirsən, qənimlər gəlib çıxıblar.***

***Orda deyib:***

***- Allah, özün bilən yaxşıdır, mən neynəyə bilərəm.***

***Allah Mazan nənəni orda qeybə çəkir. Amma kündələri də daş olub, oxları da, dördayağı da, sacı da.***

***Axşam vaxtı hərbçilər gəlirmiş, onun nəyi var, yığıb aparıb tökürlər Araza ki, bura gəlib yığıncaq eləməsinlər. Səhər gəlib görürlərmişlər ki, kündə də yerindədir, sac da, oxlov da, - hamısı yerbəyerindədir.***

***Onun bir dənə kündəsini götürən olubdur, amma qayıdan baş qayadan uçubdur.***

***Hacı Qaraman özü deyib ki, mənim övladım ora ziyarətə gedə bilər, amma ayrı yerə icazə vermirəm gedə. Hacı Qaraman deyirmiş ki, o qadın kəsik ("ziyarətsiz") qadın olduğuna görə, hər cümə mən onun görüşünə gedirəm. O da bizim sinif kimi nəcabət yiyəsidir...***





## MEHDİ BƏRƏSİ

Şəxs adları yolu ilə əmələ gəlmiş antroponimlərdən biri də Cəbrayıl rayonunun ərazisində qeydə alınan ***Mehdi bərəsi*** coğrafi adıdır. Toponim ***Mehdi*** şəxs adından, ***bərə*** sözündən və ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. ***Bərə*** sözünün müxtəlif məna çalarları – *"ov gözlənilən yer, marıq, pusqu", "bağ və bostanların arasındakı cığır, ara, mərz, sərhəd", "yol, aralıq, çıxacaq yer", "əkinləri suvarmaq üçün düzəldilən kiçik arx", "sağım zamanı qoyunların saxlandığı çəpərlənmiş sahədəki çıxacaq"* vardır. Bu tipli oroqrafik obyektlərə digər rayonların ərazilərində də rast gəlirik.

## MEHDİLİ KƏNDİ

***Mehdili kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 34 kilometr şərqdə, Mehdili inzibati ərazi vahidində, Mincivan-Horadiz dəmir yolu kənarında, düzənlik ərazidə yerləşir. Əhalisi ***1 500*** nəfərdir. Taxılçılıq, heyvandarlıq, baramaçılıq və üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, ticarət xidməti obyektləri və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Mehdili*** obasının tarixi haqqında el arasında müxtəlif fikirlər, versiyalar vardır. ***Mehdili kəndi*** XVIII əsrin ikinci yarısına aid olan sənədə görə, *Xırdapara Dizaq mahalı* tərkibində olmuşdur. Bəzi araşdırıcılara görə, ***Mehdili*** yaşayış məntəqəsi Qarabağlı İbrahimxəlil xanın oğlu Cəfərqulu xanın mülkü olmuş indiki Bərdə rayonunun Ləmbəran kəndindən köçürülmüş ***mehdili*** adlı nəslin həmin xana məxsus olan torpaqda yerləşdirilməsi nəticəsində yaranmışdır. Vaxtilə buraya Cənubi Azərbaycandan, adına Ermənistan deyilən Qərbi Azərbaycandan, eləcə də, qonşu Füzuli rayonunun Dördçinar və Mirzənağılı kəndlərindən bəzi ailələr də gəlmişlər.

Tarixi sənədlərdən aydın olur ki, XVIII əsrin sonlarında Bərdə ətrafında, Kəbirli mahalının ərazisində Mehdiqulu ağa İbrahimxəlil xan oğlu Sarıcalı-Cavanşirə bağlı *Mehdisərkarlı* adlı oba vardı. Mehdi Sərkar təxminən 1772-ci ildə anadan olmuşdur. Onun yurdunda Qasım və Fətəli

adlı oğlanları qalmışdır. Mehdisərkarlı obası Qasım Sərkarın (1802 - 1863) kətxudalığı dönəmində obalıqla köçüb, İyirmidörd mahalının *Alpaut* kəndinin ərazisində məskunlaşmışdır.

Xirdapara-Dizaq mahalında yaşam sürən ***Mehdili obası*** isə Məhəmmədhəsən ağa İbrahimxəlil xan oğlunun arvadı Mahşərəf xanıma aid idi. XVIII əsrin sonlarında obanın başçısı ***Mehdi Sərkar*** olmuşdur. Mehdi Sərkardan sonra onun oğlu Rəhim yüzbaşı obaya rəhbərlik etmişdir.

Bərdə və Kürdəmir rayonlarında da *Mehdili kəndi* vardır.

Əlavə məlumat üçün bax: **Mehdili obası.**

## MEHDİLİ OBASI

Bu obanın tarixi ilə bağlı el arasında bir neçə fikir mövcuddur. Bəzi araşdırıcılara görə, bu obanın əhalisi XVIII əsrdə Bərdə şəhəri yaxınlığından gəlmişdir. Mənbələrdə göstərilir ki, XVIII əsrin sonlarında Bərdə ətrafında, Kəbirli mahalının ərazisində Mehdiqulu ağa İbrahimxəlil xan oğlu Sarıcalı-Cavanşirə bağlı ***Mehdisərkarlı*** adlı oba mövcud olmuşdur. Mehdi sərkar təxminən XVIII əsrin 70-ci illərində anadan olub. Onun Qasım və Fətəli adlı oğlanları var idi. Mehdisərkarlı obası Qasım sərkarın kətxudalığı dönəmində köçüb İyirmidörd mahalının Alpaut kəndi ərazisində məskunlaşmışlar... Bəzi araşdırıcılar isə, əksinə, hesab edirlər ki, ***mehdililər*** yerli camaatdırlar. Xırdapara-Dizaq mahalında yaşayan ***Mehdili obası*** Məhəmmədhəsən ağa İbrahimxəlil xan oğlunun arvadı Mahşərəf xanıma məxsus idi. Mahşərəf xanım Xoy hakimi Əhməd xan Dünbilinin qızıdır. Xanımın vəfatından sonra ***Mehdili obası*** onun oğlu Böyük xana qalmışdır.

XVIII əsrin sonunda obanın başçısı ***Mehdi sərkar*** olub. Mehdi sərkarın ölümündən sonra onun oğlu Rəhim yüzbaşı obaya rəhbərlik etmişdir. Bu dönəmdə Rusiya-İran müharibəsi baş verdiyindən Rəhim yüzbaşı da oba igidləri ilə birlikdə müharibəyə qatılmışdır. Rəhimin ölümündən sonra obanın başçısı onun oğlu Allahqulu yüzbaşı (1810 - ?) olmuşdur. XIX əsrin sonlarında ***Mehdili*** obasından bir neçə ailə köçüb, Zəngəzur qəzasının Ərikli yurdunda məskunlaşmışdır.

***Mehdili obası*** XX əsrin 20-ci illərinə qədər köçəri həyat keçirmişdir. Obanın əhalisi yaylaq-qışlaq güzəranı keçirmişdir. Onların yaylaqları əsasən Zəngəzurda (Əyriqar) və Naxçıvanda (*Biçənək*) idi. Obanın qışlaqlarından biri Şorca dərəsi olmuşdur. Tarixi sənədlərdə göstərilir ki, 1910-cu ildə qaçaqlar Şorcada məskunlaşan ***Mehdili*** obasına hücum etmişlər. Obaya məxsus olan 8 at və 27 baş mal-qara (*onlar Gövhər Nəcəf qızına, Səyat İbrahim qızına, Əminə Həzrətqulu qızına, Ağa Mirzalı oğluna, Cəbrayıl Mirzalı oğluna, Mikayıl Şirin oğluna, Firudin Həsən oğluna, Süleyman Cəfər oğluna məxsus olmuşdur*) qaçaqlar tərəfindən oğurlanaraq aparılmışdır.

1928-ci ildə ***Mehdili obası*** oturaq həyata keçmiş və kolxoz (*"İnqilab"*) qurmuşdur. Bayram Hacıyev (*Quycaq kəndi, 1939-1940*), Ağahüseyn Hüseynov (*Quycaq kəndi, 1940-1942*), Bəhram İsmayılov (*Mehdili kəndi, Böyük Vətən müharibəsi illərində*), Hətəm Tağıyev (*Böyük Vətən müharibəsi dövrü*), Tanrıverdi Hüseynov (*Mehdili kəndi*), Hacı Quliyev (*1948-1951*), Əfsər Məmmədov (*Balyand kəndi*), Həmid Ələsgərov (*Çaxırlı kəndi*), Musa Məmmədov (*Maralyan kəndi*), Xanəli Xanəliyev (*Cocuq Mərcanlı kəndi*), Məhəmməd Rüstəmov (*Cəbrayıl şəhəri*), İsgəndər Xankişiyev (*Böyük Mərcanlı kəndi*), Qərib Ağayev (*Böyük Mərcanlı kəndi*), Şiraslan Əsədov (*Mehdili kəndi, 1989-1991*), Teymur Hüseynov (*Mehdili kəndi, 1991-1994*) Cəbrayıl rayonunun ***Mehdili*** kəndinin *"İnqilab"* kolxozunda kolxoz sədri vəzifəsində işləmişlər.

***Mehdili*** obasından çoxlu sayda tanınmış ziyalılar, görkəmli şəxsiyyətlər çıxmışdır.

## MƏDƏT BAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Mədət bağı*** adlanır. Bu coğrafi ad göründüyü kimi ***Mədət*** şəxs adından, ***bağ*** sözündən və -ı şəkilçisindən ibarətdir. Bu bağda çoxlu sayda meyvə ağacları, kollar vardı. ***Bağ*** onun yaradıcısı olan ***Mədət*** adlı adamın adı ilə adlandırılmışdır. Toponim *"Mədətə məxsus olan bağ"* mənasındadır. Bu tipli toponimə Azərbaycan Respublikasının digər rayonlarında da rast gəlmək olur.

## MƏHƏMMƏD OCAĞI

***Məhəmməd ocağı*** Soltanlı kəndinin köhnə yurd yerində, Soltanlı-Əmirvarlı kəndlərinin arasında, dəmir yolunun üstəki İpək bağının küncündə yerləşirdi. ***Ocaq*** qara dam yerindən ibarət idi. Damın qazma yerində üstünə Quran ayəsi yazılmış daş parçaları vardı. Soltanlı kəndinin əhalisi buranı ***inanc ocağı*** kimi əziz tutar, tez-tez ziyarət edərdi.

Azərbaycanda ***ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır.

## MƏLİK BULAĞI

Cəbrayıl rayonunun İsaqlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Məlik bulağı*** adlanır. Bu bulağın çox sərin, şəffaf və müalicəvi əhəmiyyətli suyu vardı. Onun suyunu içdikcə adamı daha da acdırırdı. Əfsuslar olsun ki, ***Məlik bulağı*** da erməni əsirliyində haray çəkir.

Toponim ***Məlik*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, *"Məliyə məxsus olan bulaq"* anlamındadır. Yerli məlumata görə, ***Məlik*** bu ***bulağı*** üzə çıxaran adamın adıdır. *Bu tipli toponimlərə* Azərbaycan Respublikasının ərazisində çox rast gəlirik.

## MƏMMƏDALI BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Məmmədalı bulağı*** adlanır. Hidronim ***Məmmədalı*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Toponim *"Məmmədalıya məxsus olan bulaq"* anlamındadır. ***Məmmədalı*** adlı şəxs vaxtilə bu ***bulağı*** üzə çıxardığından *bulaq* da onun adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu tipli hidronimlərə digər rayonların ərazisində də rast gələ bilərik.





## MƏMMƏDBƏY KƏHRİZİ

Cəbrayılda qeydə alınan hidronimlərdən biri də ***Məmmədbəy kəhrizi*** adlanır. Hidronim ***Məmməd bəy*** adından, ***kəhriz*** sözündən, eləcə də ***-i*** şəkilçisindən ibarətdir. Kəhrizi ***Məmməd bəy*** adlı bir şəxs tikdirdiyi üçün hidronim belə adlandırılmışdır.

Məlumdur ki, ***kəhriz*** dedikdə qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğu nəzərdə tutulur. O, maili lağım şəbəkəsindən ibarət olur. *Kəhrizləri* adətən peşəkar kankanlar qazırlar. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhriz suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda ***kəhriz sistemi*** e. ə. I əsrdən mövcuddur. Müxtəlif tarixi sənədlərdə XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar öz əksini tapmışdır.

## MƏMMƏDHÜSEYN MƏSCİDİ

***Məmmədhüseyn məscidi*** Cəbrayıl rayonunun Hovuslu kəndinin köhnə yerində, kiçik təpə üzərində, Hacı Seyid çevirməsi ilə üzbəüzdə daş hasara alınmış yurd yeridir. Toponim *"Məmmədhüseynə məxsus olan məscid"* anlamındadır. Bu məscidlə bağlı yerli əhali arasında müxtəlif rəvayətlər yayılmışdır. Deyilənə görə ruhani ürfan sahibi olmuş ***Məmmədhüseyn*** adlı pirani bir qoca burada ***məscid*** tikdirərək, camaata dini ayinlər öyrədirmiş. Sonralar camaat *məscid* yerini daş hörgü ilə hasara alaraq, onu ziyarətgaha çevirmiş və bununla da Məmmədhüseynin xatirəsini əbədiləşdirmişlər.

## MƏRCANLI KANALI

Cəbrayıl rayonunun Mərcanlı kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Mərcanlı kanalı*** adlanır. Hidronim ***Mərcanlı*** sözündən və ***kanal*** hidronimik apelyativindən ibarətdir. Toponimin tərkibindəki ***Mərcanlı*** sözü kəndin adıdır. Toponim *"Mərcanlı kəndinin yaxınlığında olan kanal"* mənasındadır. Bu tipli coğrafi adlara digər rayonların ərazilərində də rast gəlirik.

## MƏRCANLI KƏNDİ

(*Bax:* **Boyük Mərcanlı kəndi** və **Yuxarı Mərcanlı kəndi**)

## MƏRCANLI YATAĞI

Bu oronim Cəbrayıl rayonunun ***Miraq (Mirək) kəndi*** ərazisində qeydə alınmışdır. ***Yataq*** - maldar ellərinin qışlaq yerində müvəqqəti yaşayış yeri yaxınlığında təsərrüfat tikilisinin adıdır. Adətən qoyunlar gecələr yatağa salınır. Hər bir ***yataq*** təxminən ***50*** qoyun üçün nəzərdə tutulur. Oronim ***yataq*** terminindən və ***Mərcanlı*** adından ibarətdir. Toponim *"Mərcanlı elinə maxsus yataq"* mənasındadır. Oronimiyamızda bu qəbildən olan patronimik oronimlər sayca üstünlük təşkil edir.

## MƏRƏNLİK

Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında, Üçtəpə deyilən yerin yanında, Anbar daşı adlanan sahəyə qədər uzanan ərazidə qeydə alınan oronim ***Mərənlik*** adlanır. ***Mərənlik*** adlanan ərazi münbit orlaq sahəsindən ibarətdir. Bu ərazilərdə əkin sahələri də vardır.





## MƏRMƏR PİRİ

Cəbrayıl rayonunun ərazisində, Mazan nənə qəbrindən cənub-şərqdə, Araz çayının sahili yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Mərmər piri*** adlanır. Bəzən adına ***Sarı Mərmər*** və ya ***Mərmər yel piri*** də deyərdilər. Bu ***pir*** əhali tərəfindən əziz və müqəddəs tutulrdu. Bu pirə əsasən ***yel*** xəstəliyinə mübtəla olanlar gələrdilər. Kim *yel* xəstəliyinə düçar olardısa, *yel* qurudardısa *Mərmər yel pirinə* gedərdi. Kimin gözünü *yel* kor edərdisə, bu *pirə* gedər, oranı ziyarət edər və bundan sonra sağalar, gözü açılardı.

***Mərmər piri*** toponimi ***Mərmər*** şəxs adından və ***pir*** komponentindən ibarətdir. Burada ***Mərmər*** adlı adam basdırılmışdır. ***Pir*** sözü fars dilində *"nurani qoca", "dini icmanın başçısı", "müqəddəs"* mənasını bildirir. ***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, hələ uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pir*** - lap qədim zamanlardan sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz verdikləri, ibadət etdikləri yer olmuşdur. Azərbaycanlılar *pirləri* ziyarətgah, ümidgah hesab edirlər.

## MƏRMƏRİK PİRİ

Cəbrayıl rayonunun ərazisində, Dağtumas kəndindən Çaytumas kəndinə gedən piyada yolunun gündoğan tərəfində, Başıkəsik günbəzin altından keçən kanalın 40 metrliyində qeydə alınan oroqrafik obyekt ***Mərmərik piri*** adlanır. ***Mərmərik piri*** dibində daş qalağı olan ***mərmərikli*** qaramux kolundan ibarət olduğu üçün belə adlandırılmışdır. Bu ***pir*** ilə bağlı bir neçə əfsanə də vardır. Onlardan biri təxminən belədir:

*Kolxoz işindən qayıdan bir dəstə qız uşağı buradakı **mərmərik** kolunun giləmeyvəsindən yeyib dincəlirmişlər. Bu zaman böyük övliyalardan olan Yəhya Çələbi onlara çatıb deyir ki, ay qızlar, tez olun kəndə çataq, bir azdan leysan tökəcək, buraları bütünlüklə sel-su basacaqdır. Onlar tezcə həmin yerdən aralaşırlar. Kəndə çatanda doğrudan da güclü leysan başlayır. Həmin kolluq isə Yəhya Çələbinin bir görkü kimi yaddaşlarda qalsın deyə **pirə** çevrilir və rəmzi olaraq **Mərmərik piri** adlandırılır...*

## MƏSCİD TƏPƏSİ

Qalacıq kəndi ərazisində qeydə alınan oronimlərdən biri ***Məscid təpəsi*** adlanır. Toponim ***məscid*** sözündən, müsbət relyef forması bildirən ***təpə*** coğrafi terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Həmin təpədə ***məscid*** olduğundan oronim belə ad almışdır. ***Məscid təpəsi*** toponimi *"məscidi olan təpə"*, *"zirvəsində məscid olan təpə"* anlamındadır. Müsəlmanların ibadət yeri olan ***məscid*** ərəb sözü olub, *"ibadətxana"*, *"ibadət etmək"*, *"səcdə qılmaq"* mənasındadır.

## MƏSTALIBƏYLİ KƏNDİ

***Məstalıbəyli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 38 kilometr cənubda, Qumlaq kənd inzibati ərazi vahidində, Gəyan çölündə, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 430 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə klub, kitabxana, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Kəndin keçmiş adı ***Cəfərağalı*** olmuşdur. Toponim Azərbaycan tayfalarından şahsevənlərin ***məstalıbəylilər*** tirəsinin adı ilə bağlıdır. ***Məstalıbəylilər*** əsasən Cənubi Azərbaycanın *Qırlı Zarıncı* qışlaqlarında və *Savalan dağı* ətəklərində yaşayırlar. Onlar maldarlıq, qismən də əkinçiliklə məşğuldurlar. Məstalıbəylilərdə toxuculuq da inkişaf etmişdir.

***Cəfərağalı*** adı həmin kənddə məskunlaşmış ***məstalıbəyli*** tirəsinə mənsub olan ailələrin ***Cəfər ağa*** adlı birisinə məxsus olması ilə əlaqədardır. Məlumatlara görə, ***Cəfər ağa*** (*Cəfərağalı nəsli onun adı ilə adlanır*) Məstalı bəyin atasıdır. ***Məstalı bəy*** minbaşılı Feyzulla bəy (*Feyzullabəyli obası onun adı ilə adlandırılmışdır*) ilə əmioğludur. Feyzullabəylilərlə *Məstalıbəylilər* bir-biri ilə əmioğlu tayfalardır. XIX əsrə aid mənbədə Cəbrayıllı elinin obaları siyahısında ***Məstalıbəyli*** obasının da adı çəkilir.

Ağdam rayonunda da ***Məstalıbəyli kəndi*** vardır.





## MƏZRƏ KƏNDİ

(*Bax:* **Aşağı Məzrə kəndi** və **Yuxarı Məzrə kəndi**)

## MƏZRƏ YATAĞI

Cəbrayıl rayonunun Məzrə kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Məzrə yatağı*** adlanır. Oronim ***Məzrə*** və ***yataq*** sözlərindən ibarətdir. ***Məzrə yatağı*** toponimi *"Məzrə kəndinə məxsus olan yataq"* anlamını ifadə edir.

Toponimin tərkibindəki ***yataq*** termini *"davar və mal-qaranın saxlanılması üçün müxtəlif tikililərdən ibarət olan xüsusi sahə"* anlamındadır. Çox qədim zamanlardan məlum olan ***yataqlar*** yaylaqlarda əsasən, daşdan, aranda qamış, ağac, daş, qarğı və s.-dən tikilən ağıl, xalxaldan ibarətdir. Adətən yaşayış məntəqələrindən kənarda, su mənbələrinə yaxın yerlərdə salınan yataqlarda çobanlar üçün yaşayış mənzilləri alaçıq, çadır, aran yerlərində isə heyvanların qışlağı üçün damlar olur.

## MİNBAŞILI KƏNDİ

***Minbaşılı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 6 kilometr cənubda, Minbaşılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisi 350 nəfər idi. Üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıq və bağçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, ticarət-iaşə obyektləri, qədim qəbiristanlıq və s. vardı. Kəndin ərazisində *Baylik yeri, Düldül rəddi, Gülyaz piri, Qasım qəbri yanı, Parayataq, Pir dərəsi* və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuşdur.

Hacı Qasım Çələbinin baş müridi *Qasım bəy* burada yaşamışdır. Kəndin ***Sədi*** yaşayış məntəqəsinə tərəf olan hissəsindəki qəbiristanlıqda Qasım bəyin qəbirüstü abidəsi işğala qədər ziyarətgah olmuşdur. Kənd sakinləri tarix boyu əsasən bağçılıq və heyvandarlıqla məşğul olmuşlar.

***Minbaşılı*** yaşayış məntəqəsi *baylik kəndi* kimi məşhur idi.

XIX əsrdə bu kənd ***Köhnəqışlaq*** adlandırılan sahədə bir neçə oymaqdan ibarət olmuşdur. Sonralar ***Parayataq*** adlı əraziyə köçmüşdür. Kənddə ***Minbaşılı*** və ***Cəfəralılı*** (*bəzi sənədlərdə* ***Cəfərağalı*** *yazılır*) adlı iki nəsil vardı. Yaşayış məntəqəsi ***Minbaşılı*** nəslinin (*Niyazqulular, qumlaqlılar* tirələri ilə bu nəslin qolu arasında bağlılıq var) adını daşıyır.

Tarixdən məlumdur ki, Səfəvi hakimiyyəti zamanı mahalları ***minbaşılar*** idarə edirdi. ***Minbaşı*** - səfəvilər dövründə yaranan tituldur. Toponimin tərkibindəki ***min*** sözü say anlamı, ***baş*** isə çoxlu məna ifadə edən sözlərdir; ***-lı*** mənsubluq bildirən şəkilçidir. ***Minbaşılı*** toponimi *"min nəfərin başçısı"* anlamındadır. Orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən, Azərbaycanda ***min*** nəfərlik qoşun başçısına ***minbaşı*** deyilirdi. Məlumdur ki, Səfəvilər dönəmində Azərbaycanda bəylərbəyilik arazi sistemi mövcud olmuşdur ki, bu bəylərbəyiliklər də müxtəlif mahallara bölünmüşdür. Mahalları ***minbaşılar*** idarə edirdilər. ***Minbaşılar*** xüsusi imtiyazlara malik olurdular. Mühüm müdafiə qalalarına hakimlər adətən minbaşılardan təyin olunurdu. Minbaşıların bir neçə nəfərdən ibarət *yüzbaşı* naibi olurdu, Ayrı-ayrı əyalətlər, bütöv kəndlər onların tabeliyinə verilirdi. Müharibə zamanı ***min*** nəfərlik hərbi dəstə göndərən əyalət hakimləri, bəzən isə köçəri tayfa başçıları da ***minbaşı*** adlanırdı.

XIX əsrə aid mənbədə *Cəbrayıllı* elinin ***Minbaşılı*** obasının adı ***Feyzullabəyli*** formasında da çəkilmişdir.

Saatlı rayonunda *Minbaşılı kəndi*, Sabirabad rayonunda isə *Minbaşı kəndi* var.

## MİRAQ KƏNDİ

***Miraq kəndi*** (*bəzi sənədlərdə adı* ***Mirək*** şəklində *yazılmışdır*) Cəbrayıl rayonunda, rayon mərkəzindən 10 kilometr cənubda, Hacılı kənd inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisi 300 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.





XVIII əsrə aid mənbəyə görə, ***Mirəkli obası*** Kavdar torpaqlarında məskunlaşmışlar.

***Miraq*** (***Mirək***) yaşayış məntəqəsini vaxtilə Cənubi Azərbaycandan köçüb gəlmiş ailələr salmışdır. Yerli əhali arasında kəndin adı ***Miray*** şəklində tələffüz olunur. ***Miraq*** sözünün etimologiyası hələlik tam müəyyən olunmamışdır. Bəzi tədqiqatçılar toponimi türk dillərindəki ***marak*** (*"gözətçi məntəqəsi"*) sözü ilə əlaqələndirir.

İrəvan quberniyasının Aleksandropol qəzasında da vaxtilə ***Mirək kəndi*** mövcud olmuşdur.

## MİRANŞAH YOXUŞU

***Miranşah yoxuşu*** oronimi Cəbrayıl rayonunun Nüzgər kəndi ərazisində qeydə alınmışdır. Oronim ***Miranşah*** şəxs adından, ***yoxuş*** terminindən ibarətdir. ***Yoxuş*** coğrafi termini müsbət relyef forması bildirir. ***Yoxuş*** - *"yolun dağa, təpəyə çıxan hissəsi", "yamacın aşağıdan yuxarıya kəsimi"* mənasını ifadə edir. Azərbaycan Respublikasının ərazisində ***yoxuş*** termini ilə bağlı çöl materialları içərisində ***2 000*** coğrafi ad toplanmışdır. Toponimin tərkibindəki ***Miranşah*** şəxs adı isə Əmir Teymurun oğlu *Miranşaha* işarədir. Rəvayətə görə, *Miranşah* vaxtilə bu yoxuşda olmuşdur. Xalq etimologiyasında belə coğrafi adlar üstünlük təşkil edir...

## MİRƏK GÖLÜ

Rayonun Miraq (bəzən yaşayış məntəqəsinin adını *Mirək* şəklində də yazırlar) kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Mirək gölü*** adlanır. Hidronim ***Mirək*** kənd adından və ***göl*** hidronimik apelyativindən ibarətdir. Toponim *"Mirək kəndinin yaxınlığında olan göl"* anlamındadır. Bu tipli coğrafi adlara Azərbaycan Respublikasının digər ərazilərində də rast gəlmək mümkündür.

## MİRƏK KƏHRİZİ

Cəbrayıl rayonunun Kavdar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Mirək kəhrizi*** adlanır. Hidronim ***Mirək*** kənd adından və ***kəhriz*** terminindən ibarətdir. ***Kəhriz*** sözü hidronimik apelyativdir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## MİRƏNŞƏ MEŞƏSİ

Cəbrayıl rayonunun ərazisində, Qarağac kəndinin şimal-qərbində qeydə alınan oronimlərdən biri ***Mirənşə meşəsi*** adlanır. ***Mirənşə meşəsi*** iki dərin dərəni birləşdirir. Onun ərazisində çoxlu kalafa yerlər vardır. Yerli əhalinin eşitdikləri və mənə söylədikləri rəvayətə görə Teymurilər dövlətinin hökmdarı olan Əmir Teymurun oğlu ***Miranşah*** öz qoşunu ilə bir müddət bu ərazidə qışlamışdır. Bu səbəbdən də onun qışladığı ***meşə*** ərazisi *Miranşahın* adı ilə adlanmışdır. Toponimin tərkibindəki ***Mirənşə*** sözü ehtimal ki, ***Miranşah*** adının təhrif edilmiş variantıdır...

## MİRİ YATAĞI

***Miri yatağı*** oronimi Cəbrayıl rayonunun Quycaq kəndi ərazisində qeydə alınmışdır. Oronim ***yataq*** terminindən və ***Miri*** şəxs adından ibarət olub, *"Miriyə məxsus olan yataq"* mənasındadır. Oronimiyamızda çöl materialları içərisində ***yataq*** termini ilə bağlı ***400***-ə qədər oroqrafik obyekt qeydə alınmışdır.





## MİRİM EVİNİN OCAĞI, MİRİM OCAĞI

***Mirim evinin ocağı*** Quycaq kəndinin aşağı hissəsində yerləşir. Bu ***ocaq*** yerləşən köhnə yurd yeri olmuşdur. Üstünə çovustan vurulan bu evin ortasında əski əlifba ilə olan daş kitabə var. İldə bir dəfə (*yanvar ayının ortalarında*) burada dini mərasim keçirilir. Hər bir evdə xoruz kəsilir, aş bişirilir, düyü məcməyiyə qoyulur. Xoruzun əti də bütövlükdə yanına qoyulur və ***ocağa*** aparılır. Ocaqda bişirilmiş aşlar bir-birinə qarışdırılır. Qarışıqdan hər evin qabına pay qoyulur. Qarışdırılmış aşlar ancaq evdə yeyilir. O, evə gətirilməyincə hətta evdəki aşın həlimi belə içilməməlidir. Bundan başqa ocaqda *bişmiş qurbanı* da paylanır. Belə ki, vəd edənlər qurban dedikləri heyvanı, erkəyi ocağa gətirirlər. Müjəfir qurbanlığı kəsir, onun əti doğranaraq qazana tökülür. Sümük ətdən çıxana və bişmişin suyu tam quruyana qədər qaynadılır, sonra isə bişmiş təmiz süzülür. Ət qaşıqlanaraq yuxa arasına yığılır və ocağa gələnlərə paylanır. *Bişmiş qurbanlıq* ayini Horovlu camaatı tərəfindən də icra olunur. Bişmiş qurbana ***Mustafa qurbanı*** da deyirlər. Qurbanlığın sümükləri qazılaraq torpağa basdırılır...

*Şahvəlili – Tinli* yolunun solunda, İsaqlı oymağının qəbiristanlığı ilə yol arasındakı kiçik təpə üstündə qeydə alınan oroqrafik obyektlərdən biri də ***Mirim ocağı*** adlanır. Bu ***ocaq*** hasara alınmış ***qaramıx*** kolundan ibarətdir. İsaqlı və digər ətraf kəndlərin camaatı niyyət edər, kolun qanadlarına, budaqlarına rəngbərəng müxtəlif parça qırıqları bağlayardılar.

Azərbaycanda ***ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar***, ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır.

## MİRİN BULAĞI

Cəbrayıl rayonunun Xələfli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Mirin bulağı*** adlanır. Hidronimin tərkibindəki ***bulaq*** sözü hidronimik apelyativdir. Toponim *"Mirin tikdirdiyi, çəkdirdiyi bulaq"*, *"Mirə məxsus olan bulaq"* mənasındadır. Azərbaycan Respublikasının digər bölgələrində də bu tipli coğrafi adlara rast gələk mümkündür.

## MİR MUSTAFA PİRİ

***Mir Mustafa piri*** coğrafi adı Sarıcalı kəndinin ərazisində, kənd sakini İbi Paşa oğlunun həyətyanı sahəsində qeydə alınmışdır. Yerli məlumata görə, bu yer kəndin ulusu, vaxtilə böyük nüfuz sahibi olmuş ***Mir Mustafa*** adlı möminin məqam yeri olmuşdur. Nişanə olsun deyə, həmin yer daş hərləməyə alınmışdır. Deyilənə görə əvvəllər hərləmənin içində iri *qaraağac* olmuş, sonralar isə o, quruyaraq sıradan çıxmışdır...

***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

## MİRZƏ SUYU

Xələfli kəndinin ərazisinə qeydə alınan maraqlı coğrafi adlardan biri də ***Mirzə suyu*** adlanır. Toponim ***Mirzə*** şəxs adından və ***su*** sözündən ibarətdir. Bu *suyu* ***Mirzə*** adlı adam çəkdirdiyi üçün ***su*** da onun adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim *"Mirzənin çəkdirdiyi su"* anlamındadır.





## MİRZƏCANLI

Bu oykonim müqəddəs Cəbrayıl atanın övladlarından biri olan ***Mirzəcanın*** adı ilə əlaqədardır. ***Mirzəcanlı*** oykonimi mürəkkəb quruluşlu toponimdir. ***Mirzəcanlı*** sözü *"**Mirzə**"* və *"**can**"* komponentlərindən və mənsubluq ifadə edən ***-lı*** şəkilçisindən ibarət olub, *"Mirzəyə hörmət edən"*, *"Mirzəni istəyən"* mənasındadır.

## MİRZƏCANLI TƏPƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri ***Mirzəcanlı təpəsi*** adlanır. Ornim ***Mirzəcan*** sözündən, ***təpə*** coğrafi terminindən və mənsubluq ufadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"Mirzəcanlı yaxınlığında olan təpə, yüksəklik"* mənasındadır. Bu tipli coğrafi adlara Azərbaycan Respublikasının demək olar ki, bütün bölgələrində rast gəlmək olar.

## MİRZƏCANLI YATAĞI

Cəbrayıl rayonunun ***Miraq*** (***Mirək***) kəndi ərazisində qeydə alınan oronimlərdən biri də ***Mirzəcanlı yatağı*** adlanır. Oronim ***yataq*** terminindən və ***Mirzəcan*** şəxs adından ibarətdir. Oronimiyamızda bu qəbildən olan patronimik oronimlər üstünlük təşkil edir.

## MOLLA ABBASQULUNUN QƏBRİ

***Molla Abbasqulunun qəbri*** adlanan oroqrafik obyekt Qazanzəmi kəndinin ərazisində, qəbiristanlıqda qeydə alınmışdır. Coğrafi ad ***Molla Abbaqqulu*** şəxs adından və ***qəbir*** sözündən yaranmışdır. Aldığım məlumatlara görə, ***Molla Abbasqulu*** Qazanzəmi kəndinin hörmətli, nüfuzlu kişilərindən biri olmuşdur. O, namaz qıldığı yerdə soyğunçular tərəfindən amansızcasına qətlə yetirilmişdir. Molla Abbasqulunun cənazə na-

mazını böyük övliya Şıx Hacı Qasım Çələbi özü qılıb və **Molla Abbasqulu** qəbiristanlığın bu görümlü yerində dəfn olunubdur. Onun qəbrinin üstü sonralar oğlu Molla Mustafa Molla Abbasqulu oğlu tərəfindən götürülmüş və qəbri kənd camaatının ziyarətgahına çevrilmişdir.

## MOLLAHƏSƏNLİ KƏNDİ

***Mollahəsənli kəndi*** Cəbrayıl rayonunda, Sirik kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 28 kilometr şimal-qərbdə, Qarabağ sisiləsinin ətəyində yerləşir. Əhahsinin sayı 70 nəfərdir. Əhalinin əsas məşğuliyyət sahəsi heyvandarlıq, taxılçılıq hesab olunurdu. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, ***Mollahəsənli*** yaşayış məntəqəsini ***Molla Həsən*** adlı şəxs və ona mənsub olan ailələr burada saldıqları üçün kənd onun adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Oykonim *"Mollahəsənə məxsus olan, mollahəsəngillər"* mənasındadır. ***Molla*** sözü dini titul bildirir. ***Molla*** titulu ilə bağlı Azərbaycanda ***25*** kənd var.

Daşkəsən rayonunda da *Mollahəsənli kəndi* var. Vaxtilə İrəvan əyalətində də ***Molla Həsən*** adlı kənd olmuşdur.

## MOLLALI KƏNDİ

XVIII əsrin ikinci yarısına aid olan tarixi sənədə görə, Cəbrayıl rayonunun ərazisində vaxtilə ***Mollalı*** adlı kənd olmuşdur. Bu kəndin əvvəlki adı ***Qaradərə*** olub. Kənd ***molla*** dini titulu ilə əlaqədar olaraq belə ad almışdır. Bir sıra mənbələrə əsaslansaq, deyə bilərik ki, bu yaşayış məntəqəsi orta əsrlərdə də mövcud olmuşdur.

## MORUQLU YER

Qazanzəmi kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Moruqlu yal*** adlanır. ***Moruq*** – gülçiçəklilər fəsiləsindən olan





bitki cinsidir. O, hündürlüyü 1-3 metr olan, yarpağı tökülən yarımkoldur. Qırmızı, sarı və ya qırmızı-qara giləmeyvəsi mürəkkəb çəyirdəklidir. ***Moruq*** adətən yay aylarında (xüsusilə iylu ayında) yetişir. Avropa, Asiya və Amerikanın əsasən mülayim və subtropik hissəsində onun 120-dən çox, o cümlədən Azərbaycanda bir növü (yabanı halda) məlumdur. Giləmeyvəsində 5,7-11,5% şəkər, 1-2%üzvi turşu, 9,1-44 mq C vitamini (100 qram meyvəsində), B qrupu vitaminləri, A provitamini, aromatik maddələr olur.

Bilirik ki, dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə edilir. Müsbət relyef forması bildirən ***yal*** coğrafi termininin iştirakı ilə Azərbaycan respublikasının ərazisində çöl materialları içərisində 550 oronim qeydə alınmışdır.

## MÖVLAQULU YERİ

İncə çayının günbatanında, Dağ Tumas kəndinin yaxınlığında, Cədə yolunun üstündə qeydə alınan oronimlərdən biri ***Mövlaqulu yeri*** adlanır. ***Mövlaqulu yeri*** kiçik ərazili əkin sahəsindən ibarətdir. Toponim ***Mövlaqulu*** şəxs adından və ***yer*** sözündən yaranıb, *"Mövlaquluya məxsus olan yer"* mənasındadır. Bu tipli oronimlərə respublikamızın başqa bölgələrində də rast gəlirik.

## MUNCUQLU YAL

***Muncuqlu yal*** oronimi Cəbrayıl rayonunun Papı kəndi ərazisində qeydə alınmışdır. ***Yal*** - dağın, qayanın ən hündür zirvəsinin yamacıdır. Toponimin tərkibi ***yal*** müsbət relyef forması bildirən coğrafi termindən, ***-lu*** şəkilçisindən və ***muncuq*** sözündən ibarətdir. *Yalın* zahirən ***muncuğa*** bənzəməsi ilə əlaqədar oronim belə ad almışdır. Bəzi yerli məlumatlara görə, *yaldan* çoxlu sayda ***muncuqlar*** tapıldığı üçün o, belə adlandırılmışdır...

## MUNCUQTAPILAN YAL

Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınan oroqrafik obyektlədən biri ***Muncuqtapılan yal*** adlanır. Oronimin tərkibində olan ***yal*** coğrafi termini müsbət relyef formasını ifadə edir. Həmin ərazidən vaxtilə ***muncuq tapıldığı*** üçün toponim belə adlandırılmışdır. Dağın hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə olunur. Çöl materialları içərisində respublikamız ərazisində adının tərkibində ***yal*** termini iştirak edən ***600*** oronim qeydə alınmışdır.

## MURAD BULAĞI

Rayonun Qalacıq kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Murad bulağı*** adlanır. Hidronim ***Murad*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Toponim *"Murada məxsus olan bulaq"* anlamındadır. Bu tipli toponimlərə pespublikamızın digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.

## MURAD BURNU

Qalacıq kəndinin ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri ***Murad burnu*** adlanır. ***Murad burnu*** adlanan yerdə qədim yaşayış məskəni olmuşdur. Bunu buardakı qədim siklop tikintiləri də sübut edir. Oronim ***Murad*** şəxs adından və ***burun*** coğrafi terminindən ibarətdir. ***Burun*** termini sahilin çıxıntı şəklində müəyyən su hövzəsinə doğru uzanmış hissəsinə deyilir. ***Burun*** ana süxurlardan və ya gətirmə materiallardan təşkil edilir. Adətən burunların səthi hamar və alçaq olur.





## MUSAƏKƏN

Dağ Tumas kəndinin yaxınlığında, Aralıq dərəsinin gündoğanında, Tumas Ata ocağının cənubunda, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Musaəkən*** adlanır. Bu ərazi əsasən hündür dağlıq təpə və arxası kiçik əkin sahəsi olan yerdən ibarətdir. Oronim ***Musa*** şəxs adından və əkən sözündən əmələ gəlmişdir. Vaxtilə ***Musa*** adlı şəxs bu sahəni əkib-becərdiyi üçün toponim belə ad almışdır.

## MUSTAFA KÖRPÜSÜ

Cəbrayıl rayonunun ərazisində, kiçik axını olan çay üzərində qeydə alınan oroqrafik obyektlərdən biri ***Mustafa körpüsü*** adlanır. Oronim ***Mustafa*** şəxs adından, ***körpü*** sözündən və mənsubluq ifadə edən **-sü** şəkilçisindən ibarətdir. Toponim *"Mustafaya məxsus olan körpü"* mənasındadır.

## MÜŞKÜL-ATA QƏBRİ

***Müşkül-Ata qəbri*** Cəbrayıl rayonunun Yarəhmədli kəndinin köhnə qışlaq yerindəki məhəlləsində qeydə alınmışdır. Yerli camaat tərəfindən əziz tutulan bu ***qəbir*** daş hasara alınmışdır. Qəbirin üstündə qaratikan kolları ilə əhatələnmiş saqqız ağacı vardı. ***Müşkül*** sözü ərəb dilində *"çətin"*, *"əngəl"*, *"ağır"* anlamlarını ifadə edir. ***Müşkül-Ata qəbri*** ilə bağlı yerli əhali tərəfindən çoxlu rəvayətlər qoşulmuşdur...

## "N"

### NAXIŞLI YOXUŞ

Dağ Tumas kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Naxışlı yoxuş*** adlanır. Oronim ***naxış*** və ***yoxuş*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. ***Yoxuş*** coğrafi termini müsbət relyef forması bildirir. Oronimiyada *"yolun dağa, təpəyə çıxan hissəsi"*, *"yamacın aşağıdan yuxarıya kəsimi"* ***yoxuş*** adlanır. ***Yoxuş*** termini ilə bağlı ölkəmizdə çöl materialları içərisində ***2 000*** coğrafi ad toplanmışdır. Toponimin tərkibindəki ***naxış*** sözü isə *"bəzək"*, "çeşid" anlamını ifadə edir. ***Naxışlı yoxuş*** toponimi "çeşidli və bəzəkli yüksəklik, *yamac"* mənasındadır.

### NALBƏND QAYALI TƏPƏSİ

Qalacıq kəndinin yaxınlığında, qədim qəbiristanlığın ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Nalbənd qayalı təpəsi*** adlanır. Oronimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq ifadə edir; ***-lı*** şəkilçisi həmin yerin *qayalıqlardan* ibarət olduğunu bildirir. Oronim ***nalbənd*** sözündən, eləcə də ***qaya*** və ***təpə*** coğrafi terminlərindən ibarətdir. Qoşqu, minik və yük heyvanlarını nallayan ustaya ***nalbənd*** deyirlər. ***Nalbəndlik*** sənəti orta əsrlərdə çox geniş yayılmışdır. Bu sənətlə əsasən dəmirçiər məşğul olurdular. Toponimin tərkibindəki ***qaya*** və ***təpə*** terminləri müsbət relyef formaları bildirirlər.

Əlavə məlumat üçün bax: **Nalbənd təpəsi.**

### NALBƏND TƏPƏSİ

Oronimiyamızda peşə bildirən terminlərdən yaranmış çox sayda oroqrafik obyektlər vardır. Onlardan biri də Cəbrayıl rayonu ərazisində qeydə alınmış ***Nalbənd təpəsi*** oronimidir. ***Nalbənd*** - minik, qoşqu və yük





heyvanlarını nallayan ustaya deyirlər. Adətən, orta əsrlərdə geniş yayılmış bu sənətlə əsasən dəmirçilər məşğul olurdular. ***Təpə*** - müsbət relyef forması olub, ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü ***200*** metrdən artıq olmayan yüksəkliyə deyirlər.

Gədəbəy rayonunda da *Nalbənd təpəsi* oronimi qeydə alınmışdır. Vaxtilə İrəvan quberniyasının Aleksandropol qəzasında *Nalbənd* adlı kənd olmuşdur. 1878-ci ildə bu kənddən azərbaycanlılar Rus çarizminin iyrənc siyasəti nəticəsində qovulmuş, orada müxtəlif ölkələrdən gəlmə ermənilər yerləşdirilmişdir. Sonralar onlar kəndin adını dəyişib Şirakamut qoymuşlar. XIX əsrdə Qars əyalətində ***Nalbənd*** adlı yaylaq və dağ da qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Nalbənd qayalı təpəsi.**

### NARLI DƏRƏ, NARLI YOXUŞ

Oronimiyamızda meyvə ağacı növlərini bildirən sözlərdən düzələn oronimlər üstünlük təşkil edir. Nar fəsiləsindən budaqları tikanlı, tamkənarlı yarpaqları dairəvi olan ***nar*** kol bitkisinin və ya kiçik ağacının adı ilə adlandırılan coğrafi adlardan Cəbrayıl rayonu ərazisində də qeydə alınmışdır. Bunlar ***Narlı dərə*** və ***Narlı yoxuş*** oronimləridir. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termini relyefin nisbətən dar və uzunsov çökək formasında adətən əyri-üyrü olan hissəsidir.

***Narlı dərə*** coğrafi adına Ağdam, Qubadlı, Yevlax, Goranboy, Göyçay, Tovuz, Xocavənd və Şəmkir rayonlarında da rast gəlinir. Ağdam rayonunun Gülablı kəndində *Narlı qobu*, Goranboy rayonunun Qazaxlar kəndində *Narlı* çökək, Qax rayonunda *Narlı zirvə*, Zəngilan rayonunda *Narlı qaya, Narlı yal* və s. qeydə alınan oronimlər də ***nar*** ağacı bitkisinin adını daşıyan coğrafi adlardandır.

### NARLIQ, NARLIQ ÇEŞMƏSİ

Dağ Tumas kəndindən 4 kilometr məsafədə, İnəkdoğan dağının gündoğan ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Narlıq*** adlanır.

***Narlıq*** yeri *nar* ağaclarının daha çox olduğu kiçik yaşıl sahədən ibarətdir. Yerli əhali buraya keçmişdən ***Narlıq*** demişdir. Buradakı ***nar*** ağaclarının çoxluğuna görə, oronim belə ad almışdır. Toponim *"nar çox olan yer"* mənasındadır.

Tumaslı dağının cənub-qərb ətəyində, *Narlıq* ərazisində, ətrafında çoxlu ***nar*** ağacları da olan yaşıl vadinin ayağında ***Narlıq çeşməsi*** adlanan hidronim də qeydə alınmışdır. Zəif qaynama olan bu *bulaq* şirin suludur. ***Narlıq*** ərazisində yerləşdiyi üçün hidronim belə adlandırılmışdır.

## NƏBİ QAYASI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Nəbi qayası*** adlanır. Oronim ***Nəbi*** şəxs adından, ***qaya*** terminindən və mənsubluq bildirən ***-sı*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Adətən sıra dağlardan ayrılmış qola və ya dağların müəyyən hissəsində çətin keçilən yerə ***qaya*** deyirlər. Respublikamız ərazisində çöl materialları içərisində adının tərkibində ***qaya*** termini iştirak edən ***3 000*** oronim qeydə alınmışdır.

## NƏCƏFQULU BULAĞI

Niyazqulular kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri də ***Nəcəfqulu bulağı*** adlanır. Toponim ***Nəcəfqulu*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Yeraltı suların təbii şəkildə yerin üstünə çıxmasına ***bulaq*** deyilir. ***Bulaqlar*** əsasən ***2*** cür olur: çatlar və məsamələrlə enən bulaqlar və qalxan bulaqlar. ***Bulaqlar*** temperaturuna görə *soyuq, ılıq, termal* (isti) və *hipotermal* (çox isti) olur. Müalicə əhəmiyyətli *bulaqlar* da vardır ki, onlara ***mineral bulaq*** və ya ***qaynaq*** deyirlər. Bulaqlar temperaturu, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətlərinə görə fərqlənir.





## NƏCƏFQULU PİRİ

Aşağı Tumas kəndinin üst tərəfində, Başıkəsik künbəzdən 1,5 kilometr qərbdə yerləşən oroqrafik obyektlərdən biri ***Nəcəfqulu piri*** adlanır. Bu pirin daşdan hörülmüş kiçik hasarı var. Hasarın üzərində *dağdağan ağacı* da var. Mənə verilən məlumatlara görə, ağzı dualı olan ***Nəcəfqulu*** adlı nurani bir kişi dağdan arana qayıdarkən halı pisləşdiyindən burada keçinmiş və ***dağdağan*** ağacının yanındakı bu *"rəmzi"* qəbirdə *dəfn edilmişdir*. Onun cənazəsi ana vətəninə aparılsa da, dünyasını dəyişdiyi bu *nişangah yer* ətrafda yaşayan əhali tərəfindən ***pir*** kimi əziz tutulur və ziyarət olunurdu.

## NƏFƏSÇIXAN DAĞ

Qalacıq kəndinin yaxınlığında, Qaraquzey ətrafında qeydə alınan coğrafi adlardan biri ***Nəfəsçıxan dağ*** adlanır. Bu oroqrafik obyekt haqqında müxtəlif rəvayətlər uydurulmuşdur. Yerli məlumata görə, bu yer möcüzəli bir ərazidir...

***Dağ*** - müsbət relyef forması bildirən coğrafi termindir. Yer səthində ətraf düzənliklərdən yüksəkdə olan , yamacları, zirvəsi, ətəkləri ilə seçilən sahəyə *dağ* deyilir. Azərbaycan Respublikasının ərazisində ***dağ*** coğrafi termini ilə əlaqədar çöl materialları içərisində ***1 300*** oronim qeydə alınmışdır. *Dağ* adlarının çoxluğuna səbəb respublikanın ***60*** %-inin dağlıq və dağətəyi olmasıdır.

## NƏHƏT KƏHRİZİ

Cəbrayıl rayonunun Qovşudlu kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Nəhət kəhrizi*** adlanır. Hidronim ***Nəhət*** və ***kəhriz*** sözlərindən əmələ gəlmişdir. ***Nəhət*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır.

***Kəhriz*** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən

peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## NƏHLƏTDƏMƏ DÜZÜ

***Nəhlətdəmə düzü*** Cəbrayıl rayonunun Havuslu kəndi ərazisində qeydə alınmışdır. ***Düz*** - mənfi relyef forması bildirən coğrafi termindir. ***Düz*** və ***düzənlik*** terminləri ilə bağlı respublikamızda ***11 000*** oronim qeydə alınmışdır. Cəbrayıl rayonu ərazisində də bu qəbildən olan oronimlər var: *Böyük düz, Gavur düzü, Yazı düzü, Lalə düzü, Gəyən düzü, Ömürlü düz, Tozaran düz, Nəhlətdəmə düzü, Ümürlü düzü* və s. ***Nəhlətdəmə*** sözü ***lənətləmə*** sözünün yerli şivədə tələffüz formasıdır...

## NƏRGİZ PİRİ

***Nərgiz piri*** Cəbrayıl rayonu ərazisində, keçmişdə mövcud olmuş Pirəsəd kəndinin şimal hissəsindəki dağın ətəyində yerləşir. ***Nərgiz piri*** daş hərləməsi olan ardıc ağacından və ona bitişik olan qaramux kolundan ibarətdir. ***Nərgiz piri*** toponimi nərgiz və pir sözlərinin birləşməsindən əmələ gəlmişdir. ***Nərgiz*** – *nərgizçiçəklilər* fəsiləsindən olan soğanaqlı bitkidir. Yarpağı xətvarı olan ***nərgiz*** bitkisinin çiçəkləri adətən açıq-sarı və ya ağ rəngdə olub tək-tək və ya bir neçəsi birlikdə çiçək oxunun ucunda yerləşir. Azərbaycanda nərgizin 1 yabanı, 3 becərilən növü məlumdur. Bir çox növünün çiçəklərində çox ətirli efir yağı vardır. Azərbaycanda adının tərkibində ***nərgiz*** sözü iştirak edən çoxlu sayda toponimlər mövcuddur.





## NİFTALILAR KƏNDİ

***Niftalılar kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 31 kilometr məsafədə Qarabağ silsiləsinin ətəyində yerləşir. Taxılçılıq, heyvandarlıq, üzümçülük kənd əhalisinin məşğul oduğu təsərrüfat sahələrindən idi. Kənddə məktəb, klub, kitabxana və s. vardı. Kəndin ərazisində Ziyarət dağı, Qotur bulaq və s. toponimlər qeydə alınışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Niftalılar*** oykonimi ***Niftalı*** şəxs adı ilə bağlıdır. Toponimin tərkibindəki ***-lar*** şəkilçisi cəmlik ifadə edir. Bu tipli toponimlərə Azərbaycan Respublikasının digər rayonlarında da rast gəlirik.

## NİŞANLI QIZ QƏBRİ

Yarəhmədli kəndinin girəcəyində, saqqız ağacının altında qeydə alınan oroqrafik obyektlərdən biri ***Nişanlı qız qəbri*** adlanır. Bu qəbrin büt daşı ilə hərləməsi vardır. Bura ən çox ərgən qızlar gəlirlər. Xəstəliyə düçar olan uşaqlar da buraya gətirilir. ***Nişanlı qız piri*** ilə bağlı əfsanələr də uydurulmuşdur. Toponimin mənşəyi dəqiq bilinmir.

## NİYAZQULULAR KƏNDİ

***Niyazqulular kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 37 kilometr cənubda, Şahvəlili inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 600 nəfərdir. Taxılçılıq, üzümçülük, heyvandarlıq, bağçılıq, baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. vardı. Kəndin ərazisində *Aşağı kəhriz, Yuxarı kəhriz, Pirverdi kəhrizi, Nəcəfqulu bulağı, Govurarx* və s. hidronimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur.

Yerli məlumata görə, ***Niyazqullar*** yaşayış məntəqəsini rayonun Quycaq kəndindən köçüb gəlmiş ***Niyazqulu*** adlı şəxs saldığına görə kənd də

belə adlandırılmışdır. ***Niyazqulular*** oykonimi *Niyazqulular* nəslinin adı ilə əlaqədar belə ad almışdır. ***Niyazqulular*** toponimi *"Niyazqulunun nəslindən olanlar", "niyazqulugillər"* mənasındadır. Kənddə vaxtilə Cənubi Azərbaycandan gələn nəsillər də məskunlaşmışlar.

Əvvəllər Araz çayının sahilində İlxac adlı sahədə yerləşən kənd sonralar ***Səlim bəy yurdu*** adlanan bir sahəyə köçmüşdür. ***Niyazqulular*** əslən ***minbaşılı*** nəslinin bir qolu, bir tirəsidir...

## NOVLU BULAQ

Yal yurdunun yaxınlığında, Köhnə Bazavuz adlanan qədim yaşayış məntəqəsinin qalın meşəli dərəsində, dağətəyi ərazidə qeydə alınan hidronim ***Novlu bulaq*** adlanır. ***Novlu bulaq*** gur, şirin və soyuq suludur. Tikilmə tarixi və kim tərəfindən inşa olunduğu dəqiq məlum deyildir. ***Bulaq*** sal daşın içərisində ***nova*** bənzər çıxıntılı olduğu üçün beləcə - ***Novlu bulaq*** adlandırılmışdır.

***Bulaq*** - yeraltı suların yerin üstünə təbii çıxışıdır. Onun suyu horizontun və ya çatın yer səthi ilə kəsişdiyi yerdə olur. ***Bulaqlar*** temperatur, kimyəvi və qaz tərkibi, hidrodinamiki xüsusiyyətləri və s.-yə görə bir-birindən fərqlənirlər. *Bulaqlar* əsasən ***2*** cür olur: ***1)*** çatlar və məsamələrlə enən bulaqlar (çeşmə); ***2)*** *qalxan bulaqlar (qaynaq)*. 1 litr bulaq suyunda 1 qramdan artıq həll olmuş duz, həmçinin müəyyən qədər qaz və ya nadir elementlərdən biri olarsa və o, müalicə əhəmiyyətlidirsə, belə bulaqlar *mineral bulaqlar* və ya *qaynaq* adlanır. Bulaqlar temperaturuna görə soyuq, ılıq, termal (*isti*) və hipotermal (çox isti) olurlar.

## NÜSNÜS KƏNDİ

***Nüsnüs kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Xələfli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşir. Bəzi sənədlərdə kəndin adı ***Nüsüs*** kimi də qeyd olunur. Əhalisi 350 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. ***Nüsnüs*** (***Nüsüs***) kəndinin ərazisində *Abidin piri, Ağdam yalı, Ayı bulağı, Çaxmaq çayı, Çələbi babanın çevirməsi, Daş bulaq, Gödək burun, Göy gədik, Hafizə nənənin çevirməsi, Hov düzü, Kalafalı dərə, Kavın yalı, Kejaflı çalası, Kifrik quzeyi, Kotan yalı, Qaraş təpə, Qızıl qaya, Qoturqoz dərəsi, Pirin dərəsi, Nüsüs kəhrizi, Sirik qalası, Suqra nənənin ocağı, Tey dağı, Yantəpə* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur.

Bəzi tədqiqatçıların fıkrincə, ***Nüsnüs*** toponimi təhrifə uğramışdır. Bu oykonim tayfa adı ilə əlaqədar yaranmış coğrafi adlardandır. Əslində bu oykonimin adı ***Nousus*** şəklində olmalıdır. Kəndin adı fars dilindəki ***nou*** və ***sus*** sözlərindən ibarətdir. ***Nou*** farsca *"yeni, təzə"* deməkdir. Yakut türklərində ***nıs*** sözünün *"iş"* anlamı da var.

***Nüsnüs*** yaşayış məntəqəsini çox ehtimal ki, həmin kəndlərdən çıxmış ailələr burada salmışlar. ***Nüsnüs*** toponimi *"yeni Sus kəndi"* mənasındadır. ***Nüsnüs*** toponimi ilə bağlı başqa fikirdə olan tədqiqatçılar da vardır.

Laçın rayonunda *Sus*, Xocavənd rayonunda isə *Sos* kəndləri vardır. Ordubad rayonunda ***Nüsnüs*** adlı kənd və mineral su bulaqları da var.





## NÜZGƏR KƏNDİ

***Nüzgər kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 18 kilometr şərqdə, Quycaq kənd inzibati ərazi vahidində, dağətəyi düzənlikdə yerləşir. Bəzi sənədlərdə adı ***Nüzyar***, ***Nüzgar*** kimi də qeyd edilmişdir. Əhalisi 900 nəfərdir. Heyvandarlıq, taxılçılıq, bağçılıq, üzümçülük və baramaçılıq kənd əhalisinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, Aşağı və Yuxarı kəhriz, Pirverdi kəhrizi, Ağdaş dərəsi kəhrizi, Ala öküz dərəsi kəhrizi, Ələstan dərəsi kəhrizi, Nəcəfqulu bulağı, Govurarx hidronimləri və s. vardı. Kəndin 3455 hektar sahəsi var idi. Vaxtilə Cəbrayıl ərazisində böyük nüfuz sahibi olmuş Fərquzad bəy, onun oğlu Pirverdi bəy, nəvəsi Talıb bəy (1856 - 1930) bu kənddəndirlər. XVIII - XIX əsrlərdə ömür sürmüş və mirzəlik etmiş Fərquzad bəy kənd və onun ətraf ərazilərinin xəritəyə alınmasında və sonralar bu xəritənin saxlanmasında böyük rol oynamışdır. Təsadüfi de-

yildir ki, həmin xəritənin əsasında 1912-ci il xəritəsi tərtib olunmuşdur (mən özüm *həmin xəritənin surətini görmüşəm* – ***Nazim Tapdıqoğlu***).

Vaxtilə kəndin sahiblərindən olmuş Şükür ağa da dövrünün böyük hörmət və nüfuz sahiblərindən biri olmuşdur. *Pirverdilər, Qədimquluuşağı, Əhmədalıuşağı,* İmamquluuşağı, *Abbasquluuşağı, Şükürağalılar* kəndin əsas nəsil və tirələrindən hesab olunur...

***Nüzgər kəndi*** ərazisində *Tutu qalağı, Sibir dərəsi, Lələ düzü, Lələ təpəsi, Daşlı yoxuş, Axar-baxarlı, Ağdaş dərəsi, Qaratikanlı, Narlı dərə, Ələstan dərəsi, Ayaqyalın təpəsi, Ala öküz dərəsi, Kəhriz bağı, Aralıq dərəsi, Narlıq bağı, Göl dərəsi, Çinar bağı, Nəcəfqulu dərəsi, Pirverdi bağı, Qazax dərəsi, Çaxırlı yolu, Canqu yalı, Şəhrəbanu ocağı, Maral dağı, İmam yalı, Ağaverdi yurdu, Hüngüş yalı, Miranşah yoxuşu, Sarıyal, Şorakət düzü, Quzey bağı, Vəli qəbri, Güney yataq, Quzey yataq* kimi toponimlər qeydə alınmışdır. Qazıntı işləri zamanı kəndin yerləşdiyi ərazidən müxtəlif dövrlərə aid gil və saxsı qablar, küplər, xəncər və s. maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur...

Görkəmli Azərbaycan şairi Q.B.Zakir M.F.Axundova yazdığı şeirdə ***Nüzgər*** kəndinin də adını çəkir:

*Belə vilayəti dağıtsın tarı,*
*Ziyadə məğşuşdu Araz kənarı.*
*Xırda-Para, Babı, Qarğabazarı,*
*Maralyan, Horadiz, **Nüzyar**, Quyucaq...*

***Nüzgər*** - tayfa adı ilə bağlı olan oykonimlərdəndir. Bəzi yerli sakinlər bu sözü *"qoçaq", "höcət"* izahları ilə mənalandırırlar. ***Nüzgər*** kəndini vaxtilə Cənubi Azərbaycandan gəlmiş əhali (***nüzgar//nüzyər*** nəsli) indi ***Qarqunun evləri*** adlanan köhnə kənd xarabalığının yanında, ***Qarğılı sahə*** ərazisində salmışlar. Çox güman ki, kəndin adı fars dilindən ***Neyzar*** sözü ilə əlaqədardır. ***Neyzər*** – *"cəngəllik"* mənasındadır. XVIII əsrə aid aid olan tarixi sənədə görə, kənd *Xırdapara-Dizaq mahalı* tərkibində olmuşdur. Bu yaşayış məntəqəsi Cəbrayılın ən qədim kəndlərindən biri hesab olunur.

Şəmkir rayonunda da *Nüzgər kəndi* var.





## NÜZGƏR TƏPƏSİ

Rayonun Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Nüzgər təpəsi*** adlanır. Oronim ***Nüzgər*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef formasını ifadə edir; ***-si*** şəkilçisi isə mənsubluq bildirir. ***Təpə*** termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan Respublikasının toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə bağlı təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## "O"

### OCAQ TƏPƏSİ

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Ocaq təpəsi*** adlanır. Bu coğrafi ad ***ocaq*** və ***təpə*** sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini toponimiyada müsbət relyef forması bildirir. ***Ocaq*** sözü *"su isitmək, yemək bişirmək və s. üçün qalanan atəş, ocaq", "soba və ya buxar qazanının atəş, ocaq yaxılan yeri", "ev", "pir", "yurd", "qutsal yer", "qaynaq", "mərkəz", "bir şeyin olduğu, törədiyi, yayıldığı yer"* və s. anlamlara uyğun gəlir. Yerli məlumata görə, ***Ocaq təpəsi*** oronimi həmin təpənin müqəddəsliyi, pirliyi ilə əlaqədar olaraq belə ad almışdır. Toponimi həmin təpədə vaxtilə tez-tez qalanan ***ocaq***, çatılan tonqal ilə də bağlayan araşdırıcılar vardır.

### OCAQQALANAN

Cəbrayıl rayonunun ərazisində, Ziyarət dağının zirvəsində qeydə alınan ***Ocaqqalanan*** adlı oroqrafik obyekt cəbrayıllılar tərəfindən müqəddəs tutulan bir yerdir. Burada məbəd də vardır. Burada ***ocaq qalanan*** yer aşkarlandığından toponim də elə beləcə - ***Ocaqqalanan*** adlanmışdır.

### OVÇU QUYU

Dağ Tumas kəndinin yaxınlığında, Qovşudlu kəndinin ərazisindən köhnə El yoluna qədər uzanan ***quyuya*** bənzər böyük çökək düzənlikdə qeydə alınan oronimlərdən biri ***Ovçu quyu*** adlanır. Bu coğrafi ad adından da göründüyü kimi ***ovçu*** və ***quyu*** sözlərindən ibarətdir. ***Ovçu quyu*** ərazisi böyük çökəklik dərə və düz sahələrdən ibarət olduğu və *ovçuların* vaxtilə orada ***ov*** etdikləri üçün toponim belə ad almışdır.





## "P"

### PADARDƏRƏ ÇAYI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan etnohidronimlərdən biri ***Padardərə çayı*** adlanır. Arazın sol qolu olan ***Padardərə*** çayının daimi axarı yoxdur. ***Padardərə*** toponimi ***Padar*** etnonimi ilə bağlı olub, eyniadlı dərənin adı ilə adlandırılmışdır. Həmin ***dərə*** əvvəllər *padarların* yaylaq yurdu olmuşdur. ***Padardərə*** toponimi *"padarların yaşadığı dərə", "padarlara məxsus dərə"* mənasındadır.

Padarların mənşəyi oğuz tayfaları ilə bağlıdır. Bir qrup alimlərə görə (İ.M. Meşşaninov və başqaları) ***padar*** sözü miladdan öncə VIII əsrdə Urartu kitabələrində adı çəkilən ***Patari*** oykonimi ilə əlaqədardır. Ləzgilər padarları *"kyure"* adlandırmışlar. ***Padarlar*** oğuz-səlcuq tayfalarından birinin adıdır. Onların Orta Asiyadan Azərbaycana gəlişi XIII əsrə - Elxanilər dövrünə təsadüf edir. Onlar əvvəllər Azərbaycanın cənubunda yaşamış, Səfəvi dövründə - XVI - XVII əsrlərdə dağlı tayfa basqınlarının qarşısını almaq məqsədilə Azərbaycanın şimal zonalarına (*daha* çox Şah İsmayıl *və* Şah *Təhmasib zamanında*) köçürülmüşlər. Şahsevən tayfa ittifaqında əsas rol oynayan ***padarlar*** sonralar müəyyən ictimai-iqtisadi hadisələr ilə əlaqədar müxtəlif ərazilərə səpələnmişlər. XIX əsrdə Cavad qəzasında yaşayan ***padarlar*** bir sıra tirə və qollardan (İlxıçı, *Qaraçörüklü, Axtaçı, Küyülçü, Pölüklü* və s.) ibarət olmuşdur.

Təxminən 8 əsr bundan əvvəl hələ İran səltənəti moğolların əlində olan vaxt Hülakülər hakimiyyətlərini qoruyub saxlamaq üçün Türküstandan ***200 000*** ailəni (Ağ hun tayfasına mənsub olan *"Qayı"* türklərini) Azərbaycana və İrana köçürmüşlər. Həmin *"qayı"* (*"kayı"* türklərinin tərkibində *Qacar,* Əfşar, Çobanı və başqa qəbilələrlə birlikdə ***padar*** ailələri də olmuşdur. Sonralar ***padarlar*** müxtəlif ərazilərə köçüb çoxlu kəndlər bina etmişlər. ***Padar*** etnonimi ilə bağlı Azərbaycanda çoxlu oykonimlər, hidronimlər, oronimlər yaranmışdır.

Ağsu, Qubadlı, Dəvəçi, Oğuz, Hacıqabul, Xaçmaz rayonlarında ***Padar kəndi*** (*Dərbənddə də belə kənd var*), Zaqatala rayonu ərazisində *Padar* çayı, Zəngilan rayonu ərazisində *Padarçay* çayı, Ağsu rayonunda *Pa-*

*darqışlaq kəndi*, Salyan rayonunda *Padar dəmir yol stansiyası* və s. coğrafi adlar ***padar*** etnonimi ilə əlaqədar yaranmışdır.

## PALÇIQLI PİRİ

***Palçıqlı piri*** Qazanzəmi kəndinin yaxınlığında, Qzanzəmi kövşənindəki təpə üzərində yerləşir. Bu ***pir*** hərləmə daşlardan ibarət bir qəbirdir. Yerli məlumata görə o, övliyalardan birinin qəbridir. Qəbirin lap yanında ***ardıc*** ağacı bitib. ***Palçıqlı piri*** Qazanzəmi kəndinin və qonşuluqda yerləşən digər kəndlərin əhalisinin müqəddəs *inanc* yeri idi. Burada niyyət edənlər ardıc ağacına *ip, sap, parça* qırıqları bağlayırdılar. ***Pir*** öz adını yaxınlıqqda yerləşən soyuq sulu ***Palçıqlı bulağı*** hidroniminin adından almışdır.

## PAMBIQLI YATAĞI

Cəbrayıl rayonunun Dağ Tumas kəndi ərazisində qeydə alınan ***Pambıqlı yatağı*** oronimi adından da məlum olduğu kimi ***pambıq*** və ***yataq*** sözlərindən ibarətdir. ***Yataq*** termini ilə bağlı respublikamızda təxminən ***400*** oronim qeydə alınıb. Bunun otuza qədəri Cəbrayıl rayonu ərazisindədir.

## PAPAQ DAŞ

Qazanzəmi kəndinin şimal hissəsində, Dolanlar kəndinə gedən yolun üstündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Papaq daş*** adlanır. oronim ***papaq*** və ***daş*** sözlərindən ibarətdir. Buradakı daş xarici görünüş etibarı ilə papağa bənzədiyindən toponim ***Papaq daş*** adlandırılmışdır.





## PAPI KƏNDİ

***Papı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 5 kilometr şərqdə, Çərəkən kənd inzibati ərazi vahidində, Cəbrayıl-Füzuli avtomobil yolu kənarında, Gəyan çölündə, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 350 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə əsas məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuşdur.

***Papı*** kəndinin keçmiş adı ***Dursunlu*** olmuşdur. Toponim İranın Luristan əyalətində yaşayan bir tayfasının ***papı*** qolunun adı ilə bağlıdır. Əslində indi heç həmin ***papılar*** ilə kəndin sakinləri arasında etnik əlaqə yoxdur. Yerli əhali keçmiş ***Qərər Dursun*** (*indiki* ***Qarar***) kəndindən köçmüş azərbaycanlı (*türk*) ailələrindən ibarətdir.

Azərbaycanın Şimalı Rusiyaya zorla birləşdirilənədək (1828-ci il) kəndin ərazisi İran *papılarının qışlağı* (***Papı yeri***) idi. Sonralar həmin yer *Qərər Dursun* kəndinin qışlağı olmuşdur. Kənd salındığı ərazinin adı ilə də adlandırılmışdır.

Bəzi araşdırıcılar ***Papı*** oykonimini ***Babı*** sözü ilə də əlaqələndirirlər: XIX əsrin ortalarında İranda baş verən "*Babilər hərəkatı*" məğlub olandan sonra onun bəzi iştirakçıları ölümdən qurtulmaq üçün Arazın şimal sahillərinə (indiki Cəbrayıl, Füzuli və s. rayonların ərazilərinə) köçərək orada bir neçə yaşayış məntəqələri - ***Papı kəndi*** (*Cəbrayıl rayonu*), ***Babı kəndi*** (*Füzuli rayonu*) salmışlar. Bəzi araşdırıcılara görə, ***papı*** sözü "*haqqın qapısı*" anlamını ifadə edir.

## PAPI YERİ

Cəbrayıl rayonunda, Papı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Papı yeri*** adlanır. Məlumdur ki, Azərbaycanın şimal hisəsi Rusiyaya zorla birləşdirilənədək (*1828-ci il*) kəndin ərazisi İran papılarının qışlağı (***Papı yeri***) idi. Sonralar həmin yer *Qərər Dursun* kəndinin qışlağı olmuşdur. Kənd salındığı ərazinin adı ilə də adlandırılmışdır. ***Papı*** kəndinin keçmiş adı ***Dursunlu*** olmuşdur. Toponim İranın Luristan

əyalətində yaşayan bir tayfasının ***papı*** qolunun adı ilə bağlıdır. Əslində indi heç həmin ***papılar*** ilə kəndin sakinləri arasında etnik əlaqə yoxdur. Yerli əhali keçmiş ***Qərər Dursun*** (*indiki **Qarar***) kəndindən köçmüş azərbaycanlı (*türk*) ailələrindən ibarətdir.

Bəzi tədqiqatcılar ***Papı*** oykonimini ***Babı*** sözü ilə də əlaqələndirirlər: XIX əsrin ortalarında İranda baş verən *"Babilər hərəkatı"* məğlub olandan sonra onun bəzi iştirakçıları ölümdən qurtulmaq üçün Arazın şimal sahillərinə (indiki Cəbrayıl, Füzuli və s. rayonların ərazilərinə) köçərək orada bir neçə yaşayış məntəqələri - ***Papı kəndi*** (*Cəbrayıl rayonu*), ***Babı kəndi*** (*Füzuli rayonu*) və s. salmışlar. Bəzi araşdırıcıların fikrincə, ***papı*** sözü *"haqqın qapısı"* mənasını bildirir.

## PARACA DÜZÜ

Cəbrayıl rayonunun ərazisində, Hacı Qaraman ziyarətgahından 3 kilometr cənubda qeydə alınan oroqrafik obyekt ***Paraca düzü*** adlanır. ***Paraca düzü*** bir neçə kilometrədək uzanan düzənlik ərazidən ibarətdir. Yerli sakinlərin mənə verdikləri əlumatlardan belə aydın oldu ki, keçmişdə qoyun sürüləri saxlayan Sofulu kənd sakinləri arasında bu yer otlaq sahəsi kimi ***parça-parça*** bölündüyünə görə toponim belə ad almışdır...

## PEYİNTÖKÜLƏN

Vaxtilə Tumaslı dağının cənub silsiləsinin zirvəsində mövcud olmuş Köhnə qala yaşayış yerinin yerləşdiyi ərazidə böyük bir sahə ***Peyintökülən*** adlanır. Onun gündöyəni nəhəng və sıldırımlı dağdır. Oronim ***peyin*** və ***tökülən*** sözlərindən ibarətdir. Həmin sahəyə ***peyin** tökülddüyündən* oronim belə ad almışdır. Bu tipli oroqrafik obyektlərə digər rayonların ərazilərində də rast gəlmək mümkündür.





## PIÇILDAYANÇAY

Azərbaycan toponimlər sisteində birinci komponentlərinin köməyi ilə obyekt suyunun səsini, gurultusunu, sürətini, şırıltısını və s. göstərən mürəkkəb hidronimlərə də tez-tez rast gəlirik. Axarsulu obyektlərə xas olan bu tipli xüsusiyyətləri özündə əks etdirən hidronimlərdən biri də Cəbrayıl rayonunun ərazisində qeydə alınan ***Pıçıldayançay*** hidronimidir. Bu çay sanki *pıçıldayırmış* kimi axdığı üçün yerli əhali tərəfindən belə adlandırılmışdır.

## PİR ARDIC

Qazanzəmi kəndinin ərazisində, kəndin kənarındakı Qırmızı qaynın ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir ardıc*** adlanır. Bu ***pir*** dibində daş qalaqlığı olan ardıc ağacından ibarətdir. ***Pir ardıc*** yaxın və ətraf kəndlərin əhalisinin inanc yerlərindən biri idi. Buradan keçənlər ***piri*** ziyarət edəndən sonra yollarına davam edərmişlər. Piri ziyarətə gələnlər niyyət edib, ***ardıc*** ağacının başına dolanar, oradakı daşların üzərinə nəzir-niyaz qoyardılar. ***Pir ardıc*** müqəddəs ocağı da digər ocaq və pirlərimiz kimi erməni tapdağı altında zillət çəkir.

## PİR DƏRƏSİ

Qumlaq kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Pir dərəsi*** adlanır. Vaxtilə ***Pir dərəsi*** ərazisində çoxlu *dağdağan* ağacları olmuşdur. Çərşəmbə bayramlarında camaat el adəti ilə yığışıb *piri* ziyarətə gedərdilər. Ziyarət zamanı adamlar ürəklərində niyyət tutaraq ordan yüyrük asar, mismar çalar, çıraq yandırar, pirin böyüründə oturub ağrıyan yerlərinə ağrını götürmək üçün daş düzərdilər. Bu vaxtlarda pirin dibinə və ya üstünə çoxlu şirniyyat məmulatları, konfet və s. tökülərdi. Deyilənə görə pirdə qeybdən çıraq yanardı...

Oronim ***pir*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** coğrafi termini müsbət relyef forması bildi-

rir. Oronimiyada relyefin çökək, dar formasına ***dərə*** deyilir. Azərbaycan Respublikasının ərazilərində çöl materialları içərisində ***dərə*** coğrafi termini ilə əlaqədar ***30 000*** oronim toplanmışdır.

***Pir*** sözü farsca *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi var. Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, öz yaşantısını itirməmişdir. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır. ***Pir*** komponenti ilə bağlı ölkəmizdə onlarla toponim qeydə alınmışdır. Bu tip pirlərə *Hacı Qaraman piri* (Cəbrayıl rayonu), *Soltan Xələc piri* (Quba rayonu), *Pirsaat piri* (Şamaxı rayonu), *Qaradonlu piri* (İmişli rayonu), *Cərcis Peyğəmbər piri* (Beyləqan rayonu), Şıxlar piri və başqalarını nümunə göstərə bilərik.

## PİRABİD QƏBRİ

***Pirabid qəbri*** Cəbrayıl rayonunun Mənsümlü kəndinin ərazisində, kəndin sakini Miqdat İbnisalam oğlunun həyətyanı sahəsində yerləşir. Yerli məlumata görə bu oroqrafik obyekt Hacı Qaraman ilə bir dövrdə yaşamış, onun təmsilçisi kimi ətraf ərazilərdə dini təbliğ eləmiş mömin bir bəndəyə məxsus olan qəbirdir. Onun haqqında müxtəlif əfsanələr də qoşulmuşdur. Onlardan birinin məzmunu təxminən belədir: *Çox zəhmətkeş bir insan olan **Pirabid** bostan bitkilərini, tərəvəzi həmişə bir qayda olaraq alaqlı yerdə əkib-becərər, həmin sahəni elə hey alaqdan təmizləyər, yorulmaq bilməzmiş. Günlərin bir günü Hacı Qaraman onun bu əziyyətini görüb həmin bu Pirabidə deyir ki, əkinin yerini dəyiş, çünki buralar çox alaqlıdır, özünü bu qədər əziyyətə salma. O isə cavab verib ki, "Ya Hacı Qaraman baba, sahədə alaq nə qədər çox bitsə, mənə xoşdur, çünki hər dəfə əyilib qalxanda "Ya Allah!" deyirəm, Tanrıma da çox zikr edirəm...*

Mənsümlü kəndinin camaatı ***Pirabid qəbri*** yerini əziz tuturdular. Onlar il quraqlıq olanda dualar edərək Pirabidə mal-qara qurbanı deyirdilər və duaları müstəcab olurdu.





## PİRƏSƏD

Hacı Qaraman ocağından 1 kilometr məsafədə, Dağtumas – Havuslu yolunun kənarında, Sofulu kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Pirəsəd*** adlanır. Burada el ağsaqqalı, dövrünün nüfuzlu şəxsiyyəti Əsəd Sofulu dəfn olunmuşdur. Bu coğrafi ad ***pir*** sözündən və Əsəd şəxs adından ibarətdir. Onu da qeyd etmək lazımdır ki, Sofulu tayfasının Mirimli tirəsinin köhnə yurd yeri ***Pirəsəd*** adlanırdı.

***Pir*** adlarında antroponimin və ya etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pir*** - farsca *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi var. Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, öz yaşantısını itirməmişdir. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay, qənd və s. bəxşiş kimi orada qalır.

***Pir*** komponenti ilə bağlı ölkəmizdə onlarla toponim qeydə alınmışdır. Bu tip pirlərə *Hacı Qaraman piri* (Cəbrayıl rayonu), *Soltan Xələc piri* (Quba rayonu), *Pirsaat piri* (Şamaxı rayonu), *Qaradonlu piri* (İmişli rayonu), Şıxlar və başqalarını nümunə göstərə bilərik...

## PİRƏYATAQ

Vaxtilə Cəbrayıl rayonu ərazisində qeydə alınan yurd yerlərindən biri ***Pirəyataq*** adlanırdı. ***Pirəyataq yurd yeri*** Minbaşılı obasına aid idi. Minbaşılı obası sonralar Niyazqulular və Tumasqulular obalarına ayrıldı. Toponim ***pir, yataq*** sözlərindən və bitişdirici funksiya daşıyan ***"ə"*** saitindən ibarətdir.

## PİRVERDİ KƏHRİZİ

Niyazqulular kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Pirverdi kəhrizi*** adlanır. Hidronim ***Pirverdi*** şəxs adından və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. Kəhrizi ***Pirverdi*** adlı bir adam yer səthindən üzə çıxardığı üçün hidronim də onun adı ilə əlaqədar olaraq belə adlanmışdır.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. ***Kəhrizlər*** adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## POÇTUN YALI

Sofulu kəndinin günbatan tərəfində, adına Anbar deyilən sahənin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Poçtun yalı*** adlanır. Yerli əhalinin mənə söylədiklərinə görə bu ərazidə vaxtilə *qədim yurd yeri* mövcud olmuşdur. Vaxtilə yaşayış məntəqəsi kimi mövcud olmuş bu yerə el arasında Şəhəcik də deyilmişdir. Çar Rusiyası zamanında burada ***poçt məntəqəsi*** yerləşdiyinə görə sonralar da bu ad ilə adlanmışdır.

Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** coğrafi termini ilə ifadə edilir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***yal*** coğrafi termininin iştirak etdiyi ***600*** oronim qeydə alınmışdır.





## PÖRNƏK YERİ

Arazbarda, eləcə də Cəbrayıl rayonu ərazisində ara-sıra işlənən ***pörnək*** sözü *tərəkəmə* yaşamı ilə bağlıdır. Güclü və müstəqil boyların himayəsində yaylaq-qışlağa köçüb, onların istifadə etdikləri örüşlərdə mal-qaralarını otaran kiçik soylara ***pörnək*** deyilir. ***Pörnək*** həm də azərbaycanlıların bir etnik qrupunun adıdır. Ağqoyunlu tayfa birləşmələrinə bağlı olan pörnəklər Azərbaycan tarixində önəmli rol oynamışlar. Ağqoyunlular dövlətinin siyasi yaşamında mühüm yeri olan ***Pörnək*** tayfa başçılarının adı tarix kitablarında şərəflə çəkilir. ***Pörnəklər*** sonralar qızılbaşların tərkibinə qatılmışlar. Onlar ***Qızılbaş*** birliyinin içində mosullularla bərabər ***türkmanlar*** adlanırdılar.

Azərbaycan Respublikasının digər rayonlarının ərazilərində də ***Pörnək*** sözü ilə bağlı toponimlərə rast gəlinir.

## "R"

### RAMAZANIN QARA DAMI

***Ramazanın qara damı*** adlanan oroqrafik obyekt Cəbrayıl rayonunun Sirik kəndi ərazisində, Sirik kənd sakini ***Səməd Ramazan oğlunun*** həyətində qeydə alınmışdır. ***Ramazan*** bu həyətin sahibi olmuşdur. Elə bu səbəbdən də toponim belə adlandırılmışdır. Toponimin tərkibindəki ***dam*** komponenti *"ev, bina, tikili"* anlamını ifadə edir. Adətən bacası tavanın ortasında olduğu üçün daim hisli olan, *"pəncərəsiz, ibtidai ev, daxma"* ***qara dam*** adlanır. Yerli məlumata görə, vaxtilə böyük ürfan sahibi olan Şıx Əfəndi bu damda qırxa girmişdir. ***Ramazanın qara damı*** adlanan yer yerli camaat tərəfindən işğala qədər (*1993-cü il* ) əziz tutulurdu...

### RƏCƏBLƏR YERİ

Qazanzəmi kəndinin ərazisində, Qoşabulaqdan azacıq yuxarıda qeydə alınan coğrafi adlardan biri ***Rəcəblər yeri*** adlanır. Bu yer ***Rəcəb*** adlı bir şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Rayonun ermənilər tərəfindən işğalına qədər Rəcəbin evinin xarabalıqları burada qalmaqda idi.

### RƏSUL ZİYARƏTGAHI

***Rəsul ziyarətgahı*** adlanan oroqrafik obyekt Göyərçin Veysəlli kəndinin ərazisində, qəbiristanlığın yaxınlığında qeydə alınmışdır. Bu ***ziyarətgah*** küfüldən və içindəki daş nişangahdan ibarətdir. Burada vaxtilə öz möminliyi, halallığı ilə seçilən və Şıx Hacı Qasım Çələbinin duyumlu müridlərindən olan ***Rəsul*** adlı böyük nüfuz sahibi yaşamışdır. Onun namaz qıldığı yerə *nişangah* qoyulmuş və həmin yer sonralar ***ziyarətgaha*** çevrilmişdir. ***Ziyarət*** sözü *"ziyarət, sitayiş olunan yer, pir"* anlamını ifadə edir. ***Rəsul ziyarətgahı*** toponimi *"Rəsula məxsus olan ziyarətgah, sitayiş yeri, pir"* mənasındadır.





### RƏZGƏ BAĞI, RƏZGƏ BULAĞI

Dağ Tumas kəndinin yaxınlığında, Ağ qaya ilə Qurd yolu arasında qeydə alınan oronim ***Rəzgə bağı*** adlanır. Bu bağın sahəsi 10 hektara yaxın ərazini əhatə edir. Bağda müxtəlif ağaclar, kollar, üzümlüklər vardır. Toponim ***rəzgə*** və ***bağ*** sözlərindən ibarətdir. *Rəzgə* bağının yuxarı hissəsində suyu şirin, gur və soyuq olan kəhriz tipli ***Rəzgə bulağı*** da vardır. ***Rəzgə*** sözünü müxtəlif məna yozumları ilə izah edirlər. ***Rəz*** sözünün *"üzümlük, tənəklik"* anlamı da məlumdur...

### RUS DÜZÜ, RUS YURDU

***Rus düzü*** oronimi Cəbrayıl rayonunun Xələfli stansiyası yaxınlığında qeydə alınmışdır. Vaxtilə Rus-İran müharibələrində bu ərazilərdə də döyüşlər olmuşdur. ***Rus düzü*** ərazisi ***rus*** xalqı adı ilə ifadə olunmuş oronimdir.

Rayonun Şahvəlili kəndi ərazisində də bu tipdən oaln coğrafi ad - ***Rus yurdu*** toponimi qeydə alınmışdır.

## "S"

### SACDAĞ

Respublikamız ərazisində bir sıra relyef formaları onların xarici görünüşcə ayrı-ayrı əşyalara oxşamalarına görə ad almışdır. Belə adlara metafor (yəni *"bənzətmə, oxşatma"*) toponimlər deyilir. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Sacdağ*** oronimi də belə coğrafi adlardandır. Üzərində lavaş, yuxa, bozlamac, qutab və s. bişirmək üçün ortası qalxıq, dairəşəkilli çuqun və ya dəmir lövhəyə ***sac*** deyilir. Yerli məlumata görə, ***dağ*** zahirən ***saca*** bənzədiyi üçün belə ad almışdır.

***Sac*** həm də qəbilə adıdır. Ərəb salnaməçisi İbn-əl-Əsir *"Əlkamil-fit-tarix"* əsərində göstərir ki, Ənuşirəvan ***sac*** qəbiləsini Şabran və Məsqət şəhərlərinə köçürmüşdür.

Qazax rayonu ərazisində də ***Sacdağ*** adlı oronim qeydə alınmışdır.

### SAQQIZ PİRİ

Fitonimlərin iştirakı ilə bağlı respublikamızın ərazisində xeyli toponim qeydə alınmışdır. Qumlaq kəndinin ərazisində, kənd mağazısının yanında qeydə alınan oroqrafik obyektlərdən biri ***Saqqız piri*** adlanır. Bu ***pir*** yaşı dəqiq bilinməyən yoğun gövdəli ***saqqız*** ağacından (***saqqızağac - püstə***) ibarətdir. Yerli camaat *Saqqız pirini* əziz tuturlar. Niyyət edənlər ağacın haçasına nəzir-niyaz qoyurlar. Toponim ***saqqız*** və ***pir*** sözlərindən düzəlib, *"saqqız ağacı olan pir"* mənasındadır. Toponim öz adında ***Saqqızağacının*** (*püstə cinsindən olub meşə zolaqlarında becərilən, oduncağı möhkəm, həm də qiymətli sayılan hündür ağac, yabanı püstə, püstə*) adını yaşadır. ***Püstə*** - sumaq fəsiləsindən yarpağı tökülən, bəzi həmişəyaşıl ağac və kol bitkisidir. Yarpağında aşı və boyaq maddəsi olan bu ağacın gövdəsini çərtdikdə qatran axır. ***Saqqızağac*** Azərbaycan Respublikasında təbii halda əsasən Soltanbud meşəsində və Bozdağda bitir. Saqqızağacından sızıb çıxan, çəkildikcə uzanmaq xassəsinə malik olan ağ kitrəyə ***saqqız*** deyirlər. O, adətən ağızda çeynənmək üçün istifadə edilir.





Keçmişin yadigarı olan ***pirlər*** (***ocaqlar***) adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.

*Hovuslu* kəndinin köhnə yurd yeri ərazisində də ***Saqqız piri*** oronimi qeydə alınmışdır.

### SAQQIZLI

***Saqqızlı*** coğrafi adı Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınmışdır. Toponim öz adında ***Saqqızağacının*** (*yabanı püstə,* ***püstə***) adını yaşadır. ***Püstə*** - sumaq fəsiləsindən yarpağı tökülən, bəzi həmişəyaşıl ağac və kol bitkisidir. Yarpağında aşı və boyaq maddəsi olan bu ağacın gövdəsini çərtdikdə qatran axır. ***Saqqızağac*** Azərbaycan Respublikasında təbii halda əsasən Soltanbud meşəsində və Bozdağda bitir.

Qax rayonu ərazisində, Qanıx çayının sol sahilində, Torpaqqala yaxınlığında *Saqqızlıq qəbiristanı* adlanan arxeoloji-tarixi abidə də qeydə alınımşdır.

### SALAHAN BABA PİRİ

Cəbrayıl rayonu ərazisində, Dağtumas kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Salahan baba piri*** adlanır. Yerli məlumata görə, ***Salahan*** şəxs adıdır; o, məşhur övliya Hacı Qaramanın cənazə namazını qılan böyük irfan sahiblərindən olmuşdur. ***Salahan*** babanın öz qəbri Mərdanlı kəndinin yuxarı başında, kəndin yaxınlığından keçən *Laçın - Akara* magistral yolunun üzərində yerləşir. Ordan keçən sürücülər adətən soldan və sağdan həmin qəbrin başına dolandıqdan sonra yollarına davam edərdilər...

Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevril-

mişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pir*** sözü farsca "*nurani qoca*", "*müqəddəs*", "*dini icmanın başçısı*" və s. mənalara malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi var.

## SARACIQ YURD YERİ

Dağ Tumas kəndinin yaxınlığında, Pirəsəd ilə Hacı Qaraman ocağının arasında qeydə alınan coğrafi adlardan biri ***Saracıq yurd yeri*** adlanır. Bu ***yurd yeri*** *Sofulu* tayfasının *Hacı Fərhadlı* tirəsinin köhnə yaşayış məntəqəsi olmuşdur. Tarixi şəraitdən asılı olaraq sonrakı dönəmlərdə yaşayış məntəqəsinin əhalisi *yurd yerlərini* dəyişməyə məcbur olmuşlar...

Bir fikrə görə, ***Saracıq*** toponimi ***saray*** (*karvansara*) və ***-cıq*** komponentlərindən ibarətdir. Güman ki, bu ***yurd yeri*** vaxtilə bu ərazilərdən ticarət, karvan yollarının üzərində və ya ətrafında yerləşdiyinə görə belə adlandırılmışdır. Başqa bir fikrə görə isə, toponim türk dillərində "*düzən*", "*tarla*", "*çöl*", "*sahə*" anlamlarını verən ***sara*** sözündən və ***-cıq*** komponentindən ibarətolub, "*kiçik düzən sahə*" mənasındadır. ***Sar*** komponentinin "*sərçələr fəsiləsindən yırtıcı quş*" anlamı da vardır.

Tarixi mənbələrdən və sənədlərdən aydın olur ki, XIII – XIV əsrlərdə monqollar buranın torpağı, suyu və təbiəti yaxşı olduğu üçün burada qış sarayları tikmişlər. 1593-cü ilə aid olan Osmanlı qaynağında ***Saracıq*** yaşayış məntəqəsinin adı ***Saraycıq*** kimi çəkilir. 1727-ci ilə aid olan "*Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*" adlı tarixi sənəddə də kəndin adı ***Saraycıq*** kimi çəkilmişdir. Bəzi məlumatlara görə kəndin əhalisinin bir hissəsi indiki Füzuli rayonunun ***Saracıq*** adlanan kəndinə köçmüşlər. Hazırda Füzuli rayonunda da *Saracıq* adlı kənd vardır.





## SARI DƏRƏ

Qalacıq kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sarı dərə*** adlanır. Oronim ***sarı*** və ***dərə*** sözlərinndən ibarətdir. Toponimin tərkibindəki ***sarı*** komponenti rəng mənasını bildirir. ***Dərə*** coğrafi termini mənfi relyef forması ifadə edir. Azərbaycan Respublikası ərazisində ***dərə*** termini ilə əlaqədar çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır. ***Sarı dərə*** toponimi "*sarı rəngdə alan dərə*" anlamındadır.

Cəbrayıl rayonunun digər bir ərazisində, Dağ Tumas kəndinin qərbində, kənddən 2 kilometr aralıda, Zolaqlar adlı yerin ətəyində yerləşən sarı torpaqlı dərə də ***Sarı dərə*** adlanır.

## SARI MƏRMƏR NƏNƏ QƏBRİ

Hasanlı kəndinin qəbiristanlığında qeydə alınan coğrafi adlardan biri ***Sarı Mərmər nənə qəbri*** adlanır. Bəzi bilgilərə görə, ***Mərmər nənə*** Mazan nənənin anasıdır. Toponimin tərkibindəki ***Sarı*** sözü ***Mərmər*** nənənin ləqəbidir.

***Mərmər*** adı ilə bağlı toponimlərin paralellərinə çox yerdə rast gəlmək mümkündür. İrəvan quberniyasının Novobayazid qəzasında vaxtilə ***Mərmərçay*** adlı çay da qeydə alınmışdır.

Əlavə məlumat üçün bax: **Mazan nənə ocağı.**

## SARI OCAQ ZİYARƏTGAHI

***Sarı ocaq ziyarətgahı*** Cəbrayıl rayonunun Horovlu kəndinin ərazisində, kəndin aşağı başında, dərənin gündoğan yamacında, kənd qəbiristanlığının altında, Pətəki məhəlləsində yerləşirdi. Ocaq büt daşlardan hörülmüş hasardan ibarətdir. Yerli məlumata görə, bu ***ziyarətgah-ocaq*** **Sarı** adlı nüfuzlu və müqəddəs şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Deyilənə görə ***Sarı*** adlı bir seyid övladı qarlı-şaxtalı qış günü Horovlunun köhnə qışlaq yerinə, Mollalıya çata bilmir; yorulub yarı yolda qalır. Buradakı qara daşın yerinə mıx çalaraq atını burada hörükləyir. Özü

də Allahı çağırıb mıxın dibindəcə qış yuxusuna gedir. Gecə bərk qar yağır. Nədənsə atın hörük ipinin radiusu boyunca çevrəyə qar düşmür. Seyid müsafirlərinin bu möcüzəsini görən camaat ***Sarı*** seyiddən nişanə kimi buranı *inanc* ocağına çevirirlər. Qara daşın söykəyinə ələm ağacı basdırılır. Bu ***ocağa***, ***ziyarətgaha*** əsasən ağzı əyilənlər, cin toxunmuşlar gələrdilər. ***Ocağın*** 2 metrliyində Sarının atının alığı qoyulan yerin *nişangahı* da var.

Yerli əhali bu ***ziyarətgahı*** müqəddəs tapınaq yeri kimi əziz tuturdu. Ümumiyyətlə, Azərbaycanda ***ocaq*** kultu, inanışı tarixin dərin qatlarına gedib çıxır. Əhali onları müqəddəs tutur. ***Sarı Ocaq ziyarətgahı*** da belə müqəddəs tapınaq yerlərindəndir. Bu ***ocaq*** uzun onillər, yüzillər əhalinin müqəddəs bildiyi inanc yeri, ümidgahı olmuşdur.

## SARI TƏPƏ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Sarı təpə*** adlanır. Oronim ***sarı*** sözündən və ***təpə*** coğrafi terminindən ibarətdir. ***Sarı*** sözü burada rəng anlamını ifadə edir. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması bildirir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## SARICALI KƏNDİ

***Sarıcalı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 52 kilometr cənubda, Sarıcalı inzibati ərazi vahidində, Gəyən çölündə Zəngilan-Horadiz avtomobil yolu kənarında düzənlik ərazidə yerləşir. Əhalisinin sayı ***1 000*** nəfərdir. Heyvandarlıq, taxılçılıq, bağçılıq, üzümçülük və baramaçılıq kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, müxtəlif ticarət-iaşə obyektləri, kəhrizlər və s. vardı. Kəndin ərazisində





*İncir ocağı, Ziyil ocağı, Pir, Bulaq ocaqları, Susalıq bulağı, Göy-göl bulağı, Xalvar kəhrizi, Tək armud bulağı, Üç çinar bulağı, Qarağac bulağı* və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunmuşdur.

***Sarıcalı*** yaşayış məntəqəsi ***cavanşir*** tayfasının ***sarıcalı*** (əslində ***sarıcaəlili***) qolunun burada məskunlaşması ilə əlaqədar belə adlanmışdır. Azərbaycan tayfasından olan ***sarıcalılar*** qədimdə ***bəhmənli*** elinə mənsub olmuşlar. ***Sarıca*** - türk mənşəli qədim türk tayfalarından biridir. Orta əsrlərdə onlar *cavanşir* tayfasına qarışmışlar. Mənbələrə görə, XVI əsrdə ***sarıcalılar*** artıq böyük bir oba imiş. XIX əsrin əvvəllərində *sarıcalılar* ***Dərgahlı Sarıcalısı***, Əmiraslanbəyli ***Sarıcalısı***, İncilli ***Sarıcalısı*** və ***Yetim Sarıcalısı*** adlı tirələrə bölünmüşdür. Sarıcalıların *kəngərlilər* ilə də bağlılığı var...

Cəbrayıl, Ağdam, Ağcabədi, Tərtər rayonlarında olan ***Sarıcalı***, Saatlı rayonundakı ***Sarıcalar*** kəndləri də *cavanşir* tayfasının ***sarıcalı*** qolunun adı ilə bağlıdır. Bəzi məlumatlara görə, bu kəndlər Cəbrayılın ***Sarıcalı*** kəndindən sonra yaranmışdır. Bir çox araşdırıcılar ***Sarıcalı*** oykonimini *kəngərli* tayfasının ***sarıcallı*** tirəsinin adı ilə bağlayırlar. ***Sarıcallı*** tipli oykonimlərin mövcudluğu sübut edir ki, Qarabağ xanları tərəfindən Qarabağa və Azərbaycanın başqa ərazilərinə köçürülən tayfalar, tirələr içərisində ***sarıcallı*** tirəsinə mənsub olan nəsillər də olmuş və onlar da bir çox tayfa və nəsillər kimi yeni məskunlaşdıqları yerlərdə saldıqları yaşayış məntəqələrini öz tirələrinin adı ilə əlaqədar olaraq ***Sarıcalı*** adlandırmışlar. Bəzi tədqiqatçılara görə ***Sarıcalı*** coğrafi adının ilkin forması ***Sarıhacılı*** olmuşdur. Bu oykonimin adının tərkibində olan ***sarı*** komponenti *"igid, mərd, cəsarətli, qorxmaz"* anlamını ifadə edir. ***Sarıhacılı*** sözü bu anlamda *"igid, Hacı"*, *"mərd Hacı"*, *"cəsarətli Hacı"*, *"Qorxmaz Hacı"* mənalarını bildirir...

Soykökləri Cavanşirlərin soy kökünə bağlanan ***sarıcalılar*** XVI əsrdən başlayaraq Səfəvilərin hakimiyyəti dövründə əmirlərdən biri olan ***Sarıca*** Əlinin törəmələridir. Tarixi məlumatlara görə az müddət içərisində məşhurlaşan Gəncə xanları yanında eşikağası işləyən *cavanşirlər* əmirlərindən biri ***Pənahəli bəy*** Qarabağda evlənir. Oğlunun adını Əli qoyurlar. O, bir qədər ***sarışın*** olduğu üçün onu ***Sarıca*** Əli çağırardılar. Pənahəli bəyin ətrafına toplanan obanın adını həmin sevimli oğlunun

şərəfinə ***Sarıcallı (Sarıca Əlili)*** qoymuşlar. Tarixdən məlumdur ki, *Sarıca* Əlinin oğlu İbrahim Xəlil ağa ata-babasının dövlətini daha da artırır. İbrahim Xəlil ağanın Fəzləli və Pənahəli (ilk Qarabağ xanı *Pənahəli xan*) adlı iki ağıllı, cəsur oğlu vardı. Qarabağ xanlığının ictimai-siyasi həyatında ***sarıcalılar*** çox mühüm rol oynamışlar. Xanlığın ordusunun əsas hissəsini də bu tayfa təşkil etmişdir. Sonralar Qarabağın əksər yerinə yayılmış ***Sarıcalı*** əmirlərinin nəsilləri zaman keçdikcə ***Sarıcalı, Sarıca, Sarıcalılar, Sarıcalar*** və s. adlanmışdır.

1588-ci ilə aid olan mənbəyə görə, ***Sarıcalı*** adlı Qarabağda qışlayan el olmuşdur. XIX əsrin əvvəllərində Qarabağda mənşəcə *əfşarlara* məxsus olan ***sarıcalı tayfası*** da yaşamışdır. Vaxtilə İrəvan xanlığının Zəngibasar mahalında ***Sarıcalar*** adlı kənd olub. 1728-ci ilə aid sənədə görə, İrəvan əyalətinin Qırxbulaq nahiyəsində *Sarucalar*, Qarni və Karbi nahiyələrində *Sarıcalar* adlı kəndlər olub. Mənbələrin məlumatına görə, İrəvan əyalətinin Şirakel nahiyəsində Göyərçinli (*Bəbirli* də deyilirdi) kəndinə məxsus olan mərkəzin adı da ***sarıcalılar*** tayfasının adı ilə əlaqədar olaraq ***Sarıcalar*** adlanmışdır. XVIII əsrə aid tarixi sənədə görə, ***Sarıcalı kəndi*** Xırdapara Dizaq mahalının tərkibində olmuşdur. 1823-cü il siyahıya alınmasına görə (siyahıya alan senator *Moqilevski*, polkovnik *Yermolov*) kənddə ***20*** ev var imiş. Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir də ***Sarıcalı*** oymağından idi.

## SARIQAYA, SARIDƏRƏ, SARIYAL, SARIYOL ENƏN DƏRƏ, SARI ƏHMƏD QIŞLAĞI

***Sarı*** termini təxminən ***500*** oronimin tərkibində iştirak edir. Oronimiyamızda bəzi coğrafi adların yaranması və formalaşmasında ***sarı*** (*bu terminin bəzən başqa məna* çalarları *da var*) rəng bildirən termininin xüsusi yeri vardır. Belə oronimlər növcə burun, qaya, dağ, dərə, yal, gədik və s. coğrafi obyektlərdən ibarətdir. Bu tip oroqrafik obyektlərdən bir neçəsi də Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Sarıqaya, Sarıdərə, Sarıyal*** oronimləridir. ***Qaya, yal*** coğrafi terminləri müsbət relyef formaları bildirir. ***Dərə*** coğrafi termini isə mənfi relyef formasını ifadə edir. ***Sarıyal*** oronimi Cəbrayıl rayonunun Dəcəl və Nüzgər kəndlərinin ərazilərində-





dir. Həsənqaydı kəndinin ərazisində ***Sarıyol enən dərə*** oronimi də qeydə alınmışdır. Aşağı Sirik kəndinin ərazisində ***Sarı Əhməd qışlağı*** coğrafi adı da qeydə alınıb. ***Sarıyal*** oroqrafik obyektinə Daşkəsən rayonunun Zivlan kəndi, Gədəbəy rayonunun Məmmədcəfərli kəndi, Kəlbəcər rayonunun Sarıdaş kəndi, Şərur rayonunun Kosacan kəndi və digər ərazilərdə də rast gəlirik.

Astara, Qax, Qəbələ, Qubadlı, Zəngilan, Kəlbəcər, Yardımlı, Laçın, Lerik, Masallı, Naftalan, Göygöl və başqa rayonların ərazilərində də ***Sarıdərə*** oronimi qeydə alınmışdır. Qazax, Qubadlı, Zaqatala, Yardımlı, Gədəbəy, Masallı, Tərtər, Ordubad, Şəmkir və s. rayonlarda ***Sarıqaya***; Daşkəsən, Kəlbəcər, Gədəbəy, Qaradağ, Laçın, Şərur, Tovuz və s. rayonların ərazilərində isə ***Sarıyal, Sarıyoxuş*** oronimləri qeydə alınmışdır.

## SARIYOXUŞ

Tatar kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sarıyoxuş*** adlanır. ***Sarı yoxuş*** oronimə Dağ Tumas kəndinin yaxınlığında, Dağ Tumas kəndindən Qarağac kəndinə gedən yolun sarı aşırımında da rast gəlirik. Sarıyoxuş oronimi ***sarı*** və ***yoxuş*** sözlərindən ibarətdir. ***Yoxuş*** - *"yolun dağa, təpəyə çıxan hissəsi"*, *"yamacın aşağıdan yuxarıya kəsimi"* anlamını ifadə edir. Müsbət relyef forması bildirən ***yoxuş*** coğrafi termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində ***2 000*** oronim toplanmışdır. Toponimin tərkibindəki ***sarı*** sözü yoxuşun rəngini səciyyələndirir. ***Sarıyoxuş*** toponimi *"süxurlarının rəngi sarı olan yamac"* mənasındadır.

## SAYAD TƏPƏSİ

Qazanzəmi kəndi ilə üzbəüz ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Sayad yer*** adlanır. Oronim ***sayad*** sözündən, təpə coğrafi termindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***sayad*** sözü şəxs adını bildirir.

Toponimiyada ***təpə*** müsbət relyef forması bildirən coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü təxminən 200 metrdən çox

olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təqribən 3500 coğrafi ad qeydə alınmışdır.

## SELOV YER

Cəbrayıl rayonunun ərazisində qeydə alınan toponimlərdən biri ***Selov yer*** adlanır. Bu coğrafi ad ***selov*** və ***yer*** sözlərindən ibarətdir. ***Selov*** sözü yerli dialekt və şivədə *"yağıntı zamanı selin yuyub açdığı yer"* anlamındadır. Bu tipli coğrafi adlara qonşu Füzuli rayonunun ərazisində də rast gəlirik.

## SEYİD FƏRZƏLİNİN QƏBRİ

Rayonun Papı kəndinin ərazisində, Hacı İmamverdilər məhəlləsinin qəbiristanlığında qeydə alınan oroqrafik obyektlərdən biri Seyid Fərzəlinin qəbri adlanır. Bu qəbir XIX əsrdə yaşamış indiki Füzuli rayonunun Qoçəhmədli kəndindən olan Seyid Həsənin oğlu Seyid Fərzəliyə məxsusdur. Dövrünün böyük nüfuz sahiblərindən biri olan və comərdliyi ilə Qarabağda sayılıb-seçilən ***Seyid Fərzəli*** Papı kəndində yaşamış və burada vəfat etmişdir. Yerli əhali işğala qədər onun qəbrini əziz tuturdular. Niyyəti olanlar tez-tez bu qəbrin üstünə gələrək burada ürəklərində niyyət tutub şam yandırırdılar...

## SEYİD QƏBİRLƏRİ

Maralyan kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də Seyid qəbirləri adlanır. Buradakı qəbirlər Seyid Fəttah və Seyid Mehdiyə məxsusdur. Bu seyidlər də Aşıq Pərinin uyuduğu qəbiristanlıqda dəfn olunmuşlar. Bu Seyid qəbirləri erməni işğalına (*1993-cü il*) qədər Maralyan və Karxulu kənd əhalisinin inanc yeri kimi həmişə ziyarət edilmişdir. Bu kəndlərin əhalisi Seyid qəbirlərini daim əziz tuturdu...





## SEYİD RZA QƏBRİ

Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndinə enən asfalt yolun kənarında, dəmiryol keçidinin 50 metrliyində qeydə alınan oroqrafik obyekt ***Seyid Rza qəbri*** adlanır. Yaxınlığında iydə ağacı da var. ***Seyid Rza qəbri*** çəkilliyin kənarında yerləşən tənha, balaca bir ***qəbir*** yeridir. Deyilənə görə kənar eldən olan ***Rza*** adlı bir ***seyid*** övladı burada dünyasını dəyişib və elə burda da dəfn olunubdur. Onun qəbri sonralar dəmir hasara alınmışdır. Qəbri ziyarət edənlər ora *pul* qoyar, orda çıraq yandırardılar. ***Seyid Rza qəbri*** Çocuq Mərcanlı və Mehdili kəndlərinin əhalisi tərəfindən müqəddəs *inanc yeri* kimi əziz tutulur.

## SƏADƏT BULAĞI

Şəxs adları əsasında əmələ gələn antrohidronimlər Cəbrayıl rayonunun ərazisində də xeyli saydadır. Rayon ərazisində qeydə alınan belə antrohidronimlərdən biri ***Səadət bulağı*** adlanır. Hidronim ***Səadət*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Toponim *"üzə çıxaranı Səadət adlı şəxs olan bulaq"* anlamındadır. ***Səadət*** *"həyatda ən yüksək məmnunluq hissi"* deməkdir. O, *"bir şəxsin hər hansı bir şeydən duyduğu dərin sevinc hissi"*, *"xoşbəxtlik"* mənasını ifadə edir.

## SƏDİ KƏNDİ

***Sədi kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 7 kilometr cənubda, Minbaşılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə, Gəyən çölündə yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Bu yaşayış məntəqəsi əslində ***Sədili*** adlanır. ***Sədi*** oykonimi sadə quruluşlu antroponimdir. Yerli məlumata görə, kəndi ***Sədi*** adlı şəxs burada

saldığı üçün yaşayış məntəqəsi də onun şərəfinə belə adlandırılmışdır. Eyni adlı böyük nəsil onun adı ilə əlaqədardır. Sədililərin *sofulu* tayfasına bağlılığı da vardır.

## SƏFƏR BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış hidronimlərdən biri ***Səfər bulağı*** adlanır. Bu bulağın şirin, soyuq, dumduru suyu vardır. Hidronim ***Səfər*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarət olub, *"Səfərə məxsus olan bulaq"* anlamını ifadə edir. ***Səfər*** adlı şəxs bulağı üzə çıxaran adamın adıdır. Belə toponimlərə digər rayonların ərazisində də rast gəlinir. ***Səfər*** sözünün mənası *"səyahət, yola çıxma"* deməkdir.

## SƏFƏRŞA GÖLÜ

Səfərşa kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Səfərşa gölü*** adlanır. Hidronim ***Səfərşa*** sözündən və ***göl*** hidronimik apelyativindən ibarətdir. Şirin sulu ***Səfərşa gölü*** yaxınlıqda yerləşən ***Səfərşa*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Səfərşa kəndi.**

## SƏFƏRŞA KƏNDİ

***Səfərşa kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 13 kilometr cənub-şərqdə, Horovlu inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 60 nəfərdir. Kənd əhalisi əsasən heyvandarlıq, üzümçülük, taxılçılıq və baramaçılıq ilə məşğul olurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi, kəhriz və s. vardı. ***Səfərşa*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Səfərşa*** (sənədlərdə kəndin adını bəzən səhvən ***Safarşa*** kimi də yazırlar) yaşayış məntəqəsini Cənubi Azərbaycandan gəlmiş və özünü şah nəvəsi kimi təqdim edən ***Səfərşalı*** adlı şəxs saldığına görə kənd də onun





adı ilə əlaqədar olaraq belə adlanmışdır. Kənddə vaxtilə Əziz yüzbaşının fəaliyyəti ilə yüzbaşılıq da yaradılmışdı.

Yerli əhali arasında bu kənd ***Allahverənli*** (*bu yerlərin əvvəlki adı* ***Mollalı yeri*** *adlanmışdır; burada Çinarlı kəhriz və armud bağları da olmuşdur*) adı ilə də tanınır. Əslində kəndin adı ***Səfərşahlı*** olmalıdır. Kənd dərviş ***Səfər*** şah adlı dövrünün nüfuzlu bir adamının adı ilə əlaqədardır. Yerli məlumata görə, Səfəvilər sülaləsinə mənsub olan ***Səfər*** şah vaxtilə buraya Cənubi Azərbaycandan gəlmişdir. O, şah sülaləsindən idi. Bundan istifadə edərək bu yeri seçib-bəyənmiş və burada məskunlaşmışdır. Yaşayış məntəqəsi də bu səbəbdən onun adı ilə adlanmışdır. Oykonimin adı öz müstəqil mənasından uzaqlaşaraq kiçicik təhrifə uğramış və ***Səfərşa*** (***Safarşa***) adını almışdır.

Bu tipli toponimə qonşuluqda yerləşən Füzuli rayonunda da (***Xələfşə kəndi***) rast gəlirik.

## SƏFİLLƏR KƏHRİZİ

Cəbrayıl rayonunun Quycaq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Səfillər kəhrizi*** adlanır. Hidronim ***səfil*** sözündən, ***-lər*** cəm şəkilçisindən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. ***Səfil*** komponenti *"daimi yaşayış yeri olmayan"*, *"daimi məşğuliyyəti olmayan"*, *"avara"*, *"sərgərdan"*, *"veyil"*, *"sərsəri"* anlamını ifadə edir.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fasillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## SƏKKİZGUŞƏLİ TÜRBƏ

Rayonun Xubyarlı kəndi ərazisində qeydə alınmış qiymətli tarixi-memarlıq abidələrindən biri də ***Səkkizguşəli türbə*** adlanır. Bu ***türbə*** guşələrinin ***səkkiz*** saylı olmasına görə belə adlandırılmışdır. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayılmışdı. Türbələrin xarici səthləri adətən, memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi. ***Türbə*** - görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün onların qəbirləri üzərində tikilən binadır, tikilidir. Bəzən onu ***maqbərə*** də adlandırırlar. Cəbrayıl rayonunun Xubyarlı kəndi ərazisində qeydə alınan ***Səkkizguşəli türbə*** adlanan bu qəbirdə də dövrünün nüfuzlu şəxsiyyəti dəfn olunmuşdur. Heyf ki, cəbrayıllıların vaxtilə müqəddəs tapınaq yeri hesab etdikləri bu *türbə* də erməni vandalları tərəfindən dağıdılmışdır...

## SƏLƏMƏ DƏRƏSİ

Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Sələmə dərəsi*** adlanır. ***Dərə*** coğrafi termini mənfi relyef formasını ifadə edir. Çöl materialları içərisində Azərbaycan Respublikasının ərazisində ***dərə*** termini ilə əlaqədar ***30 000*** coğrafi ad toplanmışdır. Toponimin tərkibindəki ***-si*** şəkilçisi mənsubluq bildirir. ***Sələmə*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır...

## SƏMƏND ATIN NİŞANGAHI

Hovuslu kəndinin ərazisində, kənd mağazasının qabağında qələmədən bitən çinar ağacının boy atdığı yer ***Səmənd atın nişangahı*** adlanır. Bu ***nişangah*** yer Əli Çələbinin ülfət bağladığı ***Səmənd atının*** ölərkən baratasının qurd-quşa yem olmaması, sür-sümüyünün murdarlanmaması üçün torpağa gömüldüyü sahədir. Hovuslu kəndinin sakini *Səməd Beydulla oğlu* həmin ərazinin tapdanmaması və nişangahın itməməsi üçün vaxtilə o yerə çinar qələməsi sancmış, az sonra həmin qələmə böyüyərək nəhəng bir çinar ağacına çevrilmişdir. Sonralar həmin nişangah el arasında ***Səmənd atın nişangahı*** adlanmışdır...





## SƏNƏM QƏBRİ

Quşçular kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sənəm qəbri*** adlanır. Bu oroqrafik obyekt tənha qəbirdən ibarətdir. Yerli əhalinin dediyinə görə bu ***qəbir*** yaşadığı dövrdə böyük nüfuz qazanmış ***Sənəm*** adlı xeyirxah bir insana məxsusdur. Kənd camaatı ***Sənəm qəbri*** yerini əziz tutur.

## SƏNGƏR YALI

***Səngər yalı*** coğrafi adı Cəbrayıl rayonunun Qalacıq kəndi ərazisində qeydə alınmışdır. Qədim türk dillərindəki ***sanqur*** sözü Azərbaycan dilinin dialektlərində ***səngər*** formasında saxlanılmışdır. ***Səngər*** sözü türk dillərində *"dağ çıxıntısı"*, *"dağ burnu"* mənasındadır. ***Səngər*** komponentinin *"güllədən, qəlpədən qorunmaq üçün qazılan çuxur, xəndək"* anlamı da var. ***Səngər yalı*** toponimi *"dağ çıxıntısı olan yal"* (*"**Səngir**"*) deməkdir.

Zəngilan rayonunun Pirveyisli kəndində, Laçın rayonunun Zeyvə kəndində, Tərtər rayonunun Metsşen kəndində və Şuşa rayonunun Xanallar kəndində də *Səngər yalı* oroqrafik obyekti qeydə alınıb. Bəzi tədqiqatçılara görə, bu terminin fars mənşəli ***səngər*** (*"müdafiə istehkamı"*) sözü ilə əlaqəsi yoxdur.

Qərbi Azərbaycanın (*Ermənistan*) Abaran rayonunda *Səngər kəndi* (əhalisi 1988-ci ildə Azərbaycana qovulmuşdur) vardı...

## SƏNGƏRƏK

Xələfli kəndinin yaxınlığında qeydə alınan maraqlı oronimlərdən biri də ***Səngərək*** coğrafi adıdır. ***Səngərək*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Araşdırıcıların bir qismi ***Səngərək*** adını səngər sözü ilə əlaqələndirirlər. Bu toponimi ***səng (sanq, zəngə, zəngi)*** sözü ilə də bağlayanlar vardır...

## SİBİR DƏRƏSİ

Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sibir dərəsi*** adlanır. Oronim ***Sibir*** sözündən, ***dərə*** coğrafi terminindən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Dərə*** termini mənfi relyef formasını ifadə edir. ***Sibir*** sözü isə həmin *dərədəki soyuqluğu* bildirir. Bu tipli oronimlərə respublikamızın digər bölgələrinin ərazilərində də rast gəlirik.

## SİKLOP TİKİNTİSİ

Tatar kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Siklop tikintisi*** adlanır. Əsasən iri və yonulmamış qaya parçalarından bərkidici məhlul (*gəc, sement*) işlədilmədən hörülmüş müdafiə qalalarına ***siklop tikintiləri*** deyilir. ***Siklop tikintiləri*** adı qədim yunanlar tərəfindən əfsanəvi nəhənglərə (***sikloplara***) aid edilən *Migena mədəniyyəti* tikilisinə verilmişdi. Bəzən ***siklop*** tikintilərinin içində müxtəlif tip qəbir abidələrinə də təsadüf edilir.

## SİRİK KƏNDİ

***Sirik kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 30 kilometr şimal-qərbdə, Sirik inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 450 nəfərdir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olurdu. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, erkən orta əsrlərə aid (V - VI əsrlər) qədim arxeoloji abidələrdən olan qala və qəbiristan vardı. XX əsrin əvvəllərində kənd ərazisində dövrünün nüfuzlu şəxsiyyəti Şükür ağaya məxsus olan meşə sahələri olmuşdur. Sirik kəndinin ərazisində *Göyatlı pir, Çay dərəsi, Qoravar düzü, Birəli meşəsi, Göy gədik, Qabaq düz, Gilavlıq, Ramazanın qaradamı, Qotur bulaq, Hacı Xoşdan, Orta yer, Xəlifə Qürbət qəbri, Həzrət Əlinin sapand daşı, Şeyid daşı, Yurd yeri, Şükür ağa talası, Şıx İbrahim qəbri* və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.





***Sirik*** toponiminin ***Sırak*** (Şirak, Çırak) tayfasının adi ilə bağlılığı ehtimal olunur. ***Sirakların*** (*siraqların*, şirakların) Orta Asiyadan, Volqadan Qafqaza qədər ərazidə nəhəng imperiyası olub. İlk dəfə I əsrdə Strabon bu tayfanın adını çəkmiş, onların Şimali Qafqazda yaşadıqlarını göstərmişdir. K.Qanın və V.Vinoqradov da bu tayfadan geniş bəhs etmişlər. ***Sirik*** toponimini türkdilli ***saqlar*** (***saklar***) ilə də bağlayanlar var. Bəziləri isə ***sirik*** sözünü *"könüllü əsgər"* anlamında izah etməyə çalışır. Bəzi tədqiqatçılar toponimi *"sirli yer"* kimi mənalandırır.

Bir sıra mənbələrdə *sirakların* Kubanda yaşamaları və onların miladdan əvvəl ikinci əsrdən başlayaraq Qafqaza, Zaqafqaziyaya hərəkət etmələri qeyd olunmuşdur. Tarixdən məlumdur ki, qədim türklərdə ***Si*** adlı tayfa da mövcud olmuşdur.

R.Kərimli bəzi Azərbaycan oykonimlərinin mənşəyi haqqında mülahizələrini bildirərkən ***Sirik*** toponiminin *Sirikini* şəklində olmasını qeyd edir...

Bəzi tarixi sənədlərdə qeyd olunmuşdur ki, *Beyləqan* rayonunun qədim Örənqala yaşayış məntəqəsinin ilk sakinlərini *Cəbrayıl* rayonunun *Sirik* kəndindən çıxan ailələr təşkil etdiyi üçün o, əvvəllər ***Sirik***, sonralar isə qədim Beyləqan şəhəri xarabalığının xalq arasında yayılmış adı ilə Örənqala adlandırılmışdır...

* * *

**Siriklilər haqqında bəzi folklor nümunələri:**

* * *

***"ŞIĞIDIĞIN BƏSDİR, BİR AZ DA QANAD ÇAL..."***

***İki nəfər sirikli göydə təyyarə görür. Biri o birisinə deyir ki, başaa dönüm, o, nədir?***

***O birisi də qayıdıb deyir ki, ayə, adamdır də, özünə qanad bağlayıb uçur.***

***O biri yenə soruşur:***

***- Biz də elə edə bilərikmi?***

***O da cavab verir:***

***- Hə, niyə eləmirik?***

***Onlardan biri özünə, qollarına uzun taxta bağlayıb, bir hündür***

***dağın başına çıxır. O birisi də dağın aşağısından buna baxır. Bu özünü dağdan aşağı atır və başlayır elə başı aşağı şığımağa. O biri baxır ki, bu heç qanad çalmır, elə süzür. Odur ki, deyir:***

***- Başaa dönüm, şığıdığın bəsdir, bir az da qanad çal.***

* * *

**"İSTİNİ İÇƏRİ VERİR, TÜSTÜNÜ ÇÖLƏ..."**

***Bir gün sirikli bir yerə gedir. Burda bir dənə peç görür. Bundan irəli də peç yox imiş. Ocağı elə damın ortasında qalayırdılar. İndi burda gördüyü buna təəccüblü gəlir. Qayıdıb gələndə kənddə hər kəsə deyir:***

***- Ay qardaş, bu gün filan yerdə bir şey görmüşəm, istini içəri verir, tüstünü çölə.***

* * *

**"PAHO, MƏNİMKİ DƏ NOLDADIR E..."**

***Sirikdə baməzə və hamıya qarşı hazırcavab olan bir kişi varmış. Günlərin bir günü rayon rəhbərləri onun hazırcavablığını yoxlamaq məqsədilə maşına doluşub Siriyə gəlirlər. Maşında bu kişini tanıyan adam da varmış. Meşə kənarındakı yol ilə getdikləri yerdə onu tanıyan həmin adam görür ki, hazırcavab olan kişi budu ha, ulağı yüklü gəlir. Rayon rəhbərinə deyirlər ki, həmin baməzə və hazırcavab kişi budur. Rayon rəhbəri onlara deyir:***

***- İndi siz dinməyin, mən ona bir bəlqəmə ("söz") atacağam. Görüm cavab verə biləcəkmi?***

***Maşını saxlayırlar. Kişiyə deyirlər ki, a kişi, benzinimiz qurtarıb. Bəlkə bir az benzinin ola.***

***Kişi elə o dəqiqə ulağın quyruğunu qaldırıb deyir:***

***- Paho, mənimki də noldadır e...***





## SİRLİ TƏPƏ

***Sirli təpə*** Cəbrayıl rayonu ərazisində, Araz Maşanlı kəndindən Xələfli stansiyasına gedən yolun kənarında yerləşir. Bu təpədən uzunluğu 64 santimetr, diametri 25 santimetr olan səliqə ilə hazırlanmış, ucları bir-birinə geydirilmiş saxsı tünglər tapılmışdır. Bu tapıntılar Qəbələdə aşkarlanmış saxsi tünglərlə eynilik təşkil edir. Tədqiqatlar göstərir ki, bu təpədə uzun əsrlər yaşayış olmuşdur. Burada qədim yaşayış məntəqəsinin olması bir sıra amillərlə sübut olunmuşdur. Xalq arasında oranin ***Sirli təpə*** adlandırılması həmin ərazidən *qəribə* və ***sirli*** əşyaların tapılması ilə əlaqədardır.

## SOFİ YUSİF OCAĞI

Cəbrayıl rayonunun ərazisində, Qumlaq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Sofi Yusif ocağı*** adlanır. Bəzən onun adını ***Sofu Usuf ocağı*** kimi də yazırlar. Yerli əhali bu ocağı əziz tutur və onu müqəddəs hesab edir. Toponimin tərkibindəki ***Sofi*** terminini ***sufi*** sözü ilə əlaqələndirənlər vardır. *Ocaq* vaxtilə burada yaşayan və ***sufi*** təriqətinə məxsus olan ***Yusifin*** adı ilə əlaqələndirilir. Bu mənada ***Sofi Yusif ocağı*** toponimi "*sufi Yusifə məxsus olan ocaq*" anlamındadır. Toponimin tərkibindəki ***Sofi*** sözünü azərbaycanlıların etnogenezində iştirak etmiş kəngərlilərin ***sofulu*** tayfasının adı ilə bağlayanlar da var. ***Sofi Yusif*** (***Sofu Usuf***) ilə bağlı çoxlu rəvayətlər əfsanələr vardır.

Deyilənə görə, kimin evinə, tövləsinə, həyətinə ilan girərdisə, gedib Sofu Usufu çağırarmış. O da gəlib cızıq çəkər və dua oxuyarmış. Bu zaman çox tərləyərmiş. İlan da gəlib onun cızdığı dairənin içərisində yatarmış. O da tutub ilanları ya qoynuna, ya da torbasına qoyarmış. Onun hörməti seyidlərdən heç də az deyilmiş...

* * *

**Sofu Usuf haqqında bəzi folklor nümunələri:**

***

*Sofu Usuf Qumlaxdandır. Güclü sofu olub. Bir dəfə Niqalay vaxtı, onun cavan olan zamanında İran xanı gəlib Xudafərini adlayıb bu taya. Onun yanında da bir sofusu olub, onu da gətirib. Deyib gəlin sınaqdan çıxaraq; görək sizin sofu güclüdür, yoxsa bizim sofu. Bu İran sofusu tutduğu ilanın zəhər dişini çıxardıb. Bu sofu ilanı buraxıb. Xan buna deyib ki, tut onu. O gülərək deyib:*

*- O ilanın zəhər dişini çıxarıblar.*

*Əl atıb tutub. Sonra deyib ki, mənə bir çörək sacı gətirin. Bir ocaq qalayıb. Torbasında çoxlu ilan olub. Gözləyib, bu sac bir qədər isinib. Sonra ilanın birini bu sacın üstünə atıb. İlan da istidən acıqlanır. Sonra əl atıb ilanı yerə tullayaraq deyib:*

*- Tut.*

*İran sofusu qorxub qaçıb. Bu təzədən əl atıb ilanı götürüb qoynuna qoyub. İran xanı ona çoxlu ənam verib...*

***

*Sofu Usufun əsli İrandan gəlmədir. Onun 3 oğlu varmış. O, kəndləri gəzərmiş. Özü söhbət edərmiş ki, bəs məni urus gəldi apardı. Dedilər ki, dağdakı mağarada yekə bir əjdaha var. Onu tutmalısan. Bu da çəliyi ilə 3 dənə dairəvi cızıq çəkib. Dua oxuyub, qışqırıb; yenə oxuyub, qışqırıb. Görüb ki, əjdaha oyanıb gəlir. Əjdaha birinci cızığı keçib, ikinci cızığı da keçib. Üçüncüdə Sofu Usub qışqırıb və əjdaha dayanıb. Sonra o, əjdahanı tutaraq yekə bir meşoğa qoyub və onlara verib. Buna görə Sofu Usufa çoxlu pul, təzə pal-paltar və kostyum veriblər...*

***

*Bir nəfəri ilan bərk sancır. İlan sancanın dədəsi Musa kişi Sofu Usufu çağırır. Sofu Usuf lezva ilə ilan sancan yeri kəsir və ora qatıq sürtür. Sonra zəhəri sığayıb yerə töküb. Sonra Musa Sofu Usufa deyib:*

*- Ay Sofu Usuf, çağır o ilanı gəlsin, baxaq görək nətər ilandır.*

*Sofu Usuf cavabında belə deyib:*





*- Ay Musa, sən Allah üz vurma. Onsuz da günaha batıram. Onları çağıranda yalan demiş oluram. Çünki çağıranda dua oxuyuram. İlanlar da elə bilirlər ki, dünyanın hər tərəfi od tutub yanır, bircə mənim qarşım salamatdır. Ona görə də gəlib düz mənim ayaqlarımın altında dururlar. Axı dünya od tutub yanmır, ona görə də yalan demiş oluram...*

## SOFİYA NƏNƏNİN YUAT YERİ

Rayonun Çaytumas kəndində, yaşayış məntəqəsinin ortalığında, aralıq yolu üstündəki daş nişangah ***Sofiya nənənin yuat yeri*** adlanır. ***Sofiya nənə*** böyük övliya olan Şıx Hacı Qasım Çələbinin anasıdır. Deyilənlərə görə, Sofiya nənə Çaytumas kəndində dünyasını dəyişdiyindən onun nəşi burada qüsl edilib kəfənə tutulubdur. Elə bu səbəbdən də yerli əhali bu yeri ***Sofiya nənənin yuat yeri*** kimi tarixiləşdirmişdir. Sofiya nənənin mübarək nəşi isə Hacı Qaraman məzarlığında dəfn edilibdir.

## SOFULU KƏNDİ

***Sofulu kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 33 kilometr qərbdə, Dağ Tumas kənd inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir, Kəndin 220 nəfər əhalisi var. Kənd əhalisi əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə ibtidai məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Ziyarətgah olan Pirəsəd ocağı da Sofulu kəndindədir. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Sofulu*** yaşayış məntəqəsinin adı azərbaycanlıların etnogenezində iştirak etmiş kəngərlilərin ***sofulu*** tayfasının adı ilə bağlıdır. Cəbrayıldakı sofuluların ***Pirəsəd*** və ***Saracıq*** adlı iki qolu vardır. ***Sufi*** təriqəti bu sözlə əlaqədardır. ***Sofulular*** *sufi* təriqətinin nümayəndələri hesab olunurlar. Cəbrayıl rayonunda əhalisi əsasən sofululardan ibarət olan **4** kənd ***(Ənsər, Saracıq, Pirəsəd, Yavsılı)*** vardır. ***Sofulu*** kəndinin ikinci adının Ənsər adlanmasının səbəbi oradakı ənsər tayfasının adı ilə bağlıdır.

***Sofulu*** tayfaları orta əsrlərdə Azərbaycanda, Anadoluda, Naxçıvanda və Qərbi Azərbaycanda (Ermənistanda) yaşamışlar. ***Sofulular*** əsasən Zəngəzur, Qarabağ və Qazax bölgələrində yaşamışlar. Onlar adətən keçmişdə yayı Cermuxda, Sisyan rayonunda (Qərbi Azərbaycan (indiki Ermənistan)), qışı isə Qarabağda keçirirdilər. Sofuluların ulu babalarından biri ***Hacı Sofu Alı*** olmuşdur.

Ağdam rayonunda *Sofulu*, Tovuz rayonunda *Sofular* kəndlərinin adları da çox güman ki, ***sofulu*** tayfasının adı ilə əlaqədardır. Mənşəcə kəngərlilərin bir qolu olan ***Sofulu eli*** yayı Zəngəzurda, qışı isə Qarabağda keçirərdilər. Mənbələrin məlumatına görə, XIX əsrdə ***sofulu*** tayfasının yaşadığı məntəqələr ***20*** qışlaqdan - *Ağbis, Acıbağ, Əlişar, Ballıqaya, Böynəgər, Göyyal, Dədə-Tun, Qıvraq, Yavsulu, Kirs, Murxus, Pürəsad, Püsak, Saldaş, Saracıq, Səncər Əxili, Xaçanti, Xortinaz, Çaralı* qışlaqlarından ibarət olmuşdur.

Qərbi Azərbaycanın Zəngəzur qəzasında, İrəvan əyalətinin Sürməli nahiyəsində də vaxtilə *Sofulu* adlı kənd mövcud idi...

## SOFULU QIŞLAĞI

Cəbrayıl rayonunun ərazisində, Arxac dərəsinin gündoğan tərəfində böyük otlaq sahəsi ***Sofulu qışlağı*** adlanır. Bu yer bir müddət ***Sofulu*** kəndinin ***qışlaq*** yeri olduğuna görə belə ad almışdır. ***Sofulu qışlağı*** adlanan yerin adına bəzən ***Lələ zəmisi*** də deyirlər. Bu ad ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. Yerli əhalinin verdiyi məlumatlara görə, bir zamanlar ***Aşıq Lələ*** yay aylarında bu ərazidə düşərgə saldığından bu yer ***Lələ zəmisi*** adlanmışdır...

## SOLAXAY ARX

Dağ Tumas kəndindən 5 kilometr məsafədə qeydə alınan hidronimlərdən biri ***Solaxay arx*** adlanır. O, öz başlanğıcını Söyüdlərin dibindəki göldən götürür və Gülməmmədlilər dərəsinə qədər uzanır. Yerli məlumata görə, ***arx*** bir qədər ***sol*** cinaha meyilliliyinə görə belə adlandırılmışdır. Toponim yerləşdiyi əraziyə görə belə ad almışdır.





## SOLAXAY DƏRƏSİ

Oronimiyada relyefin dar, çökək forması ***dərə*** sözü ilə ifadə olunur. ***Dərə*** mənfi relyef forması bildirən coğrafı termininin müxtəlif məna çalarları (əlbəttə, ***dərə*** *sözünün işlənmə məqamından, mövqeyindən asılı olaraq*) vardır. Çöl materialları içərisində indiyədək Azərbaycanımızda ***dərə*** coğrafi termini ilə bağlı ***30 000*** oronim qeydə alınmışdır. Cəbrayıl rayonunun Qışlaq kəndi ərazisində qeydə alınan ***Solaxay dərəsi*** də belə oronimlərdən biridir. ***Solaxay*** adı dərənin yerləşdiyi qəribə mövqe, qeyri-sabit ərazi ilə əlaqədardır.

Tovuz rayonunun Ağdam kəndi ərazisində də *Solaxay dərəsi* oronimi qeydə alınıb.

## SOLTAN BABA TÜRBƏSİ

Cəbrayıl rayonunun ərazisində, Şıxlar kəndində, Korqaraqışlaq kəndi ilə Hoçaz kəndinin arasındakı sahənin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Soltan baba türbəsi*** adlanır. Əlamətlərindən görünür ki, bu abidə XI – XII əsrlərdə inşa edilmişdir. Bu coğrafi ad ***Soltan baba*** adından, ***türbə*** sözündən və mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. Yerli məlumata görə, ***Soltan baba*** adlı şəxs yaşadığı dövrün nüfuzlu bir şəxsiyyəti olmuşdur. ***Soltan*** komponenti *"hökmdar, padşah"* anlamındadır.

***Türbə*** - görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün onların qəbirləri üzərində tikilən binadır. Bəzən onun adına ***məqbərə*** də deyirlər. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayılmışdı. Türbələrin xarici səthləri adətən, memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi.

## SOLTAN HAMAMI

Rayon ərazisində qeydə alınmış memarlıq abidələrindən biri ***Soltan hamamı*** adlanır. Oronim ***Soltan*** və ***hamam*** sözlərindən ibarətdir. Bu

oroqrafik obyekt ***Sultan*** şəxs adı ilə əlaqədar olaraq yaranmışdır. ***Soltan hamamı*** toponimi *"Soltana məxsus olan hamam"* mənasındadır.

## SOLTANQULU OCAĞI

Çaxırlı kəndinin yaxınlığında, zastavaya gedən yolun solunda yerləşən tut bağının ərazisində qeydə alınmış oronimlərdən biri ***Soltanqulu ocağı*** adlanır. Bəzən adına ***Yel ocağı*** da deyirlər. ***Soltanqulu ocağı*** içərisində *alça* ağacı olan daş hərləmədən ibarətdir. Hərləmələrdə çala yeri olan yuvalar da vardır. Bu yuvacıqlarda şam yandırırlar. Ziyarətçilər niyyət edib nəzir-ziyaz qoyur, ağacın qol-budağına ip və ya sap bağlayırlar. ***Soltanqulu*** şəxs adıdır. ***Soltanqulu ocağı*** oronimi antroponimik toponimdir.

## SOLTANLI BAĞLARI

Cəbrayıl rayonunda, Soltanlı kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən bir neçəsi ***Soltanlı bağları*** adlanır. Zəngin meyvə ağacları ilə dolu olan bu ***bağlar*** *Soltanlı* kəndinin yaxınlığında yerləşdiyi üçün belə adlandırılmışdır. Bu bağlarda müxtəlif meyvə ağacları var idi. Təəssüf ki, rayonun, kəndin ermənilər tərəfindən işğalı ilə əlaqədar olaraq bu ***bağlar*** da zəbt edilmiş, dağıdılmışdır.

## SOLTANLI KƏNDİ

***Soltanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 29 kilometr cənubda, Soltanlı inzibati ərazi vahidində, Zəngilan-Horadiz avtomobil yolu kənarında, Arazboyu düzənlikdə yerləşir. Əhalisi 2600 nəfərdir, əhali əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülük ilə məşğul olurdu. Bu kənddən çoxlu sayda böyük ziyalı nəsli çıxmışdır. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, ticarət və ictimai-iaşə obyektləri, məscid, kurqanlar, kəhrizlər və s. vardı. Kəndin ərazisində *İlannıca*





*dağı, Qılıçlı düz, Topcaq düzü, Qəjər ojağı (Qacar ocağı), Bala kəhriz, Bəydili arxı, Bəydili yeri, Göyərçinli, Qovşudlu yeri, Dahar, Mratasıllı yeri, Şamlıq, Maqsud çalası, Harsınölən bağ, Dərin yer, İmir yeri, Minara yeri, Şikarlı, Yantəpə* və s. oroqrafik obyektlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Soltanlı kəndi*** (*yaşayış məntəqəsinin adı tarixən **Sultanlıq** şəklində olub*) türk-oğuz tayfalarından olan və orta əsrlərdə Azərbaycana gələn *Bəydililərə* məxsus olan torpaqlarda, ərazilərdə salınmışdır. Kənd Cəbrayılın qədim yaşayış məskənlərindəndir.

***Soltanlı*** kəndinin adı şahsevən tayfasının ***soltanlı*** tirəsinin adı ilə əlaqədardır. Xalq arasında kəndin adına bəzən ***Böyük Soltanlı*** da adlanır. Soltanlının ***Soltanbud*** tayfalarının qalığı olması haqqında da müəyyən fikirlər var. XIX əsrdə bu kənddən köçmüş bəzi ailələr Qubadlı rayonu ərazisində ***Bala Soltanlı*** kəndini (*onlardan Muğana, Naxçıvana da gedən ailələr olmuşdur*) salmışlar.

***Soltan//sultan*** həm də titul bildirən sözdür. Türk dilində bu söz *"hökmdar, hakim"* mənasındadır. ***Soltanlı*** idarəçiliklə bağlı olan oykonimdir. Yerli məlumatlara görə, əvvəllər kəndin indiki ərazisindən 3 kilometr qərbdə ***Sultanlıq*** adlı qədim şəhər-qala mövcud olmuşdur. Mənbələrdən məlum olur ki, təxminən XVI əsrdə həmin qala-şəhər hansı səbəbdənsə dağılmış və əhalisi müxtəlif ərazilərə köçmüşdür. Əlbəttə ki, getməyənlər də olmuşdur. Orta əsrlərdə burada *bəydililər, bayatlılar, cəfərlilər, qaralar, hasıtdılar, alızamanlılar* və başqa tayfalar yaşamışlar. ***Cəbrayıl rayonu*** ərazisində tarixən şahlıq, xanlıq, ağalıq, bəylik, ***sultanlıq***, minbaşılıq kimi üsul-idarələr mövcud olmuşdur. Bəzi fikirlərə görə, ***Soltanlı*** oykonimi idarəçiliklə bağlı yaranmış coğrafi addır. ***Soltan*** sözü türk dilində *"hökmdar, hakim"* deməkdir.

XVIII əsrdə ***Soltanlı*** torpaqları Qarabağ xanına tabe idi. Əkin-biçindən gələn gəlirdən ona vergi verilirdi. Bir versiyaya görə, toponim ***Soltan*** adlı nüfuzlu hökmdarın, başqa bir versiyaya görə isə, ərazinin ***sulu*** olması ilə əlaqədardır... 1823-cü il siyahıyaalınmasına görə (*siyahıya alan senator Moqilevski, polkovnik Yermolov*) kənd ***60*** evdən ibarət imiş...

***Soltanlı*** kəndinin *Qılışlı, Göyərçinli, Diri dağ, İlannıca, Şamlıq, Yantəpə* kimi otlaq sahələri də vardı.

## SÖYÜDLÜ DAĞ, SÖYÜDLÜ DƏRƏ

***Söyüd*** bitkisinin adı çoxlu oroqrafik obyekt adlarının yaranmasında iştirak edir. Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Söyudlü dağ, Söyüdlü dərə*** coğrafi adı da öz adında ***söyüd*** ağacının, bitki örtüyünün adını əks etdirir. Həmin *dağ* və *dərədə* çoxlu sayda ***söyüd*** ağacları vardı. Vaxtilə İrəvan əyalətinin Sürməli, Xınzirək, Dərəçiçək, Şirakel, Məzrə nahiyələrində də ***Söyüdlü*** adlı kəndlər olmuşdur.

Laçın, Tovuz, Xocavənd və s. rayonlarda da *Söyüdlü dərə* oroqrafik obyektləri vardır. Kəlbəcər rayonundakı *Söyüdlü dağı*, Qax rayonundakı *Söyüdlü düz*, Tovuz rayonundakı *Söyüdlü güney*, Astara rayonunun Siyaku kəndi ərazisindəki *Söyüdlü təpə* oronimləri də ***söyüd*** bitki örtüyünə görə belə adlanmışdır. *"Avesta"* dilində ***suqut*** sözü *"müqəddəs"* deməkdir.

## SÖYÜDLÜ KƏNDİ

***Söyüdlü kəndi*** Cəbrayıl rayonunda, Qazanzəmi inzibati ərazi vahidində, rayon mərkəzindən 55 kilometr qərbdə, Qubadlı və Xocavənd sərhədi yaxınlığında yerləşir. Əhalisinin sayı 60 nəfərdir. Əhali əsasən heyvandarlıq və bağçılıq ilə məşğul olurdu. Kəndin ərazisində *Yel piri, Yaxın pir, Kövşən yalı* və s. kimi coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Oykonim salındığı ərazidə ***söyüd*** ağaclarının olmasına görə və yaxınlıqdakı ***Söyüdlü dərə*** oroqrafik obyektinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. ***Soyot//söyöt*** adlı türk mənşəli tayfa *(uyğurlarda indi də belə bir tayfa mövcuddur)* da var. Şimal-qərbi Türkiyədə - Biləcik ilə Əskişəhər arasında ***Soqut*** şəhəri də vardır.

Vaxtilə İrəvan əyalətinin Qırxbulaq, Məzrə, Dərəçiçək, Şirakel, Xınzirək nahiyələrində və Sürməli qəzasında da ***Söyüdlü*** adlı kəndlər olmuşdur.

Əlavə məlumat üçün bax: **Söyüdlü dağ, Söyüdlü dərə.**





## STANSI MAHMUDLU KƏNDİ

***Stansı Mahmudlu kəndi*** Mahmudlu kəndi yaxınlığında, Şükürbəyli inzibati ərazi vahidində, Araz çayının sol sahilində, Mincivan - Horadiz dəmir yolu kənarında yerləşir. Bu yaşayış məntəqəsinin adına ***Stansı Mahmudlu*** deyilən Əhalisinin sayı 900 nəfərdir. Stansı Mahmudluda orta məktəb klub, kinoteatr, kitabxana, müxtəlif ticarət-iaşə obyektləri, dəmiryol stansiyası və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Don Juan iralı adı ilə tanınmış Oruc bəy Bayat əsərində ***qızılbaş*** tayfaları və onların şaxələrinin siyahısında ***25***-ci sırada ***mahmudlu*** tayfasının da adını çəkmişdir. XVIII - XIX əsrlərdə ***mahmudlular*** Cəbrayıl elinin ***18*** oymağından biri kimi keçmişdə Əyri adlanan ərazidə yaşamışlar...

Qədim türk tayfası olan ***Mahmudlular*** Azərbaycana müxtəlif vaxtlarda gəlmişlər. ***Mahmudlu*** yaşayış məntəqəsi ***mahmudlu*** türk taylasının burada məskunlaşması nəticəsində yaranmışdır. Bu tayfa qışı Qarabağda, yayı Zəngəzurda keçirərdi. XVI - XVII əsrlərdə Türkiyə ərazisində Van gölündən şərqdə yaşamış, sonralar ermənilərlə münasibət zəminində bir hissəsi Zaqafqaziyaya gəlmiş ***mahmudlu*** tayfası Azərbaycanın bir sıra inzibati rayonlarında yaşayış məskənləri salmışlar.

Əlavə məlumat üçün bax: **Mahmudlu kəndi.**

## STANSİYA XƏLƏFLİ KƏNDİ

***Stansiya Xələfli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 47 kilometr cənubda, Araz çayının sol sahilində, Bakı – Şərur dəmir yolunun kənarında, İran İslam Respublikası ilə sərhəddə, Diri dağın ətəyində, düzənlik ərazidə yerləşir. Adını bəzən sənədlərdə ***Xələfli qəsəbəsi*** kimi də yazırlar. El arasında bu kəndə Diri dağın ətəyində yerləşdiyi üçün ***Diri dağı kəndi*** də deyirlər. Əhalisinin sayı 400 nəfərdir. Kənddə məktəb, klub, kitabxana, ticarət-iaşə obyektləri və s. vardı. *Aşıq Qurbani piri* yaşayış məntəqəsindən 2 kilometr məsafədə yerləşir. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, bu yaşayış məntəqəsinin əsası ***Xələfli*** kəndin-

dən gəlmiş nəsillər tərəfindən qoyulduğu üçün belə adlandırılmışdır.

Əlavə məlumat üçün bax: **Xələfli kəndi, Xələfli qəsəbəsi.**

## SUAT DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Suat dərəsi*** adlanır. Bu coğrafi ad ***suat*** və ***dərə*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-si*** şəkilçisindən ibarətdir. ***Suat*** termini *"çayda və ya göldə heyvanların suvarıldığı yer"* anlamındadır. Bu termin ilə bağlı Azərbaycan toponimiyasında xeyli coğrafi adlar vardır. ***Dərə*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan Respublikasının ərazisində ***dərə*** termini ilə bağlı çöl materialları içərisində ***30 000*** oronim qeydə alınmışdır.

## SULU KƏHRİZ

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri ***Sulu kəhriz*** adlanır. Sulu kəhrizin buz kimi soyuq, göz yaşı kimi dumduru suyu vardı. Bu ***kəhriz*** bol ***sulu*** olduğundan və heç zaman qurumadığından belə adlandırılmışdır. Kəhrizin lap yanında yaşı təxminən ***800*** il olan və vaxtilə təbiət hadisəsi kimi qorunan məşhur çinar ağacı da var idi. Ermənilər işğaldan sonra bu ağacı kəsib məhv etmişlər. Son məlumatlara görə elə bu və digər səbəblərdən *Sulu kəhrizin* də dağıdıldığı bildirilir...

Məlumdur ki, ***kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyirlər. Kəhrizlər maili lağım şəbəkəsindən ibarət olurlar. *Onlar* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fasilələrdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi hələ miladdan öncə I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar öz əksini tapmışdır.





## SURUN GÜNEYİ

***Sur*** (***Sor***) - Cəlayir türklərinə mənsub olan qəbilənin adıdır. ***Surla*** adlı qızılbaş tayfası da məlumdur.

***Surun güneyi*** adlanan oroqrafik obyekt ***Sur*** dağının ***güney*** yamacında qeydə alınmışdır. Cəbrayıl bölgəsində hamının tez-tez eşitdiyi *"Allah verəndə Surun güneyində də verir"* ifadəli deyimi ***Sur güneyi*** ilə əlaqədar yaranmışdır. Bununla bağlı belə bir əfsanə də var:

*Keçmiş illərin qıt çağlarında arvad ərini danlayır ki, gedib şəhərdə işləyib evə yavanlıq-zad alıb gətirsin. Kişi düzəlir yola; gethaget, gəlib bir böyük şəhərə çıxır. Haraya, kimin yanına gedirsə, günəmuzd bir iş tapa bilmir ki, bilmir. Bir qədər avara-sərgərdan gəzib-dolandıqdan sonra kəndlərinə qayıtmağı qərara alır. Nə üzlə pulsuz evə qayıtmasından xəcalətlənərək qayıdıb çıxır kəndin qırağındakı adına* ***Surun güneyi*** *deyilən yerə. Oradan evinə baxaraq hey düşünür. Axşamın soyuğu düşdüyü üçün bir-iki kol-kos qırıb ocaq çatır ki, qızışsın. Ocaq öləzidikcə kişi də kollardan qoparıb oda atır. Bir kolu da çəkib çıxaranda görür ki, kökündə bir zəncir var. Zənciri dartıb ucunu tapanda bir küpə çıxır. Küpənin içinə baxanda görür ki, içi dolu qızıldır. Bütün qızılları çuxasına boşaldıb evinə gəlir. Xərclik edib yaxşıca dolanırlar. Arvad hardan soruşanda ki, a kişi, şəhərdə harda işlədin bu qədər pul qazandın; kişi də cavabında qayıdır ki, bilirsən nə var, ay arvad, Allah verəndə elə Surun güneyində də verir...*

***Sur*** türk tayfaları XVIII əsrdə İran şahları tərəfindən Cənubi Azərbaycandan köçürülmüşlər. ***Sur*** ərəb dilində *"böyük buynuzdan düzəlmiş boru", "öküz, buğa" (astronomiyada "öküz bürcü"), "şeypur"* (dini etiqada görə qiyamət günündə İsrafil mələyin çaldığı şeypur), "şəhər, *qala divarı"*, fars dilində *"toy, büsat, qonaqlıq"* və s. mənalarda işlənir. Surun yaxınlığında ***Surca*** qədim yaşayış məskəni də mövcud olmuşdur...

## SUSDALIQ PİRİ

***Susdalıq piri*** Qazanzəmi və Söyüdlü kəndlərinin arasında, Susdalıq (bəzən adını ***Sustalıq*** şəklində də yazırlar) kövşənində, təpə üzərində yerləşir. Bu ***pir*** daş hərləməsi olan bir qəbirdir. Məlumatlara görə bura-

daki qəbirdə naməlum bir övliya uyuyur. Oronim ***Susdalıq*** kövşən adından və ***pir*** sözündən düzəlmişdir. Toponim *"Susdalıq kövşənində yerləşən pir"* anlamındadır. ***Susdalıq piri*** öz adını ərazidəki kövşənin adından almışdır. Bu tipli toponimlərə Azərbaycanın digər ərazilərində də rast gəlmək mümkündür.

## SUTÖKÜLƏN DƏRƏ

Qalacıq kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Sutökülən dərə*** adlanır. Azərbaycan Respublikası ərazisində ***dərə*** mənfi relyef forması bildirən coğrafi termini ilə əlaqədar çöl materialları içərisində ***30 000*** coğrafi ad toplanmışdır. Cəbrayıl rayonu ərazisindəki ***Sutökülən dərə*** oronimi həmin ***dərədə*** suyun müəyyən hündürlükdən tökülməsi ilə bağlı belə ad almışdır.

## SÜLEYMAN BULAĞI

Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Süleyman bulağı*** adlanır. Hidronim ***Süleyman*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Bu bulağın göz yaşı kimi dumduru, buz kimi soyuq suyu vardır. ***Bulaq*** vaxtilə onu üzə çıxaran adamın – ***Süleyman*** adlı şəxsin adı ilə adlanmışdır. Toponim *"Süleymana məxsus olan bulaq"* anlamındadır. Ərəb dilində ***süleyman*** sözü *"güclü zəhər", "dezinfeksiya vasitəsi kimi boya istehsalında və s.-də işlədilən ağ toz"* anlamını ifadə edir.

## SÜLEYMAN ÇALASI

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş xeyli sayda coğrafi adlar vardır. Cəbrayıl rayonunun Dağ Tumas kəndinin yaxınlığında qeydə alınan ***Süleyman çalası*** oroqrafik obyekti də belə antroponimik oronimlərdəndir. Bu mikrooronim xüsusi mülkiyyətin məhsulu olmaq etibarı ilə keçmişdə bu və ya digər ərazidən müxtəlif təsərrüfat sahələri





məqsədilə istifadə edilməsi ilə əlaqədar belə ad almışdır.

***Çala*** mənfi relyef forması ifadə edən coğrafi termini *"çuxur yer", "çökək yer"* anlamındadır. ***Çala*** sözünün sonundakı ***-sı*** şəkilçisi mənsubluq bildirir. Toponim *"Süleymana məxsus olan çala"* mənasındadır. Respublikamızın ərazisində adının tərkibində ***çala*** termini iştirak edən ***400*** oronim qeydə alınmışdır.

## SÜLEYMAN QALASI

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Tumas dağının cənub silsiləsində, Sulu küfüldən cənubda, mənzərəli bir yerdə qeydə alınan oroqrafik obyeklərdən biri ***Süleyman qalası*** adlanır. Bu ərazidə vaxtilə təbii qalalar ilə əhatə olunmuş qədim yaşayış yeri mövcud olmuşdur. Oronim ***Süleyman*** şəxs adından, ***qala*** sözündən və ***-sı*** mənsubiyyət şəkilçisindən ibarətdir. Məlumdur ki, Azərbaycan toponimiyasında antroponimik oronimlər çoxdur. ***Süleyman qalası*** oronimi də məhz belə oroqrafik obyektlərdəndir.

## SÜLEYMANLI KƏNDİ

***Süleymanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 14 kilometr şimalda, Süleymanlı inzibati ərazi vahidində, Qarabağ dağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 650 nəfərdir. Əhali əsasən bağçılıq, üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət-iaşə obyektləri, kəhrizlər və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdur. Tarixdən məlumdur ki, 1905-ci ildə ermənilər ***Süleymanlı*** kəndini də yandırmışlar...

***Süleymanlı kəndi*** şəxs adı ilə bağlı olan oykonimdir. Qədim tarixə malik ***Süleymanlı*** yaşayış məntəqəsini vaxtilə Cənubi Azərbaycandan gəlmiş ***Süleyman*** adlı bir şəxs burada saldığına görə kənd də onun şərəfinə belə adlanmışdır.

XVIII əsrə aid olan mənbəyə görə, ***Süleymanlı kəndi*** Xırdapara-Di-

zaq mahalı tabeliyində olmuşdur. Orta əsrlərdə Anadoluda *süleymanlı* adlı tayfa yaşamışdır, Vaxtilə İrəvan quberniyasında da ***Süleyman*** adı ilə bağlı yaşayış məntəqələri olmuşdur. Ümumiyyətlə, *Süleymanlı* nəsilləri ilə bağlı mənbələrdə bir-birini təkzib edən məlumatlar da mövcuddur...

## SÜLEYMANLI QAYASI

Rayonun Süleymanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Süleymanlı qayası*** adlanır. Oronim ***Süleymanlı*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Oronimin tərkibində iştirak edən ***-sı*** şəkilçisi mənsubiyyət bildirir.

Toponimin tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Adətən sıra dağlardan ayrılmış qola və ya dağların müəyyən hissəsində çətin keçilən yerə ***qaya*** deyirlər. Respublikamız ərazisində çöl materialları içərisində adının tərkibində ***qaya*** termini iştirak edən ***3 000*** oronim qeydə alınmışdır.





# "Ş"

## ŞAH PİR

Nüsüs kəndinin ərazisində, Zamaxan dağının döşündə qeydə alınan oroqrafik obyekt Şah pir adlanır. Bu ***pir*** daş hərləmədən ibarətdir. Daş hərləmənin ortasında *qaramıx* kolu vardır. Kolun ətrafı otlaqdır. Hərləmədə qəbir olub-olmaması dəqiq bilinmir. Şah piri kəramətli pirlərdən hesab olunur. Oronim şah və ***pir*** sözlərindən ibarət olub, *"böyük pir"* anlamını ifadə edir. Keçmişdə İran və Əfqanıstanda padşah və hökmdarların daşıdıqları titul şah adlanırdı.

***Pir*** - dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

## ŞAHMAR DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri Şahmar dərəsi adlanır. Oronim ***Şahmar*** (*bu termin fars dilində "zəhərli, iri ilan cinsi" anlamını ifadə edir*) şəxs adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarət olub, *"Şahmara məxsus olan dərə"* anlamındadır. Bu tipli coğrafi adlara Cəbrayıl rayonunun ərazisində çox rast gəlmək olar. Belə oronimlərə nümunə olaraq *Allahverdi dərəsi, Qurban dərəsi, Həsən dərəsi, Maqsud dərəsi, Muxtar dərəsi, Şahmərdan dərəsi, Təhməz dərəsi, Tumas dərəsi, Yəhya dərəsi* və başqalarını göstərə bilərik.

## ŞAHVERDİ KƏHRİZİ

Cəbrayıl rayonunun Qaracallı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri Şahverdi kəhrizi adlanır. Hidronim Şahverdi şəxs adından və ***kəhriz*** hidronimik apelyativindən əmələ gələn antroponimik toponimdir. Şahverdi adlı adam bu ***kəhrizi*** üzə çıxaran şəxsdir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## ŞAHVƏLƏDLİ KƏNDİ

***Şahvələdli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 2 kilometr şimalda, Cəbrayıl şəhər inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində, Xocavənd rayonu ilə həmsərhəd ərazidə yerləşir. Əhalisinin sayı 85 nəfərdir. Kənd əhalisi taxılçılıq, bağçıəlıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə klub, kitabxana və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Şahvələdli*** oykonimi ***Şahvələd*** şəxs adından və ***-li*** şəkilçisindən ibarətdir. ***Şahvələdli*** yaşayış məntəqəsi ***Şahvələd*** adlı şəxs tərəfindən salındığı üçün belə adlanmışdır.

***Şahvələdli*** toponimini müqəddəs Cəbrayıl Atanın övladlarından biri olan Şahvələdin adı ilə də əlaqələndirənlər vardır. Bəzi tarixi sənədlərdən məlum olur ki, Cəbrayıl Atanın torpaq mülkləri vərəsəlik qaydasında oğlanları arasında bölüşdürülmüşdür. Görünür oğlu Şahvələdə də bu ərazi düşmüş və yaşayış məntəqəsi də sonralar onun adı ilə belə adlanmışdır...

Daşkəsən rayonunda da *Şahvələdli kəndi* vardır.





## ŞAHVƏLİLİ KƏNDİ

***Şahvəlili kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 40 kilometr cənubda, Gəyən düzündə, Şahvəlili kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Bəzən adını Şahvəlli kimi də yazırlar. Əhalisinin sayı 500 nəfərdir, Əhali əsasən taxılçılıq, heyvandarlıq, bağçılıq və üzümçülüklə məşğul olurdu, Kənddə orta məktəb, kitabxana, mədəniyyət evi, rabitə şöbəsi, tibb məntəqəsi, ticarət-iaşə obyektləri və s. vardı. Kəndin ərazisində *Cingir bulaq, Qasım nişangahı, Əli Çələbi nişangahı, Yaldakı pir, Qızlar piri* və s. adlı coğrafi adlar qeydə alınmışdır. ***Şahvəlili kəndi*** ərazisində *Tökmələr* adlanan ***6*** süni *Kurqan təpəsi, Qədim ocağı, Fatı yeri, Qarqucaq ("Qar talası") sahəsi, Çır-çır (Şır-şır) bulaq, Təndirli burun, Boyanalı ərazi, Gəz kərmə, Qarasu, Dahar (Gəyən düzündə, Çaxmaqçayın sağ sahilində 100 hektar məhsuldar əkin sahəsi)* və başqa oronimlər də qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur.

Bəzi məlumatlardan aydın olur ki, ***Şahvəlili kəndi*** əvvəllər Çaxmaqçaydakı ***Çay yatağı*** deyilən yerdə olub. Sonra camaat köçüb indiki yerə gəliblər. Deyilənə görə, burada ilk dəfə Əhməd adlı nüfuzlu bir şəxs məskən salıb.

Toponimi müqəddəs Cəbrayıl Atanın övladlarından biri olan Şahvələdin adı ilə də əlaqələndirənlər var. Bəzi araşdırıcılar ***Şahvəlili*** oykonimini ***Şahvələd*** sözündən təhrif kimi qəbul edir. Bu ad müasir dövrümüzə bir qədər təhrif olunmuş şəkildə ***(Şahvəlli)*** gəlib çıxmışdır. Bəzi tarixi sənədlərdən məlum olur ki, Cəbrayıl Atanın torpaq mülkləri vərəsəlik qaydasında oğlanları arasında bölüşdürülmüşdür. Görünür oğlu Şahvələdə də bu ərazi düşmüş və yaşayış məntəqəsi də sonralar onun adı ilə belə adlanmışdır.

***Şahvəlili*** kəndinin adı yerli əhali arasında ***Şahvəlli*** kimi də işlədilir. Toponim *Vəli şahın* adı ilə bağlıdır. ***Şahvəlili*** yaşayış məntəqəsini ***Şah Vəli (Vəli Şah)*** adlı nüfuzlu bir şəxs saldığı üçün kənd də onun adı ilə adlanmışdır. Kənd ***Şahvəlli (Vəli şah)*** başda olmaqla onun mənsub olduğu nəslin burada məskunlaşması nəticəsində yaranmışdır. Bəzi tarixi sənədlərdən aydın olur ki, ***Vəli şah*** Sultan Əhmədin vassalı kimi vaxtilə onun tabeliyində olan kəndləri idarə etmişdir. ***Şahvəlli tirəsi*** Cəbrayılda-

kı Əhmədli tayfasına daxil idi. Əhmədli obasına mənsub ***Vəlili*** (***Vəlli***) adlı tayfa da olmuşdur. Əhmədli *eli* Türkiyəyə və başqa ərazilərə sürgün olunanda həmin tirə (*tayfa*) də onların arasında olmuşdur. 1905-ci ilə qədər sürgün olunanlarla məktublaşma da olmuşdur. Hazırda Tokat ilçəsi, Zila qəsəbəsi, Papaqçı köyündə (*Türkiyə*) Əhmədli elinin nəsilləri yaşayırlar.

Bərdə rayonunda da ***Şahvəlilər kəndi*** vardır. Vaxtilə İrəvan quberniyasının Qırxbulaq nahiyəsində ***Şahvəli*** adlı yaşayış məntəqəsi olmuşdur.

## ŞAHVƏLLİ GÖLÜ

***Şahvəlili*** yaşayış məntəqəsinin ərazisində kəndin adı ilə eyni səslənən ***Şahvəlli gölü*** hidronimi də qeydə alınmışdır. Bu ***göl*** yaxınlıqdakı ***Şahvəlili*** kəndinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu tipli toponimlərə digər rayonların da ərazilərində rast gəlirik.

Əlavə məlumat üçün bax: **Şahvəlili kəndi.**

## ŞAQQILDAQLIQ

Dağ Tumas kəndinin yaxınlığında, İncə kəhrizinin gündoğan hissəsində qeydə alınan oronimlərdən biri ***Şaqqıldaqlıq*** adlanır. Bu ərazi düzən sahədən ibarətdir. Buranın otları çox yağlı olur və hər yazağzı ərazisi gur ***şaqqıldaqlı*** lalə (*açılmamış tumurcuqlu lalı qönçəsi*) bitkisi ilə sıx örtülür. Elə bu səbəbdən də yerli əhali buranı ***Şaqqıldaqlıq*** adlandırır.

## ŞAM BULAQ

Şükürbəyli kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri ***Şam bulaq*** adlanır. ***Şam*** bulağının suyu dağın ətəklərindən çəkilib kəndə gətirilmişdir. Axşam olanda adətən qız-gəlinlərin çal-çağırı, oxuduqları nəğmələri göylərə bülənd olardı. Toponim ***şam*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Bu ***bulaq*** ilə bağlı əfsanə və ravayətlər də vardır...





## ŞEYİD DAŞI

Sirik kəndinin ərazisində, Birəli meşəsinin talasında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şeyid daşı*** adlanır. Bu, ***daş*** nişangahdan ibarətdir. Yerli məlumatlara görə bu *daş* ***Şəhid*** qəbridir. Oronimin tərkibindəki şeyid sözü ***"şəhid"*** anlamını ifadə edir. ***Şəhid*** - yüksək amal, əqidə uğrunda həlak olan, canını fəda edən adamdır. Ətrafda yaşayan camaat ***Şeyid daşı*** abidəsini əziz və müqəddəs tutur.

## ŞEYİDLƏR

Gəyən düzündə, Dağmaşanlı kəndi yaxınlığında qeydə alınan və ***7-8*** topa qəbirdən ibarət olan oroqrafik obyekt ***Şeyidlər*** adlanır. Sıx qəbirlər arasına əkmə daşlar düzülmüşdür. Qəbirlərin üzərində bitən qaratikan kolları daşları görünməz edibdir. Toponim əslində bir qədər təhrifə uğramışdır. Bu coğrafi ad ***Şeyidlər*** yox, ***Şəhidlər*** şəklində yazılmalıdır. Bu qəbirlərdə çox uzaq keçmişlərdə kafirlərə qarşı vuruşaraq şəhid olmuş mücahidlər dəfn olunmuşdur. ***Şəhid*** - yüksək məqsəd, amal, əqidə yolunda öz canını fəda edən, həlak olan, ölən adamlara verilən addır. Yerli camaat bu yeri çox əziz tutur...

## ŞEYTAN YERİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Şeytan yeri*** adlanır. Oronim ***şeytan*** və ***yer*** sözlərindən ibarətdir. Dini təsəvvürlərə görə şəri təmsil edən mövhumi varlığa şeytan deyirlər. Xalq arasında cin və iblisə də ***şeytan*** deyilir. Dini əfsanələrə görə, şeytan mələklərdən biri olub, guya Adəm peyğəmbərə səcdə etmədiyi üçün göydən yerə qovulmuş və o zamandan bəri insanları pis yollara çəkməyə çalışan bir varlıqdır. Azərbaycan Respublikasının ərazisində adında şeytan sözü iştirak edən onlarla toponim qeydə alınmışdır.

## ŞƏFLİ YERİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Şəfli yeri*** adlanır. Bu oronimin belə adlanması haqqında müxtəlif mülahizələr vardır. ***Şəfli yeri*** toponimi antroponimik oronimdir.

## ŞƏHƏRCİK

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış tarixi abidələrdən biri ***Şəhərcik*** adlanır. Bu oroqrafik obyekt şəhər sözündən və kiçiltmə mənasını ifadə edən ***-cik*** şəkilçisindən ibarətdir. ***Şəhərcik*** toponimi *"kiçik şəhər yeri", "balaca şəhər"* anlamındadır. Yerli məlumata görə, vaxtilə bu ərazidə yaşayış məntəqəsi mövcud olmuşdur.

Bu tipli coğrafi adlara digər rayonların ərazilərində də rast gəlirik...

## ŞƏHİD GÖL

Rayonun Horovlu kəndinin düz ortasında qeydə alınan hidronimlərdən biri ***Şəhid göl*** adlanırdı. Toponim ***şəhid*** və ***göl*** sözlərindən ibarətdir. Burada Böyük Vətən müharibəsində şəhid olanların xatirəsinə abidə ucaldılmışdır. Məhz bu səbəbdən də toponim belə ad almışdır.

## ŞƏHRƏBANU OCAĞI

Nüzgər kəndinin yaxınlığında qeydə alınmış oroqrafik obyektlərdən biri ***Şəhrəbanu ocağı*** adlanır. Toponimin tərkibindəki ***Şəhrəbanu*** sözü şəxs adıdır. Yerli əhali həmin ***ocağı*** müqəddəs tapınaq yeri, ziyarət hesab edirdi.

Azərbaycanda ***ocaq-pir kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** (***ocaqlar***) adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian,





islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Ocaq-pir*** adlarında antroponimin və ya etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir...

## ŞƏKƏRXATUN BULAĞI

Şəxs adları əsasında əmələ gələn antrohidronimlər Cəbrayıl rayonunun ərazisində də qeydə alınmışdır. Onlardan biri də ***Şəkərxatın bulağı*** adlanır. Hidronim ***Şəkər xatun*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Toponim *"Şəkər xatuna məxsus olan bulaq"* anlamını ifadə edir.

## ŞƏR DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində, Pirəsəd qışlağının baş hissəsində qeydə alınan oronim ***Şər dərəsi*** adlanır. ***Şər dərəsi*** həmin ərazidə sıralanan 3 dərədən birincisidir. Oronim ***şər*** sözündən, ***dərə*** coğrafi terminindən və ***-si*** mənsubluq bildirən şəkilçidən ibarətdir. ***Şər dərəsi*** oronimi orada bir neçə dəfə baş vermiş bədbəxt hadisə ilə əlaqədar olaraq belə ad almışdır. ***Şər*** komponentinin ərəbcə *"pislik, pis iş, fənalıq, yamanlıq"* mənaları vardır.

***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. İndiyə qədər Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində adının tərkibində ***dərə*** termini iştirak edən ***30 000*** oronim qeydə alınmışdır.

## ŞƏRBƏTALI OCAĞI

Dağtumas kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şərbətalı ocağı*** adlanır. Oronim Şərbətalı və ***ocaq*** sözlərindən ibarət olub, *"Şərbətalıya məxsus olan ocaq"* mənasındadır. Bu ***ocaq*** nəhəng gövdəsi olan ***dağdağan*** ağacından ibarətdir. Dağtumas kəndinin nüfuzlu

sakini olan və Hacı Qaramanın təmsilçisi hesab edilən Şərbətalı adlı bir mömin bu ağacın altında dini toplantılar keçirər, ustadından öyrəndiklərini burada əhaliyə öyrədərdi.

Məlumdur ki, Azərbaycanda ***ocaq, pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Ocaq*** və ya ***pir*** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

## ŞƏRƏF YAYLAĞI

Rayonun Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Şərəf yaylağı*** adlanır. Toponim ***Şərəf*** və ***yaylaq*** sözlərindən ibarətdir. ***Şərəf*** – adam adıdır. ***Şərəf yaylağı*** toponimi *"Şərəfə məxsus olan yaylaq", "Şərəfin yaylağı"* mənasındadır. ***Şərəf*** sözünün ərəb dilində *"insanın ictimai və şəxsi davranışında tutduğu mənavi-əxlaqi prinsiplərin məcmusu", "mənəvi yüksəklik, ululuq", "heysiyyat", "layaqət"* anlamları vardır.

***Yaylaqlar*** – mal-qaranın yay zamanı otarıldığı ərazi, yerdir. Azərbaycandakı yaylaqların əksəriyyəti dəniz səviyyəsindən ***2 800*** məetrə qədər yüksəklikdədir. Azərbaycanda təxminən ***6 000*** illik tarixi olan yaylaqlardan indi də geniş istifadə edilir.

## ŞƏRİF BULAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan hidronimlərdən biri ***Şərif bulağı*** adlanır. Hidronim ***Şərif*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Şərif*** – adam adıdır; şərif komponentinin mənası *"şərəfli, şərəf sahibi, əziz, müqqəddəs, mübarək"* deməkdir. Hidronimin tərkibindəki ***bulaq*** sözü isə





hidronimik apelyativdir. Toponim *"Şərifə məxsus olan bulaq"* anlamındadır. Bu tipli coğrafi adlara Azərbaycanın digər rayonlarının ərazilərində də rast gələ bilərik.

## ŞƏRİF TƏPƏSİ

Dağ Tumas kəndinin 6 kilometrliyində, Armudlu dərə ilə Şəvidli bərəyinin arasında, Pirim kahasının qarşısında qeydə alınan təpələrdən biri ***Şərif təpəsi*** adlanır. Oronim ***Şərif*** şəxs adından, ***təpə*** müsbət relyef forması bildirən coğrafi termindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Toponim *"Şərifə məxsus olan təpə", "Şərifin təpəsi"* mənasını ifadə edir. ***Təpə*** - relyefin müsbət formalarından olub, ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklikdir. Azərbaycan toponimiyasında ***təpə*** müsbət relyef forması bildirən coğrafi termininin iştirakı ilə çöl materialları arasında ***3500*** oronim toplanmışdır.

## ŞƏVİDLİ BƏRƏYİ

Dağ Tumas kəndinin 5 kilometrliyində, Tumas dağının cənubunda qeydə alınan oronimlərdən biri ***Şəvidli bərəyi*** adlanır. ***Şəvidli bərəyi*** sıra dağlar arasında ***şəvid*** ağacı ilə örtülmüş qaya keçidindən ibarətdir. Məhz elə bu səbəbdən də toponim belə ad almışdır.

## ŞƏYBƏY KƏNDİ

***Şəybəy kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 17 kilometr şərqdə, Quycaq inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Kəndin əhalisinin sayı 350 nəfərdir, Əhali əsasən taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət obyekti, kəhriz və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt edilmişdir.

***Şəybəy*** (bəzi sənədlərdə adı ***Şəybəq, Şeybəy*** kimi də qeyd olunmuş-

dur) yaşayış məntəqəsinin keçmiş adı ***Şəfibəyli*** olub. Yerli məlumata görə, ***Şəybəy*** yaşayış məntəqəsini vaxtilə Cənubi Azərbaycandan gəlmiş ***Şəfibəy*** adlı bir nəfər və onun ailə üzvləri, yaxınları burada bina etmişlər. Kənd sonralar Şəfibəyin oğlu ***Şəybəyin*** adı ilə belə adlanmışdır. XVIII əsrin ikinci yarısına aid olan tarixi sənədlərdə əsasən ***Şəybəy kəndi*** Xırdapara Dizaq mahalı tərkibində olmuşdur.

Belə bir məlumat da var ki, kənd vaxtilə Şeyda adlı bir bəyə məxsus olmuş və onun adı ilə də adlanmışdır. Görünür oykonim bir qədər təhrifə uğramış və sonralar ***Şəybəy*** formasına düşmüşdür. Toponim bu mənada *"Şeyda bəyin kəndi"* anlamına uyğun gəlir. Kənddə *Eynalbəy* ləqəbli, milliyyətcə osetin olan türkləşmiş bir nəfər də bəylik edib...

***Şey*** ərəb dilində *"əşya, predmet"*, şeyli sözü isə *"ağarmış saç-saqqal"*, *"qocalıq"* mənalarındadır.

## ŞIX ATA

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx Ata*** adlanır. Yerli camaat bu tarixi abidə yerini əziz tutardu. Toponim ***şıx (şeyx)*** və ***Ata*** sözlərindən ibarətdir. ***Şıx (şeyx)*** dini tituldur. ***Ata*** - türk sözüdür. Hər ağsaqqala ***Ata*** deyilməzdi. Bu ad ancaq böyük nüfuz və hörmət sahiblərinə verilərdi.

Deyirlər ki, kimin uşağı olmurdusa, gedib Şıx Ataya niyyət edərdi və gələn il onun uşağı olardı. Dağlarda yağış oynayanda ***3*** yerə bölünərmiş – birini ***Şıx Ata,*** birini *Gordu baba*, birini də *Hacı Qaraman* öz kövşənlərinə yağdırardılar. Deyilənlərə görə onlar yağışı belə bölüşərdilər.

## ŞIX BABA PİRİ

Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx baba piri*** adlanır. Xalq arasında ***Şıx baba*** (*bəzən adı* ***Şıxbaba*** *formasında da yazılır*) ***piri*** kimi tanınan bu abidə *ziyarətgah* kimi məşhur idi. Bu coğrafi ad ***şıx*** terminindən, ***baba*** sözündən və ***pir*** komponentindən ibarətdir. Coğrafi adın tərkibindəki ***şıx*** sözü bir qədər





təhrifə uğramışdır; əslində bu söz ***şeyx*** şəklində olmalıdır. Toponim *"Şeyx babaya məxsus olan pir"* mənasındadır.

Məlumdur ki, Azərbaycan ərazilərində ***pir-ocaq*** kultu, inanışı tarixin çox qədim qatlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Ocaq-pir*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən başqa dinlərin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponimin, etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənaları ifadə edir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi mövcuddur.

***Şıx baba piri*** abidəsinin daşı üzərindəki kitabədə ad olmasa da tarix yazılmışdır. Kitabənin üzərindəki ərəbcə olan mətnin tərcüməsi belədir: *"Pərəstiş edilən Rəcəb ayı, 707-ci il* (27.12. 1307 – 26. 01. 1308)". Başqa bir tərəfdə farsca yazılmış kitabənin tərcüməsi belədir: "Əbdürrəhman b. Şeyx Hüseyn b. vəfatı. Bildim ki, mənim taleyim mənim təbiətimdir, o da çox üzü dönükdür". Abidənin üz tərəfində ərəb dilində gözəl xətt ilə yazılmış mətnin tərcüməsi belədir: *"Bilik bulağından içdi. Bu qəbir Şeyx Qiyasəddinin oğlu, mərhəmətli şeyxzadə Şeyx Əbdülsəlamındır. İyirmi ramazan yeddi yüz əlli doqquzuncu il tarixdə 27 avqust 1358-ci ildə vəfat etmişdir"*. Bu tipli abidələrə Azərbaycanın digər ərazilərində də rast gəlmək mümkündür.

## ŞIX CAMAL PİRİ

Rayon ərazisində maraqlı coğrafi adlardan biri də ***Şıx Camal piri*** adlanır. Bu ***pir*** çox da böyük olmayan daş hasardan ibarətdir. ***Şıx Camal piri*** deyilən yer *"Nəqşibəndiyyə"* təriqətinin şeyxi Böyük Şıx Hacı Əli Çələbinin məşhur müridi ***Camal Əli*** oğlunun zikr yeridir. ***Camal Əli oğlu*** təriqət rəhbərliyinin dövrünün böyük övliyası Şıx Hacı Qadım Çələbiyə keçməsinə vasitəçilik etdiyindən o da müridlər arasında ***şıx (şeyx)*** ləqəbinə (*dini tituluna*) layiq görülənlərdən biri olmuşdur. Yerli məlumatlara

görə, ***Camal Əli oğlu*** XIX əsrin sonlarına yaxın bir qrup tumaslılar ilə Türkiyəyə köçmüşdür. Deyilənlərə görə hazırda Türkiyənin Adana və Malatya bölgələrində onun törəmələri yaşayırlar...

Azərbaycanda ***pir-ocaq kultu***, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır.

***Pir*** adlarında antroponimin, etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"müqəddəs"*, *"dini icmanın başçısı"* və s. mənalarına malikdir. Azərbaycanda ***pir*** sözü ilə bağlı yüzlərlə oronim və ***37*** yaşayış məntəqəsi vardır...

## ŞIX ÇİNARI

***Şıx cinarı*** Şükürbəyli kəndinin qəbiristanlığının günbatanında, eyniadlı dərənin ayağında yerləşir. Bu nəhəng ***çinar*** ağacının koğuşunun çevirməsi *5-6* metrdir. İnanclara görə imamlardan biri bu çinara öz atını bağlamışdır. Adətən bura gələn ziyarətçilər çinarın koğuşuna girib, niyyət edərək Allahdan dilək diləyirlər. Toponimin tərkibindəki ***şıx*** sözü *"şeyx"* mənasındadır. ***Şıx çinarı*** yerli əhali tərəfindən əziz tutulurdu.

## ŞIX ƏFƏNDİ NİŞANGAHI

***Şıx əfəndi nişangahı*** Mahmudcan düzünün ayağında qeydə alınmışdır. ***Nişangah*** daş çevirmədən ibarətdir. Çevirmənin yaxınlığında qaynayanbulaq da var. Bulağın adına ***Həmzə bulağı*** deyirlər. Yerli məlumata görə, bir zamanlar ***Şıx Əfəndi*** (*Seyid Nigari Mir Həmzə Mir Paşa Rükvəndi oğlu*) bu bulağın suyu ilə dəstəmaz almış, çevirmə yerində namaza durmuş və zikrə dalmışdır. Ona görə də ***nişangah*** onun adı ilə adlanmışdır.





## ŞIX ƏZƏDDİN OCAĞI

Cəbrayıl rayonu ərazisində, Çullu kəndindən Həkəri çayına enən yolun kənarında qeydə alınan coğrafi adlardan biri ***Şıx Əzəddin ocağı*** adlanır. Toponimin tərkibindəki ***şıx*** komponenti ***"şeyx"*** anlamını ifadə edir. Bu oroqrafik obyekt daş hasara alınmış bir qəbirdən ibarətdir. Bu qəbirdə yaşadığı dövrün böyük nüfuz sahibi, tanınmış mömin ***Şıx Əzəddin Əfəndi*** dəfn olunmuşdur. Qazanzəmi kəndinin camaatı Şıx Əzəddini özlərinin ulu babası hesab edirlər. ***Şıx Əzəddin ocağı*** sınanılmış, inanılmış bir ocaqdır. Bu ***ocaq*** ürək xəstəliyi (ürəkkeçməsi) olanlara , *cin toxunanlara* şəfa verməyi ilə məşhur olan bir ocaqdır.

## ŞIX İBRAHİM QƏBRİ

Rayonun Nüsüs və Sirik kəndləri arasında, Mahmudcan düzünün yuxarı başında, qədim qəbiristanlıq yerinin kənarında yerləşən qəbir ***Şıx İbrahim qəbri*** adlanır. Bu ***qəbir*** daş hərləməsi olan bir qəbirdir. Deyilənə görə burada dövrünün sayılıb-seçilən övliyalarından biri olmuş ***Şıx İbrahim*** adlı nüfuzlu ürfan sahibi dəfn olunmuşdur. Elə bu səbəbdən də oroqrafik obyekt belə adlandırılmışdır. Yerli camaat onun qəbrini əziz tuturdu...

## ŞIX KƏHRİZİ

Rayonun Horovlu kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Şıx kəhrizi*** adlanır. Hidronim şıx və ***kəhriz*** sözlərindən, eləcə də ***-i*** şəkilçisindən ibarətdir. Coğrafi adın tərkibindəki ***şıx*** komponenti ***şeyx*** sözünün təhrif edilmiş formasıdır. ***Şeyx*** sözü dini titul ifadə edir.

Məlumdur ki, ***kəhriz*** dedikdə qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğu nəzərdə tutulur. O, maili lağım şəbəkəsindən ibarət olur. *Kəhrizləri* adətən peşəkar kankanlar qazırlar. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım

da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhriz suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda ***kəhriz sistemi*** e. ə. I əsrdən mövcuddur. Müxtəlif tarixi sənədlərdə XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar öz əksini tapmışdır.

## ŞIX MUSTAFA TƏPƏSİ

Rayon ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Şıx Mustafa təpəsi*** adlanır. Oronim ***şıx*** komponentindən, ***Mustafa*** adından, ***təpə*** coğrafi terminindən və ***-si*** mənsubluq şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***şıx*** sözü ***şeyx*** dini titulunun təhrif edilmiş formasıdır.

***Şıx Mustafa təpəsi*** toponiminin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## ŞIX SƏDİ PİRİ

Cəbrayıl rayonunun ərazisində, Hacı İsmayıllı kəndinin qəbiristanlığındakı sahədə qeydə alınan oroqrafik obyektlərdən biri ***Şıx Sədi piri*** adlanır. Bu ***pir*** içi otlaq sahəsi olan daş hasardan ibarətdir. Məlumatlara görə keçmiş zamanlarda ***Şıx Sədi*** adlı bir övliya burada namaz qılmışdır. Burada dəfn olunubdursa da, qəbrinin izi qalmamışdır. Toponimin tərkibindəki ***şıx*** komponenti ***"şeyx"*** anlamını ifadə edir.

Məlumdur ki, Azərbaycanda ***ocaq, pir*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən pul-





tar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. Şıx Sədi piri də belə toponimlərdəndir. ***Ocaq*** və ya ***pir*** terminləri ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.

## ŞIX VƏLİYƏDDİNİN YUAT YERİ

Cəbrayıl rayonunun Dağtumas kəndinin sakini Rza Həsən oğlunun həyət evindən 60 metr gündoğanda, bir-birinə söykəkli iki qaya parçasının arxasında kiçik ölçülü çəmənli, otlu sahə ***Şıx Vəliyəddinin yuat yeri*** adlanır. Yerli məlumata görə, XVI əsrin axırlarında Şıxlar kəndindən Dağ Tumasa köçən Şıxbaba övladı ***Şıx Vəliyyəddin*** haqq dünyasına qovuşanda onun meyiti burada yuyularaq kəfənlənmişdir. Sonra onun cənazəsi ata-baba yurdu olan Şıxlar kəndinə aparalaraq Şıxbaba məzarlığında torpağa tapşırılmışdır. Həmin zamandan el arasında həmin sahə ***Şıx Vəliyəddinin yuat yeri*** kimi adlandırılmışdır.

## ŞIXALIAĞALI KƏNDİ

***Şıxalıağalı kəndi*** Cəbrayıl rayonunda. rayon mərkəzindən 17 kilometr cənub-şərqdə, Şükürbəyli inzibati ərazi vahidində, Mincivan-Horadiz şose və dəmir yolu kənarında, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı *1000* nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət-iaşə obyektləri və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən işğal edilmişdir.

***Şıxalıağalı*** yaşayış məntəqəsini ***Şıxalıağa*** adlı şəxs burada saldığı üçün kənd belə adlandırılmışdır. Hazırda kənddə *alıyarlı, abıqasımlı, həsənalıbəyli* nəsilləri ilə yanaşı, şıxalıağalı nəsli də mövcuddur. ***Şıxalıağalı*** yaşayış məntəqəsi XIX əsrin əvvəllərində Qarabağ xanı Mehdiqulu xanın Zəngəzurdan və ona qonşu olan ərazilərdən (əsasən, *indiki Zəngilan rayonu* ərazisindəki *Ağalı kəndindən*) köçürdüyü ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.

***Şıxalıağalı*** obasının *Bukavullu* adlı qolu da olmuşdur. XVIIIəsrə aid olan mənbəyə görə, Cəbrayıl elinin Şıxalıağalı ***obası*** (Bukavullu (*Səfəvi dövründə vəzifə adı ilə bağlı işlənən söz*) tirəsi) keçmişdə İbiz adlanan torpaqda məskunlaşmışdır.

Bəzi araşdırıcılar oykonimi ***3*** komponentdə izah edir: ***şıx+Alı+ağa.*** Burada şəxs adı (***Alı***) şeyx sözü ilə birləşmişdir. Oykonimin tərkibindəki ***-lı*** şəkilçisi mənsubluq bildirir.

1823-cü ildəki siyahıyaalınma sənədinə görə (*siyahıya alan senator Mogilyevski, polkovnik Yermolov*) kənddə ***16*** ev olmuşdur.

## ŞIXI KƏHRİZİ

Cəbrayıl rayonunun Horovlu kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Şıxı kəhrizi*** adlanır. Hidronim şıx sözündən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. ***Şıx*** komponentii ***şeyx*** sözünün təhrif olunmuş formasıdır.

***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

## ŞIXLAR KƏNDİ

***Şıxlar kəndi*** Cəbrayıl rayonunda, Qarabağ silsiləsinin ətəyində, Sirik inzibati ərazi vahidində, rayon mərkəzindən 36 kilometr şimal-qərbdə, dağətəyi ərazidə yerləşir. Əhalisinin sayı 230 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olurdu. Kənddə və kəndin





yaxınlığında əsas məktəb, kitabxana, *İmanqazan təpələri* adlanan Tunc dövrü arxeoloji abidəsi, *Orta* əsrlər şəhərgah (*şəhərcə) abidəsi*, tarixi memarlıq abidələrindən XIV əsrə aid *Dairəvi* Şıx *Baba (*Şıxlar*) türbəsi*, qədim dövrə aid *Qışlaq yerləri*, erkən orta əsrlərə aid *Xudafərin körpüsü* və s. vardı. Kəndin ərazisində Şəhərcik, İmanqazan təpələri, *Qışlaq yeri, Dilbərli* və s. adlı toponimlər qeydə alınmışdır. Bütün Arazbarda məşhur olan sadə peşə adamı (*bənna*) Üryan *Xıdır* bu kəndin ilk ***şeyxi*** olmuşdur. Yaşayış məntəqəsinin yaxınlığında təxminən 10 hektar sahəni əhatə edən şəhər xarabalığı və XIII - XIV əsrlərə aid olan Şıxlar (Şeyxlər) qəbiristanlığı mövcuddur. Kəndin yaxınlığındakı *Qışlaq yeri* və Şəhərcik adlanan yerdə eramızdan əvvələ aid qədim kənd və qala xarabalıqları aşkar olunmuşdur. Oradakı el arasında "*Dulusxana*" deyilən yerdən qədim rəsmlərlə bəzədilmiş çoxlu boyalı saxsı qab parçaları tapılmışdır.

1727-ci ildə Osmanlı dövləti tərəfindən Dizaq nahiyəsində yerləşən Şıxlar kəndinin vergi ödəyən əhalisi siyahıya alınmışdır. XIX əsrdə də - 1842, 1848, 1863, 1873, 1886-cı illərdə Şuşa qəzasının Vərəndə sahəsində yerləşən ***Şıxlar*** kəndinin əhalisi dövlət tərəfindən kameral siyahıya alınmışdır.

Kəndin keçmiş adı ***Şıxlar Əhmədli*** (*XIX əsr*) olub. ***Əhmədli oymağı*** daha çox tanındığından oba əhalisi sənədlərdə məhz bu ad ilə təqdim olunmuşdur. Yerli məlumata görə, ***Şıxlar*** kəndini ***Əhmədli*** elinə mənsub olan ailələr ***Şıxlar*** adlı ərazidə saldığı üçün yaşayış məntəqəsi belə adlanmışdır. Şıxlar yaşayış məntəqəsinin yaxınlığında təxminən 10 hektar sahəni əhatə edən şəhər xarabalığı və XIII - XIV əsrlərə aid türbələri olan ***Şıxlar*** *qəbiristanlığı* mövcuddur.

Cəbrayıl rayonundakı ***Şıxlar*** oykonimi şıx komponenti ilə ***-lar*** cəm şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. ***Şıx (şeyx)*** - dini titul bildirən termindir. ***Şeyx*** sözü ərəb dilində "*təriqət başçısı*", "*hər hansı bir təriqətə mənsub olub, orada ibadətlə məşğul olan*", "*dərvişlərə başçılıq edən şəxs*" mənalarını bildirir. ***Şıxlar*** türkmənşəli sözü ***"şeyxlər"*** mənasındadır. Əvvəllər elmli, savadlı adamlara ***şeyx (şıx)*** deyirdilər. Şıxlar toponimi *"şeyx nəslindən olanlar"* mənasındadır.

Bəzi tədqiqatçılar ***Şıxlar*** oykonimini Qazax tayfalarından biri kimi qeyd edir. Qazax və şıxlar nəsilləri *xəzər* əsillidirlər. Xəzər nəslinə mənsub olan *qazax* tayfasının şıxlar tirəsi Azərbaycana VIII əsrdə qıpçaqların

tərkibində gəlmişlər.

Yerli əhalinin dediklərinə görə, kənd və kəndin əsas nəsilləri öz başlanğıcını Şeyx Əmirdən götürür. ***Şeyx Əmir*** əvvəllər Yəsrib adlanan Mədinə şəhərinin yaxınlığında yaşamış Həzrəc qəbiləsindən (*bu qəbilə Ənsara bağlı idi*) olan nüfuzlu şəxsdir. Onun Abdulla adlı oğlu olmuşdur. Şeyx Abdullanın Cabir adlı oğlu var idi. Cabir 607-ci ildə Həzrəc qəbiləsində anadan olmuşdu. Ənsarların ilk müsəlmanlarından hesab edilən Cabir Həzrət Məhəmmədə, Həzrət Əliyə və Əhli-Beytə sadiq adamlardan olmuşdur. Onun soyu *Cabiri-Ənsari* adlanırdı. Tarixi sənədlərdən məlum olur ki, bu soydan bir neçə nəsil Qarabağın Dizaq nahiyəsində də yaşamışdır. Onların əsas məskən saldıqları kənd ***Şeyxlər (Şıxlar)*** adlanırdı. ***Şeyxlər kəndi*** sonralar Qarabağ ləhcəsinə uyğun olaraq Şıxlar adlandırılmış və belə də yazılmışdır. Bəzi tarixi mənbələrdən öyrənirik ki, ulu-u-duq şeyxlərdən olan Şeyx Hüseyn, onun oğlu Şeyx Əbdürrəhman, Şeyx Qiyasəddin, onun oğlu Şeyx Əbdüssəlam, Şeyx Məhyəddin, Şeyx Əkbər, Şeyx Kəmaləddin, onun oğlu Şeyx Siracəddin, Şeyx Vəliyəddin və başqa tanınmış böyük nüfuz sahibləri Şıxlar kəndində yaşamışlar. Bir sıra tarixi sənəd və materiallardan məlum olur ki, XIX əsrdə kəndin adı ***Şıxlar Əhmədli*** olmuşdur. Həmin dönəmlərdə *Əhmədli obası* daha çox tanındığından oba əhalisi bu adla sənədləşdirilirdi...

Tədqiqatçı-alim Rəmzi Yüzbaşov ***Şıxlar*** toponimini Qazax tayfalarından birinin adı kimi qeyd edir. Hazırda Azərbaycan Respublikasının Ağdam, Cəlilabad, Goranboy, Xaçmaz, Qax, Qaradağ, Sabirabad, Şamaxı və Yardımlı rayonlarında da ***Şıxlar kəndi*** var. İrəvan quberniyasının İrəvan qəzasında vaxtilə Şıxlar adlı kənd olub. Qədim türklərin, azərbaycanlıların yaşadıqları bu kənd 1968-ci ildə ermənilər tərəfindən *Lyusarat* adlandırılmışdır. 1988-ci ildə isə əhalisi Azərbaycana qovulmuşdur.

Gəncə quberniyasının Zəngəzur qəzasında da vaxtilə ***Şıxlar kəndi*** mövcud olmuşdur. Bu kənd 1590-cı ilə aid mənbədə Şeyxlər adlanmışdır. 1940-cı ildə kənd ***Qızıl Şəfəq*** adlandırılmışdır. 1918-ci ildə əhali buradan bir dəfə qovulmuş, 4 il sonra geri qayıdaraq yenidən orada məskunlaşmışdır. 1988-ci ilin payızında kəndin əhalisi məlum səbəblərlə əlaqədar ermənilər tərəfindən doğma yurd yerlərindən yenidən (*Azərbaycana*) qovulmuşlar...





## ŞIXLAR TÜRBƏSİ

***Şıxlar türbəsi*** Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində yerləşir. XIV əsrə aid olan bu qiymətli memarlıq abidəsi ***Şıxlar*** kəndində olduğuna görə bu ad ilə də adlanmışdır. ***Şıxlar*** sözü ***şıx*** terminindən və ***-lar*** cəm şəkilçisindən ibarətdir. ***Şıx*** termini ***şeyx*** sözünün təhrif olunmuş formasıdır. ***Şıxlar türbəsi*** 1993-cü ilədək – rayon işğal edilənə qədər yerli əhali tərəfindən əziz tutulurdu.

Azərbaycanda ***türbə*** dedikdə, dövrünün görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün dəfn olunandan sonra onların qəbri üzərində tikilən bina nəzərdə tutulur. Bəzən onun adına ***məqbərə*** də deyilir. ***Türbələr*** orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində geniş yayımışdı. Memarlıq quruluşuna görə orta əsr türbələri kubşəkilli, səkkizbucaqlı və qülləvarı olurdu. Günbəzlə örtülən kubşəkilli türbələrdə sənduqə döşəmə səviyyəsində, qülləvarı türbələrdə isə yeraltı sərdabada yerləşirdi. Türbələrin xarici səthləri memarlıq dekorları, ornament və kitabələrlə bəzədilirdi.

Azərbycan ərazisində ***Şıxlar türbəsi*** stilində olan tikililər çoxdur.

## ŞIR-ŞIR BULAĞI

Şükürbəyli kəndinin yaxınlığında qeydə alınan hidronimlərdən biri ***Şır-şır bulağı*** adlanır. Bir qaydada axan, tökülən sudan çıxan səsə ***şır-şır*** deyilir. Hidronim suyunun bir qədər hündürdən şırıltı ilə axıb töküldüyü üçün belə ad almışdır. Dağların sinəsindən çağlayaraq şırhaşırla, ***şırıltı*** ilə ötüb keçən ***Şır-şır*** bulağının suyu isti günlərdə susuzluqdan yanan adamlara xüsusi rahatlıq verərdi. Suyu sərin, şirin və xıltsız idi. Bu ***bulağa*** çoxlu şeirlər, əfsanələr qoşulmuşdur ki, onlardan da biri belədir:

***Şır-şır bulaq,*** *xoş bulaq,*
*Bulaqlardan baş bulaq.*
*Səndən bir qurtum içən*
*Olubdur dilxoş, bulaq.*

## ŞIRNAQ YERİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınmış oronimlərdən biri ***Şırnaq yeri*** adlanır. Toponim ***şırnaq*** və ***yer*** sözlərindən ibarətdir. Coğrafi adın tərkibindəki ***şırnaq*** sözü *"nazik su axını"*, *"fəvvarə"* anlamını ifadə edir. Bu tipli oronimlərə digər rayonların da ərazilərində rast gəlirik.

## ŞIRŞIRLI DƏRƏ

Çələbilər kəndinin günbatanında qeydə alınan oronim ***Şırşırlı dərə*** adlanır. Həmin dərədə ***şırıltı*** ilə axıb şırıltılı səs çıxaran bulağa görə toponim belə adlandırılmışdır. ***Dərə*** nisbətən dar, uzunsov, çökək formalı, adətən əyri-üyrü relyef formasıdır. Oronimin tərkibindəki ***dərə*** coğrafi termini mənfi relyef forması bildirir. Oronimiyada relyefin dar və çökək forması adətən ***dərə*** termini ilə ifadə edilir. *Dərə* termini toponimiyada həm tərkib hissəsi kimi (*Ağdərə, Sarıdərə* və s.), həm də nomenklatur termin (*Quruçay dərəsi, Dəlidağ dərəsi*) kimi işlənir. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***dərə*** termini ilə bağlı ***30 000*** oronim qeydə alınmışdır.

## ŞİRİNİN BAĞI

Dağ Tumas kəndinin ərazisində, İncə çayının sağ tərəfində, Hav yeri ilə üzbəüz sahədə qeydə alınan oronimlərdən biri ***Şirinin bağı*** adlanır. Bu kiçik ***bağ*** sahəsində müxtəlif meyvə ağacları, böyürtkən kolları və s. vardı. Toponim ***Şirin*** şəxs adından və ***bağ*** sözündən, eləcə də ***-ı*** şəkilçisindən ibarətdir. ***Bağ*** onun qurucusu və sahibi olan Şirin adlı şəxsin adı ilə əlaqədardır. Bu tipli toponimlərə Azərbaycanın digər rayonlarının ərazilərində də rast gəlmək mümkündür.





## ŞİRVAN BULAĞI

Rayonun Xələfli kəndinin ərazisində yerləşən hidronimlərdən biri ***Şirvan bulağı*** adlanır. Hidronim ***Şirvan*** sözündən və ***bulaq*** apelyativindən ibarətdir. Şirvan adını müxtəlif məna çalarları ilə izah edirlər.

Əlavə məlumat üçün bax: **Şirvan qəbiristanlığı.**

## ŞİRVAN QƏBİRİSTANLIĞI

Xələfli kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şirvan qəbiristanlığı*** adlanır. Yerli məlumata görə, bu ***qəbiristanlıqda*** Azərbaycanın Şirvan bölgəsindən olan adamlar dəfn olunduğuna görə bu coğrafi ad belə adlandırılmışdır. Respublikamızın ərazisində adının tərkibində ***Şirvan*** sözü iştirak edən xeyli sayda toponim vardır.

***Şirvan*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur. VII əsrə aid olan tarixi-coğrafi mənbədə Qafqaz Albaniyasında yaşayan *xəzər, alan, naxçimatyan, hun, hel, ijamax, bakan, maskut* və başqa tayfalarla yanaşı şirvanların da adı çəkilir. Çox güman ki, həmin mənbədə qeyd olunan ***şirvanlar*** əhalinin qan qohumluğuna əsaslanan etnik birliyinə yox, ərazi birliyinə verilən addır.

Tədqiqatçıların fikrincə, ***Şirvan*** toponimi ***şir (şar)*** tayfasının adı ilə əlaqədardır. Toponimin sonundakı ***van*** komponenti isə məkan ifadə edən sonluqdur. Xalq etimologiyasına görə ***Şirvan*** toponimi *"şirlər diyarı"* anlamındadır. Bəzi araşdırıcılar toponimi Sasani hökmdarı ***Ənuşirəvanın*** adı ilə bağlayırlar.

Bir fikir də vardır ki, tarixən ***Şirvan*** adlanan böyük bir ərazidə 50-dən artıq şor gölün qeydə alınması faktı ***Şirvan*** toponiminin "şor göllər" anlamında izahına əsas verir. ***Şirvan*** əhalisi indinin özündə də şoranlaşmış sahələrə ***şirə*** deyir.

***Şirvan*** adı mənbələrdə Sasanilər dövründən etibarən çəkilir. Amma bu da var ki, ***Şirvan*** adına ərəb mənbələrində ***Şirvan***, fars mənbələrində ***Şervan***, Suriya mənbələrində ***Sirvan***, Parfiya dövrünə aid Zərdüşt məbədinin kitabəsində ***Siran*** və ya ***Sauran*** variantlarında təsadüf edilməsi ***Şirvan*** adının Sasanilərdən çox əvvəllər mövcud olduğundan xəbər verir...

## ŞİŞ QAYA

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Şiş qaya*** adlanır. Oronim ***şiş*** (*"iti, sivri"*) və ***qaya*** sözlərindən ibarətdir. Şiş termini oronimlərdə təpənin (*dağın*) zirvəsi, ən yüksək nöqtəsi, pik mənasındadır. Azərbaycan Respublikasının oronimiyasında ***şiş*** müsbət relyef forması bildirən coğrafi termini ilə bağlı çöl materialları içərisində ***100*** oroqrafik obyekt qeydə alınmışdır.

Toponimin tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Adətən sıra dağlardan ayrılmış qola və ya dağların müəyyən hissəsində çətin keçilən yerə ***qaya*** deyirlər. Respublikamız ərazisində çöl materialları içərisində adının tərkibində ***qaya*** termini iştirak edən ***3 000*** oronim qeydə alınmışdır.

Azərbaycan ərazisində - Qubadlı rayonunun Əliquluuşağı kəndi yaxınlığında, Daşkəsən rayonunun Qabaqtəpə kəndi yaxınlığında, Kəlbəcər rayonunun Yellicə kəndi yaxınlığında, Gədəbəy rayonunun Böyük Qaramurad kəndi yaxınlığında, Şəmkir rayonunun Qaraqocalı kəndi yaxınlığında, Şuşa rayonunun Malıbəyli kəndi yaxınlığında, Göygöl rayonunun Danyer kəndi yaxınlığında, Tovuz rayonunun Hacıalılı kəndi yaxınlığında və digər yerlərdə də ***Şiş qaya*** adına rast gəlirik.

## ŞOR BULAQ

Tumaslı dağının yaxınlığında, şor dərədə, dağətəyi ərazidə qeydə alınan coğrafi adlardan biri ***Şor bulaq*** adlanır. Deyilənə görə, bulağın adı ***Şor bulaq*** olsa da, suyu duzlu yox, şirindir. Hidronim ***şor*** və ***bulaq*** sözlərindən ibarətdir. ***Bulaq*** hidronimik apelyativinin iştirakı ilə Azərbaycan Respublikasının ərazilərində yüzlərlə coğrafi ad qeydə alınmışdır.

***Şor bulaq*** adlı hidronimlərin belə adlanması onların suyunun əsasən duzlu, şor olması ilə bağlıdır.





## ŞORAKƏT DÜZÜ

Nüzgər kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri ***Şorakət düzü*** adlanır. ***Şorakət (şoran)*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. ***Şoran*** komponenti *"duzlu"*, *"duz hopmuş"* anlamını ifadə edir.

Toponimin tərkibindəki ***düz*** coğrafi termini mənfi relyef forması bildirir. Azərbaycan Respublikasının ərazisinin təxminən ***33*** %-ini düzənliklər təşkil edir. Respublika ərazisində çöl materialları içərisində adında ***düz*** (*düzənlik*) termini iştirak edən ***11 000*** oroqrafik obyekt qeydə alınmışdır.

## ŞÜKÜR DƏRƏSİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan coğrafi adlardan biri də ***Şükür dərəsi*** oronimidir. Oronim ***Şükür*** şəxs adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və ***-si*** mənsubiyyət şəkilçisindən ibarət olub, *"Şükürə məxsus olan dərə"* mənasındadır. Ərəb dilində ***şükür*** sözü *"edilən yaxşılığa qarşı minnətdarlıq, təşəkkür, razılıq ifadəsi"* anlamını bildirir.

***Dərə*** termini oronimiyada relyefin dar və çökək formasını ifadə edir. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***dərə*** komponenti olan ***30 000*** oronim qeydə alınmışdır.

## ŞÜKÜR OCAĞI PİRİ

Rayonun Çərəkən kəndinin ərazisində qeydə alınan ***Şükür ocağı piri*** coğrafi adı Çərəkən kənd sakini olmuş ***Molla Şükür*** adlı nüfuzlu bir şəxsin adı ilə bağlıdır. Bu sınanılmış ***pir-ocaq*** onun həyat ocağı hesab olunur. Papı, Çərəkən və Horovlu kəndlərinin camaatı bu pirə daha çox iman, inanc gətirərdilər. Bu ocağa ziyarətə gələnlər dəstə-dəstə əvvəlcə Molla Şükürün həyətyanı sahəsindəki qoz-fındığın dibində sərinləyər, sonra isə növbə ilə ocaqdan diləklərini edərdilər.

## ŞÜKÜRBƏYLİ KƏNDİ

***Şükürbəyli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 16 kilometr cənub-şərqdə, Şükürbəylı inzibati ərazi vahidində, Araz çayının sahili yaxınlığında, Mincivan-Horadiz şose və dəmir yolları kənarında, Ziyarət dağının ətəklərində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 850 nəfərdir. Taxılçılıq, üzümçülük, heyvandarlıq, maldarlıq kənd əhalisinin əsas məşğuliyyəti sayılırdı. Kənddə orta məktəb, mədəniyyət evi, klub, kitabxana, uşaq bağçası, xəstəxana, rabitə qovşağı, baytarlıq laboratoriyası, şərab emalı zavodu, musiqi məktəbi, təlim-tədris kombinatı, sürücülük məktəbi, yanacaqdoldurma stansiyası, müxtəlif ticarət-iaşə obyektləri və s. vardı. Kəndin *qaraçorlular, dırcılar (Babayevlər, Fərzəliyevlər, Məmmədovlar), babaşlılar (Babaşovlar, Səfərovlar), Sədəflilər (Əsədovlar, Həmzəyevlər, Həsənovlar, Hacıyevlər), Yalobalılar (Vəliyevlər, İsayevlər, Məmmədovlar)* və digər tayfa və nəsilləri var. Kənddə *Babaşlı, Dırcı, Sədəfli, Yal oba, Seyidli, Qaraçorlu* adlı məhəllələr olmuşdur. Kəndin ərazisində *Əmiraslan tapı, Əhməd bulağı, Araz vadisi, Sarıyal, Torağay dağı, Dalaq daşı, Şəkər dərəsi, Şam bulağı, Şam sahələri, Şır-şır bulağı, Çaltik yeri, Tələbə yeri, Xan çinar, Şıx çinarı, Divanə-Maqsud ocağı, Pir* və s. coğrafi adlar qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdur.

***Şükürbəyli*** yaşayış məntəqəsini ***Şükür bəy*** adlı şəxs saldığına görə kənd də onun adı ilə adlandırılmışdır. ***Şükür bəy Hümbətalı bəy oğlu*** XIX əsrin birinci yarısında yaşamışdır. Onun geniş otlaq sahələri ilə yanaşı, bir neçə kəndi də olmuşdur. Şükür bəyin oturduğu iqamətgah şəriksiz yiyəsi olduğu və onun adı ilə adlandırılan ***Şükürbəyli kəndi*** idi. Şükürbəyli kəndi və onun sağ tərəfində yerləşən *Sayaq* adlı geniş sahələr Şükür bəyin ixtiyarında idi. Bəzi məlumatlara görə, ***şükürbəylilər*** Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşirin nəslinə bağlandıqları üçün onları ***Sarıcalı*** elinin bir qolu hesab edirlər. ***Şükürbəyli*** oykonimi "Şükürbəyin *nəsli yaşayan kənd,* şükürbəylilər" mənasını bildirir. XVIII əsrə aid olan mənbələrə görə, Cəbrayıl elinin ***Şükürbəyli obası*** Sayaq (*Sayax*) 1823-cü il siyahıyaalınmasına görə (*siyahıya alan senator Mogilyevski, polkovnik Yermolov*) Şükürbəyli ***kəndi*** cəmi **35** evdən ibarət olmuşdur.

***Şükürbəyli*** sözü ***şükür*** və ***bəy*** (***bey, boq***) komponentlərindən, eləcə





də ***-li*** şəkilçisindən ibarət olub, *"Tanrıya şükür edən"*, *"Allaha dua edən"* anlamlarını ifadə edir.

Füzuli və Cəlilabad rayonlarında da ***Şükürbəyli kəndi*** var. Füzuli rayonundakı ***Xədicəxanım*** adlanan ***Şükürbəyli kəndi*** nəsil, şəcərə baxımından Cəbrayıl rayonundakı ***Şükürbəyli kəndi*** ilə əlaqədardır...

## ŞÜKÜRBƏYLİ TƏPƏSİ

Cəbrayıl rayonunun Şükürbəyli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Şükürbəyli təpəsi*** adlanır. Oronim yaxınlıqda yerləşən ***Şükürbəyli*** kəndinin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim ***təpə*** terminindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. Məlumdur ki, ***təpə*** termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə bağlı təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.

## ŞÜKÜRÜN MEŞƏSİ

Rayonun Xələfli kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də ***Şükürün meşəsi*** adlanır. Oronim ***Şükür*** şəxs adından və ***meşə*** sözündən ibarətdir. Yerli məlumata görə, ***Şükür*** adlı adam həm burada çoxlu sayda ağac əkən, həm də bu meşəni qoruyan bir şəxs olmuşdur. Elə bu səbəbdən də meşəyə də el arasında Şükürün meşəsi adı verilmişdir. Toponim *"Şükürə məxsus olan meşə"* mənasındadır.

## ŞÜKÜRVURULAN YER

Dağ Tumas kəndindən Cəbrayıl şəhərinə gedən yolun kənarında, yolun İncə çayını keçən birinci aşırımında, Yastı ardıcdan yuxarı gəzin gündoğanında qeydə alınan oronim ***Şükürvurulan yer*** adlanır. Bu ərazi əsasən qalın kollu dərədən ibarətdir. ***Şükürvurulan yer*** öz adını 1918-ci

ildə çapovulçularla, daşnak erməni terrorçuları ilə atışmada burada həlak olan ***Aşıq Şükürün vurulması*** (*qətlə yetirilməsi*) ilə əlaqədar almışdır. ***Şükür Məhəmməd oğlu*** əslən Cəbrayıl rayonunun Qazanzəmi kəndindəndir. Bu tipli coğrafi adlara respublikamızın digər rayonlarının ərazilərində də rast gəlirik...





## "T"

### TAĞI YATAQ DAĞI

***Tağı yataq dağı*** oronimi Cəbrayıl rayonu ərazisində qeydə alınmış maraqlı coğrafi adlardandır. ***Dağ*** müsbət relyef forması bildirən coğrafi termindir. ***Yataq*** termini ilə yaranan oronimlərin sayı respublikamızda ***400***-ə yaxındır.

### TAHİR BULAĞI

Şəxs adlarının əsasında əmələ gələn antrhidronimlərə Cəbrayıl rayonunun ərazisində də rast gəlirik. Onlardan biri də ***Tahir bulağı*** adlanır. Bu bulağın dumduru, şəffaf, soyuq suyu vardır. Hidronim ***Tahir*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Tahir*** sözü ərəb dilində "*təmiz, pak*" deməkdir. ***Tahir*** adlı şəxs ***bulağı*** üzə çıxaran adamın adıdır. ***Tahir bulağı*** hidronimi "*Tahirə məxsus olan bulaq*" mənasındadır.

### TANRIVERDİ BULAĞI

Bəzi antroponimlər vardır ki, onlar şəxs adları əsasında əmələ gəlmişdir. ***Tanrıverdi bulağı*** antrohidronimi də belə antroponimlərdəndir. Hidronim ***Tanrıverdi*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Tanrıverdi bulağının göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır. Bu coğrafi ad ***bulağı*** üzə çıxaran adamın adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim "*Tanrıverdiyə məxsus olan bulaq*" mənasındadır.

### TAPAN YERİ

Cəbrayıl rayonu ərazisində, Şahvəlili kəndi ərazisində qeydə alınmış oronim ***Tapan yeri*** adlanır. ***Topan*** sözünün Azərbaycan dilində müxtəlif məna çalarları vardır: "*hasar*", "*yoxuş*", "'*dağ* çökəkliyi", "*dağ aşırımı*", "'*ha-*

*mar, düz yer", "dağ dibi", "tələ", "qoyun saxlamaq üçün ətrafı qamışla, yaxud ağac şaxları ilə hasarlanmış üstü açıq yer", "ağıl", "qaradamın* üstünün *torpağını bərkitmək"*, eləcə də, *"əkinin iri kəsəklərini əzmək üçün istifadə edilən xüsusi alət - mala"* və s. ***Tapan*** toponimi ***tap*** və ***an*** sözlərindən əmələ gəlmişdir. Bu toponimin tərkibindəki ***an*** komponenti *"məkan, yer"* anlamını ifadə edir.

Türk mənşəli qədim ***tap*** sözünün dilimizdə *"su çıxmayan yer", "dağ üstündə düzənlik", "dağ ətəyində düzənlik", "təpə", "yüksəklik", "düzən yerdə yüksəklik"* və s. anlamları da vardır. ***Tap*** sözü toponimiyada coğrafi ad düzəldən nomenklatur bir termin kimi iştirak edir. ***Tap*** termini toponimyaradıcı formantdır. O, *"arabalardan möhkəmləndirilmiş yer"* mənasını da verir. Cəbrayıl rayonu ərazisində ***Teyfə tapı*** (Şəybəy kəndi), Çələbiəkən tap, ***Xanımağa qaçan tap*** (Papı kəndi), ***Əkərək tapı*** (Niyazqulular kəndi), ***Keçəl Məmmədli tapı*** (Göyərçin Veysəlli kəndi) də ***tap*** termini ilə bağlı xeyli oronim qeydə alınmışdır.

***Tapan yeri*** toponiminin təkibindəki ***tapan*** komponentini ***tapı*** torpaq sahibliyi rəsmi sənədi ilə də izah etmək istəyənlər var. ***Tap/tapı/tapu*** türk mənşəli sözdür. Orta əsrlər dönəmində İstambulda varlı adamlara torpaq sahibi olmaq üçün verilən rəsmi sənədə ***tapı (tapu)*** deyilmişdir. Hazırda bu sənədlər eksponat kimi Türkiyə və bəzi Balkan ölkələrinin muzeylərində qalmaqdadır. ***Tapan*** coğrafi termininin *"daban", "dib", "ətək" (dağ, qaya, təpə), "hamar yer", "dik", "yamacda balaca düzənlik"* və s. anlamları da məlumdur. ***Tapan*** sözünün *"müxtəlif hörgülərdə hissələri bir-birinə bənd etmək üçün qurşaq", "qırı, asfaltı, torpağı döyəcləyib bərkitmək və hamarlamaq üçün ortasına dəstə vurulmuş qalın taxta parçasından ibarət alət", "döyəc"* anlamları da vardır.

Türk mənşəli ***tap*** (*"dağ yamacındakı azsahəli düzənlik"*) sözü ilə bağlı Azərbaycanda çoxlu coğrafi adlar qeydə alınmışdır. Bu tip coğrafi adlara Qubadlı rayonunun Zilanlı və Mollu kəndləri yaxınlığında *Tapan dərəsini*, Laçın rayonunun Birinci Tığıq kəndi ərazisində *Tapanlı təpə dağını*, Daşkəsən rayonundakı *Tapan kəndini*, Goranboy rayonundakı *Tap-Qaraqoyunlu kəndini* və başqalarını nümunə göstərmək olar.

Vaxtilə İrəvan əyalətinin Qapanat nahiyəsində *Tap kəndi*, Aralıq nahiyəsində *Taptan kəndi*, Aleksandropol qəzasında *Tapanlı kəndi*, Zəngəzur qəzasında *Tap dərəsi* oronimi və s. coğrafi adlar da mövcud olmuşdur...





## TAPANÇA YERİ

Dağ Tumas kəndinin 6 kilometrliyində, Kolluğun Arpa yerinə birləşən hissəsində, dağətəyi ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Tapança yeri*** adlanır. Oronim ***tapança*** və ***yer*** sözlərindən ibarətdir. Bu ***yer*** zahiri görünüş etibarı ilə ***tapança*** silahına bənzədiyi üçün belə adlandırılmışdır. ***Tapança*** *"müxtəlif sistemli odlu kiçik əl silahı"* anlamındadır.

## TATAR ÇAYI

Cəbrayıl rayonunun ərazisində, Tatar kəndinin yaxınlığında qeydə alınan hidronim ***Tatar çayı*** adlanır. Bu bulağın dumduru və soyuq suyu vardır. Hidronim ***tatar*** tayfa adından və çay sözündən əmələ gəlmişdir. Toponim *"tatarlara məxsus olan çay"* anlamındadır. Tarixdən məlumdur ki, XIII – XIV əsrlərdə Qızıl Orda dövlətini təşkil edən müxtəlif türk, monqol və s. tayfaların adı ***tatar*** adlanmışdır. Hazırda Volqaboyunda, Sibirdə və s.-də yaşayan türkdilli bəzi kiçik xalqların adı ***tatar*** adlanır.

Əlavə məlumat üçün bax: **Tatar dərəsi, Tatar düzü, Tatar kəndi.**

## TATAR DƏRƏSİ, TATAR DÜZÜ

***Tatar dərəsi*** oronimi Cəbrayıl rayonunun Kürdlər kəndində, ***Tatar düzü*** oroqrafik obyekti isə rayonun Nüsüs (*Nüsnüs*) kəndində qeydə alınmışdır. Oronimiyada ***dərə*** və ***düz*** coğrafi terminləri mənfi relyef formaları ifadə edir. Tarixdən məlumdur ki, artıq XII-XIII əsrlərdə Azərbaycanda məskunlaşmış türkmənşəli tayfalar içərisində ***tatarlar*** da vardır. ***Tatar*** etnonimi ilə bağlı respublikamızda çoxlu oronimlər qeydə alınıb, Orxan-Yenisey yazılı abidələrində də tatarların adı çəkilmişdir.

XIII əsrdə monqolların işğallarında ***tatar tayfası*** da iştirak etmişdir. Həmin dönəmdə yaşamış Monqol tarixinin tədqiqatçısı Fəzlullah Rəşiddəddin monqol yürüşlərində türkdilli tayfaların iştirakından danışarkən ***tatar*** tayfasının da adını çəkmişdir. Mənbələrdən məlum olur ki, Hülakülər zamanında, 7 əsr bundan əvvəl, Azərbaycana köçürülən qəbilələr

arasında Moğol nəslindən olan ***tatarlar*** da var idi.

***Tatar*** etnonimi ilk dəfə VI - IX əsrlərdə Baykal gölündən cənub-şərqdə köçəri həyat sürən monqol tayfaları arasında meydana gəlmişdir. Monqolların zühuruna qədər monqolca danışan bütün qövmlərə (*həm də türklər və* çinlilər *tərəfindən*) ***tatar*** deyilirmiş...

Tatarların dindarları müsəlmandır. XVI - XIX əsrlər rus mənbələrində bir çox türkdilli xalqlara və Rusiyanın ucqarlarında yaşayan bir sıra tayfalara da ***tatar*** deyilirdi. XV - XVI əsrlərdə onların bir neçə feodal dövlətləri də (*Kazan, Həştərxan, Krım, Sibir* və s. xanlıqları) yarandı. XX əsrin əvvəllərində Qafqazda tatarlarla bağlı ***14*** toponim qeydə alınmışdır. Keçmiş SSRİ-də tatarların sayı təxminən ***7*** milyondan çox idi. Hazırda Türkiyə və İranda ***20*** mindən çox ***tatar*** yaşayır.

Azərbaycan xalqının etnogenezində iştirak etmiş tatarların sayı indinin özündə respublikamızda ***30*** mindən çoxdur. ***Tatarlar*** bu gün monqolca danışan qövmün əcdadlarındandır. ***30*** boy halında (*VII* əsr) olan tatarlardan doqquzu siyasi birlik təşkil edirmiş...

Qubadlı və Cəbrayıl rayonlarında *Tatar kəndi*, Şəmkir rayonunda *Tatar* çayı, *Tatarlı kəndi*, Neftçala rayonunda *Tatarməhlə kəndi*, Salyan rayonunda *Tatarməhəllə kəndi*, Abşeron yarımadasında *Tatargöl*, Laçın rayonunda *Tatarlılar yaylağı*, *Tatar qaya* (Laçın rayonu, Haqnəzər kəndi), Zəngilan rayonunda *Tatar dərəsi* (Vejnəli kəndi) və başqa bu kimi toponimlər öz adlarında ***tatar*** etnoniminin adını əks etdirir. ***Tatar*** sözü - *"sınamaq", "yoxlamaq"* deməkdir. ***Tat*** sözü qədim türk dillərində *"oturaq", "əkinçi"* deməkdir. ***Tat*** sözünün *"başqa nəsil", "yad nəsil", "dağ adamı"* mənası verdiyini də söyləyənlər var. ***Tatar*** sözünün *"yad adam"* mənası verən ***tat*** və *"kişi", "adam"* mənası ifadə edən ***ar//er//***ər sözlərindən əmələ gəlməsi də ehtimal olunur.

Monqolların ***ta-ta*** adlı nəsli olması da məlumdur. Mahmud Qaşqari (XI əsr) öz əsərində ***tatar*** adını çəkir və qeyd edir ki, onlar indiki Qırğızıstana yaxın ərazidə yaşayıblar. V.A.Nikonov isə tatarları monqollarda olan ***ta-ta*** tayfası ilə əlaqələndirir. M.Baharlı da öz qeydlərində ***tatar*** etnonimi və ondan yaranmış etnonimlərdən bəhs etmişdir.

Cənubi Azərbaycanda da ***tatar*** türkmənşəli etnonimi ilə bağlı çox sayda toponimlər vardır.

Azərbaycanda, Qarabağ mahalında, Arazbar obalarında "***Tatar talanı***" adlı məşhur bir deyim var. " *- Bu nədi, ə, hər yeri soyub-soymalayıb tatar talanına döndərdiniz". "Tatar talanı"* ifadəsi bizə orta əsrlərdən yadigar qalmışdır.

Tatarlardan bəhs edən tədqiqatçılar onların 30 soydan ibarət olmaqlarını bildirirlər. ***Tatarlar*** Çingiz xanın qələbələrindən sonra onun ağalığını qəbul etdilər. Ərəb, fars və rum tarixçiləri İrana, Kiçik Asiyaya hücum edən Çingiz xan ordusunu "***tatarlar***" adlandırmışlar. Bu ulus tabe olan ölkələrdən bac-xərac, müqavimət göstərənlərdən isə öc almışlar.





## TATAR KƏNDİ

***Tatar kəndi*** Xələfli kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 8 km şimal-qərbdə yerləşir. Əhalisinin sayı 310 nəfərdir. Kənddə orta məktəb, kitabxana, klub və s. vardır. Qızılqaya dağındakı siklop tikintisi də Tatar kəndi yaxınlığında idi. Bu tikintilər e. ə. III minilliyin yadigarıdır. ***Tatar kəndi*** 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Tatar*** yaşayış məntəqəsi Əhmədli elinə məxsus olmuşdur. Əhmədli obasına ***tatarlar*** ilə birgə *gödəklilər*, şahvəlilər, *hacıisaqlılar, hacıismayıllılar, isaqlılar*, şıxlar və digər tirələr də daxil idi.

***Tatar*** kəndinin adı ***tatar-monqol*** mənşəli sözdən ibarətdir. Bu gün monqolca danışan qövmün əcdadlarından olan tatarlardan qədim tarixi abidələrdə, mənbələrdə bəzən ***oğuz-tatar*** kimi bəhs olunur. ***Tatar*** xalq adıdır. O, türk tayfalarındandır. Tarixdən məlumdur ki, XIII əsrdə monqolların hücumlarından sonra Azərbaycanda da bir neçə monqol ulusları yerləşdirilmişdir. Azərbaycan toponimiyasında rast gəldiyimiz ***Tatar*** sözü həmin dönəmlərdə monqolların yaşadıqları kəndlərə aid edilir. XIII əsrdə monqollara qarşı *tatarlar* da mübarizə aparmışlar. Tatarların vaxtilə oğuzlardan şərqdə onlara qonşu olaraq yaşadıqları da mənbələrdə bildirilir. Oğuzlarla tatarların həm *göytürklər*, həm də *uygurlar* dövründə birlikdə üsyanlar etmələri də bəllidir. ***Tatar*** adı monqollar zühur edənə qədər xüsusilə türklər və çinlilər tərəfindən monqolca danışan bütün qövmlər üçün ümumi ad kimi işlədilmişdir. ***Tatar*** adına Fəzlullah Rəşiddəddinin əsərlərində də rast gəlirik. Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Türkiyə, Rusiya və İran ərazilərində də ***Tatar***

adlı yaşayış məntəqələri vardır.

Vaxtilə Zəngəzur qəzasında (indiki *Qafan* rayonunda) da azərbaycanlıların yaşadıqları ***Tatar*** adlı kənd mövcud olmuşdur.

Əlavə məlumat üçün bax: **Tatar dərəsi, Tatar düzü.**

## TEJDƏR DAĞI

Cəbrayıl rayonu ərazisində qeydə alınan maraqlı oronimlərdən biri də ***Tejdər dağı*** oroqrafik obyektidir. Bu ***dağ*** öz adında əvvəllər burada mövcud olmuş ***Tejdər*** yaşayış məntəqəsinin adını daşıyır, ***Tejdər*** kəndinin xarabalığı hazırda da dağın ətəyində qalmaqdadır. Yerli məlumata görə, ***tejdər*** orada vaxtilə məskən salmış nəslin adıdır...

## TEY BULAĞI

Rayonun Sirik kəndi yaxınlığında qeydə alınan hidronim ***Tey bulağı*** adlanır Hidronim ***tey*** və ***bulaq*** sözlərindən əmələ gəlmişdir. Qədim türk mənşəli ***tey*** sözünün Azərbaycan dilinin dialektlərində *"uca", "hündür", "qılınc", "xəncər", "neştər", "kiçik dağ"* mənaları vardır. Bulağa belə ad onun zahiri formasına, yəni, hündürdə yerləşdiyinə və *qılınca* oxşamasına görə verilmişdir. Bəzi türk dillərində ***tey*** sözü *"təpə", "dağ"* anlamında da işlədilir. ***Tey*** komponentinin *"qatışığı olmayan", "xalis", "saf", "xəlitəsiz", "tamam", "bütün", "səlt"* mənaları da var.

Vaxtilə Zəngəzur qəzasında ***Tey*** adlı kənd də mövcud olub. ***Tey*** termininin qədim türk dillərində *"dağ vadisi", "dağ silsiləsi", "kiçik dağ", "təpə"* mənaları da məlumdur.

Əlavə məlumat üçün bax: **Tey dağı, Tey düzü, Teyfə tapı.**

## TEY DAĞI, TEY DÜZÜ, TEYFƏ TAPI

***Tey dağı*** (bəzən ***Tey dağ*** və ya ***Teydağ*** kimi də yazılır) - Cəbrayıl rayonu ərazisində, Sirik kəndi yaxınlığında qeydə alınmışdır. Qədim türk mənşəli ***Tey*** sözünün Azərbaycan dilinin dialektlərində *"uca", "hündür",*





*"qılınc", "xəncər", "neştər", "kiçik dağ"* mənaları vardır. Dağa belə ad onun zahiri formasına, yəni, *qılınca* oxşamasına görə verilmişdir.

Bəzi türk dillərində ***tey*** sözü *"təpə", "dağ"* anlamında da işlədilir. Vaxtilə Zəngəzur qəzasında ***Tey*** adlı kənd də mövcud olub. ***Tey*** termininin qədim türk dillərində *"dağ vadisi", "dağ silsiləsi", "kiçik dağ", "təpə"* mənaları da məlumdur. ***Teydağ*** toponimi *"təpə", "kiçik dağ"* mənasındadır.

***Tey düzü*** Cəbrayıl rayonunun Şıxlar kəndinin ərazisindədir. ***Düz*** coğrafi termini mənfi relyef forması bildirir. Azərbaycan Respublikasının ərazisinin təxminən ***33*** %-ini düzənliklər təşkil edir. Respublika ərazisində çöl materialları içərisində adında ***düz*** (*düzənlik*) termini iştirak edən ***11 000*** oroqrafik obyekt qeydə alınmışdır.

Cəbrayıl rayonunun Şəybəy kəndi ərazisində ***Teyfə tapı*** oronimi də qeydə alınmışdır. Müsbət relyef forması bildirən ***tap*** termini *"təpə", "düzən yerdə yüksəklik", "dağ döşündə düzənlik", "su çıxmayan düz yer", "dağ düzənliyi"* anlamındadır. Azərbaycan Respublikasının ərazisində ***tap*** coğrafi termini ilə əlaqədar ***500*** oronim qeydə alınışdır.

Azərbaycanda adında ***tey*** komponenti olan coğrafi adlar çoxdur. Xocavənd rayonunun Dolanlar kəndində *Tey dağ*, Laçın rayonunun Əhmədli kəndində *Tey düzü*, Sədərək rayonu ərazisində *Tey dərə*, Culfa rayonunun Teyvaz kəndinin ərazisində *Teytəpə* və başqa oronimlər də ***tey*** termini ilə əlaqədar yaranmışdır.

Vaxtilə Gəncə qubeniyasının (Yelizavetpol) Zəngəzur qəzasında (indiki Meğri rayonu) da ***Tey*** adlı kənd olmuşdur.

## TEYMUR QULİYEV KANALI

Rayon ərazisindəki suvarma kanallarından biri ***Teymur Quliyev kanalı*** adlanır. Bu suvarma kanalı işğala qədər (*1993-cü il*) rayonun kənd təsərrüfatının intensiv inkişafına xidmət edirdi. ***Kanal*** Cəbrayıl rayonundan çıxmış görkəmli ziyalı, Azərbaycan SSR Ali Sovetinin, Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifələrində çalışmış və 3 *"Lenin", "I dərəcəli Böyük Vətən müharibəsi"* və *"Qırmızı Əmək Bayrağı"* ordenləri ilə təltif edilmiş tanınmış dövlət xadimi ***Teymur İmamqulu oğlu Quliyevin*** adı ilə əlaqədardır.

## TƏHMƏZ DƏRƏSİ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Təhməz dərəsi*** adlanır. Bu coğrafi ad ***Təhməz*** sözündən, ***dərə*** mənfi relyef formasından və ***-si*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***Təhməz*** sözü şəxs adıdır. Toponim "*Təhməzə məxsus olan dərə*" anlamındadır. Bu tipli oronimlərə Azərbaycan ərazisində çox yerdə rast gəlmək olar.

## TƏKARDIC TƏPƏSİ

***Təkardıc təpəsi*** oronimi Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınmışdır. Aydındır ki, oronimləri səciyyəvi cəhətlərindən biri də onlarda say bildirən sözlərin geniş olmasıdır. Say bildirən sözlər əsas etibarı ilə oronimlərin birinci hissəsini təşkil edirlər. ***Tək*** say bildirən sözü ilə bağlı oronimiyamızda ***50*** oroqrafik obyekt qeydə alınmışdır. ***Təkardıc təpəsi*** oronimi həmin ***təpə*** ərazisində ***ardıc*** ağacının ***tək*** olmasını əks etdirir. Oronimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir.

## TƏKNUR

Rayonun əsrarəngiz gözəlliyə malik olan bir yerində, Qazanzəmi kəndinin şimal-şərq hissəsində, ***Təktüklü dağı*** ətəyində, konusvarı təpənin üzərində, meşəlik ərazidə qeydə alınan coğrafi ad ***Təknur*** adlanır. Adına bəzən ***Təktüklü*** də deyilir. Bu oroqrafik obyekt daş hasara alınmış qəbir yeridir. Qəbirin kimə məxsus olması məlum deyildir. Qəbrin üstündə ***ağcaqayın*** ağacı bitmişdir. Kənd camaatı hər il Novruz bayramını burada böyük qələbəliklə keçirər, qurbanlar kəsər, şənlik edərdilər. Keçirilən mərasimlərdə onlar Ulu Tanrıdan yeni ilin məhsuldar olmasını arzulayardılar. Bu toponim ilə bağlı müxtəlif rəvayətlər də uydurulmuşdur...

Qazanzəmi kənd sakini, vətənpərvər ziyalı biologiya üzrə fəlsəfə doktoru Ələkbər Məmmədovun təsis etdiyi "***Təknur***" nəşriyyatının adı da bu toponimdən götürülmüşdür. Nəşriyyatın istehsal etdiyi bütün çap məhsulları - kitablar, jurnallar və s. bu coğrafi adı bütün ölkədə tanıtmaqdadır.





## TƏKTÜKLÜ DAĞI

Cəbrayıl rayonunun Qazanzəmi kəndində ***tək*** sözünün iştirak etdiyi daha bir oronim - ***Təktüklü dağı*** coğrafi adı da qeydə alınmışdır. Bəzən sənədlərdə bu dağın adı ***Təknur*** kimi də yazılır. Oronimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan Respublikasının ərazisində toplanan oronimlərdən ***1350***-si dağ adıdır. Dağ adlarının çoxluğu Azərbaycanın ərazisinin ***65*** faizinin dağlıq və dağətəyi olması ilə bağlıdır. Maldar ellərin keçmişdə *dağ* yerlərində, yaylaq və qışlaqlarda müvəqqəti məskunlaşması ***dağ*** sözü ilə düzəlmiş çoxlu sayda toponimlərin yaranmasına gətirib çıxarmışdır. Yerli əhali bu toponim ilə bağlı müxtəlif əfsanələr qoşmuşdur...

## TƏLƏBƏ YERİ

Şükürbəyli kəndinin ərazisində qeydə alınan oronimlərdən biri ***Tələbə yeri*** adlanır. ***Tələbə yeri*** coğrafi adı burada tələbələrin, şagirdlərin vaxtilə pambıq yığımı zamanı kolxozçulara etdikləri köməklik, pambıq yığmaları ilə əlaqədar olaraq əmələ gəlmişdir. Yerli əhalinin dediklərinə görə, payız mövsümündə (*sentyabr, oktyabr, noyabr aylarında*) müxtəlif ali və orta ixtisas məktəblərinin ***tələbələri*** bu ***yerə*** pambıq yığmağa gələrdilər.

## TƏLƏQURULAN

***Tələqurulan*** coğrafi adı Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında qeydə alınmışdır. Toponim ***tələ*** və ***qurulan*** sözlərindən ibarətdir. Adından da göründüyü kimi, burada vaxtilə hansı isə bir hadisə ilə bağlı ***tələ*** qurulduğu üçün toponim belə ad almışdı. Bu tipli coğrafi adlara digər rayonların ərazilərində də rast gəlinir.

## TƏNDİRLİ BURUN

Bu oronim Cəbrayıl rayonunun Niyazqulular kəndi ərazisində qeydə alınmışdır. ***Burun*** – adətən qurunun, *"dağın, qayanın sivri bucaq* şəklində *uzanmış hissəsi"*nə deyilir. Qayanın sivri bucaq şəklində uzanmış hissəsi (*burnu*) ***təndirə*** bənzədiyi üçün oronim belə ad almışdır. Çörək yapmaq üçün gildən düzəldilən konusşəkilli, üstü kəsik, yerə qoyub ətrafı səki kimi tikilən və ya yerə basdırılan iri küreyə ***təndir*** deyirlər.

## TƏPƏGÖZ QALASI

Hovuslu kəndinin ərazisində, Qala dağınan baş hissəsində, Qarabağ silsiləsində qeydə alınan oroqrafik obyekt ***Təpəgöz qalası*** adlanır. *Təpəgöz qalası* maddi-mədəniyyət abidəsi kimi qədim dövrdən bu günümüzə qədər qalan qiymətli nişanələrdəndir. Oronim ***təpəgöz*** və ***qala*** sözlərindən, eləcə də ***-sı*** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Yerli əhali tərəfindən ***Təpəgöz qalası*** haqqında müxtəlif əfsanələr uydurulmuşdur. Biz ***təpəgöz*** adına əfsanəvi nağıllarda rast gəlirik.

## TƏZƏKƏND

(Bax: **Daş Maşanlı kəndi**)

## TİNLİ KƏHRİZİ

Cəbrayıl rayonunun Tinli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Tinli kəhrizi*** adlanır. Hidronim ***Tinli*** kənd adından və ***kəhriz*** hidronimik apelyetivindən ibarətdir. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. ***Kəhriz*** maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə





istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda *kəhriz sistemi* e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

## TİNLİ KƏNDİ

***Tinli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 22 kilometr cənub-qərbdə, Şahvəlili inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 450 nəfərdir. Kənddə *Heydərxanlılar* (*30 ev*), *Bəyişlilər* (*35 ev*), *Həsənlular*, *Hüsənlilər* tayfaları yaşamışlar. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri sayılırdı. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, kəhriz və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Yerli məlumata görə, toponim Qovşudlu kəndi ilə həmsərhəd olan dağın ***tini*** ilə əlaqədar belə ad almışdır. Bəzi tədqiqatçılar hesab edir ki, ***Tinli*** yaşayış məntəqəsi XIX əsrin axırlarında Cənubi Azərbaycanın ***Tin*** kəndindən köçüb gəlmiş ailələr tərəfindən salındığı üçün belə adlanmışdır. Bu kənddən köçüb gedən bəzi ailələr Qubadlı rayonunda ***Tinli*** adlı kənd də salmışlar.

Tarixdən ***Tinli*** (***tin***) adlı türk tayfası və tirəsi olması da məlumdur. Güman ki, toponim elə bu tayfanın adındandır. ***Tin*** sözünün ərəbcə *"palçıq, çamır"*, həm də *"əncir"* mənaları da var.

## TOP DAŞ

Dağ Tumas kəndindən 3 kilometr aralıda, kənd qəbiristanlığından Sarı yoxuşa aşan Qarağac yolunun solunda, dağətəyi ərazidə qeydə alınan oronimlərdən biri ***Top daş*** adlanır. Bu ərazidə yan-yana ***topa*** - üç bitili ***daş*** vardır. Elə bu səbəbdən də toponim belə adlandırılmışdır.

## TOPCAQ DÜZÜ

Cəbrayıl rayonu ərazisində, Göyərçin Veysəlli kəndi yaxınlığında qeydə alınan ***Topcaq düzü*** oroniminin birinci sözünün tərkibindəki ***-caq*** hissəciyi (şor *dilində*) dilimizdəki *"-**cuq**"* formasına uyğun gəlir. Məsələn: ***Sucaq - sucuq*** (*"sulu yer"*), ***Quycaq - Quyucuq*** (*"quyu yeri"*) və s. Bu mənada ***topcaq*** sözü *"top kimi dəyirmi yer"*, *"topa yer"* anlamındadır. ***Topcaq*** sözünü ***topçak*** etnonimi ilə də bağlayanlar var. Görünür nə zamanlarsa burada ***topçaq*** (***topcaq***) adlı tayfa da yaşamışdır.

V.Radlova görə, ***topcaq*** sözü *"qüvvətli, gözəl at"*, *"dairəvi, girdə, yumru"* mənasındadır. Q.Yappinq ***topcaq*** (***topçaq***) sözünü *"gözəl at, boylu-buxunlu at, topçaq at"* anlamı ilə izah edir. ***Topcaq düzü*** dedikdə *"yumru, dairəvi, şar şəkilli düz"* anlamı nəzərdə tutulur. Azərbaycanda adətən qurumuş torpaq parçası və ya kəsək ***topçak*** adlanır. Bəlkə də elə bu səbəbdən oronim belə ad almışdır.

***Düz*** coğrafi termini oronimiyada mənfi relyef forması ifadə edir. ***Düz*** və ***düzənlik*** coğrafi terminlərinin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində ***11 000*** oronim qeydə alınmışdır.

***Topcaq düzü*** Çaxmaqçayla İncəçayın konus çıxıntılarından əmələ gəlmişdir. Ərazidəki Kurqan çöküntüləri üçün iridənəli süxurlarda gillicələrin növbələşməsi və kəsilmiş gil-gips ilə tamamlanması səciyyəvidir. Düzün cənubunda bir sıra narındənəli çay qumu tirələri müşahidə olunur. Yaşlı nəsillərin dediklərinə görə, ***Topcaq düzü*** vaxtilə müharibələr meydanı olmuşdur...

## TOPURQULULUQ

Dağ Tumas dağından 5 kilometr aralıda, Səfər yerinin üstü adlı yer ilə Yel quyusu adlanan oroqrafik obyekt arasında, dağətəyi ərazidə qeydə alınan oronim ***Topurqululuq*** adlanır. Bu ərazidə çoxlu sayda ***topurqulu*** kolları vardır. Coğrafi ad ***topurqulu*** sözündən və ***-luq*** şəkilçisindən ibarətdir. Ərazidəki ***topurqulu*** kolluğunun çoxluğu ilə əlaqədar olaraq toponim belə adlandırılmışdır.





## TORAĞAY DAĞI, TORAĞAY TƏPƏSİ

Sərçəkimilər dəstəsindən quş fəsiləsi növü olan ***torağay*** adı ilə oronimiyamızda bir çox oroqrafik obyektlər qeydə alınmışdır. Bir çox tədqiqatçıların araşdırmalarına görə, bu toponim palçıq vukanının adı ilə əlaqədardır. Cəbrayıl rayonunun Şükürbəyli kəndi ərazisindəki ***Torağay təpəsi*** də belə oronimlərdəndir. Bəzən onun adına ***Torağay dağı*** da deyilir. ***Torağay*** əsasən səhralarda və çəmənliklərdə yaşayan sərçəkimilər dəstəsindən oxuyan quşdur. Toponimin tərkibindəki ***dağ*** və ***təpə*** sözləri müsbət relyef forması bildirən coğrafi termindir.

Ağcabədi, Biləsuvar, Qaradağ, Goranboy rayonlarında da ***Torağay təpəsi*** oronimi qeydə alınıb. Abşeron rayonunda *Torağay palçıq vulkanı*, Daşkəsən rayonunda *Torağay düzü*, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ağdərə rayonunda (Umudlu kəndi) *Torağay dərəsi*, Tərtər rayonu ərazisində *Torağay* çayı və başqa bu kimi toponimlər də öz adlarında ***torağay*** quşunun adını əks etdirir.

Toponimi ***turağay*** omonim yer adı ilə də əlaqələndirirlər...

## TOZARAN DÜZÜ

Cəbrayıl rayonunun Şıxlar kəndi ərazisində qeydə alınmış öronim ***Tozaran düzü*** adlanır. Oronimin tərkibindəki ***düz*** termini mənfi relyef forması bildirir. Oronimiyamızda ***düz*** və ***düzənlik*** sözləri həm ***düz***, həm də ***yazı*** formasında öz əksini tapmışdır. Respublikamızın ərazisinin *30* faizindən çoxu *düzənlik* sahə olduğundan adında ***düz*** və ya ***düzənlik*** termini iştirak edən oronimlər də çoxluq təşkil edir. Ərazidə ***düz*** sözü ilə əlaqədar çöl materialları içərisində toplanan coğrafi adların sayı ***11 000***-ə yaxındır. Toponimin tərkibindəki ***tozaran*** sözü ***toz*** və ***aran*** sözlərindən ibarətdir. ***Tozaran düzü*** ərazisində küləkli havalarda tez-tez *tozanaq* olduğu üçün oronim belə adlandırılmışdır. ***Aran*** sözü *"isti yer"*, *"aşağı yer"*, *"qışlaq yeri"* və s. mənalar ifadə edir. Oronim "*isti, tozlu* ərazi mənasındadır.

## TÖVƏRƏ KƏHRİZİ

Rayonun Çərəkən kəndi ərazisində qeydə alınan hidronimlərdən biri ***Tövərə kəhrizi*** adlanır. ***Tövərə kəhrizi*** 1926-cı ildə vurulmuşdur. Hidronim ***tövərə*** sözündən və ***kəhriz*** hidronimik apelyativindən ibarətdir. Toponimin tərkibindəki ***tövərə*** sözü bir qədər təhrifə məruz qalmışdır. Əslində hidronim ***Tövrə kəhrizi*** şəklində olmalıdır. ***Tövərə (tövrə)*** sözünün qədim türk dillərində *"davar, mal-qara"* anlamı məlumdur.

Kəhriz – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları şaquli quyularla bir-biri ilə birləşdirilir. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu haqqında məlumatlar vardır.

Əlavə məlumat üçün bax: **Tövrədərə ağılı.**

## TÖVRƏDƏRƏ AĞILI

***Tövrədərə ağılı*** coğrafi adı Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində qeydə alınmışdır. Oronim ***tövrə, dərə, ağıl*** sözlərindən və -ı şəkilçisindən ibarətdir. ***Tövrə*** sözü qədim türk dillərində işlənən ***davar*** sözünə uyğun gəlir. Bu söz *"xırda buynuzlu mal-qara"* anlayışını ifadə edir. Toponimin tərkibindəki ***ağıl*** sözü oronimlərdə əsasən *"gecələr qoyun saxlanılan yer"* mənasında işlədilir. ***"Ağıl"*** termini ilə əlaqədar respublikamızda ***150*** oronim qeydə alınmışdır. ***Dərə*** - mənfi relyef forması bildirən coğrafi termindir. ***Dərə*** termini ilə bağlı çöl materialları içərisində Azərbaycan Respublikasının ərazisində ***30 000*** oronim qeydə alınmışdır. ***Tövrədərə ağılı*** toponimi *"gecələr mal-qara, qoyun saxlanan yer"* mənasındadır.





## TULUS KƏNDİ

***Tulus kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 6 kilometr cənub-şərqdə, Hacılı inzibati ərazi vahidində, Arazboyu düzənlikdə yerləşir. Əhalisinin sayı 320 nəfərdir. Əhali əsasən taxılçılıq, heyvandarlıq, üzümçülük və baramaçılıqla məşğul olurdu. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. Tulus yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Tulus*** oykonimi çox güman ki, qədim türkdilli ***tolos//teles*** tayfasının adı ilə bağlıdır. Miladdan öncə III əsrdə Orta Asiyada, Ordosdan qərbdə yaşamış ***teles (tölös, tolos, tolis)*** adlı tayfanın varisləri hesab olunan ***tulusların*** adı *"Orxon-Yenisey"* yazılı abidələrində ***tolis//talas*** kimi qeyd olunmuşdur. VII əsrdə - 626-cı ildə ***tuluslar*** Qərbi Türk Xaqanlığına daxil olmuşlar; 938-ci ildə onlar Cunqariyaya köçərək Qərbi Monqolustana - *Sələng* çayının hövzələrinə gəlmişlər.

Hazırda bu söz qaraqalpaqlarda və tatarlarda ***tolos*** şəklində işlədilir. VIII əsrdə ***teleslər*** artıq ***15*** iri tayfadan (*quliqan, tuba, telengit və s.*) ibarət imişlər. Dağlıq Altayda yaşayan ***telengit*** tayfasının bir qolu indi də ***tolos*** adlanır. Onlar XIII əsrdə monqolların tərkibində Yaxın Şərqin istilasında yaxından iştirak etmişlər. Monqolların qərbə və Yaxın Şərqə hərəkəti zamanı onların tərkibində adı çəkilən ***tulus*** adlı tayfa yəqin ki, ***tolosların*** özləridir. ***Tolosların*** (***tulusların***) Azərbaycanda təşəkkülü Cəbrayıl rayonunda çox qədim dövrlərə gedib çıxır. Bəzi tədqiqatçıların fikrincə, ***Tulus kəndi*** həmin ***tolos*** tayfasına mənsub olan ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. ***"Tul"*** sözünün *"döyüş"*, *"vuruş"* anlamı da var.

XIII əsr tarixçisi F.Rəşidəddin monqolların tərkibində ***tulas*** (***tulus***) adlı tayfa olduğunu qeyd edir. ***Tula*** sözünün qədim türk dillərində *"çəmən"*, *"yaşıl otluq"*, *"bataqlıqda* çayırlı *yer"*, *"dağ keçidi"* və s. mənaları da məlumdur. Qədim türk mənşəli ***Tulus*** tayfasının adını özündə əks etdirən yaşayış məntəqəsi Rəvan əyalətinin Sisyan nahiyəsində də olmuşdur. XVI - XVIII əsrlərə aid olan mənbələrdə həmin ***Tulus*** kəndinin də adı çəkilir.

Əlavə məlumat üçün bax: **Tulusludağ.**

## TULUSLU DAĞ

Cəbrayıl rayonu ərazisindəki dağlardan biri də ***Tuluslu dağ*** (bəzən sənədlərdə adı ***Tulusludağkimi*** də yazılır) adlanır. Dağın adına ***Tulusdağ*** və ya ***Tülüsdağ*** da deyirlər. Bu dağın hündürlüyü ***530*** metrdir. ***Dağ*** yaxınlıqdakı ***Tulus*** kəndinin adı ilə əlaqədar belə adlanmışdır.

Tədqiqatçılar göstərirlər ki, ***tulus//tolos*** adlı qədim türkdilli tayfa olmuşdur. ***Tulusludağ*** toponimi də həmin bu etnonim ilə əlaqədardır. Hazırda Altayda ***telengit*** tayfasının bir qolu ***tolos*** adlanır: *Telengitlərin* XIII əsrdə monqol işğalında iştiraklarını nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, bu tayfa Azərbaycana XIII əsrdə gəlmişdir. ***Tuluslar*** qədim ***teles*** tayfasının varisləridir. Qaraqalpaqların bir tayfası indi də ***tolos*** adlanır. Tatarıstanda və qaraqalpaqlarda da ***tolos*** adlı tayfalar var. Ərəb dilində ***tul*** sözünün *"uzun, uzunluq, boy"* anlamları da məlumdur.

Əlavə məlumat üçün bax: **Tulus kəndi.**

## TUMAS – ATA ZIYARƏTGAHI

Tumaslı dağının zirvəsində daş hasara alınan və üzü günəşə dəfn olunan qəbir ***Tumas-Ata ziyarətgahı*** adlanır. Mənbələrin verdiyi məlumatlara görə, miladdan öncə VI – V əsrlərdə tayfa başçısı olan ***Tumas*** adlı igid qəhrəman düşmənlər ilə gedən döyüşdə yaralanır və düşmənin əlinə keçməmək üçün dağlara çəkilir. Qan itirə-itirə dağın zirvəsinə qalxır və burada canını tapşırır. Tumasın silahdaşları qan izi ilə gələrək onun cəsədini tapırlar və meyiti bu dağın zirvəsində dəfn edirlər. Camaat tez-tez (övladları olmayanda, *yağış* yağmayanda, quraqlıq olanda) ***Tumas-Ata*** zirvəsinə qalxar, orada qurbanlar kəsər və niyyətlər edərdi. Sonralar müqəddəs ziyarətgaha çevrilən ***Tumas-Ata ziyarətgahı*** insanların arzu, ümid, inam, niyyətlərini müstəcab edən kəramətli ***pir*** kimi tanınır. ***Tumas-Ata*** haqqında çoxlu əfsanələr, rəvayətlər vardır.

Bir rəvayətə görə ***Tumas*** atagil ***3*** qardaş olublar: ***Tumas Ata, Günəş Ata, Çəpik Ata.*** Onlar Hacı Qaramanın övladları olublar. Günəş Atadan və Tumas Atadan fərqli olaraq Çəpik Atanın uşaqları olmayıb. Ona görə də yerli camaat bəzən and içəndə *"Sonsuz Çəpik Ata haqqı"* deyirlər. ***Tumas-Ata*** ziyarətgahına çıxanda ***Hacı Rəhim*** qəbrinə (*Tumas Atanın babası*) hərlənməyəndə ziyarət qəbul olunmur. Gərək əvvəl onun ətrafına fırlanasan. ***Tumas Ata ziyarətgahı*** müqəddəs *pir* hesab edilirdi.

***Tumas*** sözünün etimologiyası ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Bəzi araşdırıcılar ***Tumas*** sözünü mənşə etibarıyla ***Tomris*** adı ilə əlaqələndirirlər. Bir qisim tədqiqatçılar isə ***Tumas Atanı*** vaxtilə Şumerdə yaşamış türk tayfalarından birinin nüfuzlu başçısı hesab edir. ***Tumas*** sözünün tərkibindəki ***as*** komponentini (***tum*** + ***as***) ***as*** türk tayfası ilə (***atam*** + ***as***) bağlayanlar da var.

## TUMAS BAĞI

Dağ Tumas kəndinin yaxınlığında, kəndin cənub hissəsində, Tumas bulağının altında, dağtəyi ərazidə qydə alınan oroqrafik obyekt ***Tumas bağı*** adlanır. Bağın ərazisində çoxlu meyvə ağacları vardır. Bu meyvə ***bağı*** təxminən ***30*** hektar sahəni əhatə edir. ***Tumas bağı*** ayrı-ayrı şəxs və nəsillərin adları ilə hallanan bütöv bir meyvə bağından ibarətdir. Oronim ***Tumas*** (*yaxınlıqdakı kənd və dağ adı*) coğrafi adından və ***bağ*** sözündən yaranmışdır.

Əlavə məlumat üçün bax: **Tumas-Ata ziyarətgahı.**

## TUMAS BULAĞI

Dağ Tumas kəndinin yaxınlığında, kəndin cənub hissəsində, dağətəyi ərazidə, Tumas bağının yuxarı başında qeydə alınan hidronimlərdən biri ***Tumas bulağı*** adlanır. ***Tumas bulağı*** üçtağlı, üç dəhnəli, kəhriz tipli, soyuq, şəffaf və gur sulu bir bulaqdır. Hidronim ***Tumas*** sözündən və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. Hidronim kəndin adı ilə əlaqədar belə adlandırılmışdır. Adına bəzən ***Aynalı bulaq*** da deyirlər.

## TUMAS QAYASI

Rayonun ərazisində qeydə alınan oronimlərdən biri ***Tumas qayası*** adlanır. Oronim ***Tumas*** və ***qaya*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-sı*** şəkilçisindən ibarətdir. Toponim kəndin adı ilə bağlı olaraq belə adlandırılmışdır. ***Tumas qayası*** coğrafi adının tərkibindəki ***qaya*** coğrafi termini müsbət relyef forması ifadə edir. Adətən sıra dağlardan ayrılmış qola və ya dağların müəyyən hissəsində *çətin keçilən yerə* ***qaya*** *deyirlər*. Respublikamız ərazisində çöl materialları içərisində adının tərkibində ***qaya*** termini iştirak edən ***3 000*** oronim qeydə alınmışdır.

## TUMASLI DAĞI

Cəbrayıl rayonu ərazisində, Sirik kəndi yaxınlığında, dəniz səviyyəsindən 1 600 metr yüksəklikdə, Dağ Tumas kəndinin şimalında yerləşən oronim ***Tumaslı dağı*** adlanır. ***Tumaslı dağı*** yaxınlıqda yerləşən eyniadlı yaşayış məntəqəsinin adı ilə əlaqədar belə adlanmışdır. Bəzən dağın adına yerli əhali ***Tumas dağı*** da deyirlər. ***Tumas Atanın*** adı ilə bağlı olan bu coğrafi ad patronimik oronimlərdəndir.

***Tumaslı*** tirəsi XIX əsrdə maldarlıqla məşğul olmuş ellərdən biridir. Cəbrayıl rayonundakı ***Dağ-Tumas***, Çay-***Tumas*** oykonimləri, Bərdə rayonunda ***Tumaslı kəndi***, ***Tumaslı qabağı*** (*Alpout kəndi*), ***Tumaslı qışlağı*** (*Qaraqoyunlu kəndi*), Şərur rayonunda ***Tumaslı kəndi***, Şəmkir rayonunun Ağabəy kəndində ***Tumas tapı*** toponimləri öz adlarında ***tumaslı*** elinin adını əks etdirirlər.

***Tumaslı dağı*** burada dəfn olunan müqəddəs ***Tumas Ata*** pirinin adı ilə əlaqədardır. Pirin adındakı ***Tumas*** sözü "*Bibliya*"dan gəlmə ***Tomas*** şəxs adındandır...

## TUTQU YERİ

Rayon ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Tutqu yeri*** adlanır. Bu söz ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. Ort əsrlərdə və son dövrlərdə qoluzorlu xanlar, bəylər, ağalar qonşularının zəifliyindən istifadə edib onların torpaqlarını ələ keçirirdilər. Bu cür işğal edilmiş torpaqlar da ***tutqu*** adlanırdı. Erkən çağlarda türk tutqularını ***tutuq*** adlanan hakimlər idarə edirdilər.

Erkən və orta çağ türk qurumlarında adlı-sanlı başçılara, qılınc və qələm sahiblərinə dövlət torpağından müəyyən kəsik – *pay* verilərdi. Bu pay ərəbcə *iqta*, türkcə *tiyul* adlanırdı. *Tiyul* sahibləri bəzən qonşu əraziləri də öz torpaqlarına qatardılar. Bu qanundanqıraq qatqıya ***tutqu*** deyilərdi. "*Nə bilim hansı dərənin ərəvəndəsidir, gəlib dost-doğma, dədə-baba torpağımızı* ***tutqu*** *eləyib ki, bəs dövlətdən pay almışam*". Bu giley-güzarlı cümlədəki ***tutqu*** sözü əski bir türk termini ilə bağlıdır.

Adının tərkibində ***tutqu*** termini olan toponimlərə Azərbaycanımızın digər bölgələrində də rast gəlirik...

## TUTLU BAĞ

Cəbrayıl rayonu ərazisində, Diridağın ətəyində qeydə alınan oroqrafik obyektlərdən biri də ***Tutlu bağ*** adlanır. Oronim öz adında həmin ərazidə bitən ***tut*** fəsiləsindən çoxillik ağac cinsi olan ***tut*** ağacının adını əks etdirir. Ağ, qara növləri (*ağ tut, qara tut, turşməzə tut*) olan xırda, şirəli meyvə və onun ağacı ***tut*** adlanır. Həmin ***bağda*** çoxlu ***tut*** (çəkil) ağacları olduğu üçün oronim belə ad almışdır. Toponim "*tut ağacları olan bağ*" mənasındadır. Bu bitkinin adı ilə bağlı ölkəmizdə çoxlu oronimlər qeydə alınmışdır...

## TUTU QALASI

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Tutu qalası*** adlanır. Oronim ***Tutu*** və ***qala*** sözlərindən, eləcə də mənsubluq bildirən ***-sı*** şəkilçisindən ibarətdir. ***Qala*** – uzunmüddətli müdafiə üçün hazırlanmış, daimi qarnizonu, silahları, ehtiyatları olan və müstəqil idarə olunan strateji əhəmiyyətli məntəqədir. İlk *qalalar* möhkəmləndirilmiş məskənlər şəklində olmuşdur. Azərbaycanda ən qədim ***qalalar***

siklop tikintiləridir. Azərbaycanda qalaların *3* tipi olmuşdur: 1) məbədləri və din xadimlərinin əmlakını qorumağa xidmət edən qalalar; 2) şəhərtipli qalalar; 3) sığınacaq rolunu oynayan qalalar.

Üçüncü tip *qalalar* daha möhkəm və əlçatmaz yerlərdə tikilirdi. ***Tutu qalası*** da məhz belələrindəndir.

## TÜLKÜ DƏRƏSİ

Rayon ərazisində qeydə alınan oronimlərdən biri ***Tülkü dərəsi*** adlanır. Bu coğrafi ad ***tülkü*** heyvan adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və mənsubluq ifadə edən ***-si*** şəkilçisindən ibarətdir. ***Tülkü*** - itlər ailəsindən, uzunsifət, üzüntüklü, quyruqlu yırtıcı məməli heyvandır. ***Tülkü dərəsi*** toponimi *"tülkü olan dərə"* anlamındadır. Vaxtilə burada tez-tez tülkülərə rast gəlindiyindən oronim belə ad almışdır...





# "U"

## ULASLI DƏRƏ

Cəbrayıl rayonunun Qazanzəmi kəndi yaxınlığında, Dolanlar kəndi istiqamətində, çökəklik ərazidə qeydə alınan oroqrafik obyektlərdən biri ***Ulaslı dərə*** adlanır. ***Ulaslı dərə*** coğrafi adı ***ulas*** və ***dərə*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. ***Dərə*** coğrafi termini toponimiyada mənfi relyef forması ifadə edir. Çöl materialları içərisində ***dərə*** termininin iştirakı ilə respublikamız ərazisində 30 000 coğrafi ad toplanmışdır. ***Ulas (vələs)***-tozağacı fəsiləsindən əsasən dağlıq yerlərdə bitən ağacdır. Bəzən bu ağacın adını ***vələs*** kimi də yazırlar.

## UŞAQ QƏBRİ

Cəbrayıl rayonunun Mənsümlü kəndinin yaxınlığında, kəndin Pirabid dərəsi deyilən sahəsinin gündoğan üzündə qeydə alınan oroqrafik obyektlərdən biri ***Uşaq qəbri*** adlanır. Yerli məlumata görə bu qəbirdə böyük övliyalardan olan Əli Çələbinin Suqra Çələbidən doğulan və 5 aylığında dünyasını dəyişən Yasin adlı körpəsi dəfn olunduğu üçün toponim belə ad almışdır. Yerli əhali bu yeri əziz tuturdular...

## UŞAQ PİRİ

***Uşaq piri*** Dərzili kəndinin yaxınlığında, *Mahmudlu – Akara* şose yolunun kənarında yerləşir. Bu ***pir*** ağac kötüyündən və onu hərləməyə alan daş hasardan ibarətdir. Əlilləri, xəstə uşaqları hasarın başına dolandırar, niyyət edib nəzir-niyaz verər, qurban deyərdilər. ***Uşaq*** şəfa tapdıqda, niyyətləri hasil olduqda ziyarətçilər pirə gəlib vədlərinə əməl edərdilər.

Ölkəmizdə ***pir*** sözü ilə bağlı da xeyli coğrafi adlara rast gəlirik. Hələ bütpərəstlik dövründən məlum olan ***pir*** - dini etiqad, inamla bağlı ibadət

və sitayiş yeri hesab olunurdu. ***Pirlər*** çarəsiz dərdlərə düçar olanların *ziyarət yeri* olmuşdur. Bəzən sonsuzlar, şikəstlər, ruhi və cismani xəstələr ürəklərində niyyət tutaraq pirlərə nəzir-niyaz verirlər, onlardan imdad diləyirlər. Azərbaycanın bəzi ərazilərində ***pir*** sözü əvəzinə ***ocaq*** ifadəsi də işlədilir.





# "Ü"

## ÜÇAĞAC DAĞI, ÜÇBARMAQ TƏPƏSİ, ÜÇTƏPƏ

Cəbrayıl rayonu ərazisində qeydə alınan bu oronimlər sayına görə ad verilən oronimlərdəndir. Oronimlərin səciyyəvi xüsusiyyətlərindən biri də onlarda say bildirən sözlərin əks olunmasıdır. ***Üçağac dağı*** oronimində dağın ***3*** ağaclı olması, ***Üçbarmaq təpəsi*** (*Tulus kəndi*) oronimində ***təpənin*** zahirən ***3 barmaq*** şəklində görünməsi, ***Uçtəpə*** (*Dağ Tumas kəndi*) oronimində *təpənin* sayının üçlüyü nəzərdə tutulur. Hər ***3*** oronimin adında say bildirən ***üç*** sözü iştirak edir. ***Dağ*** və ***təpə*** coğrafi terminləri müsbət relyef formaları ifadə edir.

## ÜÇQARDAŞ DAĞI

Araz çayının sahilində, Böyük Mərcanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri Üçqardaş (*bəzən bu coğrafi ad **Üç qardaş** formasında da yazılır*) adlanır. Bu coğrafi adla bağlı belə bir əfsanə də var: Onlar ***üç qardaş*** olublar. Necə olursa onları bir gün gavur qovub. Gəlib dağın başına çıxıblar. Görüblər ki, daha əlac yoxdur; gavur bunları tutacaq. Odur ki, üzlərini Allaha tutub deyiblər: *"Allah, ya bizi quşda, ya bizi daşda"*. Duaları qəbul olunur. Allah bunların ikisini daş eləyir. Axırıncı daş oluncaya qədər gavur özünü ona yetirir. Artıq onun başı və boynundan başqa hər yeri daş olmuşdu. Gavur onun başını vurur. ***Üçü*** də elə daş olur. Ondan da belə qalıbdır – ikisi başlı, biri başsız. Sonralar bu oroqrafik obyekt inanc yerinə çevrilir. Ətrafda yaşayan yerli əhali bir şey olanda ona belə and içir: *"O Üç qardaş haqqı"*.

## ÜÇQARDAŞ PİRİ

Dağtumas kəndinin yaxınlığında, Tanqut bağında qeydə alınan oroqrafik obyektlərdən biri ***Üçqardaş piri*** adlanır. Oronim ***üç*** rəqəmindən,

*qardaş* sözündən və *pir* komponentindən ibarətdir. Bu *pir* nəhəng olan üç *dağdağan* ağacından ibarətdir. Deyilənlərə görə bir zamanlar bu ağacların diblərində işıqlar şölələnər və övliyalar oturardılar. *Üçqardaş* pirində niyyət duaları oxunar və onlar müstəcab (*"istəyi yerinə yetirilmə"*, *"xahişinə, arzusuna əməl olunma"*) olardı...

## ÜMÜRLÜ DÜZÜ

Havuslu kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri ***Ümürlü düzü*** adlanır. Toponimin tərkibindəki ***ümürlü*** sözü ilə bağlı müxtəlif fikir və mülahizələr vardır. ***Ümürlü*** sözünü ***imirli*** (***eymirli***) tayfasının adı ilə də əlaqələndirənlər var.

Oronimiyada ***düz*** coğrafi termini mənfi relyef forması ifadə edir. ***Düz*** və ***düzənlik*** coğrafi terminlərinin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində ***11 000*** oronim qeydə alınmışdır.

## ÜRYAN XIDIR QALASI

***"Üryan Xıdır qalası"*** Cəbrayıl rayonu ərazisində, Araz çayı sahilində qeydə alınmış coğrafi addır. ***Üryan*** sözü "çılpaq, lüt", *"kasıb"* mənasındadır. Bu alayarımçıq qala divarı onu tikən ustanın, bənna ***Xıdırın*** adı ilə bağlıdır. Tikintisi yarımçıq, "çılpaq" qaldığı üçün qalaya yerli adamlar ***Üryan Xıdır qalası*** deyərmişlər. *Üryan Xıdırla* bağlı belə bir rəvayət də məlumdur:

*Araz sahilində, Diridağla üzbəüz yerləşən Şıxlar kəndinin ilk şeyxi Üryan Xıdır olub. O, övliya olmaqla bərabər həm də gözəl bənna imiş. Arazın bu sahilində isə dini rəhbər, maldarlıqla məşğul olan, şöhrəti Arazbarı aşan Hacı Qaraman adlı maralsaxlayan bir adam varmış. Hər ikisi şöhrətləndikcə bir-birinə qənim kəsilirlər. Əgər bu tərəfin adamı o tərəfə və ya əksinə, o tərəfin adamından bu tərəfə keçərdisə qabırğalarını sındırmamış buraxmazmışlar.*

*Bir gün xəbər gəlir ki, Üryan Xıdır oymağında yoxdur. Hacının adamları "fürsətdir, gedək onların üstünə" - deyirlər. "Yox, biz qurd deyilik ki,*





*çobansız sürüyə girişək" - deyə Hacı Qaraman öz adamlarını sakitləşdirir. Sonra*

*Üryan Xıdıra xəbər göndərir ki, gəl Araz sahilinə, ayırd edək görək kim daha güclüdür.*

*Dediyi vaxtda, vədələşdiyi yerdə Hacı Qaraman iri buynuzlu bir maral minmiş, altdan geyinib üstdən qıfıllanmış, üstdən geyinib altdan qıfıllanmış, qaraüz ovxarlı qılıncını belinə bağlamış halda Xıdırı gözləyirdi. Bu ara uzaqdan bir qaraltı göründü. Maral heybətlə hayqırdı. Eşidənlərin canına vəlvələ düşdü. Hacı Qaraman diqqətlə yola baxdı. Gördü ki, Üryan Xıdır mala ilə silahlanıb, qamçı əvəzinə şuğul götürüb gözləri hiddətdən, hədəqəsindən çıxmış halda tikdiyi yarımçıq daş divan irəliyə doğru çaparaq budu ha yaman gəlir. Bunu görən Hacı Qaraman "basıldım" - deyə ahçəkmiş...*

İndi Araz çayı sahilində ***Üryan Xıdır qalası*** deyilən yarımçıq divar tikilisi və Diridağdan bir qədər aralıda yerləşən ***Hacı Qaraman məqbərəsi*** bu rəvayətin sanki bir rəmzidir...

Əlavə məlumat üçün bax: **Hacı Qaraman piri.**

## ÜZƏRLİKLİ DƏRƏ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oronimlərdən biri ***Üzərlikli dərə*** adlanır. ***Üzərlikli dərə*** coğrafi adı ***üzərlik*** və ***dərə*** sözlərindən, eləcə də ***-li*** şəkilçisindən ibarətdir. Toponimin tərkibindəki ***üzərlik*** sözü həlməkimilər fəsiləsindən olan bitki cinsinin adını özündə əks etdirir. ***Üzərlik*** - çılpaq gövdəsi, ensiz yarpaqları olan çoxillik kol bitkisidir. Ulu keçmişimizdən, tariximizdən məlumdur ki, qədim əcdadlarımız ***üzərlik*** bitkisini müqəddəs hesab etmişlər. Ümumiyyətlə, ta qədimdən Şərq xalqları, o cümlədən Azərbaycan xalqı arasında gözdəymədən qorunmaq məqsədilə üzərlik yandırmaq adəti olmuşdur. ***Üzərlikli dərə*** adının tərkibində olan ***dərə*** sözü müsbət relyef forması bildirən coğrafi termindir. ***Dərə*** termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazisində ***30 000*** coğrafi ad qeydə alınmışdır.

Ağdam, Füzuli, Xocalı, Xocavənd, Tərtər və digər rayonların ərazisində bu tipli toponimlərə daha çox rast gəlinir.

## ÜZƏRLİKLİ TƏPƏ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Üzərlikli təpə*** adlanır. Oronim ***üzərlik*** sözündən, ***təpə*** terminindən və ***-li*** şəkilçisindən ibarətdir. ***Üzərlikli təpə*** coğrafi adının tərkibindəki ***üzərlik*** sözü həlməkimilər fəsiləsindən olan ***üzərlik*** bitki cinsinin adını özündə əks etdirir. Ulu keçmişimizdən məlumdur ki, bizim əcdadlarımız ***üzərlik*** bitkisini müqəddəs hesab etmişlər. Ümumiyyətlə, ta qədimdən bu günə qədər Şərq xalqları, o cümlədən Azərbaycan xalqı arasında gözdəymədən və s.-dən qorunmaq məqsədilə ***üzərlik yandırmaq*** kimi adətlər mövcud olmuşdur.

***Üzərlikli təpə*** toponiminin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef forması ifadə edir. ***Təpə*** coğrafi termini ətəyi ilə zirvəsi arasında nisbi hündürlüyü ***200*** metrdən çox olmayan yüksəklik anlamındadır. Azərbaycan toponimiyasında çöl materialları içərisində ***təpə*** termini ilə əlaqədar təxminən ***3500*** coğrafi ad qeydə alınmışdır.





## "V"

## VƏLİ QƏBRİ

Nüzgər kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Vəli qəbri*** adlanır. Bu ***qəbir*** yerində **Vəli** adlı adam dəfn olunduğu üçün coğrafi ad da ***Vəli qəbri*** adlandırılmışdır. Azərbaycan Respublikasının ərazisində bu tipli coğrafi adlara tez-tez rast gəlmək mümkündür.

## VƏLİ PİRİ

Cəbrayıl rayonunun ərazisində, Dağtumas kəndinin yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri ***Vəli piri*** adlanır. Bəzən onun adına ***At piri*** də deyirlər. ***Vəli piri*** sal daş üzərində bitən saqqız ağacından ibarətdir. Bu ***pir*** ilə üzbəüz *Nərgiz piri* də yerləşir. Rəvayət edirlər ki, bir zamanlar ***Vəli*** ilə ***Nərgiz*** sevgili olublar. Amma onlar bir-birləri ilə qovuşmayıblar. Gənc ikən nakam bu dünyanı tərk ediblər. Deyilənə görə pirlər sevgililərin qəbir yerləri yox, nişangahlarıdır. Əfsanəyə görə ***Vəli*** həm də yaxşı *at* həvəskarı, atabaxan olmuşdur. Atlar xəstələnəndə sahibləri onları ***Vəli pirinə*** (*At pirinə*) gətirər, pirin başına dolandırar və atlar pirin kəramətindən sağalarmışlar. ***Vəli*** sözü ərəb dilində "*hami, himayəçi*", "*yaxın dost*", "*ağa*" anlamlarını ifadə edir. Bu söz fars dilində "*amma, ancaq, lakin, fəqət*" mənasında işlədilir.

Bilirik ki, ***pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində "*nurani qoca*", "*dini icmanın başçısı*", "*müqəddəs*" mənasını edir.

## VƏLİXANOV BULAĞI

Cəbrayıl şəhərində qeydə alınmış hidronim ***Vəlixanov bulağı*** adlanır. ***Vəlixanov*** soyadlı şəxs bu ***bulağı*** tikdirən Cəbrayıl rayonunun rəhbərlərindən biri olmuşdur. *Bulağa* əvvəllər onun adı verilsə də, sonralar adı dəyişdirilərək ***Lenin***, daha sonra isə ***Dostluq*** qoyulmuşdur.





## "Y"

## YAXIN PİR

Söyüdlü kəndinin yaxınlığında, kəndin qəbiristanlıq ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yaxın pir*** adlanır. Bu *pir* yeri digərlərindən fərqlənən tək qəbirdir. Bu qəbirin kimə məxsus olması məlum deyildir. ***Yaxın pir*** işğala qədər (*1993-cü ilədək*) söyüdlülərin müqəddəs *inanc* yeri olmuşdur. Oronim ***yaxın*** və ***pir*** sözlərindən ibarətdir. ***Yaxın*** sözü *"məsafə etibarı ilə çox da uzaqda olmayan"*, *"zaman etibarı ilə uzaq olmayan"* anlamını ifadə edir. ***Yaxın pir*** toponimi *"yaxınlıqda yerləşən pir"* mənasındadır. Kəndə ***yaxın*** olduğu üçün ***pir*** belə adlanmışdır.

## YAL ZƏMİ

Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yal zəmi*** adlanır. Oronim ***yal*** və ***zəmi*** sözlərindən ibarətdir. Kənd təsərrüfatında növbəli əkin sahələrinə bölünmüş şum yerləri, eləcə də kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün istifadə olunan sahə ***zəmi*** və ya *tarla* adlanır.

***Yal*** coğrafi termini müsbət relyef formasını bildirir. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı, hündür bir yerin təpəsi, dikdir,yoxuşun başı ***yal*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində ***yal*** termininin iştirakı ilə çöl materialları içərisində ***600*** oronim qeydə alınmışdır.

## YALAŞAN PİRİ

Cəbrayıl rayonunun ərazisində, Göyərçin Veysəlli kəndinin köhnə yurd yerində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yalaşan piri*** adlanır. ***Yalaşan piri*** daş qalağından ibarət bir hasardır. Yerli məlumata görə,

vaxtilə burada övliya Şıx Hacı Qasım Çələbi namaz qılıbdır. Görünür elə bu səbəbdən də ***Yalaşan piri*** camaat tərəfindən ziyarətgaha çevrilmişdir.

## YALAVLIQ

Dağ Tumas kəndindən 4 kilometr aralıda, Sarı yoxuşun gündoğan üzündə, Qarağac kəndinə gedən yolun sarı torpaqlı hündür aşırımı yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yalavlıq*** adlanır. Qarabağ dialektinin Cəbrayıl şivəsinə də uyğun olaraq toponimin tərkibindəki ***yalav*** komponenti çox güman ki, ***alov*** sözünün təhrif edilmiş formasıdır.

## YALDAKI PİR

Şahvəlili kəndinin ərazisində, köhnə poçt yerindən İsaqlı oymağına aşan yalın üstündə qeydə alınan oroqraafik obyekt ***Yaldakı pir*** adlanır. *Yalda* yerləşdiyi üçün ***Yaldakı pir*** adlanmışdır. Oronimiyada dağın ən hündür zirvəsinin yamacı ***yal*** termini ilə ifadə olunur. ***Yal*** coğrafi termini müsbət relyef forması ifadə edir. Azərbaycan oronimiyasında ***yal*** coğrafi termininin iştirakı ilə ***550*** toponim qeydə alınmışdır. ***Yaldakı pir*** oronimi xeyli sayda daş topasından ibarətdir. Buradan Hacı Qaraman ocağı da görünür. Kimin qəlbində niyyəti olardısa, bu ***yaldakı*** dikə qalxar, üzünü Hacı Qaraman ocağına tutub dua edər, öz istəklərini ocaqdan istəyərdilər. Yerli əhali bu ***piri*** əziz tutur, onu müqəddəs hesab edirdilər.

Azərbaycanda ***pir, ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***ocaqlar, pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, hələ də öz yaşantısını itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** termini ilə bağlı Azərbaycanda yüzlərlə toponim qeydə alınmışdır.





## YALOBA

Rayon ərazisində qeydə alınan coğrafi adlardan biri də ***Yaloba*** adlanır. Mürəkkəb toponim olan ***Yaloba*** sözü ***yal*** və ***oba*** sözlərindən ibarətdir. ***Yal*** termini müsbət relyef forması bildirir. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada ***yal*** termini ilə ifadə olunur. Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində tərkibində ***yal*** coğrafi termini iştirak edən ***600*** toponim alınmışdır. ***Yaloba*** toponiminin tərkibindəki ***oba*** sözü *"yurd, məskən, el"* mənasındadır. ***Yaloba*** toponimi *"hündürdə, yüksəklikdə, yalda yerləşən yurd"* anlamındadır.

## YANARXAC GÖLÜ

Rayonun Yanarxac kəndi ərazisində qeydə alınan hidronimlərdən biri də ***Yanarxac gölü*** adlanır. Hidronim ***yan*** və ***arxac*** sözlərindən, eləcə də ***göl*** hidronimik apelyativindən ibarətdir. ***Yanarxac*** mürəkkəb sözü heyvandarlıqla, xüsusilə, qoyunçuluqla əlaqədar olaraq meydana gəlmişdir. Toponimin tərkibindəki ***arxac*** sözü *"otlaq şəraitində adətən gecələr, hava isti olduqda isə gündüzlər qaramal və qoyunların dincəlməsi üçün yer", "qoyunların yataq yeri", "yayda qoyunları saxlamaq üçün çəpər çəkilmiş yer"* mənasındadır. ***Arxaclar*** yayda hündür yerdə, yazda və payızda külək tutmayan ərazidə düzəldilir. Vaxtaşırı onların yeri dəyişdirilir. Hər ***arxac*** (*qoyunların yataq yeri*) təxminən ***50*** qoyun üçün nəzərdə tutulur. ***Yanarxac*** toponimi *"yan tərəfdəki yataq, arxac"* anlamını ifadə edir. ***Arxac*** – *"yayda qoyunları saxlamaq üçün çəpər çəkilmüş yer"* mənasında da işlənir. ***Göl*** *arxacın yanında* yerləşdiyi üçün belə adlandırılmışdır.

## YANARXAC KƏNDİ

***Yanarxac kəndi*** Cəbrayıl rayonunda, Soltanlı kənd inzibati ərazi vahidində, rayon mərkəzindən 28 kilometr cənubda, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı 150 nəfərdir. Əhali əsasən üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olurdu. Kənddə məktəb, kitabxana, kəhriz və s. var-

dı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

***Yanarxac*** oykonimi heyvandarlıqla, qoyunçuluqla əlaqədar olaraq meydana gəlmişdir. Toponimin tərkibindəki ***arxac*** sözü *"otlaq şəraitində adətən gecələr, hava isti olduqda isə gündüzlər qaramal və qoyunların dincəlməsi üçün yer", "qoyunların yatan yeri", "yayda qoyunları saxlamaq üçün çəpər çəkilmiş yer"* mənasındadır. ***Arxaclar*** yayda hündür yerdə, yazda və payızda külək tutmayan ərazidə düzəldilir. Vaxtaşırı onların yeri dəyişdirilir. Hər yataq təxminən ***50*** qoyun üçün nəzərdə tutulur. ***Yanarxac*** toponimi *"yan tərəfdəki yataq, arxac"* mənasındadır. ***Arxac*** – *"yayda qoyunları saxlamaq üçün çəpər çəkilmüş yer"* mənasında da işlənir. Kənd ***arxac*** *yanında* yerləşdiyi üçün belə adlanmışdır.

Bu tip coğrafi adlara nümunə olaraq *Qaraarxac* (Gədəbəy rayonunda, Şahdağ silsiləsində), *Arxaclar düzü* (Qax rayonu, Almalı kəndi), *Qaraarxac dərəsi* (Füzuli rayonu, Qorqan kəndi) və başqalarını göstərmək olar.

## YARƏHMƏDLİ DƏRƏSİ

Yarəhmədli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yarəhmədli dərəsi*** adlanır. Oronim ***Yarəhməd*** və ***dərə*** sözlərindən, eləcə də ***-si*** mənsubiyyət şəkilçisindən ibarətdir. Coğrafi adın tərkibindəki ***Yarəhməd*** şəxs adıdır. ***Dərə*** coğrafi termini isə müsbət relyef forması ifadə edir. ***Yarəhmədli dərəsi*** toponimi *"Yarəhmədli kəndinin yaxınlığındakı dərə"* anlamındadır.

Əlavə məlumat üçün bax: **Yarəhmədli kəndi.**

## YARƏHMƏDLİ KƏNDİ

***Yarəhmədli kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 5 kilometr cənub-qərbdə, Cəbrayıl şəhər inzibati ərazi vahidində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 250 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülük kənd əhalisinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələri hesab olunurdu. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. ***Yarəhmədli*** yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.





Yerli məlumata görə, ***Yarəhmədli*** yaşayış məntəqəsini Azərbaycanın Əfşar tayfasından XII əsrdə yaşamış Cəbrayıl adlı şəxsin altı oğlundan biri olan - ***Yarəhməd*** adında şəxs saldığına görə kənd belə adlanmışdır. Oykonimin tərkibindəki ***-li*** mənsubluq bildirən şəkilçidir. Toponim *"Yarəhmədin obası, Yarəhmədlilər"* mənasındadır.

XVIII - XIX əsrlərdə ***Yarəhmədli oymağı*** Cəbrayıl elinin ***18*** oymağından biri kimi Mutlan adlanan torpaqda yerləşmişdir.

***Yar*** xalq coğrafi termini ilə əlaqədar oykonimiyamızda, oronimiyamızda çoxlu (140-a qədər) kənd və yer adları qeydə alınıb: ***Yarəhmədli*** (Cəbrayıl rayonu), *Qarayar* (Cəlilabad rayonu), *Bənənyar* (Culfa rayonu), *Yar Adullu* (Qazax rayonu), *Şəhriyar* (Babək və Masallı rayonları) və s.

## YARĞAN DAĞI

Göyərçin Veysəlli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yarğan dağı*** adlanır. Yerli əhali bu coğrafi adı çox zaman ***Yarırğan*** şəklində də işlədir. ***Yarğan*** – nisbətən hündür, düzən sahələrdə (*yüksəkliklərdə, təpələrdə və s.*) müvəqqəti su axınlarının əmələ gətirdiyi dik yamaclı çuxurdur. Bəzən dərinliyi ***10*** metrlərlə olan yarğanların uzunluğu bir neçə kilometrədək çatır. Yarğanların qarşısını almaq üçün süni meşələr salınır və ya aqromeşəmeliorasiya tədbirləri görülür. ***Dağ*** coğrafi termini müsbət relyef forması bildirir. ***Dağ*** termini ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində çöl materialları içərisində ***1 300*** oronim qeydə alınmışdır.

## YASİN BULAĞI

Şəxs adları əsasında əmələ gələn antrohidronimlərdən biri də rayon ərazisində qeydə alınan ***Yasin bulağı*** coğrafi adıdır. Bu bulağın dumduru və soyuq suyu vardır. Hidronim ***Yasin*** şəxs adından və ***bulaq*** hidronimik apelyativindən ibarətdir. ***Bulaq*** onu üzə çıxaran şəxsin - ***Yasin*** adlı adamın adı ilə əlaqədar olaraq belə adlanmışdır. Toponim *"Yasinə məxsus bulaq"* anlamını ifadə edir.

## YASİN ÇƏLƏBİ OCAĞI

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərən biri də ***Yasin Çələbi Ocağı*** adlanır. Bu ***ocaq*** adından da göründüyü kimi böyük övliya *Yasin Çələbinin* adı ilə əlaqədar olaraq belə adlındırılmışdır. ***Ocaq*** sözü *"ev", "ailə", "məskən", "yer", "mənbə"* və s. anlamları ifadə edir. Qədim yunan, slavyan, alman, türk, Qafqaz, Sibir və başqa xalqlarda ***ocaq*** sözü müqəddəs yer hesab olunur. Azərbaycanın bəzi zonalarında ***ocaq*** əvəzinə ***pir*** ifadəsi də işlədilir. ***Pirlər*** (***ocaqlar***) ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti ***ocaqları,*** pirləri ziyarətgah, ümidgah hesab edirlər...

## YASTI ÇAXMAQ DAŞI

***Yastı çaxmaq daşı*** oroqrafik obyekti Cəbrayıl rayonunun ərazisində, Ümürlü düzünə qalxan yolun kənarında, Dalaq daşı ilə üzbəüz ərazidə qeydə alınmışdır. Bu coğrafi ad ***yastı***, çaxmaq və ***daş*** sözlərindən ibarətdir. Bu çaxmaq daşı iki hissəyə bölünmüş ***yastı*** daşdır. Bu çaxmaq daşı ilə bağlı çoxlu əfsanə və rəvayətlər vardır. Onlardan birinin məzmunu təxminən belədir ki, bu *yastı çaxmaq daş* Həzrət Əlinin Zülfüqar qılıncının zərbindən paralanmışdır...

## YAYLAĞABAXAN

Xələfli kəndinin yaxınlığında qeydə alınan oronimlərdən biri ***Yaylağabaxan*** adlanır. Adından da göründüyü kimi, ***Yaylağabaxan*** toponimi ***yaylaq*** sözündən və ***baxan*** komponentindən ibarətdir. Həmin ərazi üzü ***yaylağa*** tərəf olduğu üçün belə adlandırılmışdır. Yay zamanı mal-qaranın otarıldığı əraziyə ***yaylaq*** deyilir. Maldarlıq meydana gəldikdən sonra yaylaqlardan geniş istifadə olunmuşdur. Azərbaycanda yaylaqların böyük əksəriyyəti dəniz səviyyəsindən ***2 800*** metrədək yüksəklikdədir. Böyük və Kiçik Qafqaz dağlarındakı alp və subalp çəmənlikləri qoyunçuluğun





qədim yaylaqları hesab edilir. Azərbaycanda *yaylaqların* demək olar ki, ***6 000*** ildən çox yaşı vardır. Yaylaqlardan Azərbaycanda indi də geniş istifadə edilir. Azərbaycan oronimiyasında çöl materialları içərisində ***yaylaq*** komponenti ilə bağlı yüzlərlə oronim qeydə alınmışdır.

## YAZDAĞ DÜZÜ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Yazdağ düzü*** adlanır. Toponim ***yaz (yazı), dağ*** və ***düz*** sözlərindən ibarət olub, *"çöldəki dağ", "dağ çölü", "çölün düzündə olan dağ"* anlamını bildirir. ***Dağ*** çölün orta hissəsində yerləşdiyi üçün belə adlandırılmışdır. ***Yazı*** sözü qədim türk dillərində *"çöl"* mənasını ifadə edir. Azərbaycan oronimiyasında bu tipli coğrafi adlara bir çox rayonların ərazisində rast gəlmək olar.

Məlumdur ki, respublikamızın ərazisinin ***30%***-dən çoxu ***düzənlik*** sahələrdən ibarətdir. Azərbaycan Respublikasının ərazisində adının tərkibində ***düz*** mənfi relyef forması bildirən coğrafi termininin iştirakı ilə ***11 000*** toponim qeydə alınmışdır.

## YAZI ÇÖLÜ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan coğrafi adlardan biri ***Yazı çölü*** adlanır. Oronim ***yazı*** və ***çöl*** sözlərindən ibarətdir. Qədim türk dillərində *"geniş düzənlik", "çöl", "səhra", "düzən"* mənalarında işlənən ***yazı*** sözünün çox qədim tarixi vardır. XI əsrdə yaşamış Mahmud Kaşğarinin *"Divani-lüğət ət-türk"* kitabında ***yazı*** sözünə də rast gəlirik. ***Yazı*** sözü vaxtilə *"çöl", "düz", "düzənlik"* sözlərini əvəz etmişdir. ***Yazı*** termini arxaikləşsə də toponimiyada öz izini qoruyub saxlamışdır. Hazırda Cəbrayıl rayonunun Mərcanlı şivəsində çölə ***yazı*** deyirlər.

Qubadlı rayonunun ərazisində, Bərgüşad və Həkəri çayları arasındakı düzənlik də ***Yazı düzü*** adlanır. Azərbaycanda bu tipli coğrafi adlara nümunə olaraq *Ağyazı, Ağcayazı, Qarayazı, Yazı çölü, Yazı düzü* və başqalarını nümunə göstərə bilərik.

## YAZILI DAŞ

Cəbrayıl rayonu ərazisində, qədim yaşayış məskəni olmuş Yalyurddakı *Qulu bulağı* ətrafında qeydə alınmış maraqlı oroqrafik obyektlərdən biri ***Yazılı daş*** adlanır. Adına bəzən ***Daş piri*** də deyirlər. ***Yazılı daş*** dedikdə bu bulağın növü və onun üzərində yazılmış ***yazı*** nəzərdə tutulur. ***Daş*** kitabədə olan ***yazı*** böyük Şıx Hacı Alı Çələbi tərəfindən yazdırılmış *Quran* ayəsidir. Yerli camaat bu *Yazılı daşı* əziz tutaraq onu müqəddəs hesab edirdilər.

## YEDDİLƏR PİRİ

Quşçular kəndinin ərazisində, kəndin günbatan girəcəyində qeydə alınan ornimlərdən biri ***Yeddilər piri*** adlanır. Bu ***pir*** tək armud ağacından və onun həndəvərindəki ***7*** sayda böyük daş hərləmələrdən ibarətdir. ***Yeddilər piri*** ətraf ərazilərdə yaşayan əhali tərəfindən müqəddəs inanc və güvənc yeri kimi əziz tutulurdu.

## YEL QUYUSU

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin yaxınlığında, Dəvəboynu aşırımının gündoğan üzündə qeydə alınan oroqrafik obyekt ***Yel quyusu*** adlanır. ***Yel*** komponenti *"külək"* anlamını ifadə edir. Əslində ***Yel quyusu*** kars mağarasından ibarətdir. Bu ***quyu*** haqqında ağızlarda əfsanələr dolaşmaqdadır. Yerli məlumatlara görə, bu quyunun (*mağaranın*) ondan 3 kilometr məsafədə yerləşən *Divlər sarayı* ilə əlaqəsi vardır. Məlumdur ki, Qarabağ müharibəsi zamanı erməni işğalı ilə əlaqədar olaraq Azərbaycanın dünya səviyyəli digər qiymətli arxeoloji abidələri (*Azıx mağarası, Tağlar mağarası* və s.) kimi Cəbrayıl rayonunun ərazisində yerləşən *Yel quyusu, Divlər mağarası* və s. tarixi abidələrimiz də düşmən əlinə keçmişdir. Təəssüflər olsun ki, ***Yel quyusu mağarası*** vaxtında arxeoloqlarımız, tarixçilərimiz tərəfindən lazımi səviyyədə araşdırılıb öyrənilmədi. Kim bilir, bəlkə bu quyu-mağarada da yüz min illər öncə qədim insanlar yaşamışlar...





## YEL PİRİ

Biz Cəbrayıl rayonunun ərazisində ***6*** yerdə ***Yel piri*** adlı coğrafi ada rast gəlirik. Onlardan biri Ceyran düzündə, ***Dərzili - Tinli*** yolunun gündoğanında yerləşir. Bu oroqrafik obyekt ətrafı daş hasar ilə əhatələnmiş ***dağdağan*** ağacından ibarətdir. Vaxtilə ***yel*** xəstəliyinə düçar olanlar onun başına dolanar, ağacın kölgəsində yatardılar. Sonra ağrıyan ətraflarına həmin hasarın daşlarından qoyardılar. Dağdağanın budaqlarından kəsib muncuqlar düzəldərək xəstə uşaqların boynundan asardılar. Bundan başqa quru çör-çöpdən yığıb, üzərlik, dəvə yunu, soğan qabığı, pişik tükü və duzla birlikdə yandırar, xəstə və qorxusu olan uşaqları həmin alovun tüstüsünə verərdilər.

Rayonun ***Cəfərabad*** və ***Çapand*** kəndlərinin yaxınlığındakı çaylaq kənarında da ***Yel piri*** oronimi qeydə alınıb. Bu ***pir*** nəhəng gövdəli çinar ağacından və ağacın dibindən axan müalicəvi əhəmiyyəti, soyuq suyu olan bulaqdan ibarətdir. Bulağın palçığından insanda olan yel ağrılarını götürmək üçün istifadə edilirdi. Belə ki, palçıq xəstənin ağrı olan ətraflarına (*ayaq, bel və s.*) sürtülər, sonra həmin adam bulağın şəfalı suyundan içib sağalardı. Bu pir Cəfərabad, Safarşa, Çapand, Horovlu kəndlərinin camaatının inanc yeri idi. Hər ilin axır çərşənbəsində camaat pirə toplanar, gecəni burada keçirər, niyyətlər edib çinarın budaqlarına, əl çatan yerlərinə ip, parça qırıqları bağlayar, bir-birlərinə gətirdikləri sovqatlardan verərdilər.

***Tinli*** kəndində, ***Göyçək*** adlı qadının qara damının ocaq yeri də ***Yel piri*** adlanırdı. ***Yel*** xəstəliyi olanlar niyyət edərək həmin ocağın başına fırlanırdılar. Ocaq sahibi də Ulu və Uca olan Allahdan həmin xəstə üçün şəfa diləyirdilər. Həmin ocağın sonuncu nümayəndəsi olan Şamama adlı qadın rayon ermənilər tərəfindən işğal edildikdən sonra ağır məcburi köçkün şəraitində yaşayaraq Bakı şəhərində dünyasını dəyişmişdir.

***Daşveysəlli*** kəndinin şimal-qərbində, *Hasan qışlağı kövşəni* adlı bir ərazidə qeydə alınan oroqrafik obyekt də ***Yel piri*** adlanır. Bu ***pir*** hündür dağ zirvəsində qərar tutmuşdur. Pirin ətrafı ***qaratikan*** kolluqlarından ibarətdir. ***Yel*** xəstəliyinə mübtəla olanlar *piri* ziyarət edər, ağrı olan bədən ətraflarını niyyət edərək pirdəki hasarın daşlarına sürtərdilər.

***Məlikli*** kəndinin yaxınlığında da ***Yel piri*** adlanan oroqrafik obyekt

qeydə alınmışdır. Bu ***pir*** Ağ güney dağının zirvəsində yerləşir. *Pir* daş və kaha hərləmədən ibarətdir. ***Yel*** xəstəliyi olan insanlar tez-tez bu pirə gəlib ondan şəfa diləyərdilər.

***Söyüdlü*** kəndinin şimal-şərqində, Quş bulağının yaxınlığında, mənzərəli meşə talasında qeydə alınan oroqrafik obyektlərdən biri də ***Yel piri*** adlanır. Bu ***pir*** kiçik daş topasından ibarətdir. Yerli əhalinin inancına görə burada övliya qəbri vardır. Ətraf kəndlərdə ***yel*** xəstəliyinə tutulan insanlar niyyətlə, diləklə ***piri*** ziyarət edər və sağalardılar.

## YEMİŞAN PİRİ

***Yemişan piri*** Papı kəndinin girəcəyində, Qaradağlı yurdu adlanan keçmiş əkin sahəsində qeydə alınmışdır. ***Yemişan piri*** oronimi ***yemişan*** bitki adından və ***pir*** sözündən ibarət olub, *"yemişanlı pir, ocaq"* mənasındadır. Bu ***pir*** ərazisindəki ***yemişan*** kolundan və dibinə yığılmış topa daş qalağından ibarətdir. ***Yemişan*** - gülçiçəklilər fəsiləsindən koldur, alçaqboylu ağac bitkisidir. Qırmızımtıl qara meyvəsi olan kol bitkisi və onun meyvəsi ***yemişan*** adlanır. Onun budaqları tikanlı, yarpağı lələkvarı dilimli, çiçəkləri ağ və ya qırmızı, meyvələri dəyirmi, yumurtavarı, meyvəsinin rəngi qırmızı, bəzən isə narıncı və qara olur. Təxminən ***1000***-ə qədər növü olan ***yemişan*** bitkisinin Azərbaycanda ***10*** növü vardır. Ürək-damar, qan təzyiqi və digər xəstəliklərin müalicəsində yemişandan istifadə olunur. Azərbaycanda *beşyuvalı* və başqa növ yemişanların çiçək və meyvələri tədarük edilir. Yemişanın bəzi növü dekorativ bitkidir. ***Yemişan*** ağacının çox güclü od-ocağı olur. O, həm də ***müqəddəs*** bitki hesab edilir.

Cəbrayıl rayonunun ərazisində, Çapand kəndinin yaxınlığında, Horovlu kəndinə tərəf uzanan dərənin başında da ***Yemişan piri*** oroqrafik obyekti qeydə alınmışdır. Bu ***pir*** iri ***yemişan*** ağacından və ağacın dibinə yığılmış iri daş qalağından ibarətdir. Azərbaycanda bu tipli fitonimlərdən düzələn toponimlər çoxdur.

***Pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab





edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca", "dini icmanın başçısı", "müqəddəs"* mənasını bildirir.

## YENİKƏND

***Yenikənd*** yaşayış məntəqəsinin adı iki hissədən – ***yeni*** və ***kənd*** sözlərindən ibarətdir. Oykonim *"yeni yaranmış yaşayış məntəqəsi"* mənasındadır. Toponimiyamızda ***yeni*** termini və ***kənd*** apelyativindən əmələ gəlmiş oykonimlər çoxdur. Bu tipli toponimlərə Azərbaycan Respublikasının digər rayonlarında da rast gəlmək mümkündür.

## YOLAŞAN PİRİ

Göyərçin Veysəlli kəndinin yaxınlığında, köhnə yurd yerində qeydə alınan oronimlərdən biri ***Yolaşan piri*** adlanır. Bu oroqrafik obyekt dağ qalağından ibarət hasardır. Yerli məlumata görə burada Şıx Hacı Qasım Çələbi namaz qılıbdır. İşğala qədər (*1993-cü ilədək*) ***Yolaşan (Yalaşan) piri*** ətrafda yaşayan əhali tərəfindən əziz tutularaq ziyarətgah hesab edilirdi. Bəzən oronimi sənədlərdə ***Yalaşan*** şəklində də görürük.

Göründüyü kimi, oronim ***yol*** və ***aşan*** (*aşmaq*) sözlərindən ibarətdir. Oronimiyada insanların və nəqliyyatın hərəkəti, yüklərin daşınması üçün nəzərdə tutulmuş müxtəlif yerüstü yolların ümumi adına ***yol*** deyirlər. Hələ qədimdən karvan yolları qovşağında yerləşən Azərbaycanda geniş ***yollar*** şəbəkəsi mövcud olmuşdur. Orta əsrlər dönəmində *karvan yolları* Azərbaycan şəhərlərini müxtəlif ölkələrlə birləşdirirdi. Tarixə müraciət edəndə görürük ki, oturaq kəndlilər arasında iqtisadi əlaqələr yaradan yollardan yarımköçəri maldarlar ***köç yolu*** kimi istifadə etmişlər. Azərbaycanda adları rəvayət və hadisələrlə bağlı müxtəlif köç yolları vardır. Hazırda Azərbaycanda xeyli geniş *avtomobil, su, hava* və *dəmir yol* şəbəkələri mövcuddur. ***Yolaşan*** toponimi həmin ərazidə yolun müəyyən qədər təpəlikdən ***aşması*** ilə bağlı belə ad almışdır.

Azərbaycanda ***pir-ocaq*** kultu, inanışı tarixin çox qədim çağlarına gedib çıxır. Keçmişin yadigarı olan ***pirlər*** adətən ziyarətgahlara çevrilmişdir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq inanışı*** Azərbaycanda

yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adları hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Yolaşan piri*** *cəbrayıllılar* üçün müqəddəs tapınaq yeri hesab edilirdi.

## YOVŞANLI DƏRƏ

Cəbrayıl rayonunun ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Yovşanlı dərə*** adlanır. Həmin dərədə çoxlu ***yovşan*** bitir. Toponim ***yovşan*** bitkisinin adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və ***-lı*** şəkilçisindən ibarətdir.

***Yovşan*** – mürəkkəbçiçəklilər fəsiləsindən olan kəskin qoxulu ot və yarımkol bitki cinsidir. Bir, iki və çoxillik ot və yarımkollardır. Hündürlüyü *3 - 150* sm-dək olur. Toxumu kiçik və uçağansızdır. Azərbaycanda ***30***-dan çox növü vardır. Bəzi növlərində efir yağları, turşular və maddələr var. Fitonimdən yaranan bu toponim həmin dərədə çoxlu ***yovşan*** kolları olduğu üçün belə ad almışdır.

## YOVŞANLI YAL

Qazanzəmi kəndinin qərbində, Abbasqulunun damından bir qədər yuxarıda qeydə alınan oroqrafik obyektlərdən biri də **Yovşanlı yal** adlanır. Oronim ***yovşan*** və ***yal*** sözlərindən, eləcə də ***-lı*** şəkilçisindən ibarətdir. Məlumdur ki, dağın ən hündür zirvəsinin yamacı oronimiyada yal termini ilə ifadə edilir. Müsbət relyef forması, bildirən ***yal*** coğrafi termininin iştirakı ilə Azərbaycan Respublikasının ərazilərində çöl materialları içərisində 550 oronim qeydə alınmışdır.

Toponimin tərkibindəki ***yovşan*** sözü bitki cinsi ifadə edir. Mürəkkəbçiçəklilər fəsiləsindən olan kəskin qoxulu ot və yarımkol bitki cinsi ***yovşan*** adlanır. ***Yovşan*** bir, iki və çoxillik ot və ya yarımkoldur. Yovşanların hündürlüyü 3-150 sm-dək olur. Toxumu kiçik və uçağansızdır. Azərbaycanda yovşanın 30-dan çox növü vardır. Bəzi növlərində efir yağları,





turşular və maddələr var. ***Yoşanlı yal*** coğrafi adı fitonimdən yaranan toponimdir. ***Yalın*** təpəsində çoxlu yovşan kolları olduğu üçün toponim belə adlandırılmışdır.

## YUXARI KƏHRİZ

Niyazqulular kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri də ***Yuxarı kəhriz*** adlanır. Bu hidronim ərazidəki digər bir kəhrizdən ***yuxarı***, üst, yüksək hissədə yerləşdiyinə görə ***Yuxarı kəhriz*** adlanmışdır. ***Kəhriz*** – qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya deyilir. O, maili lağım şəbəkəsindən ibarətdir. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. *Kəhrizlər* adətən peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin suyunu çoxaltmaq üçün bəzən su verən baş quyudan bir neçə istiqamətdə lağım da atılır. Kəhrizin suyu təmiz və saf olur. ***Kəhrizlər*** fəsillərdən asılı olmayaraq müntəzəm su verir. Kəhrizlərin suyundan su təchizatında və suvarmada geniş istifadə olunur. Azərbaycanda kəhriz sistemi e. ə. I əsrdən mövcuddur. Tarixi sənəd və materiallarda XX əsrin ortalarında Azərbaycan Respublikasının ərazisində ***900***-dən çox ***kəhriz*** olduğu öz əksini tapmışdır.

Əlavə məlumat üçün bax: **Aşağı kəhriz.**

## YUXARI MARALYAN KƏNDİ

***Yuxarı Maralyan kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 20 kilometr cənub-şərqdə, Karxulu kənd inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisi 250 nəfərdir. Heyvandarlıq, taxılçılıq, baramaçılıq və üzümçülük əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə əsas məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

***Maralyan*** kəndinin yaranması bəzi tədqiqatçıların fikrincə, Cənubi Azərbaycanın ***Maraluy*** kəndindən çıxmış ailələrin XIX əsrdə (əsrin əvvəllərində) şimala köçərək burada məskunlaşması ilə əlaqədardır. 1823-cü il məlumatına görə, kənd Cəfərqulu ağaya məxsus imiş (*1823-cü il si-*

*yahıyaalınması, Moqilevski, Yermolov).*

***Maralyan*** toponimi ***Maraluy*** sözündən və fars dilindəki ***-an*** cəm şəkilçisindən ibarət olub *"maraluylular"* mənasındadır. Əslində kəndin adı ***Yuxarı Maraylan*** olmalıdır. Toponim *"yuxarıdakı isti, ilanlı yer məskəni"* mənasındadır. Toponimin adındakı ***Yuxarı*** sözü onu digər yaşayış məntəqəsindən fərqləndirmək üçündür. Rayonda ***Aşağı Maralyan kəndi*** də vardır.

***Maralyan kəndi*** ilə bağlı bir neçə əfsanə və rəvayət də mövcuddur. Bir əfsanədə deyilir ki, ***Maral*** adlı həmin kənddə yaşayan gözəl bir qız sevgilisinin vüsalına çata bilmədiyi üçün özünü yandırır. Camaat da onun xatirəsini əbədiləşdirərək bu yaşayış məntəqəsini ***Maral yanan (Maralyan)*** adlandırır...

Kəndin adı ilə əlaqədar belə bir maraqlı toponimik rəvayət də vardır: *Keçmişdə* ***Maralyan*** *kəndinin camaatı əkinçiliklə məşğul olurmuş. Lakin əkin sahəsi azlıq etdiyindən sakinlər yaxındakı kiçik meşəni yandırmağı qərara alırlar. Kənd camaatının ağsaqqalı dünyagörmüş bir adam idi. Nahaq işə yol verməyən, gücsüzü güclüyə döydürməyən, ədaləti insaf tərəzisi ilən bu qoca ehtiyatla yeriyirdi ki, ayağının altında bir günahsız qarışqa da qalıb əzilməsin. Ona görə o el ağsaqqalı rəiyyətinə deyir:*

*- Onsuz da ağacı yandıranda günaha batacağıq. Barı elə edin heyvanat aləmindən bir canlı qalmasın, hamısını qovub böyük meşəyə köçürün.*

*Camaat ağsaqqalın məsləhətini canla-başla yerinə yetirir. Sonra meşəyə od vururlar. Yeri şumlayıb taxıl əkirlər. Həmin il yaxşı buğda yetişir. Oraqlar işə düşür. Sarı buğda xırmanlarda tayalanır. Hamı bu bol məhsula sevinir. Camaat məhsul bayramına toplaşıb şənliyə başlayırlar. Bu ara kəndçilərdən biri yanıb kösövə dönmüş bir* ***maral*** *balasını ağsaqqalın hüzuruna gətirib, günahkarın tapılmasını tələb edir. Elə bil şənliyə su səpilir. Hamı yanmış* ***maral*** *balası üçün heyfslənir, onun halına acıyır. İşbilənlər aydınlaşdırır ki, heç kim bu* ***maral*** *balasına qəsd etməmişdir. Sən demə körpə dərəyə sıçrayarkən burxulub ayaqları sınmış, qaçıb canını alovdan qurtara bilməmişdir. El ağsaqqalı kədərlə köksünü ötürüb deyir:*

*- Bilmədim,* ***maral yana.***

*O gündən həmin kənd ağsaqqalın bu sözü ilə* ***Maralyan*** *adlanır...*

Əlbəttə, bütün əfsanə və rəvayətləri həqiqət kimi qəbul etmək sadəlövhlük olardı...

Əlavə məlumat üçün bax: **Aşağı Maralyan kəndi.**





## YUXARI MƏRCANLI KƏNDİ

***Yuxarı Mərcanlı kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 23 kilometr cənub-şərqdə, Mincivan-Horadiz dəmir yolu kənarında, Böyük Mərcanlı inzibati ərazi vahidində, Mərcanlı dəmir yolu stansiyası yaxınlığında, düzənlik ərazidə yerləşir. Əhalisinin sayı ***4 100*** nəfərdir. Taxılçılıq, heyvandarlıq, üzümçülük, tərəvəzçilik və baramaçılıq əhalinin əsas məşğuliyyəti hesab olunurdu. Kənddə orta məktəb, kitabxana, klub, kinoqurğu, tibb məntəqəsi, uşaq bağçası, park, stadion, müxtəlif ticarət-iaşə obyektləri və s. vardı. ***Mərcanlı kəndi*** 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir.

***Mərcanlı nəsli*** Qarabağda yaşayan ***otuzikilər*** türk tayfa birliyinin bir qoludur. XIX əsrdə Qarabağ xanı İbrahimxəlil xanın oğlu Cəfərqulu xanın mülkü olmuş indiki Bərdə rayonunun Ləmbəran kəndinin əhalisi ilə Böyük Mərcanlı yaşayış məntəqəsinin sakinlərinin qohumluğu var. ***Böyük Mərcanlı*** yaşayış məntəqəsindən köçən bir qrup ailə yaxınlıqda yerləşən yeni bir yaşayış məntəqəsinin - ***Yuxarı Mərcanlı*** kəndinin əsasını qoymuşdur. Həmin dövrdən də bu yaşayış məntəqəsi ***Yuxarı Mərcanlı kəndi*** adlanmağa başlamışdır. ***Yuxarı*** sözü ***kəndi*** eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilmişdir.

***Mərcanlı*** toponimini *mərcanlı* formasında (tayfa adı kimi) izah edənlər də var. Tarixi məlumatlara görə, türkdilli ***Mərcanlı eli*** Azərbaycana XVI əsrdə Türkiyədən gəlmişlər. ***Mərcanlı*** sözünü ***mərdcanlı*** kimi izah edənlər də var.

***Mər*** komponentini *Maq* midiya tayfalarının tapınaq hesab etdiyi ***mar*** (*"ilan"*) ilə bağlayan araşdırıcılar da var. ***Mar-Mər*** dil dönümü, keçidi *"a"* - *"ə"* səs əvəzlənməsi) də məlumdur...

Əlavə məlumat üçün bax: **Böyük Mərcanlı kəndi.**

## YUXARI MƏZRƏ KƏNDİ

***Yuxarı Məzrə kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 11 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisinin sayı 120 nəfərdir. Əhalisi əsasən heyvandarlıq və taxılçılıq ilə məşğul

olur. Kənddə kitabxana, ticarət obyekti və s. vardı. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdir.

Məlumdur ki, ***məzrə*** toponimi ərəb dilində *"əkin üçün yararlı yer", "şum yeri", "əkin yeri, tarla", "əkin yerləri əsasında yaradılan məntəqə, oba, kiçik yaşayış məntəqəsi", "düzən yerdə əkin", "suvarıla bilən əkin yeri"* mənalarındadır. Bu söz fars dilində də *"əkin yeri"* mənasını ifadə edir. Oykonimin tərkibindəki ***yuxarı*** sözü onu eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün coğrafi ada əlavə edilmişdir.

XVIII və XIX əsrlərə aid tarixi mənbələrə görə, Cəbrayıl elinin ***18*** oymağından biri olan ***Məzrəli*** obası *Uzundərə* adlanan ərazi torpaqlarında məskunlaşmışdır.

Azərbaycan Respublikasında ***Məzrə*** adı ilə bağlı bir neçə oykonim mövcuddur: Qubadlı, Ordubad rayonlarında *Məzrə kəndi*, İmişli rayonunda *Məzrəli kəndi və s.*

İrəvan əyalətinin Zəngəzur qəzasında da vaxtilə azəri türklərinin yaşadıqları *Məzrə kəndi* mövcud olmuşdur.

Əlavə məlumat üçün bax: **Aşağı Məzrə kəndi.**

## YUXARI NÜSNÜS KƏNDİ

***Yuxarı Nüsnüs kəndi*** Cəbrayıl rayonunda, rayon mərkəzindən 12 kilometr şimal-qərbdə, Xələfli inzibati ərazi vahidində, dağətəyi ərazidə yerləşir. Bəzi sənədlərdə kəndin adı ***Yuxarı Nüsüs*** kimi də qeyd olunur. Əhalisi 330 nəfərdir. Heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıq əhalinin məşğul olduğu əsas kənd təsərrüfatı sahələrindən hesab olunurdu. Kənddə kitabxana, klub, tibb məntəqəsi, ticarət obyekti və s. vardı. ***Yuxarı Nüsnüs*** (***Nüsüs***) kəndinin ərazisində xeyli coğrafi adlar - *Abidin piri, Ağdam yalı, Ayı bulağı, Çaxmaq çayı, Çələbi babanın çevirməsi, Daş bulaq, Gödək burun, Göy gədik, Hafizə nənənin çevirməsi, Hov düzü, Kalafalı dərə, Kavın yalı, Kejaflı çalası, Kifrik quzeyi, Kotan yalı, Qaraş təpə, Qızıl qaya, Qoturqoz dərəsi, Pirin dərəsi, Nüsüs kəhrizi, Sirik qalası, Suqra nənənin ocağı, Tey dağı, Yantəpə* və s. toponimlər qeydə alınmışdır. Yaşayış məntəqəsi 1993-cü ildə erməni işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur.





Bəzi tədqiqatçıların fikrincə, ***Nüsnüs*** toponimi bir qədər təhrifə uğramışdır. Bu oykonim tayfa adı ilə əlaqədar yaranmış coğrafi adlardandır. Əslində bu oykonimin adı ***Yuxarı Nousus kəndi*** şəklində olmalıdır. Kəndin adı fars dilindəki ***nou*** və ***sus*** sözlərindən ibarətdir. ***Nou*** farsca *"yeni, təzə"* deməkdir. Yakut türklərində ***nıs*** sözünün *"iş"* anlamı da var.

***Nüsnüs*** toponimi *"yeni Sus kəndi"* mənasındadır. ***Nüsnüs*** yaşayış məntəqəsini çox ehtimal ki, həmin kəndlərdən çıxmış ailələr burada salmışlar. ***Nüsnüs*** toponimi ilə bağlı başqa fikirdə olan tədqiqatçılar da vardır. Oykonimin tərkibindəki ***Yuxarı*** sözü onu digər yaşayış məntəqəsindən fərqləndirmək üçündür.

Laçın rayonunda *Sus*, Xocavənd rayonunda isə *Sos* kəndləri vardır. Ordubad rayonunda ***Nüsnüs*** adlı kənd və mineral su bulaqları da var.

Əlavə məlumat üçün bax: **Nünüs kəndi.**

## YUMRUTƏPƏ

Azərbaycanda formasına, reylef quruluşunun xarici görünüşünə görə adlandırılan metaforik oronimlər çoxdur. Bu oronimləri əmələ gətirən terminlər obyektin ümumi formasına - ***yumru***, *uzun, enli, dar, hündür, yastı, gen, girdə,* əyri olmasına aid edilir.

Cəbrayıl rayonu ərazisində qeydə alınan ***Yumrutəpə*** (bəzən mənbələrdə adı ***Yumurtəpə*** kimi də yazılır) coğrafi adı da yuxarıda qeyd etdiyimiz oronimlərdəndir. Bu oroqrafik obyektə relyef formasının ***yumru***, *dairəvi, girdə, dairəvi kürə, yuvarlaq, top* şəklində olmasına görə belə ad verilmişdir. Toponimin tərkibindəki ***təpə*** coğrafi termini müsbət relyef-forması bildirir.

Qubadlı, Zəngilan, Gədəbəy və Laçın rayonları ərazisində də ***Yumrutəpə*** oronimi qeydə alınmışdır. Qərbi Azərbaycanda (*Ermənistanda*) ***Yumrutəpə*** coğrafi adı da (*İrəvan qəzasında*) vardır.

## YURD YERİ

***Yurd yeri*** coğrafi adı Cəbrayıl rayonunun Göy gədik adlanan ərazisində qeydə alınmışdır. Adına bəzən ***Həvəzə Çələbinin Qalaq yeri*** də deyirlər. Deyilənlərə görə yay mövsümlərində ***Həvəzə Çələbi*** burada muxur qurdurar, istirahət edərmiş. O, sürgün edildikdən sonra bura onun qardaşı oğlu Əli Çələbinin ən sevimli *yaylaq yeri* olmuşdur. ***Yurd*** termini dedikdə *"insanın doğulub boya-başa çatdığı yer", "yaşayış yeri", "ev", "ev-eşik", "məskən"* başa düşülür.

## YUYAT *(YUAT)* PİRLƏRİ

Qazanzəmi kəndinin yaxınlığında, Hacanur zirvəsinin arxa hissəsində, Ulaslı dərəyə gedən yolun sağ və sol kənarında qeydə alınan oroqrafik obyekt ***Yuyat (Yuat)*** pirləri adlanır.

Bu ***pirlər*** naməlum övliyanın adı ilə bağlı olan iki nişangahlı pirdir. Sağ tərəfdə övliyanın daş qalağı altında qalmış qəbri vardır. Qəbrin yanında yarıqurumuş gövdələri olan böyük ağcaqayın ağacları var. Yolun sağ hissəsində isə həmin övliyanın ***yuyat (yuat)*** yeri vardır. Daş hərləmələri olan hər iki nişangah ***pirlər*** yerli əhali tərəfindən müqəddəs hesab edilirdi. Yerli camaat və yaxın ətraflarda yaşayan sakinlər hər iki piri tez-tez ziyarət edər, üzərinə nəzir-niyaz qoyardılar.





# "Z"

## ZAMAN PİRİ

***Zaman piri*** Cəbrayıl rayonunun Çərəkən kəndi ərazisində, kəndin günbatanında, Çərəkən kəndindən Cəbrayıl rayonununa aşan piyada yolun üstündə yerləşir. Bu ***pir*** yemişan kolundan və dibinə qalaq edilmiş daş topasından ibarətdir. ***Zaman piri*** yerli camaatın müqəddəs inanc yerlərindən biri hesab edilir. Bu ***pir*** ilə bağlı çoxlu əfsanə və *rəvayətlər* uydurulmuşdur.

Məlumdur ki, ***pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. *Pirlər* tarixən hələ uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. Pirlər əhali tərəfindən müqəddəs hesab olunur. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını indiyə qədər itirməmişdir. Pirlərdə kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. ***Pir*** sözü fars dilində *"nurani qoca", "dini icmanın başçısı", "müqəddəs"* mənasını bildirir. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər.

## ZƏRLİ DƏRƏLƏR

Rayonun Horovlu kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri ***Zərli dərələr*** adlanırdı. Oronim ***zər*** və ***dərə*** sözlərindən, eləcə də ***-li*** və ***-lər*** şəkilçilərindən ibarətdir. Toponimin tərkibindəki ***-lər*** şəkilçisi cəmlik ifadə edir. Bu yerlər, bu ***dərələr*** uzaqdan baxanda işıqlı, nurlu - sarı, qızılı rəngdə görünürdi. Toponim bəlkə elə bu səbəbdən belə ad almışdır.

***Zər*** sözünün ərəb dilində *"əkin"* mənası da vardır. Doğrudan da bu dərənin torpağı əkin üçün çox yararlı idi.

## ZİYADXAN PİRİ

***Ziyadxan piri*** Fuğanlı kəndinin şimal-qərbində, yal tilində qeydə alınmışdır. Bu ***pir*** daş hasara alınmış qəbirdən ibarətdir. Deyilənə görə qəbir ***Ziyadxan*** adlı bir ürfan sahibinə məxsusdur. Hasarın içərisində *dağdağan* ağacı vardır. Bu ***piri*** ziyarətə əsasən övlad həsrətində olan qadınlar gələr, niyyət edib ağacın budaqlarına, ləläklərinə ip, sap bağlayar, yüyürcəklər asardılar.

***Pir*** – dini etiqad və inamla bağlı ibadət və sitayiş yeridir. O, uzaq bütpərəstlik dövründən məlumdur. Azərbaycanın bəzi zonalarında ***pir*** əvəzinə ***ocaq*** ifadəsi də işlədilir. Əhali onları müqəddəs hesab edir. ***Pir-ocaq*** inanışı Azərbaycanda yaranan atəşpərəstlik və bura kənardan gətirilən xristian, islam dinlərinin təsirinə məruz qalsa da, yaşantısını hələ də itirməmişdir. Pirlərdə, ocaqlarda kəsilən qurbanlar qutsal sayılır. Ora gətirilən paltar, pul, çay və qənd bəxşiş kimi orada qalır. ***Pir*** adlarında antroponim və etnonimin işlənməsi hər ulusun, elin öz tapınağı olduğunu göstərir. ***Pirlər*** ta qədimdən sağalmaz dərdlərə düçar olanların və qəlbində niyyət tutanların nəzir-niyaz, ibadət yeri olmuşdur. Azərbaycanlıların əksəriyyəti pirləri ziyarətgah, ümidgah hesab edirlər. ***Pir*** sözü fars dilində *"nurani qoca"*, *"dini icmanın başçısı"*, *"müqəddəs"* mənasını bildirir.

## ZİYARƏT DAĞI, ZİYARƏT MƏBƏDİ

***Ziyarət dağı*** Cəbrayıl şəhərindən təxminən 15 kilometr məsafədə, dəniz səviyyəsindən 2200 metr hündürlükdə yerləşir. Burada ***Ziyarət məbədi*** (bəzən adına ***Ağoğlan məbədi*** də deyirlər) vardır. Oronimin tərkibindəki ***dağ*** coğrafi termini müsbət relyef forması ifadə edir. Bu ***dağ*** yerli camaat tərəfindən müqəddəs ***pir*** kimi əziz tutulur. Burada - miladdan öncəyə aid edilən məbəddə tonqal yeri var. Sonralar ***məbəd*** İslam ziyarətgahına çevrilmişdir. *Ziyarətçilər burada ancaq ev quşlarından qurbanlar* kəsir; niyyət edib Ulu Tanrıdan niyyətlərinin müstəcab olmasını diləyirlər. ***Ziyarət məbədi*** (***piri***) cəbrayıllıların, xüsusilə də *Tumas, Əhmədli, Sirik* kəndlərinin əhalisi üçün müqəddəs ***inanc*** yeridir.

Bu məbədlə bağlı əfsanələr, rəvayətlər uydurulmuşdur. Rəvayətlər-





dən birinə görə, orada bir sərkərdənin evlənmək təklifini rədd etdiyi üçün öldürülən bir *qız* dəfn olunmuşdur. Professor Z.Yampolski həmin qəbir-abidəni xaçpərəstlikdən qabaqkı dövrlərə aid edir. Dağın zirvəsində adına ***Ocaqqalanan*** deyilən məbəd də vardır. Professor Z.Göyüşovun fikrincə, bu abidə əvvəlcə alban kahinlərinin ibadətgahı olmuş, sonralar müsəlmanların ***ziyarətgahına*** - ***pirə*** çevrilmişdir. Əhali bu yerləri tez-tez ***ziyarət*** etdiyi üçün oronim belə ad almışdır.

***Ziyarət*** sözü *"hörmət əlaməti olaraq birini görməyə, kiminləsə görüşməyə gəlmə, görüşə gəlmə, vizit, hörmət, xatırlama əlaməti olaraq müqəddəs sayılan yerləri, qəbirləri və s. gedib görmə"* kimi mənalandırılır. İnsanlara görə bu mənalar dağlar üçün də səciyyəvi xarakter daşıyır.

## ZOĞALLI BULAQ

Tumaslı dağının yaxınlığında, Zoğallı dərədə, dağətəyi ərazidə qeydə alınan hidronim ***Zoğallı bulaq*** adlanır. Toponim ***zoğal*** ağacının adından, ***bulaq*** hidronimik apelyativindən və ***-lı*** şəkilçisindən ibarətdir. ***Bulaq*** yerləşdiyi ərazidə çoxlu sayda ***zoğal*** ağacları bitdiyi üçün hidronim belə adlandırılmışdır. ***Zoğal*** - yeməli, qırmızı meyvəsi olan bərk oduncaqlı ağacdır. Bulağın şirin və soyuq suyu vardır. Azərbaycanda fitonimlərdən düzələn bu tipli toponimlər çoxdur.

## ZOĞALLI DƏRƏ

Dağ Tumas kəndindən 5 kilometr aralıda, Qənşər təpənin cənub oturacağında qeydə alınan oronimlərdən biri ***Zoğallı dərə*** adlanır. Oronim ***zoğal*** bitkisinin adından, ***dərə*** mənfi relyef forması bildirən coğrafi termindən və ***-lı*** şəkilçisindən ibarətdir. Ərazidə çoxlu sayda ***zoğal*** ağacları olduğundan bu oroqrafik obyekt belə adlandırılmışdır. Toponim *"zoğal ağaclarının çox olduğu dərə"* mənasındadır. El arasında ***Zoğallı*** dərənin adına bəzən ***Şəlli dərə*** də deyirlər. Azərbaycanda fitonimlərdən düzələn toponimlər çoxdur.

## ZOLAQLAR

Dağ Tumas kəndindən 6 kilometr məsafədə, Köhnə qalanın quzey yamacında qeydə alınan oronimlərdən biri ***Zolaqlar*** adlanır. Adına ***Zolaqlar*** sahəsi deyilən yer keçmişdə kənd əhalisinin bir-birinə paralel yerləşən kiçik ölçülü uzunsov əkin sahələrindən ibarətdir. Toponim zahiri görkəminə (***zolaqlara*** bənzədiyinə) görə belə ad almışdır. ***Zolaq*** termini *"bir endə olan uzun forma", "bir şeyin bir endə olan dar, uzun parçası", "bir sahənin, səthin və başqa bir şeyin ümumi fon üzərində hər hansı bir əlaməti ilə fərqlənən uzanmış hissəsi", "bir şeyin uzanıb gedən hissəsi", "qurşaq", "sahə", "zona", "dar şum sahəsi", "enli xətt"* anlamlarını ifadə edir.

## ZUNQUR BAĞÇASI

Cəbrayıl rayonunun ərazisində, Dağ Tumas kəndinin 5 kilometrliyində, Çinarlı meşəsi ilə İncə çayının qovşağında yerləşən ***Zunqur bağçası*** otaylı-butaylı geniş çəmənliklərdən ibarətdir. Bu bağçada çoxlu sayda ağaclar, kollar və güllər vardır. ***Zunqur bağçası*** toponiminin mənası ilə bağlı müxtəlif fikir və mülahizələr mövcuddur...





## BƏZİ XRONOLOGİYA

***(1990, 1991, 1992 və 1993-cü illərin rayon ilə bağlı bəzi hadisələri)***

### 1990-cı il

***4 iyul - Cəbrayıl rayonu*** ərazisində *"Fövqəladə Vəziyyəti ləğv etmək"* haqqında SSRİ Prezidenti fərman verir...

***21 noyabr - Qışlaq kənd*** və kəndin ərazisində yerləşən milis postu ermənilər yaşayan məntəqələrdən müxtəlif silahlardan atəşə tutulur...

***3 dekabr - Sirik, Yuxarı Məzrə, Doşulu*** kəndləri ermənilər tərəfindən atəşə tutulur. Yuxarı Məzrə kəndinə hücum olunur...

### 1991-ci il

***23 fevral - Nüsüs, Qışlaq, Süleymanlı*** kəndləri atəşə məruz qalır. Ermənilər tərəfindən Qışlaq kəndinə hücum edilir...

***17-18 mart - Qışlaq, Süleymanlı, Doşulu, Quşçular*** kəndləri atəşə məruz qalır...

***22 mart - Sur kəndi*** ermənilərin atəşinə məruz qalır...

***25-27 mart - Süleymanlı, Qışlaq*** kəndləri erməni hərbi birləşmələri tərəfindən atəşə tutulur...

***28 mart - Dolanlar*** kəndinə gedən *"KamAZ"* maşını ermənilər tərəfindən partladılır. Nəticədə 2 nəfər həlak olur, 1 nəfər yaralanır. ***Qışlaq, Doşulu, Sirik, Süleymanlı*** kəndləri atəşə tutulur. ***Tatar, İsaqlı, Şıxlar*** kəndlərinə ermənilər tərəfindən hücumlar olunur...

***30 mart - Çələbilər*** və ***Şıxlar*** kəndləri atəşə tutulur...

***1-5 aprel - Qaracallı, Quşçular, Qışlaq, Süleymanlı, Sirik*** kəndləri atəşə məruz qalır.

***10 aprel - Sirik, Qışlaq, Süleymanlı*** kəndləri atəşə tutulur. ***Yuxarı Məzrə*** kəndində yerləşən post atəşə tutulur...

***17 aprel - Doşulu kəndi,*** ermənilər tərəfindən atəşə tutulur...

***20 aprel - Qışlaq, Doşulu. Daşbaşı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

*21 aprel* - *Süleymanlı, Qışlaq, Nüsüs, Daşbaşı, Sirik, Sur* kəndləri atəşə tutulur...

*28 aprel* - *Cəbrayıl şəhəri* və *Süleymanlı kəndi* ermənilər tərəfindən atəşə tutulur...

*20 may* - *Süleymanlı, Qışlaq, Sirik, Dolanlar kəndləri* və *Cəbrayıl şəhəri* ermənilər tərəfindən atəşə tutulur...

*21 avqust* - *Şayaq* postuna gedən avtobus ermənilər tərəfindən partladılır. Nəticədə *1* nəfər həlak olur, *3* nəfər yaralanır...

*14 sentyabr* - *Zamzur kəndi* ətrafında Cəbrayıl rayon polisinin *"UAZ 469"* markalı maşını partladılır. Nəticədə *2* polis əməkdaşı həlak olur...

*30 sentyabr* - Daşnaq terrorçu qrupu *Ağcakənd* polis postuna qəflətən hücum edirlər. *Yəhya Ağayev, Pənah İsmayılov, Əlövsət Məmmədov* ağır yaralanırlar...

*15 noyabr* - *Şayaq postu* ermənilər tərəfindən atəşə tutulur, hücuma məruz qalır. *4* azərbaycanlı polis işçisi həlak olur, *5* nəfər yaralanır. Şayaq postu ermənilərin əlinə keçir. *Zamzur kəndi* hücumla ermənilər tərəfindən alınır. Nəticədə *4* nəfər (**Kazım Məmmədov, Elçin Aslanov, Şükür Abdullayev** və daha **1 nəfər**) həlak olur...

*23 dekabr* - *Daşbaşı kəndi* ermənilərin güclü hücumuna məruz qalır. Nəticədə *2* nəfər polis işçisi (**Zakir Zalov, Çingiz Qasımov**) həlak olur, *2* nəfər isə ağır yaralanır...

**1992-ci il**

*1 iyun* - *Qışlaq kəndi* ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulur...

**13 iyun** - *Cəbrayıl şəhəri* ermənilər tərəfindən müxtəlif silahlardan atəşə məruz qalır...

*15 iyun* - *Cəbrayıl şəhəri, Qışlaq* və *Sur* kəndləri atəşə tutulur...

*28 iyun* - Qəhrəman döyüşçülərimiz uğurlu *Sur* əməliyyatını həyata keçirərək kəndi ermənilərdən azad edirlər. İtkilər də olur...

*28 iyun* - *Cəbrayıl* **şəhəri** atəşə tutulur. Nəticədə 30 adam yaralanır, şəhərdə tələfat və dağıntılar var...

*2 iyul* - *Şayaq kəndi* istiqamətində döyüşlər gedir...





*3 iyul* - *Cəbrayıl şəhəri,* bir sıra yaşayış məntəqələri atəşə tutulur. Dağıntı var, bir nəfər həlak olur...

*13 iyul* - *Sur* və *Qışlaq* kəndləri ermənilər tərəfindən atəşə tutulur...

*22 iyul* - *Sur kəndi* ermənilər tərəfindən atəşə məruz qalır...

*29-30 iyul* - *Daşbaşı, Sur, Süleymanlı* kəndləri ermənilər tərəfindən atəşə tutulur. Süleymanlıda 3 nəfər yaralanır...

*3 avqust* - *Sur kəndi* atəşə tutulur. Tələfat və dağıntılar olur...

*12 avqust* - *Sur* və *Doşulu* kəndləri ermənilər tərəfindən atəşə tutulur...

*13 avqust* - *Cəbrayıl* cəbhəsində ağır döyüşlər gedir...

*15 avqust* - *Cəbrayıl* cəbhəsində uğursuz *"Şişqaya əməliyyatı"* həyata keçirilir. Bu hücum əməliyyatı iflasa uğrayır. Nəticədə **40** nəfər Azərbaycan əsgəri həlak olur, *110* nəfər isə yaralanır. Cəbrayıl rayonu istiqamətində, erməni quldurları ilə döyüşdə, *Şişdağ* deyilən ərazidə güclü hücum zamanı Azərbaycan əsgərləri - **Ələddin Şükür oğlu Həşimov** *(5 may 1962, Saatlı)*, **Əli Sədim oğlu Məhəmmədov** *(4 noyabr 1964, Saatlı)*, leytenant **Həbibulla Musa oğlu Suliyev** *(28 yanvar 1968, Saatlı)*, **Natiq Kamal oğlu Süleymanov** *(1 noyabr 1961, Şəmkir, Çinarlı)*, **Əligüşad Ağacavad oğlu Cavadov** *(1 iyun 1968, Saatlı)*, **Mirsayad Zülfüqar oğlu Həsənov** *(1967, Basarkeçər, Kiçik Məzrə)*, **Mirsəyad Zülfüqar oğlu Bayramov** *(17 may 1967, Bakı şəhəri, Nizami rayonu)*, **Bayram Fəxrəddin oğlu Məmmədov** *(Gəncə)*, *"Azərbaycan Bayrağı"* ordenli **İlqar Qabil oğlu Məmmədov** *(8 aprel 1974, Bakı, Binəqədi rayonu, Biləcəri qəsəbəsi)*, **Sərməz Allahqulu oğlu Zeynalov** *(1 yanvar 1969, Bakı şəhəri, Sabunçu rayonu)*, **Hafiz Maarif oğlu Əliyev** *(1958, Bakı şəhəri, Nərimanov rayonu)*, **Salman Yolçu oğlu Həsənov** *(13 dekabr 1970, Sumqayıt)*, **Firdovsi Əmrah oğlu Osmanov** *(Gəncə)*, **Rövşən Həsən oğlu Əliyev** *(25 mart 1958, Goranboy rayonu, Əzizbəyov kəndi, Gəncə)*, **Murad İsmayılxan oğlu Mehbalıyev** *(1 iyun 1968, Saatlı)*, **Alış Alışan oğlu Məmmədov** *(17 yanvar 1970-ci il, İmişli şəhəri)*, **Nazir Ələkbər oğlu Məmmədov** *(Bakı)*, **Murad Dövlət oğlu Muradov** *(16 aprel 1970, Saatlı)*, **Zahid Aydın oğlu Əsgərov** *(29 avqust 1962, Saatlı)*, **İlqar Məhəmməd oğlu Qasımov** *(Sabirabad)*, **Asəf Ağası oğlu Məmmədov** *(Gəncə)*, **Pənah Kamran oğlu Şükürov** *(Cəbrayıl, Çərəkən kəndi)*, **Mahmud Həbib oğlu Allahverdiyev** *(Cəbrayıl, Çullu kəndi)*, **Ramiz Süleyman oğlu Xudiyev** *(Cəbrayıl, Daş Veysəlli kəndi)*, **Azər Hümbət oğlu Aslanov** *(Cəbrayıl, Daş Veysəlli kəndi)*, **Elşən Gü-**

loğlan oğlu Allahverdiyev *(Cəbrayıl, Mərcanlı kəndi)*, **Füzuli Qulu oğlu Zamanov** *(Cəbrayıl, Balyand kəndi)*, **Savalan Ömər oğlu Quliyev** *(Cəbrayıl, Daş Veysəlli kəndi)*, **Faiq Nazim oğlu Mehdiyev** *(20 yanvar 1971, Cəbrayıl şəhəri)*, **Mirələm (Sahib) İslam oğlu Quliyev** *(26 dekabr 1968, Cəbrayıl, Qaracallı kəndi)*, **Şahin Yaqub oğlu Qasımov** *(Cəbrayıl, Karxulu kəndi)*, **Arif Şamxal oğlu Hüseynov** *(Cəbrayıl, Daşkəsən kəndi (ağır yaralandığından 1 gün sonra dünyasını dəyişir))*, **Şərif Məhərrəm oğlu Şükürov** *(1970, Cəbrayıl (ağır yaralandığından 5 gün sonra dünyasını dəyişir))* və daha bir neçə nəfər həlak olurlar. ***100*** nəfərdən çox əsgərimiz – ***Namiq Mürsəl oğlu Abdullayev*** (1967, Gəncə), ***Rafiq Ümidvar oğlu Əhmədov*** (1962, İmişli), ***Canəli Cəfər oğlu Nəsirov*** (1970, İmişli), ***Elşən İslam oğlu Abbasov*** (1964, Bakı), ***Bahadur Kərəm oğlu Eyvazov*** (1973, Cəbrayıl, Quycaq kəndi), ***Tahir Nağıyev*** (1959, Gəncə), ***Üzeyir Hümbət oğlu Behbudalıyev*** (1973, Cəbrayıl, Mərcanlı kəndi), ***İslam Allahverdi oğlu Həsənov*** (1967, Gəncə), ***Vaqif Rəvan oğlu İmranov*** (1973, Cəbrayıl, Məzrə kəndi), ***Salman Məmməd oğlu Məmmədov*** (1971, Cəbrayıl, Hasanlı kəndi), ***Elçin Rəşid oğlu Məmmədov*** (1966, Gəncə), ***Firat Əli oğlu Məmmədov*** (1967, Cəbrayıl), ***Nail Şamil oğlu Axmedşin*** (Gəncə), ***Arzu Qədir oğlu Quliyev*** (1961, Gəncə), ***Şahin Famil oğlu Abbasov*** (1973, Cəbrayıl, Mərcanlı kəndi), ***Elman Əbdülbəy oğlu Dəmirov*** (1974, Sumqayıt), ***İnsaf Əlikərəm oğlu Xankişiyev*** (1971, Sabirabad), ***Elçin Baba oğlu Qafarov*** (1966, Bakı), ***Nəbi İsa oğlu İsayev*** (1970, Cəbrayıl, Daş Veysəlli kəndi), ***Məhəmməd Qurban oğlu İsmayılov, Tahir Əfəndi oğlu Yusifov*** (Suraxanı), ***Sadıq Fikrət oğlu Qurbanov*** (1973, Gəncə), ***Sabir Rəşid oğlu Məmmədov*** (1966, Gəncə), ***İlqar Bilal oğlu Şahmuradov*** (1971, Sumqayıt), ***Çingiz Qarsalan oğlu Quliyev*** (1963, Bakı), ***Mahir Balaca oğlu Həziyev*** (1965, Bakı), ***Elxan Rafiq oğlu Yarməmmədov*** (1968, Bakı), ***Azər Kərrar oğlu Ağayev*** (Cəbrayıl), ***Mahmud Kərim oğlu Ulfanov*** (1965, Saatlı), ***Maarif Arif oğlu Novruzov*** (1963, Bakı), ***Əyyub Yadigar oğlu Süleymanov*** (1968, Cəbrayıl, Maşanlı kəndi), ***Mehman Qürbət oğlu Fərhadov*** (1967, Cəbrayıl, Mərcanlı kəndi), ***Habil Əmirkişi oğlu Ağakişiyev*** (1973, Cəbrayıl, Mərcanlı kəndi), ***Həsrət Qüdrət oğlu Talıbov*** (1971, Cəbrayıl, Papı kəndi), ***Elşad Əşrəf oğlu Məhərrəmov*** (1973, Cəbrayıl, Çullu kəndi), ***Ramin Muxtar oğlu Nəbiyev*** (1973, Cəbrayıl, Mahmudlu kəndi), ***Mənsur Urşan oğlu İsgəndərov*** (1969, İmişli), ***Ceyhun Firudin oğlu Cəfərov*** (1971, Cəbrayıl), ***Hilal Nurulla oğlu Nurullayev*** (1964, Saatlı), ***Osman Allahqulu oğlu Ələkbərov*** (1967, Dəvəçi), ***Etibar Musa oğlu Hüseynov*** (1970, Cəbrayıl, Xələfli kəndi), ***Cahid Ağamalı oğlu Həmzəyev*** (1968, İmişli), ***Hüseyn Qurban oğlu Məhərrəmov*** (1971, Cəbrayıl, Hovuslu kəndi), ***Adil Cəbrayıl oğlu Quliyev*** (1973, Cəbrayıl, Dağ Tumas kəndi), ***Fazil Habil oğlu Gəncəliyev*** (1956, Gəncə), ***Vüqar Səyyaf oğlu Əmirov*** (1970, Beyləqan), ***Elşad Xasay oğlu Həsənov*** (1973, Cəbrayıl, Tinli kəndi), ***Mais Oruc oğlu Səfərov*** (1967, Cəbrayıl, Soltanlı kəndi), ***Vaqif Sirac oğlu Səfiyev*** (1962, Cəbrayıl), ***Gülağa Məhərrəm oğlu Şövkətov*** (1967, Saatlı), ***Elçin Qurban oğlu Hüseynov*** (1968, Bakı), ***Səfər Baxtiyar oğlu Babayev*** (1964, Cəbrayıl, Soltanlı kəndi), ***İsgəndər Qulam oğlu Məmmədov*** (1954, Cəbrayıl, Soltanlı kəndi), ***Vüqar Türbət oğlu Quliyev*** (1968, Cəbrayıl), ***Qəhrəman Həmid oğlu Nəzərov*** (1953, Bakı), ***Hüseyn Telman oğlu Novruzov*** (1971, Cəbrayıl), ***Natiq Baris oğlu Mirzəyev*** (1950, Bakı), ***Fikrət Abdin oğlu Heydərov*** (1969, Gəncə), ***Əli Yaqub oğlu Qurbanov*** (1963, Gəncə), ***İman Ənvər oğlu Orucov*** (1966, Şəmkir), ***Araz Həsən oğlu Quliyev*** (1973, Cəbrayıl, Aşağı Maralyan kəndi), ***Vahib Qabil oğlu Verdiyev*** (1960, Cəbrayıl, Horovlu kəndi), ***Əşrəf Elman oğlu Qəhrəmanov*** (1966, Cəbrayıl, Xudaverdili kəndi), ***İlqar Bayraməli oğlu Salmanov*** (1969, Bakı), ***Əsgər Əli oğlu Qulaməlıyev*** (1973, Cəbrayıl, Dağtumas kəndi), ***Oqtay Əli oğlu Əsədov*** (1968, Cəbrayıl, Soltanlı kəndi), ***Nizaməddin Şahsəddin oğlu Şahbazov*** (1970, Saatlı), ***Mübariz İsbəndiyar oğlu Səfərov*** (1964, Gəncə), ***Şahin Əbdül oğlu Əliyev*** (1973, Cəbrayıl, Hacılı kəndi), ***Fuad Əvəz oğlu Mahmudov*** (Cəbrayıl, Soltanlı kəndi), ***Rizvan Cəfər oğlu Cəfərov*** (1963, Gəncə), ***Albert Valeriyeviç Əliyev*** (1962, Bakı), ***Rafiq Ağabəy oğlu Məmmədov*** (1970, Dəvəçi), ***Əlirza Yengibar oğlu Azadov*** (İmişli), ***Alay Mürsəl oğlu Məmmədov*** (1965, Gəncə), ***Əlif İbiş oğlu Məmmədov*** (1969, Saatlı), ***Eldar Fariz oğlu Əliyev*** (1967, Bakı), ***İntiqam Şahmuradov*** (Cəbrayıl, Məzrə kəndi), ***Cavid Qilman oğlu Zeynalov*** (1973, Saatlı), ***Mahmud Nəriman oğlu Uluxanov*** (1972, Saatlı), ***Elçin Mail oğlu Quliyev*** (1970, Cəbrayıl, Dağtumas kəndi), ***Canəli İslam oğlu Baxşəliyev*** (1960, Cəbrayıl, Əmirvarlı kəndi), ***Şamil Afət oğlu Teymurov*** (1973, Cəbrayıl, Balyand kəndi), ***Rafiq Sübhan oğlu Nurməmmədov*** (1963, Bakı), ***Ələddin Mübarək oğlu Mirzəyev*** (1973, Cəbrayıl, Hovuslu kəndi), ***Elxan Abış oğlu***

***Hacıyev*** (1973, Cəbrayıl, Dağtumas kəndi), ***Rəşid Yaşar oğlu Həsənov*** (1967, Gəncə), ***Məzahir Cəmil oğlu Cəfərov*** (1973, Cəbrayıl, Dağtumas kəndi), ***Məhəmmədəli Şamil oğlu Nəbiyev*** (1952, Cəbrayıl, Tatar kəndi), ***Qılman Qənimət oğlu Eyvazov*** (1970, Saatlı), ***Eldar Yəhya oğlu Ağayev*** (1969, Saatlı), ***Tahir Bəbir oğlu Allahverdiyev*** (1967, Cəbrayıl), ***Ağacan Mirzəhüseyn oğlu Əhmədov*** (1970, Saatlı), ***Abbas Əlixeybər oğlu Rəcəbov*** (1970, Saatlı), ***Rəşid Rəzət oğlu Əhmədov*** (1967, Saatlı), ***Elxan Şirxan oğlu Abbasov*** (1973, Cəbrayıl, Nüzgər kəndi), ***Niftalı Səfiqulu oğlu Əzizov*** (1967, Cəbrayıl, Balyand kəndi), ***Akif Mikayıl oğlu Məmmədov*** (1969, Cəbrayıl, Çullu kəndi), ***İlham Əli oğlu Başirov*** (1971, Cəbrayıl, Tatar kəndi), ***Zeynal Bahadur oğlu Mahmudov*** (1965, İmişli), ***Ramazan Mürşüd oğlu Alıyev*** (1958, Cəbrayıl, Mərcanlı kəndi), ***Akif Mahmud oğlu Mahmudov*** (1958, Cəbrayıl) isə yaralanırlar...

***15 avqust - Cəbrayıl*** rayon mərkəzi ermənilər tərəfindən artilleriya atəşinə tutulur. 5 nəfər həlak olur, 5 nəfər yaralanır...

***15 avqust - Cəbrayıl*** rayonunun ***Xocavənd rayonu*** ilə həmsərhəd olan bir neçə kəndi və yüksəklikləri, eləcə də ***Füzuli*** rayonunun **Aşağı Veysəlli, Dördlər, Yuxarı Veysəlli, Yuxarı Yağlıvənd** kəndləri ermənilər tərəfindən işğal olunur. ***Füzuli-Yuxarı Veysəlli, Məngələnata-Üçbulaq və Füzuli-Məlikcan (Xocavənd rayonu)*** istiqamətlərində hücumlar zamanı ***füzulili*** igid əsgərlər – *24 aprel 1970-ci il* tarixində ***Füzuli*** rayonunun ***Şükürbəyli*** kəndində anadan olan **Azadi Qara oğlu Əliyev**, *5 aprel 1970-ci il* tarixində ***Füzuli*** şəhərində anadan olan **Tərlan Zakir oğlu Əliyev**, *18 sentyabr 1964-cü il* tarixində ***Füzuli*** rayonunun ***Böyük Bəhmənli*** kəndində anadan olan **Elmdar Barat oğlu Abışov**, *1974-cü ildə* ***Füzuli*** rayonunun ***Horadiz*** kəndində anadan olan **Nizami Müslüm oğlu Əmirov**, *1964*-cü ildə ***Füzuli*** rayonunun ***Babı*** kəndində anadan olan **Marks İbad oğlu Hacıyev**, *1957*-ci ildə ***Füzuli*** şəhərində anadan olan **Ernest Yusif oğlu Hüseynov**, *26 yanvar 1963-cü il* tarixində ***Füzuli*** şəhərində anadan olan **Nazim Məhiş oğlu Quliyev**, *1969*-cu ildə ***Füzuli*** rayonunun ***Mahmudlu-3*** kəndində anadan olan **Mahir Sayuz oğlu Mikayılov**, *18 mart 1957-ci il* tarixində ***Füzuli*** şəhərində anadan olmuş **İlyas Mehralı oğlu Sultanov**, *1960*-cı ildə ***Füzuli*** rayonunun ***Cuvarlı*** kəndində anadan olan **Elxan Bayandır oğlu Yusifov**, *1969*-cu ildə ***Füzuli*** rayonunun ***Çimən*** kəndində anadan olan **Muğan Gəray oğlu Əliyev**, *19 dekabr 1961-ci*





*il* tarixində ***Füzuli*** rayonunun ***Qaradağlı*** kəndində anadan olan **Azər Qara oğlu Əhmədov**, *8 sentyabr 1968-ci il* tarixində ***Füzuli*** rayonunun ***Qaradağlı*** kəndində anadan olan **Şikar Qara oğlu Əhmədov**, *1 aprel 1970*-ci il tarixində ***Füzuli*** rayonunun ***Qaradağlı*** kəndində anadan olan **Aydın İldırım oğlu Gülüşov**, *10 yanvar 1973-cü il* tarixində ***Füzuli*** rayonunun ***Mahmudlu-2*** kəndində anadan olan **Qeyrət Məcnun oğlu İbişov**, *1968*-ci ildə ***Füzuli*** rayonunun ***Yuxarı Yağlıvənd*** kəndində anadan olan **Azər Həmid oğlu Soltanov**, *1971*-ci ildə ***Füzuli*** rayonunun ***Aşağı Güzdək*** kəndində anadan olan **Zeynal Sadıq oğlu Zeynalov**, *1959*-cu ildə ***Füzuli*** rayonunun ***Ayıbasanlı-Şıxlı*** kəndində anadan olan **Alim İbrahim oğlu Məmmədov**, *1971*-ci ildə ***Füzuli*** rayonunun ***Xatınbulaq*** kəndində anadan olan **Səfa Məmmədxan oğlu Məmmədov** həlak olurlar. Bu döyüşlərdə ***50*** nəfərdən çox adam ağır yaralanır...

***17-20 avqust - Sur, Süleymanlı, Qışlaq, Quşçular*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

***31 avqust - Cəbrayıl şəhəri, Süleymanlı kəndi, Qışlaq kəndi*** ermənilər tərəfindən müxtəlif silahlardan güclü atəşə tutulur. Nəticədə ***4*** nəfər mülki şəxs həlak olur, ***30*** nəfər yaralanır...

***7 sentyabr - Qaracallı kəndi*** ermənilər tərəfindən atəşə tutulur...

***14 sentyabr - Quşçular, Qışlaq, Süleymanlı*** kəndləri ermənilər tərəfindən atəşə tutulur...

***23 sentyabr - Şişqaya əməliyyatı*** dayandırılır. Nəticədə ***2*** nəfər yaralanır...

***27 sentyabr - Füzuli*** və ***Cəbrayıl*** rayonlarında *"Fövqəladə Vəziyyət rejimi müddətinin uzadılması haqqında"* fərman verilir...

***29 sentyabr - 1 oktyabr - Quşçular*** və ***Sur kəndləri***, həmçinin ***Cəbrayıl şəhəri*** yaxınlığındakı postlar ermənilər tərəfindən güclü atəşə tutulur...

***19 oktyabr - Quşçular postu*** ermənilər tərəfindən intensiv atəşə məruz qalır...

***9-13 noyabr -*** Rayonun bir sıra postları və yaşayış məntəqələri ermənilər tərəfindən müxtəlif silahlardan güclü atəşə tutulur...

***7 dekabr - Sur kəndi*** ermənilər tərəfindən müxtəlif silahlardan intensiv atəşə tutulur...

***17 dekabr -*** Respublika Prezidenti *"Cəbrayıl rayonu* ərazisində *Fövqəladə Vəziyyət tətbiq edilməsi haqqında"* fərman verir...

**1993-cü il**

***6 yanvar*** - ***Sirik*** kəndindəki post ermənilər tərəfindən atəşə məruz qalır...

***22 mart*** - Rayonun bir neçə kəndi ermənilər tərəfindən güclü atəşə tutulur...

***2 iyul*** - Düşmən artilleriya hazırlığından sonra ***Cəbrayıl şəhəri*** istiqamətində güclü hücuma keçir. ***Quşçular kəndi*** ətrafında ağır döyüşlər gedir. İtkilər olur...

***4-5 iyul*** - Rayon mərkəzi və ***Qışlaq, Süleymanlı, Banazur, Daşbaşı, Mülkədərə, Quşçular, Qaracallı*** kəndləri ermənilər tərəfindən güclü atəşə tutulur. Ölənlər və yaralananlar olur...

***7-8 iyul*** - Rayonun bir neçə kəndi ermənilərin atdıqları qrad və top mərmilərinə məruz qalır. Tələfat və dağıntılar olur...

***19 iyul*** - ***Quşçular kəndi*** ermənilər tərəfindən müxtəlif silahlardan güclü atəşə tutulur...

***22 iyul*** - Düşmən ***Füzuli rayonu*** istiqamətində ***Cuvarlı*** və ***Qoçəhmədli*** kəndlərini işğal etdikdən sonra *Cəbrayıl - Füzuli* avtomobil yolunu kəsməyə səy göstərir...

***1 avqust*** - ***Quşçular*** və ***Sur*** kəndləri ermənilər tərəfindən qrad və top mərmisi atəşinə tutulur...

***15 avqust*** - Düşmən ***Füzuli*** rayonunun **Aşağı Veysəlli, Dördlər** və **Yuxarı Yağlıvənd** kəndlərini, eləcə də ***Cəbrayıl*** rayonunun **Zamzur, Sur, Banazur, Daşbaşı, Quşçular, Qışlaq, Doşulu, Qaracallı, Süleymanlı, Balyand, Əfəndilər** kəndlərini işğal edir. Onlarla əhəmiyyətli yüksəkliklər ermənilərin əlinə keçir. Çox çəkmir ki, düşmən ***Cəbrayıl*** şəhərinin ***2*** kilometrliyinə yaxınlaşır. *Füzuli* şəhərinin cəmi ***3*** kilometrliyində yerləşən ***Məngələnata yüksəkliyi*** ətrafında da şiddətli mövqe döyüşləri gedir. *Cəbrayıl rayonu* sərhədlərində - ***Sirik*** və ***Mülkədərə*** istiqamətlərində ağır döyüşlər gedir. **Daşbaşı postu** düşmən əlinə keçir. Xeyli sayda ölənlər, yaralananlar və itkin düşənlər olur...

***15 avqust*** – ***Cəbrayıl*** rayonunun ***Xocavənd rayonu*** ilə həmsərhəd ərazisində, Xocavənd rayonunun ***Quşçular, Sur, Banazur*** və ***Daşbaşı*** kəndləri ərazilərindəki ermənilərlə baş verən döyüşdə ***cəbrayıllı*** igidlər və digər rayonlardan köməyə gəlmiş əsgərlər – *30 mart 1970-ci il* tarixində ***Maralyan*** kəndində anadan olmuş **Rüfət Rəvan oğlu Məmmədov**, *24 iyul 1971-ci il* tarixində ***Soltanlı*** kəndində anadan olmuş **Faiq Fərman oğlu Məmmədov**, *22 iyun 1975-ci il* tarixində ***Quycaq*** kəndində anadan olmuş **Elsevər Kalbalı oğlu Mirzəyev**, *1 fevral 1969-cu il* tarixində ***Məzrə*** kəndində anadan olmuş **Mətləb Əvəz oğlu Rəhimov**, *5 noyabr 1973-cü il* tarixində ***Fuğanlı*** kəndində anadan olmuş **Mədət Mürşüd oğlu Rüstəmov**, *24 sentyabr 1969-cu il* tarixində *Böyük Mərcanlı* kəndində anadan olan **Müslüm Cəmil oğlu İmanov**, *20 noyabr 1966-cı il* tarixində ***Böyük Mərcanlı*** kəndində anadan olmuş **Cəbrayıl Əli oğlu Sevdimalıyev**, *20 iyun 1968-ci il* tarixində ***Böyük Mərcanlı*** kəndində anadan olmuş **Fərhad İdris oğlu Fərhadov**, *15 oktyabr 1970-ci il* tarixində ***Böyük Mərcanlı*** kəndində anadan olmuş **Bayram Məhyəddin oğlu Fərhadov**, *1974*-cü ildə ***Böyük Mərcanlı*** kəndində anadan olmuş **Arif Məhəmməd oğlu Fərhadov**, *7 avqust 1969-cu il* tarixində ***Şahvəlli*** kəndində anadan olmuş **Hafiz Məhəmməd oğlu Fətəliyev**, *1966*-cı ildə ***Xələfli*** kəndində anadan olmuş **Yusif Musa oğlu Hüseynov**, *1 aprel 1963-cü il* tarixində ***Daş Veysəlli*** kəndində anadan olmuş **Həsən Hüseyn oğlu Hüseynov**, *22 yanvar 1973-cü il* tarixində ***Daş Veysəlli*** kəndində anadan olmuş **Zahid Əvəz oğlu Abdullayev**, *31 yanvar 1973-cü il* tarixində ***Cəbrayıl*** rayonunun ***Yarəhmədli*** kəndində anadan olan **Ramiz Eldar oğlu Ağayev**, *9 iyun 1977-ci il* tarixində ***Cəbrayıl*** rayonunun ***Qaracallı*** kəndində anadan olmuş ***"Tiqana"*** ləqəbli **Samir Qədir oğlu Alıyev**, *8 aprel 1970-ci il* tarixində ***Məzrə*** kəndində anadan olmuş **Aydın Tapdıq oğlu Quliyev**, *1967*-ci ildə ***Soltanlı*** kəndində anadan olmuş **Teymur Eyvaz oğlu Eyvazov**, *12 dekabr 1966-cı il* tarixində ***Cəbrayıl*** şəhərində anadan olmuş **Etibar İslam oğlu Əliyev**, *6 yanvar 1973-cü il* tarixində ***Kavdar*** kəndində anadan olmuş **Süleyman İbrahim oğlu Əmirxanov**, *17 iyun 1974-cü il* tarixində ***Soltanlı*** kəndində anadan olmuş **Elman Bəhram oğlu Yusifov**, *14 iyun 1974-cü il* tarixində ***Şükürbəyli*** kəndində anadan olmuş **Vahab Yaşar oğlu Kazımov**, *15 oktyabr 1966-cı il* tarixində ***Tinli*** kəndində anadan olmuş **Qədir Sərxan oğlu Məlikov**, *23 aprel 1971-ci il* tarixində ***Daş Veysəlli*** kəndində anadan olmuş **Murad Hafiz oğlu Cəfərov**, *12 aprel 1974-cü il* tarixində ***Qumlaq*** kəndində anadan olmuş **Rövşən Bəhlul oğlu Şəmilov**, *14 oktyabr 1971-ci il* tarixində ***Soltanlı*** kəndində anadan olmuş **Rantiq Novruz oğlu Məmmədov**, *30 iyun 1973-cü il* tarixində ***Cəbrayıl***

şəhərində anadan olmuş **Nurəddin Məhəmmədəli oğlu Fətullayev**, eləcə də *10 noyabr 1966-cı il* tarixində ***Şəmkir*** rayonunun ***Tatar*** kəndində anadan olmuş **Rəfayıl Məhəmməd oğlu Gülməmmədov, Elçin Eldar oğlu Abdullayev** və daha bir neçə nəfər həlak olurlar. Onların əksəriyyətinin başları kəsilir. **Daşbaşı postu** ermənilər tərəfindən zəbt olunur...

***15 avqust - Xocavənd*** rayonunun ***Hərəkül kəndi*** ərazisində *1958*-ci ildə ***Cəbrayıl*** rayonunun ***Hovuslu*** kəndində anadan olmuş **Səxavət Möhübbət oğlu Həsrətov**, *1965*-ci ildə ***Hovuslu*** kəndində anadan olmuş **Məhəmmədəli Səməd oğlu Həsrətov**, ***Cəbrayıl*** rayonunun ***Sofulu*** kənd sakini, *11 avqust 1950-ci il* tarixində ***Beyləqan*** rayonunun ***Maşqara*** kəndində anadan olmuş **Qərib Mehdi oğlu Mirimov** ermənilər tərəfindən amansızlıqla qətlə yetirilirlər...

***15 avqust -*** Erməni silahlı dəstələri ***Cəbrayıl*** rayonunun ***Qaracallı*** və ***Balyand*** kəndlərinə hücum edirlər. Balyand kənd sakinləri **Səkinə Heydər qızı Vəliyeva, İsa Surxay oğlu Hüseynov** və kənd orta məktəbinin müəllimi **Oruc Həmzə oğlu Babaşov** vəhşicəsinə qətlə yetirilirlər. ***Qaracallı*** kənd sakini ***Nizami Cümşüd oğlu Alışov*** girov götürülür...

***15 avqust - Cəbrayıl şəhəri*** ermənilər tərəfindən müxtəlif növ silahlardan güclü atəşə tutulur. Şəhər sakini **Nizami Fili oğlu Əliyev** həlak olur. Xeyli sayda şəhər sakini yaralanır...

***16 avqust -*** Gecə əməliyyatları nəticəsində işğal edilmiş ərazilərin bəzisi geri qaytarılır. İtkilər də olur...

***17 avqust -*** **Daşkəsən kəndi** ermənilər tərəfindən işğal edilir...

***18 avqust - Cəbrayıl şəhəri*** istiqamətində düşmən hücumu genişlənir...

***20 avqust - Cəbrayıl şəhəri*** ətrafında qanlı döyüşlər gedir. Şəhər yaxınlığındakı bir neçə kənd də işğal olunur. Xeyli sayda ölən və yaralananlar olur...

***22 avqust - Cəbrayıl*** şəhərinin və şəhərin qonşuluğunda yerləşən kəndlərin ərazilərində erməni silahlı birləşmələri ilə qızğın döyüşlər gedir. Ölənlər və yaralananlar olur...

***23 avqust - Cəbrayıl şəhəri***, eləcə də rayonun şimal və mərkəzi ərazilərini əhatə edən ***40***-a qədər kənd artıq ermənilər tərəfindən ələ keçirilir. **Cəbrayıl şəhəri** ermənilər tərəfindən tamamilə işğal edilir...

***18 oktyabr -*** **Quycaq, Səfərşa** kəndləri ermənilər tərəfindən işğal olunur...





***23-24 oktyabr – Cəbrayıl*** rayonunun Arazboyu ərazisindəki ***30***-a qədər kənd də ermənilər tərəfindən işğal olunur. Artıq Cəbrayıl rayonunun demək olar ki, bütün ərazisi (***1050*** *kv km.-lik bir ərazi* - ***91*** *yaşayış məntəqəsi*) ermənilər tərəfindən zəbt edilir. Qərbdən Xudafərin, şərqdən Horadiz keçidi tutulduğundan dinc əhali Araz çayından İran ərazisinə keçir. Ölənlər və yaralananlar olur. **Cəbrayıl rayonu** ermənilər tərəfindən tamamilə işğal olunur...

## CƏBRAYIL RAYONUNUN BƏZİ YAŞLI SAKİNLƏRİ

1. **Mikayıl Qənbər oğlu** (*Horovlu kəndi*) - **160 yaş;**

2. **Şirin Həsənov** (Çərəkən kəndi) - **154 yaş;**

3. **İsa Quliyev** (*Tatar kəndi*) - **120 yaş;**

4. **Nigar arvad** (*Qazanzəmi kəndi*) - **115 yaş;**

5. **Sərfi Ağayeva** (*Mərcanlı kəndi*) - **114 yaş;**

6. **Xatın nənə** (*Dağtumas (Başarat kəndi)*) - **106 yaş;**

7. **Əsmər arvad** (*Qazanzəmi kəndi*) - **106 yaş;**

8. **İshaq baba** (*Hacıisaqlı kəndi*) - **105 yaş;**

9. **Allahverdi Allahverən oğlu** (*Söyüdlü kəndi*) - **105 yaş;**

10. **Çiçək Rüstəmova** (*Mirzəcanlı kəndi*) - **101 yaş;**

11. **Məcid Məhəmməd oğlu Rəhimov** (*Qalacıq kəndi*) - **100 yaş;**





## I DÜNYA MÜHARİBƏSİNƏ KÖNÜLLÜ YAZILAN CƏBRAYILLILAR

(Bu siyahı ***24 iyun 1914-cü il*** tarixdə Qarabağda hazırlanıb və beləliklə, digər yazılanlar ilə birlikdə könüllülərdən ibarət olan "***Tatar süvari alayı***" təşkil edilib)

1. **Adışirin Alış oğlu** (*Yarəhmədli obasından*);

2. **Alış Xankişi oğlu** (*Hacılı obasından*);

3. **Gülməmməd Mirzə oğlu** (*Xudayarlı obasından);*

4. **Həşim Zeynal oğlu** (*Yarəhmədli obasından*);

5. **Hüseyn Nəcəf oğlu** (*Məzrə obasından*);

6. **Xanlar bəy Fərhad bəy oğlu** (*Feyzullabəyli obasından*);

7. **Kazım Kərbəlayı Abbas bəy oğlu** (*Şıxəliağalı obasından);*

8. **Məhəmməd Hüseyn oğlu** (*Hacılı obasından*);

9. **Muradxan Əli oğlu** (*Yarəhmədli obasından*);

10. **Nəriman Talıb oğlu** (*Maşanlı obasından*);

11. **Sarxan Xankişi oğlu** (*Yarəhmədli obasından*);

12. **Şıxalı Məmmədalı oğlu** (*Fuğanlı obasından*);

13. **Şirin Məmməd oğlu** (*Veysəlli obasından*);

14. **Teymur Fərhad oğlu** (*Xudayarlı obasından*);

15. **Yunus Osman oğlu** (*Mirzəcanlı obasından*).

## CƏBRAYIL RAYONU ÜZRƏ ÇERNOBIL ƏLİLLƏRİ

| | | | |
|---|---|---|---|
| 1. | Əmrahov Elçin Əbil oğlu | 1968 | Soltanlı kəndi |
| 2. | Həsənov İlqar Seçki oğlu | 1968 | Soltanlı kəndi |
| 3. | Həsənov Mais Kamran oğlu | 1968 | Fuğanlı kəndi |
| 4. | İsmayılov Şakir Əli oğlu | 1967 | Fuğanlı kəndi |
| 5. | Quliyev Davud Mehman oğlu | 1968 | Soltanlı kəndi |
| 6. | Quliyev Tofiq Ələmqulu oğlu | 1968 | Soltanlı kəndi |
| 7. | Rəhimov Rəhim Abdulla oğlu | 1971 | Soltanlı kəndi |
| 8. | Sadıqov Binnət Bədir oğlu | 1967 | Mehdili kəndi |
| 9. | Səfiyev Şahin Səxavət oğlu | 1968 | Qaraağac kəndi |
| 10. | Verdiyev Nadir Hümbət oğlu | 1967 | Yarəhmədli kəndi |
| 11. | Zalov Yusif Bəhlul oğlu | 1968 | Xələfli kəndi |





## CƏBRAYIL RAYONU ÜZRƏ ƏFQANISTAN MÜHARİBƏSİNİN İŞTİRAKÇILARI

| | | | |
|---|---|---|---|
| 1. | Abbasov Sümən Qurban oğlu | 1968 | Maralyan kəndi |
| 2. | Abdullayev İsmayıl Abdulla oğlu | 1968 | Çocuq Mərcanlı kəndi |
| 3. | Ağakişiyev Nofəl Oruc oğlu | 1967 | - |
| 4. | Camalov Fəxrəddin Alı oğlu | 1960 | Daş Veysəlli kəndi |
| 5. | Həsənov Əhməd Salman oğlu | 1964 | Şükürbəyli kəndi |
| 6. | Həsənov Şakir Fazil oğlu | 1968 | Maralyan kəndi |
| 7. | Hüseynov Adil Cəmil oğlu | 1967 | Çullu kəndi |
| 8. | Hüseynov Telman Əli oğlu | 1965 | Şahvəli kəndi |
| 9. | İsmayılov Mikayıl Xanəmir oğlu | 1961 | Horovlu kəndi |
| 10. | Kalbalıyev Rəşid Nuruş oğlu | 1965 | Horovlu kəndi |
| 11. | Quliyev Aqşin Əhməd oğlu | 1968 | Qaracallı kəndi |
| 12. | Quliyev Arzuman Cavad oğlu | 1965 | Minbaşılı kəndi |
| 13. | Quliyev Məhəmməd Əşrəf oğlu | 1966 | - |
| 14. | Quliyev Rac Əli oğlu | 1966 | - |
| 15. | Mehduyev Səməd Aslan oğlu | 1959 | Daşkəsən kəndi |
| 16. | Mehralıyev Süleyman Camal oğlu | 1959 | Dağ Maşanlı kəndi |
| 17. | Məmmədquliyev Şəmşir Şəmil oğlu | 1967 | - |
| 18. | Məmmədov Çərkəz Şəmil oğlu | 1965 | - |
| 19. | Məmmədov İslam Həmzə oğlu | - | Cəbrayıl şəhəri |
| 20. | Məmmədov Müşfiq Teymur oğlu | 1965 | Cəbrayıl şəhəri |
| 21. | Məstəliyev Bayram İslam oğlu | 1967 | Böyük Mərcanlı kəndi |
| 22. | Nəsirov Başir İmamalı oğlu | 1960 | Xələfli kəndi |
| 23. | Orucov Elnur Oruc oğlu | 1967 | Göyərçin Veysəlli kəndi |
| 24. | Şükürov Qurban Şükür oğlu | 1961 | Hacılı kəndi |
| 25. | Babaşov Saleh Valeh oğlu | 1961 | Balyand kəndi |
| 26. | Fətəliyev Elşən Fikrət oğlu | 1968 | Balyand kəndi |

## QARABAĞ MÜHARİBƏSİNDƏ CƏBRAYIL RAYONU ÜZRƏ ŞƏHİD VƏ İTKİNLƏRİN ÜMUMİ SİYAHISI

| № | Soyadı, Adı, Atasının adı | Anadan olduğu tarix | Həlak olduğu və ya itkin düşdüyü tarix |
|---|---|---|---|
| 1. | Abbasov Cəfər Dadaş oğlu | - | (itkin şəhid) |
| 2. | Abbasov Elməddin Şirxan oğlu | 1975 | 10.04.94 |
| 3. | Abbasov Şakir Hüseyn oğlu | 1955 | 29.12.93 |
| 4. | Abdullayev Elçin Eldar oğlu | 1971 | 15.08.93 |
| 5. | Abdullayev Faiq Mehdi oğlu | 10.04.1972 | 12.05.92 |
| 6. | Abdullayev Musa oğlu | 1968 | 10.10.93 |
| 7. | Abdullayev Şükür Həsən oğlu | 1970 | 15.11.91 |
| 8. | Abdullayev Zahid Əvəz oğlu | 22.01.1973 | 15.08.93 |
| 9. | Abışov Yaşar Teymur oğlu | 1972 | 23.04.94 |
| 10. | Ağakişiyeva Səkinə Heydər qızı | - | (itkin şəhid) |
| 11. | Ağayev Eldəniz Maqsud oğlu | 1975 | 06.08.95 |
| 12. | Ağayev Ramiz Eldar oğlu | 31.01.1973 | 15.08.93 |
| 13. | Ağayev Rəşid Əli oğlu | 1974 | 28.12.93 |
| 14. | Ağayev Sərvan Abbas oğlu | 1972 | 28.12.93 |
| 15. | Ağayev Yunus Babalar oğlu | 1968 | 04.07.93 |
| 16. | Alekseyev Arif Turab oğlu | 1952 | 02.07.93 |
| 17. | Alışov Nizam Cümşüd oğlu | - | (itkin şəhid) |
| 18. | Alışov Rövşən Veysəl oğlu | 1975 | 23.04.94 |
| 19. | Alıyev Samir Qədir oğlu | 1977 | 1993 |
| 20. | Allahverdiyev Elşən Güloğlan oğlu | 1973 | 15.08.93 |
| 21. | Allahverdiyev İlham Rəşid oğlu | 1972 | 03.07.92 |
| 22. | Allahverdiyev Loğman Həbib oğlu | 1977 | 1993 |
| 23. | Alahverdiyev Mahir Məmməd oğlu | - | (itkin şəhid) |





| | | | |
|---|---|---|---|
| 24. | Allahverdiyev Mahmud Həbib oğlu | 1973 | 15.08.92 |
| 25. | Allahverdiyev Məhəmməd Həmid oğlu | 1937 | 1993 |
| 26. | Allahverdiyev Yusif Zeynalabdin oğlu | 1968 | 1994 |
| 27. | Aslanov Azər Hümbət oğlu | 1973 | - |
| 28. | Aslanov Elçin Gəray oğlu | 1973 | 15.11.91 |
| 29. | Aslanov İnqilab Məhəmməd oğlu | 1973 | 31.12.93 |
| 30. | Aslanov Novruz Fazil oğlu | 1973 | 28.06.92 |
| 31. | Aslanov Şikar Davud oğlu | 10.07.1970 | 01.07.92 |
| 32. | Babaşov Həmzə Şərəfalı oğlu | 1960 | 1994 |
| 33. | Babaşov Oruc Həmzə oğlu | 1933 | 1993 |
| 34. | Babaşov Şakir Balakişi oğlu | - | (itkin şəhid) |
| 35. | Baxşəliyev İsgəndər Məhyəddin oğlu | 1971 | 30.04.93 |
| 36. | Balakişiyev İsgəndər Baloğlan oğlu | 1966 | 28.12.93 |
| 37. | Balakişiyev Sərvan Fərman oğlu | 1971 | 1993 |
| 38. | Bayramov Azər İsib oğlu | 1972 | 20.03.94 |
| 39. | Bayramov Cəmşid Balaqardaş oğlu | 1973 | 1993 |
| 40. | Bayramov Qədir Kərim oğlu | 1966 | 28.12.93 |
| 41. | Bayramov Şakir Balakişi oğlu | 1965 | 15.08.93 |
| 42. | Bəbirov Manya Məmmədalı qızı | - | (itkin şəhid) |
| 43. | Cabbarov Cabbar Səməd oğlu | 26.08.1969 | 25.12.93 |
| 44. | Cabbarov Rabil Alim oğlu | 1975 | 1993 |
| 45. | Cavadov Aydın Adışirin oğlu | 1953 | 1993 |
| 46. | Cavadov Fariz Şəmil oğlu | 1975 | 12.04.97 |
| 47. | Cəbrayılov Barat Cəbrayıl oğlu | 1973 | 28.06.92 |
| 48. | Cəbrayılov Saday Misirxan oğlu | 1963 | 1993 |
| 49. | Cəbrayılov Vüqar Vəli oğlu | 1969 | 28.12.93 |
| 50. | Cəfərov Akif İsmiyəli oğlu | 1968 | 22.12.93 |
| 51. | Cəfərov Murad Hafiz oğlu | 23.04.1971 | 15.08.93 |
| 52. | Cəfərov Nail Fehruz oğlu | 1966 | 1993 |
| 53 | Cəfərov Rövşən Əziz oğlu | 1969 | 22.12.93 |

| | | | |
|---|---|---|---|
| 54 | Cəfərov Taleh İldırım oğlu | 1974 | 05.1994 |
| 55 | Cəlilov Məzahir Əli oğlu | 1970 | 15.06.93 |
| 56 | Eyvazov Məzahir Sərməs oğlu | 1971 | 1994 |
| 57 | Eyvazov Teymur Eyvaz oğlu | 1967 | 15.08.93 |
| 58 | Əbilov Əhəd Məti oğlu | 1973 | 1994 |
| 59 | Əhmədov Anar Bilal oglu | 1973 | 31.12.93 |
| 60 | Əhmədov Barış Oruc oğlu | 1966 | 16.03.95 |
| 61 | Əhmədov Elsevər Aydın oğlu | 1987 | 26.02.2000 |
| 62 | Əhmədov Elşən Soltan oğlu | 1967 | 02.01.94 |
| 63 | Əhmədov Əhliman Cəbrayıl oğlu | 1974 | 20.01.95 |
| 64 | Əhmədov Məhəmməd Sabir oğlu | 1970 | 1994 |
| 65 | Əhmədov Pənah Çərkəz oğlu | 1968 | 02.07.93 |
| 66 | Əhmədov Yaqub Rza oğlu | 1972 | 12.04.94 |
| 67 | Əhmədov Zahid Fərrux oğlu | 10.01.1960 | 17.09.91 |
| 68 | Əhmədov Zülfəli İbrahim oğlu | 1972 | 28.12.93 |
| 69 | Əkbərova Cəmilə Yaqub qızı | 1955 | 1993 |
| 70 | Əliyev Adil İsrafil oğlu | 1969 | 15.08.93 |
| 71 | Əliyev Babək Famil oğlu | 1971 | 04.03.94 |
| 72 | Əliyev Bilal Həsənalı oğlu | - | (itkin şəhid) |
| 73 | Əliyev Elman Rza oğlu | - | (itkin şəhid) |
| 74 | Əliyev Etibar İslam oğlu | 12.12.1966 | 15.08.93 |
| 75 | Əsədov Fuad Qərib oğlu | 1972 | 28.06.92 |
| 76 | Əliyev Qüdrət Səfər oğlu | 1965 | 18.05.94 |
| 77 | Əliyev Məhəmməd Hümbət oğlu | 1943 | 25.08.93 (itkin, şəhid) |
| 78 | Əliyev Müşviq Bilal oğlu | 1969 | 08.01.94 |
| 79 | Əliyev Nazim Filli oğlu | 1949 | 1993 |
| 80 | Əliyev Ömər Famil oğlu | 1984 | 10.06.03 |
| 81 | Əliyev Pənah Babakişi oğlu | 1969 | 27.01.94 |
| 82 | Əliyev Piri Dilavər oğlu | - | (itkin şəhid) |





| | | | |
|---|---|---|---|
| 83 | Əliyev Ramil Fərzali oğlu | 1973 | 28.06.92 |
| 84 | Əliyev Rövşən Talış oğlu | 1974 | 1993 |
| 85 | Əliyev Vahid Balaca oğlu | 1970 | 11.04.93 |
| 86 | Əliyev Vidadi Xanmurad oğlu | - | (itkin şəhid) |
| 87 | Əliyev Vüqar Zülfiqar oğlu | 26.09.1969 | 09.05.92 |
| 88 | Əliyev Yelmar Qələbə oğlu | 1968 | 28.12.93 |
| 89 | Əliyev Yelmar Rza oğlu | 1972 | 11.04.93 |
| 90 | Əliyev Yurik Bəhruz oğlu | - | (itkin şəhid) |
| 91 | Əliyev Zahid Səttar oğlu | 1972 | 1994 |
| 92 | Əliyeva Nisə Xanlar qızı | - | (itkin şəhid) |
| 93 | Əmiraslanov Süleyman İbrahim oğlu | 16.01.1973 | 15.08.93 |
| 94 | Əmirxanov Süleyman İbrahim oğlu | 1973 | 1993 |
| 95 | Əmirov Xıdır İsmayıl oğlu | 1975 | 10.01.94 |
| 96 | Əmrahova Xanım Qərib qızı | 1966 | 1993 |
| 97 | Əmrahova Mahnisə Şıxalı qızı | 1939 | 1993 |
| 98 | Əsgərov Elxan Şəmil oğlu | 1972 | 20.01.94 |
| 99 | Əsgərov Xurşud Əsgər oğlu | 1974 | 04.03.94 |
| 100 | Əsgərov Müzəffər Qəzənfər oğlu | 1993 | 27.01.94 |
| 101 | Əzimov Əşrəf Məhəmməd oğlu | 1937 | 1993 |
| 102 | Əzimov Namiq Əfsər oğlu | 1974 | 1993 |
| 103 | Əzizov Baba Məhəmməd oğlu | - | (itkin şəhid) |
| 104 | Əzizov Sədi Ələkbər oğlu | 1965 | 1994 |
| 105 | Feyzullayev Qafil Bulud oğlu | 1974 | 25.01.93 |
| 106 | Feyzullayev Yusif Süleyman oğlu | 1968 | 15.01.94 |
| 107 | Fərhadov Arif Maşallah oğlu | 1973 | 1994 |
| 108 | Fərhadov Arif Məhəmməd oğlu | 1974 | 15.08.93 |
| 109 | Fərhadov Asif Maşallah oğlu | 1973 | 07.03.92 |
| 110 | Fərhadov Bayram Məhyəddin oğlu | 15.10.1970 | 15.08.93 |
| 111 | Fərhadov Fərhad İdris oğlu | 20.06.1968 | 15.08.93 |
| 112 | Fərzəliyev Zeynal Qədir oğlu | 1973 | 28.06.92 |

| | | | |
|---|---|---|---|
| 113 | Fətəliyev Hafiz Məhəmməd oğlu | 07.08.1969 | 15.08.93 |
| 114 | Fətullayev Nurəddin Məhəmmədəli oğlu | 1973 | 15.08.93 |
| 115 | Gülməmmmədov Adil Məhərrəm oğlu | 1977 | 08.02.98 |
| 116 | Gülməmmədov Ramil Məhəmməd oğlu | 25.01.1981 | 21.10.99 |
| 117 | Gülməmmədov Rəfayıl Məhəmməd oğlu | 10.11.1966 | 15.08.93 |
| 118 | Hacıyev Xəzər Qurban oğlu | 1971 | 09.04.95 |
| 119 | Hacıyev Məhəmmədəli Ədil oğlu | - | (itkin şəhid) |
| 120 | Hacıyev Ramiz Əyyub oğlu | - | (itkin şəhid) |
| 121 | Hacıyev Vüqar Əli oğlu | 1976 | 1992 |
| 122 | Haqverdiyev Şura Cəmil qızı | - | (itkin şəhid) |
| 123 | Heydərov Əbdürəhman Muxran oğlu | 1957 | 18.05.92 |
| 124 | Heydərov Zaur Muxtar oğlu | - | (itkin şəhid) |
| 125 | Həmidov Əli Hümbət oğlu | 06.08.1971 | 23.10.92 |
| 126 | Həmidov Şəmsi Məhəmməd oğlu | 22.01.1967 | 25.08.93 |
| 127 | Həsənquliyev Sabir Hüseyn oğlu | 1950 | 1993 |
| 128 | Həsənov Xəlil Balaca oğlu | 1934 | 1993 |
| 129 | Həsənov İlqar Telman oğlu | 1970 | 02.04.93 |
| 130 | Həsənov Kamal Şamil oğlu | 1970 | 16.04.93 |
| 131 | Həsənov Mehman Elman oğlu | 1964 | 15.04.92 |
| 132 | Həsrətov Məhəmmədəli Səməd oğlu | 1965 | 1993 |
| 133 | Həsrətov Mürvət Möhəbbət oğlu | 1974 | 25.06.93 |
| 134 | Həsrətov Səxavət Möhübbət oğlu | 1958 | 1993 |
| 135 | Həşimov Yasin Fehruz oğlu | 1973 | 02.04.93 |
| 136 | Həşimov Yavər Əliş oğlu | 1973 | 29.03.93 |
| 137 | Hüseynov Arif Samsun oğlu | 1973 | 15.08.92 |
| 138 | Hüseynov Asif Hüseyn oğlu | 1962 | 05.05.94 |
| 139 | Hüseynov Cavanşir Ərşad oğlu | - | (itkin şəhid) |
| 140 | Hüseynov Cavid Əlfət oğlu | 1973 | 1992 |
| 141 | Hüseynov Dərgah Səttar oğlu | 1973 | 26.01.94 |
| 142 | Hüseynov Elcan Xasay oğlu | 1969 | 22.12.93 |





| | | | |
|---|---|---|---|
| 143 | Hüseynov Əli İbrahim oğlu | 1967 | 23.05.94 |
| 144 | Hüseynov Əli Səfər oğlu | 1955 | 28.12.93 |
| 145 | Hüseynov Əzizağa Məhəmmədəli oğlu | 1970 | 25.08.93 |
| 146 | Hüseynov Həsən Hüseyn oğlu | 01.04.1963 | 15.08.93 |
| 147 | Hüseynov Hüseyn Ataş oğlu | 1924 | (itkin şəhid) |
| 148 | Hüseynov İsa Sarxay oğlu | - | (itkin şəhid) |
| 149 | Hüseynov İsaq Musa oğlu | 1982 | 1993 |
| 150 | Hüseynov İsmayıl Qədir oğlu | 1971 | 31.12.93 |
| 151 | Hüseynov İsmət Məhəmməd oğlu | - | (itkin şəhid) |
| 152 | Hüseynov İsmət Məhərrəm oğlu | 1975 | 25.05.94 |
| 153 | Hüseynov Maksud Oruc oğlu | - | (itkin şəhid) |
| 154 | Hüseynov Mehman Məhərrəm oğlu | 1967 | 03.09.94 |
| 155 | Hüseynov Məhiyəddin Qiyas oğlu | 1972 | 23.10.93 |
| 156 | Hüseynov Nazim Bayram oğlu | 23.10.1971 | 31.12.93 |
| 157 | Hüseynov Rafiq Musa oğlu | 1971 | 28.06.92 |
| 158 | Hüseynov Sərhad Zakir oğlu | 1947 | 25.04.93 |
| 159 | Hüseynov Şakir Məhəmməd oğlu | - | (itkin şəhid) |
| 160 | Hüseynov Şəmsi Məhəmməd oğlu | 1967 | 25.08.93 |
| 161 | Hüseynov Vüqar Arif oğlu | 1973 | 22.12.93 |
| 162 | Hüseynov Vüqar Dərgah oğlu | 1974 | 23.10.93 |
| 163 | Hüseynov Yusif Musa oğlu | 1966 | 15.08.93 |
| 164 | Hüseynov Zaur Muxtar oğlu | 1973 | 15.08.93 |
| 165 | Hüseynova Əminə Ədil qızı | 1960 | 1993 |
| 166 | Xanəliyev Pünhan Bəyiş oğlu | 1982 | 1992 |
| 167 | Xankişiyev Mübariz Rəsul oğlu | 1972 | 16.04.94 |
| 168 | Xanməmmədov İlqar Paşa oğlu | 1969 | 23.10.93 |
| 169 | Xəlilov Elşən Məhəmməd oğlu | 17.01.1973 | 28.06.92 |
| 170 | Xudiyev Ayaz Vəli oğlu | 1962 | 1993 |
| 171 | Xudiyev Əyyub Şərif oğlu | - | (itkin şəhid) |
| 172 | Xudiyev Elşən Məhəmməd oğlu | 1973 | 28.06.92 |

| | | | |
|---|---|---|---|
| 173 | Xudiyev Füzuli Cəmil oğlu | 1963 | 26.01.92 |
| 174 | Xudiyev İlqar Təşkilat oğlu | 1975 | 30.01.94 |
| 175 | Xudiyev Ramiz Süleyman oğlu | 1968 | 15.08.92 |
| 176 | Xudiyev Təvəkkül Əvəz oğlu | 1973 | 15.08.92 |
| 177 | İbayev Şaiq Sevdimalı oğlu | 1965 | 22.12.93 |
| 178 | İbişov Baxşı Zeynal oğlu | 1946 | 1993 |
| 179 | İbrahimov Mirbəşir Bağır oğlu | 1974 | 06.05.94 |
| 180 | İbrahimov Rəsul Bəyqulu oğlu | 1956 | 1993 |
| 181 | İbrahimov Sərvər Rəşid oğlu | 16.08.1970 | 25.08.93 |
| 182 | İmanov Allahverdi Xudaverdi oğlu | 1962 | 29.06.94 |
| 183 | İmanov Həbib Yusif oğlu | 05.12.1969 | 23.04.94 |
| 184 | İmanov Müslüm Cəmil oğlu | 24.09.1969 | 15.08.93 |
| 185 | İmanova Gözəl Mehdi qızı | 1972 | 1993 |
| 186 | İmranəliyev İmran Cavanşir oğlu | 1960 | 1992 |
| 187 | İsaqov Elburus İsaq oğlu | 1966 | 15.06.94 |
| 188 | İsgəndərov Məhəmməd Burxan oğlu | - | (itkin, şəhid) |
| 189 | İsgəndərov Nəbi Məhəmməd oğlu | 1969 | 22.12.93 |
| 190 | İsgəndərov Rasim Yolçu oğlu | - | - |
| 191 | İsgəndərov Təbriz Novruz oğlu | 1939 | 23.12.1993 |
| 192 | İsmayılov Mehdi Lətif oğlu | 1972 | 22.12.93 |
| 193 | İsmayılov Ramazan Məhəmməd oğlu | - | (itkin, şəhid) |
| 194 | İsmayılov Taleh İldırım oğlu | 02.02.1967 | 02.03.95 |
| 195 | Kalbalıyev Cavid Möhübbət oğlu | 1975 | 25.04.94 |
| 196 | Kalbalıyev Nasir Sirac oğlu | 1967 | 17.04.94 |
| 197 | Kalbalıyev Vahid Famil oğlu | 1969 | 22.12.93 |
| 198 | Kazımov Vahab Yaşar oğlu | 1970 | 15.08.93 |
| 199 | Kərimov Elçin Ataş oğlu | 1975 | 31.12.93 |
| 200 | Qarayev Allahyar İsrafil oğlu | 1960 | 1993 |
| 201 | Qasımov Çingiz Musa oğlu | 21.11.1970 | 23.12.91 |
| 202 | Qasımov İlham Qasım oğlu | 1967 | 28.06.92 |





| | | | |
|---|---|---|---|
| 203 | Qasımov Mübariz Seyfəddin oğlu | 1969 | 12.04.95 |
| 204 | Qasımov Mübariz Yusif oğlu | 1966 | 28.06.92 |
| 205 | Qasımov Şahin Yaqub oğlu | 1973 | 15.08.92 |
| 206 | Qəhrəmanov Əkrəm Həbibulla oğlu | 1975 | 12.01.94 |
| 207 | Qəhrəmanov Qürbət Səmərqənd oğlu | 1973 | 26.10.92 |
| 208 | Quliyev Araz Həsən oğlu | 1973 | 03.07.94 |
| 209 | Quliyev Aydın Tapdıq oğlu | 08.04.1970 | 15.08.93 |
| 210 | Quliyev Baloğlan Əlif oğlu | 1962 | 25.03.92 |
| 211 | Quliyev Cavid Əkbər oğlu | 1975 | 22.12.93 |
| 212 | Quliyev Ceyhun Mehdiqulu oğlu | - | (itkin, şəhid) |
| 213 | Quliyev Elbrus Vaqif oğlu | 1973 | 12.02.94 |
| 214 | Quliyev Elgün Hüseyn oğlu | - | - |
| 215 | Quliyev Elvin Hüseyn oğlu | - | - |
| 216 | Quliyev Əhməd Nəsib oğlu | 1969 | 16.10.93 |
| 217 | Quliyev Əkbər Məhəmməd oğlu | 1935 | 1993 |
| 218 | Quliyev Əli Surxay oğlu | 1926 | 25.08.93 |
| 219 | Quliyev Habil Əhməd oğlu | 1973 | 22.08.93 (itkin, şəhid) |
| 220 | Quliyev Xürrəm Mehdiqulu oğlu | - | (itkin, şəhid) |
| 221 | Quliyev İftixar Atakişi oğlu | 1972 | 12.01.94 |
| 222 | Quliyev İxtiyar Atakişi oğlu | - | (itkin, şəhid) |
| 223 | Quliyev İlqar Əliş oğlu | 1970 | 06.05.94 |
| 224 | Quliyev Mehdiqulu Mədət oğlu | - | (itkin, şəhid) |
| 225 | Quliyev Mehman Qulu oğlu | 1968 | 08.07.93 |
| 226 | Quliyev Məhəmməd İbrahim oğlu | - | (itkin, şəhid) |
| 227 | Quliyev Müşfiq İbrahim oğlu | - | (itkin, şəhid) |
| 228 | Quliyev Novruz Şamil oğlu | 1930 | 1993 |
| 229 | Quliyev Oruc Məhəmməd oğlu | 1971 | 31.12.93 (itkin, şəhid) |
| 230 | Quliyev Rövşən Nadir oğlu | 1967 | 13.02.94 |

| | | | |
|---|---|---|---|
| 231 | Quliyev Rufif Telman oğlu | 1973 | 28.06.92 |
| 232 | Quliyev Sahib İslam oğlu | 26.12.1968 | 15.08.92 |
| 233 | Quliyev Savalan Ömər oğlu | 1973 | 15.08.92 |
| 234 | Quliyev Seyidağa Əbdülhəsənoğlu | 1974 | 22.12.93 |
| 235 | Quliyev Sövdəyar Nəcəf oğlu | 1958 | 1991 |
| 236 | Quliyev Valeh Məmmədəli oğlu | 1965 | 28.12.93 |
| 237 | Quliyev Vüqar Hətəm oğlu | 1973 | 18.11.93 |
| 238 | Quliyev Yasif Cəmil oğlu | 1977 | 20.02.96 |
| 239 | Quliyeva Ceyhunə Mehdiqulu qızı | - | (itkin, şəhid) |
| 240 | Quliyeva Ofelya Məmiş qızı | - | (itkin, şəhid) |
| 241 | Qurbanov Dədəkişi Əhməd oğlu | 1961 | 19.04.94 |
| 242 | Qurbanov Mürvət Əmrah oğlu | - | (itkin, şəhid) |
| 243 | Qurbanov Mürvət Mustafa oğlu | 1974 | 27.12.93 |
| 244 | Lətifov Ramiz Mahmud oğlu | 1974 | 1994 |
| 245 | Mahmudov Əli Murtuza oğlu | 1946 | 30.08.93 (itkin, şəhid) |
| 246 | Mahmudov Yaqub Mahmud oğlu | 1967 | 15.08.93 (itkin, şəhid) |
| 247 | Mehdixanov Rəfail Çərkəz oğlu | 1972 | 08.01.94 |
| 248 | Mehdiyev Faiq Nazim oğlu | 20.01.1971 | 15.08.92 |
| 249 | Mehdiyev İlqar Əlşəd oğlu | 1958 | 1997 |
| 250 | Mehdiyev İsmayıl Şükür oğlu | - | (itkin, şəhid) |
| 251 | Mehdiyev Mehdi Allahverdi oğlu | 1959 | 14.05.94 |
| 252 | Mehdiyev Zahid Təbriz oğlu | 1974 | 03.07.92 |
| 253 | Mehdiyev Zaur Murad oğlu | 1975 | 1994 |
| 254 | Mehmanalıyev Vüsal Rəfəddin oğlu | 1975 | 17.12.93 |
| 255 | Mehrəliyev Əziz Salman oğlu | - | (itkin, şəhid) |
| 256 | Mehrəliyev Nemət Arif oğlu | 1978 | 16.06.98 |
| 257 | Mehrəliyev Sərxan Yusif oğlu | 1968 | 1994 |
| 258 | Məhərrəmov Emil Əlyəddin oğlu | 1985 | 04.12.2003 |





| | | | |
|---|---|---|---|
| 259 | Məhərrəmov Namiq Həsənalı oğlu | - | (itkin, şəhid) |
| 260 | Məhərrəmov Pənah Ağa oğlu | 01.06.1964 | 30.08.1993 (itkin, şəhid) |
| 261 | Məhərrəmov Rahib Babakişi oğlu | 26.07.1970 | 25.12.93 |
| 262 | Məhərrəmov Rauf Allahverdi oğlu | 1971 | 19.03.94 |
| 263 | Məhəmmədov Məzahir Məhəmməd oğlu | 1968 | 25.08.93 |
| 264 | Məlikov Sərxan Qədir oğlu | 1966 | 15.08.93 |
| 265 | Məmişov Kazım Məmiş oğlu | 1974 | 28.06.92 |
| 266 | Məmişov Qədir Bəylər oğlu | 1974 | 08.09.94 |
| 267 | Məmişov Sabit Əmirxan oğlu | 1973 | 25.10.93 |
| 268 | Məmmədov Adil Hüseyn oğlu | 1967 | 28.12.93 |
| 269 | Məmmədov Hikmət Həsən oğlu | 1974 | 30.12.93 |
| 270 | Məmmədov Ədalət Ramazan oğlu | 1977 | 30.09.96 |
| 271 | Məmmədov Faiq Fərman oğlu | 24.07.1971 | 15.08.93 |
| 272 | Məmmədov Həsən Məhəmməd oğlu | 1931 | 30.08.93 (itkin, şəhid) |
| 273 | Məmmədov Hümbət Haşim oğlu | 1964 | 28.06.92 |
| 274 | Məmmədov Xıdır Əziz oğlu | 1929 | 30.08.93 (itkin, şəhid) |
| 275 | Məmmədov İlqar Əsgər oğlu | 1969 | 22.04.94 |
| 276 | Məmmədov Kazım Ərşad oğlu | 01.10.1969 | 15.11.91 |
| 277 | Məmmədov Məhəmməd Əvəz oğlu | - | (itkin, şəhid) |
| 278 | Məmmədov Məhərrəm Fehruz oğlu | 1955 | 1993 |
| 279 | Məmmədov Məmiş Məmmədalı oğlu | - | (itkin, şəhid) |
| 280 | Məmmədov Məmməd Yunus oğlu | 1950 | 1993 |
| 281 | Məmmədov Məzahir Məhəmməd oğlu | 1969 | 25.08.93 (itkin, şəhid) |
| 282 | Məmmədov Murad Məhəmməd oğlu | 1968 | 28.12.93 |
| 283 | Məmmədov Musa Maksud oğlu | 1930 | 1993 |
| 284 | Məmmədov Mübariz Fərmayıl oğlu | 1980 | 1993 |

| | | | |
|---|---|---|---|
| 285 | Məmmədov Mütəllim Kərim oğlu | 1968 | 18.11.93 |
| 286 | Məmmədov Ram Əşrəf oğlu | 1974 | 22.09.92 |
| 287 | Məmmədov Rantik Novruz oğlu | 1971 | 08.06.93 |
| 288 | Məmmədov Rüfət Rəvan oğlu | 30.03.1970 | 15.08.93 |
| 289 | Məmmədov Sabit Əmirxan oğlu | - | (itkin, şəhid) |
| 290 | Məmmədov Seyidəli İsmayıl oğlu | 1962 | 1993 |
| 291 | Məmmədov Səftər Novruz oğlu | - | (itkin, şəhid) |
| 292 | Məmmədov Səxavət Məhəmməd oğlu | - | (itkin, şəhid) |
| 293 | Məmmədov Söhrab Əhməd oğlu | 01.03.1972 | 01.04.93 |
| 294 | Məmmədov Tural Elşad oğlu | 1973 | 02.07.93 |
| 295 | Məmmədov Vahid Əmrah oğlu | 12.04.1973 | 13.08.92 |
| 296 | Məmmədov Vəliş Allahverdi oğlu | 1929 | 1993 |
| 297 | Məmmədova Fatma Əli qızı | 1936 | 1993 |
| 298 | Məmmədova Narxanım Məmməd qızı | - | (itkin, şəhid) |
| 299 | Məmmədova Şövkət Məmməd qızı | 1957 | 1993 |
| 300 | Məmmədova Tamilə Fərmayil qızı | 1970 | 1993 |
| 301 | Məmmədova Təranə İsmayıl qızı | 1974 | 1993 |
| 302 | Məmmədzamanova Lalə Ağahüseyn qızı | 1902 | 1993 |
| 303 | Mirimov Qərib Mehdi oğlu | 11.08.1950 | 15.08.93 |
| 304 | Mirzəliyev Ələsgər Fərzalı oğlu | 1969 | 23.10.93 |
| 305 | Mirzəyev Elsevər Kalbalı oğlu | 1975 | 15.08.93 |
| 306 | Misirxanov Çingiz Səyyaf oğlu | 23.06.1977 | 15.06.98 |
| 307 | Muradov Elşən Mürvət oğlu | 1975 | 1995 |
| 308 | Muradov Misir Əbil oğlu | 1926 | 1993 |
| 309 | Musayev Eldar Musa oğlu | - | (itkin, şəhid) |
| 310 | Musayev Elşən Elman oğlu | 1976 | 01.06.95 |
| 311 | Musayev Emin Həsən oğlu | 1971 | 11.04.93 |
| 312 | Nəcəfov Elsəvər Sərbiyə oğlu | 1973 | 28.06.92 |
| 313 | Nəcəfov Əbil İbi oğlu | 1968 | 1993 |
| 314 | Nəcəfov Pəhlivan Şərəfalı oğlu | 1968 | 1994 |





| | | | |
|---|---|---|---|
| 315 | Nəcəfova Gülarə İsmayıl qızı | - | (itkin, şəhid) |
| 316 | Nəsibov Yolçu Bilal oğlu | 1940 | 1991 |
| 317 | Nəsirov Azər Nəriman oğlu | 1961 | 1994 |
| 318 | Nəsirov Faiq Qaroğlan oğlu | 1970 | 16.04.93 |
| 319 | Novruzov Əkbər Ələkbər oğlu | 1968 | 02.07.93 |
| 320 | Nuriyev Kazım Təbriz oğlu | 1966 | 01.02.94 |
| 321 | Osmanova Bənövşə İbrahim qızı | 1916 | 25.08.93 (itkin, şəhid) |
| 322 | Paşayev Oruc Əziz oğlu | - | (itkin, şəhid) |
| 323 | Piralıyeva Nənəxanım Məhəmməd qızı | - | (itkin, şəhid) |
| 324 | Piriyev Faiq Sədi oğlu | 1973 | 04.01.94 |
| 325 | Rəhimov Eldəniz Şükür oğlu | 1965 | 31.12.93 |
| 326 | Rəhimov Mətləb Əvəz oğlu | 01.02.1969 | 15.08.93 |
| 327 | Rüstəmov Abbas Abbas oğlu | 1932 | 30.08.93 (itkin, şəhid) |
| 328 | Rüstəmov Arif Ağa oğlu | 29.06.1975 | 26.04.94 |
| 329 | Rüstəmov İlham Qüdrət oğlu | 1962 | 30.08.93 (itkin, şəhid) |
| 330 | Rüstəmov Qədir Məhəmməd oğlu | 1973 | 03.07.93 |
| 331 | Rüstəmov Qüdrət Abbas oğlu | 1929 | 26.08.93 (itkin, şəhid) |
| 332 | Rüstəmov Mədət Mürşüd oğlu | 1973 | 15.08.93 |
| 333 | Rüstəmov Məhəmməd Xasay oğlu | 1969 | 03.07.93 |
| 334 | Rüstəmov Novruz İbiş oğlu | 1966 | 25.08.93 |
| 335 | Rüstəmov Pəhləvan Zaman oğlu | 1965 | 28.06.92 |
| 336 | Sadıqov Qəfil Qabil oğlu | 1974 | 14.02.94 |
| 337 | Sevdimalıyev Cəbrayıl Əli oğlu | 20.11.1966 | 15.08.94 |
| 338 | Seyidəliyev Faiq Fazil oğlu | 1986 | 1993 |
| 339 | Səfərov Bəxtiyar Zülfiqar oğlu | - | (itkin, şəhid) |
| 340 | Səfiquliyev Məzahir Ağakişi oğlu | 1971 | 28.12.93 |
| 341 | Səmədov Sabir Əvəz oğlu | 1973 | 28.01.96 |

| | | | |
|---|---|---|---|
| 342 | Surxayev Arif Əbil oğlu | 1965 | 07.03.94 |
| 343 | Süleymanov Ərəstun Tarıyel oğlu | 1973 | 28.06.92 |
| 344 | Süleymanov Məhəmməd Əhməd oğlu | 1973 | 01.01.94 |
| 345 | Süleymanov Azad Əhməd oğlu | 1975 | 25.04.94 |
| 346 | Şahmarov Qaçay Baxış oğlu | 1954 | 02.02.93 |
| 347 | Şahmirzəyev Natiq Ülkər oğlu | 1975 | 16.07.98 |
| 348 | Şəmilov Rövşən Bəhlul oğlu | 12.04.1974 | 15.08.93 |
| 349 | Şirinov Bayram İsmayıl oğlu | 1975 | 28.01.94 |
| 350 | Şirinov İlyas İsmayıl oğlu | - | (itkin, şəhid) |
| 351 | Şirinov Nazim Şirin oğlu | 01.01.1962 | 21.10.93 (itkin, şəhid) |
| 352 | Şirinov Şirin Bilal oğlu | - | (itkin, şəhid) |
| 353 | Şirinov Tahir Şirin oğlu | - | (itkin, şəhid) |
| 354 | Şükürov Eşad Camal oğlu | 1971 | 28.10.92 |
| 355 | Şükürov Fikrət Sədətqulu oğlu | 1970 | 26.11.95 |
| 356 | Şükürov İlyas İsmayıl oğlu | - | (itkin, şəhid) |
| 357 | Şükürov Namiq Məhəmməd oğlu | 1974 | 12.01.97 |
| 358 | Şükürov Nüsrət Əli oğlu | 06.02.1973 | 31.12.93 |
| 359 | Şükürov Pənah Kamran oğlu | 1962 | 15.08.92 |
| 360 | Şükürov Salman Salman oğlu | - | (itkin, şəhid) |
| 361 | Şükürov Şərif Məhərrəm oğlu | 1970 | 15.08.92 |
| 362 | Şükürov Vilayət Kərəm oğlu | 1972 | 23.08.93 |
| 363 | Tahirov İsgəndər Kamal oğlu | 1973 | 30.12.92 |
| 364 | Talıbov Zahid Kamran oğlu | 1965 | 25.10.93 |
| 365 | Təhməzov Oruc Nüsrət oğlu | 1974 | 08.10.94 |
| 366 | Təhməzov Səid Turuş oğlu | 1972 | 22.12.93 |
| 367 | Təhməzova Qönçə Səfərəlı qızı | 1928 | 1993 |
| 368 | Verdiyev Azər Məhəmmədəli oğlu | 1971 | 18.05.93 |
| 369 | Verdiyev Famil Möyüş oğlu | 1956 | 1993 |
| 370 | Verdiyev Mayıs Akif oğlu | 1969 | 11.04.93 |





| | | | |
|---|---|---|---|
| 371 | Verdiyev Soltan Həsən oğlu | 1968 | 04.07.93 |
| 372 | Verdiyev Vidadi Xanmurad oğlu | 1968 | 15.08.93 |
| 373 | Veysəlov Əsgər Tahir oğlu | 13.03.1971 | 14.09.91 |
| 374 | Vəliyev Çingiz İdris oğlu | 1974 | 20.04.94 |
| 375 | Yolçuzadə Kamal Məhəmməd oğlu | 1975 | 27.01.94 |
| 376 | Yusifov Cabbar Mürsəl oğlu | 1965 | 1993 |
| 377 | Yusifov Elman Bəhram oğlu | 17.06.1974 | 15.08.94 |
| 378 | Zalov Zakir Hidayət oğlu | 15.11.1962 | 23.12.91 |
| 379 | Zalova Zabıta Əhmədxan qızı | 1907 | 1993 |
| 380 | Zamanov Füzuli Qulu oğlu | 1966 | 15.08.92 |

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Azərbaycanın toponimləri:** Ensiklopedik lüğət; Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1999.
2. **Azərbaycan etnoqrafiyası**, 3 cilddə, I cild, Bakı, 1988.
3. **Azərbaycan tarixi** üzrə **qaynaqlar:** Azərbaycan Universiteti Nəşriyyatı, Bakı, 1989.
4. **Azərbaycan klassik ədəbiyyatı kitabxanası:** 20 cilddə; I cild, Bakı, 1982.
5. **Azərbaycan Sovet Ensiklopediyası:** I-X cildlər, Bakı, 1976-1987.
6. **Azərbaycan tarixi**, Bakı, Azərnəşr, 1994.
7. **Azərbaycan dilinin izahlı lüğəti:** III cild, Bakı, 1993.
8. **Müasir Azərbaycan dili:** I cild, Bakı, "Elm", 1978.
9. **Qızılbaşlar tarixi**, "AND" kitabxanası seriyasından, Bakı, 1993.
10. **İzahlı coğrafi adlar lüğəti**, Bakı, 1960.
11. **Musa Kalankaytuklu:** Albaniya tarixi. Bakı, Elm, 1993.
12. **Ərəb və fars sözləri lüğəti:** - Yazıçı, Bakı, 1985.
13. **Хамдуллах Казвини:** – Нузхат алхлуб. Материалы по Азербайджану. Перевод с английского З.М.Бунятова, перевод с Персидского И.И.Петрущевского, Баку, 1983.
14. **Münəccimbaşı:** Cami əd-düvəl, Tarix əl-Bab və Şirvan fəsli. V.Minorskinin rusca nəşri, 1963.
15. **Y.V.Çəmənzəminli:** Tarixi, coğrafi və iqtisadi "Azərbaycan", BDU nəşriyyatı, 1993.
16. **M.H.Vəliyev:** Azərbaycan fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk, Bakı, 1993.
17. **Rəşid bəy İsmayılov:** Azərbaycan tarixi: Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.
18. **F.Rəşidəddin:** "Cami-ət-Təvarix", Bakı, 1956.
19. **Ф.Рашидаддин:** Сборник летописей. Том, Книга первая, М., Л., 1952.
20. **Ə.Dəmirçizadə:** Azərbaycan ədəbi dilinin tarixi; I cild, Bakı, 1979.







21. **R.Özdək:** Türkün Qızıl kitabı; Bakı, Yazıçı, 1992.
22. **R.Özdək:** Türkün Qızıl kitabı; I cild, Bakı, 1996.
23. **С.М.Салахов:** Влияние курортных факторов Туршсу на различные функциональные системы организма; Баку, 1979, Курорты, М.1983.
24. **T.Ə.Bünyadov:** Azərbaycan arxeologiyası oçerkləri. Bakı Azərnəşr, 1960.
25. **T.Ə.Bünyadov:** Azərbaycanda maldarlığın inkişafı tarixindən, Bakı, 1969.
26. **T.Hacıyev:** Cəbrayıl şivələrində arxaizmlər. Azərbaycan SSR EA Xəbərləri. İctimai elmlər seriyası. №9.1961.
27. **A.Hacıyev:** Azərbaycan dilinin onomastik sistemi, Bakı, 1990.
28. **Г.Гейбуллаев:** Топоними Азербайджана, "Елм", Баку, 1986.
29. **Г.Гейбуллаев:** К етногенезу азербайджанцев, - Баку, 1986.
30. **Q.Qeybullayev:** Qarabağ (Etnik və siyasi tarixinə dair; Bakı, 1990.
31. **Q.Məşədiyev:** Zaqafqaziyanın Azərbaycan toponimləri; Bakı, "Elm", 1990.
32. **R.Yüzbaşov:** Azərbaycan coğrafiya terminləri, Bakı, 1969.
33. **R.Yüzbaşov, K.Əliyev, Ş.Sədiyev:** Azərbaycanın coğrafi adları, Bakı, Maarif, 1972.
34. **İbn-əl Nəsir:** Əl Kamil fit-tarix, Bakı, 1959.
35. **Ə.Məmmədov:** Qarayazı düzündən Xəzər dənizinə qədər, Bakı, 1979.
36. **Е.Мурзаев:** Очерки топонимики, М., 1974.
37. **Е.Мурзаев:** Словарь народных географических терминов, Москва, 1984.
38. **Дневнотюркский словарь.** Ленинград, 1969.
39. **N.G.Məmmədov:** Azərbaycanın yer adları: Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.
40. **N.G.Məmmədov:** Azərbaycan Respublikasının oronimləri, Bakı, 1999.

41. **M.Ə.Məmmədli:** ***Qızılbaşlar tarixi.*** Tərcümə və şərhlər, Bakı, "Azərbaycan" nəşriyyatı, 1943.
42. **M.X.Şərifli:** IX əsrin II yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Elm, Bakı, 1978, 344 s.
43. **T.Əhmədov:** El-obamızın adları, Bakı, Gənclik, 1984.
44. **T.Əhmədov:** Azərbaycan paleotoponimiyası, Bakı, 1985.
45. **Azərbaycan toponimiyasının** əsasları: Bakı Universiteti nəşriyyatı, 1991.
46. **Ə.N.Əsədov:** Toponimlər coğrafi xəritələrdə, Bakı, 1985.
47. **В.Ф.Минорский:** История Ширвана и Дербента, X-XI в.в. М., 1963.
48. **M.Adilov, A.Paşayev:** Azərbaycan onomastikası, «Azərbaycan Universiteti Nəşriyyatı», 1987.
49. **M.Seyidov:** Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı, Yazıçı, 1989.
50. **M.Vahidov:** Azərbaycanda küp qəbirləri mədəniyyətinin bəzi məsələlərinə dair, Az.MM, VII cild, Bakı, 1965.
51. **К.В.Тревер:** Очерки по истории и культуры Кавказской Албании IVV. до н.э. -VII в н.э. М., -Л., 1969.
52. **Б.А.Будагов:** Об изучении топоними Азербайджана и задачах. Материалы научной конференции, посвященной изучение топоними Азербайджана, Баку, 1981.
53. **B.Ə.Budaqov:** Azərbaycan coğrafiya terminlərinin bəzi məsələlərinə dair. Azərbaycan SSR EA-nın xəbərləri. Geologiya-coğrafiya elmləri seriyası, 1951, №1, rus dilində xğlasə ilə.
54. **B.Ə.Budaqov:** Türk uluslarının yer yaddaşı, Bakı, "Elm", 1994.
55. **B.Ə.Budaqov, Q.Ə.Qeybullayev:** Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, "Oğuz eli" nəşriyyatı, Bakı, 1998.
56. **B.Ə.Budaqov, Q.Ə.Qeybullayev:** Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti, Bakı, "İsmayıl" NPM, 2002.
57. **Yesayi Həsən Cəlal:** Alban ölkəsinin qısa tarixi (1702-1722), Bakı, 1932.
58. **Y.Yusifov, S.Kərimov:** Toponimikanın əsasları, Bakı, 1987.





59. **Y.Yusifov:** Toponimiya tarixi mənbə kimi. "Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş konfransın materialları", Bakı, 1973.
60. **S.Əliyarov:** Tarixi-coğrafi qeydlər; "Kitabi-Dədə Qorqud", Bakı, Yazıçı, 1988.
61. **A.M.Qurbanov:** Azərbaycan onomologiyası məsələləri, Bakı, 1986.
62. **N.M.Xudiyev:** Azərbaycan ədəbi dilinin tarixi, Bakı, 1997.
63. **K.Əliyev:** Qədim Azərbaycan toponimlərinə dair, - Bakı, 1972.
64. **K.Əliyev:** Antik Qafqaz Albaniyası, Bakı, 1992.
65. **A.Axundov:** Torpağın köksündə tarixin izləri, Bakı, Gənclik, 1982.
66. **F.R.Xalıqov:** Mil-Qarabağ düzü rayonlarının toponimiyası, Bakı, 1984.
67. **F.L.Osmanov:** Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV-III əsrlər), Bakı, 1982.
68. **Z.Budaqova, T.Hacıyev:** Azərbaycan dili, Bakı, "Elm", 1992.
69. **T.Hacıyev, V.Vəliyev:** Azərbaycan dili tarixi, Bakı, 1973.
70. **S.M.Qazıyev, Q.M.Aslanov:** İki küp qəbri haqqında. Azərbaycanın maddi mədəniyyəti, II cild, Bakı, 1951.
71. **Z.M.Bünyadov:** Azərbaycan Atabəylər dövləti (1136-1225), Bakı., 1983.
72. **C.İbrahimov:** Qaraqoyunlu dövləti, Bakı, 1948.
73. **Ə.Fərzəli:** Dədə Qorqud yurdu. Bakı, Azərnəşr, 1989.
74. **F.Ağasıoğlu:** Azər xalqı, Bakı, "Ağrıdağ", nəşriyyatı, 2000.
75. **Б.А.Никонов:** Введение в топонимику, М., 1965.
76. **İ.Musayev:** Dil, Yaddaş, Vətən, Vətəndaş; Assosiativ incələmələr, Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1965.
77. **Д.Д.Paqirev:** Альфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис, 1913.
78. **Saleh bəy:** Dünyanın taleyi, Bakı, 1965.
79. **H.Həbibov:** Azərbaycan etnoqrafiyası, Bakı, Elm, 1998.
80. **Ə.Şükürov, A.Məhərrəmov:** Qədim türk yazılı abidələrinin

dili, Bakı, 1976.
81. **İ.Şahbazov:** Coğrafi adların xəritəsi, Bakı, "Elm və həyat" jurnalı, 1979.
82. **X.Xəlilov:** Qarabağın elat dünyası; Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1992.
83. **Q.Voroşil:** Qafqaz Albaniyası, Bakı, "Öyrətmən" nəşriyyatı, 1993.
84. **Ə.Tanrıverdiyev:** Türk mənşəli Azərbaycan antroponimləri, Bakı, 1996.
85. **M.A.Hüseynzadə:** Qaramanlı tayfasının Anadoluya gəldiyi yollar. Azərbaycan SSR EA Xəbərləri, 1968, №3.
86. **R.Göyüşov:** Azərbaycan arxeologiyası, Bakı, 1986.
87. **N.Kərimov:** Qırx il səyahətdə, Bakı, 1974.
88. **E.Q.Mehrəliyev:** Xalq coğrafi terminlərinin izahlı lüğəti, Bakı, 1987.
89. **E.Q.Mehrəliyev:** Tərkibində *"qara"* və *"ağ"* terminləri olan coğrafi adların mahiyyəti və lokal dəyişilməsi. Azərbaycan toponimiyasının öyrənilməsinə həsr edilmiş elmi konfransın materialları, Bakı, 1973.
90. **Lev Qumilyov:** Qədim türklər, Bakı, Gənclik, 1993.
91. **İ.Əliyev:** Dağlıq Qarabağ; tarix, faktlar, hadisələr, Bakı, Elm, 1989.
92. **F.Sümər:** Oğuzlar. Bakı, Yazıçı, 1992.
93. **İ.Sadıq:** Susmaq qızıl deyilmiş... Bakı, 1992.
94. **N.Rzayev:** Möcüzəli qərinələr, Bakı, 1984.
95. **F.Məmmədova:** Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası, Bakı, 1993.
96. **N.Nəbiyev:** Coğrafi adlar, Bakı, 1982.
97. **S.M.Mollazadə:** Coğrafi adlar və Azərbaycan dilinin tarixi, Bakı, 1973
98. **S.M.Mollazadə:** Azərbaycanın şimal rayonlarının toponimləri, Bakı, 1979.
99. **S.M.Mollazadə:** Azərbaycan toponimiyası, 1985.
100. **Ə.Rəcəbov:** Dilçilik tarixi, Bakı, 1988.





101. **Ə.Rəcəbov, Y.Məmmədov:** Orxon-Yenisey abidələri, Bakı, 1993.
102. **H.Həsənov:** Söz və ad, Bakı, Maarif, 1984.
103. **M.Şirəliyev:** Azərbaycan dialektologiyasının əsasları, Bakı, 1968.
104. **N.Axundov:** Qarabağ salnamələri, Bakı, Yazıçı, 1989.
105. **İ.Bayramov:** Qərbi Azərbaycanın türk mənşəli toponimləri Bakı, Elm, 2002.
106. **Osman Mirzə:** Adlarımız, Məlumat kitabı, Bakı, 1993.
107. **Ə.Çingizoğlu, F.Baxşəliyev:** Qarabağın el və obaları, "Şuşa" nəşriyyatı, Bakı, 2007.
108. **Ə.Çingizoğlu:** Qacarlar və Qacar kəndi. Bakı, 2008.
109. **Ə.Çingizoğlu:** Qarabağda sənət və sənətkarlar. Bakı, "Elm və Təhsil", 2011.
110. **Ə.Çingizoğlu:** Qarabağlı hüquqşünaslar (1822-1920). Bakı, "Mütərcim", 2012.
111. **Qarabağnamələr:** İkinci kitab, Bakı, Yazıçı, 1991.
112. **C.Heyət:** Türklərin tarix və mədəniyyətinə dair baxış, Bakı, 1993.
113. **Oğuznamə:** Bakı, 1987.
114. **Ş.Cəmşidov:** "Kitabi-Dədə Qorqud" qəhrəmanlarının mərkəzi yaşayış yerləri haqqında ("Respublika Əlyazmaları Fondunun əsərləri", I cild, Bakı, 1961, s.122).
115. **M.Ağayev:** Füzuli rayonu, sənədli tarixi oçerklər. Bakı, 2005.
116. **B.Məhişoğlu (İbrahimov):** Doğma adım - Qarabağım, "Araz" nəşriyyatı, Bakı, 2002.
117. **В.Л.Величко:** Кавказ, Баку, 1990.
118. **V.Muradov:** Orta əsr Azərbaycan şəhərləri, Bakı, 1973.
119. **F.Əsədzadə:** Karyagin kimdir? "Azərbaycan" qəzeti, 28.12.1991.
120. **R.Göyüşov:** Qarabağın keçmişinə səyahət, Bakı, 1993.
121. **E.A.İsmayılov:** Azərbaycan şəhərlərinin planlaşması, Bakı, 1974.

122. **M.Nemət:** "Azərbaycanda pirlər". Bakı, 1992.
123. **M.Nemət:** "Azərbaycanın epiqrafik abidələr korpusu", I, II, III cilddə, Bakı, 1991-2001.
124. **M.Nemət:** Şeyx Babi Yəqub xanəgahı; Azərbaycan pirləri,. Bakı, 1992.
125. **M.Hüseynov:** Uzaq daş dövrü. Bakı, «Gənclik», 1973.
126. **M.Hüseynov, Q.İsmayılov:** Azıx və Tağlar mağaralarından aşkar olunmuş eneolit dövrü tapıntıları. //Tarix, fəlsəfə və hüquq seriyası, Bakı, 1967, №1.
127. **Azərbaycan dilinin orfoqrafiya lüğəti.** "Lider Nəşriyyat", Bakı, 2004.
128. **Q.İsmayılov:** Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, "Elm", 1981.
129. **Q.İsmayılov:** Abidələr, xatirələr, düşüncələr, Bakı, "Gənclik", 1981.
130. **Azərbaycan abidələri.** Bakı, "Azərnəşr", 1989.
131. **Ə.V.Salamzadə, Ə.Ə.Sadıqzadə:** Arazboyu abidələr. Bakı, "Elm", 1979.
132. **V.Mehdiyev:** Yaddaş. Bakı, "Təhsil" NPM, 2006.
133. **Ə. Əfəndiyev:** Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu, Bakı, 1999.
134. **M.Həsənov, X.Zamanov, B.Cəfərov, N.Vəliyev:** Azərbaycanın çayları, gölləri, su anbarları, Bakı, 1973.
135. **M.Fahreddin Kırğıoğlu:** 1593-cü il Osmanlı Vilayət Təhrir Dəftərlərində Gəncə-Qarabağ sancaqları ulus və oymaqları; Ankara, 1979.
136. **AKAK;** Tom I. T., 1866, s.45, 150, 156, 162, 185, 188, 193, 195, 203, 217, 232, 237, 283, 285, 287, 308, 320, 327, 332, 404, 412, 418; Tom II. T., 1868, s.134, 143, 153, 166, 172, 175, 270, 288, 299, 319, 397, 561, 580, 588, 590, 609, 643, 648, 703, 709, 726, 743, 822, 830, 832; Tom III. T., 1869, s.262, 334, 342, 359, 443, 503, 515; Tom IV,T., 1870, 525, 532, 549, 564, 568, 708, 715, 134, 742, 746; Tom V, T., 1873, s.6, 11, 22, 87, 109, 186, 199, 216, 250, 258, 269, 667, 705,





706, 756, 816, 931; Tom VI, çast-I, T., 1874, 518, 520, 829, 886, 882; Tom VII, T., 1878, s.95, 131, 597, 750.
137. **Памятная книга Елизаветпольской губернии** на **1914 год.** Т., 1914; Справочный отдель; Д.Д.Пагирев: Альфавитный указатель к пятиверстной карты Кавказского края; Т., 1913, стр. 83.
138. **Д.Д.Пагирев:** Альфавитный указатель к пятиверстной карты Кавказского края; Т., 1913.
139. **N.M.Vəlixanlı:** IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında, Bakı, 1974.
140. **ASE:** Coğrafiya sözlüyü, Bakı, 1977.
141. **Mirzə Adıgözəlbəy:** Qarabağnamə, Bakı, 1950.
142. **H.M.Mamayev:** Azərbaycan SSR-nin rayonları, şəhərləri, şəhərtipli yaşayış məntəqələri, kənd sovetləri və başqa yaşayış məntəqələrinin adlarının düzgün yazılışı, Bakı, 1950.
143. **Azərbaycan SSR:** İnzibati ərazi bölgüsü, Bakı, 1968.
144. **Azərbaycan SSR:** İnzibati ərazi bölgüsü, "Azərnəşr" Bakı, 1979.
145. **Azərbaycanın regionları.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. "Səda" nəşriyyatı, Bakı, 2002.
146. **Л.О.Керимов:** Азербайджанский ковер, Баку, 1983.
147. **S.A.Mollazadə:** Azərbaycan dilində coğrafi adlar necə yaranmışdır, Bakı, 1974.
148. **Y.Pompeyev:** Qarabağ qan içində, Bakı, 1996.
149. **N.A.İbrahimov:** Azərbaycan tarixinin alman səhifələri, Bakı, 1997.
150. **Kavkazskiy kalendar:** T., 1854.
151. **A.V.Parvitskiy:** Экономический быт государственных крестян severo-западной части Шарура и восточной части Даралагеза Шарура - Даралагезского уьезда Эриванской губернии, МИЕБОГЛЯЛ, Том IV. т., 1886.
152. **Obozrenie Rossiyskiy za Kavkazom, çast II, SPB.**, 1836.
153. **Azərbaycan dilinin izahlı lüğəti** (*4 cilddə*). Bakı, "Şərq-Qərb", 2006.

154. **V.V.Bartold:** Soçineniya, Tom V, M., 1963.
155. **M.Avdeev:** Milsko-Karabaxskaya step, Bakı, 1930.
156. **M.İ.Artamonov:** Oçerki drevneyşey istorii Xazar, L., 1937.
157. **Qarabağnamələr:** Bakı, 1989.
158. **A.Mansurov:** Tarixin ağ ləkələri və yenidənqurma, Bakı, "Yazıçı", 1991.
159. **Qarabağ:** ***Folklor da bir tarixdir.*** Bakı, "Elm və Təhsil", 2012.
160. **R.Qarabağlı:** "Qarabağdan Füzuliyədək", Bakı, "Nurlan" NPM, 2004.
161. **Z.M.Bünyadov, Y.V.Yusifov:** Azərbaycan tarixi, I cild, Bakı, 1994.
162. **M.Ə.İsmayılov:** Sənin ulu baban, Bakı, 1989.
163. **M.İsmayılov:** Azərbaycan tarixi, II hissə, Bakı, 1993.
164. **S.Rüstəmzadə:** Bir ömrğn yarpaqları, Bakı, "İşıq", 1991.
165. **Z.Sultanov:** Qarabağın qara günləri, Bakı, "Yazıçı", 1992.
166. **İ. Kazımov:** Cəbrayılın coğrafi adları. "Kolxozçu" qəzeti, 20 dekabr, 1988.
167. **Ə.İmanov:** Cəbrayıl maili düzənliyində yayılmış Xəzər yarusu çöküntüləri və onların əhəmiyyəti. Bakı Universiteti Xəbərləri. Təbiət elmləri seriyası, №2, 2002.
168. **E.İsmayıl:** Oğuz yurdunun övladları. (I kitab), Bakı, "Təbib", 1999.
169. **Gəncə-Qarabağ əyalətinin müəffəssəl dəftəri**, Bakı, "Şuşa", 2000.
170. **Mirzə Camal Cavanşir Qarabaği:** Qarabağ tarixi, bax: Qarabağnamələr, Bakı, Yazıçı, 1989.
171. **V.Z.Piriyev:** Qarabağ XIII - XVI əsrlərdə, "Azərbaycan", 5 noyabr 1989.
172. **V.Z.Piriyev:** Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı, "Müəllim", 2006.
173. **K.V. Trever:** Oçerki po istorii i kulture Kavkazskoy Albani, M.-L., 1959.
174. **E.İ. Krupnov: Drevnyaya istoriya Severnoqo Kavkaza, M., 1960.**





175. **A.A.İessen:** İz istoriçeskoqo proşloqo Milsko-Karabaxskoy stepi, Trudı Azerbaydcanskoy arxeoloqiçeskoy ekspediçii, t.2, M.-L., 1965.
176. **Mirzə Adıgözəlbəy:** Qarabağnamə, Bakı, 1950.
177. **Əhmədbəy Cavanşir:** Qarabağ tarixinin siyasi tarixinə dair (1747-ci ildən 1805-ci ilə qədər), Bakı, 1961.
178. **Q.Abdullayev:** Azerbaydcan XVIII veke i vzaimootnoşeniə eqo s Rossiey, Baku, 1965.
179. **Azərbaycan tarixi**, c.1. Bakı, 1961.
180. **V.N. Levitov:** Oçerki iz istorii Azerbaydcana XVII veke, Baku, 1948.
181. **A.N. Mustafayeva:** Qobustanda qədim ev tipi - kühül haqqında. Azərbacyan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1970, №3-4.
182. **A.Məmmədov:** Coğrafi adların sirri. Bakı, 1969.
183. **Z.Kazımov:** Cəbrayıl toponimləri. Bakı, "Sabah" 1995.
184. **Ə.Q.Cəfərov:** Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı, Azərnəşr, 1989.
185. **Ə.Cəfərov:** Quruçay dərəsində, Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1990.
186. **Ə.Cəfərov:** Qarabağın poleolit düşərgəsi. «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jurnalı, Bakı, 2003, №2.
187. **Azərbaycan dilinin izahlı lüğəti**, IV cilddə, Bakı, "Şərq-Qərb", 2006.
188. **Ə.Ələkbərli:** Qədim Türk-oğuz yurdu- Ermənistan, Bakı, "Sabah", 1994, 204 s.
189. **A.A.Raxmani:** «Tarixi alam aray-i Abbası» kak istoçnik po istorii Azerbaydjana, Bakıu 1960.
190. **N.Ə.Əsgərov:** Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı, «Elm», 2005.
191. **V.Həbiboğlu:** Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri, Bakı, «Örnək», 1995.
192. **Ə.Əroğul:** Cəbrayılım - Müqəddəs torpaq. Bakı, "Ekologiya" nəşriyyatı, 2006.

193. Ə.Əroğul: Cəbrayıl ziyarətgahları. Bakı, "Təknur", 2009.
194. Ə.Əroğul: Tumas ata və tumaslılar. Bakı, "Təknur", 2010.
195. İ.Kazımov, B.Mehdiyev, B.Zeynalov, Q.Abdulla, Z.Kazımlı: Cəbrayıl və cəbrayıllılar (I hissə). Bakı, "Nurlan", 2006.
196. T.Abbaslı: Cəbrayıl alimləri. Bakı, "Adiloğlu", 2008.
197. Ş.Quliyev, T.Abbasov, F.Quliyev: Cəbrayıl. Bakı, "İşıq", 1993.
198. H.Həsənoğlu: Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidləri, övliyaları. (II hissə). Bakı, "Nasir" nəşriyyatı, 2005.
199. M.Hüseynov: Döyüşdən sonra döyüş. Bakı, «Təknur» nəşriyyatı, 2010.
200. M.Hüseynov: Qanlı döyüşlərin canlı şahidləri. Bakı, «Təknur» nəşriyyatı, 2011.
201. N.Tapdıqoğlu: Müqəddəs Qarabağım, Bakı, 2000.
202. N.Tapdıqoğlu: Füzuli rayonunun toponimləri, Bakı, 2001.
203. N.Tapdıqoğlu: Qubadlı rayonunun toponimləri, Bakı, 2001.
204. N.Tapdıqoğlu: Kəlbəcərin toponimləri, Bakı, 2002.
205. N.Tapdıqoğlu: Zəngilan rayonunun toponimləri, Bakı, 2002.
206. N.Tapdıqoğlu: Laçın rayonunun toponimləri, Bakı, 2002.
207. N.Tapdıqoğlu: Xocalı toponimləri, Bakı, 2002.
208. N.Tapdıqoğlu: Qarabağın tacı - Şuşam, Bakı, 2003.
209. N.Tapdıqoğlu: Saatlı rayonunun toponimləri, Bakı, 2003.
210. N.Tapdıqoğlu: Sabirabad rayonunun toponimləri, Bakı, 2003.
211. N.Tapdıqoğlu: Kürdəmir rayonunun toponimləri, Bakı, 2003.
212. N.Tapdıqoğlu: Cəbrayıl rayonu və onun toponimiyası, Bakı, 2004.
213. N.Tapdıqoğlu: Göyçay rayonu və onun toponimiyası, Bakı, 2004.
214. N.Tapdıqoğlu: İmişli rayonu və onun toponimiyası, Bakı, 2004.
215. N.Tapdıqoğlu: Ucar rayonu və onun toponimiyası, Bakı, "Ti-Media" şirkətinin mətbəəsi, 2005.
216. N.Tapdıqoğlu: Şəmkir rayonu və onun toponimiyası, Bakı, "Adiloğlu" nəşriyyatı, 2005.





217. N.Tapdıqoğlu: Laçın rayonu və onun toponimiyası, Bakı, "Araz" nəşriyyatı, 2005.
218. N.Tapdıqoğlu: Neftçala rayonu və onun toponimiyası. Bakı, "Təhsil" NPM, 2006.
219. N.Tapdıqoğlu, A.Əliyev: Ağdam rayonu və onun toponimiyası, Bakı, "Təhsil" NPM, 2006.
220. N.Tapdıqoğlu: Ağcabədi ensiklopediyası. Bakı, "Təhsil" NPM, 2007.
221. N.Tapdıqoğlu: Füzuli rayonu və onun toponimiyası. Bakı, «Ünsiyyət», 2008.
222. N.Tapdıqoğlu: Füzuli rayonu. «Zərdabi LTD» MMC, Bakı, 2009.
223. N.Tapdıqoğlu: Zərdab ensiklopediyası. «Zərdabi LTD» MMC, Bakı, 2009.
224. N.Tapdıqoğlu: Azərbaycan faciələrinin təqvimi. "Min bir mahnı", Bakı, 2010.
225. N.Tapdıqoğlu: Sultan bəy *(Roman)*. Bakı, "Yazıçı", 2011.
226. N.Tapdıqoğlu: İ.Məmmədov: Azərbaycan şəhərləri. "Vektor" nəşrlər evi, Bakı, 2013.

## Kitabın içindəkilər

Müəllifdən ... 3
Müqəddəs Qarabağım ... 41
Cəbrayıl Rayonunun toponimləri ... 66

~~A~~

Abaslı bulağı ... 66
Abaslı kəhrizi ... 66
Abbaslı yaylağı ... 67
Abbasvurulan yer ... 67
Abdal yurdu ... 68
Abduləli bulağı ... 68
Abuzər meşəsi ... 69
Acı almalıq ... 69
Adamölən dərə ... 70
Ağ hərəm kəhrizi ... 71
Ağ ismayıl bulağı ... 71
Ağ seyid piri ... 72
Ağalarbatan göl ... 72
Ağalaruçan körpü ... 72
Ağaverdi yurdu ... 73
Ağca duzu (At piri) piri ... 73
Ağcaqayınlı zəmi ... 74
Ağdam dərəsi, Ağdam düzü, Ağdam yatağı ... 74
Ağdaş güneyi ... 75
Ağdərə ... 75
Ağıl dərəsi ... 76
Ağqaya ... 77
Ağoğlan abidəsi ... 77
Ağsaqlar kəhrizi ... 79
Ağtəpə ... 79
Ağtəpə kəndi ... 80
Axar-baxarlı ... 80
Axərəm bulağı ... 81
Axərəm piri ... 81
Ala öküz dərəsi ... 82
Alabaxtalı düz ... 82
Alakol ... 82
Alakölgə ... 83





Alaqarğı kəndi ... 83
Alaqaya təpəsi ... 83
Alastan dərəsi ... 84
Alaşar yalı ... 84
Alban baş daşı ... 85
Alban düzü ... 85
Alçalı dərə ... 85
Alı dərəsi ... 86
Alıkeyxalı kəndi ... 86
Alıpaşa dağı ... 87
Allahverən qışlağı ... 88
Alma bağı ... 88
Almadərən bağı ... 89
Almalı ... 89
Anbarın gözü ... 89
Aralıq dərəsi ... 90
Araz çayı ... 90
Araz maşanlı kəndi ... 94
Ardıc piri ... 94
Arxac dərəsi ... 95
Armud piri ... 96
Armudlu dağ, Armudlu dərə, Armudlu düz ... 96
Armudlu güz ... 97
Arpaçı günbəzi, arpaçı təpəsi ... 97
Arşi yaşayış məntəqəsi ... 98
Aşağı çaydərə çeşməsi ... 98
Aşağı kəhriz ... 98
Aşağı Maralyan kəndi ... 99
Aşağı Məzrə kəndi ... 101
Aşağı Sirik kəndi ... 101
Aşıq Qurbani piri ... 102
Aşıq Məlikli kəndi ... 102
Aşıq Məmməd bağı ... 103
At çapılan yal ... 103
At ağılı dərəsi, At piri dərəsi, At piri dərəsi ayağı ... 103
Avdal bulaq ... 104
Ay bulağı ... 104
Ayaqyalın dağ diki ... 105
Ayaz görməz dərə ... 106
Aybəniz özünü atan qaya ... 106
Ayı bulağı ... 106
Ayı dağı, Ayı qayası ... 107

Ayı ölən yamac ... 107
Ayıbasanlı yaşayış məntəqəsi ... 108
Ayna dərəsi ... 108
Aynalı bulaq ... 108

~~B~~

Babaşın kühülü ... 109
Bala çökək, Böyük çökək ... 109
Bala düz – Böyük düz ... 109
Bala kəhriz ... 110
Balaca Qarovultəpə, Böyük Qarovultəpə, Balaca Qaraquzey, Böyük Qaraquzey.. 110
Ballı qaya ... 111
Balyand kəndi ... 111
Baş kəhriz ... 112
Başçinar dərəsi ... 113
Başgöz dərəsi ... 113
Başıkəsik dağdağan piri ... 113
Başıkəsik günbəz ... 114
Bayquşlu dərə ağzı ... 114
Bayramlı təpəsi ... 114
Bədəl bağı ... 115
Bəydilli arxı, Bəydili eli, Bəydili yeri ... 115
Binə yaşayış məntəqəsi ... 116
Bozat ölən dərə ... 117
Böyük dik ... 117
Böyük düz ... 117
Böyük Mərcanlı kəndi ... 118
Böyük Mərcanlı obası ... 119
Böyük övliya Şıx Hacı Qasım Çələbinin hasarı ... 123
Böyük Şıx Hacı Alı Çələbinin qəbri ... 123
Bulaq ocaqları ... 123
Bulaqlı dərə ... 124
Bulul (Bülül) çeşməsi ... 124
Burun zəmi taxtası ... 124
Büllur kəhriz ... 125

~~C~~

Cabbar bulağı ... 126
Camal kəhrizi ... 126





Camalxan təpəsi ... 127
Camış dərəsi ... 127
Camışbatan göl ... 127
Canqu yalı ... 128
Canqulu kurqanı ... 128
Ceyran bulağı ... 128
Ceyran düzü, Ceyrançöl, Ceyrantəpə ... 129
Cəbrayıl - Ata piri ... 130
Cəbrayıl bağı ... 131
Cəbrayıl eli ... 131
Cəbrayıl qəzası ... 138
Cəbrayıl rayonu ... 139
Cəbrayıl şəhəri ... 143
Cəbrayıldağ qaşı ... 145
Cəfərabad kəndi ... 145
Cıdır düzü ... 146
Cıllır yataq ... 147
Cır demilər ... 147
Cin dərəsi ... 148
Cingir nənə (Cingir bulaq) piri ... 149
Cinqir bulaq ... 150

~~Ç~~

Çaharlı dağı ... 151
Çaxırlı kəndi ... 151
Çaxırlı yolu ... 152
Çaxmaq çaylağı ... 153
Çaxmaq dərəsi ... 154
Çaxmaqçay, Çaxmaqdərə, Çaxmaqtəpə ... 154
Çaxmaqçöl ... 155
Çapalan dağı ... 155
Çapand arxı ... 156
Çapand kəndi ... 156
Çardaqlı yurdu ... 156
Çarıx güneyi ... 157
Çaylaqçay ... 157
Çaytumas kəndi ... 158
Çələbi damı ... 158
Çələbi qəbri ... 158
Çələbi meydanı ... 159
Çələbi nişangahı ... 159

Çələbibabanın çevirməsi ....... 159
Çələbiəkən tap ....... 160
Çələbilər kəhrizi ....... 160
Çələbilər kəndi ....... 161
Çələbilər məscid-mədrəsəsi ....... 162
Çələbilərin çevirməsi ....... 162
Çələbinin məqam yeri ....... 163
Çəltik yeri ....... 163
Çəpik ata ....... 164
Çərəkən bağı ....... 164
Çərəkən çayı ....... 165
Çərəkən kəndi ....... 165
Çətəndaş (Çataldaş) dağı ....... 166
Çılpağın yalı ....... 167
Çınqıllı yamac ....... 167
Çinar bulağı ....... 167
Çinar kəhrizi ....... 168
Çinar piri ....... 168
Çinarlı çeşmə ....... 169
Çinarlı dərə ....... 169
Çinarlı kəhrizi ....... 170
Çocuq Mərcanlı kəndi ....... 170
Çuxur Tumas dağı ....... 171
Çullu kəndi, Çullu dağı, Çullu dərəsi, Çullu quzey ....... 171
Çullu obası ....... 174
Çürük daşın dərəsi ....... 174

~~D~~

Dağ Maşanlı kəndi ....... 175
Dağ Tumas kəndi ....... 175
Dağ Tumas zirvəsi ....... 177
Dağdağan ağacı piri ....... 177
Dağdağan ocağı ....... 179
Dağdağan piri ....... 179
Dağdağanlı düz ....... 180
Dağmaşanlı kəndi ....... 181
Dağtumas yatağı ....... 182
Dairəvi türbə ....... 182
Dalaq daşı ....... 182
Dar təpəsi ....... 183
Darıdağ ....... 183





Daş bulaq ....... 184
Daş piri ....... 184
Daşkəsən dağı ....... 184
Daşkəsən kəndi ....... 185
Daşlı çuxur ....... 186
Daşlı yoxuş ....... 186
Daşveysəlli kəndi ....... 186
Dəcəl kəhrizi ....... 187
Dəcəl kəndi ....... 188
Dəcəlli diki ....... 189
Dəhnələr ....... 189
Dəli yarğan ....... 190
Dəlidağ ....... 190
Dəlik daş ....... 190
Dəlikdaş ....... 191
Dəliqaya ....... 191
Dəmşalaq ....... 192
Dərvişpirim ....... 192
Dərzili kəndi ....... 192
Dərzili piri ....... 193
Dəvə ölən dərə, Dəvəbatan dərə ....... 194
Dəvəbatan göl ....... 194
Dəvədaban dağı, dərəsi, təpəsi, çölü ....... 195
Dəvəölən ....... 195
Dəvəsurçan ....... 195
Dəyirman arxı ....... 196
Dəyirman dərəsi ....... 196
Dəyirman yalı ....... 197
Dəymədərə ....... 197
Dik daş ....... 197
Dik qaya ....... 198
Diri bulaq ....... 198
Diri kəndi, Diridağ ....... 199
Dirili Qurbaninin qəbri ....... 202
Dirili Surxayın dəyirmanı ....... 202
Div arx ....... 203
Div dərəsi ....... 204
Divanə - Maqsud ocağı ....... 204
Divlər dərəsi ....... 205
Divlər mağarası, Divlər sarayı ....... 205
Dizaq mahalı ....... 206
Dizaq məlikliyi ....... 208

Dizaq-cəbrayıllı mahalı....209
Dolanlarçay....209
Dolayı bulaq....210
Donuz dərəsi....210
Dostluq bulağı....211
Doşulu kəndi....211
Dovşan bulağı....212
Düldül ocağı....212
Düldül piri....212
Düldül rəddi....213
Dünyamalı bulağı....213

~~E~~

Eminli bulağı....214
Erikhat dərəsi....214
Eşşək kovu....214
Eyvatlı obası....215

~~Ə~~

Əbdül Əli türbəsi....216
Əfəndilər kəndi....216
Əhməd bulağı....217
Əhməd dərəsi....217
Əhmədli eli....218
Əhmədölən təpə....219
Əhmədüçan qayası....219
Əkərək tapı....220
Ələmdarlar piri....220
Əli Çələbinin yuat yeri....221
Əmidığ piri....221
Əmiraslan bulağı....221
Əmiraslan tapı....222
Əmirvarlı dərəsi....222
Əmirvarlı kəndi....222
Əncir piri....224
Əncirli dərə, Əncirli dərə ağzı, Əncirli döş....224
Ənsar bulağı....224
Ərəbyatağı sıra dağları....225
Ərəstə ocağı....226
Ərik piri....226





Əsgərxanlı kəndi....227
Əsgi dərə....227

~~F~~

Farmaştəpə....229
Fatimə Çələbinin heykəli....229
Fərman tapı....230
Fındıqlı çala....230
Fuğanlı çinarları....230
Fuqanlı kəndi....231

~~G~~

Gavur düzü....232
Gen dərə....232
Genyataq....232
Gəyən düzü, Gəyən çölü....233
Gilaslıq....234
Gordu baba....234
Govurarx....235
Gödəkburun....235
Göldərə....235
Göy atlı qəbri....235
Göycə dərəsi, Göydərə....236
Göyərçin Veysəlli kəndi....236
Göyərçinli dağ....237
Göyərçinli kəhrizi....238
Göytəpə nişangahı....239
Gur Mustafa piri....239
Gup - gup....239
Gül ocaq....240
Gülabi yatağı....240
Gülməmmədlilər dərəsi....241
Güloğlan yatağı....241
Gülyaz piri....242
Günbəz piri....242
Güney dağ....243
Güney yataq....243
Günəş Ata....244

~~H~~

Hacanur....245
Hacı Axund bağı....245
Hacı Ərəb Ziyarətgahı....245
Hacı Hüseynli Bağı....246
Hacı Xoşdan....246
Hacı Qaraman Piri....247
Hacı Məcnun Ocağı....253
Hacı Misirxan Dərəsi....254
Hacı Rəhim Ocağı....254
Hacı Seyid Babanın Çevirməsi....254
Hacıisaqlı kəndi....255
Hacılı çinarları....255
Hacılı kəndi....256
Hacılı tapı....256
Hacıməmmədli bulağı....257
Hacısanlı tut bağı....257
Hasanlı düzü....257
Hasanlı kanalı....257
Hasanlı kəndi....258
Hav yeri....258
Havuslu kəhrizi....258
Havuslu kəndi....259
Heydərqulu dağı....259
Heyva piri....260
Heyvalı dağ, Heyvalı dərə....260
Həmid bulağı....261
Hərəm bulağı....261
Hərəmilər ocağı....261
Həsən bulağı....261
Həsənqaydı kəndi....262
Həsənli düzü....262
Həsənli (Hasanlı) kəndi....263
Həvəzə nənə piri....263
Həzinin meşəsi....264
Horovlu kəndi....265
Hümbət kəhrizi....266
Hümbətli bulağı....266
Hüngüs yalı....267
Hüseyn Ağa kəhrizi....267
Hüseynalı zəmisi....268
Hüseynalılar düzü....268





Hüseynalılar kəndi....268
Hüseynbəy düzü....268
Hüseynbəylilərin yurd yeri....269

~~X~~

Xalvar dərəsi, Xalvar dərəsi ağzı....270
Xalvar kəhrizi....270
Xan bağı....271
Xan bağı kəhrizi....271
Xan bulağı....271
Xan çinar....272
Xanağabulaq kəndi....272
Xanəgah....272
Xanımağa qaçan tap....273
Xələf piri....274
Xələfli gölü....274
Xələfli kəndi....274
Xələfli qəsəbəsi (stansiya Xələfli kəndi)....277
Xəlifə kəhrizi....278
Xəlifə Qürbət qəbri....278
Xəstə bulaq....279
Xəstə kəhriz....279
Xəznədar yeri....279
Xırda-Para Dizaq mahalı....280
Xırxa ocağı....281
Xırman yeri....282
Xırmanın yalı, Xırmanmərək yalı....282
Xor-xor bulağı....283
Xubyarlı kəndi....283
Xubyarlı türbəsi....284
Xudafərin kəndi....284
Xudafərin körpüsü....284
Xudaverdili dağı....288
Xudaverdili kəndi....288
Xudayarlı (Xudafərin) kəndi....289
Xudayarlı türbəsi....289

~~İ~~

İbici çeşməsi, ibici quzeyi....291
İlannıca dağı....291

İmam yalı ... 292
İmambağı kəndi ... 292
İmaməli kəhrizi ... 292
İmanqulu təpəsi ... 293
İmmi ocağı ... 293
İmrəli dərəsi ... 294
İnamlı ocağı ... 294
İncə dərəsi ... 295
İncə kəhrizi ... 295
İncəçay, incəçay dərəsi ... 296
İncəçöl düzü ... 297
İncir ocağı ... 297
İncir piri ... 298
İncirli kəhrizi ... 298
İncirli pir ... 298
İsa bağı ... 299
İsa biçənəyi ... 299
İsağın bağı ... 300
İsaqlı kəndi ... 300
İsbiri ocağı ... 300
İsbirli piri ... 301
İslam bulağı ... 301
İsmayılölən yer ... 301
İsmilli dərəsi ... 302
İsrafil ağanın bağı ... 302
İt ölən dərə ... 302
İydəli piri ... 303

~~K~~

Kaftar yamacı ... 304
Kaha bulağı ... 304
Kalafalı dərə ... 304
Kalafalıq ... 305
Kamilxan bulağı ... 305
Kar daş ... 305
Karxulu kəndi ... 306
Kasa bulaq ... 306
Kavdar gölü ... 307
Kavdar kəndi ... 307
Kavdar yatağı ... 308
Keçəl Məmmədli kəndi, Keçəl Məmmədli tapı ... 308





Keçəl təpə ... 309
Keçmiş qaradərə kəndi ... 310
Kəhriz bağı ... 310
Kəhrizin üstü ... 310
Kəklik qaya, kəklik qayasının döşü ... 311
Kəl dərəsi ... 312
Kəlbatan ... 312
Kəmər qaya ... 312
Kəmər qoşmar piri ... 312
Kəmərbəndli ... 313
Kəmərələr ... 313
Kəpirli dərə ... 314
Kərbəlayı Həsən bağı ... 314
Kərim qışlağı ... 314
Kərpicli jildom ... 315
Kərtdəş yer ... 315
Kirişdik ... 315
Kirpik quzey ... 315
Kirpili yal ... 316
Kol ocağı ... 316
Kol piri ... 316
Kollu dərə ... 317
Koma yalı ... 317
Kor bulaq ... 318
Kora dərəsi ... 318
Kosa Qənbər piri ... 318
Koşdərə ... 319
Köhnə kəhriz ... 319
Köhnə qışlaq ... 320
Küfülyataq kəhrizi ... 320
Kürd dərəsi ... 321
Kürdlər bulağı ... 322
Kürdlər kəndi ... 322

~~Q~~

Qabaq düz ... 324
Qaçaq qəbri ... 324
Qala dağı ... 324
Qala yeri ... 325
Qalacıq dağı ... 325
Qalacıq kəndi ... 325

Qalaça dərəsi....327
Qalalılar məhəlləsi....327
Qamışlı bulağı....327
Qamışlı dərə ayağı....328
Qamışlıq....328
Qamqalaqlı təpə....329
Qanlı göl....329
Qara Baba piri....329
Qara bulaq....330
Qara daş....330
Qara Molla piri....330
Qara oyuq ocağı....331
Qaraağac dərəsi....331
Qaraağacbulaq....332
Qaraağaclı piri....332
Qarabağ....332
Qarabağ atları....334
Qarabağ bəylərbəyiliyi....335
Qarabağ düzü....336
Qarabağ elləri....339
Qarabağ xalçaları, Qarabağ kilimi....340
Qarabağ xanlığı....341
Qarabağ silsiləsi....342
Qarabağ şikəstəsi....343
Qaraburun dağı....343
Qaracallı kəndi....344
Qaradağ....345
Qaradaş düzü....346
Qaradərə....346
Qarağac dağı....347
Qarağac dərəsi....347
Qarağac kəndi....348
Qarağanlı sıra dağları, Qarağanlı dağ, Qarağanlı dərə, Qarağanlı taxta....348
Qaraqaşlı sıra dağları....349
Qaraqaşlı taxta, Quzu taxtası....350
Qaraqaya, Qaraqayanın qabağı....350
Qaraquzey....351
Qaraman....352
Qarar kəndi....352
Qarasu kəhrizi....353
Qaratikanlı dağ silsiləsi....353
Qaravul dağı, Qaravul dərəsi....354





Qarğulu dərəsi, Qarğulu örüşü, Qarğulu təpəsi....355
Qarqışlaq....355
Qarqışlaq piri....355
Qarnıyarıq piri....356
Qaryagin qəzası....357
Qasım nişangahı....357
Qaşıq bulaq....357
Qatar qaya....358
Qatır dərəsi....358
Qatır ölən dərə, Qatır uçan dərə....358
Qayaburnu kəhrizi....359
Qazanzəmi kəndi....360
Qədim Armud....362
Qəjər (Qacar) ocağı....362
Qəjim nənə ocağı....363
Qəhrəman yurdu....363
Qəmbər bağı....363
Qəndiyalı düzü....363
Qənşər təpə....364
Qərər piri....364
Qərəl....365
Qərib Ağanın qəbri....365
Qərib Seyid ocağı....365
Qılıçlı çölü....366
Qılıçlı (Qılışlı) kəhrizi....366
Qılıçlı yeri....367
Qılınclı düzü....367
Qıraxdın....367
Qırmızı təpə....369
Qırmızılar....369
Qısırmac....369
Qışlaq kəndi....370
Qız qalası....371
Qız qəbri....372
Qız Perxan ocağı....372
Qızboğan....373
Qızıl qaya qalası....373
Qızıl təpə....373
Qızılca piri....374
Qızılqaya....374
Qızlar piri....375
Qızlıq yurdu....375

Qiyasəddin türbəsi ....375
Qoşa bulaq ....376
Qoruqlar kəhrizi ....376
Qoşabulaq kəndi ....377
Qotur bulaq ....377
Qotur piri bulağı ....378
Qovşutlu (Qovşudlu) kəndi ....378
Qovşutlu təpəsi ....379
Qovşutlu yurdu ....379
Qozlu bulaq ....380
Qozlu bulaq kəhrizi ....380
Qozlu çalası ....381
Qozlu dərə ....381
Qozludağ, Qozludağ diki ....381
Qulu bulağı ....382
Qumlaq kəndi ....382
Qumlaq qəsəbəsi ....383
Qumlu təpə ....383
Qumtəpə kurqanı ....384
Qurban (Qurbani) bulağı ....384
Qurbanlı kəndi ....385
Qurbanlı piri ....385
Qurbantəpə kəndi ....387
Qurbantəpə piri ....387
Qurd yolu ....388
Qurdlu bulaq ....388
Qurdlu quzey ....389
Quru dərə, Quru düz, Quru çay ....389
Qurutdu bulağı ....390
Quruyan çay ....390
Quş təpəsi ....391
Quşçular bulağı ....391
Quşçular kəndi ....392
Quycaq kəndi ....394
Quzey bağı ....395
Quzey yataq ....396
Quzğunluq çayı ....396
Quzğunluqçay ....397

~~L~~

Lalə düzü ....398





Lələ dağı ....398
Lələ piri ....399
Lələ təpəsi, Lələ yaylağı ....399
Ləng Əhməd ....401

~~M~~

Mahmudlu kəndi ....402
Maxav bulağı ....403
Maqsud dərəsi ....403
Maraxanlı düzü ....404
Maral dağı ....404
Maral yeri ....404
Maral yoxuşu ....405
Maral zəmisi ....405
Maralbatan göl ....405
Maralyan gölü ....406
Maralyan kanalı ....406
Maralyan kəndi ....406
Mardarıx dərəsi ....407
Maşanlı kəndi ....407
Mazan nənə ocağı ....408
Mehdi bərəsi ....411
Mehdili kəndi ....411
Mehdili obası ....412
Mədət bağı ....413
Məhəmməd ocağı ....414
Məlik bulağı ....414
Məmmədalı bulağı ....414
Məmmədbəy kəhrizi ....415
Məmmədhüseyn məscidi ....415
Mərcanlı kanalı ....416
Mərcanlı kəndi ....416
Mərcanlı yatağı ....416
Mərənlik ....416
Mərmər piri ....417
Mərmərik piri ....417
Məscid təpəsi ....418
Məstalıbəyli kəndi ....418
Məzrə kəndi ....419
Məzrə yatağı ....419
Minbaşılı kəndi ....419

Miraq kəndi ....420
Miranşah yoxuşu ....421
Mirək gölü ....421
Mirək kəhrizi ....422
Mirənşə meşəsi ....422
Miri yatağı ....422
Mirim evinin ocağı, Mirim ocağı ....423
Mirin bulağı ....424
Mir Mustafa piri ....424
Mirzə suyu ....424
Mirzəcanlı ....425
Mirzəcanlı təpəsi ....425
Mirzəcanlı yatağı ....425
Molla Abbasqulunun qəbri ....425
Mollahəsənli kəndi ....426
Mollalı kəndi ....426
Moruqlu yer ....426
Mövlaqulu yeri ....427
Muncuqlu yal ....427
Muncuqtapılan yal ....428
Murad bulağı ....428
Murad burnu ....428
Musaəkən ....429
Mustafa körpüsü ....429
Müşkül-Ata qəbri ....429

~~N~~

Naxışlı yoxuş ....430
Nalbənd qayalı təpəsi ....430
Nalbənd təpəsi ....430
Narlı dərə, Narlı yoxuş ....431
Narlıq, Narlıq çeşməsi ....431
Nəbi qayası ....432
Nəcəfqulu bulağı ....432
Nəcəfqulu piri ....433
Nəfəsçıxan dağ ....433
Nəhət kəhrizi ....433
Nəhlətdəmə düzü ....434
Nərgiz piri ....434
Niftalılar kəndi ....435
Nişanlı qız qəbri ....435





Niyazqulular kəndi ....435
Novlu bulaq ....436
Nüsnüs kəndi ....436
Nüzgər kəndi ....437
Nüzgər təpəsi ....439

~~O~~

Ocaq təpəsi ....440
Ocaqqalanan ....440
Ovçu quyu ....440

~~P~~

Padardərə çayı ....441
Palçıqlı piri ....442
Pambıqlı yatağı ....442
Papaq daş ....442
Papı kəndi ....443
Papı yeri ....443
Paraca düzü ....444
Peyintökülən ....444
Pıçıldayançay ....445
Pir ardıc ....445
Pir dərəsi ....445
Pirabid qəbri ....446
Pirəsəd ....447
Pirəyataq ....447
Pirverdi kəhrizi ....448
Poçtun yalı ....448
Pörnək yeri ....449

~~R~~

Ramazanın qara damı ....450
Rəcəblər yeri ....450
Rəsul ziyarətgahı ....450
Rəzgə bağı, Rəzgə bulağı ....451
Rus düzü, Rus yurdu ....451

~~S~~

Sacdağ....452
Saqqız piri....452
Saqqızlı....453
Salahan baba piri....453
Saracıq yurd yeri....454
Sarı dərə....455
Sarı Mərmər nənə qəbri....455
Sarı ocaq ziyarətgahı....455
Sarı təpə....456
Sarıcalı kəndi....456
Sarıqaya, Sarıdərə, Sarıyal, Sarıyol enən dərə, Sarı Əhməd qışlağı....458
Sarıyoxuş....459
Sayad təpəsi....459
Selov yer....460
Seyid Fərzəlinin qəbri....460
Seyid qəbirləri....460
Seyid Rza qəbri....461
Səadət bulağı....461
Sədi kəndi....461
Səfər bulağı....462
Səfərşa gölü....462
Səfərşa kəndi....462
Səfillər kəhrizi....463
Səkkizguşəli türbə....464
Sələmə dərəsi....464
Səmənd atın nişangahı....464
Sənəm qəbri....465
Səngər yalı....465
Səngərək....465
Sibir dərəsi....466
Siklop tikintisi....466
Sirik kəndi....466
Sirli təpə....469
Sofi Yusif ocağı....469
Sofiya nənənin yuat yeri....471
Sofulu kəndi....471
Sofulu qışlağı....472
Solaxay arx....472
Solaxay bərəsi....473
Soltan baba türbəsi....473
Soltan hamamı....473
Soltanqulu ocağı....474





Soltanlı bağları....474
Soltanlı kəndi....474
Söyüdlü dağ, Söyüdlü dərə....476
Söyüdlü kəndi....476
Stansı Mahmudlu kəndi....477
Stansiya Xələfli kəndi....477
Suat dərəsi....478
Sulu kəhriz....478
Surun güneyi....479
Susdalıq piri....479
Sutökülən dərə....480
Süleyman bulağı....480
Süleyman çalası....480
Süleyman qalası....481
Süleymanlı kəndi....481
Süleymanlı qayası....482

~~Ş~~

Şah pir....483
Şahmar dərəsi....483
Şahverdi kəhrizi....484
Şahvələdli kəndi....484
Şahvəlili kəndi....485
Şahvəlli gölü....486
Şaqqıldaqlıq....486
Şam bulaq....486
Şeyid daşı....487
Şeyidlər....487
Şeytan yeri....487
Şəfli yeri....488
Şəhərcik....488
Şəhid göl....488
Şəhrəbanu ocağı....488
Şəkərxatun bulağı....489
Şər dərəsi....489
Şərbətalı ocağı....489
Şərəf yaylağı....490
Şərif bulağı....490
Şərif təpəsi....491
Şəvidli bərəyi....491
Şəybəy kəndi....491

Şıx Ata ....492
Şıx Baba piri ....492
Şıx Camal piri ....493
Şıx çinarı ....494
Şıx Əfəndi nişangahı ....494
Şıx Əzəddin ocağı ....495
Şıx İbrahim qəbri ....495
Şıx kəhrizi ....495
Şıx Mustafa təpəsi ....496
Şıx Sədi piri ....496
Şıx Vəliyəddinin yuat yeri ....497
Şıxalıağalı kəndi ....497
Şıxı kəhrizi ....498
Şıxlar kəndi ....498
Şıxlar türbəsi ....501
Şır-şır bulağı ....501
Şırnaq yeri ....502
Şırşırlı dərə ....502
Şirinin bağı ....502
Şirvan bulağı ....503
Şirvan qəbiristanlığı ....503
Şiş qaya ....504
Şor bulaq ....504
Şorakət düzü ....505
Şükür dərəsi ....505
Şükür ocağı piri ....505
Şükürbəyli kəndi ....506
Şükürbəyli təpəsi ....507
Şükürün meşəsi ....507
Şükürvurulan yer ....507

~~T~~

Tağı yataq dağı ....509
Tahir bulağı ....509
Tanrıverdi bulağı ....509
Tapan yeri ....509
Tapança yeri ....511
Tatar çayı ....511
Tatar dərəsi, Tatar düzü ....511
Tatar kəndi ....513
Tejdər dağı ....514





Tey bulağı ....514
Tey dağı, Tey düzü, Teyfə tapı ....514
Teymur Quliyev kanalı ....515
Təhməz dərəsi ....516
Təkardıc təpəsi ....516
Təknur ....516
Təktüklü dağı ....517
Tələbə yeri ....517
Tələqurulan ....517
Təndirli burun ....518
Təpəgöz qalası ....518
Təzəkənd ....518
Tinli kəhrizi ....518
Tinli kəndi ....519
Top daş ....519
Topcaq düzü ....520
Topurquluq ....520
Torağay dağı, Torağay təpəsi ....521
Tozaran düzü ....521
Tövərə kəhrizi ....522
Tövrədərə ağılı ....522
Tulus kəndi ....523
Tuluslu dağ ....524
Tumas - Ata ziyarətgahı ....524
Tumas bağı ....525
Tumas bulağı ....525
Tumas qayası ....526
Tumaslı dağı ....526
Tutqu yeri ....526
Tutlu bağ ....527
Tutu qalası ....527
Tülkü dərəsi ....528

~~U~~

Ulaslı dərə ....529
Uşaq qəbri ....529
Uşaq piri ....529

~~Ü~~

Üçağac dağı, Üçbarmaq təpəsi, Üçtəpə ....531

Üçqardaş dağı ... 531
Üçqardaş piri ... 531
Ümürlü düzü ... 532
Üryan xıdır qalası ... 532
Üzərlikli dərə ... 533
Üzərlikli təpə ... 534

~~V~~

Vəli qəbri ... 535
Vəli piri ... 535
Vəlixanov bulağı ... 536

~~Y~~

Yaxın pir ... 537
Yal zəmi ... 537
Yalaşan piri ... 537
Yalavlıq ... 538
Yaldakı pir ... 538
Yaloba ... 539
Yanarxac gölü ... 539
Yanarxac kəndi ... 539
Yarəhmədli dərəsi ... 540
Yarəhmədli kəndi ... 540
Yarğan dağı ... 541
Yasin bulağı ... 541
Yasin Çələbi ocağı ... 542
Yastı çaxmaq daşı ... 542
Yaylağabaxan ... 542
Yazdağ düzü ... 543
Yazı çölü ... 543
Yazılı daş ... 544
Yeddilər piri ... 544
Yel quyusu ... 544
Yel piri ... 545
Yemişan piri ... 546
Yenikənd ... 547
Yolaşan piri ... 547
Yovşanlı dərə ... 548
Yovşanlı yal ... 548
Yuxarı kəhriz ... 549





Yuxarı Maralyan kəndi ... 549
Yuxarı Mərcanlı kəndi ... 551
Yuxarı Məzrə kəndi ... 551
Yuxarı Nüsnüs kəndi ... 552
Yumrutəpə ... 553
Yurd yeri ... 554
Yuyat (Yuat) pirləri ... 554

~~Z~~

Zaman piri ... 555
Zərli dərələr ... 555
Ziyadxan piri ... 556
Ziyarət dağı, Ziyarət məbədi ... 556
Zoğallı bulaq ... 557
Zoğallı dərə ... 557
Zolaqlar ... 558
Zunqur bağçası ... 558

***

Bəzi xronologiya ... 559
Cəbrayıl rayonunun bəzi yaşlı sakinləri ... 570
I Dünya Müharibəsinə könüllü yazılan cəbrayıllılar ... 571
Cəbrayıl rayonu üzrə Çernobıl əlilləri ... 572
Cəbrayıl rayonu üzrə Əfqanıstan müharibəsinin iştirakçıları ... 573
Qarabağ müharibəsində Cəbrayıl rayonu üzrə şəhid və itkinlərin ümumi siyahısı ... 574
İstifadə olunmuş ədəbiyyat ... 588

***Baş məsləhətçi:*** Etibar Məmmədli
***Redaktor:*** Sabir Səfərov
***Məsləhətçi:*** Orxan İsayev
***Bədii redaktor:*** Lətafət Orucqızı
***Operator:*** Səbuhi Mehdiyev
***Texniki redaktor:*** Şamo Nərimanoğlu
***Dizayner:*** Fariz Məhərrəmov
***Korrektor:*** Araz Vəlişov

Təknur

~~~~~~~~~~~~~~~~~~~~~~

Yığılmağa verilmiş: 11.10.2013.
Çapa imzalanmışdır: 27.11.2013.
Formatı: 70x100 $^{1/16}$. Həcmi: 39 ç.v.
Sifariş 44. Tiraj 300.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya
və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

~~~~~~~~~~~~~~~~~~~~~~

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~

Ünvan: Bakı ş., Qanlı Gölün Qərb sahili, 125
Telefon: 408-18-30.

Müəlliflə əlaqə telefonu: (050), (055) 513 68 88